ÖN SÖZ

İMAM HÜSEYNİN (Ə) QƏLB YANDIRAN MÜSİBƏTİNİN ZİKRİNDƏ

Yaşadığın bu nəfəsdə son azuqəni götür.

Həmd və səna Allahın müqəddəs Zatına məxsusdur. Allahın sonu olmayan salamı olsun müqəddəs dərgahın seçilmişlərinə, xüsusən məxluqatın və Adəm övladlarının ən şərəflisinə Muhəmməd Mustafaya (Allahın salamı olsun ona və pak Əhli-beytinə (ə)). Muhəmməd (s) və onun ismətli Əhli-beyti (ə) hidayət yolu və qiyamət gününün şəfaətçiləridirlər.

Allahın həqir bəndəsi Cəfər ibn Hüseyn Şüştəri deyir:

"Gördüm cavanlıq dövrüm keçdi, qocalıq günlərim yetişdi, bədənimin əzaları zəifləməyə başladı, ömrümdən 60 il ötdü, amma bu həyatda nə bir şey hasil etdim, nə də bir fayda gördüm. Düşündüm ki, həmin bu vəziyyətdə dünyamı dəyişəcəm, öz qafil və günahkar nəfsimə xitab edib dedim:

"Vay olsun sənə, nə qədər qafilsən. Cavanlıq baharın küskün payıza dönüb. Əkin zamanı bir toxum da səpmədin, məhsul da yığmadın. Heç olmasa ömründən qalan bu iki günün qiymətini dərk elə. Öz məhsuldar ömür torpağını tələf etdin, buna görə də qalan bu qısa müddətdə əbədiyyət toxumu əkməyə tələs. Ömrünün sərmayəsini əldən verdin, qalan bu cüzi nemətin qədrini bil.

Gördüm qafil nəfsim qulağına pambıq tıxayıb, heç olmasa bu sədadan huşa gəlmir. Naçar qalıb uca səslə qışqırdım: "Ey azuqəsi olmayan müsafir, karvandan geri qalacaqsan! Nə əkmisən? Biçim günü yaxınlaşır! Ey zəmanənin məğrur taciri, ey özünə zülm edən biganə! Sən həmin o quşsan ki, ölüm ovçusu sənin pusqunda gizlənib, minlərlə bəla səni gözləyir. Qiyamətin dəhşətini düşün, Allah sənə nəzarət edir."

Yenə də mənim bu nidam o yuxuya getmiş nəfsə təsir etmədi. Yaxınlaşıb onu tərpətdim; Oyan, sıldırımlı dağ keçidi çox təhlükəlidir. Sən onu ayaqyalın və piyada keçməlisən, yatmaq vaxtı deyil! Qarşıda çox qorxulu mənzillər var, vəziyyətin ağırdır, bir az hərəkət elə, tələs. Nə vaxtadək batilə batacaqsan, tənbəl olacaqsan? Gözlərini aç və bax! Qabaqda qaranlıq günlərin, dar yolun var. Qulaqlarını aç, Əmirəl-möminin (ə) bu kəlamını eşit, o buyurur: *"Ey saçları ağarmış qoca, atəşdən olan boyunduruqlar boynunun sümüyünə yapışanda halın necə olacaq, ağır qandallar qollarının ətinə girəndə nə edəcəksən?"*[1]

Yenə də nəfsim bu sədadan və nidadan hərəkətə gəlmədi. Elə güman etdim ki, o ölübdür. Onun halına yandım, nalə etdim. Əziz və qiymətli ömrümü bada verdiyimdən növhə dedim:

Tamam ömrün günahla keçdi,
Günah yükü ilə qamətin əyildi.

Üzün qara ikən saçın ağardı,
Bu halda ölüm qasidi səni çağırdı.

Gördüm bir az nəfəs çəkdi, onun hələ diri olduğuna çox sevindim. Yumşaq tərzdə ona dedim: Özünə yazığın gəlsin, öz dadına yetiş. Axırıncı nəfəsində özün üçün azuqə topla, bu fürsəti qənimət bil. Əcəl gəlməmiş, ölüm sinənə çökməmiş və tövbə qapıları bağlanmamış özünə nicat ver. Bu qədər səmavi kitablar və mürsəl peyğəmbərlər gəldilər, hamısı səni bu azğın yoldan qorxutdular, çəkindirdilər, məgər sənə kifayət eləmədi? Elə güman edirsən ki, bütün bu asiman, yer və onların arasında olanlar, hamısı əbəs yerə yaranıblar? Cəza və intiqam günü yoxdur? Belə yəqin sənin üçün haradan hasil olubdur? Nicat tapanların cərgəsində olduğuna belə arxayınsan? Nəfsim bu sözlərin ağır ahəngini eşidəndə bir qədər hərəkətə gəlib, diqqət verdi. Onu kamillik və xilas axtarmağa təşviq etmək üçün xof və ümid səbəblərini quşun iki qanadı misli kimi, onun diqqət nəzərinə çəkdim.

[1] Nəhcül bəlağə. 182-ci xütbə

XOF VƏ ÜMİDİN SƏBƏBLƏRİ

Əvvəl xofun səbəbi: Gördüm ki, əməllərin qəbulu və qiyamətin dəhşətli hallarından nicat tamamilə iman üzərində bərqərar olubdur. Özümdə bu imandan heç bir əsər-əlamət tapmadım; nə kamilindən, nə də naqisindən, hətta onun ən aşağı dərəcəsi olan belə bir halətdən ki, insan bir günah edən zaman halı pərişan olar. O ki, qalmışdı onun ali dərəcəsindən ki, insan Allahı zikr edən zaman ölümə müşərrəf olsun. Həmçinin, özümdə imanın qəlb və bədən əzaları arasında bölüşdürülən cüzvlərini görmədim (nə qəlbimdə aramlıq və arxayınlıq nə də əzalarımda Allah rizasına müvafiq bir hərəkət görmədim).

İmanın əsərlərindən olan gözəl əxlaqa nəzər yetirdim, özümdə onun ziddini gördüm. Sonra baxdım saleh əməllərə, onların qəbul olunma şərtlərinin ömrüm boyu hasil etmədiyimin şahidi oldum.

Xofun şiddətindən az qaldı məyusluq və düşkünlük halətinə qərq olum. Buna bir carə axtarmağa başladım.

İkinci halət ümidlə bağlıdır: Nəzərimi ilahi fəzilətlərə tərəf yönəltdim və özümü həzrət Rəsulun (s) ümmətindən, Əlinin (ə) şiələrindən və Əhli-beyti (ə) sevənlərdən gördüm.

Onları Allahın möhkəm ipi, sirati-müstəqimi və məxluqatın pənah qapısı, nicat gəmisi və qiyamətin şəfaətçiləri bildiyim üçün Allahın rəhmətinə ümidvar oldum.

Sonra üçüncü halət mənə üz verdi. Məlumdur ki, Peyğəmbər (s) ümmətinin və onun vəsisinin (ə) şiələrinin əlaməti vardır. Özüm-özümdən soruşdum: "Peyğəmbərin (s) ümmətindən və Əliyə (ə) tabe olduğundan səndə nə nişanə var?"

Məhəbbətin əlamətləri vardır, bəs səndə hansı əlamət zahir olubdur? Şiəlikdən və məhəbbətdən özümdə bir nişanə və əlamət görməyəndə qorxudan bədənim lərzəyə gəldi və yenə də məyusluq və düşkünlük uçurumuna yuvarlanmaq təhlükəsi yarandı.

Dördüncü halətə pənah apardım: İlahi vasitələrə tərəf diqqətlə nəzər yetirdim, gördüm ki, həzrət Seyyidi-şühədaya (ə) aid olan vasitələr daha çox və daha asan, daha kamil və şərəflidir. Şərtləri nisbətən az, mənfəəti daha əhatəlidir. Hərçənd, bu İlahi vasitələr hamısı vahid nurdan olsalar da, O həzrətdə (ə) olan xüsusiyyətlər digər vasitələrdə yoxdur.

Həmin xüsusiyyətlər budur ki, o həzrət (ə) behişt qapılarından bir qapıdır, nicat gəmisidir və hidayət çırağıdır. Doğrudur o həzrətin (ə) əzəmətli babaları və kəramətli övladları da cənnətin qapıları, nicat gəmiləridirlər, ancaq o həzrətin (ə) qapısı daha geniş və gəmisi sahilə daha yaxındır onun nuru ilə işıqlanmaq daha asandır. Onların hamısı məxluqatın pənah yeridir, lakin o cənabın (ə) pənahı və sığınacağı daha asan və əhatə dairəsi daha genişdir.

ÖZ İMANIMA ÜMİDVAR OLDUM

Beləliklə, nəfsimə xitab edib, dedim: "Qalx, daxil ol bu dərgaha ki, amanda olasan, bu gəmiyə min ki, sahilə çatasan, bu nura bax ki, yolu tapasan!" Qəti qərarım həmin bu oldu.

Düzgün seçim etdiyimə görə imanın əlamətlərini bu istiqamətdə tapdım və bir neçə cəhətdən öz imanıma ümidvar oldum:

Birinci: O həzrətdən (ə) rəvayət olunur ki, "Mən göz yaşlarına görə öldürülmüşəm", yəni elə bir mömin yoxdur ki, onun yanında yad edildiyim zaman ağlamasın və qüssələnməsin."[1] Tamam Peyğəmbərlərdə bu sifət olmuşdur və mən bu haləti özümdə də gördüm. Buna görə, öz imanıma ümidvar oldum ki, cəhənnəmdə əbədi qalmaqdan xilas olmağım üçün ən azından zərrə qədər də olsa nicat verənim var.

İkinci: Aşura günləri özümü biixtiyar qəm-qüssəli hiss edirdim, bu da pak imamların (ə) sifətlərindən idi. Beləliklə, onların vilayətindən özümdə bir əlamət tapdığıma ümidvar oldum.

---

[1] Biharul-ənvar 44-cü cild. Səh.284

Necə ki, bəzi rəvayətlərdə gəlir: "Şiələrimiz bizim torpağımızın qalıqlarından yaranıblar və xəmirləri bizim vilayətimizin nuru ilə yoğrulubdur. Buna görə, bizim müsibətimiz onların müsibətidir."

Bir çox hədislərdə deyilir ki, hidayət imamları (ə) məhərrəm günlərində qəm-qüssəli olurdular və həzrət Sadiqi (ə) belə günlərdə heç kəs gülərüz görmədi.[1]

Həzrət Rza (ə) məhərrəmin birinci on günlüyündə hüznlü və pərişan halda olardı, əza məclislərində oturardı və öz əyalını pərdə arxasında oturdardı. Onların evinə gələn, əgər mərsiyə əhli olsaydı ona mərsiyə oxumağı əmr buyurardı, məşhur Dəbəl Xəzainin əhvalatında olduğu kimi.[2] Mərsiyə əhli olmayanda isə özü o həzrətin (ə) müsibətini zikr edərdi.

Rəyyan ibn Şəbibin rəvayətində deyilir; "Məhərrəm ayının birinci günü o həzrətin (ə) hüzuruna daxil oldum." Həzrət (ə) buyurdu: "Ey Şəbibin oğlu, bir şeyə ağlamaq istəyəndə Hüseynə (ə) ağla ki, onun başını köməksiz və təşnə olan halda kəsdilər və o onunla (ə) bərabər onun Əhli-beytindən 18 nəfəri oldürdülər."[3]

Digər imamların (ə) da rəftarı belə idi.

Beləliklə, aydın olur ki, məhərrəm ayının əvvəlində qəlbin qüssələnməsi və kədərlənməsi o müqəddəslərə olan mənəvi bağlılığın əlamətidir və bu bağlılığın fərqliliyi ilə imanın mərtəbələri müxtəlif olur. Həmçinin həmin bağlılığın olmaması, yaxud onun ziddinin ariz olması ilə imanın olmamasına və imamlarla (ə) düşmənçiliyə dəlil gətirmək olar. Necə ki, bəzi müxalif ölkələrdə həmin matəm günlərində şadlıq keçirib, əylənərlər. (Allah onları hər iki aləmdə xar və zəlil etsin).

---

[1] Bihar 44-cü cild səh.280.
[2] Şeyx Mufid "İrşad" 2-ci cild səh. 255.
[3] Bihar. 44-cü cild səh. 286.

KƏRBƏLA TORPAĞINA VARİD OLAN ZAMAN

Üçüncü: Kərbəla torpağına varid olarkən və onu müşahidə edərkən, o möhnət və bəla ilə dolu diyarı seyr etdiyim zaman qəlbimdə qüssə-kədər gördüm. Bu sifət Əmir-əlmöminin (ə) sifətlərindəndir.[1] Həmçinin rəvayətlərdə nəql olunduğu kimi həzrət Zeynəbi-kübranın (ə) hallarındandır.

O cənabın (ə) qəbrinin və ayağının altında dəfn olunan əziz övladının qəbrini ziyarət edərkən hüznlü, qəm-qüssəli halət almışdım. Bu da bəzi rəvayətlərdə varid olduğu kimi iman əlamətlərindəndir.[2]

Dördüncü: O həzrətin (ə) pak türbətini iyləyən zaman gözlərim yaşla doldu və bu, o həzrətin (ə) özünün və cəddi Seyyidülkainatın (s) sifətlərindən idi. Sonrakı fəsildə bu barədə söhbət edəcəyik.

Həmçinin saleh əməllərdən olan namaz, oruc və qeyrilərinin özümə nisbət olanların qəbul olunma şərtlərini tapmadım, ancaq o həzrətə (ə) həqiqətən ağladığımı və ağlatdığımı hiss etdim, ən azından özümü ağlamağa vadar etməyimə yəqinim var idi. Buna görə, bu hədisin – "Ağlayana, ağladana və özünü ağlamağa vadar edənə cənnət vacib olar"[3], – halıma şamil olduğuna arxayın oldum.

Beləliklə, ümidim möhkəm və qəlbim arxayın olandan sonra beşinci halətə düşdüm: Tutaq ki, özündə cüzvi qədər iman tapdın və cəhənnəmdə əbədi qalmaqdan xilas oldun, bəs bərzəxin, qəbrin əzabından və həşr gününün zərərlərindən necə qurtulacaqsan? Sən ki, dünyanın azacıq ağrılarına və çətinliklərinə tab gətirə bilmirsən, hətta nemətin davamiyyətindən belə qüssələnirsən ziyanlara necə dözəcəksən? Ola bilər bu zəif imanın, sənə üz verən

---

[1] Əmaliyi Səduq Səh. 478.
[2] Bihar 98-ci cild Səh. 73. Kamiluz-ziyarət 108-ci fəsil
[3] Bihar 44/288.

bəlalar, ağrılar və şeytanın vəsvəsələri ilə aradan getdi, o zaman nə edəcəksən?

Qəlbimi xof və iztirab bürüdü; altıncı halət aldım, düşündüm ki, Hüseyniyyə vasitələri arasında imanın güclənməsinə və sabit qalmasına səbəb olan bir vasitə vardır, o da o həzrətin (ə) ziyarətidir. Rəvayətlərə əsasən, həmin ziyarət ərşdə Allahı ziyarət etmək mislindədir.[1] Əlbəttə bu kamil möminlərə məxsus olan Allaha yaxınlığın zirvə nöqtəsindən bir kinayədir. Bu kinayə imanları sabit olmayan və hidayətdən sonra yollarını azan kəslərə aid deyil. Buradan məlum olur ki, o həzrətin (ə) ziyarəti imanın kamal səbəblərindəndir.

Həmin mövzuda varid olan rəvayətlərdə gəlir ki, zəvvar ziyarətdən qayıtmaq istəyəndə bir mələk onun yanına gəlib, deyər: "Rəbbin sənə salam göndərir və buyurur ki; "Əməllərini təzədən başlayasan, çünki keçmiş günahlarının hamısı bağışlandı." [2]

Beləliklə, Allah-taala ona salam göndərirsə, təbii ki, onu küfr və nifaqdan hifz edəcəkdir. Buna görə, qəlbim arxayın və sakin oldu.

Yenə də yeddinci halət məni qorxuya saldı; Belə ki, zikr etdiklərin bu əməllər gözəldirlər lakin, ola bilər günahların bu gözəl əməllərin hamısını batil eləsin.

Yenə də iztirab içində səkkizinci halətə keçdim, pənah gətirdim Allaha ki, əməllərin batil olması bu əməlləri yerinə yetirənin öz əməllərinə aiddir. Hüseyniyyə vəsilələrində insanın öz əməli olmayan, ancaq savabı, onun üçün yazılan əməl var və bir halda ki, onun öz əməli deyilsə, deməli batil də olmayacaqdır. Belə ki, o həzrətin (ə) ziyarətinin fəzilətləri barədə rəvayət olunur ki, Hüseynin (ə) zəvvarı üçün Peyğəmbərin (s) həccindən bir ya daha çox həcc savabı yazılır. Məlum məsələdir ki, Peyğəmbərin (s) həcci zəvvarın öz əməli deyil ki, batil də olsun və əlbəttə Peyğəmbərin (s) həcci qəbul olunan həccdir.

---

[1] Bihar 98/77; Kamiluz-ziyarət 59-cu fəsil səh 149

[2] Təhzib 6/43; Vəsail 10/342

HÜSEYN (Ə) PEYĞƏMBƏRİN (S) QUCAĞINDA

İnsanı heyrət içində qoyan rəvayətlərdən biri də imam Sadiqdən (ə) nəql olunur ki, buyurur: "Bir gün Peyğəmbər (s) Hüseyni (ə) qucağına alıb nəvaziş göstərirdi. Aişə dedi: "Bu uşağı nə qədər çox sevirsən?" Buyurdu: "Onu necə sevməyim ki, o mənim qəlbimin meyvəsi, gözümün işığıdır. Ancaq onu mənim ümmətim öldürəcəkdir. Hər kəs ölümündən sonra onu ziyarət edərsə Allahtaala mənim həcclərimdən bir həccin savabını onun üçün yazar." Dedi: "Sənin həcclərindən bir həcci?" Buyurdu: "Bəli, hətta mənim iki həccimin savabını." Dedi: "İki həccinin?" Buyurdu: "Bəli, hətta mənim dörd həccimin savabını." Aişə beləcə təəccüb etməyə davam edirdi və o həzrət (s) də artırırdı, nəhayət Peyğəmbərin (s) 90 həcc və ümrəsinin savabına çatdı."[1]

Ümidvar oldum, sonra yenə doqquzuncu halət məni bürüdü, qorxdum ki, insanların hüququ (haqqun-nas) əməllərimi zay etsin. Necə ki, nəql olunur: "Məhşər günü bir şəxsi gətirirlər ki, əməlləri qiyamət səhrasını işıqlandırır. Sonra haqqı boynunda olan kəslər gəlib onun əməllərini aparırlar və öz günahlarını onun üzərinə yükləyirlər və nəticədə onu cəhənnəmə aparırlar."[2]

Yenə də qorxu halәti vücudumu bürüdü, onuncu halətə sığındım; O həzrətə (ə) ağlamağın savabı barədə düşündüm. Hədislərdə nəql olunanlara əsasən, onun savabının həddi-hüdudu yoxdur.[3] Öz-özümə dedim: "Boynumda haqqı olanlar hər nə qədər savabdan aparsalar da, qurtarmayacaq."

Təzədən on birinci hala düşdüm; hədislərdə gəldiyi kimi, əməllərin qəbul olunma şərti, namazın qəbul olunmasıdır.[4] Dedim: "Ey Cəfər! Bəlkə sənin namazların qəbul olunmadı. Namazların rədd olunsa, əməllərin də rədd olunacaqdır."

---

[1] Bihar 98/səh. 35; Kamiluz-ziyarət 22-ci fəsil səh. 68
[2] Bihar 7/səh. 270.
[3] Bihar 44/285; Kamiluz-ziyarət 33-cü fəsil səh. 103
[4] Vəsailüş-şiə 3/səh. 22

Beləliklə, çətinə düşdüm, az qalırdı ümidimi tamam itirəm. Birdən on ikinci halətə düşdüm və bununla da ehtimallarıma son qoydum. Çünki, ardıcıl surətdə qəlbimdən əminlik və arxayınlıq amilləri keçdiyindən ümidim möhkəmləndi. O cümlədən həmin amillər Hüseyni vasitələrdə olan qəribə xüsusiyyətlər idi.

HÜSEYNİ (Ə) YAD ETMƏK QƏLBİ RİQQƏTƏ GƏTİRİR

Hədislərdə qeyd edildiyi kimi, Hüseyni vəsilələrin savabı vacib namazların qəbul olunmasında təsiredici olan müstəhəb (nafilə) namazların mislindədir.[1] Bəs, necə ola bilər ki, bu vəsilələr təsiredici olmasınlar?

Əməllərin və ibadətlərin qəbul və batil olma şərtləri budur ki, bunları yerinə yetirən şəxs öz ixtiyarı ilə, qürbət qəsdilə və zəhmətlə əmələ gətirsin. Bu vəsilələr arasında elə bir əməl var ki, ixtiyar və qürbət qəsdi ilə olmasa da onlardan nəticə hasil olur. Bu da o həzrətin (ə) müsibətlərində qəlbin riqqətə gəlməsi və ağlamaqdır ki, bəzi hallarda qürbət qəsdi niyyəti ilə düşünərək baş verir. Bunlar saleh əməllər sinfinə daxildir və qəbul ya rədd olunma qabiliyyətinə malikdirlər.

Bəzən də biixtiyar baş verir. İnsan belə ürəkyandırıcı müsibətləri eşidəndə, hətta onun sahibini tanımasa belə; imam olubdur ya müsəlmanlardandır, əgər müxaliflərdən olduğunu güman etsə də yenə də qəlbi riqqətə gəlib, kövrələcək və biixtiyar olaraq göz yaşları axıdacaqdır. Qəlb necə riqqətə gəlməsin eşidəndə ki, bir şəxsin uşağı onun gözü qabağında susuzluğun şiddətindən can verir, ya onu atasının sinəsi üzərində şəhid edirlər, ya altı aylıq körpəsi üçün su istəyəndə, körpənin hulqumunqan ox vururlar. Yaxud bir şəxsi öldürəndən sonra atların ayaqları altında tapdağa verirlər, başını kəsib nizəyə taxırlar və başına çubuqla vurub, ağacdan asırlar. Yaxud iki yüz ildən sonra qəbrini viran edirlər.

[1] Vəsailüş-şiə 3/22

Şübhəsiz ki, hər daşqəlbli bunları eşidən zaman halı dəyişər, riqqətə gələr və bu da Allahın rəhmətinə səbəb olar.

Rəvayət olunduğu kimi, həzrət Yunus (ə) balığın qarnında ikən balıq Qarunun üzərinə onu udmaq üçün yaxınlaşanda, Qarun Yunusun (ə) səsini eşidir və ondan Musanın (ə), Harunun (ə), Gülsümün və Ali-İmranın əhvalını soruşur. Yunus (ə) onların ölüm xəbərini verir. Qarun deyir: "Təəssüflər olsun Ali-İmranın halına." Bununla Allahın rəhməti onun halına şamil olur və dünyada alçalmaq əzabı onun üzərindən götürülür.[1] Bəs, mən necə ümidvar olmayım, bir halda ki, həmişə Ali-İbrahimin, Ali-İmranın və Ali-Muhəmmədin (ə) əhvalına qüssələnirəm.

O HƏZRƏT (Ə) ÖZ ZƏVVARLARINA KÖVSƏR SUYUNDAN İÇİRDƏCƏK

Xüsusiyyətlərdən digəri budur ki, təsiredici amillərin qarşısına maneə çıxanda, əksər hallarda təsirin nüfuzunu tamamilə aradan aparır və onun cüzvi əsər-əlaməti qalır. Buna əsasən, mənim pis əməllərim Hüseyni vəsilələrin tam təsirinə maneə olan halda hətmən onun cüzvi əsəri-əlaməti qalacaqdır və mən də buna qane olaram. Məsələn, O həzrətin (ə) zəvvarlarının şənində gəlir ki, onların şəfaəti on nəfərin, ya yüz nəfərin haqqında qəbul olunacaqdır,[2] ya onlara belə deyilər: "İstədiyin kəsin əlindən tut cənnətə daxil et."[3] Mən də özümə baxanda görürəm ki, cəhənnəm qapıları üzümə açıqdır, elə indidən onun alovlu zəncirləri və qandalları məni əhatə edibdir, hətta özümdə əbədi olaraq cəhənnəmdə qalmaq əlamətləri görürəm. Buna görə, qiyamətin günü şəfaətçi olmaq arzusunu etmirəm. Yalnız buna qane ola bilərəm ki, biri əlimdən tutub məhşər gününün şiddətindən mənə nicat versin, yaxud bir müddətdən sonra məni cəhənnəmdən çıxarsınlar ki, orada əbədi qalmayım.

[1] Bihar 13/252; Təfsiri Qümmi 1/318.
[2] Bihar 98/77
[3] Bihar 98/77; Kamiluz-ziyarət 68-ci fəsil səh.165.

Yenə, rəvayətlərdə deyilir ki, O cənabın (ə) zəvvarları ərşdə Allahla söhbət edəcəklər.[1] Mən bu məqama layiq olmadığıma görə, razıyam rəhmət mələklərindən biri gəlib mənimlə söhbət etsin. Həmçinin, nəql olunur ki, O cənabın (ə) zəvvarları Kövsər hovuzunun saqiləri (su paylayanları) olacaqlar.[2]

Mən özümü bu məqama layiq bilmirəm, bəlkə elə bir səviyyədəyəm ki, cəhənnəmdə behişt əhlinə deyərəm: "Mənə bir az su verin." [3]

Buna görə, Kövsər saqilərindən biri mənə su verərsə çox məmnun olaram.

Hədislərdə varid olduğu kimi, O həzrətin (ə) zəvvarları cənnətdə Peyğəmbərlə (s) bir süfrədə behişt nemətlərindən dadacaqlar.[4] O məqama ləyaqətim çatmasa da, zəqqum içməkdən xilas olmağa razıyam, belə ki, bu əzəmətli təsiredicilərin nəticələrindən inanıram ən azından həmin miqdar qalacaqdır (inşallah).

Digər xüsusiyyət budur ki, ola bilər O həzrətin (ə) vəsiləri eyni zamanda onların ən aşağı dərəcəsindən – yəni "özünü ağlamağa vadar etməkdən"– ən ali dərəcəyə – yəni – O həzrətin gözləri önündə şəhid olmağa qədər bir şəxsdə hasil olsun. Bunların hasil olması ilə vahid zamanda tamam ibadətlər də hasil olar. Məsələn, əgər bir şəxs imam Hüseynin (ə) adına təşkil olunan məclisdə iştirak edərsə, o məclisdə imam Hüseynin (ə) müsibəti zikr olunarsa və bu şəxs ağlayıb ya ağladıb, ya özünü ağlamağa vadar edərsə, qəlbi hüznlü, riqqətə gəlmiş halda O həzrətə (ə) salam və salavatlar göndərərsə və qəlbində O həzrətin (ə) mərifətini, böyüklüyünü və halını hiss edərək ağlayıb, ahu-zara gələrsə, həmçinin, O məzlum imama (ə) mərifətini, böyüklüyünü və halını hiss edərək ağlayıb, ahu-zara gələrsə, O məzlum İmama (ə) kömək etmək və onun səhabələri arasında şəhid olmaq arzusunu edərsə, əlbəttə feyzə yetişmiş, cəmi vəsilələrin savabına çatmış və

[1] Bihar 98/73
[2] Bihar 98/79.
[3] Əraf/50.
[4] Bihar 98/66

tamam ibadətlərlə, Allaha ibadət etmişdir. Hətta O həzrətin (ə) gözü önündə şəhadətə qovuşmuş mislindədir. Buna dəlalət edən hədislər qabaqda nəql olunacaqdır.

İMAM HÜSEYNİN (Ə) ƏZADARLIQ MƏCLİSLƏRİNİN ON DÖRD SİFƏTİ VARDIR

Belə məclislərin on dörd şərəfli sifəti vardır:

1-ci: Allahın müsəllasıdır, yəni onun əhlinə Allahın salavatı nazil olur.

2-ci: Orada mələklər hazır olarlar.

3-cü: Allahın Rəsulunun (s) və hidayət imamlarının duaları o məclis əhlinin halına şamil olar.

4-cü: Həzrət Seyyidi-şühəda (ə) məhəbbət nəzəri ilə o məclisin əhlinə baxar.

5-ci: O Həzrət (ə) onlarla söhbət edər.

6-cı: Belə məclis İmam Sadiqin (ə) sevdiyi yerdir.

7-ci: Ərafat mislindədir.

8-ci: Məşərul-Həram mislindədir.

9-cu: Hətim (Kəbə ətrafında olan divarın bir hissəsi) mislindədir.

10-cu: Beytullahın təvaf məhəllidir.

11-ci: İmam Hüseyn (ə) qübbəsidir.

12-ci: Atəşləri söndürəndir.

13-cü: Həyat suyunun mənbəyidir.

14-cü: Elə bir məclislərin davamçısıdır ki, onun əvvəli yaradılış sonu da məhşərdir. Bu mətləblərin şərhi gələcəkdir.

Bütün bu işləri təsəvvür edirsənsə və şərif halların, lətif ibadətlərin, vəsflərin şahidi olursansa, necə naümid ola bilərsən? Beləliklə, əgər maneələr qarşıya çıxarsa yenə də az da olsa ondan əsər-əlamət qalacaqdır, bu da mənə kifayət edər:

Səndən az olan lütf kifayət edər
Ancaq sənin az lütfünə azdır deməzlər

Bu mətləb mənə yəqin olandan sonra, nəfsimlə söhbəti yekunlaşdırdım və ümidlə təvəssül əlimi İmam Hüseynə (ə) tərəf uzatdım. Ümidim möhkəmlənsin deyə, Həzrətin (ə) xüsusiyyətlərini bəyan edən bu kitabı yazmağa başladım. O Cənabın (ə) xüsusiyyətləri tamam məxluqatdan hətta Peyğəmbərlərin (ə) və İmamların (ə) xüsusiyyətlərindən seçilir. Buna görə kitabı "Xəsaisul-Hüseyn (ə) və məzayaul-məzlum" – (yəni, Hüseynin (ə) xüsusiyyətləri və məzlumun imtiyazları) adlandırdım. Rəbbimin fəzlinə ümid edirəm ki, bu zəhmətimi qəbir və həşr üçün azuqə, əmniyyət və şadlıq mənbəyi qərar verəcəkdir. Müvəffəqiyyətim yalnız Allahdandır, Ona təvəkkül və tövbə edirəm.

BU KİTABIN TƏRTİBİ VƏ ON İKİ ÜNVANI

Kitabı bir müqəddimə və bir neçə ünvanlanmış məqsədlər əsasında tərtib etdim. Müqəddimədə on iki ünvan altında bəyan olunan kitabın mətləblərinin ümumi siyahısı təqdim olunur. Bunlar aşağıdakılardır:

Birinci ünvan: Xilqətin əvvəlindən axırıncı gününədək vücud aləmlərində və şühud (müşahidə) yerlərində O həzrətin (ə) xüsusiyyətlərinin zikr edilməsi. Burada yeddi məqsəd vardır:

1-ci məqsəd: O sərvərin (ə) şərafətli nurunun yaradılış vaxtı olan xüsusiyyətləri.

2-ci məqsəd: O həzrətin (ə) pak nurunun aləmlərdən keçməsinin, zərr aləmindən keçib Adəmin (ə) sülbündə nur saçmasının, oradan cənnət ağacına, sonra isə dünyaya tərəf köçməsinin və onun həml olunmasının xüsusiyyətləri.

3-cü məqsəd: Mübarək viladətinin və uşaqlıq çağlarının xüsusiyyətləri.

4-cü məqsəd: Şəhadət yerinin xüsusiyyətləri.

5-ci məqsəd: O cənabın (ə) şəhadətindən sonra ruhuna, başına və cəsədinə nisbət, Kərbəlanın xüsusiyyətləri.

6-cı məqsəd: O həzrətin (ə) qiyamət məhəllinin xüsusiyyətləri.

7-ci məqsəd: Qiyamət günündən sonra O həzrətin (ə) məhəllinin xüsusiyyətləri.

İkinci ünvan: O cənabın (ə) həyatı boyu feyz bəxş edən gözəl sifətləri, əxlaqı, ibadəti və itaətlərinin xüsusiyyətləri.

Üçüncü ünvan: Aşura günü O həzrətdən (ə) zahir olan sifətlərin, əxlaqın və ibadətlərin xüsusiyyətləri. O cümlədən: Batini və zahiri ibadətləri birlikdə cəm etmək, əxlaq kəramətləri, birləşməsi mümkün olan ibadətlərin bir yerdə cəm edilməsi. Ziddiyyətlərin cəmi kimi ibadətlərin və gözəl sifətlərin cəm olunması.

Bəlaların bütün növlərinin cəm olması, onlara tab gətirmək və şükr etmək. O həzrətin (ə) özünə aid olan məxsusi ibadətlərin cəm olunması.

Dördüncü ünvan: İlahi tərəfindən O həzrətə (ə) bəxş edilən xüsusi lütf və ehtiramların bəyanı. Bunlar səkkiz növdən ibarətdir:

1-ci: O həzrətə (ə) nisbət xas İlahi lütflərin ifadə olunma xüsusiyyəti.

2-ci: İlahinin O həzrətə (ə) bəxş etdiyi öz sifətlərinin ayətləri barədə.

3-cü: Qurani-məciddən və Peyğəmbərin (s) kəlamlarından O cənaba (ə) bəxş etdiyi barədə.

4-cü: Məxluqatın ən şərəflisi olan Xatəmül-ənbiyanın (s) xüsusiyyətlərindən O həzrətə (ə) bəxş olunması barədə.

5-ci: Məxluqatın ən əzəmətlisi olan Ərşin xüsusiyyətlərindən O həzrətə (ə) bəxş olunması barədə.

6-cı: Məxluqatın ən gözəli olan cənnətin xüsusiyyətlərindən O həzrətə (ə) bəxş olunması barədə.

7-ci: Digər fəzilətli məxluqatın xüsusiyyətlərindən O cənaba (ə) əta olunması barədə.

8-ci: O həzrətə (ə), vücudunun əvvəlindən aləmin sonunadək lütf olunan ehtiramlar və təşrifatlar barədə.

Beşinci ünvan: O həzrətə (ə) xüsusi İlahi lütfün məzhəri barədə.

Altıncı ünvan: O həzrəti (ə) zikr edib ağlayarkən yaranan xuşu (təvazo) halının xüsusiyyətləri.

Yeddinci ünvan: Şəhid İmamın (ə) ziyarətinin xüsusiyyəti.

Səkkizinci ünvan: O həzrətin (ə) Quranla bağlı xüsusiyyəti.

Doqquzuncu ünvan: O həzrətin (ə) Beytullah-Kəbə ilə bağlı xüsusiyyətləri. Burada dörd məqsəd var:

1-ci: Onun özü həqiqətən Beytullahdır.

2-ci: O həzrət (ə) xüsusi təzim ilə (əzəmətləndirməklə) Kəbəni təzim etdi. Buna görə, Allah-taala O həzrət (ə) üçün xüsusi fəzilət qərar verdi və ona Kəbənin vəsfləri mislində vəsflər bəxş etdi. Bu fərqlə ki, O Həzrətin (ə) vəsflərinin bəyanı ağlamağa səbəb olar.

3-cü: Xüsusi cəhətə xatir O həzrətin (ə) ziyarəti həcc və ümrə ziyarətinə bərabərdir.

4-cü: Allah-taala O Həzrəti (ə) Beytul-həram qərar verdi, onun üçün xüsusi zəvvarlar təyin etdi. Beləliklə, onun səhabələri, Əhli-beyti, Peyğəmbərlər və mələklər üçün O həzrətə (ə) nisbət xüsusi həcc vardır.

Onuncu ünvan: O Həzrətin (ə) mələklərə nisbət xüsusiyyətləri.

On birinci ünvan: O Cənabın (ə) əzəmətli Peyğəmbərlərə nisbət xüsusiyyətləri. Burada bir neçə məqsəd və fəsil var ki, hərəsi bir Peyğəmbərə məxsusdur:

Adəmin (ə) fəsli; Nuhun (ə) fəsli; İdrisin (ə) fəsli; İbrahimin (ə) fəsli; İsmayılın (ə) fəsli; Yəqubun (ə) fəsli; Yusifin (ə) fəsli; Salehin (ə) fəsli; Hudun (ə) fəsli; Şüeybin (ə) fəsli; Əyyubun (ə) fəsli; Zəkəriyyanın (ə) fəsli; Yəhyanın (ə) fəsli; Vədə sadiq olan İsmayılın (ə) fəsli; Musanın (ə) fəsli; Davudun (ə) fəsli; İsanın (ə) fəsli.

On birinci ünvan: O həzrətin (ə) Xatəmül-ənbiya Muhəmməd-Mustəfaya (s) bağlılığı barədə.

Bu ünvan xətmi kəlamdır, Allah-taala xətmi-aqibətimizi xeyir etsin inşallah.

BİRİNCİ ÜNVAN:

Vücudun əvvəlindən qiyamət gününün sonunadək O həzrətin (ə) vücudunun məqamlarının bəyanı. Burada bir neçə məqsəd var:

Birinci məqsəd: Həzrət Peyğəmbərin (s) şərəfli nurunun yaradılışı.

Bil ki, hikmət sahibləri Allah-taalanın yaratdığı ilkin varlıq barədə müxtəlif rəylər söyləyiblər. Habelə mütəkəllimlər də bu barədə ixtilafa düşmüş və rəvayətlər də müxtəlifdir. Əksər həkimlər (filosoflar) əvvəl məxluqun "birinci əql" olduğunu bilirlər. Birinci əql zatında və felində maddədən ayrı olan, bəsit (yəni, tərkibi olmayan) bir cövhərdir. Vahid olduğuna görə, vahid tərəfindən xəlq olunmuşdur. Onda üç cəhət mövcuddur: Birinci, Öz vücudu bir səbəbdir; İkinci, vücudu başqası üçün vacibdir; Üçüncü; onun zatı mümkün varlıqdır. Beləliklə onun vücudu "ikinci əqlin" vücudu üçün səbəbdir; Ali səmaların vücudu üçün onun vücudu vacibdir; Mümkün varlıq baxımından o səmaların cismidir.

Hikmət sahiblərindən Talis Melti deyir ki, birinci məxluq su olubdur.

Həkim Blinasın rəyinə əsasən yaradılmışların əvvəli Allahın kəlamıdır, ondan sonra fel, hərəkət və hərarətdir.

Bundan qeyri fikir yürüdənlər də var. Lakin çoxsaylı səhih xəbərlərdən aydın olur ki, yaradılmışların birincisi həzrət Muhəmmədin (s) şərif nurudur, əql də buna dəlalət edir. Belə ki, O həzrətin (s) məxluqatın ən şərəflisi və ən sevimlisi olduğunu və Allah-taalanın O həzrətin (s) şəninə olan sonsuz lütfünü nəzərə alsaq, bunun həqiqət olduğunu dərk edərik. Bəzi rəvayətlərdə gəlir ki, birinci məxluq O həzrətin (s) və hidayət imamlarının (ə) nurudur. Hər halda nəticə etibarı ilə yaradılmışların birincisi Hüseynin (ə) nurudur. Çünki, onların hamısı vahid və yeganə nurdular. Cəddi Rəsulullah (s) buyurduğu kimi: "Hüseyn məndəndir, mən

də Hüseyndən." Başqa bir hədisdə buyurulur: "Mən Hüseyndənəm, Hüseyn də məndən."[1] – Bu hədisdə O həzrətin (ə) nurunun şərafətinin məqamı birinci hədisdən daha alidir. O həzrət (ə) məxluqatın əvvəli olduğuna görə və yaradılmışların hamısı O cənabın (ə) vücuduna xatir həyat tapdıqlarına görə, tamam məxluqat; Peyğəmbərlər, mələklər, fələklər, insanlar, cinlər, şeytanlar, cənnət və cəhənnəm, cəmadət (cansız varlıqlar), ünsürlər (kiçicik maddələr), mədənlər, bitkilər, heyvanat, günəş, ay, nəinki bu aləmin varlıqları, hətta tamam aləmlərin məxluqatı O həzrət (ə) üçün ağlayırlar: bəzi hədislərdə gəldiyi kimi: Allah-taala min-min aləm və min-min Adəm yaratdı.[2] Həmin aləmlərin ağlamağı fəqət O həzrətin (ə) qətlindən sonra deyil, əslində Kərbəla vaqiəsindən qabaq başlamış və davam etməkdədir. Şəbanın 3-cü günü həzrət Hüccətdən (ə.f.) nəql olunan ziyarətdə buyurur: "Hələ O həzrət (ə) dünyaya qədəm qoymamış, səmalar, yer və onların arasında nə varsa O cənaba (ə) ağlayırdılar."

O cənab (ə) öz xilqətinin əvvəlindən xuşu və xuzunun məzhəri olduğuna görə, aləmdə mövcud olan hər xuzu və təvazökarlıq O həzrətdən (ə) mənşə götürür. Hətta deyir ki, həzrətin (ə) bədəninə batan xəncər və qılınc, ox və nizə, O həzrətin (ə) qatilləri , nasibiləri öz əsli fitrətləri ilə onun halına ağlayırdılar.

Hərçənd zahiri sifətləri ilə əsli fitrətləri dəyişmiş və əbədi olaraq cəhənnəmə müstəhəq olsalar da, yenə də qafil olduqları üçün ağlayırdılar, qəlbləri ilə təsdiq edən, amma dilləri ilə inkar edən kafirlər kimi: **"Və ona (möcüzələrimizə) qəlblərində yəqin olduqları halda, zülm və təkəbbür üzündən inkar etdilər."** (Nəml/14)

Materialist və ateistlər kimi, öz inad və tərsliklərindən qafil olan zaman Tovhidə iqrar edirlər. Həmçinin O həzrətin (ə) düşmənləri də qəflət halında ağlayırdılar. Hətta, bəzən müsibətin böyüklüyü o həddə idi ki, ədavətin qələbə çaldığı an, qətl, qarət, əsarətlə məşğul olduqları halda ağlayırdılar. Necə ki, İbn Səd məlun

[1] Bihar 43/271
[2] Bihar 43/296

O həzrətin (ə) qətlinə fərman verən zaman ağladı.[1] İmamın (ə) qızı Fatimənin qulağından sırğanı qoparan məlun ağlamışdır. Son dərəcə bədbəxt daşqəlbli olan məlun Yezid əsirlərə nəzər yetirən vaxt onların halına yanaraq, dedi: "Vay halına, ey Mərcanənin oğlu!" [2]

İkinci məqsəd: Yaradılışdan dünyaya gələnədək O həzrətin (ə) xüsusiyyətləri.

O sərvərin (ə) nurunun xəlq olunmasından dünyaya qədəm qoyduğu zamanadək xüsusiyyətlərinin bəyanında deyirik: Allah-taala vahid, yeganə fərddir və Onunla kimsə yox idi. Beləliklə, birinci olaraq həzrət Peyğəmbərin (s) şərif nurunu xəlq etdi, onun nurundan Əlinin, Fatimənin, Həsən və Hüseynin nurlarını yaratdı. Həmin şərəfli nur üçün çoxsaylı məkanlar və müxtəlif aləmlər yaratdı. Rəvayətlərə görə bu aləmlərin, bəziləri ərşdən əvvəl, bəziləri ondan sonra və Adəmin xilqətindən əvvəl yarandılar, bəziləri də Adəmdən sonra xəlq olundular. Habelə, o aləmlər gah nurlar aləmidirlər, gah nurani varlıqlar aləmi, gah kölgələr, zərr aləmi, gah behişt nuru, gah nur sütunu, gah Adəmin sülbündə olan nur, gah onun barmaqlarında, gah Adəmin alnında, gah O həzrətin (ə) pak babaları və nənələrinin alınlarında olan nur, gah ərşin ətrafında nur, gah on iki qat hicablarda, gah nur dəryalarında olan nurdular.

O nurların hər məhəllədə qalmasının müəyyən müddəti vardır. Misal olaraq, ərş yaranmamışdan qabaq onların vücudunun zamanı 420 min il olmuşdur və ərşin ətrafında qalma müddəti 15 min il Adəmin xəlq edilməsindən qabaq olmuşdur. Ərşin altında qalma müddəti isə 12 min il Adəmin xəlq olunmasından qabaq olmuşdur.[3]

Mütərcim deyir: bu sirlərin və mətləblərin təfsilatlı surətdə maarifini bizlərdən tələb etmirlər. Bizim vəzifəmiz ümumi şəkil-

---

[1] Bihar 57/321
[2] Bihar 45/55; Tarixi Təbəri 5/228
[3] Bihar 45/136

də bunu təsdiq edib, təslim olmaqdır. O nurların həqiqəti və məqamları, habelə o aləmlərdə olan vəzifələri onların özünə aiddir. Bəzi həkimlərin və sufilərin öz əqlləri ilə yürütdükləri tətbiqlər düzgün dəlillərə əsaslanmır və onlara varid olmaq yolu azmaq xətərinə səbəb olar.

Bu məqamda məqsədimiz: İmamların (ə) nurundan zikr edilən bütün aləmlərdə imam Hüseynin (ə) nurunun xüsusiyyətlərinin bəyanıdır. Cəm (vəhdət) aləmində bu nurun imtiyazı: Birinci nurla xüsusi şərəf vüsalına malikdir. Necəki buyurur: "Hüseyn məndəndir, mən də Hüseyndənəm."

Fərq (çoxluq və müxtəliflik) aləmində bu nurun imtiyazı hüznə və qəm-qüssəyə səbəb olmaqdır. Həzrət Adəm (ə)–ın əhvalatında nəql olunduğu kimi, O həzrətin (ə) barmaqlarında beş pak nur işıq saçan zaman imam Hüseynin (ə) nuru onun baş barmağında zahir oldu. Həzrət Adəmin (ə) nəzəri baş barmağına düşəndə hüznlü və qüssəli olurdu.[1]

Bu əlamət indiyədək qalmaqdadır, hər kəs gülüş ona qalib gəldiyi zaman baş barmağına nəzər yetirsə hüzn, kədər ona qalib gələr. Həzrət İbrahimin (ə) əhvalatında gəlir ki, beş pak nurları görəndə imam Hüseynin (ə) nurunun müşahidəsindən qüssələndi.[2] Sanki, O həzrətin (ə) şərəfli adını eşidəndə hüznlü olurdu. Hətta, O həzrətə (ə) nisbət verilən hər bir şey qəm-qüssəyə səbəb olur. Cəbrayılın (ə) O həzrətin (ə) adına Nuhun (ə) gəmisinə vurduğu mismar kimi, o mismardan bir nur saçdı və qan mislində rütubət zahir oldu ki, həzrət Nuh (ə) hüznlü olub, növhə dedi.[3]

Həmçinin, o şərəfli nur pak sülblərə və rəhmlərə ötürüldüyü zaman o nurun təsirindən onu həml edən şəxsin alnında bir nur zahir olurdu, çünki özləri o nurdan deyildilər. Ancaq həzrət Zəhra (ə) imam Həsənə (ə) hamilə olanda o Xanımın (ə) alnında əlavə bir nur zahir olmadı, çünki Xanım (ə) özü həmin nurdan xəlq olunmuşdu. Amma imam Hüseynə (ə) hamilə olan vaxt xa-

[1] Bihar 24-cü cild .
[2] Bihar 11/110.
[3] Bihar 36/151.

nım Zəhranın (ə) alnında xas bir nur zahir olmuşdu və Peyğəmbər (s) bu barədə ona xəbər vermişdi.[1] Həzrət Fatimə (ə) buyurur: "Mən Hüseynə (ə) hamilə olan kimi qaranlıq gecədə çırağa ehtiyac duymurdum."[2] Beləliklə, İmamın (ə) nurunun imtiyazı nura qalib gəlməkdir. O həzrətin (ə) nuru günəşin nuruna qalib gəlirdi. Necə ki, İmamın (ə) şəhadət halını müşahidə edən şəxsdən nəql olunur ki; "O cənabın (ə) cəmalının nuru məni onu öldürmək fikrindən məşğul edirdi. Halbuki, o vaxt günəş səmanın ortasında idi.

Həmçinin, heç bir şey o şərif nuru örtməyə qadir deyil, necəki həmin şəxs demişdi: "Hüseynin (ə) qana və torpağa bulaşmış cəsədindən nurani bir cəsəd görmədim."[3] Beləliklə, torpaq və qan o pak nurun qarşısını ala bilməmişdir.

Üçüncü məqsəd: O həzrətin (ə) viladətindən sonra olan məhəllinin xüsusiyyəti barədə.

Viladətindən sonra O cənabın (ə) məhəllinin xüsusiyyətinin bəyanında deyirik:

Birinci məhəlli, təvəllüdündən sonra Allahın Rəsulunun (s) əlləri olmuşdur. Rəvayətdə gəldiyi kimi, Allahın Rəsulu (s) hücrədə dayanıb, O həzrətin (ə) viladətini gözləyirdi. İmam Hüseyn (ə) səcdə halətində dünyaya gələndə, Peyğəmbər (s) nida etdi: "Ey, Əsma övladımı mənə gətir." Əsma dedi: "Hələ onu paklamamışıq." Həzrət (s) buyurdu: "Sən onu pak edirsən!? Allah onu pak-pakizə etmişdir." Əsma O həzrəti (ə) yun parçaya bükülü halda Peyğəmbərin (s) hüzuruna gətirdi. Peyğəmbər (s) onu əllərinə aldı, bir qədər baxıb, ağladı və buyurdu: "Çətindir mənə, ya Əba Əbdillah." [4]

Bundan sonra O gah Cəbrayılın (ə) boynunda oturardı, gah da Peyğəmbərin (s) çiynində, sinəsində və kürəyində oturardı. Bəzən də Allahın Rəsulu (s) O həzrəti (ə) əlləri ilə qaldırıb dodaqla-

[1] Bihar 44/230.
[2] Bihar 43/272.
[3] Bihar 45/57; Luhuf səh. 55.
[4] Bihar 45/57 ; Luhuf səh. 55.

rından öpərdi. Gah da qaldırıb əshabına göstərər və onun barəsində sifarişlər verərdi.[1] Bəzən Peyğəmbər (s) səcdəyə gedəndə O həzrət (ə) Peyğəmbərin (s) belinə suvar olardı. Gah Əmir-əl-möminin (ə) onu əllərində saxlayırdı və Peyğəmbər (s) Hüseynin (ə) tamam əzalarından öpərdi.[2] Peyğəmbərin (s) sinəsində axırıncı məhəlli O həzrətin (s) ruhu bədənindən ayrılan zaman olmuşdur ki, Peyğəmbər (s) balaca Hüseyni (ə) bağrına basıb, öpürdü və buyurdu: "Axı, Yezidin mənimlə nə işi var!? Allah onu mübarək etməsin!"[3]

Dördüncü məqsəd: "Şəhadətdən sonra O həzrətin (ə) məhəllinin xüsusiyyəti.

O həzrətin (ə) şəhadətindən sonra və dəfnindən qabaq olan məhəllinin xüsusiyyəti barədə; Şəhadət halının xüsusiyyəti budur ki, hər peyğəmbər, ya imam şəhid edilən zaman ya qətlə yetirilmiş, ya ona zəhər verilmiş, ya evində, ya şəhərdə, ya mehrabda şəhadətə ucalmışdır. Onların heç birinə susuz səhrada, isti qumlar üstündə şəhadətə qovuşmaq nəsib olmamışdır. Nə qədər böyükdür sənin müsibətin, ey Ağa!

Şəhadətdən sonra mübarək cəsədini beşinci səmaya apardılar və yenə də Kərbəla torpağına qaytardılar. Orada üç gün isti qumlar üstündə qaldı. Mübarək başı da gah əllərdə, gah nizələr başında, gah ağacdan asılı halda, gah da məlun Yezidin evinin dəhlizində, gah Şamın darvazasından asılmış, gah İbn Ziyadın qabağında teştin üstündə, gah da Yezidin qabağında teştin üzərində. O başı şəhərbəşəhər dolandırdılar, Kərbəladan Şama, bəziləri deyirlər: "Şamdan Misirə, Misirdən Mədinəyə, ya Şamdan Kərbəlaya ya Şamdan asiman.[4] (La hövlə və qüvvətə illa billahil-əliyyil əzim).

---

[1] Əmaliyəs-Səduq 65-ci məclis səh.361.
[2] Bihar 43/252
[3] Bihar 44/261
[4] Bihar 44/266.

Beşinci məqsəd: O həzrətin (ə) bərzəx aləmində məhəllinin xüsusiyyəti barədə.

Bərzəx aləmində məhəllinin xüsusiyyəti barədə hədisdə gəlir ki, O həzrət (ə) ərşin sağ tərəfində özünün şəhadət məhəllinə və zəvvarlarına baxır. Onları özlərinin və atalarının adları, dərəcələri və məqamları ilə tanıyır. Ona ağlayanları görür və onların bağışlanmaqları üçün Allaha dua edir. Habelə öz əzəmətli atalarından onların bağışlanmaqları üçün dua etmələrini istəyir və buyurur: "Ey gözu yaşlı, əgər bilsəydin ki, Allah-taala sənin üçün nə hazırlayıbdır, əlbəttə sevincin kədərindən çox olardı.[1]

Altıncı məqsəd: O həzrətin (ə) məhşər günü məhəllinin xüsusiyyəti barədə.

Qiyamət günü O həzrətin (ə) məhəllinin xüsusiyyəti barədə çoxsaylı rəvayətlərdə gəlir ki, O cənab (ə) ərşin kölgəsi altında xas bir məclisdə öz zəvvarları və ağlayanları ilə ünsiyyət qurub söhbət edir. Onların zövcələri cənnətdən xəbər göndərirlər ki, sizi arzulayırıq. Ancaq onlar O həzrətlə (ə) söhbət etməyi cənnətdən üstün tuturlar.[2] Məhşər günü məxsusi bir dayanacaq var ki, başsız bədən ayaq üstə duranda, damarlardan qan axanda və Fatimə (ə) bu mənzərəni görüb, nalə çəkəndə, həmin dayanacağın əhli iztiraba düşən zaman məhşər bərpa olacaqdır.[3] Bu mətləblərin şərhi öz yerində gələcəkdir.

Yeddinci məqsəd: O həzrətin (ə) cənnətdə olan yerinin xüsusiyyəti barədə:

Həzrət Peyğəmbər (s) buyurur: "Sənin üçün cənnətdə elə dərəcələr var ki, onlara yalnız şəhadətlə çatmaq olar."[4] Habelə O həzrət (ə) tamam cənnətin zinətidir. Sanki, O cənab (ə) cənnətin hər yerindədir və hər şey onun üçündür.

---

[1] Bihar 45/136.
[2] Bihar 44/292; Kamiluz-ziyarət 108-ci fəsil
[3] Bihar 45/208
[4] Səvabul-əmal səh. 258.

İKİNCİ ÜNVAN:

İMAM HÜSEYNİN (Ə) TƏRİFƏLAYİQ XÜSUSİYYƏTLƏRİ VƏ GÖZƏL ƏXLAQI BARƏDƏ

İkinci ünvan: O sərvərin (ə) İmamət sifətlərindən qeyri sifətləri, əxlaqı və ibadətləri barədə, deyirik; İmamət sifətlərinin idrakı əqlin fövqündədir. Beləliklə, o gözəl sifətlərdən biri dinin qeyrətini çəkmək, zalım və alçaqların zillət yükünün altına girməməkdir. Rəvayət olunur ki, İbn Səd O həzrətə (ə) İbn Ziyadın və Yezidin hökmünə tabe olaraq, nicat tapmağı təklif edəndə həzrət (ə) buyurdu: "Mən heç vaxt zillətə boyun əyərək, sizə beyət əlimi uzatmaram və nökərlər kimi günah etdiyimə iqrar etmərəm. Allah, Onun Rəsulu (s) və iman əhli buna razı deyillər."[1]

O həzrətdən (ə) sonra belə vəziyyətə düşən hər bir kəs öz nəzərinə görə O həzrətə (ə) iqtida etmişdir.

Şücaət, ibadət və hüquqa riayət sifətləri

Şücaət sifətində O həzrət (ə) başqalarına nümünə ola biləcək məqama ucaldı.

Digəri, ibadət sifətidir; O həzrət (ə) ana bətnində olanda Mübarək anası onun təsbih sədasını eşidərdi.[2] Mübarək baş nizə üstündə Quran oxuyurdu.[3] Bir nəfər İmam Səccaddan (ə) soruşur: "Niyə sizin əziz atanızın az övladı olubdur? İmam Səccad (ə) cavabında buyurur: "Necə dünyaya gələ bilərdik, bir halda ki, O həzrət (ə) hər gecə min rikət namaz qılardı."

Digər sifəti, hüquqlara riayət etmək idi. Əbdür Rəhman Səlmi O həzrətin (ə) övladlarından birinə "Həmd" surəsini öyrədəndən

[1] Bihar 43/275.
[2] Şeyx Mufid "İrşad" 2/103
[3] Bihar 34/273

sonra, həzrət (ə) ona min dinar və min libas hədiyyə edir və pul kisəsinin ağzını dürr ilə doldurur, buyurur: "Onun haqqı bundan çoxdur".[1]

Həya İmam Hüseynin (ə) aşkar sifətlərindəndir

Başqa bir sifəti; nəyisə bəxş edən zaman həya edər və sailin halına yanardı. Rəvayətdə gəlir ki, bir ərəb şeir ilə O həzrətdən (ə) sədəqə istədi:

Bu qapı heç kəsi naümid qoymaz,
Bu qapını döyən əliboş qayıtmaz.

Həzrət (ə) evə daxil olub, dörd min dirhəmi özünün bir köynəyinə büküb, ərəbə verdi və buyurdu:

Al bunu, azlığından üzr diləyirəm bil ki, sənə məhəbbət bəsləyirəm:

Əgər daha geniş olsaydı imkan,
Bəxşiş bundan çox olardı inan.

Haqqımızı gözləsəydi əhli zəmanə,
Tapılmazdı möhtac olan biri-birinə.

Həzrət (ə) bir nəfər sailə min dinar ya min dirhəm ata etdi. Sail pulları yoxlamağa başladı. Həzrətin (ə) xəzinədarı sailə dedi: "Məgər bizə bir şey satmısan?" Sail dedi: "Bəli, öz abrımı satmışam." Həzrət (ə) buyurdu: "Düz deyirsən" Xəzinədara buyurdu: "Ona üç min dirhəm ver. Mini istədiyinə görə, mini abrına görə, mini də başqalarının deyil, bizim yanımıza gəldiyinə görə."

Bir nəfər O həzrətə (ə) vərəqdə yazılı surətdə öz hacətini təqdim edir. Həzrət (ə) buyurdu: "Hacətin yerinə yetirildi." O şəxs dedi: "Niyə yazını oxumamış bu sözü buyurdun?" Buyurdu: " Allah-taala məndən soruşacaq ki, niyə yazını oxuyanadək onu gözlətdin."[2]

[1] Bihar 44/196
[2] Bihar 44/191

Bəli, həya sifəti elə məqamda idi ki, bir cahilə dini məsələni öyrətmək istəyərkən, onun utanmasından həya edirdi. Rəvayət olunur ki, O cənab (ə) gördü ki, bir ərəb dəstəmazı düzgün almır, istədi ona birbaşa təlim versin, amma həya etdi. Qardaşı Həsənə (ə) dedi: "Gedək onun yanında dəstəmaz alaq və soruşaq ki, hansımız düzgün dəstəmaz aldıq?" Belə də etdilər, ərəb məsələni başa düşüb, dedi: "Siz hər ikiniz düzgün dəstəmaz aldınız, düzünü mən bilmirdim?.."

Qəm-qüssə əhlinə Hüseynin (ə) qəlbinin yanması

O həzrətin (ə) qəm-qüssə çəkənlərə ürəyi yanardı. Nəql olunduğu kimi, O həzrət (ə) Usamə ibn Zeydə baş çəkməyə getmişdi. Usamə axır saatlarını yaşayırdı. O, dərindən ah çəkdi, həzrət (ə) buyurdu: "Sənin qəm-qüssən nədəndir?" Ərz etdi: "Altmış min borcum var." Həzrət (ə) buyurdu: "Sənin borcun mənim öhdəmə." Usamə dedi: "Borclu halda ölmək istəmirəm." "Həzrət (ə) əmr etdi ki, pulları gətirib, ölümündən qabaq borclarını ödəsinlər."[1]

Digər bir sifəti, sədəqəni gizli verməkdir. Nəql olunur ki, O həzrətin (ə) şəhadətindən sonra onun kürəyində qabar izləri gördülər. İmam Səccaddan (ə) bu barədə soruşanda, həzrət (ə) buyurdu: "Gecələr yetimlərə və yoxsullara daşıdığı yükün izləridir."[2] Şair deyir:

Gecələr fəqirlərə gizli yemək daşıyan bel,
Niyə dünya əhlinin əli ilə belə sınmış idi.

Digər sifəti; Xəlqi Allahın əzabından xilas etmək üçün qəti əzmkarlığı idi. Buna görə, şəhadətin bu ağır yükünü qəbul etdi ki, üsyankarlara şəfaət etmək məqamına ucalsın. Bu işdə elə fədakarlıq göstərdi ki, hətta düşmənlərinin xilas olmasını istəyirdi.

O şəxs gəlib İmamı (ə) qətlə yetirmək istəyəndə həzrət (ə) onun üzünə güldü və ona moizə elədi.[3] Görəndə ki, ümumi xilas

[1] Bihar 43/319
[2] Bihar 43/319
[3] Bihar 45/56; Məqtəli Xarezmi 2/36.

etmə mümkün deyil, səy göstərirdi ki, əzabları yüngülləşdirilsin. Necə ki, moizəsinin Hərsəmə ibn əbi Muslimə təsir etmədiyini görəndə, buyurdu: "Bu torpaqdan çıx get ki, bizim ölməyimizi görməyəsən və səslərimizi eşitməyəsən."[1] Həmçinin Cufiyə də belə buyurmuşdu, bu barədə qabaqda nəql edəcəyik, İnşallah.

Digər sifəti, Allahdan şiddətli surətdə qorxurdu. Dəstəmaz alanda Allah qorxusundan rəngi dəyişərdi, bədəni lərzəyə gələrdi. Bunun səbəbini soruşanda, buyururdu: "Bir şəxs Qəhhar padşahın hüzuruna gedəndə rəngi saralar, bədəni lərzəyə gələr."[2] Xalq O həzrətin (ə) xofunun şiddətindən təəccübə gəlirdi, hətta ona dedilər: "Sənin Allahdan qorxun necə də əzəmətlidir!" Həzrət (ə) buyurdu: "Qiyamət günü, dünyada Allahdan qorxanlardan başqa, heç kəs amanda olmayacaq."[3]

Müəllif deyir: "Bir qədər düşün; Həzrət Seyyidi Şühəda (ə) Allaha ibadət üçün dəstəmaz alanda rəngi dəyişir, bədəni lərzəyə gəlir." Ancaq biz kəbirə günahlarla məşğul oluruq və əslən vahiməyə, qorxuya düşmürük. Bəs, necə biz O həzrətin (ə) davamçılarından olduğumuza iddia edirik. Onun ən ali ibadət, itaət zamanı bədəni lərzəyə gəlir, biz isə ən böyük günahlarla bərabər gülərüz oluruq. Bax, gör əslində yollarımız necə də fərqlidir.

Quran və hədislərdə İmam Hüseynin (ə) mədhi

O sərvərin (ə) digər xüsusiyyəti dost və düşmən tərəfindən mədh olunmasıdır. Necə ki, O həzrət (ə) Qurani-kərimdə bir neçə sifətlə mədh olunubdur: Biri "nəfsi mütməinnə" – "arxayın nəfs", digəri "Kuffəlur-rəhməti"– "Rəhmət zaminləri."

Həmçinin, İmam Hüseyn (ə) o valideynlərin cərgəsindədir ki, Allah-taala onlara ehsan etməyi vacib buyurmuşdur. Hər iki ayəni təfsirində gəldiyi kimi.[4]

[1] Bihar 44/256.
[2] Əvaləm 17/61
[3] Bihar 44/192
[4] Təfsiri Qummi 2/297

Digər budur ki, bu ayənin muradı "Mən qutilə məzlumən" "məzlum olaraq öldürülən" və "Zibhun kəbir": "böyük qurban" O həzrətin (ə) mübarək vücududur. Habelə Quranın "Kaf, hə, ayn, sad" – muqəttəə hərifləri Kərbəla hadisəsinin şənində nazil olubdur. Quran O həzrəti (ə) bir neçə isimlə yad etmişdir: "Fəcr"– "Vəz-zeytun", "Mərcan" bunların hamısı hədislərdə nəql olunubdur və Ərşin sağ tərəfində belə yazılıb: "Həqiqətən Hüseyn hidayət çırağı və nicat gəmisidir."[1]

Qudsi hədislərdə O cənabın (ə) mədhi gəlibdir; buyurur: "Üzərinə Mənim salavatım və rəhmətim olan mövlud mübarək olsun." Yenə, buyurur: "Hüseyn (ə) Mənim övliyalarımın nuru, xəlq üzərində Mənim hüccətim və üsyankarlar üçün ehtiyat saxladığım azuqədir." Bu mövzunun təfsilatı qabaqda gələcək.

Həzrət Peyğəmbər də (s) O cənabı (ə) heyrətamiz sifətlərlə mədh etmişdir; Bir gün Peyğəmbər (s) Hüseynə (ə) buyurdu: "Mərhəba sənə, ey asimanın və yerin zinəti."Ubeyyə ibn Kəb ərz etdi: "Ey Allahın rəsulu (s) səndən başqa da asimanın və yerin zinəti varmı? "Buyurdu: "And olsun məni haqq olaraq risalətə göndərən Allaha ki, Hüseyn ibn Əli (ə) səmalar əhlinin nəzərində yer əhlinin nəzərindən daha əzizdir və həqiqətən Allah-taala ərşin sağ tərəfində belə yazmışdır: "Həqiqətən Hüseyn (ə) hidayət çırağı və nicat gəmisidir." Sonra Allahın Rəsulu (s) Hüseynin (ə) əlindən tutub buyurdu: "Ey insanlar, bu Hüseyn ibn Əlidir (ə), onu tanıyın və onu böyük bilin necə ki, Allah onu böyük bilmişdir."[2]

Bəli, mələklər, peyğəmbərlər və salehlər həmçinin dost və düşmən də O həzrəti (ə) mədh etmişlər. O cümlədən, Müaviyə oğlu Yezidə yazdığı məktubda O həzrəti (ə) mədh etmişdir.[3] Ömər ibn Səd bəzi şeirlərində o cənabı (ə) tərif etmişdir.[4]

O həzrət (ə) öz fəzilətlərini düşmənlərinə sayanda və onlardan buna şəhadət verməklərini tələb edəndə, onların hamısı etiraf

[1] Bihar 36/205; Uyunul əxbar 1/59
[2] Bihar 43/262.
[3] Bihar 44/311.
[4] Kamil ibn Əsir 4/53.

etdilər.[1] Şümür məlun fəryad etdi "O alicənab rəqibdir onun əli ilə öldürülmək eyib sayılmaz.[2] Sənan o həzrəti (ə) öldürən zaman deyirdi: "Səni öldürürəm və bilirəm ki, sənin atan Adəm övladlarının ən şərəflisidir."[3] İmam Hüseynin (ə) başını ibn Ziyadın yanına gətirən məlun bu şeiri oxudu:

Doldur qızıl-gümüşlə torbalarımı,
Pula xatir öldürdüm bəşər şahını.

Əcdadlarının yox misli-bərabəri,
Atası vəliyyullahdır, Allahın şiri.[4]

Yezid məlun, özü o həzrəti (ə) mədh etmişdir, belə ki, zövcəsi Hində ümumi məclisə çadrasız və örtüksüz daxil olanda, Yezid ayağa qalxıb onun başını örtdü və dedi: "Get Qüreyşin böyüyünə, Hüseynə (ə) ağla və növhə de."[5]

Yezid belə deyəndən sonra, siz ey dostlar niyə ağlamırsınız, nüdbə demirsiniz və cavanların Seyidinə nalə etmirsiniz.

Həzrət İmam Hüseyn (ə) möminlərin hüznünün səbəbidir

Xətm: "Bütün bu zikr edilənlər O sərvərin (ə) mədhlərindən və fəzilətlərindən kiçik bir nümunələr idi, yoxsa mənim O həzrətin (ə) fəzilətlərini saymağa nə əqlim yetişər, nə də qüdrətim. Elə bir şəxsin ki, Peyğəmbər (s) onun barəsində belə buyurub: "Onu üstün tutun necə ki, Allah onu üstün tutmuşdur."[6] Mən nə deyə bilərəm, lakin burada O cənabın (ə) bir xas fəzilətini bəyan etmək istəyirəm. Çünki, bu fəzilət hüzn və sevincə, təəssüf və fərəhə səbəb olan tamam ziddiyyətləri özünə şamil edir.

[1] Əmaliyə-Səduq 30-cu məclis səh. 129.
[2] Bihar 45/51; Məqtəli Xarezmi 2/33
[3] Bihar 45/55
[4] Kəşful-ğimmə 2/51
[5] Məqtəlul-Xarezmi 2\74
[6] Bihar 43/262

Bu qəribə işin izahı bundan ibarətdir: Deyilən və qabaqda deyiləcək səbəblərə görə O həzrət (ə) möminlərin hüznünün, qəm-qüssəsinin səbəbi olmuşdur. Əslində, hüznünün səbəbi bir cücərmiş toxumdur ki, onda hüzn və qəm təyin olunmayıb. Buna əsasən, Allah-taala O sərvəri (ə) möminlərin sevinc və fərəh səbəbi qərar vermişdir. Belə ki, sevinc və zinət sarayı olan tamam cənnətləri və huriləri O cənabın (ə) pak nurundan yaratmışdır. Ənəsdən nəql olunur ki, Peyğəmbər (s) belə buyurdu: "Allah-taala Məni, Əlini, Fatiməni, Həsən və Hüseyni Adəmi yaratmamışdan qabaq xəlq etdi. Hələ nə asiman var idi, nə yer, nə zülmət, nə nur, nə günəş var idi, nə ay, nə cənnət var idi, nə cəhənnəm, ancaq biz var idik." Əmisi Abbas dedi: "Ey Allahın Rəsulu (ə) Allah-taala sizi necə yaratdı?" Buyurdu: "Ey Əmi, Allah-taala bizi yaratmaq istəyəndə bir kəlmə buyurdu və ondan bir nur yaratdı, sonra başqa bir kəlmə buyurdu və ondan da bir ruh yaratdı. Sonra o nurla ruhu qarışdırdı və o məcundan biz beş nəfəri yaratdı.

Beləliklə, biz Allahı təsbih edib, həmd-səna söyləyirdik o zaman ki, nə təsbih edən var idi, nə də həmd-səna söyləyən. Allah-taala məxluqatı xəlq etmək istəyəndə mənim nurumu yardı və ondan ərşi yaratdı. Beləliklə, ərş mənim nurumdandır və mənim nurum Allahın nurundandır. Mənim nurum ərşin nurundan üstündür. Sonra Allah-taala qardaşım Əlinin (ə) nurunu yardı və ondan mələkləri yaratdı. Beləliklə Əli (ə) mələklərdən üstündür. Sonra qızım Fatimənin (ə) nurunu yardı və ondan asimanı və yeri yaratdı, buna görə asimanın və yerin nuru qızım Fatimənin(ə) nurundandır. Qızımın nuru isə Allahın nurundandır və qızım asimandan və yerdən üstündür. Sonra övladım Həsənin (ə) nurunu yardı, ondan günəşi və ayı yaratdı, beləliklə Həsən (ə) günəş və aydan üstündür. Sonra övladım Hüseynin (ə) nurunu yardı və ondan cənnəti və hurul-eyni xəlq etdi. Ona görə Hüseyn (ə) cənnətdən və hurul-eyndən üstündür. Hədisi-şərif burada tamam oldu.[1]

[1] Bihar 25/16

Buna əsasən, Hüseyn (ə) hər möminin hüznü və sevincinin səbəbidir.

Heyranedici budur ki, cənnət və hurul-eyn özü-özlüyündə fərəh və sevinc mənbəyi olduğu halda, O həzrət (ə) həmin cənnətin və hurul-eynin hüznünə səbəb olmuşdur. Hədisdə nəql olunduğu kimi, O həzrət (ə) Kərbəlada Aşura günü yerə yıxılanda cənnət onun halına ağladı, hurilər əlləri ilə üzlərinə vurdular və məna aləmində matəm məclisi qurdular.[1] Qəribədir, O həzrət (ə) behiştin həm hüznünə, həm də sevincinə səbəb olmuşdur. Rəvayətdə gəlir ki, behişt Allahdan xahiş etdi ki, ona zinət versin. Allah-taala Hüseyn (ə) ilə behiştin sütunlarına zinət verdi, bu vaxt, təzə gəlin sevincindən nazlandığı kimi behişt də öz-özünə nazlandı.[2]

[1] Bihar 25/206
[2] Bihar 43/275

ÜÇÜNCÜ ÜNVAN:

O HƏZRƏTİN (Ə) AŞURA GÜNÜ İBADƏTİNİN XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

Üçüncü ünvan: "Aşura günü O həzrətdən (ə) zahir olan sifətlərin, əxlaqın və ibadətlərin xüsusiyyətləri barədə, deyirik: "Aşura günü İmam Hüseyn (ə) məxsusi ibadətləri yerinə yetirməklə Allahın xas lütflərinə nail oldu. O cümlədən, batini və zahiri ibadətlərin cəm edilməsi, əxlaq kəramətləri göstərmək, növlərlə bəlalara tab gətirmək və onlara şükr etmək.

Aşura günü O həzrətin (ə) sifətləri, əxlaqı və ibadətlərinin xüsusiyyəti barədə

Bu ibadətlər cismani, zahiri vacib və müstəhəb əməllər ilə batini, qəlbi vacib və müstəhəb ibadətlərin birlikdə cəmi idi. Həmçinin bu ibadətlər ən kamil və ən şərəfli insanlar tərəfindən yerinə yetirilmişdir. Beləliklə, O həzrət (ə) bütün ibadətlərin, əxlaq kəramətlərinin və tamam həmd olunmuş sifətlərin təzahür etməsinə səbəb olmuşdur.

Bəlaların ən şiddətli növlərinə tab gətirməkdən və səbrin ən kamil növünü nümayiş etdirməkdən əlavə, şükrün ən əzəmətli siması ilə bunların hamısına şükr etmişdir. Həmin ibadətlər sayəsində tamam fəzilətləri özündə cəm edən bir məqama ucalmışdır. Habelə, O həzrət (ə) üçün misli görünməyən bu ibadətlərin xüsusiyyətləri hasil olmuşdur. Bütün bunlar Allah-taalanın O həzrətə (ə) məxsus edilən xitabına səbəb oldu: "Ey, aram tapmış nəfs, qayıt Rəbbinə tərəf, sən Ondan və O da səndən razı olaraq." Və O həzrətə (ə) xüsusi übudiyyət və xüsusi cənnət məxsus oldu - "Mənim bəndərimin zümrəsinə daxil ol! Və Mənim cənnətimə

daxil ol! (Fəcr/27-30). İndi isə Allahın köməyi ilə həmin məxsusi ibadətlərin təfsilatını bəyan edək:

Allah-taala öz bəndələrinin dərəcə, məqam və yaşadıqları zaman fərqliliyinə müvafiq olaraq, onların üzərinə məsləhətli olan təkliflər qoymuşdur. Beləliklə, hər peyğəmbər üçün bir şəriət və yol qərar vermiş və hər biri üçün müəyyən xüsusiyyət və imtiyaz bəxş etmişdir. Bizim Peyğəmbərimizə (s) də bu sonuncu, aləmə nur bəxş edən şəriəti lütf etmişdir. Habelə, O həzrət (s) üçün iyirmidən çox xüsusiyyət təyin etmiş və onun vəsiləri üçün səhifə üzərində qızıldan olan 12 möhürlə möhürlənmiş məxsusi hökmlər qərar verdi. Bu səhifəni Peyğəmbərin (s) vəfatından qabaq Cəbrayıl (ə) O həzrətə (s) gətirmiş və demişdir: "Bu sənin Əhli-beytinin (s) seçilmişlərinə olan vəsiyyətindir?" Həzrət (s) buyurdu: "Onların seçilmişləri kimdir?" Cəbrayıl (ə) dedi: "Əli ibn Əbitalib və onun övladları." Sonra Peyğəmbər (s) o səhifəni Əmir-əl-möminə (ə) verdi və əmr etdi ki, möhürün birini açsın və ona əməl etsin. Əli (ə) bu əmrə əməl etdi və özündən sonra o səhifəni imam Həsənə (ə) verdi. O həzrət (ə) də möhürün ikincisini açıb, ona əməl etdi. Sonra onu qardaşı Seyyidi-şühədaya (ə) verdi. İmam Hüseyn (ə) möhürü açanda gördü ki, orada yazılıb: "Qalx, səhabələrinlə birlikdə şəhadətə doğru çıx, öz nəfsini Allaha sat!" O sərvər (ə) bu yazılanlara əməl etdi və səhifəni İmam Zeynalabidinə (ə) ötürdü. İmam Zeynalabidin(ə) öz möhürünü açıb, oxudu: "Öz mənzilində sakit oturub, ömrünün axırınadək Allaha ibadət et..." Hədisin sonunadək.[1]

İmam Hüseynin (ə) təklifi aşura günü özünü Allaha satmaq olduğu üçün, O həzrət (ə) həmin gün tamam ibadətləri; bədəni və qəlbi, əməl və tərk edilməli, vacibi və müstəhəbbi, tamam növləri, sinifləri, bölümləri və şəxsləri ilə müştərəki və xüsusi ilə birlikdə cəm etdi. Beləliklə Allahla tam şəkildə müamilə etdi və bir məxluqa bəxşişi mümkün ola bilən tamam nemətlərin, aşkar və gizli lütflərin Allah tərəfindən ona məxsus edilməsinə müstəhəq oldu.

[1] Bihar 36/204; İləluş-şərayi 135-ci fəsil səh.171

Bu müamilənin təfsilatının və cəmi ibadətlərin bəyanı üçün fiqhi kitabların tərtibi kimi, bütün ibadətləri və əxlaqi məsələləri bir-bir ünvanlayıb və O həzrətin (ə) bunları yerinə yetirmə keyfiyyətini zikr etməyiniz lazımdır. Beləliklə, həmin ibadətlərin bəzi xüsusiyyətlərini və onların tərkib hissələrini bəyan edirik:

VACİB BƏDƏNİ İBADƏTLƏR KİTABI:

Aşura gecəsi O Həzrətin (ə) zahiri və batini təharəti

(Zahiri təharət fəsli): Aşura gecəsi O Həzrət (ə) oğlu Əliəkbərin gətirdiyi su ilə qusl aldı, hərçənd bilirdi ki, həmin suya ehtiyac olacaqdır. Bu İmam Hüseynin (ə) xüsusiyyətlərindəndir.

(Batini təharət fəsli). Mübarək qəlbindən axan qan ilə dəstəmaz aldı, sonra başından və əzalarından cari olan qanlar ilə tərtibi qüsl aldı və nəhayət mübarək boğazından axan qan ilə irtimasi qüsl aldı. Sonra Kərbəlanın isti qumu ilə təyəmmüm etdi, üzünü o torpağa sürtdü. Mübarək alnını torpağa qoymuşdur ki, tamam aldı-satdığını Allaha təslim etsin, bu vaxt təharətin bütün növləri; zahiri və batini dəstəmazı, qüslu və təyəmmümü o Həzrət (ə) üçün hasil oldu.

Aşura günü o Həzrətin (ə) namazının dörd qismi

(Namaz fəsli). "Camiə" ziyarətində gəldiyi kimi İmamların (ə) hamısı namazı iqamə etmişlər. Lakin İmam Hüseyn (ə) xüsusiyyətlərindən biri də Aşura günü qıldığı dörd qisim namazdır.

Birinci: O zalım qövmdən gecəni ibadət etmək üçün möhlət istəməsi və vida gecə namazı qılması.[1]

[1] Bihar 45/44; Məqtəl Xarəzmi 2/31

İkinci: Həmin xüsusi tərzdə xof namazı qismində zöhr namazı qılmışdır. İmamın (ə) namazı qəsr idi, ancaq bəzi səhabələr üçün qəsrin-qəsri oldu. Çünki, o Həzrətin (ə) yanında namaz əsnasında şəhid oldular.

Üçüncü: Namaz kitabında bəyan olunduğu kimi, namazın fellərinin, sözlərinin və keyfiyyətinin ruhu.

Dördüncü: Məxsusi təkbiri, qiraəti, qiyamı, rükusu, səcdəsi, təşəhhüdü və salamı olan məxsusi namaz. Beləliklə, Təkbirətulehramı atdan yerə yıxılan zaman oldu, qiyamı ayağa qalxan zaman oldu, rükusu əyilə-əyilə getdiyi, gah da üzü üstə yerə yıxıldığı vaxt oldu, qünutu həmin vaxtda oxuduğu dua oldu, səcdəsi mübarək alnı yerə dəyəndə və salamı mübarək ruhu bədənindən ayrıldığı zaman oldu. Namazdan qalxması mübarək başı nizə üstündə ucalan vaxt oldu və namazın təqibatı nizə başında tilavət etdiyi "Kəhf" surəsinin ayələri oldu.

(Oruc fəsli): Orucun on iki bölümü var və ayrıca bir fəsildə bəyan olunacaqdır (inşaallah).

O Həzrət (ə) ən ali və ən kamil oruc tutdu belə ki, yeməkdən, içməkdən və tamam qəlbi və bədəni əlaqələrdən imsak etdi. Buna görə, Allah-taala onun üçün Həzrət Rəsulun (s) əli ilə xüsusi iftar hədiyyəsi göndərdi. Necə ki, övladı Əliəkbər ərz etdi: "Atacan, bu cəddim Peyğəmbərdir (s) əlində bir cam tutub, səni gözləyir".

(Cənazələr fəsli): Ölülərə qüsl vermək, kəfən, hənut, dəfn etmək və namaz qılmaq vacibdir. Amma döyüş meydanında şəhid olana yalnız namaz qılıb və öz libasında dəfn etmək lazımdır. Onun cənazə mərasimində iştirak etmək və cənazəsini dörd tərəfindən götürüb, daşımaq müstəhəbdir, həmçinin fiqhi kitablarda zikr olunan sair ədəb və qaydalar. Ancaq O Həzrətə (ə) öz səhabələrinə nisbət bu vacibatları yerinə yetirmək mümkün olmadı. Ola bilər namazın vacibatından ən az qismini yerinə yetirmişdir.

Beş dəlilə əsasən dəfn olunması

Bəzi rəvayətlərə əsasən İmam (ə) qılıncı ilə südəmər Əliəsğər üçün bir qəbir qazdı və dəfn etdi.[1] Ola bilər bu əməlin bir neçə sirri var.

Biri: İmkanı buna çatırdı.

İkinci: Körpənin başının kəsilməsindən qurtarmaq səbəbindən.

Üçüncü: Üç gün isti qumlar üstündə qalmaması üçün.

Dördüncü: Atların ayaqları altında tapdanmasın deyə.

Beşinci: Onun bədənini bu halətdə müşahidə etməsinlər.

Bəli, O Həzrət (ə) səhabələrinə nisbət bacardığını yerinə yetirdi. Məsələn, onların cəsədlərini bir yerə yığdı. Bəzilərini özü daşıyırdı. Başqalarının daşıdıqlarını isə təşii edirdi.

Aşuranın gecəsi və gündüzü verilən bədən və malın zəkatı

(Zəkat və sədəqələr kitabı): O həzrət (ə) bədən və malın zəkatını verdi, ancaq onda/birini, ya dörddə/birini deyil, nəyi var idisə hamısını verdi, hətta qiyməti olmayan köhnə libasını da. Habelə, aşura gecəsi qiyməti min dinar olan bir neçə paltarı da hədiyyə etdi.[2]

(Cihad kitabı). "Camiə-kəbirə" ziyarətində gəldiyi kimi hidayət İmamlarının (ə) hamısı cihad haqqını ədа etdilər, ancaq O həzrət (ə) öz cihadında heç kəsdə olmayan xüsusiyyətlərə mükəlləf olmuşdur və burada bir neçə məsələ var.

[1] Bihar 44/49; Təbərsi "İhticac" 2/25

[2] Bihar 44/394; Luhuf səh.41.

İslamda cihad ilə İmam Hüseynin (ə) cihadının on üç imtiyazı

Birinci: İslam cihadının şərtlərindən biri bu olmuşdur ki, kafirlər müsəlmanlardan on dəfə artıq olmasınlar. Beləliklə, bir nəfər müsəlmanın on nəfər kafirin müqabilindən qaçmaması vacib idi. İslam qüvvələndikdən və şöhrət tapdıqdan sonra bu şərtlər yüngülləşdirildi və iki nəfər kafirdən çox olmaması ilə şərtləndi. Beləliklə, kafirlər iki nəfərdən çox olan surətdə cihad vacib olmurdu. Ancaq o Həzrət (ə) təkbaşına otuz min nəfər, hətta ondan da artıq kafirlərlə cihad etməli idi.

İkinci: Cihad uşaqlara və qocalara aid deyil, lakin Kərbəla hadisəsində Qasim və Əbdullah ibn Həsənə, qoca arvadın uşağına və Həbib ibn Məzahir kimi qoca ağsaqqala caiz oldu.

Üçüncü: Həlakət ehtimalı olmasın; lakin O Həzrət (ə) özünün və səhabələrinin öldürülməsini bilirdi və onlara xəbər vermişdi ki; "Sabah oğlum Əlidən başqa hamımız şəhid olacağıq."[1]

Dördüncü: Zalımlar O Həzrətlə (ə) elə rəftar etdilər ki, Allahtaala kafirlərlə cihadda elə rəftarı qadağan etmişdir. O cümlədən, O Həzrətlə (ə) haram ayların birində cəng etdilər və İmam (ə) onlarla vuruşmağa məcbur olmuşdur.

Beşinci: Cihadda kafirlərin qadın və uşaqlarını öldürmək olmaz. Lakin O Həzrətin (ə) bir neçə uşağını, o cümlədən südəmər körpəsini şəhid etdilər. Həmçinin, Həzrət (ə) uşaqlarından birini öpmək və vidalaşmaq üçün çağıranda düşmən ordusundan biri ox atıb uşağı şəhid etdi.[1] Digər, körpə, südəmər Əliəsğəri onların müqabilinə gətirib, onun üçün su istədi. Əvəzində hulqumundan üç tirli oxla vurdular.[2]

Altıncı: Kafir, döyüşmək üçün bir mübariz tələb edən zaman onun üstünə kütləvi halda həmlə etmək olmaz. Düşmənlər əvvəl şərt kəsdilər ki, bir-bir o Həzrətlə (ə) vuruşacaqlar, amma sonra-

[1] Bihar 45/46; İrşad Mofid 2/112
[2] Nəfsul-məhmun səh 350

dan öz vədələrini pozdular və hər tərəfdən bir dəstə qılınc və bir dəstə nizə ilə İmamın (ə) üzərinə hücum çəkdilər.[1]

Yeddinci: Döyüşə zöhrdən sonra başlayarlar ki, çox uzun çəkməsin və havanın qaralması tamamilə qırılıb, məhv olmanın qarşısını alsın. İmamın (ə) düşmənləri isə əksinə etdilər, gün doğan vaxt döyüşə başladılar.[2]

Səkkizinci: Kafirin başını kəsəndən sonra, onu hərb meydanından kənara aparmazlar. Ancaq onlar İmamın (ə) və səhabələrinin başlarını Kufəyə, oradan da Şama apardılar.

Doqquzuncu: Kafir əgər qəbilənin başçılarından olarsa onun paltarlarını soymazlar. Necə ki, Əmirəl-möminin (ə) Əmr ibn Əbdivədi Xəndək müharibəsində qətlə yetirəndə – belə ki, Əmr ibn Əbdivəd həm küfrün hamisi idi, eyni zamanda qəbiləsinin başçısı idi. Onun əynində həm çox bahalı və misilsiz zireh var idi, Həzrət (ə) ona toxunmadı. Bir nəfər İmamdan (ə) soruşdu: "onun zirehini niyə götürmədin?" İmam Əli (ə) cavabında buyurdu: "O öz xalqının böyüyüdür, hörmətinin aradan getməsini istəmədim."[3]

Bu mənzərəni görən Əmrin bacısı başa düşdü ki, qardaşının qatili alicənab şəxsiyyətdir buna görə iki cəhətdən fərəhləndi, biri qardaşının alicənab şəxsin tərəfindən öldürüldüyünə görə, ikinci də qardaşının hörmətinin qalmasına görə. O dedi: "Ey qardaşım gözlərimin yaşı qurumasın əgər sənə ağlasam. Uzun illər boyu böyüklük etdin indi də kərim və ləyaqətli şəxsiyyət tərəfindən öldürüldün."

Mən bilmirəm, əgər onun qardaşının qatili keçi otaranın oğlu, bədbəxt, haramzadə Şimr məlun olsaydı nə edərdi?

Onuncu: Kafiri müslə etmək (yəni, bədən əzalarını kəsmək) haramdır. Hətta Həzrət Əli (ə) birinci və axırıncı bədbəxt olan İbn Mülcəmi müslə etməyi qadağan etdi.[4] Bu əmr kafirlər və bütpərəstlər üçün və cahiliyyət dövrü müsəlmanlara nisbət sabit idi.

[1] Luhuf səh 54.
[2] Bihar 45/4.
[3] Bihar 20/257
[4] Munaqib 2/95

Ühud müharibəsində Əbu Süfyan Həzrət Həmzənin cəsədinin üzərinə gəlib, nizəsinin ucunu onun ağzına qoydu və dedi: "Dad, ey lənətə gəlmiş." Görəndə ki, barmaqları kəsilib, qarnı yarılıb və ciyərini çıxarıblar fəryad etdi: "Ey Muhəmmədin əsgərləri, ölənlərinizin arasında müslə var: Allaha and olsun mən əmr etməmişdim və buna razı deyiləm."[1] Lakin İbn Ziyad məlun müslədən dəhşətlisini etdi, yazılı surətdə İbn Sədə fərman verdi: "Hüseyni (ə) öldürəndən sonra atları meyitlərin üstünə çapın ki, cəsədləri tapdalansınlar."[2]

On birinci: Kafirlərin qadınlarını əsir götürəndə onları öldürülən əqrabalarının qətlgahından keçirmək olmaz. Xeybərin fəthindən sonra Bilal Sübeyyəni xeybərlilərin qətlgahından keçirdi və onun bədəni lərzəyə gəlmişdi. Bilal onu Peyğəmbərin (s) hüzuruna gətirəndə Həzrət (s) Bilalı məzəmmət elədi.[3] Lakin Ali-Muhəmməd (s) əsirlərini qətlgahdan köçürməklə kifayətlənmədilər, şəhidlərin mübarək başlarını nizəyə taxıb əsirlərin gözləri qabağında Şama qədər apardılar.

On ikinci: Kafirlərin əsir qadınları əgər səltənət ailəsindən olsalar onları bazarda satışa çıxarmazlar, məclislərdə nümayiş etdirməzlər və üzləri örtüksüz halda saxlamazlar. İmam Baqirdən (ə) nəql olunur ki, "Qızları Şama daxil edəndə, gördüm Şam əhli öz aralarında deyirlər: "Bunlardan xoş simalı əsirlər hələ görməmişik."[4] Yezid məlunun məclisində, Şam əhlindən biri ona dedi: "Ey Yezid, bu kənizi mənə hədiyyə eylə."[5] Belə bir vəziyyət satışa çıxarılmaqdan daha pis və şiddətli idi.

On üçüncü: Əmr be məruf və nəhy ən münkərin (yəni, yaxşılığa dəvət və pislikdən çəkindirməyin) şərti zərərdən əmniyyətdə olmaqdır. O Həzrət (ə) zərər görəcəyini bildiyi halda əmr be məruf etməyə qalxdı. Bu İmam Hüseyni (ə) xüsusiyyətindən idi. O Həzrə-

[1] Bihar 20/97
[2] Bihar 45/180
[3] Bihar 21/22
[4] Bihar 45/154.
[5] Bihar 45/154.

tin (ə) hidayət və irşadının da xüsusiyyəti vardır. Rəvayətdə gəldiyi kimi, İmam Hüseyn (ə) öz qatilinin üzünə təbəssüm edib moizə buyurdu.[1] Habelə mübarək başı rahibi İslama irşad etmişdir.[2]

MÜSTƏHƏBBİ İBADƏTLƏR KİTABI

O Həzrətin (ə) Aşura günü su paylaması

(Su paylamaq fəsli): Su vermək təkid olunmuş müstəhəbbi əməllərdəndir, hətta kafirlərə və heyvanlara da bəzi vaxtlar vacib olur. Qiyamət günü bu əməlin əcri digər əməllərdən qabaq verilər.[3] İmam Hüseyn (ə) növlərlə su ehsanı elədi. Belə ki, öz düşmənlərinə, onların atlarına doyunca su payladı. Zül-Cənaha buyurdu: "Su iç". Uşaqlarına, əyallarına su ehsanı etdi, hətta mübarək əli ilə su quyusu qazdı.[4] Mübarək dili ilə düşmənlərdən altı aylıq körpəsi üçün bir qətrə su istədi.

Aşuranın gecəsi və günü O Həzrətin (ə) yemək paylaması

(Yemək ehsanı fəsli). Sıxıntı zamanı yetimlərə və miskinlərə yemək vermək ən üstün əməllərdəndir və Qiyamətin şiddətindən qurtuluş vasitəsidir. Ancaq Aşura günü O Həzrət (ə) bu əməli həyata keçirməyə imkan tapmadı. Çünki, o gün onlar hər cəhətdən sıxıntı içində idilər, yeməyə heç nə yox idi. İmam Səccad (ə) buyurdu: "Peyğəmbərin (ə) balası susuz və ac halda şəhid oldu".[5]

Təşnəliyin şiddəti daha çox idi. O Həzrət (ə) su istəmişdir, amma yemək istəməmişdir, çünki o istəkdə zillət var və qeyrət

[1] Bihar 45/56: Məqtəli Xarəzmi 2/36.
[2] Bihar 45/185.
[3] Bihar 93/173.
[4] Bihar 44/387.
[5] Luhuf səh 92.

səhabələri o istəkdən imtina edərlər. Hətta bəziləri hələ istəmədən onlara yemək verəndə götürməzdilər. Dəlili də budur ki, Kufə əhli əsir uşaqlara xurma, qoz-fındıq verəndə Ümmü Gülsüm onlara uca səslə dedi: "Sədəqə bizlərə haramdır." Uşaqların ağzından xurmaları çıxarıb atırdı.[1] Çünki, belə bir vəziyyətdə özünə zilləti və təhqiri şamil edən bir sədəqədir, bu da onlara haramdır. Hərçənd zəkat ünvanı ilə olmasa belə.

Aşuranın gecə və gündüzü O Həzrətin (ə) nəvaziş göstərməsi

(Nəvaziş fəsli). Övladlara və qohum-əqrabaya xüsusən qızlara nəvaziş, mehribanlıq göstərməyin çox fəziləti vardır. İmam Hüseyn (ə) tamam qızlara xüsusən Səkinəyə ən gözəl nəvazişlər, lütflər etdi, onu öpdü, başına sığal çəkdi, təsəlli verdi. Amma bu əməl o balaca balanın qəm-qüssəsini daha da artırdı.[2]

Aşuranın gecəsi və günü düşməndən qorunmaq

(Düşməndən müdafiə etmək və qəm-qüssəlinin könlünü almaq fəsli).

Dostu düşməndən qorumaq və müsəlmanların fəryadına yetişmək gözəl sifətlərdən və tərifləmiş xislətlərdəndir. O Həzrət (ə) bacardığı qədər öz Əhli-beytini və əyalını düşməndən qorudu. Hətta buyurdu: "Ey qövm, gəlin məni öldürün, ancaq hərəmdən əl çəkin."[3] Yetmiş iki səhabəsi O Həzrəti (ə) çağıran zaman onların dadına yetişdi. Bəli, bəzi vaxtlar şəhidlərin halına artıq O həzrətin (ə) bir maddi mənfəəti olmurdu necə ki, Həzrət Qasimin əhvalatında nəql olunur, (qabaqda deyiləcəkdir inşaallah). Həzrət (ə) buyurdu:

[1] Bihar 45/114.
[2] Münaqib 3/257.
[3] Bihar 45/51.

"Ey Qasim, çətindir sənin əmin üçün fəryadına çata, amma sənin halına bir köməyi dəyməyə".

Aşuranın gecə və gündüzü O Həzrətin (ə) təsəlli verməsi

(Mömini sevindirmək və onu ziyarət etmək fəsli). Bu ən fəzilətli əməllərdəndir. İmam Hüseyn (ə) Aşura günü tamam səyini qadınları, öz səhabələrini və Əhli-beytini sevindirməyə və onlara təsəlli verməyə yönəltmişdir. Lakin Kərbəla torpağı Kərb (qəm-qüssə) və bəla (imtahan, sınaq) məkanı və Aşura günü təəssüf və kədər günü olduğuna görə, onlar o gün orada heç sevinmədilər və ziyarətləri də müxtəlif ünvanlarla hasil oldu.

Aşuranın gecə və gündüzü O Həzrətin (ə) xəstələrə baş çəkməsi

(Xəstələrə baş çəkmək fəsli). Bu əməlin böyük savabı vardır. Hədisdə gəlir ki, Allah-taala Qiyamət günü məzəmmət edəcək ki, niyə Mən xəstə olanda baş çəkib, Məni ziyarət etmədin?! Ərz edər: "Ey Allahım! Sən xəstəlikdən uca və paksan". Nida gələr: "Filan mömin xəstə idi və sən ona baş çəkmədin".[1] İmam Hüseyn (ə) Aşura günü xəstələrə baş çəkdi, yaralıların əhvallarını yoxladı, növlərlə lütflər və mərhəmətlər göstərdi. Hətta o qara qula və türk qulamına nəvazişlər etdi. Ancaq oğlu Əliəkbərin halına yetişmək O Həzrətə (ə) müyəssər olmadı. Həzrət Əliəkbər döyüş meydanından axır nəfəsində atasını səslədi və vida salamı verdi. İmam Hüseyn (ə) onun başı üzərinə çatanda, artıq canını tapşırmışdır. Həzrət (ə) fəryad etdi: "(Ya bunəyyə qətəlukə)" (yəni, "oğlum səni öldürdülər!")[2]

[1] Fəsailuş-şiə 2/635.
[2] Bihar 45/44.

Bəli, oğlu Həzrət Səccada (ə) baş çəkdi, döyüş meydanına gedəndə əhvalını soruşdu. Qəribədir, xəstəyə baş çəkən xəstədən qabaq dünya ilə vidalaşdı. Bu mövzunun təfsilatı şəhadət fəslində gələcək (inşaallah).

Aşura gecəsi və günü Quran tilavati və dualar

(Quran tilavati və dua). O Həzrətin (ə) gecə və gündüz Allahın kitabını tilavət etməyə çox böyük sövqü var idi. Aşura gecəsi həmin bu səbəbdən düşməndən döyüşün təxirə salınmasını istədi.[1] Həmin gecə Quran tilavati, münacatlar və ibadətlər sayəsində ibn-Sədin ləşkərindən otuz nəfər hidayət olundular və O Həzrətin (ə) tərəfinə keçib, Şəhadət feyzinə yetişdilər. İmam Hüseyn (ə) düşmən ləşkərinin müqabilində dayanan vaxtdan, mübarək başı nizəyə taxılanadək Quran oxudu və nizə ucunda mübarək başı "Kəhf" surəsini tilavət edirdi. O Həzrət (ə) bütün hallarda daim Allahı zikr edirdi, əslində Tasua axşamından Aşura axşamınadək O Həzrətin (ə) tamam sözləri, felləri, hərəkətləri və sakinliyi Allahın zikri idi. Əmanəti sahibinə qaytaranadək Allahla olan əhd-peymanını yad edirdi. Bəşəriyyətə xas olan dünya ilə bağlı işlərlə, hətta yemək və içməklə də məşğul olmadı. Təşnəliyin ən şiddətli vaxtı belə dili daim Allahı zikr edirdi. Gecəni sübhədək dua və namaza həsr etdi, bunlara xatir düşməndən gecəni möhlət istəmişdir. Sübhün əvvəlində bu duanı oxudu: "Ey Allahım! Sən hər qəmimdə, kədərimdə mənim pənahımsan. Hər müşkülümdə ümid yerimsən, hər müsibətimdə mənim silahım və sığınacaq yerimsən. Zəif qəlblərin tab gətirə bilmədiyi kədərə qərq olan zaman və çarə yolları bağlanan zaman, dostlar uzaqlaşıb, düşmənlər tənə dillərini açan zaman Sənin dərgahına şikayət etdim və Sən bu kədərləri aradan apardın." Duanın axırı torpağa yıxılan vaxt oxunmuşdu. (Allah məqamını ali etsin).

---

[1] Bihar 44/392.

Qəlbi ibadətlər və gözəl sifətlər fəsli

Bil ki, Aşura günü O Həzrət (ə) ən ali əxlaq kəramətlərini zahir etdi. Buna əsasən, əvvəl gərək gözəl əxlaq və sifətləri bəyan edək. Rəvayətdə gəlir ki, bunlar ənbiya və rəsulların xislətlərindəndir[1] və sayı on ikidir:

Yəqin, riza, səxavət və şücaət İmam Hüseynin (ə) qəlbi ibadətlərindəndir.

Əvvəl yəqindir, onun həqiqəti nəfsi dünyadan çəkindirməkdir. Bu sifət O həzrətdə (ə) Mədinədən çıxıb Kərbəla torpağına çatan vaxt əsnasında zahir oldu. Qardaşı Muhəmməd Hənəfiyyə və digər bəni-Haşimə aşağıdakı məzmunda məktub yazdı: Bu məktub Hüseyn ibn Əlidən qardaşı Muhəmməd ibn Əliyə və onun ətrafında bəni Haşimdən olanlara ünvanlanır: "Amma sonra, sanki dünya heç olmamışdır və Axirət həmişə var idi."[2] Bu kəlam qəlbi dünyadan ayırıb axirətə bağlamaq mənasındadır.

İkinci: "Riza sifətidir; İmam Hüseyn (ə) riza sifətinin ən ali dərəcəsində idi." Məkkədən çıxan zaman buyurmuşdur: "Sanki, öz əzalarımı Kərbəlada səhra canavarları tərəfindən parça-parça olunduğunu görürəm. Və Allahın razılığı biz Əhli-beytin (ə) buna razılığındandır."[3]

Üçüncü: Səxavətdir; İmam Hüseyn (ə) bu sifətin elə bir məqamında idi ki, nəyi var idisə malı və ondan qeyrisini, hamısını Allah yolunda sərf elədi.

Dördüncü: Şücaət; Bu sifəti İmam Hüseyn (ə) Allahın Rəsulundan (s) irs aparmışdır. Rəvayətdə gəlir ki, Aşura günü O Həzrətdən (ə) dillər əzbərinə çevrilən şücaət zahir oldu. Demirəm atasından daha şücaətli idi, ancaq heç kəsdən hətta atasından görünməyən şücaət göstərdi. Abdullah ibn Əmmar nəql edir; "Hələ ömrümdə görməmişdim ki, övladları, əqrabaları və səhabələri öldürülən bir insan tənha otuz mindən çox olan qoşunun üzərinə

[1] Vəsailuş-şiə 11/155
[2] Bihar 45/78.
[3] Bihar 44/267.

şir kimi həmlə edə və düşmənlər onun qarşısında çəyirtkələr kimi pərakəndə olalar".[1] Bu qədər böyük qoşunun üzərinə həmlə etmək, düşməni qaçmağa vadar edən heybət və əzəmətindən əlavə, şücaətin kəmalına dəlalət edən qəlbin xüsusi qüvvəsini tələb edir.

Qəlbin aramlığı (mütməinnə olması) və helm O Həzrətin (ə) tərifəlayiq sifətlərindəndir.

Beşinci: "Qəlbin aramlığı və vüqarı; O Həzrətin (ə) işi çətinləşdikcə vüqar və aramlığı daha da artır və üzü daha nurani olurdu."[2]

Altıncı: Qəlbin riqqəti və mehribanlığıdır. Bu sifət İmam Hüseyndə (ə) kamal məqamında idi. Belə ki, səhabələrini hamısına və əhli beytinə qarşı çox qayğıkeş və mehriban idi. Onları himayə və əhvallarına riayət etməkdə səy göstərirdi, elə bu səbəbdən müsibəti də artırdı. Məsələn, görəndə ki, qardaşı oğlu Qasim döyüş meydanına getmək əzmindədir onun halını düşündü ki, yetim uşaq heyrət içində oturub ölümə doğru getmək istəyir. O qədər ağladı ki, axırda qəşşş elədi. Bəs Qasimi yaralı halda yerə yıxılanda və atların onun mübarək bədəni üzərində cövlan etdiyini görəndə nə hala qalmışdır!

Yeddinci: Helm sifətidir: İmam Hüseyn (ə) bu sifətin kamal məqamında idi. Bütün bu müsibətlər, əziyyətlər, qətllər, yaralar müqabilində heç kəsə nifrin (lənət) etmədi. Yalnız, O Həzrətin (ə) qəlbini təhqir və söyüşlə yaralayan zaman səbir etmədi. Hətta Malik ibn Bəsər məlun O Həzrətə (ə) qılınc vurdu və söyüş verdi, ancaq İmam (ə) qılınc vuran vaxt yox, söyüş söyən zaman nifrin etdi. Çünki, təhqirə səbir etmək zillətə səbəb olar. İmam Hüseyn (ə) isə zillətə heç vaxt boyun əyməmişdir, necə ki, buyurardu: "Rüsvayçılığı qəbul etməkdənsə, ölüm yaxşıdır."[3]

---

[1] Bihar 45/50.
[2] Bihar 44/297.
[3] Bihar 45/50.

O Həzrətin (ə) gözəl əxlaqı, mürüvvəti, qeyrəti, qənaəti və səbri

Səkkizinci: Gözəl əxlaqdır; İmam Hüseyn (ə) şiddətli müsibət qarşısında dost və düşmənlə təəccüb doğuran həddə lətafət və gözəl əxlaqla davranırdı.

Doqquzuncu: Mürüvvətdir; Bu sifətin zirvə mərhələsi İmam Hüseyndən (ə) zahir oldu; Nümunə olaraq, düşmən ordusunun hamısını su ilə sirab edəndə[1] və Cin tayfasının ona kömək etməsinə razı olmayanda[2] mürüvvətin kamalını göstərdi. Şümür məlun söz demək üçün Xeymələrə yaxınlaşanda səhabələrdən biri oxla o məlunu vurmaq istəyirdi, İmam (ə) ona mane olub buyurdu: "Mən döyüşə birinci başlamıram."[3]

Onuncu: Qeyrət sifətidir; O Həzrət (ə) özünə və əhli-əyalına nisbət kamil həddə qeyrət göstərdi. Özünə qarşı qeyrəti sözlərindən və fellərindən məlumdur. Onların arasında qəlbi yandıran hallardan biri Saleh ibn Vəhəbin zərbətindən sonra O Həzrət (ə) atdan yıxılıb, artıq onun ata süvar olmağa taqəti qalmayanda baş verdi. İmam (ə) qeyrətin şiddətindən, bədənindəki çoxsaylı yaralarına baxmayaraq ayağa qaxdı, lakin taqətsizlikdən yerə oturdu. Yenə də onu bu halətdə rahat buraxmadılar, üstünə həmlə etdilər. Elə hala düşmüşdü ki, gah otururdu, gah yıxılırdı. Həzrət (ə) bütün bu cəhdləri ona görə edirdi ki, onu yıxılmış halda görüb, tənə və məsxərə etməsinlər.

Amma, o ki qaldı, öz əyalına nisbət; onları qorumaq üçün xeymələrin ətrafında xəndək qazıb içərisində atəş yandırdı.[4] Düşmənə buyurdu ki, "Hərəmdən əl çəkin, mənə tərəf gəlin." Elə bir həddə gəlib çatdı ki, O Həzrət (ə) son dərəcə təşnə halda əli suya yetişmişdi, suyu dodaqlarına çatdırdığı an onu yerə tökdü. Çünki, bir məlun nida etdi: "Ey Hüseyn! Ləşkər xeymələrə hücum edir, sən isə su içirsən!"

[1] Bihar 44/376.
[2] Bihar 44/330.
[3] Bihar 45/56
[4] Bihar 45/54-55.

On birinci: "Qənaət sifətidir": İmam Hüseyn (ə) hüccəti tamam etmək üçün qənaət etdi ki, ondan əl çəksinlər və İslam sərhədlərindən çıxıb getməyə imkan versinlər, lakin düşmən buna razı olmadı. Yenə də bir köhnə libasla tamam dünya malından qənaət etdi, ancaq onu da bədənindən çıxardılar.

On ikinci: Səbir sifətidir: Bu İmamətin dəlilidir və onların savabı səbrə bağlıdır. Allahın kəlamı buna şahiddir, necə ki, buyurub: **"Və onları etdikləri səbir müqabilində (üstün) bir Cənnətlə (zərif) ipəklə mükafatlandıracaqdır."** (İnsan /12) İmam Sadiqdən (ə) nəql olunur ki,: Allah-taala merac gecəsi Peyğəmbərə (s) vəhy etdi: "Sənin səbrin məlum olsun deyə, səni üç şey ilə imtahan edəcəm." Buyurdu: "Ey Allahım, Sənin əmrinə təslim oluram və səbir etmək üçün Səndən kömək diləyirəm." Vəhy nazil oldu:

Birinci: "Ümmətin fəqirlərini özündən üstün tutasan." Buyurdu: "Qəbul edirəm və səbir edəcəm."

İkinci: "Xalq tərəfindən əziyyətə və təkzib olunmağına səbir edəsən." Buyurdu: "Qəbul edirəm və səbir edəcəm"

Üçüncü: "Gərək sənin Əhli-beytinə (ə) gələn müsibətlərə səbir edəsən. Qardaşın Əlinin (ə) haqqını qəsb edəcəklər, ona zülm və cəsarət edəcəklər. Qızını irsdən məhrum edəcəklər və ona əziyyət verəcəklər. Hamilə olduğu halda onu vuracaqlar. Qəhrlə onun evinə daxil olacaqlar və hörmət riayət etməyəcəklər. Övladın Həsəni (ə) zəhərlə şəhid edəcəklər, əşyalarını qarət edəcəklər. Övladın Hüseyni (ə) çağıracaqlar ki, ona kömək etsinlər, sonra isə onu əziyyətə düçar edəcəklər, övladlarını və səhabələrini şəhid edəcəklər, əhli-əyalını əsir aparacaqlar." Buyurdu: "Təslim oluram və səndən səbir istəyirəm".[1]

[1] Bihar 28/61.

HƏZRƏT RƏSULUN (S) HÜSEYNƏ (Ə) AĞLAMASI

Müəllif deyir Peyğəmbər (s) bütün bu işlərə səbir etdi, ancaq Hüseynə (ə) ağladı. Çünki, Hüseynə (ə) ağlamaq səbrə zidd deyil, əksinə şəfqət və rəhmət nişanəsidir. Hələ eşidilməyib ki, O Həzrət (s) öz Əhli-beytindən (ə) birinin müsibətini zikr edərkən ağlasın, fəqət Hüseyndən (ə) başqa. Peyğəmbər (s) hər nə vaxt Hüseyni (ə) görəndə və ya onu yad edəndə ağlayırdı. Əliyə (ə) buyurardı: "Onu əllərinlə saxla". Sonra onun boğazından öpüb ağlayardı." Deyərdilər: "Niyə ağlayırsan?" Buyurardu: "Qılıncların yerini öpürəm." Allahın Rəsulu (s) Hüseyni (ə) gülərüz görəndə ağlayırdı, hüznlü görəndə aglayırdı. Təzə paltar geyinəndə ağlayırdı. Həmçinin Əli (ə), xanım Fatimə (ə) və Həsən (ə) hamısı ağlayardılar. İmam Hüseyn (ə) öz Əhli-beyti ilə vidalaşanda onlara səbir etməyi, üzlərini cırmamağı, va-veyla deməməyi vəsiyyət etdi, lakin ağlamağı qadağan etmədi. Qızı Səkinəyə buyurdu: "Mən həyatda ikən mənə ağlama."

Həsrət göz yaşları ilə yandırma qəlbimi,
Ruhum bədəndə ikən sındırma belimi.

Şəhadət şərbətin içib, dünyadan köçəndə,
Ağla ki, həmişə ağlasın aşiqlər aləmi.

O Həzrətin (ə) səbri barədə bir qədər düşün ki, mələklər ona təəccüb etdilər; İsti qumlar üstünə yıxılanda, tamam əzaları ox, qılınc, nizə yaralarından qan verəndə, mübarək başı, alnı yarılmış, sinəsi oxlardan deşik-deşik, ürəyi üç gözlü oxla çatlamış, hülqumuna ox sancılmış, bir ox qabırğasını sındırmış, dili teşnəlikdən dodağına yapışmış, dodaqları quruyub, çatlamış, qəlbi qətlə yetirilmiş səhabələrinə və başsız qalmış əhli-əyalına sızlayan halda, Zərə ibn Şərikin zərbəsindən əli kəsiləndə, nizə böyründən sancılanda, başı və üzü qana bulaşanda, əyalının və uşaqlarının im-

dad səsası bir tərəfdən, düşmənin tənə və təhqiri digər tərəfdən, səhabələrinin cəsədləri o biri tərəfdən bütün bunlara baxmayaraq bir ah belə çəkmədi və bir damla göz yaşı axıtmadı, hey deyirdi: "Sənin qəza və kədərinə səbir edirəm, Səndən başqa məbud yoxdur, Ey pənah gətirənlərin Pənahı!" buna görə O Həzrətin (ə) ziyarətnaməsində gəlir: "Həqiqətən səmaların mələkləri sənin səbrinə heyran qaldılar."[1]

İmam Səccaddan (ə) nəql olunur ki; İmam Hüseynin (ə) vəziyyəti hər nə qədər ağırlaşırdısa, çöhrəsi bir o qədər nurlanırdı və qəlbi daha çox aram tapırdı. O həddə ki, düşmənlər öz aralarında deyirdilər: "Baxın, Hüseyn (ə) ölümdən qorxmur!" Bəli, O Həzrət (ə) Kərbəlada altı dəfə ağladı. Ola bilər bu ağlamağın səbəbi aşağıdakılardır:

Biri budur ki, Əhli-beytin müsibətlərinə ağlamağın özü ən əzəmətli ibadətlərdəndir.

Digəri, Allahın dininin aradan getməsinə görə idi.

Üçüncü İmam (ə) bəşəri hiss və duyğulardan azad deyildi. Həmçinin aclıq, teşnəlik və yorğunluq halında keçirdiyi müsibətlər zamanı qəlb yanğısı hissiyyatı da O Həzrətə (ə) ariz olurdu. Necə ki, Həzrət Rəsul (s) balası İbrahimin vəfatında ağlayaraq, buyurmuşdur: "Qəlb yanır və göz yaşı axır, ancaq Allahın qəzəbinə səbəb olan bir söz demirəm."[2] O Həzrət (ə) da cəddi Peyğəmbər (ə) kimi rəftar etdi, məgər mümkündürmü insan bu qədər səhabələr, qardaşlar və övladların ölümündən sonra özünü tənha, köməksiz, məzlum halda görə, yer üzünü ona dar edələr, düşmənlər hər tərəfdən onu əhatəyə alalar, ailəsi və uşaqları hamısı ac, susuz, biri xəstə, o biri huşdan getmiş, digəri can üstündə olduqları halda şərəflə şəhadətə doğru gedə. Həzrət (ə) artıq hazırlaşıb ki, onları tərk edib ölümə tərəf getsin, üzünü tutub hərəmə tərəf buyurdu: "Əsarətə hazırlaşın, səbir edin, ah-nalə çəkməyin." İstəyir döyüş meydanına tərəf getsin bu vaxt balaca qızı, başı açıq, gəlib tutur onun paltarından, qucaqlayır və deyir: "Bir az dayan, sənlə doyunca görüşüm, bu axırıncı vidadır." İmam (ə) onun

[1] Bihar 98/240.
[2] Bihar 22/157

əlindən, ayağından öpür, özü oturur, balaca qızcığazı da qucağına alır. Belə bir halətdə İmam (ə) necə ağlamasın!? Ağladı, göz yaşlarını da ətəyi ilə silərək buyurdu:

"Ey Səkinə, başsız bədənim torpağa düşəndə,
Bil ki, daim ağlayarsan hər nəyi görəndə".

O Həzrət (ə) bir dəfə bu vəziyyətdə ağladı.[1]

İkinci: Qardaşı Abbasın cəsədinin yanına gələndə ağladı. Gördü, oxla deşilmiş məşk bir tərəfdə, kəsilmiş qollar hərəsi bir tərəfdə, belə mənzərəni müşahidə edərkən şiddətlə ağladı.[2]

Üçüncü: Qardaşı oğlu Qasim döyüş meydanına gedəndə, onu bağrına basıb qəşşş edənədək ağladı.

Dördüncü: Qasimin cəsədinin yanına gəlib, bədəninin atların tapdağı altda dağıldığını görəndə ağladı.

Beşinci: Oğlu Əliəkbər meydana gedəndə göz yaşı axıtdı, mübarək saqqalını əli ilə tutub, başını asimana tərəf qaldırdı və münacat etdi.

Altıncı: Bacısı Zeynəb ağlayıb, ahu-zar edəndə ona təsəlli vermək istəyirdi, ancaq O Həzrəti (ə) qəhər boğdu, özünü saxlaya bilmədi, ağladı. Bir qədər göz yaşı axıdandan sonra özünü saxladı. Bu deyilənlər barədə bir qədər düşünsən, bilərsən ki, rəhimli və mehriban qəlbə sahib olan insanın belə hallarda ağlamaması qeyri-mümkündür.

Xətm: Bil ki, bundan əvvəlki ünvanda O Həzrətin (ə) tamam həyatı boyu olan sifətlərinin xüsusiyyətləri idi, bu isə O Həzrətin (ə) Aşura günü zahir olan xüsusiyyətlərinin bəyanı idi. Sonda, Aşura günü baş verən xüsusiyyətlərinin xasının xası barədə söhbət açacağıq və burada iki qəribə sifət hasil olmuşdur.

[1] Münaqib ibn Şəhr Aşub 3/257.
[2] Bihar 45/42.

İMAM HÜSEYN (Ə) ZİDDİYƏTLİ SİFƏTLƏR MƏCMUƏSİDİR

Birinci: Ziddiyətli sifətlər məcmuəsi mövzusuna dair deyirik; O Həzrət (ə) bəzi əziyyətlərlə üz-üzə gələndə iztirab halətinə düşürdü və iztirabı hər nə qədər çox olurdusa bir o qədər aramlığı və vüqarı artırdı. Beləliklə iztirab və vüqar arasında cəm etmişdir. Deyildiyi kimi, O Həzrət (ə) bir neçə halda ağlamışdır, eyni zamanda səbir etmişdir, o həddə ki, mələklər onun səbrinə heyrətdə qalmışlar. Beləliklə, səbir ilə ağlamaq arasında cəm etmişdir.

Həmçinin, tənha halda meydanda düşmənlər tərəfindən mühasirəyə alınmışdır. Səhabələri, övladları, öldürülməsinə və köməksiz qaldığına baxmayaraq, düşməndən özü öz qanını tələb edirdi. Şir kimi meydana atılıb, özünü qoşuna vururdu sanki çoxsaylı qoşunu və əsgəri var idi. Düşmən üzərinə həmlə edəndə, qoyun sürüsünün içinə canavar düşmüş kimi, düşmən qoşununu pərakəndə edirdi.

Habelə, əhli-əyalının arasında, qərib və bikəs idi, öz təkliyindən kömək istəyirdi, buyurdu: (Həl min nasirin yənsuruni) yəni "Mənə kömək edən bir kəs varmı?" Belə halətdə bəlada olanların dadına yetişirdi, səhabələrindən hansı biri döyüş meydanında torpağa yıxılıb O Həzrəti (ə) "Ya Əba Əbdillah dadıma yetiş" – fəryadı ilə çağırırdısa, İmam (ə) onun başı üzərinə gəlirdi.

Habelə, şəhidlər öz canlarını onun yolunda fəda etdilər, o da yollarını azanları hidayət etmək və üsyankarlara nicat vermək üçün özünü Allah yolunda fəda etdi.

Habelə, taqətsiz halda yerə yıxıldığına baxmayaraq əhli-əyalını xilas etməyə səy göstərirdi. Şiddətli təşnə olması ilə yanaşı uşaqlarına, əyalına, hətta Zülcanaha su verməyə çalışırdı.

Həmçinin, libaslarını çıxarılmasına baxmayaraq cəmalının nurunun şüası nəzərlərin qarşısını alırdı.[1] Beləliklə, çılpaqlıqla örtülmək arasında cəm etmişdir.

[1] Bihar 45/57.

Həmçinin, nurlu çöhrəsi torpağa və qana bulaşmış olsa da, yenə də üzü nur saçırdı.

Habelə, özünün sığınacaq və pənahı olmadığı halda, O Həzrət (ə) biçarələrin pənahgahı idi və özü ağlamağa səbəb olduğu halda, ağlayanlara təsəlli verirdi. Beləki, Abdullah və Əbdurrəhman cihad izni almaq üçün O Həzrətin (ə) xidmətinə gələndə İmamın (ə) halına ahu-zar edib ağlayırdılar. Həzrət (ə) buyurdu: "Niyə ağlayırsınız, ümidvaram bir saatdan sonra, sizin gözləriniz işıqlanacaqdır." Ərz etdilər: "Biz öz halımıza yox, sizin halınıza ağlayırıq."

Habelə, İmam (ə) özü ağlayaraq başqalarını ağlamaqdan sakitləşdirirdi. Aşura gecəsi dünyadan ayrılmasından xəbər verən şeirlər buyurdu, bacısı Zeynəb bunları eşidəndə nalə edərək O Həzrətin (ə) yanına gəlib dedi: "Qardaşım bu sözlər ölümünü yəqin bilən şəxsə məxsusdur." Həzrət (ə) buyurdu: "Bəli, ey bacı, belədir, səbir et və şeytan sənin helmini aparmasın." Bu an İmamı (ə) qəhər boğdu və özündən biixtiyar ağladı.[1]

İKİ ZİDDİYƏTLİ TƏKLİF ARASINDA CƏM ETMƏK

İkinci: Zahirən iki bir-birinə zidd olan təklif arasında cəm etməyin bəyanı budur ki, Həzrət Peyğəmbərin (s) şəri təklifində O Həzrətin (s) özünə məxsus hökmləri var idi. Habelə, hər bir İmamın (ə) imamət məqamında və xalq ilə rəftarında həmin möhürlənmiş səhifədə yazılmış xüsusi hökmlər var idi. İmamların (ə) hamısı öz təkliflərinə əməl etdilər və onlara heç bir etiraz olmamışdır. Həmçinin İmam Hüseyn (ə) əmr olunduğuna əməl etmişdir. Buna görə, O Həzrətə (ə) etiraz etmək olmaz ki, niyə zərər görəcəyini və insanların tələf olacağını yəqin bildiyi halda bu işi həyata keçirdi? Çünki, O Həzrət (ə) Allahın əmrlərinə təslim olduğuna görə kamal məqamına çatmışdır. İmam Hüseynə (ə) di-

[1] Bihar 45/2; İrşadi Mufid 2/96.

gər bəndələrin təklifinə müvafiq olan zahiri təklifi ilə özünə xas olan həqiqi (vaqei) təklifi ilə cəm etmək məxsus edilmişdir. Belə cəm etmək O Həzrətin xüsusiyyətindən idi.

Həqiqi (vaqei) təklif onun özünün, səhabələrinin, yaxınlarının qətli və əhlinin, uşaqlarının əsirliyi və zilləti ilə nəticələnən əməlinə səbəb olmuşdur. Halbuki, bunların hamısını bilirdi. İmamın (ə) belə hərəkətinin səbəbi, hikməti bundan ibarətdir ki, bəni-üməyyə, xüsusən Müaviyyə camaatla elə tərzdə rəftar edirdi ki, xalqın əksəriyyəti onlara tərəfdar idilər və haqq olduqlarını düşünürdülər. Ancaq Əlini (ə), onu övladlarını və şiələrini batil hesab edirdilər. O Həzrətə (ə) lənət oxumağı özlərinin şüarı, hətta cümə namazının tərkib hissəsi bilirdilər. Bu əmələ o qədər israrlı idilər ki, Müaviyyənin tərəfdarlarından biri günlərin birində Əmir-əl-möminina (ə) lənət deməyi unudur, səfər əsnasında yadına düşəndə, elə orada onun qəzasını yerinə yetirir. Sonradan həmin məkanda bir məscid tikdirir və adını qoyur "Zikr məscidi."[1]

Beləliklə, əgər O Həzrət (ə) onlarla sülh ya beyət etsəydi haqq dini birdəfəlik aradan gedərdi. İnsanların əksəriyyəti elə güman edərdilər ki, heç kəs bəni Üməyyə ilə müxalif deyilsə deməli onlar həqiqətən Peyğəmbərin (s) xəlifələridirlər. Bunları nəzərə alaraq, İmam Hüseyn (ə) onlarla qarşı qiyam edəndə və onlar O Həzrətlə (ə) və Peyğəmbər (s) övladları ilə bu cür rəftar etməklə xalq qəflət yuxusundan oyandı və onların zalım hökmdarlar olduqlarını başa düşdü və tədricən İmamın (ə) simasında həqiqi din xalq üçün aydınlaşdı. Amma zahiri təklifə əsasən İmam Hüseyn (ə) tamam qüvvəsi ilə Peyğəmbər (s) balalarını qorumağa və himayə etməyə çalışdı. Lakin bu İmam Hüseyn (ə) üçün mümkün olmadı. Dünyanı ona dar etdilər. Yezid məlun Mədinənin valisinə İmamı (ə) öldürmək fərmanını verdi. İmam (ə) Mədinədən Məkkəyə mühacirat etməyə məcbur qaldı. Hicrəti əsasında bu ayəni tilavət edirdi: **"Qorxu və nigaran halda oradan çıxdı."** (Qəsəs /21) Məkkəyə Allahın hərəminə pənah gətirdi, çünki Allah-taala oranı əmin yer

[1] Seyyid ibn Tavus "Furhətul-ğurrə" səh. 25.

qərar verib. Hətta kafirlərə, möhtərəm nəfsin qatilinə, vəhşi heyvanlara, quşlara, ağaclara, bitkilərə belə orada əmniyyət verilib. Amma yenə də O Həzrəti (ə) orada qətlə yetirmək istədilər. Həcc ehramı bağladıqdan sonra ümrəyə keçib, ehramdan çıxdı. Zahiri təklifi Kufəyə tərəf istiqamət götürmək idi. Çünki, o şəhərin əhli İmamın (ə) xidmətinə çoxsaylı məktublar və ərizələr yazmışdılar ki, "Biz sənin əmrini eşidir və itaət edirik." Həzrət Müslüm də yazdı ki, "Camaat beyət etdi."[1] Beləliklə, O Cənaba (ə) artıq hüccət qalmamışdır, ancaq onların yanına gələndə beyətlərini sındırdılar. Geri qayıtmağa da imkan qalmadı, bir də ki, qayıtsa hara qayıdacaqdır?! Onun üçün heç yerdə əmniyyət yox idi. Əgər beyət etsəydi də onu zillətlə öldürərdilər. Dəlili də budur ki, qardaşı Muhəmməd Hənəfiyyə O Həzrətin (ə) xidmətinə gəlib ərz edəndə ki, "Yəmənə tərəf get ya səhralarda, dağlarda gizlən." Həzrət (ə) buyurdu. "Hər hansı bir yerdə gizlənsəm, məni oradan çıxarıb, öldürəcəklər." Fərəzdəq O Həzrətə (ə) dedi: "Ey Peyğəmbərin (s) övladı, niyə həcci tamama yetirmədin?" Buyurdu: "Əgər Məkkədə qalsaydım, məni tutacaqdılar." Əbu Hürrə Əzdi Sələbiyyənin mənzilində ərz etdi: "Niyə Allahın və cəddinin hərəmindən ayrıldın?" Buyurdu: "Ey, Əbu Hürrə, bəni Üməyyə malımı əlimdən aldı, səbir etdim. Lənət və təhqirlər söylədilər, səbir etdim. İndi də istəyirlər qanımı töksünlər, buna görə mühacirat etdim."[2] Bəni Əkrəmə qəbiləsindən Əmr ibn Luzan adlı bir şəxs O Həzrətə (ə) ərz etdi: "Ey uçurumun kənarından keçən, cığırla hara gedirsən?" Həzrət (ə) buyurdu: "Kufəyə gedirəm." Ərz etdi: "Səni Allaha and verirəm qayıt, qılınclar və nizələr üstünə gedirsən." Həzrət (ə) buyurdu: "Düzgün rəy mənim üçün gizlin deyil, lakin Allahın hökmü hətmən yerinə yetirilməlidir. Onlar, əlbəttə qanlı qəlbimi sinəmdən çıxarmayınca məndən əl çəkməyəcəklər."

İmamın (ə) bu kəlamı: "Allahın hökmü hətmən yerinə yetirilməlidir." – Həqiqi (vaqei) təklifə işarədir. Digər kəlamı isə: "Hara getsəm, yenə də məni tapıb öldürəcəklər." – O Həzrətin (ə) za-

[1] Bihar 44/336.
[2] Bihar 44/367.

hiri təklifinə və məcbur qalmasına işarədir. O ki, buyurmuşdur: "Mənim qanlı qəlbim." O Həzrətin (ə) Kərbəlada müsibətinin şiddətinə işarədir. Əvvəl dedik; "Əgər beyət etsəydi yenə də onu öldürəcəkdilər." – Dəlili budur ki, ibn Ziyad məlun belə yazdı: "Gərək mənim hökmümə və Yezidin hökmünə tabe olub beyət etsin." Şümür məlun dedi: "Hüseyn (ə) əvvəl beyət etsin, sonra onun barəsində öz rəyimizi söyləyəcəyik."[1] Əgər O Həzrəti (ə) öldürmək xəyalında olmasaydılar bu sözləri deməzdilər. İmam Hüseyn (ə) onların qərəzini bilirdi. Ona görə buyurmuşdur: "Nökərlər kimi sizi təsdiq etməyəcəyəm və zillət əlini sizlərə uzatmayacam."[2]

Bəli, Allaha and olsun, sənə fəda olum, Allah yolunda izzətlə ölmək Allahın düşmənləri ilə beyət etməkdən yaxşıdır. Əgər təqiyyəyə razı olsaydın, yenə də səndən əl çəkməyəcəkdilər, zillət və xarlıqla öldürəcəkdilər. Sən izzəti görürdün, Allahın dini və hökmünü bərpa etdin və bəndələrə nicat verdin. (Allahın salavatı və salamı olsun sənə və sənin qarşında təzim edən ruhlara.)

[1] Bihar 44/390

[2] Bihar 45/7; Məqtəl Əbi Müxənnəb səh 118.

DÖRDÜNCÜ ÜNVAN

O HƏZRƏTƏ (Ə) BƏXŞ EDİLƏN İLAHİ LÜTFLƏR VƏ ONLARIN ON BİR QİSMİ BARƏDƏ

Dördüncü ünvan: İmam Hüseynə (ə) bəxş edilən ilahi lütflərin xüsusiyyətləri və onların bir neçə qismi barədə.

Birinci qisim: Şərafətli lütflərin adlandırılmasının xüsusiyyətləri barədə. Onların bir neçə ünvanı var:

Biri budur ki; "Kamiluz-ziyarət" kitabından mötəbər sənədlə İmam Sadiqdən (ə) nəql olunur ki; "Bir gün Peyğəmbər (s) Həzrət Fatimənin (ə) mənzilində idi. Həsənlə (ə), Hüseyn (ə) O Həzrətin (s) qucağında oturmuşdular. Birdən Peyğəmbər (s) ağladı və səcdəyə getdi, sonra buyurdu: "Ya Fatimə (ə) bu saat Allah-taala sənin mənzilində ən gözəl surətdə təcəlli etdi və buyurdu: "Ya Muhəmməd Hüseyni sevirsənmi?" Ərz etdim: "Bəli, o mənim gözümün işığı, qəlbimin meyvəsidir." Sonra əlini Hüseynin (ə) başına qoyub, buyurdu: "Bu mövlud mübarəkdir, Mənim bərəkətim, salavatım, rəhmətim və rizvanım ona olsun. Agah ol! O dünya və axirətdə birinci və axırıncı şəhidlərin ağasıdır, O Cənnət cavanlarının seyididir və atası ondan üstündür. Mənim salamımı ona çatdır və ona müjdə ver ki, O övliyaların hidayət vasitəsi, məxluqatın mühafizəçisi, elmin xəzinəsi, səmalar və yer əhlinə, cinlərə və insanlara Mənim hüccətimdir."[1]

Ola bilsin şərif hədisdə "Təcəlli" sözündən məqsəd mərifətin kamil surətdə zahir olmasıdır, "gözəl sürət" isə kamal və camal sifətlərinin zühür etməsidir və "əl qoymaq"da xüsusi rəhmətin nazil olması mənasını daşıyır. Beləliklə, bu şərif hədisdə o həzrətə (ə)

[1] Kamiluz-ziyarət 22-ci fəsil səh 70/ Bihar 44/238.

bəxş edilən İlahi lütflərin bir neçə xüsusiyyətinin ünvanları verilmişdir. Bunların arasında ən üstünü "əl qoymaq" lütfüdür ki, onun ən ali mərtəbəsindən xəbər verir və bunun fövqündə heç bir lütf təsəvvür olunmazdır. Belə ki. "Merac gecəsi" hədisində Peyğəmbərə (s) bəxş edilən xüsusi lütf kimi onun kürəyinə "Əlin qoyulması" ifadəsi işlənmişdir. [1] İfadələrin fərqliliyində məxsusi hikmət var, bu da İmam Hüseynin (ə) daha fəzilətli olması, anlamında deyil həqiqətdə Peyğəmbərin (s) kürəyinə qüdrət "Əlinin qoyulması" elə həmin "qüdrət əlinin" İmam Huseynin (ə) başına qoyulması mənasındadır. Mütərcim deyir: "Əl" istifadə edilən qüvvə mənasını daşıyır, Peyğəmbər (s) nubuvvət yükünü daşıdığına və yük daşımaq belin qüvvəsinə möhtac olduğuna görə, ifadədə qüvvənin öz məhəllinə nazil olma mənası aydın olur. İmam (ə) Hüseyn (ə) Allah yolunda mübarək başını qurban verməyi və bunlara dözməyi qəbul etmişdir. Buna görə o şərəfli yer (İmamın (ə) başı) Allah tərəfindən qüvvənin nazil olmasına möhtacdır. Allah öz sirlərini daha yaxşı bilir.

İkinci və üçüncü: hədisdə gəlir ki, Allah-taala Öz əli ilə o həzrətin (ə) ruhunu bədənindən çıxardı və Özü onun üçün namaz qıldı. Bunların hamısı Allah-taalanın İmam Hüseynə (ə) bəxş etdiyi ən kamil lütfünü ifadə edən kinayədir (yəni, rəmz və işarədir) və bundan ali lütf kimsəyə müyəssər olmamışdır.Yəni, Allah-taala mümkün (məxluqun) varlığın götürə biləcəyi ən kamil lütfünü imam Hüseynə (ə) əta etmişdir. Biz də ümid edirik ki, O həzrətə (ə) təvəssül etməklə ilahi lütflər bizim də halımıza şamil olacaqdır və bunun nəticəsində dünya və axirət işlərimiz islah olunacaqdır, inşallah.

[1] Bihar 18/373

İkinci bölüm: Allah-taalanın İmam Hüseynə (ə) bəxş etdiyi nemətlərin xüsusiyyəti barədə

Allah-taala o Həzrətə (ə) Öz kamal sifətlərindən bəxş etmişdir. Belə ki, o şərif sifətləri İmam (ə) üçün nümunə qərar vermiş və ona məxsus etmişdir.

Biri budur ki, İlahi sifətlər zümrəsində tamam əşyalar Allaha təsbih deyirlər, lakin biz onların təsbihinin həqiqətini başa düşmürük necə ki, Quran buyurur (İsra /44). Rəvayətə əsasən tamam əşyalar İmam Hüseynin(ə) müsibətinə ağlayırlar, ancaq biz onların ağlamağının həqiqətini başa düşmürük. Məsələn, səmanın ağlamağı qan yağışının yağması idi, yerin ağlamağı bu idi ki, hər hansı bir daşı tərpədirdin altından qan sızırdı; balıqların ağlamağı sudan kənara çıxmalarıdır; havanın ağlamağı onun qaralmasıdır; Günəşin və Ayın ağlamağı onların tutulmasıdır və sair, necə ki, rəvayətdə gəlibdir.[1]

İkinci: İlahi tovhid fitrətdəndir, necə ki, Quran buyurur: "Allah həmin fitri din əsasında insanları yaratmışdır" (Rum/30). Hətta bütpərəstlər və dinsizlər də qəlbən buna iqrar edirlər, hərçənd dilləri ilə inkar etsələr belə. İmam Hüseynə (ə) insan qəlbinin yanması da fitridir. Hətta imam Hüseyni (ə) tanımayanlar ona ağlayırlar, əzadarlıq edirlər, məsələn islam dininə biganə olan bəzi hindlilər.

Bil ki, o həzrətin (ə) düşmənləri ona ədavət izhar etməklə yanaşı onun müsibətinə ağlayırdılar; Ömər səd o həzrətin (ə) qətl fərmanını verən zaman ağladı.[2] İmamın (ə) qızı Fatimənin qulağından sırğanı qoparan o məlun ağlamışdır. Həmçinin, bəzi hallarda qatillər də ağlayırdılar. Yezid məlun bəzi gecələr ağlayırdı.[3] Bəli, bədbəxtliyin böyüklüyündən və görünməyən rəhimsizlikdən qəlbi riqqətə gəlməyən və ağlamayan kəs İbn Ziyad məlun idi. Lakin yenə də İmam Zeynulabidinin (ə) qətlinə əmr edəndə və Xanım Zeynəb (ə) o həzrətə (ə) sipər duraraq: "Əgər onu öldürsən məni də onunla bərabər öldür" – deyəndə,

[1] Bihar 45/ 202
[2] Tarixi Təbəri 5/228
[3] Bihar 45/ 55-82

halı bir qədər dəyişmişdir. O məlun tünd baxışları ilə İmama (ə) nəzər yetirərək dedi: "Buraxın onu güman edirəm ki, bu xəstəlikdən artıq nicat tapmayacaq."

Üçüncü: Allahın kamal sifətlərinin həqiqətində ismi təfzil yəni, "əfəlu" vəzni işlənmir ancaq zahiri baxımdan bu vəzndən istifadə olunur. Məsələn, "Səhər" duasının bütün fəqərələrində bu vəznə təsadüf olunur;

Birinci fəqərədə buyurur: **"Allahummə inni əsəlukə min bəhaikə bi əbhahu"** sonra buyurur: **"Kullu bəhaukə bəhiyyün"**. Yəni, "Allahım Səni and verirəm nurlarının ən nuranisinin haqqına, halbuki, Sənin tamam nurların nuranidir."

İmam Hüseynin (ə) də buna münasib olan sifəti vardır, O həzrətin (ə) ən böyük müsibətini zikr etmək istəyəndə məəttəl qalırıq ki, hansını zikr edək. Hər birini düşünəndə görürük ki, bu daha böyükdür. Buna görə belə demək olar: **"İnni əbki min məsaibikə liəzəmiha və kullu musibətukə əzimətun"** yəni, "Mən sənin müsibətlərinin ən böyüyünə ağlayıram halbuki, sənin hər müsibətin böyükdür."

Dördüncü: Allah-taala bəndələri Özünə yaxınlaşdırmaq və onlardan razı qalmaq üçün çoxlu ibadət yolları qoymuşdur. Hamı feyzə yetişsin deyə hər əməl üçün bir bədəl (əvəz) qərar vermişdir. Hətta yalnız bir niyyətə görə, əməlin savabını təyin etmişdir. Allah-taala imam Hüseyn (ə) üçün də buna bənzərini qərar vermişdir. Məsələn o Həzrəti (ə) ziyarət etmək üçün bir fəzilət təyin etmişdir və onun bədəli (əvəzi) də budur ki, hər kəs bir nəfəri naib olaraq ziyarətə göndərə bilər və yaxud uzaqdan ziyarət edə bilər. O həzrətə (ə) ağlayanlar üçün böyük fəzilət qərar vermiş və heç kəs feyzdən məhrum olmasın deyə, ağlamaq üçün çoxlu səbəblər icad etmişdir. Qəlblərin riqqətə gəlmə səbəbləri müxtəlif olduğundan o Həzrətin (ə) müsibətlərini müxtəlif şəkildə qərar vermişdir. Məsələn, bəzi qəlblər yalnız qəribçiliyi düşünməklə riqqətə gəlmirlər, amma susuz qəribi təsəvvürə gətirəndə riqqətə gəlirlər. Bəzi qəlblər isə fəqət yaradan yox, yara üstündən yara dəyməsini eşidəndə riqqətə gəlirlər. Bəziləri heç buna da kövrəlmirlər, amma

bədənlərin atların nalları altda tapdalanmağına tab gətirməyib, ağlayırlar. Bu minvalla hər qəlbə ağlamaq feyzi yetişsin deyə hər müsibətin ən böyüyü və ən şiddətlisi o Həzrətdə (ə) var idi.

Beşinci: Allah-taalanın kamal sifətlərində şəriki olmadığı kimi, imam Hüseynin (ə) xüsusiyyətlərində də ona bir şərik yoxdur.

Altıncı: Allaha olan məhəbbət, məxluqa olan məhəbbətdən fərqlidir. Beləcə də, qəlblərdə imam Hüseynə (ə) olan məhəbbət digər məhəbbətlərdən fərqlidir. Peyğəmbərə (s) imam Hüseyn (ə) barədə sual veriləndə, o Həzrət (s) möminlərin qəlblərində Hüseynə (ə) olan gizli məhəbbətdən və bunun Allah tərəfindən İmam Hüseynə (ə) xüsusi lütf olduğunu xəbər verdi.

Miqdaddan rəvayət olunur ki: "Bir gün Peyğəmbər (s) Hüseynin (ə) sorağında çölə cıxdı və onu bir bağda yatmış halda tapdı. Hüseynin (ə) başını dizinin üstə qoyub nəvazişlə tərpədirdi və dilini bir neçə dəfə onun ağzına aparıb-gətirirdi ki, oyansın. Miqdad dedi: "Elə bil Hüseyn (ə) daha böyükdür!" Həzrət (s) buyurdu: "Möminlərin qəlblərində Hüseynə (ə) dərin məhəbbət gizlənibdir."[1]

Beləliklə, məlum olur ki, imam Hüseynə (ə) olan məhəbbətin xüsusiyyəti onun cəddinə və atasına görə deyil, hərçənd onlar Hüseyndən üstündürlər və məhəbbətləri daha çox olmalıdır. Lakin Hüseyn (ə) məhəbbətinin xüsusiyyətində çoxluqla bir bağlılıq yoxdur. Bunun da bir neçə dəlili var:

1-ci: Möminlərin qəlbləri Hüseynə (ə), onun ziyarətinə və zəvvarlarına fitri meylləri vardır və bu meyl həccə, digər ziyarətlərə və zəvvarlara olan meyldən çoxdur.

2-ci: İraqa gedən zəvvardan soruşanda ki, hara gedirsən, ya haradan gəlirsən? Deyər: "Kərbəladan", halbuki, Nəcəfi, Kazimeyni və Samirranı da ziyarət etmişdir. Lakin ad o Həzrətə (ə) məxsusdur.

3-cü: İmamın (ə) şərif adının qəlblərə xüsusi təsiri vardır, necə ki, atası buyurmuşdur: "Ya ibrətə kulli muminin" yəni, "Ey hər möminin göz yaşı". Özü də buyururdu: "Mən göz yaşlarının qurbanıyam".

4-cü: "Hüseynin (ə) ayının, yəni Məhərrəm ayını girməsi hamını hüznlü edir.

[1] Bihar 43/272

5-ci: Onun müsibətinin zikrini hər nə qədər çox dinləsən yorulmazsan. Gündə min dəfə onun müsibətinə qulaq assan, yenə də Hüseynin (ə) təşnə öldürüldüyünü ya qərib, köməksiz olduğunu eşidəndə nalələr səmaya ucalır.

Üçüncü bölüm: İlahi söhbətlərdə İmam Hüseynə (ə) xas olan lütflər barədə

O cümlədən, Allah-taala dəfələrlə imam Hüseynin (ə) müsibətlərini Adəmə (ə), Musaya (ə) və digər peyğəmbərlərə zikr etmişdir necə ki, qabaqda gələcək inşallah. Həmçinin, Allah-taalanın o Həzrətin (ə) özü ilə çoxsaylı söhbətləri olmuşdur. Ənəsdən rəvayət edirlər ki, deyir: "İmam Hüseyn (ə) ilə birgə gedirdik, həzrət Xədicənin (ə) qəbrinə yaxınlaşanda Həzrət (ə) mənə buyurdu : "Sən gedə bilərsən." Ənəs deyir: "Mən kənara çəkilib, gizləndim. İmam Hüseyn (ə) namaza məşğul oldu və namazı uzun çəkdi, sonra eşitdim ki, deyir: "Ya Rəbbi, Sən mənim mövlamsan, Sənə pənah gətirən bəndənə Sən rəhm edənsən.

Ya Rəbbi, Sən mənə dayaqsan, xoş o kəsin halına ki, mövlası Sənsən, xoş o kəsin halına ki, peşman olubdur, gecələr oyaq qalır və şikayətini Sənə ərz edir. Belə bir bəndənin qüssəsi Mövlasının ona qarşı olan məhəbbətindən çox deyil. O qəm-qüssəsindən mövlasına şikayət edən bəndəsinə cavab verər və "ləbbeyk" deyər. Dərdə düçar olanda qaranlıq gecədə ah-nalə edər və Allah-taala onu əziz tutar və yaxınlıq (qürb) məqamına çatdırar."

Sonra cavab gəldi: "Ləbbeyk ey Mənim bəndəm. Sən Mənim himayəm altındasan. Söylədiklərinin hamısını eşitdik, mələklər sənin səsini eşitməyə müştaqdırlar. Sənə həmin şərafət bəs edər ki, sənin səsini eşitdik, sənin duan hicabalarda cövlan edir. Sənə həmin qədər kifayət edər ki, hicabları götürdük. Əgər onun ətrafından bir külək əsərsə onun müqabilində diz üstə çök, qorxu və vəhşət olmadan Məndən hər nə istəyirsən istə, bil ki, Mənəm mütəal Allah."[1]

[1] Bihar \ 193

Bu şeirin ərəbi mətnində qeyd olunan "irq" kəlməsi gecə oyaq qalan şəxs mənasını daşıyır. O duanın ətrafından külək əsərsə və həmin yerdə insan durarsa, dərhal onun heybətindən qəşşş edər. Yaxud bu ifadə o Həzrətin (ə) özünə işarədir və mənası da budur ki, xuzunun şiddətindən özündə olmaz və əgər külək əsərsə yerə yıxılar.

Aşura günü o Həzrətə (ə) məxsusi nidalar yetişdi, bunların ən şərəflisi: "Ya əyyətuhən-nəfsul mütməinnə" – yəni, "Ey aram tapmış nəfs"– nidası idi.

Dördüncü bölüm: Peyğəmbərin (s) qəlbinin Hüseynə (ə) bəxş edilməsi

Allah-taalanın məxluqatın ən şərəflisi olan həzrət Muhəmmədən (s) imam Hüseynə (ə) bəxş etdiyi şeylər barədə.

Burada bir neçə məsələ var:

1 – Bu nemətlərin ümumi say vasitəsilə bəyanı.

2 – Onların təfsilartlı bəyanı.

3 – O bəxşişlərin fövqündə duran bəyan.

1-ci məsələ; Allah-taala Peyğəmbərin (s) qəlbini, ruhunu, əqlini, qoxuma duyğusunu, gözünü, iki gözünün arasındakını, qüvvəsini, çiynini, belini, ətəyini, dilini, əlini, barmaqlarını, sinəsini, dilini, kəlamını və övladını Hüseynə (ə) əta etmişdir.

2-ci məsələ; Bunların təfsilatının bəyanında deyirik: "Peyğəmbərin (s) qəlbinin Hüseynə (ə) bəxş edilməsinin dəlili budur ki, Peyğəmbər (s) özü buyurmuşdur: "Hüseyn (ə) mənim qəlbimin ruhudur."[1] Peyğəmbər (s) Hüseyni (ə) görəndə heç kəsə göstərmədiyi xüsusi şövq ilə qarşılayırdı. Bəzi vaxtlar səhabələrinin arasında nübuvvət sakinliyi və vüqarı ilə oturanda Hüseyn (ə) məclisə daxil olurdu, bu zaman Peyğəmbər (s) söhbətini yarımçıq qoyub, ayağa qalxar Hüseyni (ə) qarşılayardı. Onu mübarək çiyninə alıb, məclisə gətirərdi və qucağında oturdardı. Bundan daha

[1] Bihar 44/ 248

təəccüblü budur ki, Peyğəmbər (s) minbərdə xütbə söyləyərkən balaca Hüseyn (ə) məclisə varid olanda həzrət Rəsul (s) xütbəni saxlayardı, minbərdən enib onu qarşılayardı və buyurardı: "Allaha and olsun minbərdən endiyimi hiss etmədim." Bu hədisi Abdullah ibn Ömər nəql etmişdir.[1]

Bu kəlam Peyğəmbərin (s) Hüseynə olan (ə) məhəbbətinin şiddətindən və qəlbinin əlaqəsindən bir kinayədir. İbn Macə "Sünən" və Zəməxşəri "Fayiq" adlı kitablarında nəql edirlər ki: "Bir gün Peyğəmbər (s) Hüseyni (ə) küçədə uşaqlarla oynadığı halda gördü və ona tərəf gedib, əllərini uzatdı ki, onu tutsun. Hüseyn (ə) də o tərəfə, bu tərəfə qaçırdı, Peyğəmbər (s) gülərək onun dalınca düşür və nəhayət onu tutur. Sonra bir əlini onun çənəsinin altından və o biri əlini başına qoyub qaldırdı və dodağını Hüseynin (ə) dodağına qoyub öpdü və buyurdu: "Mən Hüseyndənəm və Hüseyn (ə) məndəndir. Allah Hüseyni (ə) sevənləri sevsin, Hüseyn (ə) mənim övladlarımdan biridir."[2]

Bil ki, Hüseynə (ə) olan bu məhəbbət və əlaqə onu sevənlərə də sirayət etmişdir. Peyğəmbər (s) Allahı şahid tutub buyurardı: "Mən Hüseyni (ə) sevirəm və Hüseyni (ə) sevənləri də sevirəm." Həmçinin buyurardı: "Allah Hüseyni (ə) sevənləri sevər."[3]

"Günlərin birində Peyğəmbər (s) küçədə bir uşaq görür və uşağı qucağına alıb, onunla nəvazişlə davranır. Səhabələrdən biri Peyğəmbərin (s) bu hərəkətinin səbəbini soruşanda buyurdu: "Bu uşaq oğlum Hüseyni (ə) çox istəyir, mən bu uşağı Hüseynin (ə) ayağı dəydiyi torpağı götürüb, üzünə sürtdüyünü görmüşəm. Cəbrayıl mənə xəbər verdi ki, bu uşaq Kərbəlada Hüseynin (ə) yavərlərindən olacaqdır."[4]

Bizlər də ümidvarıq ki, Hüseyn (ə) aşiqlərindən olarıq və Peyğəmbər (s) də bizi sevər. Allah-taala da o Sərvərin (s) duası səbəbindən bizi sevər və günahlarımızı bağışlayar, inşallah.

---

[1] Bihar 44/ 295
[2] Bihar 43/ 296
[3] Bihar 43/ 275
[4] Bihar 44/ 242

Peyğəmbərin(s) ruhunun, qəlbinin, əqlinin Hüseynə (ə) bağışlanması

Peyğəmbərin (s) ruhunun, qəlbinin, əqlinin o Həzrətə (ə) ata edilməsi barədə deyirik; Peyğəmbər (s) buyurmuşdur: "Hüseyn (ə) mənim ruhumdur, qəlbimin meyvəsidir və qəlbimin aramlığının səbəbidir." Habelə buyurur: "Mən Hüseynə (ə) baxanda aclığım aradan gedir." Yenə də buyurur: "Hüseyn (ə) mənim reyhanəm və gözlərimin nurudur."[1] Peyğəmbərin (s) çiyni və beli dəfələrlə Hüseyn (ə) miniyi olmuşdur. Bəzi vaxtlar camaat namazında Peyğəmbər (s) səcdəyə gedəndə Hüseyn (ə) o Həzrətin (s) belinə minirdi və Hüseyn (ə) öz ixtiyarı ilə Peyğəmbərin(s) belindən düşənədək o Həzrət (s) səcdəni uzadırdı. Səhabələr səcdənin uzun sürməsinə təəccüb edərək soruşurdular ki: "Məgər ayə nazil olub." Buyururdu: "Xeyr övladım Hüseyn (ə) belimə süvar olmuşdur."[2] Peyğəmbər (s) Həsən (ə) və Hüseyni (ə) çiyninə alıb küçədə və bazarda gəzdirərdi. Səhabələr onları götürmək istəyəndə buyurardı: "Yaxşı süvarilərdir." Bəzən Cəbrayıl (ə) naib olaraq Hüseyni (ə) çiyninə alardı."[3]

Peyğəmbərin(s) ətəyi Hüseyn (ə) oturduğu məkan idi. İmam Hüseyn (ə) dünyaya gələn kimi, Peyğəmbər (s) buyurdu: "Ey Əsma, oğlumu gətir yanıma." Əsma dedi: "Hələ onu paklamamışıq." Peyğəmbər (s) buyurdu: "Sən onu paklayırsan?! Allah onu pak etmişdir." Peyğəmbər (s) baş barmağı ilə ona süd verirdi, onunla oynayırdı, layla deyib yatızdırırdı və onunla uşaq dilində söhbət edərdi. Hətta səhabələrdən bir nəfər təəccüb edərək o Həzrətə (s) irad tutanda, cavabında buyurdu: "Onun barəsində sənə gizli olanlar – (yəni, Hüseynin (ə) fəziləti və mənim ona olan məhəbbətimdən) – sənə zahir olanlardan daha çoxdur."[4] Məlumdur ki , Peyğəmbərin (s) bütün sözləri və felləri Allahın əmri ilə olmuşdur, hətta səcdənin

[1] Bihar 44/260
[2] Bihar 43/ 296
[3] Bihar 43/316
[4] Bihar 43/ 254-259

uzadılması, o uşaqların (ə) çiyninə götürülməsi, küçədə onunla qaçmaq, Hüseyni (ə) qarşılamaq və xütbəni yarımçıq kəsmək, bunların bəyanı gələcək inşallah.

Peyğəmbər (s) daim Hüseynin (ə) və Həsənin (ə) dodaqlarından öpərdi, onları qoxuyardı, bağrına basıb qucaqlayardı və buyurardı: "Bu iki uşaq mənim reyhanəmdirlər."

Məşhur hədisdi: "Peyğəmbər (s) bir gün Həsənin (ə) dodağından və Hüseynin (ə) boğazından öpür. Hüseyn (ə) cəddinin bu əməlindən küsür və gedib, anasına şikayət edir. Mən rəvayət kitablarında bu hədisə rast gəlmədim, gördüyüm yalnız bu oldu ki, Hüseynin (ə) bəzi vaxtlar boğazından öpərdi, gah alnından, gah tamam bədənindən, gah da qarnını açıb göbəyinin üstündən öpərdi, gah dişlərindən, gah da dodaqlarından öpərdi. Bu da açıq-aydın möcüzədir ki, o Həzrətdən (s) bunun səbəbini soruşanda: "Mən qılınclar dəyən yerləri öpürəm,"[1] – buyurardı və ağlayardı. Amma dişlərini və göbəyinin üstünü öpməsi, sonradan məlum oldu ki, bu çubuğun və üç şöbəli oxun dəyən yeridir.

O Həzrətin (ə) bu ehtiramlara məxsus edilməsinin səbəbi

Bilməliyik ki, o Həzrətin (ə) bu ehtiramlara məxsus edilməsinin bir neçə səbəbi vardır:

Birinci: İmam Hüseynin (ə) uca məqamı və dərəcəsidir.

İkinci: İmam Hüseynə (ə) edilən hər bir hörmətsizliyin müqabilində olan ehtiramdır ki, onun müsibətinin böyüklüyü məlum olsun.

Məsələn, Peyğəmbərin (s) Hüseyni (ə) qarşılaması bunun müqabilində idi ki, camaat Hüseynə (ə) kömək etməsin deyə, onunla səfərdə birgə mənzil qurmurdular. Yolda xəbər tutanda ki, Hüseyn (ə) filan yerdən gəlir istiqamətlərini dəyişib, başqa səmtdən

[1] Bihar 43/ 261

gedirdilər. Zuheyr və iki nəfər Bəni-Əsəd qəbiləsindən olanların əhvalatında bu barədə deyilibdir.[1]

Allah-taala o Həzrətin (ə) hüzn və qəminin əvəzini verməkdən ötrü qəlbinə sevinc daxıl etmək istəmişdir. Buna görə, bu sevinc və şadlıq onun müsibətinin və hüznünün ölçüsü qədər olmalıdır. Siz də ey dostlar Peyğəmbəri (s) özünüzə nümunə bilərək Hüseynə (ə) ağlamaqla, salam verməklə və dəvətini qəbul emtəklə onun qəlbinin kədərini və qüssəsini götürün .

3-cü məsələ: Yuxarıda deyilənlərdən daha ali məqamların bəyan edirik; Allah-taala Hüseynə (ə) Peyğəmbərin (s) özünü bəxş etmişdir. Bu bir şişirtmə deyil, Peyğəmbərin (s) öz kəlamına istinaddır: "Hüseyn (ə) məndəndir, mən də Hüseyndənəm (ə)."

Beşinci bölüm: Ərşin İmam Hüseynə (ə) bəxş edilməsi

Allah-taala imam Hüseynə (ə) ən əzəmətli məxluq olan Ərşi bəxş etmişdir. Bu bəxşişin keyfiyyətləri var, məsələn qiyamət günü o Həzrətin (ə) məclisi olan ərşin kölgəsini bəxş etmişdir. İmam (ə) həmin məclisdə öz zəvvarlarını və onun müsibətinə ağlayanları ilə oturar, söhbət edər. Behiştin huriləri onlara xəbər göndərərlər ki; gəlin behiştə biz sizlərin intizarındayıq. Ancaq onlar imtina edərlər və imamın (ə) söhbətini behiştdən üstün tutarlar.[2] Allah-taala İmama (ə) ərşin yəminini (sağ tərəfini) bəxş etmişdir. Bura bərzəx aləmində İmamın (ə) məkanıdır, oradan öz şəhadət məkanına, zəvvarlarına və ağlayanlarına baxar, onların günahlarının bağışlanmasını istəyər və atasından, babasından onlar üçün istiğfar etmələrini diləyər.[3]

[1] Bihar 44/371
[2] Bihar 45/207
[3] Bihar 44/281

İmam Hüseynə (ə) ərşin fövqü bəxş edilmişdir

Bura o Həzrətin (ə) zəvvarlarının Allahla söhbət etdiyi yerdir. Necə ki, onun ziyarətinin fəziləti barədə gəlmişdir.[1]

Beləliklə, ərş zəvvarların söhbət yeridir, ərşin kölgəsi o Həzrətin (ə) özü ilə söhbət edən zaman onların üzərinə düşür və fövqü Allah-taala ilə söhbət edən vaxt onlar üçün hazır olur.

İmam Hüseyn (ə) ərşin tacı bəxş edilmişdir

Ziyarətnamədə buyuru: "Sənin axıdılan qanına görə ərşin tacı lərzəyə gəldi və ağladı."

Ərşə bəxş edilən nemətlərin bənzəri imam Hüseynə (ə) də bəxş edilmişdir, o cümlədən dövr və təvaf edən mələklər. Bunun təfsilatı gələcəkdir inşallah.

Bunlardan daha ali keyfiyyət tamam ərşin o Həzrətə (ə) bəxş edilməsidir. Çünki, Allah-taala o Həzrətin (ə) özünü və qardaşı Həsəni (ə) ərşin zinnəti qərar vermişdir.[2]

Hər bir şey öz zinəti ilə mükəmməl olur, beləliklə əgər ərş dil açıb danışsaydı, deyərdi: "Mən Hüseyndənəm (ə)."

Altıncı bölüm: "O Həzrətə (ə) cənnətin bəxş edilməsi"

Allah-taala məxluqatın ən gözəlini – yəni, cənnəti imam Hüseynə (ə) bəxş etmişdir, o cümlədən ona xatir orada xüsusi ağac, məxsusi qəsr və huri qərar vermişdir və hamısını o Cənaba (ə) əzadar etmişdir. Həmçinin, adı Hüseyn (ə) qapısı olan xüsusi bir qapı müəyyən etmişdir. Bu qapı behiştin tamam qapılarından böyükdür. Əslində cənnətin hamısı onun üçündür, çünki hamısı o Həzrətin (ə) nurundan xəlq olunmuşdur və əgər dilə gəlib danışsa, deyər: "Mən Hüseyndənəm (ə)."[3]

---

[1] Bihar 98/73

[2] Bihar 43/ 275 ; İrşadi Mufid 2/131

[3] Bihar 25/16

Yeddinci bölüm: Bütün məxluqatdan o Həzrətə (ə) fəzilətin əta olunması

Tamam məxluqatdan hər hansı bir fəzilətin o Həzrətə (ə) bəxş edilməsinin bəyanı bir neçə fəsildən ibarətdir: Mələklər fəsli, Peyğəmbərlər fəsli, zamanlar fəsli, səma fəsli, hava və fəza fəsli, su fəsli, ağaclar fəsli, çaylar fəsli, dənizlər fəsli, insanlar fəsli, cinlər fəsli, quşlar və vəhşi heyvanlar fəsli, ev heyvanları fəsli, dağlar fəsli və zahiri təbiətin vəziyyəti fəsli.

Səma fəsli: Bil ki, Allah-taala o Hüseynə (ə) səmaların bir neçə xüsusiyyətini əta etmişdir, o cümlədən şəhadəti günü səmanı onun ruhunun ucaldığı məkan qərar vermişdir. Səma imam Hüseyn (ə) üçün qanla, qırmızı torpaqla, qırmızı şəfəqlə ağlamışdır. Allah-taala səmaya bəxş etdiyi daha üstün zahiri və mənəvi xüsusiyyətləri Kərbəlaya bəxş etmişdir. Habelə, yeddi səmaya və onların fövqündə olanlara bəxş etdiyinin mislini, bəlkə ondan üstün mənəvi sifətləri imam Hüseynə (ə) bəxş etmişdir.

Səma, İlahi feyzin mədənidir, Hüseyn (ə) də Rəbbani feyzlərin daha asan ələ gələn mədənidir.

Səma, duanın yüksəliş və qəbul olunma məkanıdır və Hüseynin (ə) adı duanın müstəcab olma səbəbidir. Necə ki, həzrət Adəmin (ə), Zəkəriyya (ə) və pak Xəmsəyə (əhli-beytə) təvəssül edənlərin əhvalatlarından zahir olur.

Səma, məzlumların sədalarının ucalan məkanıdır və Kərbəladan xüsusi tərzdə məzlumların sədaları səmaya ucaldı.

O zaman Kərbəladan ucalan "Əl-ətəş" fəryadı indiyədək qəlblərə yetişir və qəlblərin məna səmasına yüksəlir, yetimlərin ahu-nalələri səmaya ucalır və səma bu nalələrdən lərzəyə gəlir. Kərbəladan yetimlərin və əsirlərin ahu-nalələri xüsusi tərzdə səmaya yüksəlir.

Səmada öz süvarisini "Qaba qövseyn" məqamına çatdıran "Buraq" adlı minik var idi. Kərbəlada isə Zülcənah var idi ki, süvarisi onun belindən yerə yıxılmaqla – "Ənə min Hüseyn (ə)"– "Mən Hüseyndənəm (ə)"– məqamına sualdı.

Səma, peyğəmbərlərin meracıdır və Kərbəla mələklərin meracıdır. Səmada havanın müxtəlifliyinə səbəb olan vəziyyət mövcuddur, Kərbəlada isə səmaya və ərşə təsir qoyan vəziyyət hökm sürür.

Səmada və ərşdə qiyam, ruku və səcdə halında təsbih, təhlil, təkbir və həmd deyən mələklərin sədaları səslənir. Kərbəlada isə kimsəsizlərin ağlamağı, məzlumların nalələri, yetimlərin ahı və təşnələrin "əl-ətəş" fəryadı ucalır. Biri deyirdi; "Atacan", o biri deyirdi: "Can qardaş", digəri deyirdi: "Can bala", digəri "Can ağam". Bu nalələr ubudiyyət və təslim məqamında mələklərin təsbih və təkbirindən üstündür.

Səma, mələklərin Adəmə (ə) səcdə etdikləri məkandır, Kərbəla isə peyğəmbərlərin və mələklərin imam Hüseynin (ə) cəsədinə namaz qıldıqları məkandır.

Allah-taala səmanı "qorunmuş tavan" qərar vermişdir, Kərbəlanı da ona pənah gətirənlər üçün qoruyan tavan qərar vermişdir.

Allah-taala səmanı ucalmış tavan etmişdir, Kərbəlanı da təvəssül edənlərin dərəcələrini ucaldan tavan qərar vermişdir.

Allah-taala səmadan pak suyu nazil etdi. Hüseyn (ə) o kəsdir ki, onun bərəkətinə yağış nazil olur, istisqa (yağış namazı) məqamında ona xatir yağış yağır və ərazini sirab edir. Habelə, Hüseynin (ə) səbəbinə tamam günahları yuyub aparan və cəhənnəm atəşini söndürən su nazil olur.[1] Bu eyni ilə behişt sularındandır və bu su Hüseynə (ə) ağlayanların göz yaşlarıdır.

Səma, bəndələrin zahiri ruzi məhəllidir. Hüseyn (ə) isə bəndələrin mənəvi ruzilərinin mədəni və onların İmamıdır (ə).

Yenə də deyirik: Səma əzəmətli ərşdir, Kərbəla isə ərşin zinətidir.

Səma, mələklərin məskənidir və Kərbəla mələkələrin enib-qalxdıqları yerdir.

Səmanın bürcləri vardır, Hüseyn (ə) da bürclər sahibidir, rəvayətdə gəldiyi kimi, özü İmamdır (ə), atası və qardaşı İmamdırlar (ə) və doqquz övladı İmamdır (ə).[2]

[1] Bihar 44 /284- 290
[2] Bihar 36 /290

Səmada mələklərin təvaf etdiyi "Surax"[1] adlı ev vardır. Hər gün 70 000 mələk onu təvaf edirlər və bir daha növbə çatmır.[2]

Səma, behiştin məkanıdır və Kərbəla behiştin zinətidir və behiştin bir parçasıdır. Elə bir şəxsin məkanıdır ki, behişt onun nurundan xəlq olunubdur və Hüseyn (ə) behişt cavanlarının ağasıdır.

Səma, Cəbrayılın (ə) məkanıdır, Kərbəlada isə Cəbrayıl (ə) xidmətçidir.

Səma Peyğəmbərin (s) gecə vaxtı seyr etdiyi məkandır, Kərbəlanı isə o Həzrət (s) gündüz vaxtı seyr etmişdir.

Səmada Musanın (ə) qübbəsi vardır, Kərbəlada isə Musanın (ə) danışdığı ağac var.

Səma Həzrət İsanın (ə) məkanıdır, Kərbəla da İsanın (ə) təvəllüd məkanıdır.

Səma günəşin məkanıdır, ancaq bəzi vaxtlar günəş tutulur, Hüseyn (ə) elə bir günəşdir ki, hər nə qədər vəziyyəti şiddətli olurdusa nurunun saçması daha da qüvvətlənirdi.

Səmada ay var, Kərbəlada isə Bəni Haşimin ayı (qəməri) vardır. Bu ay, cəng meydanında olarkən, torpaqsifət düşmənlər onunla İmamət (ə) günəşi arasında pərdə salan zaman tutulmuşdur.

Səmada "Kəfful-xəzib" var [3] və o duanın qəbul olunma səbəbidir, Kərbəlada da "xəzib" (qana boyanmış) baş və bədən var ki, duanın müstəcab olma səbəbidir.

Səma özünə yeddi ulduzu şamil edir və Kərbəla Əbdül-Müttəlib ulduzlarını özünə şamil eddir.

Səmada 1025 ulduz aydın işıq saçır və gizlilərin sayı-hesabı yoxdur. Hüseynin (ə) bədənində 4000 qılınc, ox , nizə yarası zahir idi və gizlilərin sayı hesaba gəlmirdi.

Səmada Qütb və "Bənatun-nəş" (ayı bürcü) var, Kərbəlada isə İmamət qütbü və cəsədinin ətrafında heyran və kimsəsiz qalan qızlar var idi.

---

[1] "Surax"– səmada Kəbənin müqabilində olan evdir, deyilənə görə, həmin "beytul-məmurdur".

[2] Bihar 98 /116

[3] "Kəfful-xəzib"– hər gün zöhr vaxtı, yarım dairəyə çatan ulduzlar məcmuəsidir və bu zaman dualar müstəcab olar.

Səmada "əjdaha başı daşıyan"[1] ulduzlar var, Kərbəlada isə Peyğəmbərin (s) nəvəsinin başını daşıyan əjdaha var idi.

Səmada Kəbənin və Suraxın müqabilində duran "Beytul-məmur"var, hər gün onu 70 000 mələk təvaf edir və bir daha onlara növbə çatmır.

Hüseyni (ə) də təvaf edən mələklər vardır necə ki, əvvəl deyildi və qabaqda deyiləcək, inşallah.

Səmada Kəhkəşan var və Hüseyndə (ə) üsyankarlara şəfaət etmək üçün yaralarının əsərindən qiyamət gününədək izi qalan Kəhkəşan var.

Hüseynə (ə) bəxş edilən yer fəsli

Hüseynə (ə) bir parça ən şərəfli yer bəxş edilmişdir və Hüseynə (ə) xatir həmin o yerə xüsusiyyətlər verilmişdir. O cümlədən yerdə qızıl, gümüş və cəvahirlər mədəni var, Hüseyn (ə) də behiştin dürr, yaqut, qızıl və gümüşdən olan qəsrlərinin mədənidir. Yer, gözəl bitkilər və ağaclar məkanıdır və Hüseyn (ə) tamam İlahi feyzlərin məhəllidir. Yer bəndələrin istirahət, dirilərin və ölülərin asayış yeridir. Hüseyn (ə) daimi istirahət səbəbi və Kərbəla dirilərin və ölülərin asayış məkanıdır.

Hüseynə (ə) bəxş edilən hava və fəza fəsli

Allah-taala Hüseynə (ə) yerlə asiman arasında hava və fəzanı bəxş etmişdir və onlar üçün vəsflər qərar vermişdir :

1-ci: Mələklərin enib-qalxdığı məkandır və zəvvarların əməllərinin onun vasitəsilə yüksəldiyi meracdır.

İsmayıl havaya müvəkkil olan bir mələkdir, o hər gün orada hazır olur və yer mələkləri ilə sual-cavab edir.

2-ci: O məqamdan misli-bərabəri olmayan bir əməl yəni, Hüseynin (ə) şəhadəti ali səmaya ucalmışdır.

[1] Əllərində əjdaha başı tutmuş şəxslər şəklində ulduzlar məcmuəsi.

3-cü: Misli olmayan xüsusi rəhmətin nazil olma məkanıdır.

4-cü: Mələklərin meracı olduğuna görə səma əhli üçün feyzin yüksəliş məqamıdır.[1]

Hüseynə (ə) bəxş edilən su fəsli

İmam Hüseyni (ə) sudan məhrum etdiklərinə görə Allah-taala Hüseynə (ə) dörd növ su bəxş etdi:

1-ci: Kövsər suyunu o həzrətin (ə) və səhabələrinin haqqı qərar verdi və ruhları bədənlərindən çıxmamış o sudan onları sirab etdi. Necə ki, Əliəkbər atdan yerə yıxılanda fəryad etdi: "Atacan bu mənim cəddim Peyğəmbərdir (s), elə bir su ilə məni sirab etdi ki, bundan sonra heç vaxt təşnə olmayacam." [2]

Bu suyu Hüseyn (ə) müsibətinə ağlayanların haqqı qərar verdi ki, böyük təşnəlik günü onları sirab etsin necə ki, Məsmənin rəvayətində nəql olunubdur. Bu fayda gözəl əməllərin əksəriyyəti barədə rəvayət olunubdur. Lakin Hüseynin (ə) xüsusiyyəti budur ki, Kövsər Hüseynə (ə) ağlayanların onun suyundan içmələrinə fərəhlənir.

2-ci: Cənnətdə dirilik (həyəvan) suyu var, bu su o Həzrətin (ə) müsibətinə ağlayanların göz yaşları ilə qarışır və tamı daha gözəl olur.

3-cü: Allah-taala göz yaşlarını o Həzrətin (ə) haqqı qərar vermişdir belə ki, imam Hüseynə (ə) "göz yaşlarının qurbanı" deyirlər. Göz yaşlarını onun şərif adının əsər-əlaməti, hətta ona mənsub olan hər şeyin əsəri, müsibətinin, qəbrinə baxmağın və türbətini qoxumağın əsəri qərar vermişdir.[3]

4-cü: Hər sərin içməli suda o Cənabın (ə) haqqı var, Hüseyn (ə) dostları hər dəfə sərin su içəndə onu yad etməli və qatillərinə lənət oxumalıdırlar, necə ki, özü buyurur: "Ey mənim şiələrim, sərin su

[1] Bihar 98/ 60-62
[2] Bihar 45/44
[3] Bihar 44/ 279-290

içəndə məni yad edin." Həzrət Sadiq (ə) buyurur: "Mən heç vaxt Hüseyni (ə) yad etməmiş sərin su içmədim."[1] Ola bilər Hüseynin (ə) dörd növ suya haqqı olmasının iki səbəbi var.

Hüseyni (ə) sudan məhrum etdilər

1-ci səbəb: "Onu, suda olan dörd haqqından məhrum etdilər.

Birinci: Hüseyni (ə) tamam məxluqat ilə müştərək olan haqqından məhrum etdilər. Belə ki, Adəm (ə) övladlarının hamısı suda və bitkilərdə şərikdirlər.[2] Buna görə şəriət, mülkiyyətdə olan çayların suyundan mülk sahibinin izni olmadan içməyə icazə verir. Ola bilər bu səbəbdən kafirlərə təşnə olduqları zaman su vermək müstəhəbbidir necə ki, rəvayətdə gəlir.[3]

İkinci: Hüseynin (ə) suda tamam canlılarla müştərək haqqı var idi. Çünki, hər ruh sahibinin suda haqqı var. Buna görə, mülkiyyətdə olan və qeyri heyvanlar üçün təşnəlik qorxusu qarşıya gələrsə, mövcud olan suyu onlara vermək və təyəmmüm etmək vacib olur.

Üçüncü: Hüseynin (ə) Küfə əhli üzərində xüsusi haqqı var idi, çünki üç dəfə onları su ilə sirab etmişdir. Bir dəfə quraqlıq ilində Allahdan onlar üçün yağış istədi və o Həzrətin (ə) bərəkətinə yağış yağdı.

Bir dəfə də Siffeyn müharibəsində qılıncının zərbəsi ilə Müaviyənin qoşunundan su almışdır.

Digər dəfə Qadisiyyədə Hürrün ləşkərinə su vermişdir.[4] Ancaq o camaat bu haqların heç birinə riayət etmədilər. Hətta südəmər körpəsinə belə, bir damla su vermədilər. Görürdülər ki, təşnəlikdən körpənin ciyəri yanır, yenə də imtina etdilər. Sonra özü üçün bir damla su istədi, vermədilər ah.

---

[1] Əmaliye Səduq 39-cu məclis səh. 122
[2] Vəsailuş-şiə 7/331
[3] Furui-Kafi 4/57
[4] Bihar 44/113

İçdilər tamam canlılar,
Fərat suyun sirab oldular.

Amma təşnəlikdən sordu,
Üzük qaşını Kərbəla Süleymanı.

Hüseynin (ə) təşnəliyi onun dörd bədən üzvünə təsir etmişdir.

2-ci səbəb: "Təşnəlik Hüseynin (ə) dörd bədən əzasına təsir qoymuşdur.

Birinci: Mübarək dodaqları quruyub çat-çat olmuşdur.

İkinci: Sonda ciyərləri parə-parə olmuş halda və həyatdan naümid olanda, buyurdu: "Bir damla su verin mənə, ciyərlərim parə-parə olub."

Üçüncü: O Həzrətin (ə) mübarək dili ağır yaralandığından ağzının ətrafına yayılmışdır.

Dördüncü: Müqəddəs gözlərinə təşnəlikdən qaranlıq çökmüşdür. Hədisdə gəlir Cəbrayıl (ə) Adəm (ə) ilə söhbət edərkən dedi: "Ey Adəm (ə) əgər görsən Hüseyn (ə) təşnəlikdən "va ətəşa"– deyir, bil ki, susuzluq onunla səma arasında tüstü kimi pərdə çəkmişdir. Beləliklə, dörd əzasının hər birinə xatir Allah-tala ona bir növ su bəxş etmişdir. Söz ki, bu yerə çatdı, siz ey şiələr, o Həzrətin (ə) müsibətində göz yaşları axıtmağı əsirgəməyin.[1]

AĞACLAR FƏSLİ

Musanın (ə) ağacı və İsanın (ə) xurma ağacı

Ağacların ən üstünü Musanın (ə) ağacıdır, "Həqiqətən Mən Allaham" nidası ondan eşidildi. Bəzi rəvayətlərə əsasən həmin ağacın yeri imam Hüseynin (ə) qəbridir.[2] Həmçinin ən üstün ağaclardan Həzrət İsanın (ə) xurma ağacıdır və rəvayətlərdə gəlir ki, bu ağac Kərbəlada idi.[3]

[1] Bihar 44/245
[2] Bihar 98/108
[3] Bihar 98/116; Təhzib 6/73.

DƏNİZLƏR FƏSLİ

İmam Hüseyn (ə) şəhid olan zaman dənizlər mələyi dəryalar əhlinə nida etdi ki; "Hüzün libası geyinin, Allah Rəsulunun (s) övladı şəhid oldu.[1]

DAĞLAR FƏSLİ

Dağların ən şərəflisi Turi-sinadır, rəvayətlərə əsasən bu dağ imam Hüseyn (ə) qəbrinin məhəllidir. Möminlərin nicatına səbəb olan Nuhun gəmisinin endiyi həmin Cudi dağı da buradır.[2]

Bəli qardaşım! Bizim halımız barədə bir qədər düşünsən həzrət Əmir-əl mömininin (ə) kəlamının həqiqətini dərk edəcəksən, o Həzrət (ə) buyurdu : "Dəryanın ortasında şiddətli külək gəmiləri hərəkətə gətirdiyi kimi, bu dünya da sizlərə hərəkət verəcəkdir. Beləliklə, kim qərq oldu artıq onun üçün heç bir əvəz olmayacaq, kim nicat tapdısa yenə də təhlükə ilə üz-üzədir."[3] Biz bilmirik əgər qərq olub, batsaq aqibətimiz atəş olacaqdır ya yox. Ancaq gəmimiz Hüseyn (ə) vilayətinin Cudisinin üzərində qərar tutsa, nicat ümidimiz var.

İNSANLAR VƏ CİNLƏR FƏSLİ

Allah-taala İmam Hüseynə (ə) insanların arasından elə səhabələr bəxş etdi ki, o Həzrətin (ə) öz vəsfinə görə, heç kəsin belə vəfalı səhabələri olmamışdır.[4] Habelə, Allah-taala imam Hüseynə (ə) nisbət fitri məhəbbət bəsləyən xas şiələr bəxş edibdir, onlar imam Hüseyn (ə) əzasında biixtiyar özlərini həlak edirlər.

Maçin ölkəsində bir tayfa var, onlar Aşura günü sinə vuraraq atəşin içinə girirlər və nə yanmırlar nə də ağrı hiss etmirlər.

---

[1] Bihar 45/221
[2] Bihar 98/109
[3] Nəhcül-bəlağə 187-ci xütbə
[4] İrşadul- Mufid 2/93

Cinkər barədə isə, onlardan bir camaat imam Hüseyn (ə) Mədinədən çıxanda o Həzrətin (ə) köməyinə gəldilər. İmam Hüseyn (ə) buyurdu: "Bizim görüş yerimiz Kərbəladır." Kərbəlada onlar İmamın (ə) xidmətinə yetişəndə İmam (ə) onlara cihad izni vermədi.[1]

Cinlərdən bir camaat Məhərrəmin 11-ci günü o Həzrətin (ə) köməyinə gəldilər, ancaq gördülər ki, artıq iş işdən keçibdir. Onların, qadınları və kişilərindən ibarət bir dəstəsi Kərbəlada, Mədinədə, Bəsrədə, Kufədə, Beytul-müqəddəsdə və Ovsəcə ağacının altında növhə deyib, ağlamaqla məşğul oldular. Digər bir dəstəsi İmamın (ə) şəhadət xəbərini ətrafa yaydılar. Onların qadınları gecələr İmamın (ə) cəsədinin kənarında növhə deyirdilər. Cinlərin söylədikləri şeirlər mərsiyə kitablarında yazılıbdır.[2]

VƏHŞİ HEYVANLAR, QUŞLAR, ATLAR VƏ DƏVƏLƏR FƏSLİ

Bunların bəziləri o Həzrətin (ə) şəhadətindən növhələr deyirdilər. Bunlar ahu ilə Həzrət İsanın (ə), şir ilə o Həzrətin (ə), Həzrət İsmayılın (ə) qoyunlarının və Həzrət İbrahimin (ə) atının əhvalatlarında bəyan olunubdur.[3] 11-ci gecə səhranın tamam vəhşi heyvanları üzlərini İmamın (ə) şərif cəsədinə tərəf çevirmiş və sübhədək ağlamışdılar.

Amma quşlar barədə rəvayətdə gəlir ki, bəzi quşlar İmamın (ə) müsibətinə növhə dedilər, bəziləri onun bədəninin üzərinə kölgə saldılar, digərləri Mədinəyə gəlib, onun şəhadət xəbərini qızına və Mədinə əhlinə çatdırdılar, bəziləri isə digər quşlara xəbər apardılar.[4]

Atlar və dəvələr fəsli: İmam Hüseynin (ə) Mürtəcaz ya da Zülcənah adı ilə tanınmış vəfalı bir atı var idi. Bu at özü təşnə olduğu halda sahibinə baxıb sudan imtina etdi və o Həzrətin (ə)

[1] Bihar 44/330
[2] Bihar 45/233
[3] Bihar 44/234
[4] Bihar 45/181

şəhadətindən sonra fəryad edirdi: "Aman; aman Peyğəmbərin (s) qızının balasını öldürən ümmətin əlindən." Sonra xeymələrə tərəf qaçıb, ağasının şəhadət xəbərini əhli-əyalına çatdırdı. Düşmən ləşkəri onu tutmaq istəyəndə, onlardan bir iddəsini həlak etdi.[1]

İmam Hüseynin (ə) bir dəvəsi var idi. Aşura gününün sübhü ona süvar olub, xütbə söylədi. Sonra dəvədən enib, Üqbə ibn Osmana əmr etdi ki, onun dizlərini bağlasın. İmamın (ə) şəhadətindən sonra dəvə başını o qədər yerə vurdu ki, axırda həlak oldu.[2]

DÜNYA HALƏTLƏRİNDƏN İMAM HÜSEYNƏ (Ə) MƏXSUS EDİLMƏSİ FƏSLİ

Hərçənd Allah-taala dünyanı öz dostları üçün bəyənməmişdir, lakin düşmənlər İmamı (ə) sudan, yeməkdən məhrum etdiklərinə görə, əvəzində Allah-taala həmin cinsdən olan üç neməti o Həzrətə (ə) bəxş etdi:

1-ci: Səqayət (yəni, su paylamaq) məqamı.

2- ci: Yemək paylamaq məqamı.

3-cü: Daim təmir və tikinti.

Səqayət – Aşura günü Hüseynin (ə) qəbrinin yanında su vermək üçün xüsusi savab təyin olunubdur.

Rəvayətdə gəlir ki, hər kəs Aşura günü o Həzrətin (ə) qəbrinin kənarında su paylasa, elə bil onun qoşununa su vermişdir.[3]

Buradan məlum olur ki, su verməyin savabı bütün ibadətlərdən üstündür və Seyyidi şühədanın (ə) yolunda olarsa savabı artacaqdır. Buna görə, şiələr hər nə vaxt su ehsanı etsələr həmişə Hüseynin (ə) adına edərlər. Hətta elə bil su ehsanı Hüseyn (ə) adına məxsus edilibdir.

Yemək paylamaq: – Məlumdur ki, əza məclislərində; Aşura günlərində və qeyrilərində imam Hüseyn (ə) ehsanına nə qədər

[1] Bihar45/205

[2] Zəriətun-nicat

[3] Bihar 98/105

pullar xərclənir. Ola bilər əgər bu pulları hesablasalar və günlərə bölsələr günə yarım miliyon milli pul vahidi düşər.

Təmir və tikinti: Xanım Zeynəbdən (ə) nəql olunan rəvayətə əsasən, o ali qübbə daim təmir olunacaq və zinəti günbəgün artacaqdır.[1] Müşahidə edirik ki, Beytullahın və digər hərəmlərin təmiri tamam olur, amma İmam Hüseyn (ə) hərəminin və səhninin təmiri heç vaxt qurtarmır. Hətta Mütəvəkkil məlun İmamın (ə) məğbərəsini viran edib, təzədən tikdirdikdən sonra, hər il bəni Abbas xəlifələri və digər sultanlar onu təmir etmişlər və edirlər. Daim o müqəddəs hərəmdə bənnalıq, nəqqaşlıq, qızıl suyuna çəkilmə və qeyri təmir işləri aparılmaqdadır.

Müəllif deyir: "Beş yaşımdan indiki altmış yaşıma qədər, bir gün olsun belə, o müqəddəs hərəmdə təmir işinin dayandırıldığını nə görmədim, nə də eşitmədim. Mümkündür qiyamət gününədək beləcə də davam edəcəkdir.

Mütərcim deyir: "Yalnız mənim gördüyüm hələ bu qədərdir, təzə qübbənin tikilməsi, baş tərəfdən səhnin genişlənməsi, Nasiri eyvanının tikilməsi, səhnin sərdabə edilməsi, onun daşla döşənməsi, səhnin divarlarına kafel vurulması, hərəmin divarlarına daş döşənməsi və hal-hazırda belə işlər davam etməkdədir.

Səkkizinci bölüm: Ana bətnində olan zamandan bəri qiyamətdən sonrayadək İmam Hüseynə (ə) məxsus edilən ehtiramlar

Həml dövründən qiyamətdən sonrayadək imam Hüseyn (ə) ilə bağlı olan varlıqlara məxsus edilən ehtiramlar bir neçə məsələdən ibarətdir.

1-ci: Hüseynə (ə) hamilə olduğuna xatir anası Həzrəti Zəhraya (ə) edilən ehtiram barədə deyirik. Peyğəmbər (s) xanım Zəhraya buyurdu: "Sənin alnında tezliklə dünyaya gələcək Allahın xalq üzərində Hüccətinin (ə) nurunu görürəm." Sonra Peyğəmbər (s) xa-

[1] Bihar 45/ 180

nım Zəhra (ə) üçün dua edib, üzünə üfürdü. Yaxud suya oxuyub üzünə çilədi. Xanım Zəhra (ə) buyurur: "Qaranlıq gecələrdə və qaranlıq otaqda çırağa ehtiyacım yox idi. Bətnimdə onun təsbih və təqdis sədalarını eşidirdim.Yuxuda görürdüm ki, iki nəfər nurani şəxs mənim üçün dua edirlər.[1]

2-ci: Mövlüd təbrikləri üçün xüsusi ehtiramlar olundu və bunlar vəhyin beş qismindən ibarətdi :

Biri cənnətin xəzinədarı Rizvana vəhy olunubdur ki: "Muhəmmədə (s) kəramət edilən mübarək mövluda xatir cənnətə zinət ver və ətir vur." Digəri, hurul-eynə vəhy olundu ki: "Mübarək mövlud münasibəti ilə özünüzə zinət verin və biri-birinizi ziyarət edin." Digəri mələklərə vəhy olundu ki: "Səflərə düzəlin və bu mövludun kəramətinə təsbih, təqdis, həmd, səna və təkbir deməklə məşğul olun." Cəbrayıla (ə) vəhy olundu ki: "Peyğəmbərin (s) yanına en min qəbilə ilə, hər qəbilədə "əbləğ" atlarına süvar olmuş, başlarında dürr və yaqutdan qübbələr olan min-min mələk və onlarla bərabər əllərində nizələr olan ruhanilər vardır – bu mübarək mövlud münasibəti ilə Muhəmmədə təbriklər deyin."[2] Növlərlə ehtiramları özünə şamil edən bu mənzərəni təsəvvür et.

3-cü: İmama (ə) ad qoyulması ilə əlaqədar xüsusi ehtiram belədir: Cəbrayıla (ə) xitab olundu ki: "Peyğəmbərə (s) təbriklər söyləndikdən sonra ona de: "Adını Hüseyn (ə) qoy." Beləliklə, o Həzrətin (ə) adı Allah tərəfindən təyin edilmişdir və kitabda onun vəsfləri verilmişdir. Rəvayətdə gəldiyi kimi Allah-taala onun üçün xüsusi isimlər qərar vermişdir.

4-cü: Əzadarlıq ehtiramıdır ki, Allah-taala adını təyin etdikdən sonra buyurdu: "Əzadarlıq et və de: "Onu öz ümməti öldürücəkdir."[3]

5-ci: Qabilə (dünyaya gələn körpəni tutan qadın, yəni mama) ehtiramıdır, Allah-taala hurilərin arasında ən xoş simalı huri-

---

[1] Bihar 43/272

[2] Bihar 43/248 Gördüyünüz kimi müəllif 5-ci qisim vəhyi zikr etməmişdir o da budur ki, vəhy etdi cəhənnəm xəzinədarına ki, cəhənnəm atəşini söndürsün.

[3] Bihar 43/248

ni seçib bir dəstə hurilərlə birgə Hüseynə (ə) qabilə olmaq üçün göndərdi.[1]

6-cı: Beşik ehtiramı idi ki, onun bərəkətinə Fetres adlı mələyin tövbəsi qəbul olundu.

7-ci: Beşiyi yellətmək ehtiramıdır ki, bu işə mələklər və Mikayıl (ə) müvəkkil olunmuşdular və bununla iftixar edirdilər.

8-ci: Yuxu zikri (yəni, laylay çalınması) ehtiramıdır ki, buna Cəbrayl (ə) vəkil olunmuşdur və belə laylay deyirdi: "Həqiqətən cənnətdə süddən bir çay axır."[2]

9-cu: Süd içmək ehtiramıdır ki, Peyğəmbərin (s) dilindən və barmağından süd içirdi.[3] Ziyarətnamədə gəldiyi kimi: "Rəhmət Peyğəmbərinin (s) əlindən yemək yedin, iman döşündən süd içdin və islam ətəyində tərbiyə olundun."[4]

10-cu: Libas ehtiramı idi. Bu xüsusi libası Allah-taala Hüseyn (ə) üçün hədiyyə göndərmişdir və Peyğəmbər (s) ona geyindirib, buyurmuşdur: "Bu libasın sapı Cəbrayılın (ə) qanadının nazik lələyindəndir."[5]

11-ci: O Həzrətin (ə) qəbrinin ehtiramıdır. Bütün peyğəmbərlər Adəmdən (ə) Xatəmədək (s) o qəbrin sahibinin orada dəfn olunmasından qabaq onu ziyarət etmişdilər.

12-ci: Onun göz yaşının ehtiramıdır necə ki, ahunun əhvalatında nəql olunmuşdur, qabaqda bu barədə söhbət edəcəyik, inşallah.

13-cü: O Həzrətin (ə) qanının ehtiramıdır ki, Peyğəmbər (s) o qanı bir mələyin səmadan gətirdiyi yaşıl şüşədə cəm etmişdir.[6]

14-cü: Onun müsibətinə axıdılan göz yaşının ehtiramıdır ki, mələklər onları cəm edərlər və behiştin xəzinədarına verərlər, onlar da bu göz yaşlarını həyat suyu ilə qarışdırarlar.

15-ci: Üzərinə həmin göz yaşları axıdılan üzlərin ehtiramıdır ki, qiyamət günü xarlıq və zillət görməzlər.

---

[1] Nasixut-təvarix 4/26
[2] Bihar 43/297
[3] Bihar 44/198
[4] Bihar 98/ 360
[5] Bihar 43/ 271
[6] Bihar 45/231

16-cı: İmam Hüseyn (ə) adına qurulan əza məclisinin ehtiramıdır ki, bəyanı gələcək inşallah.

17-ci: O Həzrətin (ə) şəfaətinin ehtiramıdır ki, qiyamət gününün şəfaətindən əlavə onu, təvəllüdünün əvvəl günü mələklərin şəfaətçisi qərar verdi, necə ki, Fetres və Dərdayıl adlı mələklərin əhvalatında məşhurdur.

18-ci: O Həzrətin (ə) qəbrinin türbətidir ki, qəbrindən 25 zirəyədək, hətta 4 fərsəxə qədər müxtəlif fəzilətləri vardır. Rəvayətlərə əsasən Allah-taala "Dəhvul-ərz" günü bu torpağı imam Hüseynin (ə) dəfni üçün qərar vermişdir.[1]

Kərbəla torpağının xüsusiyyətləri

Şərif türbətin xüsusiyyətləri vardır:

1-ci: Rəvayətdə nəql olunduğu kimi bu türbət əzəmətli Kəbədən şərəflidir. Bəziləri deyiblər ki, hətta Nəcəfdən də şərəflidir, əlbəttə Əmir-əl möminin (ə) məğbərəsindən savayı.

2-ci: Allah-taala bu torpağı 24 000 il Kəbədən əvvəl xəlq etmiş və mübarək, pak qərar vermişdir.

3-cü: Bu torpaq həmişə mübarək və pak olmuşdur və Allah-taala onu cənnətlər ərazisindən daha ali edənədək Kərbəla Allah övliyalarının ən yaxşı mənzili və məskənidir.

4-cü: Rəvayətdə nəql olunduğu kimi: "Hal-hazırda bu torpaq behişt torpaqlarındandır."

5-ci: İmam Səccaddan (ə) rəvayət edirlər ki: "Qiyamətin zəlzələsi baş verəndə Kərbəlanı nurani və səfalı torpağı ilə qaldırarlar və cənnətin ən yaxşı bağına qoyarlar. Onun nuru behiştə yayılar, parlaq ulduz gözləri qamaşdıran kimi, cənnət əhlinin gözlərinə işıq saçar, sonra o müqəddəs torpaq nida edər: "Həzrət Seyyidi şühədanın (ə) və cənnət cavanlarının ağasının cəsədini ağuşuna alan pak və mübarək torpaq mənəm."[2]

---

[1] Bihar 44/331

[2] Bihar 98/107-111

6-cı: O türbətlə təsbih deməyin savabı başqa təsbihdən 70 dəfə çoxdur.

7-ci:- Bu türbətdən olan təsbihin dənələrini çevirmək təsbih savabına malikdir.

8-ci: O türbətdən olan təsbihi ilk dəfə əlinə götürəndə belə deyər: "Allahummə inni əsbəhtu usəbbihukə və uhəlliluka və əhmədukə ədədə ma udiru bihi subhəti." Yəni, "Allahım Səni təsbih və tərif etməklə sübhümü açdım sübhümü açdım, təsbehimin dənələrini çevirdiyim qədər Sənə təşəkkür edirəm" – və beləliklə şama qədər ona təsbih demək savabı yazılar. Həmçinin əgər yatan vaxtı bu duanı oxuyub və təsbihi başının altına qoyarsa, sübhədək həmin savabı qazanar.

9-c: Bu müqəddəs türbətə səcdə etmək yeddi qat hicabları aradan götürər. Burada murad yeddi səmaya nüfuz etmək ya ucalmaqdır. Yaxud Məaz ibn Cəbəlin rəvayətində gəldiyi kimi əməlin qəbul olunmasına maneə olan günah hicablarıdır. Habelə onun üzərinə səcdə etmək yeddi yerin nurunu bəxş edər.[1]

Burada belə bir sual meydana gəlir ki, – "fəzilət bu türbətin özünə səcdə etməkdədir, ya gildən düzəldilmiş və "möhür" adlanan lövhəyə də şamil olur?" Müaviyə ibn Əmmarın rəvayətinə əsasən birincidir. Həmin rəvayətdə deyilir ki, imam Səccadın (ə) şərif türbətlə doldurulmuş bir kisəsi var idi, namaz vaxtı onu səcdəgahına sərərdi və onun üzərinə səcdə edərdi.[2]

10-cu: Torpaq və gil yemək haramdır. Rəvayətdə deyilir ki, o donuz əti mislindədir.[3] Ancaq, yalnız imam Hüseynin (ə) şərif qəbrinin türbəti istisnadır. Onu müəyyən şərtlərlə və şəfa tapmaq niyyətilə yemək olar; və ən mühüm şərti budur ki, niyyəti sadiq olsun, üzərinə dua oxunsun və möhür vurulsun ki, cinlər və şeytanlar ona məss çəkməyənədək təsiri aradan getməsin.[4]

---

[1] Şeyx Səduq "Mən la yəhzurul-fəqih"
[2] Bihar 98/ 135
[3] Bihar 98/ 129
[4] Binar 98 /128-132

11-ci: Bu türbəti üstündə gəzdirmək təhlükələrdən amanda qalmağa səbəb olar, əgər həmin niyyət ilə olarsa.[1]

12-ci: Bu türbət ticarət malının arasına qoyulsa, onun bərəkətinə səbəb olar.[2]

13-cü: Müstəhəbbidir, körpənin zərərlərdən amanda qalması üçün damağına şərif türbətdən çəkilsin.[3]

14-cü: Şərif türbəti qəbrə qoymaq meyitin əzabdan amanda qalmasına səbəb olar.[4] Rəvayətdə nəql olunur ki, bir qadın zina edirdi və bu əməlindən dünyaya gələn körpələri odda yandırırdı. Həmin qadın öldükdə, onu dəfn edən zaman torpaq cəsədini çölə atırdı. Bu bir neçə dəfə təkrar olundu. Sonda, İmamın (ə) təlimi ilə qəbrinə İmam Hüseynin (ə) türbətini qoydular və torpaq onu qəbul etdi.[5]

15-ci: Meyitin hənutunu o türbət ilə qarışdırmaq müstəhəbbidir.[6]

16-cı: O müqəddəs torpaqda dəfn olunmaq sorğu-sualsız cənnətə daxil olmağa səbəb olar.[7]

17-ci: Cənnət mələkləri yerə nazil olan zaman Hurilər onlardan xahiş edərlər ki, təbərrük üçün o pak türbətdən hədiyyə gətirsinlər.[8]

18-ci: Hər mələk bu pak türbətdən götürüb Peyğəmbər (s) üçün hədiyyə gətirdi, Peyğəmbər (s) və o Həzrətin (ə) özü də bu türbətdən götürmüşdülər, bu barədə gələcək inşallah.

19-cu: İmam Hüseynin (ə) şəhadətindən qabaq o müqəddəs torpaqda 200 peyğəmbər, 200 vəsi və 200 peyğəmbər nəvəsi dəfn olunmuşdur. Onların hamısı şəhid olmuşdular, necə ki, mötəbər rəvayətlərdə nəql olunmuşdur.[9]

---

[1] Bihar 98 /118
[2] Bihar 98/ 125
[3] Bihar 98/124
[4] Bihar 98/136
[5] Vəsailuş-şiə 2/742
[6] Bihar 98/ 133
[7] Əmaliye Səduq 28/117
[8] Bihar 98/134
[9] Bihar 98/116; Təhzib 6/ 72; Kamiluz–ziyarət 88/ 280

20-ci: Bu pak torpağı iyləmək göz yaşlarının axmasına səbəb olar, necə ki, Kərbəla hadisəsindən çox-çox əvvəl Peyğəmbərə (s) üz vermişdir. "Ağlamaq səbəbləri" fəslində bu barədə gələcək.[1]

21-ci: İmam Hüseyn (ə) şəhid olan zaman bu türbət qana çevrildi, necə ki çoxsaylı rəvayətlərdə gəlibdir, o cümlədən sünni və şiə Ümmü Sələmədən nəql edirlər ki, Peyğəmbər (s) Merac gecəsi götürdüyü, ya Cəbrayıl onun üçün hədiyyə gətirdiyi və qırmızı rəngdə olan bu türbəti Ümmü Sələməyə verdi və buyurdu: "Bu türbəti saxla, qana çevrilən zaman bil ki, övladım Hüseyni (ə) şəhid etdilər." Ümmü Sələmə deyir: "Onu bir şüşəyə qoydum və hər gün ona baxıb, ağlayırdım. Aşura günü olanda, sübh vaxtı baxdım, torpaq həmin rəngdə idi, günortadan sonra qayıdıb baxanda gördüm qan parçasına dönüb, ahu-naləm ucaldı." Səlma deyir: "Gördüm Ümmü Sələmənin qabağındakı şüşədə qan qaynayır."[2]

22-ci: O torpağa daxil olmaq hüzn və qəm-qüssəyə səbəb olar. Xüsusən, imam Hüseynin (ə) mübarək qəbrinə yaxınlaşan və ayağının altında olan oğlu Əliəkbərin qəbrinə nəzər yetirən zaman.

23-cü: Bu türbət, Peyğəmbəri (s) ziyarətinə gələn hər bir mələyin və Kərbəlaya ziyarətə gələn tamam peyğəmbərlərin əlinə yetişmişdir və hamısı onu iyləyib bədənlərinə sürtmüşdülər. Buna görə o türbət qiyamət gününədək tamam peyğəmbərlərin məqamıdır.[3]

Doqquzuncu bölüm: O Həzrətə (ə) qarşı edilən hörmətsizliklə eyni vaxtda göstərilən xüsusi ehtiramlar

İmam Hüseynə (ə) göstərilən xüsusi ehtiramlar o Həzrətə (ə) edilən hörmətsizliklə eyni vaxtda olmuşdur. Bunların bəziləri hörmətsizlik edən şəxs tərəfindən, bəziləri isə qeyri şəxslər tərəfindən olmuşdur. Belə ki, xüsusi ehtiramın izzəti həmin hörmət-

[1] Bihar 44/ 247
[2] Bihar 45/230
[3] Bihar 44/236

siliyin zillətinə qalib gəlirdi. Çünki, Mənnan Allah Öz övliyaları üçün zilləti bəyənməmişdir ki, onlara qarşı qəlblərdə nifrət yaranmasın. Buna görə, zəif və həqir olsalar da daxili aləmlərinin zənginliyindən gözlərdə böyük və əziz görünürlər. İmam Hüseyn (ə) üçün bu barədə xüsusiyyətlər vardır; İmam Hüseynin (ə) ölümünü hamıdan əvvəl arzulayan Müaviyə idi, ancaq eyni zamanda Yezidə onunla ehtiramla davranmağı əmr etmişdir. Yezidə yazdığı vəsiyyətdə belə deyir: "Mən sənin üçün Hüseyn ibn Əlidən qorxuram (ə) əgər ona qalib gəlsən, onun haqqına riayət et, çünki o Peyğəmbərin (s) qəlbinin bir parəsidir."[1]

Mütərcim deyir: "Zahirən qorxurdu ki, camaat Yezidə qarşı qiyam edər və səltənətinə son qoyar. Yəni, Allahı və Onun rəsulunu (s) deyil, öz oğlunun hakimiyyətini düşünürdü."

Həmçinin, Yezidin o Həzrəti (ə) qətlə yetirmək əmri verdiyi ilk şəxs Mədinənin hakimi idi. O da öz növbəsində dedi: "Hüseynin (ə) qanında şərik olmaqdan Allaha pənah aparıram." Ömər Səd məlun o Həzrətlə (ə) müharibə etməyə məmur olunanda bu məzmunda şərlər dedi: "Hər nə qədər fikirləşirəm, özümü iki xətər arasında görürəm, ya Rey mülkündən əl çəkim, ya da Hüseynin (ə) qanını tökməklə, günaha batım. Rey mülkü mənim arzularımın zirvəsi və gözümün işığıdır, ancaq Hüseynin (ə) qətli də cəhənnəm oduna düçar olmağımın səbəbidir."[2] Şümür məlun da qoşunu o Həzrətin (ə) üzərinə həmlə etməyə təhrik edəndə deyirdi: "Hüseyn (ə) kəramətli rəqibdir onun əli ilə öldürülmək ar sayılmaz."[3] İmam Hüseyni (ə) öldürən zaman da bir neçə kəlmə ilə ona ehtiram etdi, dedi: "Səni öldürürəm amma bilirəm ki, Əliyyul-Əla olan Allah mənim düşmənimdir." Həmçinin, Hüseynin (ə) mübarək başını İbn Ziyadın yanına aparan şəxs dedi:

Doldur qızıl-gümüşlə torbalarımı
Pula xatir öldürdüm bəşər şahını.

[1] Bihar 44 /311
[2] Kəşful-ğimmə 2/48
[3] Bihar 45/51

Əcdadlarının yoxdur misli-bərabəri
Atası vəliyyullahdır, Allahın şiri.

Mübarək bədəninin üzərinə at çapanlar İbn Ziyadın hüzurunda bir neçə beyt şeir deməklə o Cənaba (ə) ehtiram göstərdilər. İmamın (ə) mübarək başını Yezidin qabağına qoyanda o məlun ehiram etmişdir.[1]

Amma hörmətsizliklə eyni vaxtda digər şəxslər tərəfindən göstərilən ehtiramlar bir neçə vəziyyətdə baş verdi; o cümlədən, İmama (ə) qarşı cəsarət edib: "Ey Hüseyn (ə) sənə atəşlə müjdə verirəm" – deyən məlunun atı dərhal dal ayaqları üztə qalxdı və məlunun ayağı üzəngiyə ilişmiş halda, onu yanan xəndəyə sürüklədi, tulladı və oradan cəhənnəm oduna tərəf üz tutdu."[2] Başqa birisi cəsarət edib: "Ey Hüseyn (ə) sənin Peyğəmbərin (s) hörməti ilə nə əlaqən var ki?" – deyəndə, ayaq yoluna getmək hacəti tutdu, bayıra çıxdığı zaman ilan onu sancdı və öz nəcisinin içində qıvrıla-qıvrıla cəhənnəmə vasil oldu.[3] Başqa birisi o Həzrətə (ə) dedi: "Suya çoxlu bax, çünki təşnəlikdən ölənədək onu dadmayacaqsan." Həzrət (ə) buyurdu: "Allahım onu təşnə öldür." Bu vaxt o məlunda elə bir halət üz verdi ki, dəli kimi fəryad etdi: "Əl-ətəş". Bir məşk dolu su içdi, yenə "əl-ətəş" qışqırırdı, o qədər su içdi ki, nəhayət qarnı partladı və öldü.[4]

Onuncu bölüm: O Həzrətin (ə) yeməyi ilə bağlı xüsusi ehtiramlar

İmam Hüseynə (ə) yeməyi ilə bağlı xüsusi ehtiramlar olmuşdur, o cümlədən bir neçə dəfə Hüeynə (ə) behiştdən töhfələr gəlmişdir; məsələn xurma, heyva və alma nazil olmuşdur. Hətta Peyğəmbər (s), Əli (ə), Fatimə (ə) və Həsən (ə) üçün behiştdən gə-

[1] Bihar 45/131
[2] Bihar 45/301
[3] Bihar 45/302
[4] Bihar 45/310

lən yeməyin səbəbi Hüseynin (ə) duası ilə yaxud ona xatir olmuşdur.[1]

On birinci bölüm: O Həzrətin (ə) libası ilə bağlı xüsusi ehtiramlar

Bil ki, Allah-taala məxsusən Hüseyn (ə) üçün bir neçə dəfə behiştdən libas hədiyyə etmişdir və o libasların rənglərinin qırmızı və yaşıl olması məşhurdur və sirri də aydındır.[2]

Bundan əlavə Hüseynə (ə) məxsusi libas hədiyyə olunmuşdur, Ümmü Sələmə belə nəql edir: "Günlərin biri gördüm Peyğəmbər (s) Hüseynə (ə) mislini görmədiyim və dünya libaslarına bənzəməyən bir libas geyindirir, ərz etdim: "Ey Allahın Rəsulu (s) bu nədir?" Buyurdu: "Bunu Allah-taala behiştdən Hüseyn (ə) üçün hədiyyə göndəribdir, onun sapları Cəbrayılın (ə) nazik qanadlarındandır."[3] Düşmənlər Hüseyni (ə) şəhid və bədənini üryan edəndən sonra, Allah-taala mələklərin vasitəsilə ona behişt libasları geyindirdi, bunun təfsilatı gələcəkdir, inşallah.

[1] Bihar43/307
[2] Bihar 44/245
[3] Bihar 43/271

BEŞİNCİ ÜNVAN

İMAM HÜSEYNƏ (Ə) BƏXŞ EDİLƏN XÜSUSİ RƏBBANİ LÜTFÜN BƏYANINDA

Əvvəldə Hüseynə (ə) əta edilən xüsusi Rəbbani lütflər barədə işarə etdik ki, Allah-taala (qüdrət) əlini Hüseynin (ə) başına qoymuşdur. Bu lütfün iki təzahürü vardır:

Birinci: O Həzrətin (ə) şəxsən özünə yetişən İlahi yaxınlığın xüsusi mərtəbəsidir ki, onu təsəvvür və dərk etmək bizim əqlimizin fövqündədir və bu yaxınlığın şaxəsi imamətin o Həzrətin (ə) nəslindən davam etməsində təzahür edir.

İkinci: İmam Hüseyn (ə) vasitəsilə digər məxluqata yetişən lütflərin təzahürüdür və bunların sayı-hesabı yoxdur. O cümlədən, türbətində şəfa təyin etmişdir, mübarək hərəminin qübbəsinin altıda duanı müstəcab qərar vermişdir, ən mühümü budur ki, Hüseyni (ə) öz rəhmətinin ən əzəmətli səbəbi etmişdir, çünki bu rəhmət aləmin yaradılışının əsil məqsədidir. Peyğəmbəri (s) aləmlərə rəhmət olaraq göndərdi, sonra Hüseyni (ə) ondan və onu Hüseyndən (ə) qərar verdi. Buna əsasən, Hüseyn (ə) rəhmət əlinin qoyulan məkanıdır və rəhmət də ondandır. Rəhmət əli onu ehtiyacsız etmiş, rəhmət ətəyində tərbiyə almış və özü rəhmət mənbəyi, səbəblər məcmuəsi, vasitələri cəm edən, rəhmət çeşməsinin mənşəyi, rəhmət aynasının məzhəri və rəhmət maddələrinin hərəkət vericisi, İmam Huseynə (ə) qarşı rəhimli olmaqla insan rəhm olunmağa ləyaqət tapır, odur qovuşmuş rəhmət və rəhm olunmuş rəhmət. Beləliklə, sənin qəlbində ona qarşı rəhm hissi varsa, ona ağlayacaqsan və bununla da Allah sənə rəhm edəcəkdir. Sənə belə deyiləcək: "Allahın salavatı olsun sənə, ey rəhmət sahibi və rəhmətə rəhm edən. Bu ünvan imam Huseynin (ə) səbəbi ilə həyata keçən rəhmət vasitələrinə verilir. Bunun bəyanı çox genişdi və umumiyyətlə həmin rəhmət vasitələri bütün gözəl əməllərə və əxlaqi kəramətlərə bərabərdir. Mətləbin bəyanına başlamazdan əvvəl iki müqqədiməni zikr edirik:

Birinci müqqədimə: Bəndəçilik yaradılışın hədəfidir

"Yoxsa insan elə güman edir ki, başlı-başına buraxılacaq (heç bir vəzifəsi və hesabı yoxdur)?" Ey insan, elə güman etmə ki, sən əbəs yerə yaradılmısan və sən özbaşına buraxılacaqsan, səni yaradan Allah hikmət sahibidir, ehtiyacsızdır, qadirdir, heç vaxt əbəs və mənasız bir əməlin sahibi olmamışdır. Səni yoxluqdan varlıq aləminə (təkvini xitablar meydanına) gətirmişdir. Sonra bir müddət torpaq olmuşdun, sonra nütfə oldun, sonra qan laxtasına, sonra da ət parçasına çevrildin, sonra sümüyə döndün sonra sümük ətlə ortüldü və nəhayət insan oldun. Sənə əql verildi və idrak qüvvəsi tapdın, bunların hamısı sənə olan təkvini (yaradılış) xitabları idi. Sonra həddi buluğ dövrunə çatdın, bu zaman sənə tərəf çoxsaylı təklif (şəri vəzifə) xitabları üz tutdular. Məsələn, həqiqi etiqadlara (əqaidə) və gözəl sifətlərə sahib olmaq təklifi, bədəni və malı olan vacib və müstəhəb felləri yerinə yetirmək təklifi, xəbis sifətləri, haram felləri, sözləri və halal olmayan malları tərk etmək təklifi, bu hökmləri ictihad, yaxud təqlid yolu ilə təlim almaq və onlara əməl etmək təklifi. Bundan sonra sənə tərəf irşadiyə (təkamülə doğru hərəkət) təklifi üz tutacaqdır, yəni itaətdə sabit qədəm olmaq, xeyir işlərdə qabağa düşmək və nicat vasitəsi axtarmaq təklifi. Allaha tərəf yol axtarmaq, Allahın dəvətini qəbul etmək və Allaha tərəf gedən yolda azuqə toplamaq təklifi. Allaha "qərzul həsənə" – "gözəl borc" vermək, təqva hasil etmək və Allah yolunda cihad etmək təklifi. Allahın məğfirətinə doğru tələsmək və bu kimi təkliflər ki, hamısı həmin əsl olan təkliflərə təkidlərdir. Bütün bu təkliflərdən və onların möhlət zamanı bitəndən sonra sənə tərəf təkvini (varlıq) xitabları üz tutacaqdır ki, artıq bunlardan boyun qaçırmaq mümkün deyil.

O cümlədən, ruhun bədənindən ayrılandan sonra əbədiyyət aləminə daxil olacaqdır, bədənin və onun qüvvələri hərəkətdən düşəcəkdir. Gözlərinə qaranlıq çökəcək, qulaqların kar, dilin lal olacaqdır və əlində olan hər şeyi itirəcəksən, bunların hamısı

Allahın xitabı ilə həyata keçəcəkdir. Sən dəvət edənin dəvətini qəbul etməlisən. Bunların hamısından sonra təklifi xitabları bir neçə nəticə ilə sənə xitab edəcəkdir və sənin halətin həmin xitablara müsbət ya mənfi münasibətindən asılı olaraq müxtəlif olacaqdır. Beləliklə, birinci xitab sənin ruhunla cəsədinin birləşməsinə yetişəcəkdir, sonra qəbirdən həşr olunacaqsan. Sonra xitab olunacaq ki: "Öz əməl kitabını oxu." Bu kitabı ya sağ əlinə, ya sol əlinə və arxadan alacaqsan. Deyəcəksən: "Baxın gözəl əməllərlə dolu olan bu kitab mənimdir." Ya deyəcəksən: "Kaş bu kitabı mənə verməzdilər və hesabımın nə olduğunu bilməyəydim."

Sonra bəzilərinə xitab yetişəcəkdir ki: "Ey Mənim itaətkar bəndələrim, sizin üçün qorxu yoxdur və heç vaxt hüznlü olmayacaqsınız."

Bəzilərinə də xitab olunacaq ki: "Ey günahkar bəndələr, əməlisaleh insanlardan ayrılın."

Yenə də məhşərin mələklərinə bəzilərinin barəsində xitab olunacaq ki: "Onları sorğu-suala hazırlayın."

Bəziləri barədə də mələklərə xitab olunacaq ki: "Möminlərə cənnətlə müjdə verin. Bəziləri barədə isə deyiləcək: "Bu günahkarları götürüb, qandallayın." Beləliklə, vay olsun o kəsə ki, nə ailəsindən bir nəfər onun dadına yetişəcək nə də tayfasından. Bəzilərinə də deyiləcək ki: "Götürün bu üsyankarı, atın cəhənnəmə."

Bir iddəsi barədə də deyiləcək: **"Bunu götürüb, qandallayın, 70 zirə uzunluğunda olan zərcirlə bağlayın."**[1] Bu şərif ayənin dəqiq mənasını bilmirəm, ola bilər adi mənada, yəni zəncirlə bağlayın mənasında deyil, zəncirin həlqəsinin içində saxlayın mənasındadır.

Bəziləri barədə də deyilər: "Bu mömini təbrik edin ki, "Salam olsun sizə! Pak oldunuz, buna görə də əbədi məskunlaşmaq üçün cənnətə daxil olun!"[2]

Bəziləri barədə də deyərlər: "Götürün bu kafiri və cəhənnəmin ortasına aparın və başına cəhənnəm əzabı tökün."

[1] "Əl-Haqqə" surəsi /30-32
[2] Zümər / 73

O cümlədən sənə və səndən qeyrisinə nisbət zəifləndirici xitablar olunacaqdır, yəni onların vasitəsilə sənin acizliyin və zəifliyin izhar olunacaq, məsələn: "(Qiyamət günü belə xitab olunacaq ki, "Ey cinlər və insanlar tayfaları! Əgər (əməllərinizin cəzasından qaçmaq üçün) göylərin və yerin əhatə dairəsindən (başqa bir yerə) keçə bilsəniz, keçin. (Lakin qeyri-adi) bir qüdrət olmadan keçə bilməyəcəksiniz (ona da malik deyilsiniz)!"[1]

Həmçinin, məzəmmət xitabları olacaqdır. Məsələn: "Ona (cəhənnəmə) daxil olun və yanın. Səbir etsəniz də , səbir etməsəniz də sizin üçün eynidir."[2] Həmçinin: (Və deyin)"Dad ki, doğrudan da sən həmin qüdrətli və möhtərəmsən!"[3] Beləliklə, bu xitablar təklifi və irşadi xitabların şaxələrindəndir, indi özün də bir düşün, bax-gör bu xitablara müti olanlardansan ya yox, əgər deyilsənsə onda özünü cansıxıcı xitablara hazırla.

İkinci müqəddimə:
İnsan günahlara qərq olmuşdur

Bil ki, sən hal-hazırda bir neçə cəhətdən günahlara qərq olmusan:

1-ci: Həmişə arzu və xəyallarla yaşayırsan, daim bəlalar, təhlükəllər, zərərlər və xəstəliklərlə birgə ölümə doğru qaçırsan. Elə bir gəmidəsən ki, şiddətli tufanda burulğana düşübdür və nəvaxt qərq olacağını bilmirsən. Hər tərəfdən düşmənlər səni əhatə etmişlər və bədəninin sütünu olan dörd növlü ünsürlər səni araya alıbdır və bir gün gələcək ki, onların birinin vasitəsilə öləcəksən.

2-ci: Sənin ağlına gəlməyən bir müsibətdir; Əmir-əl möminin (ə) bu müsibəti fikirləşəndə nalə çəkirdi, ilan kimi qıvrılır, balası ölmüş ana kimi ağlayırdı. Bu da qarşıda gələn və dayanacaqları qorxulu, vahiməli, böyük haqq-hesabı olan səfərdir. Ya əbədi

[1] Ər-rəhman/33
[2] Tur / 16
[3] Duxan /49

cənnət ya da əbədi cəhənnəmdir.[1] Azuqə çox azdır, ayaqyalın, piyada, əliboş və yol da çox təhlükəlidir.

3-cü: Sənin müsibətin böyük, halın isə çox xarabdır, çox ateşlərdə yanacaqsan, amma bunlardan xəbərin yoxdur. Hal-hazırda sənin qəlbin, bədənin, dilin, qarnın və ayaqların günah ateşi ilə şölələnir. Sən günahlar mərəkəsində öldürülmüsən, nəfsi əmmarənin və şeytanın əsiri olmusan.Tamam əzaların; belin, qarnın və qəlbin hamısı od içindədir. Sənin insaniyyət əzalarının hamısı parə-parə olubdur. Sənə 100 000 günah yarası dəyibdir, azğınlıq atları sənin hidayət bədənini tapdaq-tapdaq etmişlər.

4-cü: Böyük bəla və müsibət bundan ibarətdir ki, əgər qocalanadək bu dünyada qalsan qüvvədən düşəcəksən, əgər fəqir olsan qocalıq və yoxsulluq sənin üçün böyük bəlaya çevriləcəkdir. Əgər varlı olsan həyatın eyşindən ləzzət ala bilməyəcəksən, əhlin və övladların səndən bezəcəklər və sənin ölümünü arzulayacaqlar. Dünyadan köçəndə rahat yatmağın üçün hazırlamadığın qəbrə tərəf gedəcəksən. O qəbirdə saleh əməllərdən nə döşəmə hazırladın, nə də çıraq. Beləliklə, orada çürümüş bədənlə, torpağa dönmüş əzaların, habelə qarışqalar, ilan, əqrəblər və qurdlar ilə nə edəcəksən?

Mütərcim deyir: "Qəbir sıxıntısı, Nəkir və Munkirin sorğusualı və bərzəx əzabı ilə nə edəcəksən? Məhşərə qalxanda nə edəcəksən? O dəhşətli atəşlə yanan, tavanı günəşin yandırıcı atəşi, ətraf isə günah atəşi olan məkanda necə qalacaqsan? Əgər getsən hara gedəcəksən, əgər qulağından və qəlbindən qəflət pambığı götürülsə və bilsən ki, hansı müsibətlərlə üz-üzə gələcəksən əsla gözəl libaslar geyinmərsən, torpağın üstündə oturub, əhl-əyalından, mənsəbindən və malından əl çəkərsən.

Əmir-əl möminin (ə) buyurur: "Mənim bildiklərimi sən bilsəydin – yəni, aqibətinizin necə olacağını bisəydin – dərhal mal, dövlətinizi başsız buraxıb səhraya, biyabana üz tutub ahu-zar edib, ağlayardınız və öz halınızla məşğul olardınız.[2]

[1] Nəhcül-bəlağə Feyzul-islam 6/1118
[2] Nəhcül-bəlağə Feyzul-islam 2/326 115-ci xütbə

İmam Hüseynə (ə) məxsus olan xitabların yerinə yetirilməsi

Bu müqəddimələr məlum olandan sonra deyirik ki, Ali-əbanın beşincisi həzrət imam Hüseyn (ə), Allah tərəfindən ona məxsus olan xitabları yerinə yetirdi. Bu xitabları Cəbrayıl (ə) möhürlənmiş səhifələrdə Peyğəmbərə (s) gətirmişdir və o Həzrət (s) onları əmir-əl mömininə (ə) verdi, o da İmam Həsənə (ə), o da İmam Hüseynə (ə) ötürmüşdür. İmam Hüseyn (ə) də öz öhdəsinə düşən xitabları əmələ gətirdi, bunun nəticəsində imam Hüseynə (ə) təvəssül edənlər üçün bütün irşadi və təklifi əməlləri yerinə yetirmək müyəssər olur.

Elə bir müsibətlərə səbir etdi ki, onun əvəzində imam Hüseynə (ə) təvəssül edənlərin üzərindən tamam müsibətlərin götürülməsi hasil oldu, o cümlədən axirət əzablarında nicat tapmaq neməti. İmam (ə) tərəfindən bu xitab yerinə yetirilən zaman o Həzrətə (ə) xüsusi xitab olundu və bunun nəticəsində Hüseynə (ə) təvəssül edənlərin üzərində zəifləndirici və məzəmmət edici xitablar götürüldü. Buna əsasən, Hüseyn (ə) vəsilələri ilə itaətlərə; namaza, oruca, sədəğəyə, həccə, ümrəyə, cihada edilən əmr hasil olur, yəni bütün bu əməllərin savabını təvəssül edən şəxsə verirlər. Hətta sənin qazana bilməyəcəyin, ali məqam sahibi olan şəxslərin savabını, hətta Peyğəmbərlə (s) birlikdə həcc və cihad edən şəxslərin savabını, hətta yüz qəbul olunmuş həccin, bəzi hədislərə əsasən 100 000 həccin savabı[1], hətta bir ziyarətdə hər addımına 100 000 həcc ziyarətinin savabı yazılar.[2] Bundan da daha ali savablar var ki, mümkün olması əqlə sığmır, çünki belə deyək Allah yolunda qanına qəltan olmuş halda bir dəfə şəhid olmaq olar, ancaq Hüseyn (ə) vəsilələri ilə Allah yolunda 1000 dəfə şəhid olmağın savabını verərlər. Buna əsasən, bu işlərin vəsiləsi ilə sənin barəndə həyata keçə biləcək tamam müsibətlər aradan götürülür. Həmçinin, bu vəsilələrlə qarşıda üzləşə bildiyin tamam bəlalar

[1] Bihar 98/43
[2] Bihar 98/89

sənin üzərindən götürülür, qiyamət gününün haqq-hesabı sənin üçün yüngül olur, dəhşətlərdən və qorxulardan amanda qalarsan və qarşıda səni gözləyən bu yolda tamam irşadi və təklifi xitablar yerinə yetirilir və Mahmud sifətlərin əlamətləri və nişanələri sənə verilir. Həlak edici sifətlərin əlamətləri səndən götürülər, günahların bağışlanar və üzünə bağlı olan behişt qapıları açılar, öz əlin ilə açdığın cəhənnəm qapıları üzünə bağlanar, səni əhatə edən atəş sönər və bununla dərəcələrin artar, bəlkə dərəcələr götürülər və sənə təsəvvürə gəlmiyən bir məqamı bəxş edərlər.

Yaxşı olardı ki, bu mətləbə bir qədər açıqlama verək.

Buna görə qulağını aç və diqqətini cəmlə və sözlərimə qulaq as: "Hal-hazırda sənə çoxlu xitablar olunur, sən də onların öhdəsindən gəlməlisən. Qəflət yuxusundan oyan bir neçə gündən sonra kiçik qiyamət sənə tərəf üz tutacaqdır, bu qiyamətdə sənə çox çətin xitablar olunacaqdır və aqibətinə görə narahat ol, tezliklə böyük qiyamət olan məhşər bərpa olacaqdır.

Sənə çox şiddətli dəhşətli, əzəmətli və qorxulu xitablar ünvanlanacaq, ancaq bil ki, Hüseyni (ə) vasitələrlə bütün bu xitablar həyata keçirilir və tamam işlər asanlaşır. Bunun bəyanı üç keyfiyyətin açıqlaması ilə təqdim edilir:

Allah-taala tərəfindən insana olan xitablar

1-ci keyfiyyət: Xitabların yerinə yetirilməsinin təfsilatı bir neçə qisimdən ibarətdir: Birinci ibadət üçün olunan xitabdır, Allah buyurur:

"Ey insanlar! Sizi yaradan Rəbbinizə ibadət edin."[1] Bu xitabın məzmunu 124000 peyğəmbərin (ə), onların vəsilərinin, bütün saleh insanların, mələklərin, hikmət sahiblərinin, ariflərin və tamam dinlərin əhlinin dilinə cərəyan etmişdir. Sonra bir qədər düşün ki, sən özünü dindar hesab edərək bu millətin keçmiş abidlərinin ibadətinə müvafiq Allaha ibadət etdinmi? Və düşün ki, ibadət et-

[1] Bəqərə /21

diyin müddəti ömrü boyu, ya bir il, ya bir ay, ya bir gün, ya bir saat düzgün ibadət etmisənmi? Bax, gör hansı növ abidlərdənsən?

Yəqin ki, mükərrəm (kəramət sahibi olan) abidlərdən deyilsən, nə də seçilmişlərdən deyilsən, nə də müxlislərdən deyilsən, nə də şeytanın üzərilərində hakimiyyəti olmayan abidlərdən deyilsən, nə də mömin abidlərdən deyilsən, nə də müttəqilərdən deyilsən, çünki onların nişanələrindən səndə yoxdur. Nə də israf edən o abidlərdən deyilsən ki, Allah-taala onlara belə xitab etmişdir: "Allahın mərhəmətindən ümidinizi kəsməyin."[1] Yenə də düşün ki, etdiyin bu ibadətin nə azad insanların ibadətləri kimi ixlas üzündəndir, nə də qulların ibadəti kimi cəhənnəm qorxusundandır, nə də tacirlərin ibadəti kimi cənnət şövqündən. Ey kaş biz ibadət etməməyimizlə kifayətlə bilərdik və Allahın düşməninə ibadət etməyəydik. Ey kaş, bir düşmənə ibadət etməklə kifayətlənərdik və şeytana, nəfsimizə, dünyaya, pula və qeyrilərinə ibadət etməyəydik. Ey kaş düşmənlərə bir qisim ibadətlər etməklə kifayətlənərdik və onlara nisbət növlərlə ibadətləri cəm etməzdik. Əgər öz halını qüsur və təqsir içində gördünsə bil ki, mümkündür İmam Hüseynə (ə) təvəssül etməklə abidlərin bütün qisimlərinin zümrəsinə daxil ola bilərsən və bütün ibadət növləri ilə ibadət edəsən, hətta mümkündür bəndəçiliyin tamam mərtəbələrinin feyzinə yetişəsən. Buna görə, bu nemətin qədrini bil və bunun bəyanı bir neçə mətləbdən ibarətdir:

İmam Hüseynin (ə) ziyarəti, kəramətli bəndələrin mərtəbələri və...

1-ci mətləb: İmam Hüseyni (ə) ziyarət etdiyin zaman sənin üçün mükərrəm abidlərin yəni, mələklərin mərtəbələri hasil olar belə ki, rəvayətlərə əsasən Hüseynin (ə) zəvvarına mələklərin qiyamət gününədək qıldıqları namazlarının, təsbihlərinin, təqdislərinin və ibadətlərinn savabı yazılır.[2] Hətta mələklər qiyamət gününədək

[1] Zümər /53
[2] Bihar 98/55

ziyarətdə onun naibi olacaqlar.[1] Bu mətləbdən, bəzi rəvayətlərdə gələn məna; – yəni Hüseyni (ə) ziyarət edən hər kəs mükərrəm abidlərdən olacaqdır – zahir olur.

2-ci mətləb: Şəhid İmamı (ə) ziyarət etməyinlə sənin üçün seçilmiş bəndələrin, yəni Peyğəmbərlərin (ə) mərtəbələri hasil olur. Çünki, zəvvarların savabları sırasında onların peyğəmbərlər və vəsilərlə eyni dərəcələrdə və onlarla yoldaş olmaları, onlarla bir süfrədən yemək yemələri vardır. Rəvayətdə nəql olunduğu kimi, Allahın seçilmiş bəndələri İmam Hüseyn (ə) zəvvarları ilə əllə görüşərlər, onlarla söhbət edərlər, haqlarında dua edərlər və onlara salam verərlər.[2]

3-cü mətləb: İmam Hüseyn (ə) vasitələri ilə sənin üçün saleh bəndələrin, müxlislərin, möminlərin, təqvalıların, zahidlərin, Allahdan qorxanların və sair abidlərin mərtəbələri hasil olar. Həmçinin namaz, oruc, həcc, cihad, sərhəddi qorumaq, sədəqə vermək kimi qəbul olunmuş bütün ibadətlərin dərəcələri və bütün bir ömrün, hətta bir dövrün ən ali dərəcədə olan ibadətlərin niyyətləri və savabları hasil olar.[3]

4-cü mətləb: Hüseyn (ə) vasitələri ilə bu şərif ayə zəvvarın halına şamil olar: **"Allahın mərhəmətindən ümidinizi kəsməyin. Allah (tövbə ilə) bütün günahları (hətta şirki) bağışlayar."**[4]

Çünki, o Həzrətin (ə) müsibətinə ağlamaqla və onu ziyarət etməklə tamam günahlar bağışlanır, nəinki keşmiş günahlar, hətta gələcək günahlar da və tək özününkü yox valideynlərinin və dostlarının günahları da bağışlanır, necə ki qabaqda gələn rəvayətlərdən məlum olacaqdır, inşallah.[5]

İkinci xitab: "Ey insanlar Rəbbinizdən qorxun"[6]. Bu kəlam da əvvəlki xitab kimi bütün peyğəmbərlərin (ə) sözlərinin xülasəsi və tamam səmavi kitabların məzmunudur.

[1] Bihar 98/54
[2] Bihar 98/54
[3] Bihar 98/3
[4] Zümər /53
[5] Bihar 26/27
[6] Nisa /1

Mətləb bir neçə qisimdən ibarətdir: avamın təqvası; xasın təqvası; xasın xasının təqvası. Bütün bu qisimlərin səmərələri Hüseyni (ə) vasitələrlə əldə olunur.

Təqvanın ən ali səmərəsi budur ki, qiyamət günü Allah-taala təqvalılara belə nida edəcəkdir: **"Ey Mənim bəndələrim! Bu gün sizə nə bir qorxu var və nə də qəmgin olacaqsınız!"**[1]

İmam Hüseyni (ə) mərifətlə ziyarət edən zəvvarlara qiyamət günü həmin ayə ilə xitab olunacaqdır. Qabaqda gələn ünvanda bu barədə təfsilatlı bəyan veriləcək.

Üçüncü xitab: "Malınızı Allah yolunda xərcləyin"[2]. Hüseyni (ə) vasitələrlə bu ibadətin bütün qisimləri hasil olur. O cümlədən yemək, su vermək, bəxşiş etmək, zəkat , sədəqə və sair qisimlər. Məsələn rəvayətdə gəlir ki, Aşura gecəsi o Həzrətin (ə) qəbrinin yanında təşnələrə su paylayan şəxs, sanki İmam Hüseynin (ə) ləşkərinə su paylamışdır. Hətta bir kəs uzaqdan o Həzrətin (ə) halını təsəvvür edə və ona ürəyi yanarsa qəlbi o Həzrətin (ə) məşhədi (şəhadət yeri) məqamında olacaqdır. Gözlərindən yaş axıdarsa, sanki o Həzrətin (ə) özünə, əyalına və uşaqlarına su vermişdir.

Dördüncü xitab: "Allah yolunda Ona layiq tərzdə cihad edin"[3]

Cihad iki növdür: Əkbər və Əsğər, nəfslə cihad olan cihadi əkbərdə öldürən və öldürülən, hər ikisi xoşbəxtdirlər. Amma kafirlərlə olan kiçik cihadda fəqət öldürülən şəhiddir. Sən böyük cihaddan (cihadi əkbərdən) qaçan, kiçik cihada (cihadi əsğərə) isə daxil olansan, ancaq bunların ikisini də Hüseyni (ə) vasitələr ilə hasil edə bilərsən. Bunun bəyanı bir neçə mətləbdən ibarətdir.

---

[1] Zuxruf /68
[2] Bəqərə /195
[3] Həcc / 78

O Həzrətin (ə) qoşununun tərkibində şəhadət arzusu etmək

1-ci mətləb: Hər nə vaxt İmam Hüseynin (ə) ləşkərində şəhid olmaq arzusu edəndə belə desən: "Ya ləytəni kuntu məəkum" – sənin üçün şəhidlərin savabı yazılar.

2-ci mətləb: Əgər şəhidlərin əməlini sevsən onların şəriki olarsan. Necə ki, Cabir ibn Əbdullah buyurmuşdur: "Allaha and olsun ki, əməldə biz sizinlə şərikik."[1]

3-cü mətləb: O Həzrəti (ə) Aşura gecəsi ziyarət etsən və sübhədək qəbrinin yanında qalsan Allahla Kərbəla şəhidləri kimi, qanına qəltan olmuş halda görüşəcəksən.[2]

4-cü mətləb: Bu vasitələr cihaddan üstündür, çünki cihadda şəhadət gah hasil olur, gah da hasil olmur, ancaq bu vasitələrlə cihad da, şəhadət də qanına qəltan olmuş halda hasil olur.

Beşinci xitab: "Özünüz üçün azuqə götürün ki, ən yaxşı azuqə təqvadır."[3]

Ən yaxşı azuqə budur ki, həm gözəl olsun, həm də müsafiri mənzil başına çatdırsın, buna görə bu səfər üçün İmam Hüseynin (ə) ziyarəti ən yaxşı azuqədir, çünki səfərin hər mənzilində işə yarayır. Hətta tək sənin azuqən deyil, həm də sənin dostlarının dadına yetişər, necə ki rəvayətdə gəlir: "Qiyamət günü zəvvara deyərlər: "İstədiyin kəsin əlindən tut cənnətə apar."[4]

Altıncı xitab: "Allaha "qərzul-həsənə" – gözəl borc – verdilər."[5] Ziyarət, ağlamaq və bu kimi işlərdən ibarət olan Hüseyni (ə) vasitələr Allaha, Onun Rəsuluna (s), Əliyə (ə), Fatiməyə (ə), Həsən (ə) və Hüseynə (ə) olan gözəl borcdur. Allah-taala bunların hər birinin əvəzində, ədədi yalnız Allaha məlum olan kəramətlər üstünə kəramətlər əlavə edəcəkdir.

---

[1] Bişarətul-Mustəfa səh.74
[2] Bihar 98/103
[3] Bəqərə /197
[4] Bihar 98/27
[5] Hədid /18

Yeddinci xitab: "Ey iman gətirənlər sizi, sizə həyat verən şeyə tərəf dəvət edən zaman Allahın və Onun Peyğəmbərinin (s) çağırışını qəbul edin."[1]

Həqiqətən Peyğəmbər (s) İmam Hüseynin (ə) vasitələri ilə bizi həqiqi həyatın səbəbləri olan işlərə çağırmışdır, o cümlədən məhəbbətə, köməyə, ağlamağa, o Həzrəti (ə) ziyarət etməyə və sair.

Səkkizinci xitab: "Özünüz üçün qabağa savab göndərin."[2]

Bu şərif vasitələr insan üçün həm qabaqcadan , həm də sonradan savab göndərmək məqamındadır, yəni səmərəsi həmişə təzələnir və ölümlə aradan getmir.

Doqquzuncu xitab: "Rəbbiniz tərəfindən olan bağışlanmağa doğru tələsin."[3]

İmam Hüseynə (ə) ağlamaq bağışlanmaq səbəbidir, bu da sırf gözdə yaş əmələ gəlmək ilə hasil olur. Həmçinin imam Hüseyni (ə) ziyarət etmək bağışlanmaq səbəbidir, bu da sırf niyyət və əzm etməklə hasil olur. Beləliklə, bütün surət və tələsməklik bu vasitələrdədir.

Onuncu xitab: "Rəbbinizi yalvarıb-yaxararaq və gizlin çağırın."[4]

Qeyri ayələr də şamil olmaqla Hüseyni (ə) vasitələrlə insan duanın tamam səmərələrinə yetişir. Hətta Peyğəmbərin (s), Əlinin(ə), Fatimənin (ə), Həsənin (ə) və Hüseynin (ə), sair imamların (ə) və mələklərin dualarının feyzinə yetişir.[5] Hətta rəvayətdə gəlir ki, zəvvarın ayağı qoyduğu hər şey onun üçün dua edir. İmam Hüseynin (ə) özü də babalarından xahiş edir ki, onun zəvvarları və ağlayanları üçün dua etsinlər. İmam Sadiq (ə) səcdə halında Seyyidi şühədanın (ə) qəbrinə sürtülən üzlər, onun müsibətində axıdılan göz yaşları və ucalan fəryadlar üçün dua etmişdir.[6]

On birinci xitab: "Ey iman gətirənlər! Allahın köməkçiləri olun!"

Yəni, Allahın dininin və Allahın övliyalarının yavərləri olun.[7]

---

[1] Ənfal /24
[2] Bəqərə /223
[3] Ali-İmran /133
[4] Əraf /55
[5] Bihar 98/ 53-54
[6] Bihar 95/52
[7] Səff /14

Hərçənd Allahın vəlisi daha məzlum və daha qərib olduğuna görə köməyin onun haqqında həyata keçməsi daha zəruridir. İmam Sadiq (ə) öz alicənab babası (ə) haqqında belə buyurmuşdur: "Atam fəda olsun o qərib və köməksiz məzluma."[1]

Gəlin ağlamaqla, əzadarlığı bərpa etməklə və ona yardımçı olmaq arzusu ilə Allahın o qərib və məzlum vəlisinə kömək edək. Hətta demək olar ki, onun türbətinə səcdə etmək və onun turbəti ilə təsbih demək də o Həzrətə (ə) kömək etmək ünvanına daxil olur. Çünki, bu səcdədə və təsbihdə olan fəzilət Allah-taalanın o Həzrətə (ə) əta etdiyi şəhadətlərin əvəzlərinə daxil olmuşdur. Bu barədə qabaqda gələcəkdir, inşallah.

On ikinci: "Allahın dəvətçisini (islam Peyğəmbərini (s)) qəbul edin."[2]

Allahın dəvətçisi, islama tərəf edən Muhəmməd Peyğəmbərdir (s) və ondan sonra dinə-imana aşkar surətdə dəvət edən və qəsbkarların xilafətinin batil etiqadlarını zahir edən imam Hüseyn (ə) oldu. O Həzrətin(ə) tamam vasitələri onun dəvətinin qəbul edilməsi deməkdir. Hətta Hüseynin (ə) türbətini şəfa üçün vasitə bilmək də onun dəvətinə cavab verməkdir. Beləliklə, bu mətləbi dərk edənədək düşün.

On üçüncü xitab: "Allaha tərəf vasitə axtarın."[3]

Hüseyn (ə) ən əzəmətli vasitədir, onun vasitələri böyük, coxsaylıdır və asanlıqla hasil olur.

On dördüncü xitab: "Kim istəsə öz Rəbbinə tərəf yol tutar"[4]

Hüseyn (ə) ən əzəmətli yoldur, sırat yolların ən sabiti, aydını və asanıdır. Zikr olunan bu mətləblər nümunə ünvanı daşıyırlar və bunların timsalında Hüseyni (ə) vasitələrin xitablarını, hökmlərini, keyfiyyətini və yerinə yetirilməsini dərk edə bilərsən və bunda heç bir şişirtmə yoxdur.

---

[1] Bihar 45/95; Kafi 4/127
[2] Əhqaf /31
[3] Maidə /35
[4] İnsan /29

Hüseyni (ə) vasitələrdən biri o Həzrətə (ə) ağlamaqdır

2-ci keyfiyyət: Kiçik qiyamətdə sənə tərəf yönələn təkvini xitabaların, yəni ölüm halının və bərzəxin o Həzrətin (ə) səbəbi ilə asan olmasının bəyanında deyirik: Hüseyni (ə) vasitələrdən biri də o Həzrətin (ə) müsibətlərini yad edən zaman ağlamaq və insanın halının elə həddə dəyişməsidir ki, artıq yemək və içmək onun üçün nuş olmur. Bunların arasında xas vasitələr də vardır, məsələn həmin şəxsin ihtizar vaxtında (ölüm anlarında) Peyğəmbər (s) və İmamlar (ə) başının üzərində hazır olurlar. Ona müjdə verib, salam söyləyirlər və həmin şəxs bundan o qədər sevincək olur ki, bu sevinc qiyamət gününədək onu tərk etmir. Elə bu səbəbdən ölümün, bərzəxin və bundan qeyri keyfiyyətlərin tamam şiddətləri onun üçün asan olur. Bunun bəyanı gələcəkdir, inşallah.

3-cü keyfiyyət: Hüseyni (ə) vasitələrlə məzəmmət edici, zəifləndirici xitabların, həmçinin tutmaq, sürükləmək, qandallamaq, zəncirləmək və qeyri xitabların aradan götürülməsi keyfiyyəti və bunların lütf və rəhmət xitabları ilə əvəz olunması baş verir.

Bəyanı da bundan ibarətdir ki, Peyğəmbər (s) qiyamət günü Hüseynin (ə) zəvvarını ziyarət etməyə, onun qolundan tutub qiyamətin dəhşətlərindən nicat verməyə və cənnətə daxil etməyə zamin durmuşdur.[1]

Bundan əlavə, Hüseyni (ə) vasitələrlə onun üçün qəbul olunmuş əməllərin savabları yazılar, imam Hüseynə (ə) xatir cəhənnəm atəşi söndürülər və behiştin "Babul-Hüseyn (ə)" adlı böyük qapısı açılar. Hətta Hüseyn (ə) vasitələri ilə behiştin istənilən qapısına daxil olmaq mümkündür. O Həzrətə (ə) xatir cəhənnəm qapıları bağlanar. Beləliklə Hüseyn (ə) vasitələrinə tərəf gəlin, indi isə sizlərə bütün bu deyilənlərdən əlavə böyük nemət və əzəmətli minnətlə müjdə verirəm, Hüseyni (ə) vasitələr arasında bir neçə cəhətdən bunların hamısından və tamam saleh əməllərdən üstün bir nemət var.

[1] Bihar 44/235

HÜSEYN (Ə) ƏZADARLARININ ƏCRİ VƏ MUZDU...

1-ci: Saleh əməllərin son səmərəsi əməl sahibinin cəhənnəm atəşindən xilas olmasıdır, ancaq Hüseyni (ə) vasitələrdə başqalarını da xilas etmək səmərəsi var.

2-ci: Saleh əməllərin faydasının sonu əməl sahibinin cənnətə daxil olmasıdır, amma bu vasitələrin səmərəsi başqalarını da cənnətə daxil etməkdir.

3-cü: O əməllərin mənfəətinin sonu Kövsər suyundan içməkdir, ancaq Hüseyni (ə) vasitələrin son mənfəəti başqalarına da bu sudan içirtməkdir.

4-cü: O əməllərin sonu, onların yaxşılıqlar dəftərində yazılmasıdır, amma Hüseyni (ə) vasitələrin sonu budur ki, sənin əməl dəftərində məxluqatın ən şərəflisinin, yəni Allahın Rəsulunun (s) əməlləri yazılacaqdır.

5-ci: Xeyir əməllərin son faydası budur ki, qiyamət günü sənin Peyğəmbər (s) arasında arakəsmə olmayacaq və o Həzrət (s) sənin haqqında şəfaət edəcəkdir. Ancaq Hüseyni (ə) vasitələrin səmərəsi budur ki, Peyğəmbər (s) qiyamət günü özü səni axtarıb tapacaq və sənin qolundan tutub cənnətə daxil edəcəkdir.

6-cı: Əməllərin son səmərəsi hurilərə qovuşmaqdır, ancaq imam Hüseynə (ə) ağlayanlar ərşin kölgəsinin altında o Həzrətlə (ə) söhbət edəcəklər, hurilər xəbər göndərəcəklər ki, gəlin behiştə biz sizin intizarınızı çəkirik, onlar isə imtina edər və imam Hüseyn (ə) ilə söhbəti üstün tutarlar.

7-ci: Əməllər sahəsində dərəcələrin artmasının son həddi budur ki, möminin dərəcəsi digər möminlərin dərəcəsindən üstün olar. Ancaq Hüseyni (ə) vasitələr səbəbindən mömin Peyğəmbərlə (s) və Əmir-əl möminin (ə) ilə həmsöhbət və yoldaş olar.

8-ci: Saleh əməllərin son hədəfi cənnətdən daha üstün olan İlahi Rizvandır, İmam Hüseynin (ə) vasitələri ilə insan ərşin fövqündə olan məqama ucalar və Allahla həmsöhbət olar necə ki,

rəvayətdə gəlir, bu da yaxınlığın və lütfün şiddətindən bir kinayədir.

9-cu: Xeyir əməllərdən sənin üçün hasil olan son fayda bir dəstə yaxşı insanların sənin cənazəni müşayiət etmələridir, təqvalı, əməlisaleh şəxsin sənə qüsl verməsi, sənin halal malından sənin üçün kəfən piçmələri və əməlisaleh alimin sənin cənazənə namaz qılmasıdır. Hüseyni (ə) vasitələrdə elə şeylər var ki, Ruhul-əminin müqərrəb mələklərlə birlikdə sənin cənazənə namaz qılmalarına və behişt kəfənləri ilə səni kəfənə bükmələrinə və cənnət hənutu ilə sənə hənut vurmalarına səbəb olar.[1]

10-cu: Ölümdən sonra saleh əməllərin son səmərələrindən sənə yetişə biləcək savablar (baqiyatus-salihat) bir müddət keçdikdə qurtaracaqlar. Məsələn, sənin əvəzinə naib olaraq yerinə yetirilən hər hansı bir əməl kimi, yaxud kimsə sənə hədiyyə göndərər, ya özündən sonra qoyduğun bir elm, ya övlad, ya cari sədəqə (yol çəkmək, su çəkmək, ya bir tikinti qoymaq və sair) bunların əsər-əlaməti sonunda 100 ilə, ya 1000 ilə sona yetəcəkdir. Amma Hüseyni (ə) vasitələrdə əməlləri yerinə yetirməkdə və hədiyyə göndərməkdə sənin naiblərin mələklərdir və onların əməlləri heç vaxt sona yetmir, buna görə onların əməllərinin savabı həmişə sənə yetişəcəkdir.[2]

11-ci: Xeyir əməllərin sahəsində tərəqqinin son həddi insanın saleh bəndələr zümrəsinə daxil olmasıdır, ancaq Hüseyni (ə) vasitələrlə insan müqərrəb mələklər zümrəsinə, hətta müqərrəb mələklərin ağaları olan Kərrubi mələklərin zümrəsinə daxil olur necə ki, mötəbər rəvayətlərdə nəql olunmuşdur, bunun təfsilatı qabaqda gələcəkdir inşallah.

12-ci: Hər bir xeyir əməlin əcrinin miqdarı təsəvvür olunan və məhduddur. Ancaq Hüseyni (ə) vasitələrin əcri təsəvvür olunmazdır. Beləliklə, bunlar elə bir ali dərəcələrə malikdirlər ki, ondan yüksək dərəcə yoxdur.

---

[1] Bihar 98/73-79

[2] Bihar 98/55

ALTINCI ÜNVAN

İMAM HÜSEYNİN (Ə) XUŞU HALƏTİNİN VƏ MÜNACATININ XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

O Həzrəti (ə) zikr etməkdə, müsibətinə ağlamaqda, əza məclisini bərpa etməkdə və mərsiyə deməkdə qəlbdə xuşu yaranması ilə bağlı xüsusiyyətlər barədə bir müqəddimə və bir neçə məqsədi sizə təqdim edirik.

Müqəddimə: Bil ki, xuşu Allahın sevdiyi və rəğbət göstərdiyi bir məsələdir necə ki, Qurani-şərifdə buyurur: **"Məgər iman gətirmiş kəslərin qəlblərinin Allahı yad etmək üçün xuşu halәti almaq vaxtı gəlib çatmayıbmı?"**[1]

Yəni, Allah-taala sizlərə əql və şüur verdikdən sonra və siz Allahın ayələrinin öz nəfslərinizdə və üfüqlərdə, hətta molekullarda və yarpaqlarda müşahidə etdikdə, gecə və gündüzün dəyişməsinin səbəblərini qəflətə düçar olan şəxslərdə görəndə, Quran ayələrinin sizə tilavət olunduqdan sonra ki, – əgər bu ayələr dağa oxunsaydı dağ Allahın əzəmətinin qorxusundan darmadağın olardı, – hələ öz ömürlərini Allahın itaətində və nəfslərini təzkiyə etməklə (saflaşdırmaqla) keçirən möminlər qədər bir ömür keçirməyindən, Peyğəmbərlərin (ə), Rəsulların (ə) gəlib sizləri qorxutduğundan və müjdə verdiyindən sonra, eyni halda artıq uzun müddət ərzində islam dini elan olunub və qulaqlar onun məzmunu ilə dolandan və sizin hamınız müsəlman olduğunuzu iddia etdikdən, bütün bunlardan sonra, hələ qəlblərinizin Allahı yad edən zaman xuşu halına düşməyinin vaxtı gəlib çatmayıbmı? Və xüşü halətinin səbəbindən günahlardan çəkinməyinizin vaxtı gəlməyibmi? Namaza duran zaman Allahın əzəmətinin düşünərək xuşu halına düşməyinizin vaxtı deyilmi? Ömrünüz artıq tamama yetdi, hələ də iki rikət xuşu halında namaz qılmadınız.

[1] Hədid / 16

Məgər Allahın zikri üçün xuşu halında olmaqdan başqa bir xeyirin və pənah yerinin olmadığını bilən şəxslər üçün Allahdan qeyrisini fikrindən və zikrindən çıxarmaq vaxtı gəlib çatmadımı?

Yaxud, ömürlərini qəflətdə keçirənlər və bir saat olsun belə Allahı yad etməyənlər üçün qəflət yuxusundan oyanıb, ömrünün qalan hissəsini qəlbi xuşu halətinə gətirmək və qəlblərinə xof, iztirabın hakim olmaq zamanı artıq yetişməyibmi? Bəlkə tövbələri qəbul olunar və Allah dərgahına yol taparlar və Allahla görüşməkdən naümid olmazlar.

Məgər Allah övliyalarının mərifətinə müvəffəq olan kəslər üçün Hüseynin (ə) zikri gələndə qəlbləri xuşuya gəlib ağlamalarının və Allah üçün xuşu sahibi olanların cərgəsinə daxil olmalarının vaxtı gəlib çatmayıbmı? Çünki, onların vilayəti, Allahın vilayətidir, onlara qarşı ədavət Allaha qarşı ədavətdir, onların ziyarəti Allahın ziyarətidir, onların mərifəti Allahın mərifətidir. Buna görə, onların zikri gələndə qəlbin xuşu halı alması, Allahı zikr etməklə qəlbin xuşu halına düşməsinə bərabərdir. Məxsusən Məhərrəm ayı və Aşura günü gələndə xalqın necə cuşa gəldiyini görürsən. Beləliklə, ey möminlər artıq o vaxt gəlib çatıb ki, qəlbləriniz Hüseynin (ə) zikri ilə Allah üçün xuşu halına düşsün. Buna görə, Hüseyni (ə) çoxlu zikr etməklə Allahı çox zikr edin.

Hüseyni (ə) zikr etməklə xuşu halı almaq bir neçə qisimdən ibarətdir və onların bəziləri Allahın zikrinə aiddir.

1-ci məqsəd: Ağlamağın batini mənşəyi

Bil ki, ağlamağın mənşəyi və onun hasil olmasının səbəbi bəzən ağlayanın düşüncələri olur, bəzən isə düşüncələri olmur.

Birinci növ: Düşüncə səbəbindən ağlamaq

Düşüncə səbəbindən ağlamaq səkkiz qisimdən ibarətdir:

1-ci qisim: Müsibət sahibi ilə qəlbi əlaqə səbəbindən

Ən böyük qəlbi əlaqə valideynin qəlbi əlaqəsidir, buna görə Allah-taala valideynin haqqını Öz haqqına yaxın buyurmuşdur (İsra /

23). Səbəbi də budur ki, valideynlər sənin maddi vücudununun hazırlanma səbəbidirlər. Beləliklə, maddi vücudunun səbəbinin haqqı belə uca mərtəbədə olduğu halda, mənəvi vücud səbəbinin haqqı bundan daha böyük olacaqdır. Buna əsasən, həqiqi və mənəvi valideyn olan Peyğəmbər (s) və onun Vəsisi (ə) ehsana daha çox layiqdilər. Əza məclisi qurmaq və Seyyidi şühədaya (ə) ağlamaq Peyğəmbərə (s) , Əmir-əl mömininə (ə) və Fatiməyə (ə) ehsandır.[1]

Bu şərif ayə: – **"Valideynlərə yaxşılıq edin"** (Bəqərə/83; Nisa/36; Ənam/151) – bəzi rəvayətlərdə belə təfsir olunubdur Həsən (ə) və Hüseynə (ə) ağlamaq möminlərin mənəvi valideyni olan Peyğəmbərə (s) və Əliyə (ə) ehsandır.

Ağlamağın ehsan olma səbəbi budur ki, ehsanın mənası bir kəsə mənfəət yetirməkdir və ən böyük mənfəət ehtiram və sevgi göstərməkdən ibarətdir, ağlamaq isə ölənlər və qətlə yetirilənlər üçün ehtiram əlamətidir. Buna görə Həzrət İbrahim (ə) Allahdan bir qız istəmişdir ki, öləndən sonra onun üçün ağlasın.[2] Peyğəmbər (s) ənsar qadınlarının Ühud şəhidləri üçün ağladıqlarını eşidəndə, buyurdu: "Əmim Həmzəyə ağlayan yoxdur." Bu vaxt ənsarlar öz qadınlarına Həmzə üçün ağlamağı, növhə deməyi tapşırdılar və Peyğəmbər (s) onların haqqlında dua etdi.[3]

Cənab Seyyidi – şühəda Həmzəni qüsl, kəfən, dəfn edib və cənazəsinə digər ehtiramları göstərdilər, yalnız növhəxanı olmadığına görə Peyğəmbər (s) narahat olmuşdur. Amma Seyyidi-şühəda Hüseynin (ə) növhə deyən qadınlardan başqa heç nəyi yox idi, onları da zalımlar növhə deyib, ağlamağa qoymadılar. Bəs, gəlin ey dostlar o qərib şəhidə birlikdə ağlayaq, çünki bunu etməsək ağ valideyn və sileyi-rəhmi kəsmişlərdən olarıq.

2-ci qisim: Şiddətli bağlılıq əlaqəsi.

İnsanın bir bədən üzvü xəstələnəndə ya ağrıyanda bütün bədəni ağrı və narahatçılıq hiss edir. Hurilərin "Darus-surur" (se-

[1] Bihar 44/207
[2] Bihar 12/ 117; Kafi 5/6; Vəsail 2/892
[3] Bihar 20/98

vinc evi) olan cənnətdə o Həzrətə (ə) ağlamaqları həmin bu qisimdəndir.[1] Çünki onlar imam Hüseynin (ə) nurundan xəlq olunublar. Necə ola bilər ki, o Həzrət (ə) yaralı bədənlə isti qumlar üstündə, atların ayaqları altında qalmış olduğu, başı nizə ucunda və qanı yerə axarkən, ürəyini ox deşmiş və ciyəri təşnəlikdən çatlamış, qəlbi övladlarından, qardaşlarından və səhabələrindən ayrıldığına görə yandığı halda hurul-eyn (hurilər) behişt saraylarında şadlıq içində olsunlar.

Şiələrin bəzi ağlamaqları həmin bu qisimdəndir, çünki imam Sadiqdən (ə) nəql olunan rəvayətdə gəlir ki: "Bizim şiələr bizdəndirlər və bizim torpağımızın qalıqlarından xəlq olunublar, xəmirləri bizim vilayətimizin suyu ilə yoğrulub, bizim onların İmamları olmağımıza razı olublar və biz də onların bizim şiələrimiz olmaqlarına razı olmuşuq, bizim müsibətimiz onların müsibətidir, bizə vurulan yaralara görə ağlayarlar, bizim qəmimizlə qəmli olarlar və bizim şadlığımızla şad olarlar. Biz də onların ağrıları ilə ağrı hiss edərik və onların halından həmişə agah olarıq, onlar həmişə bizimlə olacaqlar və bizdən heç vaxt ayrılmayacaqlar, biz də onlardan ayrılmayacağıq. "Sonra buyurdu: "Allahım, bizim şiələr bizdəndirlər və hər kəs bizim müsibətimizi yad edib, bizlərə ağlasa Allah-taala ona əzab verməyəcəkdir."[2]

Başqa bir hədisdə Əmir-əl möminindən (ə) nəql olunur ki, buyurdu: "Həqiqətən Allah-taala bizlər üçün bizə kömək edən şiələr seçmişdir, onlar bizim qəmimizdə qəmlənərlər və şadlığımızda şadlanarlar, canlarını və mallarını bizim yolumuzda verərlər, onlar bizdəndirlər və biz də onlardanıq.[3]

Bu şərif hədis dəlalət edir ki, xalis şiələri Allah-taala Özü seçmişdir, necə ki şəhidləri şəhadətlərindən qabaq seçmişdir.

Şiənin əlamətləri vardır belə ki, Peyğəmbər (s) Hüseynin (ə) ayağı dəydiyi torpağı götürüb, gözünə sürtən uşağın məhəbbətin-

[1] Bihar 44/241
[2] Muntəxabu Tureyhi 2/27
[3] Bihar 44/287; Xisal 2/635 (400-cü hədis)

dən onun Kərbəlada o Həzrətin (ə) yavərlərindən olacağına dəlil gətirmişdir.[1]

Mütərcim deyir: Hədisdə Peyğəmbər (s) o uşağın felini onun Hüseynə (ə) olan məhəbbətinə dəlil gətirmişdir, ancaq Kərbəlada o Həzrətin (ə) yavəri olması barədə Cəbrayılın (ə) gətirdiyi xəbərə istinad etmişdir.

İndi də gəlin, əgər özümüzü şiə hesab ediriksə bu əlaqə səbəbindən o Həzrətin (ə) müsibətinə ağlayaq çünki, bu əlaqəyə ağlamayan kəs onlardan olmayacaqdır.

3-cü qisim: Müsibət görənin ağlayan üzərində haqqı var.

Üçüncü əlaqə: Hüquqdur; Başına müsibət gələnin o müsibətə ağlayan üzərində çoxlu haqqı vardır. Biri icad haqqıdır, yəni mövcud olma səbəbi, məsələn valideynin və əcdadların haqqı kimi. İmam Hüseyn (ə) bizlər üzərində bu haqqın sahibidir, çünki bizim vücudumuz və bizim atalarımızın vücudu o Həzrətin (ə) vasitəsilə yaranıbdır. Belə ki, onun nuru alicənab Cəddinin (s) nuru ilə eynidir.

Başqa bir haqqı islam və iman haqqıdır, bu haqq islamda şərik olduğuna görə hər müsəlman üçün digər müsəlman üzərində sabitdir. Belə olan halda bizim imana hidayət olmağımıza səbəb olan kəsin, yəni canını Allahın dini yolunda fəda edən Hüseynin (ə) haqqı necə də böyükdür. Çünki, əgər Hüseyn (ə) cihadı tərk etsəydi və canını müsibətlərə atmasaydı şiənin dini zahir olmazdı.

O zaman bəni Üməyyə ölkələr və bəndələr üzərindən tam hökmranlıq edirdilər və xalqın əksəriyyətindən dinin həqiqətini gizlətmək üçün əllərindən gələni əsirgəmirdilər. Belə ki, Əmirəl mömininə (ə) lənət deməyi namazın tərkib hissəsi qərar vermişdilər. Xalqın beyninə Bəni-Üməyyənin islamın imamları olduğunu yeritmişdilər. Uşaqları bu əqidədə tərbiyə edirdilər və onlara müxalif olanları yolunu azmış bilirdilər. İmam Hüseyni (ə) belə faciəli surətdə şəhid etdikdə və Peyğəmbərin (s) itrəti olan

[1] Bihar 44/242

onun əhli-əyalını belə ürəkyandırıcı halda əsir edəndə, xalq qəflət yuxusundan oyandı və başa düşdu ki, əgər onlar haqq imamları olsaydılar belə bir iş görməzdilər. Çünki onların əməlləri nə din, nə də ədalət yolu ilə müvafiq deyil. Beləliklə, xalq bu əqidəsindən döndü və onlardan imtina etdi, insanlar yavaş-yavaş hidayət tapdılar və şiə məzhəbi zahir oldu. Hətta əhli-sünnə də onların xəlifə olmadıqlarını və zalım hakimlər olduğunu anladılar, onların əksəriyyəti Yezidə lənəti caiz bilirlər, buna əsasən həqiqətdə Allahın dininə hidayət Hüseynin (ə) vasitəsilə həyata keçdi.

Başqa bir haqq, duz və yemək verməkdir. Sən bilirsən ki, hər bir şeyin həyatı o Həzrətin (ə) vasitəsilədir.Yağış onun bərəkətinə yağır, bitki bitir, bəndələr qidalanır, beləliklə sənin tamam yemək içməyin Hüseynin (ə) bərəkətindədir.

Başqa bir haqq həyat haqqıdır və məlumdur ki, həqiqi, əbədi, hətta zahiri müvəqqəti həyat da əməllərin qəbul olunma səbəbi olan, vilayətə doğru hidayət edən Hüseynin (ə) vasitəsilədir.

Digər haqq, dostluq haqqıdır və İmam Hüseynin (ə) öz şiələrinə nisbət kamil məhəbbəti vardır. Rəvayətdə nəql olunduğu kimi imam Hüseyn (ə) Ərşin sağ tərəfində daim öz zəvvarlarına və ağlayanlarına nəzər yetirər.[1]

Digər bir haqq, zəhmət haqqıdır, buna görə bir kəsin sənə xatir başı dərdə girəndə, yaxud sənin üçün zəhmətə qatlananda həmişə ondan xəcalət çəkirsən, bunların əvəzini çıxmağa çalışırsan və onun zəhmətinin tədarükünü görürsən. Bəs nəyə görə sənin üçün bu qədər zəhmətlərə və müsibətlərə səbir edən imam Hüseynin (ə) tədarükünü görmürsən?

Hərçənd bilmirəm ki, nə ilə tədarük edəcəksən, məgər bir neçə damla göz yaşı axıtmaqla bu əzəmətdə haqqı ödəyə biləcəksənmi? Bəli, əgər o Həzrət (ə) öz rəhmətinin və lütfünün kamalı ilə qəbul edərsə bu mümkündür, buna görə həmin bu miqdarı ödəməkdə də səhlənkarlıq etməyin, əks halda haqsız və vəfasız hesab ediləcəksiniz.

---

[1] Bihar 98/64

4-cü qisim: Böyüklük və əzəmətli məqam əlaqəsi.

Böyük məqam sahibi olan insanların müsibəti, xüsusən əgər bu müsibət onların şəninin əzəmətinin ziddinə olarsa qəlbi riqqətə gətirər, hərçənd müsibət sahibi əcnəbi ya kafir olsa belə. Padşahların öz düşmənləri ilə rəftarı bir çox hallarda həmin bu tərzdə olmuşdur necə ki, İskəndərlə Daranın əhvalatından məlumdur.[1]

Şəriət banisinin (s) hökmü də belə rəftar tərzini seçmişdir və bu səbəbdən Peyğəmbər (s) Uddəy ibn Hatəmin kafir olmasına baxmayaraq öz əbasını onun altına sərdi və buyurdu: "Bir xalqın əzizinə, zəlil olan zaman ehtiram edin."[2] Elə həmin səbəbdən Əmir-əl möminin (ə) Əmr ibn Əbdivədin libasını və zirehini əynindən çıxarmadı, bir halda ki, bunların misli-bərabəri yox idi. Əli (ə) buyurmuşdur: "O, öz qövmünün böyüyü olduğuna görə, ona qarşı hörmətsizlik etmək istəmədim."[3] Həmçinin islam Peyğəmbəri (s) difər ölkələrin sultanlarının qızları əsir düşəndə onlara ixtiyar verilməsi və alqı-satqı meydanına çıxarılmaması barədə qərar vermişdir.[4]

Beləliklə, gəlin nökərlər kimi öz Ağamızın müsibətinə nalə çəkək, çünki O böyük və əziz idi, ancaq onun hörmətini saxlamadılar, bədənini üryan etdilər, əhl-əyalını əsir götürüb şəhərləri dolandırdılar, onlarla kənizlər kimi rəftar etdilər.

5-ci qisim: Tərifəlayiq sifətlərə olan əlaqə.

Tərifəlayiq və gözəl sifətlərə malik olan insanın müsibəti, hərçənd onu tanımasan belə qəlbi riqqətə gətirir. Hətta müqəddəs şəriətin banisi (s) bu cür sifətlərin sahibi olan insanlara, hərçənd kafir olsalar da ehtiram göstərməyi əmr etmişdir. Həzrət Musaya (ə) vəhy gəldi ki: "Samirini öldürmə, çünki o, səxavət sahibidir."[5] Kafirlərdən birini tutub edam meydanına gətirdilər, Cəbrayıl (ə) Pey-

[1] Təbərinin tarixi 1/290
[2] Vəsailuş-şiə 8/469
[3] Bihar 20/ 257; İrşadi Mufid 1/92
[4] Bihar 13/330
[5] Bihar 13/208

ğəmbərə (s) nazil oldu ki: "Bu şəxsi öldürmə, çünki o daim ehsan süfrəsi açar."[1]

Beləliklə, gözəl sifətlər sahibinin müsibəti qəlblərə təsir qoyar, məxsusən bu müsibətlər həmin sifətlərin ziddinə yönəlmiş olan halda. Məsələn, bir nəfər səxavətilə minlərlə ehsanlar, bəxşişlər etmiş ola və sonra bir tikə çörəyə möhtac vəziyyətə düşə, əlbəttə insan qəlbi onun halına yanar. Yaxud, iffət və həya sahibi olan bir insanı təhqir və zillətə məruz qaldığını görəndə, qəlb riqqətə gələr.

Buna görə, ey əziz dost, gəl bir-bir ağamız İmam Hüseynin (ə) tərifəlayiq sifətlərini və gözəl əxlaqını nəzərdən keçirdək və görək necə bunların ziddinə olan tərzdə ona qarşı rəftar etdilər. Bunlar barədə düşünək ki, qəlbimiz riqqətə gəlsin:

Əvvəl: Daim Allah zikri ilə məşğul olan, hətta səmaların və yerlərin yaradılışından qabaq Allaha təsbih, təhlil və təkbir söyləyən, mələklər ondan təlim alan və sonradan nur və kölgələr aləmində ilahi zikr ilə məşğul olan, ana bətnində olarkən ondan təsbih və təqdis eşidilən, viladətindən (dünyaya gəldiyindən) şəhadətinə qədər Allahın zikrindən doymayan, hətta kəsilmiş başı nizə ucunda Quran tilavət edən bir dilə rəvadırmı Yezid kimi kafir və İbn Ziyad kimi alçaq çubuqla əziyyət versin və camaatın və əhl-əyalının hüzurunda ona gülüb, tənə vursun?

İkinci: İmam Hüseyn (ə) həyasının şiddətindən cahilə: "Cahil" – demək istəmədi və bir ərəbin səhv dəstəmaz aldığını görəndə qardaşı imam Həsən (ə) ilə gəlib ərəbə dedilər ki: "Biz sənin yanında dəstəmaz almaq istəyirik ki, baxasan hansımız daha yaxşı bunu edirik." Ərəb bunların dəstəmaz almaqlarını müşahidə edəndə, dedi: "Sizin ikiniz də düzgün dəstəmaz aldınız, cahil olan mənəm."[2] Məgər rəvadırmı bir kafir qayıdıb imam Hüseynə (ə) desin ki: "Ey Hüseyn (ə) dünya atəşinə tələsirsən." Yaxud bir məlun desin ki: "Ey Hüseyn (ə) sənin namazın qəbul deyil."[3]

---

[1] Bihar 22/84; Kafi 4/39
[2] Bihar 43/319
[3] Bihar 45/ 5-21

Üçüncü: Bir nəfər İmam Hüseynə (ə) kağızda yazılmış hacətini ərz edəndə, İmam (ə) buyurur: "Sənin hacətin yerinə yetirildi." Ona dedilər: "Bəlkə əvvəlcə onun kağızını oxuyub, sonra deyərdin: "Hacətin yerinə yetirilib." İmam (ə) buyurdu: " Allahtaala məndən soruşanda ki: "Niyə onu kağızı oxuyanadək qorxu, ümid və zillət halətləri arasında məəttəl qoydun." – Ona nə cavab verərəm?" Məgər rəvadırmı belə bir İmam (ə) düşmənlərin müqabilində onunla güzəştli rəftar etməklərini istəsin, amma ona müsbət cavab verməsinlər? Hətta onlardan, ona qulaq asmaqlarını xahiş etsə belə ondan üz döndərsinlər?[1]

Dördüncü: İmam Hüseyn (ə) Usamə ibn Zeyd (Peyğəmbərin (s) sərkərdəsi) həyatının son anlarında olarkən, onun başı üzərinə gəldi. Usamə 60 000 dirhəm borcu olduğuna görə kədərli olduğunu bildirdi. İmam (ə) elə oradaca onun borcunu ödədi.[2] Məgər rəvadırmı belə bir İmam (ə) ölüm anında ah-nalə ilə bir damla su istəyə, amma ona su verməyələr. Canım sənə fəda olsun, ey məzlum Ağam!

Beşinci: İmam Hüseyn (ə) öz məddahına qapının dalından 4000 dinarı xəcalət çəkərək verir və məbləğin az olduğundan üzr istəyir.[3] Məgər rəvadırmı belə bir şəxslə elə tərzdə rəftar etsinlər ki, balaca qızcığazı bir qurtum su istəyə o Həzrət (ə) də onu verməyə aciz qala. Həmçinin, zövcəsi süd əmər balası üçün bir damla su xahiş edəndə və qardaşı oğlu Qasimin başının üzərinə gələndə, o da bir qurtum su istəyəndə İmamın (ə) nə qədər xəcalət çəkdiyini təsəvvür etmək mümkündürmü? O vaxt İmam Hüseyn (ə) Qasimə buyurdu: "Heç bilirsən nə qədər ağırdır sənin əmin üçün bu hal ki, sən onu çağırasan, amma o sənə cavab verə bilməyə, yaxud cavab versə də cavabının sənin halına bir faydası olmaya."[4]

Altıncı: İmam Hüseyn (ə) gecələr ərzaqla dolu məşki mübarək çiyninə alıb fəqirlərin və yetimlərin evlərinə aparırdı belə ki, məş-

[1] Bihar 45/8; Məqtəli Xarezmi 2/6
[2] Bihar 44/ 189
[3] Bihar 44/ 190
[4] Bihar 45/35

kin izləri onun mübarək çiynində zahir olmuşdur. Məgər rəvadırmı həmin İmam (ə) süd əmər körpəsini əlləri ilə qaldırıb, onun üçün bir içim su istəyə, ancaq ona imtina etsinlər?

Yeddinci: Xalqa qarşı lütfü və mərhəməti o qədər böyük idi ki, bir dəstə fəqir yerdə oturub, bir tikə çörək yeməklə məşğul olduqları zaman onların yanından keçəndə və onlar o Həzrəti (ə) yemək süfrəsinə dəvət edəndə İmam (ə) iki dizi üstə oturub onlarla birgə yemək yedi və buyurdu: "Allah təkəbbür əhlini sevməz." Sonra buyurdu: "Mən sizin dəvətinizi qəbul etdim, siz də mənim dəvətimi qəbul edin." Ərz etdilər: "Biz hazırıq." İmam (ə) onları evinə aparıb, kənizinə dedi: "Ehtiyat saxladığın azuqənin hamısını gətir." İmam (ə) gözəl bir süfrə hazırladı və könüllərinin xoş olması üçün onlarla birlikdə süfrə başında əyləşdi.[1]

Məgər rəvadırmı bu İmam (ə) öz əyalına və uşaqlarına bir qurtum su verməyə imkan tapmasın və onların könlünü sevindirməsin?

6-cı və 7-ci qisimlər: Tabeçilik və həmnövlük əlaqəsi.

Tabeçilik əlaqəsi: Beləliklə, gəlin Peyğəmbərə (s) tabe olaraq İmam Hüseynə (ə) əza saxlayıb, ağlayaq, hətta tamam Peyğəmbərlərə (ə) və vəsilərə tabe olaraq, bəlkə səmalara, yerə, vəhşi heyvanlara, quşlara, cənnətə və cəhənnəmə, cinlərə və mələklərə, gözə görünənlərə və görünməyənlərə, ağaclara, daşlara və dəmirlərə – necə ki, Həzrət Nuhun (ə) cəmisinin qan ağlayan mismarlarının əhvalatında nəql olunmuşdur[2] – bunların hamısına tabe olaraq ağlayaq, sən də tabe olaraq, göz yaşlarını axıt, axı sənin də qəlbin daşdan və dəmirdən bərk deyil.

Həmnövlük əlaqəsi: Həmnövlük əlaqəsi heç bir digər əlaqəni nəzərə almadan qəlbi riqqətə gətirər. Məsələn eşitsən ki, günahı və heç bir təqsiri olmayan bir insanı səhranın ortasında əhl-əyalı, balaca uşaqları, oğlanları, qardaşları, bacıları və səhabələri

[1] Bihar 44/189
[2] Bihar 44/230

ilə birlikdə həbs ediblər və onunla yuxarıda deyildiyi kimi rəftar ediblər, əlbəttə qəlbin onun halına yanacaqdır. Hətta halalı haram edən, yaxud Allaha kafir olan bir düşmənin belə rəftar olunduğunu eşitsən, ona halına acıyarsan. İmam Hüseyn (s) buyurmuşdur: "Ey camaat, vay olsun sizin halınıza, məgər məndən kiminsə qisasını almaq istəyirsiniz, ya sizin malınızı qəsb etmişəm, ya şəriəti dəyişdirmişəm?" Lakin o Həzrətə (ə) cavab vermədilər.[1]

Müəllif deyir: "Sənə fəda olum ey Ağa, əgər bu əməlləri etmiş olsaydın belə, sənin bu cür rəftar etmələri rəva deyildi. Beləliklə, gəlin ey şiələr qəlbimiz rəhmə gələrək, ürəkdən ağlayaq, çünki bu cür ağlamayan şəxs rəhm və mürüvvət əhlindən olmayacaqdır.

8-ci qisim: Cəmi sifətlər üçün ağlamaq.

Yuxarıda bəhsi gedən tamam sifətlər üçün ağlamaq məqamına gələndə bütün sifətləri bir yerdə, cəm şəkilində düşüncəmizdən və qəlbimizdən keçirməliyik. İmam Hüseyn (ə) həm həqiqi valideyn idi, həm sənin onunla bağlılığın vardır, həm də o səmalarda və yerdə böyük məqam sahibidir, həm də sənin üzərində tamam hüquqlara sahibdir, həm də bütün gözəl sifətlərə malikdir, həm də bütün məxluqat onun müsibətinə ağlamışlar, həm də sənin lə bəşər həmnövüdür, həm də günahsız və təqsirsiz olduğu halda bütün bu əziyyətlərə və müsibətlərə məruz qalmışdır.

İkinci növ: Düşünmədən və biixtiyar ağlamaq

Bu növ ağlamaq bir neçə qisimdən ibarətdir:

Birinci: İnsanlarda xuzu, xuşu, qəm-qüssə halәti hasil olur, bunların hamısının qayıdışı batində o Həzrətə (ə) nisbət qəlb yanğısıdır necə ki, rəvayətdə gəlir və bunu itaətlə təsdiq etmək lazımdır.

[1] Bihar 45/7

İkinci: Fitri qəlb yanğısıdır ki, Allah-taala İmam Hüseynə (ə) nisbət bunu məxluqatın hamısında istər dost olsun, istərsə düşmən fitrətində xəlq etmişdir. Lakin düşməndə bu fitri duyğu öz düşmənçiliyini unudan zaman zahir olur, məsələn məlun Yezidin və ya Müaviyənin ağlamağı.[1] Bu qisimdə sizə : "Gəlin birlikdə filan müsibətə ağlayaq" – deməyimizə ehtiyac yoxdur. Bəlkə belə deyə bilərik ki: "Hamını nəzərindən kənara qoy, hətta fərz elə ki, Hüseyni (ə) heç tanımırsan və ortada heç bir bağlılıq və haqq yoxdur, həmçinin tərifəlayiq və şəninin böyüklüyünü, savabı, əcri və tabeçiliyi də fikrindən çıxart və bax gör biixtiyar gözündən yaş axacaq ya yox?

Üçüncü: Əvvəl dediyimizdən daha ali olan fitrət düşmən üçün hasil olur, hətta düşmənçilik və daşqəlbliliyə baxmayaraq ağlamaq bunlara qalib gəlir, məsələn Ömər ibn Sədin ağlamağı, Əxnəs İbn Zeydin, Xulinin, Əhli-beytin zivərini qarət edən məlunun ağlamağı və bəzi halətlər səbəbindən biixtiyar olaraq düşmən ləşkərinin ağlamağı.[2] Halbuki, bu ləşkər İmama (ə) qarşı kinküdurət bəsləyirdi və ağlamaq onların peşəsinə və əməlinə zidd olan bir haldır. Lakin buna baxmayaraq qəhər onları boğmuş və ağlamışlar halbuki, onların arasında vələdüzinalar, kafirlər və münafiqlər çoxluq təşkil edirdi. Əgər düşmənin ədavətinə baxmayaraq ağlamaq halətinə düşməsinin səbəbini bilmək istəyirsənsə, onda o Həzrətin (ə) müsibətinə qulaq as və özünü ağlamaqdan saxlamağa çalış. Əlbəttə halının necə dəyişdiyini və biixtiyar nalə çəkdiyini görəcəksən. Gözünün önünə belə bir mənzərəni gətirəndə ki; Hüseyn (ə) meydanın ortasında, bədənində 1500 yara almış halda tənha qalıb. Başı yarılıb, ürəyi üç tirəli oxla deşilib, qəlbi əhl-əyalının kimsəsiz qaldıqlarına görə yanır, təşnəlikdən halsız olub, sevdiklərini itirdiyindən qəlbi sizlayır, su istəyir ancaq ona su vermirlər və bu halətdə qılıncı onun boğazına vururlar, hə indi özünü ağlamaqdan saxlaya bilərsənmi? Bu vaxt Ömər Sədin göz yaşları saqqalına axdı. Həmçinin, qadınları, uşaqları və kəsilmiş başları Yezidin sarayına gətirdilər, başları onun qabağında qoy-

[1] Bihar 45/196

[2] Bihar 45/ 55,82,136

dular, qadınları və qızları isə başların müqabilində saxladılar. Bu mənzərəni görən Yezidin qəlbi riqqətə gəldi və dedi: "Vay halına ey Mərcanənin oğlu."[1]

İkinci məqsəd: Ağlamağa bais olan xarici səbəblər

Bunlar o Həzrətin (ə) xüsusiyyətlərindəndir və bunun 10 səbəbi vardır:

Birinci səbəb: İmam Hüseynin (ə) ruhunun və kölgəsinin ruhlar, kölgələr və qüds aləmində görməkdir. Bu məsələnin şahidi Adəm (ə)-dır belə ki, Adəm (ə) zərr aləmində öz övladlarını müşahidə edəndə, Kərbəla hadisəsini gördü və ağladı.[2]

Həzrət İbrahim (ə) səmaların və yerin mələkutunu müşahidə edəndə Ərşin altında beş pak ruhu gördü, beşinci ruha nəzər yetirəndə onu ağlamaq tutdu necə ki, rəvayətdə nəql olunur.[3]

İkinci səbəb: İmam Hüseynin (ə) adını eşitmək necə ki, özü buyurmuşdur: "Bir mömin və möminə mənim adımı eşidən zaman ağlayar və qəmgin olar."[4]

Üçüncü səbəb: O Həzrətin(ə) zikridir belə ki, Adəm (ə) və Zəkəriyyə (ə) buyurmuşlar: "Hüseynin (ə) zikri gələndə qəlbim kövrəlir və gözlərimdən yaş axır.[5]

Dördüncü səbəb: O Həzrətin (ə) üzünə baxmaqdır necə ki, cəddi Peyğəmbər (s) təvəllüdünün ilk günü onu görəndə ağlamışdır və sonralar hər dəfə onu baxanda ağlayırdı. Atası Əmir-əlmöminin (ə) ona baxıb ağladı və buyurdu: "O hər möminin ağlamaq səbəbidir." Ərz etdi: "Mən ağlamağa səbəbəm ?" Buyurdu: "Bəli, ey övladım."

Beləliklə, gəlin ey dostlar o Həzrətə (ə) qəlbin nəzərəti ilə baxaq və əgər siz nəzər etməsəniz bilin ki, o sizə daim nəzər edir.

[1] Bihar 45/136
[2] Bihar 11/175
[3] Bihar 36/ 151
[4] Bihar 44/279
[5] Bihar 44/245

Səhih hədisdə gəldiyi kimi İmam Hüseyn (ə) Ərşin sağ tərəfində özünün şəhadət məhəllinə, zəvvarlarına və ağlayanlarına baxır[1] və təəccüblü deyil ki, uzaq məsafə, divarlar və evlər "Allahın gözü" olan o İmamın (ə) baxışlarına maneə deyillər.

Beşinci səbəb: İmam Hüseynin(ə) qəbrinə nəzər yetirməkdir, İmam Cəfər Sadiq (ə) buyurur: "Hüseyn (ə) qəribdir və onun ziyarətinə gələn şəxs qərib yerdə onun üçün ağlayar, onun ziyarətinə gəlməyən kəs isə onun üçün hüznlü olar. Onu görməyən kəs ona ürəyi yanar və ayağanın altında dəfn olunan balasının qəbrini görən kəs isə qəlbi riqqətə gələr.

Altıncı səbəb: Hüseynin (ə) bədənini sığallamaq və öpmək, necə ki, cəddi Peyğəmbər (ə) bəzi vaxtlar onun boğazından öpərdi və ağlayardı, gah göbəyinin üstündən öpərdi və ağlayardı, gah alnını, gah da dişlərini öpərdi, bəzən də tamam bədənini öpərdi və ağlayardı. O Həzrətdən (s) soruşanda ki: "Ey Allahın rəsulu (s) bəs niyə ağlayırsan?" Buyurdu: "Qılınc dəyən yerləri öpürəm."

Soruşanda ki: "Dişlərini öpəndə niyə ağlayırsan?" Buyurdu: "Çubuq dəyən və İbn Ziyadın gördüyü zaman güldüyü yeri öpürəm. Mənim ağlamağım onun gülməyindəndir."

Soruşanda ki: "Niyə göbəyinin üstündən öpürsən?" Buyurdu: "Üç tirli oxun yerini öpürəm." Bacısı Zeynəb xatun (ə) cəddi Peyğəmbər (ə) öpdüyü yerləri öpmək istəyəndə bunu edə bilmədi, çünki bədəni başdan ayağa ox, nizə və qılınc yarası idi, xüsusən mübarək bədən atların tapdağı altında qalandan sonra. Xanım Zeynəbin (ə) hal dilindən deyirlər ki, o vaxt belə söylədi:

Bax halına bacının Hüseyn, necə pərişandı Zeynəbin,
Sənə dəyən qılınc yarasından necə bağrı qandı Zeynəbin.

Qalmayıb daha bədənində bir busə yeri Zeynəbin,
Baxar Nəcəf tərəfə: "Va Əbəta" – deyib, ağlayar Zeynəbin.

Bəli bu əzəmətli Xanım (ə) qardaşının bədəninin elə bir yerindən öpdü ki, Peyğəmbər (s) o yerdən öpməmişdir, bu da kə-

[1] Bihar 44/ 239; 280; 292

silmiş başının yeri idi. Yəni, Peyğəmbərin (s) zahirini öpdüyü yerin batinini öpmüşdür, buna görə üzünü qardaşının boğazına qoyanda fəryad etdi: "Ya Cədda, budur sənin Hüseynin (ə), bədəni parə-parə və başı da kəsilmiş halda yerə düşmüşdür." Mən bilmirəm bu alicənab qadın qardaşını necə tanımışdır, bununla bağlı bir neçə dəlil gətirmək olar:

Birinci: O zaman orada idi və qətl hadisəsini müşahidə edirdi, bu da rəvayətin zahirinə ziddir, çünki Həzrət (ə) ona xeymələrə tərəf qayıtmağı əmr etmişdir.

İkinci: Hadisə yerində hazır olan və biri-birinə danışan camaatdan eşitmişdir, bu da zəif ehtimaldır.

Üçüncü: Mübarək bədənin halətini müşahidə etməklə təyin edə bilmişdir, çünki onu üzü üstə yıxmaqlarını görmüşdür və elə başa düşmüşdür ki, həmin bu vəziyyətdə də şəhid ediblər. O Həzrətin (ə) bu halәti və pak libasının çıxarılması müsibəti, şəhadəti müsibətindən Xanım (ə) üçün daha şiddətli oldu. Buna görə, cəddi Peyğəmbərə (s) pənah apardı.

Yeddinci səbəb: Bir şeyin o Həzrətə (ə) nisbət verilməsi qəm-qüssə və ağlamağa səbəb olur. Hətta onun adına vurulan mismar belə necə ki, rəvayətdə gəlir: "Cəbrayıl (ə) Nuhun (ə) gəmisinin hazırlanması üçün hər Peyğəmbərin (ə) adına bir neçə mismar gətirmişdir və gəminin qabağına vurulması üçün pak Xəmsənin (ə) adına beş mismar gətirdi. Nuh peyğəmbər (ə) bu mismarların hər birini gəmiyə vurmaq üçün əlinə götürəndə onlardan nur saçırdı. Cəbrayıl dedi: "Bunlar Xatəmul-ənbiyanın (s), Əlinin (ə), Fatimənin (ə), Həsənin (ə) adınadır." Beşinci mismarı əlinə götürəndə isə ondan qan zahir olub, Nuhun (ə) əlinə axdı. Cəbrayıl dedi: "Bu Hüseynin (ə) adınadır."[1]

Beləliklə, o Həzrətə (ə) nisbət verilən bir dəmir parçası qan ağlayırsa, bəs Hüseyn (ə) deyən kəslərin qəlbləri niyə qan ağlamırlar. Qəribə budur ki, o Həzrətə (ə) nisbət verilən sevinc və fərəh səbəbləri hamısı qəm-qüssəyə qərq olub ağlayırlar necə ki, cən-

[1] Bihar 44/230

nətdə o Həzrətin (ə) huryəsi ağlamışdır.[1] Həmçinin, o Cənabın (ə) təvəllüdü və yeni libas geyinməsi cəddi Peyğəmbəri (s) ağladırdı. Fərəh və sevinc səbəbləri olan imam Hüseynin (ə) müharibələrdə kömək göstərməsi və qələbələri, gözəl yemək yeməyi, ana bətnində həml olunması və təvəllüdü hamısı cəddi Peyğəmbəri (s) və atası Əmir-əl möminini (ə) ağladırdı.[2]

Məhərrəm ayının gəlişi hüznün və ağlamağın səbəbidir

Səkkizinci səbəb: Şəhadət ayı olan Məhərrəmin daxil olması bütün insanların hüznünə və ağlamaqlarına səbəb olar.

Doqquzuncu səbəb: Dəfn olunduğu torpağa ayaq basmaq qəm-qüssəyə və riqqətə səbəb olar necə ki, tamam Peyğəmbərlərin (ə) halətlərində baş vermişdir. Nəql olunur ki, Peyğəmbərlər (ə) o şərif məqamı ziyarət edib, demişlər: "Ey torpaq, sənin bətnində parlayan ay və İmamət bürcü (ə) dəfn olunacaqdır." Peyğəmbərlərin (ə) hər biri bu torpağa daxil olanda onlara xəsarət yetişirdi və bundan qəm-qüssəli olurdular. Bunun səbəbini Allahdan soruşanda vəhy gəlirdi ki: "Bura Kərbəla torpağıdır, burada Hüseyn (ə) şəhid olacaqdır." Bu halət Əhli-beytin vücüdunda da Kərbəlaya daxil olan zaman baş vermişdir, nəql olunur ki, Ümmü Gülsüm dedi: "Qardaşım, bu səhra necə də vahiməli bir yerdir." Həzrət (ə) buyurdu: "Atam bu torpaqda yuxuya getdi və ağlayan halda oyanaraq, buyurdu: "Yuxuda gördüm oğlum Hüseyn (ə) qan dəryasında boğulur." Sonra buyurdu: "Ey Əba əbdillah (ə), o hədisə burada baş verəndə sənin halın necə olacaqdır?"[3]

Onuncu səbəb: Bu məkanın adını eşitməkdir necə ki, o Həzrətin (ə) özü bu məntəqəyə daxil olarkən, oranın adını soruşanda bu torpaq üçün bir neçə ad çəkdilər və sonda dedilər: "Buraya

[1] Bihar 44/241
[2] Bihar 43 /O Həzrətin (ə) təvəllüdü fəsli.
[3] Bihar 44/252

Kərbəla da deyərlər."Bu an o Həzrətin (ə) gözləri yaşardı və buyurdu: "Allahım Sənə pənah gətirirəm Kərb (yəni,qəm-qüssədən, kədərdən) və bəladan (yəni, imtahandan və bəladan). Bura bizim dəvələrimizin yatan, yüklərimizin düşən, qanlarımızın axan və uşaqlarımızın başı kəsilən yeridir. Burada mənim və səhabələrimin qanı axıdılacaq və əhl-əyalım zillətlə əsir düşəcəkdir, yüklərinizi boşaldın, artıq bura son mənzilimizdir."[1]

On birinci səbəb: Sərin su içməkdir, bu əməl həmişə İmam Sadiqin (ə) ağlamaq səbəbi olmuşdur. Davud Riqqi rəvayət edir ki: "O Həzrətin (ə) yanında idim, Həzrət (ə) su içdi və ağladı, sonra buyurdu: "Hüseynin (ə) zikri bizi qəm-kədərə qərq edibdi, hər dəfə sərin su içəndə Hüseyni (ə) yad edirəm, necə ki, o Cənabın (ə) özü buyurmuşdur: "Ey şiələr, sərin su içən zaman məni yad edin."

On ikinci səbəb: mübarək türbətini iyləməkdir, bu əməl Peyğəmbəri (s) ağlatmışdır. Əmir-əl möminindən (ə) rəvayət olunur ki: "Peyğəmbərin (s) xidmətinə daxil olanda mübarək gözlərindən yaş axdığını gördüm. Dedim: "Atam, anam sənə fəda olsun ey Allahın rəsulu (s) niyə ağlayırsan? Kimsə səni narahat edibmi?" Buyurdu: "Xeyir, ancaq indi Cəbrayıl mənim yanımda idi və xəbər verdi ki, Hüseyni (ə) Fərat çayının kənarında qətlə yetirəcəklər. Onun türbətini iyləmək istəsən sənə göstərə bilərəm." Dedim: "Bəli." O Həzrət (s) əlində olan bir ovuc torpağı mənə uzatdı, onu götürdüm və biixtiyar gözlərimdən yaş axdı."[2]

Əbi Bukkar rəvayət edir ki: "Kərbəla ziyarətinə getmişdim, İmam Hüseynin (ə) mübarək başı tərəfindən bir qədər qızıl gül dərdim. İmam Rzanın (ə) xidmətinə gələndə bu gülləri ona təqdim etdim, o Həzrət (ə) gülləri iylədi və ağladı, sonra buyurdu: "Bu güllər cəddim Hüseynin (ə) türbətinin ətrini verir."[3]

On üçüncü səbəb: Bir şəhidin, ya qəribin, ya məzlumun adını eşitmək, çünki, o Həzrətin (ə) özü belə tövsiyə etmişdir: "Hər nə vaxt bir şəhidin, ya bir qəribin adını eşitsəniz məni yad edib ağlayın."

[1] Bihar 44/315; Əmaliye Səduq 30-cu məclis/132; Luhuf səh.32
[2] Bihar 44/247
[3] Bihar 44/131

On dördüncü səbəb: İmam Hüseynin (ə) müsibətlərini eşitmək ya təsəvvürə gətirmək, sonrakı fəsildə bu mətləbin təfsilatı gələcəkdir.

Üçüncü məqsəd: O Həzrətə (ə) qəlbin yanmasının, qüssələnməyin və ağlamağın keyfiyyəti barədə

Bu mətləb bir neçə qisimdən ibarətdir:

1-ci: Qəlbin qəm-qüssəyə gələrək ağlamasıdır, bu birinci mərtəbədir və səmərəsi də budur ki, bu halətdə nəfəs almağın savabı təsbih deməyin savabına bərabərdir necə ki, rəvayətdə gəlir.[1]

2-ci: Qəlbin yanmasıdır və onun səmərəsi ölüm anında şad olmaqdır. Rəvayətdə nəql olunduğu kimi belə şadlıq halәti Kövsər hovuzunda Peyğəmbərin (s) yanına gələnədək qəlbdə daim qalmaqdadır.[2]

3-cü: Üzə axmamışdan qabaq, gözdə yaşın yaranmasıdır necə ki, İmam Sadiq (ə) buyurur: "Ağlayanın gözündən yaş axmamış Allah ona rəhm edir."

4-cü: Ağcaqanadın qanadı qədər olsa belə gözdən yaşın axmasıdır, rəvayətdə nəql olunduğu kimi günahların, dəryanın köpükləri qədər çox olsa belə bağışlanmasına səbəb olar.

5-ci: Göz yaşları axıtmaqdır, hədisdə gəlir ki: "Bu göz yaşının bir damlasını cəhənnəmə atsalar, onun atəşini söndürər.[3]

6-cı: Göz yaşının üzə, saqqala və sinəyə axmasıdır, bu da imam Sadiqin (ə) ağlamasıdır. Bir növhəxan o Həzrətə (ə) mərsiyə oxuduqdan sonra buyurdu: "Mələklər də bizimlə ağladılar, bəlkə daha çox ağladılar və Allah-taala tamam behişti sənin üçün vacib etdi."[4]

7-ci: Qışqırmaq, növhə demək, fəryad etmək və can verməkdir. İmam Sadiq (ə) dua zamanı buyurdu: "Allahım bizə xatir ucalan

[1] Bihar 44/278
[2] Bihar 44/290
[3] Bihar 44/285;290
[4] Bihar 44/283

qışqırığa rəhm eylə."[1] Nəql olunur ki, Həzrət Fatimə (ə) hər gün ahu-nalə edir və Peyğəmbər (s) də onu sakitləşdirir.[2]

Əbuzərdən nəql edilir ki: "Əgər bu müsibətin böyüklüyünü dərk edə bilsəydiniz, canınızı əldən verənədək ağlayardınız".

8-ci: Nalə çəkməkdir ki, o Həzrətin (ə) qatili Yezid məlun zövcəsi Hində əmr etdi və dedi: "Ey Hind get Qureyşın böyüyü Hüseynə (ə) ağla və nalə et, İbn Ziyad onun qətlində tələsmişdir." Bunun təfsilatı gələcək inşallah.

9-cu: Başa və üzə vurmaqdır, bu əməli Abdullah ibn Ömər də etmişdir. İmam Hüseynin (ə) şəhadət xəbərini eşidəndə fəryad etdi: "Heç bir gün Hüseynin (ə) günü kimi olmayıb."[3]

10-cu: Təbaki – yəni, özünü ağlayana bənzətməkdir ki, bu şəxs üçün behişt vacib olur. Yəni, insan hər nə qədər daşqəlbli olsa və müsibətə yanmasa da, ən azından başını sala aşağı və zahirən özünün qəmləndiyini və ağladığını göstərə.[4]

Bilmirəm qəlb nə qədər bərk olmalıdır ki, belə bir müsibətə yanmaya. Mümkündür qəlbin bərkliyinin iki mənşəyi vardır:

Birinci: Zərurətdən artıq olan dünya malını ələ gətirməklə məşğul olmaq, qəlbin bərkiməsinə səbəb olar necə ki, duada buna işarə olunmuşdur: "Pənah aparıram Allaha daşqəlblilikdən, qurumuş gözdən və doymayan qarından."[5]

İkinci: Faydasız işlər barədə çox danışmaq, necə ki, rəvayətdə nəql olunur.[6]

Qəlbin bərkiməsinin müalicəsi yetimin başına əl çəkməkdir ki, bu əməlin coxlu əcri olmasında əlavə qəlbin bərkimə səbəblərini də aradan götürür.[7]

11-ci: Gözlərin çox ağlamaqdan quruduğuna görə gözlər yaşarmadan ağlamaqdır, bu da Əhli-beytin (ə) Mədinəyə qayıtdıq-

---

[1] Bihar 98/52
[2] Bihar 45/225
[3] Bihar 45/219;143;328
[4] Bihar 44/288; Luhuf səh. 5
[5] Əbu Həmzə Somalinin duasından.
[6] Bihar 68/281; Əmaliye Tusi 1/1
[7] Vəsailuş-şiə 17/111

dan sonra ağlamaq tərzi idi və buğda şorbası yeməklə bu xəstəliyi müalicə etdilər.

12-ci: Elə bir ağlamaqdır ki, onun təsiri insanda yemək və içməyi tərk etməklə zahir olur, necə ki, Məsmə ibn Əbdül-Malik bu halətin Hüseyni (ə) zikr edən zaman ona üz verdiyini İmam Sadiqə (ə) ərz etdi və İmam (ə) onun üçün dua etmişdir, altinci ünvanda bu barədə nəql olunacaq.

Dördüncü məqsəd: İmam Hüseynin (ə) müsibətini zikr etmək üçün qurulan məclislər barədə

Bunlar beş növdürlər:

1-ci: Adəmin (ə) yaradılışından qabaq qurulan məclislər.

2-ci: Adəmin (ə) yaradılışından sonra və Hüseynin (ə) viladətindən qabaq qurulan məclislər.

3-cü: İmam Hüseynin (ə) viladətindən sonra və şəhadətindən qabaq qurulan məclislər.

4-cü: İmam Hüseynin (ə) şəhadətindən sonra dünyada qurulan məclislər.

5-ci: Dünyanın sonundan sonra, qiyamət günü qurulan məclis.

Lövhün, Qələmin və Ərşın hüznlü olması

Birinci növ: İki məclis olmuşdur, biri bu məclisdir ki, orada Qələmə Hüseynin (ə) şəhadətinin qəza və qədər mətnini Lövhə üzərində yazmaq əmri verildi və bu işdən Qələm və Lövhə hüznlü oldular.

İkinici məclis Ərşin ətrafında oldu, bu vaxt Allah-taala mələklərə xitab etdi ki: "Mən yer üzündə xəlifə yaradacam." Mələklər ərz etdilər : "Məgər onu yer üzündə qan tökmək üçün yaradacaqsan?" Bəzi təfsirlərdə gəlir ki, mələklərin belə sualdan məqsədləri Kərbəla vaqiəsi idi və bu iradı hüzn və həsrət üzündən söylə-

mişlər. Allah-taaladan xitab gəldi ki: "Mən bildiklərimi siz bilmirsiniz."

İkinci növ: on altı məclis olmuşdur:

Birinci məclis: Ərəfat.

Adəm (ə) Ərəfatda Ərşin altına baxanda və pak Xəmsənin (ə) adlarını görəndə, Cəbrayıl (ə) ona təlqin etdi ki, belə de: "Ya Həmid bi həqqi Muhəmməd (s), ya Aliyu bi həqqi Əli(ə), ya Fatiru bi həqqi Fatimə (ə), ya Muhsin bi həqqi Həsən (ə) vəl-Hüseyn (ə) və minkəl ehsan." Adəm (ə) bu adları zikr edib, Hüseynin (ə) adını çəkəndə qəlbi kövrəldi və gözlərindən yaş axdı. Soruşdu: "Ey qardaşım Cəbrayıl (ə) niyə bu Adı zikr edəndə qəlbim sınır və gözlərim yaşarır?" Bu vaxt Cəbrayıl o Həzrətin (ə) müsibətini nəql etdi, orada hazır olan mələklər Adəmlə (ə) bərabər əhvalata qulaq asdılar və ağladılar. Cəbrayıl dedi: "Ey Adəm sənin bu övladın elə bir müsibət görəcəkdir ki, tamam müsibətlər onun yanında kiçikdirlər." Adəm (ə) dedi: "Nədir o müsibət?" Cəbrayıl (s) dedi: "Ey Adəm (ə) onu susuz, qərib, tənha, kimsəsiz, heç bir köməyi və yaveri olmadığı halda görsəydin, görsəydin ki, belə deyir: "Aman susuzluqdan, aman köməksizlikdən." Bu halətdə təşnəlik tüstü kimi onunla asiman arasında pərdə salacaq və onun sözlərinə qılınc zərbələrindən başqa heç kəs cavab verməyəcək. Sonra onun başını qoyunun başını kəsən kimi kəsəcəklər, amma boynunun ardından. Mallarını qarət edəcəklər, özünün və səhabələrinin kəsilmiş başlarını nizələr ucunda, əsir götürülmüş əhli-əyalı ilə birlikdə şəhərləri dolandıracaqlar."[1]

İkinci məclis: Cənnətdə Hurilər mərsiyə deyər və...

Cənnətdə hürilər mərsiyə deyərlər, Peyğəmbər (s) və Cəbrayıl (ə) isə onlara qulaq asar və ağlayarlar. Rəvayətdə nəql olunur ki, Peyğəmbər (s) buyurmuşdur: "Merac gecəsi Cəbrayıl (ə) mənim əlimdən tutub, behiştə daxil etdi. Mən çox şad idim, sonra nurdan

[1] Bihar 44/245

bir ağac gördüm, onun altında iki mələk qiyamət günündəki zinnət düzəldib o ağacı bəzəyirdilər. Bir az qabağa getdim və böyüklükdə bənzəri olmayan alma növünü gördüm. O almanın birini dərib, yarı böldüm, almanın içindən bir huriyə zahir oldu, onun kipriklərı qartal qanadlarının ətrafına bənzəyirdi. Ondan soruşdum: "Sən kimə məxsussan?" O ağladı və dedi: "Mən sənin məzlum övladın Hüseyn ibn Əliyə (ə) məxsusam."[1]

Üçüncü məclis: Cənnətdə Cəbrayıl (ə) mərsiyə deyir və...

Bu məclis də cənnətdə qurulmuşdur, Cəbrayıl (ə) mərsiyə deyirdi Peyğəmbər (s) və hurilər isə qulaq asırdılar. Nəql edirlər ki, İmam Həsən (ə) ölüm ayağında idi, zəhər bədəninə yayıldığından rəngi yaşıla çalırdı. İmam Hüseyn (ə) buyurdu: "Qardaşım sənə nə olub ki, rəngin belə yaşıl olub?" İmam Həsən (ə) ağlayıb, buyurdu: "Can qardaşım, Cəddimizin (s) mənim və sənin haqqında söylədikləri həqiqətdir." Bunu deyib Hüseyni (ə) bağrına basdı və hər ikisi ağladılar. Sonra İmam Hüseyn (ə) soruşdu: "Cəddimiz Peyğəmbər (s) nə söyləmişdir?" Buyurdu: "Mənə xəbər vermişdir ki, Merac gecəsi behiştə daxil oldum və biri-birinə bənzər iki böyük qəsr gördüm, lakin bu qəsrlərin biri yaşıl rəngdə, digəri isə qırmızı rəngdə idi. Cəbrayıldan (ə) soruşdum: "Bu qəsrlər kimə məxsusdur?" Dedi: "Biri Həsənindir (ə), biri də Hüseynin (ə)." Dedim: "Niyə ikisi də eyni rəngdə deyillər?" Cəbrayıl (ə) sakit qaldı. Dedim: "Niyə danışmırsan?" Dedi: "Səndən həya edirəm." Dedim: "Səni Haqq-təalaya and verirəm söylə." Cəbrayıl (ə) dedi: "Həsənin (ə) qəsrinin yaşıl rənginin səbəbi budur ki, ona zəhər verib, şəhid edəcəklər və bədəninin rəngi yaşıl olacaqdır. Hüseynin (ə) qəsrinin qırmızı rəngdə olmasının səbəbi də budur ki, onu qanına qəltan edərək öldürücəklər. Bu vaxt Peyğəmbər (s) və Cəbrayıl (ə) ağladılar və orada hazır olanlar da onların səsələrindən ahu-nalə etdilər.[2]

---

[1] Bihar 44/241

[2] Bihar 44/145

Dördüncü məclis: Kərbəlada həzrət Adəmin (ə) məclisi.

Həzrəti Adəm (ə) yer kürəsini seyr edən zaman Kərbəlaya İmam Hüseynin (ə) şəhadət yerinə çatanda ayağı ilişdi və yerə yıxıldı, ayağından qan axdı. Başını səmaya qaldırıb ərz etdi. "Ey Allahım, məgər mən günah etdim ki, məni cəzalandırdın?" Vəhy gəldi: "Xeyr, lakin bu məkanda sənin övladın Hüseyn (ə) qətlə yetiriləcəkdir. Buna görə, onun qanına uyğun olaraq sənin də qanın axdı." Ərz etdi: "Onun qatili kimdir?" Vəhy gəldi : "Yezid məlundur, ey Adəm (ə) ona lənət elə." Adəm (ə) ona lənət edib, Ərəfata tərəf yollandı.[1]

Beşinci məclis: "Nuhun (ə) gəmisi şəhadət məhəlləsinə çatan zaman.

Nuhun (ə) gəmisi İmam Hüseynin (ə) şəhadət məhəllinə yetişəndə tufan qopdu və gəmi təlatümə düşdü. Nuh (ə) gəminin batmasında qorxaraq, münacat etdi: "Allahım bütün dünyanı dolandım, amma belə bir hal ilə qarşılaşmadım." Bu vaxt Cəbrayıl (ə) nazil oldu və Kərbəla əhvalatını ona bəyan etdi, Nuh (ə) və onun gəmidə olan səhabələri ağladılar.[2]

Altıncı məclis: "Məcmaul-bəhreyn (iki dənizin qovuşması) və Musanın (ə) Xızırla (ə) görüşü.

İki dənizin biri-birinə qovuşduğu yerdə Musa (ə) ilə Xızır (ə) görüşdülər və Muhəmməd (s) onun ismətli Əhli-beyti (ə) və onların müsibəti barədə söhbət etdilər. Elə ki, söhbət Hüseynin (ə) Kərbəla vaqiəsinə çatdı onların ahu-nalə sədaları ucaldı.[3]

Yeddinci məclis: Süleymanın (ə) xalçası idi.

Süleyman peyğəmbər (ə) uçan xalçasının üstündə öz saray adamları, yaxınları, cinlər və quşlarla birlikdə Seyyidi şühədanın (ə) şəhadət məhəllinin üzərindən uçanda külək şiddətlə əsib, xalçanı üç dövrə bükdü. Süleyman Peyğəmbər (ə) küləyin bu hərəkətini cə-

[1] Bihar 44/242
[2] Bihar 44/243
[3] Bihar 13/301; Təfsiri Qummi 2/38

zalandırmaq istəyəndə, külək dilə gəlib, İmam Hüseynin (ə) müsibətini ona nəql etdi və dedi: "Ey Allahın nəbisi (ə) bura Hüseynin (ə) şəhadət məhəllidir" – hədisin axırınadək.[1]

Səkkizinci məclis: Həzəranın sahilində olmuşdur...

İbrahim (ə) Həzəranın sahilində səmanın və yerin mələkutunu müşahidə edən zaman Hüseynin (ə) ruhunu gördü və ağladı.

Doqquzuncu və onuncu məclis: İbrahim (ə) bütləri sındıran və oğlunu qurbanlıq kəsən zaman olmuşdur.

İbrahim (ə) bütləri sindırmaq istəyən vaxt dedi: "Mən xəstəyəm" yəni, İmam Hüseynin (ə) müsibətinə görə.

Onuncu: İmam Rzadan (ə) nəql olunur ki: "İbrahimə (ə) oğlu İsmayılın (ə) əvəzinə qurbanlıq qoyun kəsmək əmri gələndə, təmənna etdi ki, kaş qurbanlıq qoyun gəlməyəydi və oğlunu öz əli ilə qurban kəsəydi, çünki bununla qəlbi sınardı və səbir və razılıq ali dərəcələrinə ucala biləydi. Bu vaxt vəhy gəldi ki: "Ey İbrahim (ə) məxluqatın arasında ən çox sevdiyin şəxs kimdir?" Ərz etdi: "Sənin həbibin Muhəmməd (s)." Vəhy gəldi: "Onu çox istəyirsən, ya özünü?" Dedi: "Onu, özümdən çox istəyirəm." Allah-taala buyurdu: "Onun övladını çox istəyirsən, ya öz övladını?" Dedi: "Onun övladını." Buyurdu: "Onun övladının düşmənlər tərəfindən zülm ilə başının kəsilməsi sənin qəlbini daha çox yandırar, ya Mənim əmrimə itaət edərək öz əlin ilə övladın İsmayılın (ə) başını kəsməyin?" Dedi: "Onun düşmənlər tərəfindən başının kəsilməsi mənim qəlbimi daha çox yandırar." Buyurdu: "Ey İbrahim (ə) özlərini Xatəmulənbiyanın (s) ümmətindən hesab edən bir dəstə camaat onun övladı Hüseyni (ə) zülm və ədavətlə başını kəsəcəklər və bu əməllə Mənim qəzəbimə düçar olacaqlar." İbrahim (ə) bu hadisəni eşidəndə qəlbi sındı və ahu-nalə edib, ağladı. Sonra vəhy gəldi: "Ey İbrahim (ə) sənin İsmayıla (ə) olan ahu-naləni Hüseynə (ə) olan ahu-nalənə qurban etdim və Hüseynin (ə) müsibətlərinə ahu-nalə edənlərin ali

[1] Bihar 44/244

dərəcələrini sənin üçün vacib etdim." Bəli, bu həmin şərif ayənin təfsiridir: "Biz ona böyük qurbanlıq fəda etdik." (Saffat /107).[1]

On birinci məclis: İbrahim (ə) Kərbəladan keçən zaman olmuşdur.

Bu, həzrət İbrahimin (ə) 4-cü məclisidir. O Həzrət (ə) Kərbəladan keçən zaman atı birdən iki ayaqları üstə qalxıb kişnədi. İbrahim (ə) atdan yerə yıxıldı və başı yarıldı. O dedi: "Allahım mən nə etdim ki, başıma bu iş gəldi?" Bu vaxt onun atı dilə gəlib, danışdı: "Ey Allahın xəlili (ə) mən səndən çox xəcalət çəkirəm, bu torpaqda Xatəmul-ənbiyanın (s) nəvəsi qətlə yetiriləcəkdir və onun qanı ilə uyğun olmaq üçün sənin də qanın burada axdı."[2]

Ola bilsin İbrahimin (ə) yıxıldığı yer həmin Hüseynin (ə) yıxıldığı yer idi, ancaq bax gör bu iki yıxılmağın arasında nə qədər fərq var:

İbrahim (ə) sağlam bədənlə yerə yıxıldı, başı yaralandı və qalxıb yenidən atına süvar olub, öz yoluna davam etdi. Amma Hüseyn (ə) ac, susuz, bədəni yaralı, parə-parə olmuş halda və düşmənlərin arasında yerə yıxıldı. Bu vaxt düşmənlər onun əhatəyə aldılar qılınc, nizə və oxlarla ona əziyyət verdilər və sonda zülm ilə başını kəsdilər. Mübarək başını nizəyə taxıb şəhərləri dolandırdılar, bədənini isə isti qumlar üstündə qan içində, qüsülsüz və kəfənsiz qoydular: "Sənə qurban olum, ey Peyğəmbərin (s) balası."

On ikinci məclis: İsmayılın (ə) məclisidir.

İsmayıl (ə) öz qoyunlarını Fərat çayının kənarına göndərəndə, çoban ona xəbər verir ki, qoyunlar neçə gündür su içmirlər. İsmayıl (ə) Allah-taaladan bunun səbəbini soruşanda, vəhy gəldi: "Səbəbini qoyunlardan soruş." İsmayıl (ə) onlardan soruşur: "Su içməməyinizin səbəbi nədir?" Qoyunlar dil açıb dedilər: "Bizə xəbər çatdı ki, burada sonuncu Peyğəmbərin (s) nəvəsi Hüseyn

[1] Bihar 44/225; Uyuni-əxbar 1/209
[2] Bihar 44/243

(ə) susuz halda qətlə yetiriləcək, biz də ona hüznlü olduğumuzdan su içmirik."[1]

On üçüncü məclis: Həzrət İsanın (ə) Kərbəlada məclisi.

Həzrət İsanın (ə) Kərbəlada qurduğu məclisdir, burada səhranın ahuları mərsiyə deyirdilər. İsa (ə) və onun həvariləri ağlayırdılar, necə ki, İbn Abbasdan rəvayət olunur.[2]

On dördüncü məclis: Tur və Sina dağlarında olmuşdur.

Bu məclis Turi-Sinada olmuşdur, müsibəti zikr edən Allah-taala və qulaq asan Musa (ə) idi.

Rəvayətdə belə nəql olunur: "Bəni-İsraildən bir nəfər gördü ki, həzrət Musa (ə) rəngi saralmış, bədəni titrəyən, gözləri çökmüş halda təcili harasa tələsir, zahiri görünüşündən başa düşdü ki, Allahla münacata tələsir. Dedi: "Ey Allahın Peyğəmbəri (s) mən böyük bir günah etmişəm, xahiş edirəm Allahdan mənim günahımın bağışlanmasını istə." Musa (ə) münacat məqamına yetişəndə ərz etdi: "Allahım, Sən mənim nitqimdən əvvəl nə deyəcəyimi bilirsən, Sənin filan bəndən bir günah etmişdir və Səndən əfv olunmağını diləyir." Xitab gəldi ki: "Məndən bağışlanmaq diləyən hər kəsi əvf edərəm, yalnız Hüseynin (ə) qatilindən başqa." Musa (ə) dedi: "Hüseyn (ə) kimdir?" Xitab gəldi: "Tur dağında zikri sənə söylənən şəxsdir." Dedi: "Onu kim öldürəcək?" Allah-taala buyurdu: "Özlərini onun cəddinin ümmətindən hesab edən tüğyankar və dindən dönən bir camaat Onu Kərbəlada şəhid edəcəklər. Onun atı qaçıb kişnəyəcək və deyəcək: "Aman öz Peyğəmbərinin (s) övladını öldürən qövmün əlindən." Onun başını kəsib, bədənini qüsülsüz, kəfənsiz halda quru torpağın üstünə atacaqlar, malını qarət edəcəklər, qadınlarını şəhər-şəhər dolandıracaqlar, yavərlərini qətlə yetirəcəklər və başlarını nizələrə taxıb, ölkələri dolanacaqlar. Ey Musa (ə) onun az yaşlı balaları təşnəlikdən həlak olacaq, böyü-

[1] həmin.

[2] Bihar 44/253: Əmaliye-Səduq 87-ci məclis səh.479

yünün isə günün istisindən dərisi büküləcəkdir." Bunları eşidən Musa (ə) ağladı, xitab gəldi: "Ey Musa (ə) hər kəs onun müsibətinə ağlasa, ağlatsa və özünü ağlayana bənzətsə onun bədənini atəşə haram edərəm."[1]

Bəli, imanda sabit qədəm qalan və Allahın kəlimi ilə üzbəüz dayanıb, danışan camaatın xoş halına! Onlar o Həzrətin (ə) vasitəsilə öz sözlərini Allah dərgahına çatdırır və Allahdan bağışlanmaq istəyirdilər. Həmd olsun Allaha ki, bizim də Kəlimullahımız var, o da ağ əlin, əsanın və Allahın digər ayətlərinin sahibidir. O, Ərşin sağ tərəfində həmişə münacat məqamında dayanıb, bizim xahişimiz olmadan, bizlər üçün günahlarımızın bağışlanmasını istəyir. Lakin bizim Kəlimin rəngi saralmayıb və bədən əzaları titrəmir, onun rəngi qırmızı qandır və bədən əzaları yaralı və parə-parədir.

On beşinci məcis: Beytul-müqəddəsdə olmuşdur.

Beytul-müqəddəsdə Hüseynin (ə) müsibətini zikr edən Allah-taala və qulaq asan, növhə deyən də Zəkəriyya peyğəmbər (ə) idi. İmam Mehdi Sahibəz-zamandan (ə.f) rəvayət olunur ki: "Zəkəriyya peyğəmbər (ə) Allahdan, pak Xəmsənin (ə) adlarını ona təlim etməsini istədi. Bu vaxt Cəbrayıl (ə) nazil olub mübarək adları ona öyrətdi. Zəkəriyya (ə) hər nə vaxt Həzrət Muhəmmədin (ə), Əlinin (ə), Fatimənin (ə) və Həsənin (ə) adını çəkəndə qəm-qüssəsi aradan gedirdi. Ancaq Hüseynin (ə) adı gələndə qəlbi həyəcana gəlib, ağlayırdı. Zəkəriyya (ə) Allaha ərz etdi: "Allahım nəyə görə pak Xəmsədən (ə) dördünün adını çəkəndə qəm-qüssədən azad oluram, amma Hüseynin (ə) adını yad edəndə qəlbim yanır və gözlərim yaşarır?" Allah-taala imam Hüseynin (ə) əhvalatını Zəkəriyyaya (ə) xəbər verdi və buyurdu: "Kaf, ha, yə, ayn, sad", beləliklə "Kaf" – Kərbəlaya işarə edir, "ha"– pak itrətin həlakətidir, "yə"– Hüseynin (ə) qatili məlun Yezidə işarədir, əyn – o Həzrətin (ə) atəşini, yəni, susuzluğunu bildirir və "sad" – o Həzrətin (ə) bütün bu müsibətlərə səbir etməsini bəyan edir." Zəkəriyya (ə) bu

[1] Bihar 44/308

ürək yandıran hadisəni eşidəndə üç gün məsciddən bayıra çıxmadı və xalqla danışmağı özünə qadağan etdi və ara vermədən nalə edib, ağlayırdı və deyirdi: "Allahım, yaratdığın ən yaxşı məxluqu övlad müsibətinə düçar edirsən? Allahım bu necə müsibət libasıdır ki, Əlinin (ə) və Fatimənin (ə) əyninə geyindirirsən?" Sonra ərz etdi: "Allahım, mənə elə bir övlad bəxş et ki, ona baxanda gözlərim işıqlansın və onun məhəbbətini qəlbimdə artır, sonra da məni onun müsibətinə düçar et, necə ki, öz Həbibini (s) övladının müsibətinə düçar edəcəksən." Allah-taala Zəkəriyaya (ə) Yahya peyğəmbəri (ə) bəxş eylədi və onu Yahyanın (ə) müsibətinə düçar etdi. Yahya ana bətnində 6 ay həml olunmuşdur, İmam Hüseynin (ə) həml olunması da 6 ay çəkmişdir.[1]

Burada şübhə yarana bilər ki, tarix kitablarında Zəkəriyya peyğəmbərin (ə) Yəhyadan (ə) qabaq dünyasını dəyişdiyi və Yəhyanın (ə) ondan sonra şəhadətə yetişdiyi qeyd olunubdur. Belə olan surətdə Zəkəriyya (ə) onun dərdinə necə düçar ola bilər? Cavabı budur ki, bu müsibət Peyğəmbərin (s) müsibətinə bənzəyir, belə ki, imam Hüseynin (ə) şəhadəti Peyğəmbərin (s) vəfatından bir müddət sonra olmuşdur və sirri də budur ki, onların həyatı ilə ölümü eynidir.

On altıncı məclis: İsa ibn Məryəmin (ə) məclisidir.

İsa ibn Məryəmin (ə) məclisində mərsiyə deyən şir idi və qulaq asanlar da həzrət İsa (ə) və həvariləri. Bu məclis onlar səyahət etdikləri zaman Kərbəladan keçəndə qurulmuşdur. Bir aslan qəzəblənmiş halda onların yolunu kəsir, həzrət İsa (ə) qabağa gəlib, buyurdu: "Ey şir, bizim yolumuzu niyə kəsmisən?" Şir dilə gəlib, dedi: "Xatəmul-ənbiya Muhəmmədin (s) və onun Vəlisinin (ə) övladının qatili olan Yezidə lənət göndərməsəniz sizi bu torpaqdan keçməyə qoymaram."[2]

---

[1] Bihar 44/223

[2] Bihar 44/244

Üçüncü növ məclis: O Həzrətin (ə) əzadarlığı üçün qurulan məclislər

Üçüncü növ məclislər: O Həzrətin (ə) viladətindən sonra və şəhatənidən əvvəl qurulan məclislərdir. Bunlar 30 məclisdir:

1-ci: Asimanların üzərində "Sidrətul-müntəhanın" yanında Allah-taala Cəbrayıla (ə) əmr etdi ki, hər qəbiləsi min-min (1000 000) mələkdən ibarət olan min qəbilə ilə Peyğəmbərin (s) xidmətinə nazil olsunlar və onu Hüseynin (ə) mübarək viladəti münasibəti ilə təbrik edib və şəhadəti ilə təziyə məclisi qursunlar.[1]

2-ci: Xanım Fatimənin (ə) hücrəsi.

3-cü: Peyğəmbərin (s) zövcələrinin hücrələrində.

4-cü: Peyğəmbərin (s) məscidində, burada mərsiyə deyən gah Cəbrayil (ə) idi, gah da Peyğəmbərin (s) özü, bəzi vaxtlar da yerin yağış mələyi, gah da müxtəlif surətlərə düşən 12 mələk o Həzrətə (ə) mərsiyə deyirdilər, bəzən də mələklərin hamısı məclis qurur-dular necə ki, rəvayətdə nəql olunur. Elə bir mələk qalmadı ki, gəlib Peyğəmbərə (s) övladı Hüseynə (ə) görə təziyə deməsin.[2]

Bu məclislərin sayı-hesabı yoxdur və hər nə qədər Peyğəmbə-rin (s) məclislərini hal cəhətindən, yaxud məkan və zaman baxı-mından saya-hesaba gətirmək istədim, mümkün olmadı. Çünki, nəql olunan rəvayətlərdən belə bir nəticəyə gəlirik ki, İmam Hü-seynin (ə) viladətindən, hətta ana bətnində həml dövründən bəri Peyğəmbərin (s) tamam məclisləri İmam Hüseynə (ə) mərsiyə demək məclisləri olmuşdur. Gecə və gündüz, məsciddə və evdə, bostanda, küçədə və bazarda, səfərdə və hazır olan vaxtda, yu-xuda və oyaqlıqda Peyğəmbər (s) Hüseynə (ə) məclis qururdu. Gah özü səhabələrə Hüseynin (ə) müsibətini bəyan edirdi, gah da mələklər deyirdilər və o Həzrət (s) qulaq asırdı, bəzən də öz xatirinə gətirirdi və "ah" çəkirdi. Gah da imam Hüseynin (ə) halını öz təsəvvürünə gətirirdi və belə deyirdi: "Sanki görürəm Hüseyn (ə) kömək istəyir, ancaq heç kəs onun köməyinə gəlmir". Gah da

[1] Bihar 43/249; Kəmaluddin-1/ 283
[2] Bihar 44/225-247

buyururdu: "Sanki görürəm əsirləri dəvələrə mindirirlər." Bəzən də buyururdu: "Sanki görürəm onun başını kəsib Yezidə hədiyyə aparırlar, kim o başa baxıb fərəhlənərsə Allah-taala onun dili ilə qəlbi arasında müxalifət yaradar." Gah da buyururdu: "Səbir et ya Əba Əbdillah" Gah da o Həzrətin (ə) qatilini görürdü və halı dəyişirdi. Bəzi vaxtlar fəqət Hüseynə (ə) baxmaqla ağlayırdı, bəzən də onu əlləri ilə qaldırardı, ağlıyardı, gah da onu öpərdi, ağlıyardı, hər dəfə Hüseynin (ə) yanına gələndə ağlıyardı və hər dəfə ona təzə paltar geyindərəndə, ağlıyardı. Həmçinin, digər hallarda da ağlayardı.

Bu məclislərin təfsilatı budur ki, Peyğəmbər (s) Xanım Fatiməyə (ə) Hüseynin (ə) viladəti barədə müjdə verəndə, həm də onun şəhadəti barədə xəbər verdi və ağladı. İmam Hüseyn (ə) dünyaya gələndə onu ağ yun parçaya büküb Peyğəmbərin (s) yanına gətirdilər, o Həzrət (s) onun sağ qulağına azan, sol qulağına da iqamə oxudu. Sonra Hüseyni (ə) qucağına alıb, ona baxırdı, ağlayırdı və buyururdu: "Hüseyn (ə) hələ sənin xəbərlərin gələcək, Allah sənin qatillərinə lənət eləsin." Viladətindən bir həftə keçmişdir ki, onun üçün bir qoyun əqiqə kəsdi, Hüseynin (ə) başını qırxdı və saçının ağırlığında gümüş sədəqə payladı, başına ətir çəkdi və qucağına alıb ağladı və buyurdu: "Ya Əba Əbdillah, mənim üçün çox ağırdı." Sonra buyururdu: "Allahım İbrahim (ə) öz zürriyəsində istədiyini, mən də Hüseyndə (ə) istəyirəm (yəni, İmaməti). Allahım mən onları sevirəm və onları sevənləri də sevirəm."[1]

Viladətindən bir il sonra o Həzrətə (ə) qurulan əzadarlıq məclisləri

Viladətindən bir il sonra mələklər əzadarlıq etmək üçün o Həzrətə (s) nazil olmağa başladılar. Birinci, müxtəlif surətlərdə on iki mələk nazil oldu, onlardan biri Bəni-Adəm surətində idi. On-

[1] Bihar 44/250-251; Əmaliye Tusi1/377

lar öz qanadlarını açıb, əzadarlıq edirdilər, sonra yağış mələyi gəlib əzadarlıq etdi. Sonra isə tədricən bütün mələklər nazil oldular və elə bir mələk qalmadı ki, enib Hüseynə (ə) əza saxlamasın və mələklərin hamısı o Həzrətə (ə) əza saxlamaq savabına yetişdilər.

Mələklər Peyğəmbər (s) üçün Kərbəla torpağından gətirirdilər. Hamıdan əvvəl Peyğəmbər (s) üçün o şərəfli türbətdən gətirən mələk Cəbrayıl (ə) olmuşdur. Həzrət Əmir-əl möminindən (ə) nəql olunur ki: "Günlərin birində Peyğəmbərin (s) xidmətinə daxil oldum, gördüm o Həzrət (s) ağlayır. Ərz etdim: "Atam, anam sənə fəda olsun ey Allahın Rəsulu (s) niyə ağlayırsan, olmaya kimsə sənin könlünü sındırıb?" Buyurdu: "Xeyr, ancaq Cəbrayıl (ə) mənə xəbər verdi ki, övladım Hüseyni (ə) öldürəcəklər və onun dəfn olunduğu torpaqdan mənim üçün gətirdi. Bu torpağı iylədim, biixtiyar məni ağlamaq tutdu. Həmin o torpağın adı Kərbəladır."

İmam Hüseynin (ə) viladətindən iki il sonra Peyğəmbərin (s) ona ağlaması

İmam Hüseynin (ə) viladətindən iki il keçdikdən sonra Peyğəmbər (s) səfərə çıxmışdı və günlərin biri səfər əsnasında dayanıb, buyurdu: "İnnə lillah və innə ileyhi raciun" (yəni, "Biz Allah üçün yaranmışıq və Ona tərəf qayıdırıq" – və ağladı. Bunun səbəbini soruşanda, dedi: "Cəbrayıl (ə) mənə Fəratın kənarında yerləşən Kərbəla adlanan bir məkan barəsində xəbər verdi. Övladım Hüseyn (ə) orada şəhid olacaqdır. Sanki, onun şəhadət məhəllinə və dəfn olunduğu yerə baxıram və dəvələrə minən əsirləri görürəm. Övladım Hüseynin (ə) başını məlun Yezid üçün hədiyyə aparırlar. Allaha and olsun ki, kim o başa baxıb şad olsa Allah-taala onun dili ilə qəlbi arasında müxalifət yaradar və onu şiddətli əzaba düçar edər."

Peyğəmbər (s) səfərdən qəmli halda qayıdır, Həsən (ə) və Hüseyni (ə) də qucağına alıb minbərə qalxır. Xütbə söyləyib, moizə edəndən sonra sağ əlini Həsənin (ə) və sol əlini Hüseynin (ə) başına qoyub, buyurdu: "Allahım, Muhəmməd (s) Sənin bəndən və

Peyğəmbərindir və bu iki nəfər mənim əhli- beytimin (ə) yaxşıları, mənim tayfamın ən xeyirliləridirlər və mənim ən yaxşı övladlarımdırlar, bunları özümdən sonra ümmətimin arasında qoyacağam. Həqiqətən Cəbrayıl (ə) mənə xəbər verdi ki, bu uşağı zəhərlə öldürəcəklər və o birini qılıncla şəhadətə yetiricəklər. Allahım şəhadəti onun üçün mübarək et və onu şəhidlərin ağası qərar ver. Onun qatillərinə, onu xar edənlərə bərəkət vermə və onları cəhənnəmin dibinə at."

Ravi hədisin[1] davamında deyir: "Məsciddə ağlamaq və nalə sədaları ucaldı. Peyğəmbər (s) buyurdu: "Ey insanlar, ona ağlayırsınız, amma kömək etmirsiniz? Allahım Sən Özün ona kömək ol." Sonra buyurdu: "Ey insanlar, mən sizin aranızda iki qiymətli və ağır əmanət qoyuram, biri Allahın kitabı və digəri qəlbimin meyvəsi olan Əhli-beytim (itrətimdir) (ə) və bu ikisi Kövsər suyunun yanında mənə tərəf gəlməyincə biri-birindən ayrılmayacaqlar. Agah olun, sizdən fəqət Allahın mənə əmr etdiyini istəyirəm, sizdən onlara qarşı məhəbbət bəsləməyinizi istəyirəm. Beləliklə, qorxun o gündən ki, Əhli-beytimə (ə) əziyyət və zülm etmiş halda mənim yanıma gələsiniz.

Bilin ki, qiyamət günü bu ümmətdən mənim yanıma üç bayraq gələcəkdir. Birinci qara bayraqdır ki, mələklər onu görəndə dəhşətə gəlib, nalə edəcəklər. Bunlar gəlib mənim yanımda dayanacaqlar və mən onlardan soruşacam: "Siz kimsiniz?" Deyəcəklər: "Biz ərəbin tovhid əhlindənik." Ancaq mənim adımı unudacaqlar, mən onlara deyəcəm: "Mənəm Əhməd, ərəbin və əcəmin Peyğəmbəri (s)." Deyəcəklər: "Biz sənin ümmətindənik." Mən deyəcəm: "Məndən sonra mənim Əhli-beytim (ə) və Allahın kitabı ilə necə rəftar etdiniz?" Deyəcəklər: "Allahın kitabını zay etdik və ona əməl etmədik, amma Əhli-beytini (ə) yer üzündən silib, məhv etmək istədik." Bu sözləri eşidəndə onlardan üz çevirəcəm və üzü qara və ciyərləri təşnəlikdən yanan halda hovuzdan geri dönərlər.

Sonra əvvəlkindən də qara rəngli bayraq altında camaat mənim yanıma gələr, mən onlara deyərəm: "Siz Allahın kitabı və

[1] Hədisin davamı həzrət Əmir-əl-möminindən (ə) nəql olunur.

mənim Əhli-beytim (ə) ilə necə rəftar etdiniz?" Deyərlər: "Allahın kitabına müxalif olduq və əhli-beytə (ə) əziyyət verərək, onları pərakəndə etdik." Deyərəm: "Məndən uzaq olun." Beləliklə üzü qara və təşnə halda geri qayıdarlar.

Sonra nurani bayraq altında, simalarından nur saçan bir camaat mənim yanıma daxil olar. Mən deyərəm: "Siz kimsiniz?" Deyərlər: "Biz Muhəmməd Mustafa (s) və haqq əhlinin (ə) ümmətindənik, tovhid və təqva əhliyik. Biz Allahın kitabına əməl etdik və Peyğəmbərin (s) Əhli-beytini (ə) sevdik, onlara kömək etdik və onların düşmənlərinə düşmən olduq." Mən onlara deyərəm: "Müjdə olsun sizlərə ki, mən sizin Peyğəmbərinizəm (s), siz həqiqətən də dünyada bu cür olmusunuz." Beləliklə, onlara Kövsər hovuzundan su verərəm, onlar sirab olub, şadlıq içində behiştə daxil olarlar və orada əbədi qalarlar."[1]

Bundan sonra, Hüseynin (ə) tamam halətləri Peyğəmbərin (s) hüznünə və ağlamağına səbəb olurdu. Hər dəfə Hüseyni (ə) mübarək çiyninə alanda və başını onun çiyninə söykəyəndə, onun nizəyə taxılmış kəsik başını yada salıb, ağlayırdı.

O Həzrət (s) səhabələrinə buyururdu: "Sanki, əsirlərin dəvələrə mindiyini və övladım Hüseynin (ə) başını məlun Yezidə hədiyyə apardıqlarını görürəm."

Peyğəmbər (s) Hüseyni (ə) qucağında oturdardı və onun üzünə baxıb, ağlayardı və buyurardı: "Ey ibn Abbas, sanki görürəm onun saqqalını al qanına bulayıblar və nə qədər kömək istəsə də heç kəs ona yardım etmir."

Bayram günü Hüseyn (ə) təzə libas geyinəndə Peyğəmbər (s) ona baxıb, ağlayardı. Sanki onu çılpaq halda torpaq üstündə qoyduqlarını xatırlayırdı. Hüseyn (ə) cəddi, atası, anası və qardaşı ilə birlikdə süfrə başında oturub, yemək yeyəndə Peyğəmbər (s) əvvəl şad olurdu, sonra ağlayırdı, sanki onun və uşaqlarının Kərbəlada təşnəlikdən gözlərinə qaranlıq çökdüyünü, balaca qızların səhraya qaçdıqlarını, bəzilərini öldürdüklərini və bəzilərini əsir götürdüklərini yad edirdi.

[1] Bihar 44/247-249; Luhuf 7-9

Hüseynin (ə) boğazından öpərdi və ağlayardı, bəzən Əmir-əl-mömininə (ə) buyurardı ki, onu əlləri ilə saxlasın, sonra Hüseynin (ə) bədəninin hər yerindən öpərdi və ağlayardı. Həzrət Əli (ə) soruşardı: "Ey Allahın Rəsulu (s) niyə ağlayırsan." Buyurardı : "Qılıncların yerini öpürəm." Gah da dodaqlarından və dişlərindən öpərdi, sanki İbn ziyadın məclisində mübarək dodaqlarına vurulan cubuğu xatırlayırdı. Zeyd ibn Ərqəm o zaman İbn Ziyadın məclisində idi və onun bu ləyaqətsiz hərəkətini görəndə fəryad etdi: "Cubuğunu bu mübarək dodaqlardan uzaq tut, and olsun Allaha Peyğəmbərin (s) öz dodaqlarını bu mübarək dodaqların üzərinə qoyduğunu və öpdüyünü görmüşəm."[1]

Bir gün Peyğəmbər (ə) məsciddə oturmuşdur bir dəstə Qureyş camaatı məscidə daxil oldular və İbn Səd məlun da onlarla birlikdə idi. Peyğəmbər (s) İbn Sədi görəndə rəngi saraldı və halı dəyişdi. Səhabələr soruşdular: "Sənə nə oldu ey Allahın Rəsulu (s)?" Buyurdu: "Məndən sonra Əhli-beytimin (ə) başına gələn müsibətlər gözümün önünə gəldi; necə onları öldürəcəklər, vuracaqlar, lənətləyəcəklər, təhqir və pərişan edəcəklər, nizə ucunda olan birinci kəsik baş Hüseynimin (ə) başı olacaqdır.

Peyğəmbər (s) son anlarında Hüseyni (ə) bağrına basdı

Həyatının tamam anlarında; gecə və gündüz, səfərdə və hüzurda Peyğəmbərin (s) halı belə idi, hətta ömrünün son dəqiqələrində Hüseyni (ə) sinəsinə sıxdı, o Həzrətin (ə) təri Hüseynin (ə) üstünə axan halda buyurdu: "Mənim Yezidlə nə işim var. Allah Yezidən bərəkətini kəssin və ona lənət eləsin." Peyğəmbər (s) bunu dedi, huşdan getdi və yenidən özünə gələndə Hüseyni (ə) öpürdü, ağlayırdı və buyururdu: "Allah dərgahında sənin qatillərin ilə mənim haqq-hesabım olacaqdır."[2]

---

[1] Bihar 45/116; İrşadi Mufid 2/119

[2] Bihar 44/266

Bu məclislərin hamısı Mədinədə olmuşdur.

5-ci məclis: Peyğəmbərin (s) bu məclisi Kərbəlada olmuşdur. O Həzrət (s) buyurur: "Merac gecəsi Kərbəlaya çatanda Hüseynin (ə) və onun səhabələrinin faciəli qətlini mənə göstərdilər."[1]

6-cı məclis: Peyğəmbərin (s) bu məclisi həm Mədinədə, həm də Kərbəlada olmuşdur, yəni torpaqlar o Həzrət (s) üçün endirilən zaman Hüseynin (ə) qətlgahını gördü və onun torpağından götürdü. Ola bilər Ümmü Sələməyə verdiyi həmin torpaq idi və onu verəndə buyurmuşdur: "Bu torpağı bir yerdə saxla və elə ki, gördün qana boyanıb, bil ki, Hüseynimi (ə) öldürdülər." İmam Hüseynin (ə) özü də bu torpaqdan Ümmü Sələməyə saxlamaq üçün vermişdir, bu barədə nəql olunacaq inşallah.

7-ci məclis: Bu Əmirəl-möminininin (ə) Mədinədə, Kufədə və qeyri yerlədə qurduğu məclislər idi. O Həzrətin (ə) özü imam Hüseyn (ə) üçün minbərdən, məsciddə və bir çox yerlərdə mərsiyə deyirdi, ağlayırdı və nəzm-nəsr şəklində müsibətini zikr edirdi. O cümlədən, başı qılınc zərbəsindən mehrabda yarıldığı zaman buyurdu: "Ey Əba Əbdillah sən bu ümmətin şəhidi olacaqsan."[2] Beləliklə Əmir-əl-möminin (ə) bu məclislərin mərsiyəxanı olmuş və qulaq asanları da Hüseyn (ə) və Kufə əhli olmuşlar. O Həzrətin (ə) digər bir neçə məclisi də olmuşdur və burada özü mərsiyə deyirdi qulaq asanı da qızı Zeynəb (ə) idi. Bu İmamın (ə) ömrünün son anlarında, yatağına düşdüyü zaman olmuşdur. O Həzrət (ə) xanım Zeynəbə (ə) xəbər verdi ki: "Sanki görürəm səni və əhli-beyt qadınlarını bu ölkədə əsir götürüblər və qorxursunuz ki, camaat sizləri kənizliyə götürsünlər.[3]

[1] Bihar 44/239; İrşadi Mufid 2/133
[2] Bihar 42/292
[3] Bihar 45/183

Əmir əl-möminin (ə) Fərat çayının kənarında Hüseynə (ə) ağladı

O Həzrətin (ə) məclisləri Mədinədə də qurulmuşdur, belə ki, hər dəfə Hüseyni (ə) görəndə ağlayırdı və deyirdi: "Ey hər möminin ağlamasının səbəbi." Ərz edirdi: "Mənəm ey ata?" Buyururdu: "Bəli."

8-ci məclis: Əmirəl-möminin (ə) Kərbəlada bir neçə məclisi olmuşdur:

Birinci: Mucahid ibn Abbasdan nəql edir ki, Əmir-əl-möminin (ə) Siffeyn müharibəsinə gedəndə mən onun qoşunununda idim, Fərat çayının kənarına, Neynəva adlı yerə çatanda. Həzrət Əli (ə) uca səslə nida etdi: "Ey İbn Abbas bu məkanı tanıyırsan?" Mən ərz etdim: "Xeyr, tanımıram." Buyurdu: "Mən buranı tanıdığım kimi, sən də buranı tanısaydın, buradan ağlamamış ötüb, keçməzdim" Bunu dedi və hönkürtü ilə elə ağladı ki, saqqalı nəm oldu və göz yaşları sinəsinə qədər axdı. Biz də ona baxıb, ağladıq. Ağlayırdı və buyururdu: "Şeytanın qoşunu olan ali Əbu Süfyan və ali Hərb ilə mənim aramda nələr olmadı, ya Əba Əbdillah (ə) səbir et ki, onlar tərəfindən atanın başına gələnlər, sənin də başına gələcəkdir." Bu vaxt Həzrət (ə) su istədi, dəstəmaz alıb, bir qədər namaz qıldı, sonra həmin sözləri buyurdu və yuxuya gedib bir az yatdı. Oyananda, buyurdu: "Ey İbn Abbas indi yuxuda gördüklərimi sənə xəbər verimmi?" Ərz etdim: "İnşallah xeyirdi, buyurun." Buyurdu: "Sanki, ağ bayraqlı kişilərin səmadan yerə endiklərini gördüm, onların bellərinə parlayan qılınclar bağlanmışdır. Onlar bu torpaq ətrafında xətt çəkdilər, sonra bu xurma ağaclarının budaqlarının yerə toxunduğunu və qana qəltan olduqlarını gördüm. Sanki, qəlbimin meyvəsi, gözümün nuru Hüseynin (ə) bu qanda qərq olduğunu gördüm, nə qədər kömək diləyirdisə ona yardım etmədilər. Həmin səmadan enən kişilər nida etdirlər: "Ey Peyğəmbərin (s) ailəsi səbir edin, siz şərr insanların əlləri ilə öldürüləcəksiniz. Behişt sənə müştaqdır ya Əba Əbdillah." Sonra onlar mənə tərəf üz tutub, baş sağlığı ərz etdilər və dedilər: "Ya Əbəl-Həsən sənə

müjdələr olsun! Allah-taala qiyamət günü Hüseynlə (ə) sənin gözlərini işıqlandıracaq." Və bu vaxt yuxudan oyandım, Allaha and olsun Allahın Rəsulu (s) mənə xəbər vermişdir ki, mən bu torpağa gələcəm və oğlum Hüseyn (ə) mənim və Fatimə (ə) övladlarından on yeddi nəfər ilə burada dəfn olunacaqlar. Bu torpaq asimanda Kərb və bəla adı ilə tanınmışdır, Hərəmeynin torpağı və Beytul-müqəddəsin qübbəsi kimi məşhurdur." Sonra buyurdu: "Ey İbn Abbas, bax gör bu ətrafda ahu peyininin dənələrini tapa bilirsənmi? Allaha and olsun, onlar zəfəranın rəngi kimi saralmış olmalıdırlar." İbn Abbas deyir: "Mən biyabanı gəzdim və onları tapdım, fəryad etdim: "Ya Əmir-əl-möminin (ə) vəsf etdiyiniz bunlardır." Buyurdu: "Allah və Onun Rəsulu (s) doğru buyurmuşlar." Bunu deyib, həmin səmtə tərəf qaçdı, onları götürüb, iylədi və buyurdu: "Eyni ilə özləridir, ey İbn Abbas bunların əhvalatını bilirsənmi? İsa (ə) öz həvariləri ilə birlikdə bu yerdən keçəndə burada bir neçə ahunun toplaşıb, ağladıqlarını gördü. İsa (ə) oturub ağladı və həvariləri də onunla birgə ağladılar. Sonra onlar soruşdular: "Ey Allahın Ruhu (ə) ağlamağınızın səbəbi nədir?" Buyurdu: "Bura Kərbəla torpağıdır, burada Allahın Peyğəmbəri Əhmədin (s) və anama bənzəyən Bətulun (ə) övladı qətlə yetiriləcək və dəfn olunacaqdır. Buna görə, bu torpağın ətri müşkdən daha ətirlidir. Belə halət tamam Peyğəmbərlərin (ə) və onların övladlarının təbiətinə aiddir. Bu ahular mənimlə söhbət etdilər və dedilər ki: "Biz o Həzrətin (ə) şövqündən burada qalmışıq və özümüzü əmniyyətdə hiss edirik." Bu vaxt Həzrət İsa (ə) əlini uzadıb o peyin dənələrini götürdü, iylədi və buyurdu: "Bunların xoş ətri bu səhranın otlarının xoş ətrindəndir. Allahım bunları saxla ki, Hüseynin (ə) atası bunları iyləsin və onun üçün təsliyyət olsun." Bunlar uzun muddət burada qaldıqlarına görə rəngləri saralıbdlr. Bu yerin adı Kərb və bəladır. Bu vaxt Əmir əl-möninin (ə) uca səslə buyurdu: "Ey İsa ibn Məryəmin (ə) Allahı onun qatillərini və onlara kömək edənləri mübarək etmə."

Həzrət (ə) o qədər ağladı ki, nəhayət üzü üstə yerə yıxılıb qəşş etdi. Huşa gələndə peyin dənələrindən bir neçəsini paltarının küncünə bükdü və mənə buyurdu: "Sən də bunlardan götürüb saxla, elə ki, gördün ondan qan gəlir, bil ki, Hüseynim (ə) şəhid oldu."

İbn Abbas deyir: "Onları götürüb, bükdüm və çox qiymətli əmanət kimi saxladım və ətəyimdən heç vaxt açmadım. Bir gün yatmışdım, birdən yuxudan oyandım və gördüm ki, ətəyim qanla dolub və ondan qan damır. Oturub, ağladım və öz-özümə dedim: "Yəqin Hüseyni (ə) öldürüblər. Əlinin (ə) mənə xəbər verdikləri həqiqətdir." Bayıra çıxdım, gördüm sanki Mədinə şəhərini nazik bulud örtüb, sonra günəş zahir oldu, elə bil o tutulmuşdur. Sanki, şəhərin divarlarına təzə qan tökmüşdülər. Evin küncündən belə məzmunda gələn mərsiyə səsini eşitdim: "Ey Ali Peyğəmbər (s) səbir edin ki, Bətuli-Zəhranın (ə) övladını öldürdülər" Ruhul-əmin (ə) nazil olub bu müsibətə uca səslə ağlayırdı, mən də ağladım və bu tarixi qeyd etdim, Aşura günü idi. Bir müddət keçəndən sonra bu əhvalatı o Həzrətlə (ə) birlikdə olanlar üçün danışdım. Onlar da dedilər: "Allaha and olsun biz də mərəkədə bu növhə səsini eşitdik, ancaq bilmədik kim oxuyur, güman etdik ki, Xızr (ə) olar.[1]

İkinci: Hərsəmə ibn Muslim nəql edir ki: "Həzrət Əmir əl-möminin (ə) ilə Siffeyndən qayıdırdıq, Kərbəlaya çatanda orada mənzil qurduq. Sübh namazını qıldıqdan sonra bir qədər o torpaqdan götürdük, iylədi və buyurdu: "Əcəb torpaqsan, bir dəstə insan səndən qalxacaq və sorğu-sualsız behiştə daxil olacaqdır." Hərsəmə bunu eşitdi və zövcəsinin yanına qayıtdı, onun zövcəsi şiə idi. Hərsəmə dedi ki, sənin mövlan belə buyurdu. Zövcəsi dedi: "Əmir əl-möminin (ə) nə buyurubsa həqiqətdir."

Sonra, Həzrət Seyyidi şühəda Kərbəlaya varid olanda Hərsəmə İbn Səd məlunun ləşkərində idi. O , Əmirəl-möminin (ə) sözlərini yadına saldı. Hərsəmə dəvəyə suvar olub, Həzrətin (ə) yanına gəldi, salam verdi və Əmirəl-möminin (ə) hədisini nəql etdi. İmam Hüseyn (ə) buyurdu: "İndi sənin fikrin nədir, bizimləsən ya bizə qarşı?" Dedi: "Nə sizinləyəm, nə də sizə qarşı. Ku-

[1] Bihar 44/252-254; Əmaliye Səduq 87-ci məclis səh.478-480

fədə kiçik uşaqlarımı qoymuşam, İbn Ziyaddan onlara xətər gələcəyindən qorxuram." Həzrət (ə) buyurdu: "Onda elə bir yerə çıx get ki, nə bizi görəsən, nə də səsimizi eşidəsən. Çünki, Allaha and olsun bu gün bizim yardım sədamızı eşidən və bizə kömək etməyən şəxs üzü üstə cəhənnəmə daxil olacaqdır."[1]

Üçüncü: İmam Muhəmməd Baqirdən (ə) nəql olunur ki, Həzrət Əmir-əl-möminin (ə) iki nəfər səhabəsi ilə Kərbələdan keçəndə gözləri yaşardı və buyurdu: "Bura onların dəvələrinin yatan, yüklərinin boşaldılan və qanlarının tökülən yeridir. Ey torpaq xoş halına ki, dostların qanı sənin üzərinə töküləcək."[2]

9-cu məclis: Bunlar Həzrəti Zəhranın (ə) Mədinədə keçirdiyi məclislərdir və sayının çoxluğundan hesaba gəlmir. Hər dəfə Kərbəla hadisəsi barədə eşidəndə ağlamaq və növhə məclisi bərpa olunurdu.

10-cu məclis: Ummu Əymənin Mədinədə qurduğu məclislərdir. Bu məclislərdə mərsiyə deyən Ummu Əymən və qulaq asan Xanım Zeynəb (ə) idi. Həmin məclislər Xanım Zeynəb (ə) Kərbəla hadisəsini təfsilatlı şəkildə Ummu Əymənə danışdığı vaxt qurulmuşdur və bu hədisi Xanım Zeynəb (ə) qətlgahda İmam Zeynulabidinə (ə) təsəlli tapsın deyə nəql etmişdir.

İmam Həsənin (ə) qardaşı Hüseynin (ə) əzasında mərsiyə deməsi

11-ci məclis: İmam Həsənin (ə) məclisində mərsiyə deyən özü qulaq asanlar isə İmam Hüseyn (ə) və əhli-beyt idi. Məclis o Həzrətə (ə) zəhər verilən zaman qurulmuşdur və bu zəhərin təsiri bədənin hər yerində zahir olmuşdur. İmam Hüseyn (ə) qardaşının başı üzərinə gəldi, onu qucaqlayıb, ağladı. İmam Həsən (ə) soruşdu: "Niyə ağlayırsan ya Əba Əbdillah (ə)" Buyurdu: "Sənin halına ağlayıram qardaş." İmam Həsən (ə) buyurdu: "Heç bir gün sənin günün kimi deyil, ey Hüseyn (ə). Özlərini müsəlman və

[1] Bihar 44/255-256; Əmaliye Səduq 28/117
[2] Bihar 44/258

cəddimizin ümmətindən bilən 30 000 nəfər sənin üzərinə hücum çəkəcəklər, onlar səni öldürmək, təhqir etmək, əyalını və uşaqlarını əsir götürmək üçün bir yerə toplanacaqlar. Bu hadisənin dəhşətindən səmadan qan və kül yağacaq, hər şey sənin müsibətinə ağlayacaq, hətta səhranın vəhşi heyvanları və dəryanın balıqları.[1]

12-ci məclis: Həzrət Peyğəmbərin (s) öz qəbrinin yanında qurduğu məclisi idi. Bu məclis Mədinənin valisi Vəlid Həzrət Seyyidi şühədadan (ə) məlun Yezid üçün beyət tələb edəndə olmuşdur. İmam Hüseyn (ə) gecələrin birində cəddi Peyğəmbərin (s) hərəminə getdi, salam verdi və ərz etdi: "Ey Allahın Rəsulu (s) mənəm Hüseyn (ə) qızın Fatimənin (ə) oğlu, sənin övladının övladı ki, onu ümmətinin arasında əmanət qoymuşdun. Şahid ol ey Allahın nəbisi (s) onlar məni tərk etdilər, haqqımı zay etdilər və məni qorumadılar. Mən onlardan sənə şikayət edirəm." Sonra namaz qılmağa başladı.

Vəlid adam göndərir ki, görsün İmam Hüseyn (ə) Mədinədən çıxıb ya yox. Ona xəbər verdilər ki, Hüseyn (ə) evində yoxdur. Vəlid dedi: "Şükr Allaha ki, Hüseyn (ə) şəhərdən çıxdı və mən də onun qanını axıtmadım."

İmam Hüseyn (ə) sübh çağı hərəmdən yenidən evinə qayıtdı. İkinci gecə yenə Cəddinin zərihinin yanına getdi, neçə rikət namaz qıldı və ərz etdi: "Allahım bu sənin Peyğəmbərinin (s) qəbridir və mən Sənin Peyğəmbərinin (s) qızının oğluyam. Artıq mən elə bir iş ilə qarşılaşmışam ki, Sən bundan agahsan. Mən mərufu sevirəm və munkəri inkar edirəm. Allahım Səni and verirəm bu qəbrin sahibinin haqqına Sənin razılığın və sənin Peyğəmbərinin (s) razılığı olan şeyi mənə nəsib elə." O Həzrət (ə) bir müddət ağladı və nəhayət sübhə yaxın başını qəbrin üzərinə qoyub yuxuya getdi. Yuxuda gördü ki, Peyğəmbər (s) sayı-hesabı olmayan mələklərlə onun yanına gəldilər. Peyğəmbər (s) onu sinəsinə sıxıb, alnından öpdü və buyurdu: "Ey mənim həbibim. Sanki görürəm tezliklə sən qanına qəltan olacaqsan və sənin Kərbəla torpağında təşnə halda başını kəsəcəklər. Sənə su verməyəcəklər və bu sifətlə də məndən şəfaət almaq ümidi edirlər.

[1] Bihar 45/ 218; Əmaliye Səduq 24/101

Ey mənim həbibim, Allah mənim şəfaətimi onlara nəsib etməsin. Ey Hüseyn (ə) sənin atan, anan və qardaşın mənim yanıma gəliblər və hamısı səni görmək şövqündədirlər. Sənin üçün behiştdə elə bir məqam var ki, ona yalnız şəhadətlə nail ola bilərsən." Bu vaxt İmam Hüseyn (ə) Peyğəmbərə (s) baxıb, buyurdu: "Babacan mənim dünyada heç bir hacətim yoxdur, məni özünlə apar." Buyurdu: "Olmaz, gərək geri qayıdıb, şəhadət dərəcəsinə ucalasan və onun əzəmətli savabına nail olasan ki, qiyamət günü atanla, qardaşınla və əmilərinlə həşr olub birlikdə behiştə daxil olasınız." Bu vaxt İmam (ə) yuxudan oyandı və yuxusunu Əhli-beytinə və qohumlarla danışdı, onlar da bu hekayəti eşidəndə ah-naləyə, gəlib ağladılar. O gün aləmin şərqində və qərbində elə bir qövm yox idi ki, qəmi, kədəri və ağlamağı əhli-beytdən daha çox olsun."[1]

Mədinənin kənarında Ümmü Sələmənin mərsiyə deməsi

13-cü məclis: Ümmü Sələmənin Mədinənin kənarında qurduğu məclisdir. İmam Hüseyn (ə) Mədinədən çıxmaq qərarına gələndə Ümmü Sələmə o Həzrətin (ə) xidmətinə gəlib, dedi: "Ey övladım İraqa getməyinlə məni hüznlü etmə, çünki Cəddin Peyğəmbərdən (s) belə buyurduğunu eşitdim: "Oğlum Hüseyn (ə) İraqda, Kərbəla adlı yerdə qətlə yetiriləcək." İmam (ə) buyurdu: "Ey ana mən də bu xəbəri bilirəm, əlbəttə məni öldürəcəklər və əslən bunun bir çarəsi yoxdur və öz şəhadət günümü də bilirəm. Öz qatilimi, dəfn olunduğum yeri, Əhli-beytimdən və səhabələrimdən kimlərin şəhid olduqlarını da tanıyıram. İstəyirsən sənə o yeri göstərim." İmam (ə) barmağı ilə işarə etməklə, onun üçün məkanları endirdilər və Kərbəla zahir oldu. İmam dəfn olunduğu, xeymələrin qurulduğu və qətlə yetirildiyi yeri göstərdi. Ümmü Sələmə bu mənzərələri görəndə şiddətlə ağladı və Allahın əmrinə təslim oldu. İmam (ə) buyurdu: "Ey ana Allah-taala məni şəhid, əhli-əyalımı və uşaqlarımı əsir və pərişan görmək istəyir, övlad-

[1] Bihar 44/327; Məqtəli Xarezmi 1/186

larımı öldürülmüş, məzlum və kömək istədikləri halda bir kəsin onlara yaxın durmadığını görmək istəyir."

Başqa bir rəvayətdə gəlir ki, Ümmü Sələmə ərz etdi: "Ey Hüseyn (ə) Cəddin mənə bir qədər türbət ata etmişdir, onu şüşədə saxlamışam." İmam (ə) buyurdu: "Allaha and olsun, əlbəttə mən öldürüləcəm, hərçənd İraqa getməsəm də." Sonra İmam (ə) bir qədər torpağı Ümmü Sələməyə verib, buyurdu: "Bunu da şüşəyə qoy elə ki, gördün Cəddimin verdiyi türbət kimi bu da qana çevrildi bil ki, məni şəhid etdilər."[1]

14-cü məclis: O Həzrətin (ə) bibilərinin Mədinənin kənarında qurduqları məclisdir. Belə ki, onlar Mədinənin kənarında Hüseynin (ə) xidmətinə yetişdilər və növhə, mərsiyə deməklə məşğul oldular. İmam (ə) buyurdu: "Sizi and verirəm Allaha bu sirri faş etməyin ki, Allaha qarşı günahdır." Dedilər: "Bəs növhəni və ağlamağı hansı vaxta saxlayaq, bu gün elə bir gündür ki, sanki Allahın Peyğəmbəri (s), Əli (ə), Fatimə (ə), Rüqəyyə, Ümmü Gülsüm və Zeynəb dünyadan köçüblər. Səni Allaha and veririk özünü ölümün caynaqlarına atma." Bibilərindən biri dedi ki: "Mən cinlərin sənə növhə dediklərini eşidirdim."[2]

15-ci məclis: Bu məclis İmam Hüseyn (ə) Mədinədən cıxan zaman qurulmuşdur. Bir neçə dəstə mələklər, hurilərlə birlikdə O Həzrətin (ə) yanına gəlib, salam verdilər və dedilər: "Ey babasından, atasından və qardaşından sonra məxluqat üzərində Allahın hüccəti (ə) həqiqətən Allah-taala bizi bir neçə yerdə sənin Cəddinə kömək etməyə göndərmişdir, indi də sənin köməyinə gəlmişik." Həzrət (ə) buyurdu: "Bizim sizinlə görüş yerimiz mənim şəhadət məkanımdır, mən ora çatanda yanıma gələrsiniz." Ərz etdilər: "Ey Allahın hüccəti (ə) nə istəyirsən bizə əmr et, sənin hər bir əmrinə itaət edirik, əgər düşməndən qorxursansa biz sənin ləşkərinin arasında olacağıq." Buyurdu: "Mən öz dəfn olunduğum yerə çatanadək onların mənə tərəf nə yolu var, nə də əziyyəti."[3]

---

[1] Bihar 44/331; Muntəxabi Tureyhi 2/125
[2] Bihar 45/88; Kamiluz-ziyarat 29/ səh.96
[3] Bihar 44/330; Luhuf səh.28

16-cı məclis: Bu da İmam Hüseynin (ə) Mədinədən çıxandan sonra qurduğu məclisdir. Bir neçə müsəlman cinlərdən o Həzrətin (ə) xidmətinə gəlib, dedilər: "Ey ağa, biz sənin şiələrindən və yavərlərindənik, hər nəyi istəyirsən bizə əmr et. Əgər buyursan sənin düşmənlərinin hamısını məhv edərik." Həzrət (ə) buyurdu: "Allah sizlərə xeyir mükafat versin, məgər Cəddimə nazil olan Quranı oxumamısınız ki, buyurur: "Harada olsanız, hətta ucaldılmış hasarlar və qəsrlərin içində olsanız belə, ölüm sizi haqlayacaqdır." (Nisa/78) İmam (ə) həmçinin buyurdu: "Əgər öz evlərinizdə olsanız belə, əlbəttə barələrində öldürülmək qərara alınmış kəslər özlərinin (döyüş meydanındakı) dəfn olunduqları yerə tərəf hərəkət edəcəklər." (Ali-İmran/154) Əgər mən burada qalsam bu bədbəxt xalq nə ilə imtahan olunacaqdır və Kərbəlada mənim qəbrimdə kimi dəfn edəcəklər? Bir halda ki, Allah-taala o yeri mənim üçün "Dəhvul-ərz" günü təyin etmişdir, dünya və axirətdə mənim şiələrim üçün əmniyyət yeri qərar vermişdir. Ancaq siz şənbə günü Aşurada mənim yanıma gəlin ki, həmin günün axırında məni şəhid edəcəklər və mənim başımı kəsib Yezid üçün hədiyyə aparacaqlar." Bu vaxt cinlər ərz etdilər: "Ey Allahın həbibi və Allahın Həbibinin oğlu, əgər sənin əmrinə itaətimiz olmasaydı düşmənlərin sənə hücum etməmişdən qabaq, onların hamısını bir anın içində məhv edərdik." Buyurdu: "Allaha and olsun bizim onları məhv etmək üçün qüdrətimiz sizdən çoxdur, lakin bu xalqa hüccət tamam olmalıdır."[1]

İmam Hüseynin (ə) Məscidul-haramda mərsiyə deməsi

17-ci məclis: Bu məclis Məscidul-haramda qurulmuşdur. Burada mərsiyə deyən O Həzrətin (ə) özü və qulaq asanları hacılar idi. Məclis İraqa səfər əzmi edən zaman olmuşdur. İmam (ə) dayanıb, aşağıdakı məzmunda xütbə söylədi: "Həmd və tərif Allahın Müqəddəs Zatına məxsusdur, işlərin idarəsi və tədbiri Al-

[1] Bihar 44/331; Luhuf səh.29

lah-taalanın iradəsinə və qüdrətinə bağlıdır. Allahın salavatı və salamı Onun Rəsuluna (s) və pak Əhli-beytinə (ə) olsun. Aydındır ki, qızların boynunda boyunbağı asıldığı kimi, ölüm də Adəm (ə) övladının boynundan asılmışdır. Nə qədər müştaqəm dünyadan köçən əzizlərimi görməyə, Yaqub (ə) Yusifi (ə) görməyə müştaq olduğu kimi. Mənim üçün şəhadət yazılıbdır və hətmən onu görəcəm. Sanki görürəm Kərbəlada səhra canavarları bədən əzalarımı parə-parə edir və öz ac qarınlarını doldururlar. İlahi elm ilə yazılan gündən bəri bunun çarəsi yoxdur. Biz əhli-beyt (ə) Allahın rizasına razıyıq və Onun göndərdiyi bəlaya səbir edərik və Allah-taala bizə səbir edənlərin əcrini əta edəcəkdir. Əhli-beyt (ə) Allahın Rəsulundan (ə) ayrı düşməyəcək və cənnətdə onun yanında cəm olacaqdır. Peyğəmbərin (s) gözləri onun Əhli-beyti (ə) ilə işıqlanacaqdır və Allahın Rəsulu (s) onların haqqına vəfalı olacaqdır. Beləliklə, Allah yolunda canını fəda etmək istəyən varsa bizimlə gəlsin, mən sabah tezdən köçürəm, inşallah.

18-ci məclis: Bu məclis Məkkənin kənarında qurulmuşdur. Məhəmməd Hənəfiyə Həzrət (ə) Məkkədən çıxdığı gecə onun xidmətinə gəlib, ərz etdi: "Ey qardaş bilirsən ki, Kufə əhli sənin atanla və qardaşınla qəddar rəftar etdilər. Qorxuram sənin də müxalif olsunlar, elə bilirəm sən həmin Məkkədə qalsan daha yaxşı olar, bura əmin yerdir və burada heç kəs sənə qarşı cürət etməz." İmam (ə) buyurdu: "Qorxuram Yezid məni burada hiylə ilə öldürsün və Allahın hərəminin hörməti aradan getsin." Dedi: "Onda Yəmənə ya səhraya tərəf get, oralarda heç kəsin sənə əziyyət verməyə qüdrəti olmaz." Buyurdu: "Bu barədə düşünərəm." Sübh açılanda Həzrət (ə) hərəkət etmək əmri verdi. Xəbər Muhəmməd Hənəfiyəyə çatanda gəlib İmamın (ə) dəvəsinin cilovundan tutdu və dedi: "Qardaş, məgər vədə vermədin ki, düşünəcəksən? Bəs niyə belə təcili surətdə hərəkət etdin?" Buyurdu: "Sən gedəndən sonra Allahın Rəsulu (s) mənim yanıma gəlib, buyurdu: "Ya Hüseyn (ə) hərəkət et, Allah səni şəhid görmək istəyir." Muhəmməd dedi: "İnna lillah və inna ileyhi raciun." (Yəni, Həiqətən biz Allah üçün yaranmışıq və həqiqətən Ona tərəf qayıdırıq.) Sən şəhadətə geçir-

sən, bəs bu qadınları niyə özünlə aparırsan?" Buyurdu: "Cəddim buyurdu ki: "Bunları da apar ki, Allah-taala onları əsir görmək istəyir." Bu vaxt Muhəmməd vidalaşıb, qayıtdı."[1]

Burada qeyd etmək lazımdır ki, o Həzrətin (ə) öldürülməsində və Əhli-beytinin əsri götürülməsində Allahın razılığının onun qatillərinin və Əhli-beytini əsir götürənlərin razılığı ilə heç bir bağlılığı yoxdur, hərçənd bunu avam üçün bəyan etmək asan məsələ deyil. Lakin misal olaraq deyirik ki, həmin hadisədə Vəhəbin anası oğluna demişdir ki: – "Peyğəmbər (s) balasının ləşkərində şəhadətə yetişməyincə səndən razı olmayacam"– eyni zamanda bu ana oğlunun qatilinin əməlinə razı deyildi.

19-cu məclis: Bu məclis Məkkənin kənarında olmuşdur; Abdullah ibn Abbas və Abdullah ibn Zubeyr o Həzrətin (ə) xidməitnə gəldilər və İraqa getməməsini xahiş etdilər. Həzrət (ə) buyurdu: "Cəddim mənə əmr etmişdir, buna görə mən gedəcəm." İbn Abbas bu sözləri eşidəndə İmamın (ə) yanından çıxıb, "Va Hüseyna (ə)" deyirdi. Sonra Abdullah ibn Ömər İmamın (ə) xidmətinə gəlib ərz etdi: "Bu azğın camaat ilə sülh bağla, məbada müharibə edəsən, yoxsa səni öldürəcəklər." İmam (ə) buyurdu: "Məgər bilmirsən bu etibarsız dünyaya xatir Yəhyanın (ə) başını zinakar qadın üçün hədiyyə apardılar. Və Bəni-İsrail sübh azanı ilə günəş çıxan vaxt arasında yetmiş Peyğəmbəri (ə) qətlə yetirdilər, sonra da gedib bazarda oturub alverlə məşğul oldular, sanki əsla qəbahətli bir iş görməmişlər. Allah-taala onlara möhlət verdi və sonra onlardan intiqam aldı. Ey Abdullah Allahdan qorx və mənə kömək etməkdən çəkinmə."

20-ci məclis: Bu məclis Xuzeymiyə mənzilində olmuşdur. İmam Hüseyn (ə) orada dayanacaq quranda, sübh vaxtı bacısı Xanım Zeynəb (ə) onun xidmətinə gəlib, ərz etdi: "Gecə hacət üçün səhraya getdim, kiminsə belə məzmunda şeir dediyini eşitdim: "Ey göz, ağla o camaat üçün ki, ölüm onları vədə olunmuş yerə tərəf qovur." İmam (ə) buyurdu: "Allah nəyi hökm edibsə, o da olacaqdır."

[1] Bihar 44/334-336; Luhuf səh. 26-27

21-ci məclis: Bu Sələbiyə məclisi idi, Bəni-Əsəd qəbiləsindən Abdullah ibn Süleyman və Munzir ibn Muşməəl nəql edirlər ki: "Həcc əməllərimizi yerinə yetirəndən sonra, yeganə istəyimiz İmam Hüseynə (ə) qoşulmaq idi ki, görək onun işinin aqibəti nə olacaqdır. Buna görə surətlə hərəkət edib özümüzü o Həzrətə (ə) çatdırdıq. Birdə gördük ki, Kufə tərəfdən bir atlı gəlir. Həmin adam yaxınlaşıb İmamı (ə) görəndə səmtini dəyişib, uzaqlaşmağa başladı. Həzrət (ə) bir qədər dayandı, sanki ondan bir xəbər soruşmaq istəyirdi, ancaq sonra fikrindən döndü və yoluna davam etdi. Biz o şəxsin yanına gəlib, salam verdik. O cavab verdi, biz dedik: "Hansı qəbilədənsən?" Dedi: "Bəni-Əsəd" Dedik: "Biz də həmin qəbilədənik, sən kimsən?" Dedi: "Mən filankəsin oğlu Bəkrəm." Biz də özümüzü tanıtdırdıq və dedik: "Kufədə vəziyyət necədi?" Dedi: "Kufədə Müslimi və Hanini öldürdülər, ayaqlarına kəndir bağlayıb bazarın içindən çəkib, apardılar." Biz İmamın (ə) karvanına qayıdıb, yolumuza davam etdik və Sələbiyə adlı yerə çatdıq. Burada tez İmamın (ə) yanına gəlib, salam verdik, Həzrət (ə) salama cavab verdi, dedik: "Bizdə xəbərlər var, istəyirsiniz gizli deyək ya da aşkar elan edək." İmam (ə) bir bizə tərəf baxdı, bir də səhabələrinə tərəf, sonra buyurdu: "Mənim onlardan gizli bir sözüm yoxdur." Dedim: "Kufədən gələn o süvarini gördünüz?" Buyurdu: "Bəli, ondan söz soruşmaq istəyirdim." Dedim: "O şəxs bizim qəbilədəndir, əql sahibi və doğru danışandır. Biz onda olan xəbəri öyrəndik. O dedi ki, Kufədə Müslim ibn Əqili və Hanini öldürdülər." İmam (ə) buyurdu: "İnna lillah və inna ileyhi raciun. Allah onlara rəhmət eləsin." İmam (ə) bu kəlamı təkrar edirdi. Sonra biz ərz etdik: "Səni and veririk Allaha bu yoldan qayıt, özünü və Əhli-beytini tələf etmə. Kufədə sənin yavərin yoxdur, hamısı sənin düşmənlərinlə birgə olacaqlar." İmam (ə) Əqilin övladlarına tərəf baxıb, buyurdu: "Nə deyirsiniz?" Ərz etdilər: "Allaha and olsun Müslimin qanını almayınca ya ona qovuşmayınca geri qayıtmayacağıq." Həzrət (ə) üzünü bizə tərəf çevirib, buyurdu: "Bu cavanlardan sonra həyatın bir xeyri yoxdur." Başa düşdük ki, İmam (ə) qərarında qətidir və dedik: "Allah sənin

qarşına xeyir çıxarsın." Buyurdu: "Allah sizə rəhmət etsin." Sonra onun səhabələri o Həzrətə (ə) dedilər: "Kufə əhlinin yanında sizin məqamınız Müslim kimi deyil, bəlkə siz Kufəyə çatanda onlar köməyinizə yetişdilər." İmam (ə) sükut edib, onlara cavab vermədi.

Seyyid (Allah ona rəhmət eləsin) belə söyləmişdir: "Müslimin xəbəri İmam Hüseynə (ə) Zübalənin mənzilində yetişdi. İmam (ə) yoluna davam etmək istəyəndə şair Fərəzdəq o Həzrətə (ə) dedi: "Sən Kufə əhlinə necə etimad edirsən, bir halda ki, onlar sənin əmin oğlu Müslimi yavərləri ilə birlikdə öldürdülər?" İmam (ə) ağladı və buyurdu: "Allah Müslimə rəhmət eləsin, o əbədi cənnətə tərəf yola düşdü. Müslim, üzərində olan vəzifəsini yerinə yetirdi, qaldı bizim işimiz." Sonra məzmunu belə olan şeirlər oxudu: "Əgər dünya həyatı, onun əhlinin yanında gözəl və qiymətlidirsə, axirət və Allahın savabı daha ali və daha yaxşıdır. Əgər insan bədəninin axırı ölümdürsə, əlbəttə Allah yolunda ölmək daha yaxşıdır. Əgər ruzilər Allahın təqdiri ilə bölünübsə, ona daha az həris olmaq daha gözəldir. Əgər dünya malı tərk olunası və ötəridirsə, bəs ağıllı insan niyə simiclik edir."[1]

22-ci məclis: Bu məclis Kərbəla yolunun üstündə olan dayanacaqların birində olmuşdur. Orada Əmr ibn Luzan o Həzrətin (ə) xidmətinə gəlib, dedi: "Hara gedirsən ya Əba Əbdillah?" Buyurdu: "Kufəyə gedirəm." Dedi: "Səni and verirəm Allaha geri dön, sən nizələrin və qılıncların üzərinə gedirsən, indi oraya gedişin əsla məsləhət deyil" Buyurdu: "Ey Allahın bəndəsi, mən vəziyyətdən xəbərdaram, lakin bil ki, Allahın əmri həyata keçəcəkdir."[2]

Bu məclisdən başlayaraq 30-cu məclisə qədər İmam (ə) özünə mərsiyə deməyə başladı. Beləliklə bunlar Hüseynin (ə) Hüseyn (ə) üçün olan mərsiyələridir və özünün hər bir müsibəti üçün məxsusi məclislər idi. Belə ki, Məkkədə öz bədən əzalarının parə-parə olması barədə mərsiyə deyirdi. Bu məclisdə də mərsiyə deyirdi, yəni

[1] Bihar 44/372-374; Luhuf səh.32
[2] Bihar 44/375

həmin şəxsə buyurdu: "Allaha and olsun sinəmi yarıb, bu qan parçasını çölə çıxarmayınca məni rahat buraxmayacaqlar."

Bu kəlam buna işarı edir ki, İmamın (ə) mübarək qəlbi dünyanın şiddətindən qan parçasına dönmüşdür və onun çölə çıxarılması ürəyinə sancılan və qanı axıdılan üç tirəli oxa işarədir. Kərbəlada həmin ox onun mübarək ürəyinə sancılanda Həzrət (ə) əlini onun altına qoyur və əli qan ilə dolur. Sonra bu qanı başına və üzünə sürtür. Atam, anam sənə qurban olsun Ağa sən bütün şiələrin qəlbisən, bu kəlamın ilə onların ciyərlərini yandırdın və onların göz yaşlarını axıtdın, əcəb kədərli kəlamdır.

23-cü məclis: Bu məclislər hər dayanacaqda qurulurdu və öz müsibətində mərsiyə deyirdi, Həzrət Yəhyanı (ə) dəfələrlə yad edirdi və buyururdu: "Dünyanın alçaqlığı və etibarsızlığından Yəhyanın (ə) başını zinakar qadın üçün hədiyyə apardılar" – deyib ağlayırdı.

Kərbəlaya daxil olmamışdan qabaq əzadarlıq məclisi

24-cü məclis: Bu məxsusi məclis Kərbəlaya varid olmamışdan qabaq qurulmuşdur. Xeymələri qurandan sonra İmam (ə) bütün övladlarını, qardaşlarını və Əhli-beytini cəm etdi. Sonra onlara baxıb, bir saata yaxın ağladı. Onların başına gələcək hadisələri, kimsəsiz qalmaqlarını və vətənlərindən avarə düşməklərini xatırlatdı. Heç bir yerdə hətta Allahın Hərəmində onlar üçün əmniyyət olmadığını bəyan etdi, halbuki, hamı üçün; kafirlər, heyvanlar, bitkilər, ağaclar üçün əmniyyət var idi. Sonra yenə ağladı və bu ümmətdən Allaha şikayət etdi, buyurdu: "Allahım biz Sənin Peyğəmbərinin (s) itrətiyik bizləri yer üzündə avarə qoydular, vətəndən çıxardılar və bəni üməyyə bizə zülm etdi.

25-ci məclis: Bu məclis Tasua günü əsr çağı olmuşdur. İmam (ə) öz xeyməsinin qabağında qılıncına söykənmiş halda oturmuşdur ki, yuxu onu apardı. Bu vaxt xeyməyə tərəf gələn düşmən ləşkə-

rinin sədası ucaldı. Bacısı Zeynəb xatun (ə) onların səsini eşidəndə, qardaşının yanına gəlib, buyurdu: "Can qardaş, məgər xeyməyə yaxınlaşan ləşkərin səsini eşitmirsən?" Həzrət (ə) başını qaldırıb buyurdu: "Yuxuda Allahın Rəsulunu (s) gördüm, mənə buyurdu ki: "Tezliklə sən bizə tərəf gələcəksən" Zeynəb xatun (ə) əli ilə bir neçə dəfə üzünə vurub, "Va veyla" fəryadı etdi. İmam (ə) buyurdu: "Vay sənə deyil bacı Zeynəb (ə), sakit ol, Allah sənə rəhm eləsin."

Seyyid (Allah ona rəhm eləsin) nəql edir ki: "İmam (ə) buyurdu: "Bacı Zeynəb (ə) indi yuxuda gördüm ki, Cəddim Allahın Rəsulu (s), atam Əliyyul Murtəza (ə), anam Fatimeyi-Zəhra (ə) və qardaşım Həsən Müctəba (ə) mənə buyurdular ki: "Sən tezliklə bizim yanımıza gələcəksən."

Başqa bir rəvayətdə gəlir ki, buyurdular: "Sabah bizim yanımıza gələcəksən." Xanım Zeynəb (ə) öz üzünə vurdu və fəryad etdi, İmam (ə) buyurdu: "Sakit ol ki, düşmən bizə baxıb tənə vurmasın."[1]

26-cı məclis: Bu məclis Aşura gecəsi olmuşdur, İmam (ə) xeymədə tənha oturmuşdur. O Həzrət (ə) qılıncını döyüşə hazırlayırdı və özü üçün mərsiyə deyirdi. Zəmanəyə xitab edirdi və məzmunu belə olan şeirlər deyirdi: "Ey zəmanə kül olsun sənin başına, nə qədər saleh, təqvalı insanları və vəfalı dostları öldürdün və onların əvəzində bir şey qənaət edib saxlamadın. İşlərin aqibəti Allaha tərəf qayıdışdır və hər bir nəfs sahibi mənim getdiyim səmtə gedəcək, yəni ölümə tərəf." İmam Zeynulabidin (ə) buyurur: "Bu şeiri bir neçə dəfə təkrar etdi, mən onun məqsədini başa düşdüm və qəhər məni boğdu, lakin özümü saxladım və bildim ki, bəla nazil olacaqdır. Amma bibim Zeynəb (ə), qadın tayfasına riqqətin qalib gəlməsi üzündən tab gətirə bilmədi və bixtiyar başı açıq ayaqyalın qardaşının yanına gəldi və dedi: "Ey vay kaş öləydim və bu günü görməyəydim, bu gün atam, anam və qardaşım öldülər. Ey köçüb, gedənlərin canişini və qalanların pənahgahı." İmam (ə) ona bir nəzər eylədi və buyurdu: "Ey bacı,

[1] Bihar 44/ 383,391; Məqtəli Xarezmi 1/237

məbada şeytan sənin səbrini aradan apara" – və ağladı. Sonra buyurdu: "Əgər mənə imkan versəydilər özümü bu həlakətə atmazdım." Xanım Zeynəb (ə) dedi: "Ey qardaş məgər çarəsiz qalıb, məcbur olmusan? Bu mənim qəlbimi daha çox yandırır və bunu eşitmək mənim üçün daha ağırdır." Bunu deyib üzünə sillə vurdu, yaxasını cırıb, qəşş eləyib, yerə yıxıldı. İmam (ə) qalxıb, onun üzünə su çiləyi, huşa gətirdi və buyurdu: "Ey bacı Allahdan qorx və səbirli ol, bil ki, yer əhlinin hamısı öləcəkdir və səma əhli də həmişəlik qalmayacaq, Allahın vəchindən başqa heç kəs və heç nə qalmayacaq. Atam, anam və qardaşım yer üzünün ən yaxşı insanları idilər, hətta Allahın Peyğəmbəri (s) dünyadan köçdü. Bacı can səni Allaha and verirəm yaxanı cırma, üzünə vurma, va veyla demə." İmam (ə) onu qaldırıb öz yanında oturtdu.[1]

Aşura gecəsi əza məclisi və o Həzrətin (ə) xütbəsi

27-ci məclis: Bu məclis Aşura gecəsi olmuşdur, Həzrət (ə) səhabələrini xeymədə cəm etdi və xütbə oxudu. Həzrət (ə) bu xütbədə özünün və səhabələrinin şəhadətini bəyan etdi və yenidən onlardan ölmək üçün beyət aldı. Hətta bəzi səhabələr Allah yolunda min dəfə ölməyə, yanmağa və küllərinin havaya sovrulmağına beyət etdilər.[2]

28-ci məclis: Bu məclis xeyməgah ilə qətlgah arasında olmuşdur. Qızı Səkinə İmamın (ə) yanına gəlib vidalaşdı. Sonra İmam (ə) buyurdu: "Ey Səkinə mən öləndən sonra sənin ağlamağın uzun çəkəcək, indi hələ ki, mən bu dünyadayam və ruhum bədənimdədir öz ağlamağın ilə mənim qəlbimi yandırma.

29-cu məclis: O Həzrətin (ə) qətlgahda gah bəzi səhabələrinə xatir, gah qardaşı Abbasa, gah oğlu Əliəkbərə xatir, gah qardaşı oğlu Qasimə, gah da onların hamısına xatir qurduğu məclislər idi. Bu məclislərin bəziləri oturaq halda və bəziləri ayaq üstə olmuşdur, bunların təfsilatlı şərhi gələcək inşallah.

---

[1] Bihar 44/1,2

[2] Bihar 44/393; İrşadi Mufid 2/93-95

Axırıncı məclis Aşuranın sübhü olmuşdur

30-cu məclis: "Münaqib" adlı kitabda nəql olunur ki: "Aşura gününün sübhü açılanda İmamı (ə) bir az yuxu apardı, yuxudan oyananda buyurdu: "Yuxuda gördüm bir neçə it mənə həmlə edirlər və məni parçalayırlar, ağ-qara rəngdə bir it isə mənim üzərimə daha çox cumurdu, güman edirəm mənim qatilim bu qövmdən qotur olan bir şəxsdir. Sonra Cəddim Peyğəmbəri (s) bəzi səhabələrlə birlikdə gördüm ki, buyururdu: "Ey övladım, Ali-Muhəmmədin (ə) şəhidi sənsən və səma əhli sənin gəlişinlə müjdələniblər. Sabah axşam iftarını bizim yanımızda açarsan və tələs ki, səmadan mələk nazil olub və özü ilə sənin qanını saxlamaq üçün yaşıl şüşə gətirib." Bu mənim yuxumdur və şübhə yoxdur ki, köçmək vaxtı yaxınlaşmışdır.[1]

O Həzrətin (ə) son məclisi bədəni parə-parə olub, yerə yıxılan və nəfəsi kəsilən zaman olmuşdur. İmam (ə) özünün və Əhlibeytinin (ə) halına mərsiyə deyirdi və qulaq asan Allah-taalanın Özü idi. İmam (ə) belə buyururdu: "Ey Allahım necə də alidir və əzəmətlidir məqamın Sənin."[2]

Dördüncü növ: Allahın Rəsulunun (s) o Həzrətə (ə) mərsiyə oxuması

Bu məclislər İmamın (ə) şəhadətindən sonra təşkil olunmuşdur və bir neçə qisimdir:

Birinci məclis: Mədinədə Həzrət Peyğəmbər (s) Hüseynin (ə) müsibətinə mərsiyə oxuyurdu və qulaq asan da Ümmü Sələmə idi. İbn Abbas nəql edir ki: "Bir gün öz evimdə yuxuya getmişdim, birdən Ümmü Sələmənin evindən gələn qışqırıq və nalə sədasını eşitdim, tez çölə çıxdım. Böyüyüm əlimdən tutdu və Ümmü Sələmənin evinə tərəf getdik. Mədinə əhlinin qadınları və kişiləri onun evinə gəlirdilər. Oraya çatanda dedim: "Ey möminlərin anası, sənə

[1] Bihar 45/3; Məqtəli Xarezmi 1/251-252
[2] Misbahul mutəhəccid səh.759; Misbahul Kəfəmi səh.544

nə olub ki, belə fəryad və nalə edirsən." Mənə cavab vermədi, üz tutub Haşimi qadınlarına dedi: "Ey Əbdül-Müttəlibin qızları mənə növhə deməkdə və ağlamaqda kömək edin ki, sizin ağanızı və cənnət cavanlarının Seyyidini (ə), Peyğəmbərin (s) nəvəsi və ğəlbinin meyvəsini öldürdülər." Dedim : "Ey möminlərin anası bu xəbəri haradan bildin?" Dedi: "Peyğəmbəri (s) indi yuxuda gördüm, toz-torpağa bulaşmış və pərişan halda idi. Dedim: "Ey Allahın Rəsulu (s) halınız niyə belədir?" Buyurdu: "Övladım Hüseyni (ə) və Əhli-beytini öldürdülər, elə indi onların dəfnindən gəlirəm."[1]

Müəllif deyir: Bu yuxu, o Həzrətin (ə) və səhabələrinin dəfninin onların şəhadətlərindən bir neçə gündən sonra olması ilə zidd deyil. Çünki, ola bilsin Ümmü Sələmənin yuxuda gördükləri şəhadətdən üç gün sonra olan hadisədir.

Başqa bir rəvayətdə gəlir ki: "Ümmü Sələmə dedi: "Allahın Rəsulunu (s) yuxuda başı, saqqalı və üzü torpağa bulaşmış halda gördüm. Ondan bu halətinin səbəbini soruşdum. Buyurdu: "Camaat hücum çəkdilər və övladım Hüseyni (ə) öldürdülər, mən də orada hazır idim."[2]

Ümmü Sələmə deyir: "Bədənim lərzəyə gəldi, evə daxil oldum sanki, ağlım və huşum başımdan çıxmışdır. Gedib şüşənin içindəki, Cəbrayılın (ə) gətirdiyi torpağa baxdım. O vaxt Peyğəmbər (s) bu torpağı mənə tapşırdı və buyurdu: "Bunu şüşədə saxla nə vaxt gördün ki, qana çevrilib bil ki, Hüseyni (ə) öldürdülər." Mən şüşəyə baxdım gördüm onun içində qan qaynayır."

İbn Abbas deyir: "Ümmü Sələmə həmin qandan götürüb üzünə çəkdi və o gün tamamilə matəm tutub, əza saxladı. Bir müddət sonra İraqdan xəbər gələndə, məlum oldu ki, həmin günü İmamı (ə) şəhid etmişdilər.

İkinci məclis: ümümi məclis idi və Allahdan qeyri nə varsa orada qurulmuşdur; zamanda, məkanda və onların içində nə varsa onda, məxluqatın bütün siniflərində görünənlərdə və görünməyənlərdə, hicablarda, Ərşdə və onu daşıyanlarda, səmalarda, mələklərdə və

[1] Bihar 44/230; Əmaliye Tusi 1/322
[2] Bihar 45/232

ulduzlarda, dörd ünsürdə, bitkilərdə və heyvanlarda, cənnətdə və onun xəzinədarlarında, hurilərdə və qılmanlarda, qəsrlərdə və ağaclarda, çaylarda və onun səmərələrində, cəhənnəmdə və onun mühafizəkarlarında və bunlardan qeyrilərində. Hər şeyin əhvalı o Həzrətin (ə) matəmində özünə xas olan tərzdə yasa batmışdır.

Beləliklə göz sahibi olan ağlamaqla yas tuturdu, havanın yası tələtüma gəlib, qan yağışı yağması ilə tutuldu, günəş tutulmaq və qızarmaqla yas saxladı, mələklər səflərinin pozulması və təsbih etməkdən məəttəl qalmaqla yasa batdılar, ağaclar qan ağlamaqla, fəza qaranlıq zülmətə batmaqla, yer zəlzələyə düşməklə, dağlar iztiraba gəlməlkə, balıqlar özlərini sudan quruya atmaqla, dəryalar dalğaların tələtumə gəlməyi ilə, quşlar havadan yerə düşməklə, cinlər yerin ətrafında növhə deməklə matəm qurdular. Bu ümumi məclis məxsusi və müəyyən bir vaxtda olmuşdur. İmam Sadiq (ə) bəyan etdiyi kimi, o Həzrətə (ə) qılınc zərbəsi vuranda yerə yıxılan və düşmənlər mübarək başını kəsmək üçün ona tərəf qaçdıqları zaman.[1]

Bəyanı budur ki, üç vaxtda o Həzrətə (ə) qılınc zərbəsi vurdular: bir zərbə at belində olduğu vaxt; Digəri torpağın üstündə oturduğu zaman bir neçə zərbə mübarək boğazından vurdular, sonra mübarək başını kəsmək istədilər. Bu vaxt inqilab baş verdi və bir neçə səda ucaldı; biri o həzrətin (ə) öz səsi idi ki, buyurdu: "Məgər məni təşnə öldürmək rəvadırmı, bir halda ki, mənim cəddim Muhəmməd Mustafadır?"

Digəri Allahın əmri ilə Ərşin bətnindən bir mələk belə nida edirdi: "Ey yolunu azmış qövm heç vaxt fitr və qurban bayramına müvəffəq olmayasınız." Digəri isə cənnətdən qanadlarını dərayaların üzərinə açan bir mələk idi ki, belə nida etdi: "Ey dəryalar əhli hüzn libası geyinin ki, Peyğəmbərin (s) balasını öldürdülər." Cəbrayıl da fəryad etdi: "Hüseyni (ə) Kərbəlada öldürdülər." Tamam mələklər fəryada gəldilər: "İlahi, ey bizim Mövlamız, məgər Sənin Peyğəmbərinin (s) övladı və bəndələrinin

[1] Bihar 44/202-217

arasında seçilmiş olan Hüseynlə (ə) belə rəftar etmək olarmı?![1] Zeynəb (ə) xeymədən bayıra çıxıb qətlgaha tərəf baxıb, fəryad etdi: "Vay qardaşım, vay ağam." Zülcənah qətlgahdan xeyməgaha tərəf qaçaraq fəryad edirdi: "Aman, aman Peyğəmbər (s) balasını öldürən qövmün əlindən." Beləliklə həmin zaman bütün bu halətlər və fəryadlar aləmin hər yerində baş verdi. Məgər siz ey dostlar bu səhnəni zikr edəndə halınız dəyişmirmi? Abuzər dedi: "Əgər siz o zaman aləm əhlinin halından agah olsaydınız o qədər ağlayardınız ki, axırda ruhunuz bədəninizdən çıxardı." İndi ki, sizdən ölmək istəmirlər, ən azından bir az növhə deyib, ah-nalə edib, ağlayın, ağladın və özünüzü ağlayanlara bənzədin. Ah, yenə ah.

Üçüncü məclis: Bu məclis qətlgahda olmuşdur Xanım Zeynəb (ə) mərsiyə deyirdi əhli-beyt və ləşkər də ağlayırdılar.

Dördüncü məclis: Quşların məclisi idi və mərsiyə deyən Ağ quş idi.

Beşinci məclis: Məhərrəm ayının 11-ci gecəsi qurulan vəhşi heyvanların məclisi idi, onların hamısı üzlərini o Həzrətin (ə) cəsədinə tərəf çevirib səhərə qədər növhə demişdirlər.

Altıncı məclis: Kişi cinlərin o Həzrətin (ə) mübarək cəsədinin ətrafında qurduqları məclis idi.

Yeddinci məclis: Qadın cinlərin İmamın (ə) şərif cəsədinin ətrafında qurduqları məclis olmuşdur.

Səkkizinci məclis: "Şahi" kəndindən olan cinin məclisi idi və qulaq asanlar beş nəfər Kufə əhlindən idilər. Onlar öz məkanlarından İmamın (ə) köməyinə çıxmışdılar, lakin Kərbəlaya çatanda artıq gec idi.

Doqquzuncu məclis: Tamam cinlərin müxtəlif yerlərdə qurduqları məclislər idi, bunların təfsilatı gələcək, inşallah.

Onuncu məclis: Kufənin küçələri idi, burada müsibəti zikr edənlər Xanım Zeynəb (ə), Ümmü Gülsüm, Fatimeyi Suğra və İmam Səccad (ə) idi, ağlayanlar isə Kufə əhlinin kişiləri və qadınları idilər. Onların bəziləri başlarına döyürdülər, bəziləri sinələrinə,

[1] Bihar 44/202-221; Kamiluz-ziyarat 21/67-68

bəziləri başlarına qum tökürdülər, bəziləri də saçlarını yolurdular və hələ belə bir gün görünməmişdir.[1]

On birinci məclis: Bunlar Əhli-beytin Kərbəladan Şama və oradan Mədinəyə qədər tamam məkanlarda və hallarda və bundan sonra ömürlərinin axırınadək qurduqları məclislər idi. İmam Səccadın (ə) məclisləri 40 il müddətində davam etdi, o Həzrət (ə) daim ağlayırdı, xüsusən yemək yeyəndə, ya su içəndə buyururdu: "Peyğəmbərin (s) balasını ac və susuz halda öldürdülər" – deyib ağlayırdı.[2]

On ikinci məclis: Bu Yezidin məclisi idi, o özü mərsiyə deyirdi və qoşun başçıları qulaq asırdılar. Yezid zövcəsi Hində dedi: "Fatimənin (ə) balası Hüseynə (ə) növhə de ki, o Qureyşin böyüyüdür. Mərcanənin oğlu onu öldürməkdə tələsdi" – bunun təfsilatı gələcəkdir.

Həzrət Zeynulabidinin (ə) Yezidin məclisində mərsiyə oxuması

On üçüncü məclis: Bu məclis Şam məscidində olmuşdur, burada mərsiyə deyən İmam Zeynulabidin (ə) qulaq asanlar isə Yezid və Şam əhli idi. İmam (ə) minbərə qalxdı, Allaha həmd və səna söylədi, cəddi Peyğəmbərə (s) və atası Əmir-əl mömininə (ə) salavat göndərdi, sonra alicənab atasına (ə) mərsiyə oxudu və sonunda buyurdu: "Mənəm başı boynundan kəsilənin oğlu, mənəm əmmasi və libası bədənindən çıxarılanın oğlu." Bu vaxt Şam əhlinin və bəni üməyyənin ah-nalə və ağlamaq səsləri ucaldı. Yezid qorxdu ki, camaat arasında qarışıqlıq yaranar və müəzzinə azan verməsini əmr etdi. Beləliklə, əgər Şam əhli o Həzrətin (ə) başının kəsilməsini və libasını, əmmaməsini çıxarılmasını eşitməklə növhə deyib, ah-nalə edirlərsə, onda şiə əmmamənin İmam Hüseynin (ə) başından çıxarılmasını eşidəndə nə etməlidir?[3]

---

[1] Bihar 45/191-240; Kamiluz-ziyarat 26/79
[2] Bihar 46/109; Luhuf səh.92
[3] Bihar 45/174; Məqtəli Xarezmi 2/69

On dördüncü: Yezidin evində qadınların məclisi idi, burada Zeynəb (ə), Ümmü Gülsüm, İmamın (ə) qızları mərsiyə oxuyurdular və Yezidin zövcəsi, qızları və Bəni-üməyyə qadınları ağlayırdılar. Bu məclis Yezidin əzadarlıq etməyə izn verdiyindən sonra qurulmuşdur və yeddi gün davam etmişdir.[1]

On beşinci: Bu məclis Əhli-beyt Mədinəyə qayıdarkən şəhərin kənarında xeyməgah qurduqdan sonra olmuşdur. Mədinə əhli onları qarşılamağa gəldilər, İmam Səccad (ə) üçün kürsü qurdular. İmam (ə) kürsüdə oturub, ağladı dəsmal ilə gözünün yaşını silirdi və yenə də göz yaşı macal vermirdi. Mədinə əhli İmamı (ə) bu halətdə görəndə fəryad, nalə sədaları səmaya ucaldı, sanki tamam ərazi dönüb bir nalə olmuşdur. Sonra Həzrət (ə) işarə etdi ki, sakit olsunlar və buyurdu: "Həmd və səna olsun aləmlərin Rəbbinə, qiyamət gününün Malikinə və tamam məxluqatın Xaliqinə. Həmd edirəm Allaha taleyin şiddətinə, ruzgarın vurduğu yaralara, sayı-hesabı olmayan müsibətlərə görə. Ey insanlar, bilin ki, Mahmud olan Allah bizi böyük müsibətlə imtahan etdi və islamda böyük uçurum yarandı. Ağamız İmam Hüseyni (ə) itrəti ilə birlikdə öldürdülər, onu qanına qəltan etdilər, Əhli-beytini və uşaqlarını əsir götürdülər, başlarını kəsib ölkələri dolandırdılar. Bu müsibətin misli, bərabəri yoxdur və olmayacaqdır. Hansı qeyrətli kişi bu müsibəti düşündükdən sonra şad olacaqdır? Hansı gözdür ki, bundan sonra o Həzrətə (ə) ağlamayacaqdır? Halbuki, səmalar onun üçün ağlayırlar, dəryalar təlatümə gəlirlər, yerlər, ağaclar, balıqlar və müqərrəb mələklər, səmalar və yerlər əhli o Həzrətin (ə) halına ağlayırlar. Hansı qəlb onun müsibətini zikr etməklə riqqətə gəlməyəcək? Hansı qulağın bu müsibəti eşitməyə taqəti var? Ey insanlar, bilin ki, biz Əhli-beyti avara qoydular, heç bir günahımız olmadığı halda bizləri türk və kabul əsirləri kimi şəhərdən şəhərə dolandırdılar. Belə bir müsibət hələ indiyədək dünyada görünməmişdir. Allaha and olsun əgər Peyğəmbər (s) onlara bizim haqqımızda sifariş etdiyinin əvəzində bizlərlə müharibə etməyi və bizə əziyyət etməyi vəsiyyət etsəydi,

[1] Bihar 45/196

bizim başımıza gətirdiklərindən daha çoxunu edə bilməzdilər. Ancaq bu müsibət nə qədər dəhşətli olsa da biz əhli beyt Allahın qəza və qədərinə razıyıq və Onun əmrinə təslimik, işlərimizi Ona tapşırmışıq və Odur Əziz və intiqam alan."[1]

On altıncı məclis: Bu məclisi Mədinənin qaraltısı görünən zaman Ümmü Gülsüm qurmuşdur. Xanım Ümmü Gülsüm mərsiyə deyirdi və İmam Səccad (ə) və əhli-beyt qulaq asırdılar. Xanım Mərsiyə deyərkən əvvəl Mədinə əhlinə xitab etdi, sonra Cəddinə (s), anasına və qardaşına. Bunun təfsilatı gələcək, inşallah.

On yeddinci məclis: Bu, mələklərin hər gün o Həzrətin (ə) qəbrinin kənarında qiyamət gününədək qurduqları məclislərdir. Həmin məclislərin keyfiyyəti mələklərə aid bəhsimizdə zikr ediləcəkdir.

On səkkizinci məclis: Hər gün, hətta bayramlarda həzrəti Fatimənin (ə) qiyamət gününədək asimanlarda qurduğu məclislərdir. Belə ki, o Xanım (ə) hər gün mələkut aləmindən övladı Hüseynin (ə) qətlgahına baxır, sonra elə bir fəryad edir ki, tamam mövcudatın sütunları, o cümlədən səmalar, yerlər, dəryalar və onların içində nə varsa və mələklər iztiraba gəlirlər, nəhayət Peyğəmbər (s) gəlib onu sakit edir və Xanım (ə) sakitləşib oğlunun zəvvarları haqqında dua edir.

On doqquzuncu məclis: Bu məsum İmamların (ə) məclisləridir, o cümlədən İmam Sadiqin (ə) məclisi idi ki, orada mərsiyə deyən Cəfər ibn Əffan olmuşdur və belə məzmunda şeirlər demişdir: "Əlbəttə, hamı ağlayır, bəs onda islam üçün də ağlasınlar, çünki qılınc və nizələrini Hüseynin (ə) qanı ilə sirab edəndə, islamın hökmlərini zay etdilər."[2]

İmam Sadiqin (ə) digər məclisində mərsiyəxan Abdullah ibn Ğalib olmuşdur, onun şeirlərinin məzmunu belədir: "Ağlayın, isti qumlar üstündə üryan düşən Hüseynin (ə) bədəninə ki, küləklər onun üstünü qumlar və toz ilə örtürdü."

[1] ihar 45/148; Luhuf səh.88
[2] har 45/197, 225, 282, 286; Məqtəli Xarezmi 2/144

O Həzrət (ə) digər məclisində Əbu Harun Məkfufa buyurdu: "Təklikdə necə qəlbinin riqqəti ilə mərsiyəni oxuyursan həmin qaydada oxu." Əbu Harun da bu məzmunda şeirləri oxudu: "Təsəvvür et Həzrət Hüseynin (ə) bədənini." İmam Sadiq (ə) ağladı və buyurdu: "De". Əbu Harun başqa bir qəsidəni oxumağa başladı, məzmunu belə idi: "Ey Məryəm qalx, ağan üçün nüdbə və növhə de və Hüseynə (ə) ağla." İmam (ə) bu sözlərdən sonra ağladı, ah-nalə və "Va Əbəta"sədası evini bürüdü.[1]

Başqa birisi İmam Rzanın (ə) məclisi idi, burada mərsiyəxan Dəbəl Xəzai olmuşdur və Həzrətin (ə) özü məclisə nizam vermişdir. Yəni, qalxıb özü otağa pərdə çəkdi, qadınları pərdənin arxasında oturtdu və Dəbələ buyurdu: "Oxu" və buyurdu: "Hər kəsin cəddim Hüseynin (ə) müsibətində gözləri yaşarsa qiyamət günü bizimlə məhşur olacaqdır." Sonra Dəbəl bu məzmunda mərsiyə oxumağa başladı: "Ey Fatimə (ə) hər dəfə Hüseyni (ə) Fərat çayının kənarında, təşnə dodaqlarla şəhid olduğunu yad edəndə üzünə vururdun və göz yaşları yanağına axırdı" – qəsidənin axırınadək, İmam Rza (ə) ağlayırdı və qadınlar ah-nalə edirdilər.[2]

İyirminci məclis: Bunlar, əvvəl işarə edildiyindən qeyri olan hər gün mələklərin qurduqları məclislər idi və təfsilatı gələcək inşallah.

İyirmi birinci məclis: Bu qiyamət gününədək şiələrin qurduqları məclislərdir və onların xüsusiyyətlərindən budur ki, əvvələn yorğunluq və süstlük gətirməzlər. Daha təəccüblüsü budur ki, ildən-ilə bu məclislərin izzəti və dəyəri artmaqdadır. Elə bir ölkə, hətta münafiqlərin, müxaliflərin və kafirlərin ölkəsi qalmamışdır ki, orada İmam Hüseynin (ə) əza məclisi təşkil olunmasın.

[1] Bihar 44/ 286, 287

[2] Bihar 45/ 257

BEŞİNCİ NÖV:

MƏHŞƏR ƏHLİNİN O HƏZRƏTİN (Ə) MATƏMİNDƏ QURDUĞU MƏCLİSLƏRDİR

Beşinci növ: Bu məhşər əhlinin məclisidir ki, burada mərsiyəxan Həzrəti Fatimənin (ə) özüdür, o Xanım (ə) əlində Hüseynin (ə) qanlı köynəyi, fəryad edir. Sonra Peyğəmbər (s) və mələklər fəryad edirlər və məclisdə İmam Hüseynin (ə) başsız bədəninin timsalı vardır. Məclisdə hazır olan tamam Peyğəmbərlər (ə), mələklər, yaradılış gününün birinci möminindən axırıncısınadək hamısı ağladılar, bunun təfsilatı gələcək inşallah.

Beşinci məqsəd: İmam Hüseynin (ə) müsibətində mərsiyələri özünə şamil edən kitablar və səhifələr

İmamın (ə) şəhadətindən sonra və ondan qabaq onun müsibətini bəyan edən mərsiyələr səhifələri və kitabları 10 ədəddir:

1-ci: Lövhi-məhfuzdur, burada qələm Allahın əmri ilə İmam Hüseynin (ə) ilahi təqdirini qeyd etmişdir. Beləliklə, qələm Allahın izni ilə o Həzrətin (ə) qatillərinə lənəti yazıya aldı necə ki, rəvayətdə gəlir.[1]

2-ci: Qurani məciddir, burada məxsusi ünvanda ayələr zikr olunmuşdur.

3-cü: Tövratdır, bu müsibət onun bəzi "Səfərlərində" yad edilmişdir.

4-cü: Ərəmiya kitabıdır, orada bu məzmunda mətn gəlir ki: "Böyük bir şəxsiyyətin Allah yolunda başı kəsiləcək və bədəni Fərat çayının kənarında günün altında qalacaqdır.

5-ci: Loğmanın kitabı.

[1] Bihar 44/ 243

6-cı: Şisin səhifələri, bunların hər ikisində bir neçə yerdə Kərbəla vaqiəsinə işarə edilibdir.

7-ci: O Həzrətin (ə) öz səhifələridir, orada yazılıb: "Ey Hüseyn (ə) özünü Allah yolunda sat və sənin rəhbərliyin altında şəhadətə çatmaqları yazılmış olan bir camaatla qiyam et və şəhid olanadək cihad et.

8-ci: Peyğəmbərdən (s) 300 il əvvəl məsihi kilsəsində olan bir kitabda belə məzmunda yazı var idi: "Məgər Hüseyni (ə) öldürən camaat qiyamət günü onun Cəddinin (s) şəfaətinə nail olmaq ümidi edirlər? Xeyr, Allaha and olsun heç vaxt onlar üçün şəfaət edən tapılmayacaq və qiyamət günü cəhənnəm atəşində yanacaqlar."[1] Kərbəla şəhidlərinin başlarını aparanlar, Şamda bir rahibxanənin divarında həmin məzmunda yazını görmüşdülər.

9-cu: Səmadan göndərilən və Kufə məscidində tapılan bir dürr idi və üzərində belə məzmunda yazı nəqş olunmuşdur: "Mən səmadan Həzrət Fatimənin (ə) gəlinliyi üçün hədiyyə olunan dürrəm, mənim rəngim gümüşdən ağ idi, lakin Hüseynin (ə) qanının əsərindən qırmızı olmuşam."[2] Həmçinin bir neçə yerdə o Həzrət (ə) barədə mərsiyə yazılan xırda daşlar tapılmışdır ki, rəngləri qan kimi qırmızı idi.

10-cu: xas dostların və şiələrin qəlbləridir, onların qəlblərində iman yazıldığı kimi, o Həzrətin (ə) qəm-qüssəsi də yazılmışdır və buna görə məhz adını eşitməklə təsirlənib, hüznə qərq olurlar.

Altıncı məqsəd: O Həzrətin (ə) əza məclislərinin xüsusiyyətləri

İmam Hüseynin (ə) əza məclislərinin səkkiz xüsusiyyəti var:

Birinci: Bu məclislərdə onların işi dirçəlir, rəvayətdə gəlir ki: "İmamların (ə) işinin bərpa olunduğu məclisdə oturan şəxsin qəlbi, qəlblər ölən gün ölməz.

---

[1] Bihar 44/ 192,224; Əmaliye Səduq 27-ci məclis/113

[2] Zəhrur-rəbi 1/12

İkinci: Belə məclisdə nəfəs almaq təsbih savabına malikdir.

Üçüncü: Rəvayətə əsasən bu məclislər İmam Sadiqin (ə) sevdiyi yerlərdir və buna görə də Allahın və Peyğəmbərin (s) sevdiyi yerlərdir.

Dördüncü: İmam Hüseynin (ə) nəzər etdiyi məkandır belə ki, o Həzrət (ə) Ərşin sağ tərəfindən Kərbəlaya, öz zəvvarlarına və ağlayanlarına baxır.[1]

Beşinci: Müqərrəb mələklər həmin məclislərdə hazır olurlar. Rəvayətdə gəlir ki: "Bir gün Cəfər ibn Əffan İmam Sadiqin (ə) xidmətinə müşərrəf olur. İmam (ə) onu öz yanında oturdur və buyurur: "Ey Cəfər, eşitdim İmam Hüseynin (ə) mərsiyəsində yaxşı şeirlər deyirsən." Dedi: "Bəli, sənə fəda olum." Həzrət (ə) buyurdu: "Elə isə oxu." Cəfər mərsiyə dedi, İmam (ə) səhabələri ilə bərabər o qədər ağladı ki, göz yaşları mübarək üzünə və saqqalına axdı. Sonra buyurdu: "Ey Cəfər, Allaha and olsun müqərrəb mələklər burada hazırdırlar və sənin şeirlərini eşitdilər və bizi kimi, hətta bizdən də çox ağladılar. Allah-taala elə indicə tamam behişti sənə vacib etdi və günahlarını bağışladı, ey Cəfər hələ bundan çoxunu deyimmi?" Dedi: "Bəli, ey mənim Ağam." Buyurdu: "Hüseyni (ə) zikr edən və ağlayan hər bir şəxsə cənnət vacib olar və günahları bağışlanar."

Altıncı: İmam Hüseynin (ə) qübbəsinin əza məclisidir, çünki onun qübbəsi yanız bir məxsusi tikili deyil, əslində bu qübbə xuzu və xuşudan ibarətdir. Buna əsasən hər xuzu və xuşu ilə, xüsusən İmam Hüseynin (ə) zikri ilə keçirilən məclis həmin o Həzrətin (ə) qübbəsidir və burada dua müstəcab olacaqdır.

Yeddinci: Ağlayanların meracıdır, bura onların günahlarının bağışlanması və dərəcələrinin artması üçün nazil olan məxsusi salavatın və rəhmətin məhəllidir. Hətta əgər bir nəfərə ağlamaq, özünü ağlayana bənzətmək müyəssər olarsa, tamam məclis əhlinə ilahi rəhmətin şamil olmasına ümid var.

Səkkizinci: Bu məclislər ən şərəfli, ən üstün, ən gözəl məclislər cərgəsinə daxildirlər, bunun bəyanı gələcək inşallah.

[1] Bihar 44/ 278, 282, 292

Yeddinci məqsəd: Ağlamağın xüsusiyyətləri barədə

Burada səkkiz xüsusiyyət vardır:

1-ci: Peyğəmbərə (s) hədiyyə bəxş etməkdir.

2-ci: Həzrəti Fatiməyə (ə) köməkdir, çünki o Xanım (ə) hər gün balası Hüseynə (ə) ağlayır. Necə ki, İmam Sadiq (ə) buyurur: "Məgər Həzrəti Fatimənin (ə) köməkçilərindən olmaq istəmirsənmi?"

3-cü: Rəvayətlərə əsasən Allahın, Peyğəmbərin (s) və hidayət İmamlarının (ə) haqqı bu məclislərlə ədа olunur.

4-cü: İmam Hüseynə (ə) kömək və yardım bu məclislər vasitəsilədir, çünki hər zamanda olan kömək, o vaxta münasib olan şəraitlə ölçülür.

5-ci: Bu məclislərdə Peyğəmbərlərə (ə), mələklərə və saleh bəndələrə təqlid olunur.

6-cı: Risalətin əcrinin ödənilməsidir, çünki "Məvəddətə fil-qurba" (yəni, qohumlarıma məhəbbət bəsləmək) ayəsi bu məclislərin iştirakçılarının halına şamil olur. (Şura/23)

7-ci: Bu məclisləri tərk emək o Həzrətə (ə) cəfa etməkdir.

8-ci: Bütün müsibətlər və ağlamalar üçün təsəllidir necə ki, İmam Rza (ə) İbn Şəbibə buyurmuşdur: "Əgər bir şeyə ağlamaq istəsən Hüseyn İbn Əliyə (ə) ağla, çünki onun başını qoyunun başını kəsən kimi kəsdilər və onunla bərabər Əhli-beytindən yer üzündə misli bərabəri olmayan 17-i nəfəri qətlə yetirdilər.

Bu hədisdə bir nöqtəni qeyd etmək istəyirdim: İmam Rza (ə), əhli-beytdən 17-i nəfər üçün "qətlə yetirdilər" ifadəsini işlədir, ancaq İmam Hüseyn (ə) üçün "başını kəsdilər" kəlməsini buyurur. Ola bilər səbəbi budur ki, əhli-beytdən şəhid olanlar aldıqları yaralardan şəhid olmuşlar, ancaq İmam Hüseynin (ə) bədənində olan çoxsaylı yaraları onların məqsədlərinə kifayət edirdi, lakin bununla qane olmayıb onun başını da kəsdilər.[1]

Müəllif deyir: Hədisdə qoyunun başını kəsən kimi kəsdilər ifadəsinin səbəbi, ola bisin budur ki, qəssab heç bir məzəmmətdən

[1] Bihar 45/205-207, 286; Kamiluz-ziyarat 26/82

və təhlükədən qorxusu olmadan qoyunun başını kəsdiyi kimi, qatillər də o Həzrətin (ə) başını eləcə heç bir şeyi nəzərə almadan kəsmişdilər. Canım sənə fəda olsun, ey məzlum Ağam!

Səkkizinci məqsəd: Ağlamağın fəzilətləri barədə

Yəni, ağlamağın digər gözəl əməllərə daha çox üstünlük bəxş etməsi barədə və bunlar beş qisimdir.

1-ci: İmam Hüseynə (ə) ağlayana salavat göndərmək caizdir, yəni ona deyə bilərsiz: "Allahın salavatı sənə olsun." Rəvayətdə gəlir ki, Allahın Rəsulu (s) buyurmuşdur: "Agah olun, Allah-taala Hüseynə (ə) ağlayanlar salavat göndərir."[1]

2-ci: Bəzi hallarda ağlamağın fəziləti ən çətin əməlin fəzilətinə yetişir, yəni insanın öz əziz balasını Allahın əmri ilə və Allaha yaxınlaşmaq məqsədilə öz əli ilə qurban kəsməsinin fəzilətinə. İmam Rzadan (ə) nəql olunan hədisdə gəlir ki: "İbrahim (ə) oğlu İsmayılın (ə) əvəzinə qurbanlıq qoçu kəsəndə arzu etdi ki, kaş oğlunu qurban kəsəydi və bununla ən ali dərəcələrə yetişərdi. Bu vaxt Allah-taala ona dəhşətli Kərbəla hadisəsini vəhy etdi. İbrahim (ə) İmam Hüseyn (ə) üçün nalə çəkib, ağladı. Vəhy gəldi ki, sənin bu nalə və ağlamağını oğlun İsmayıla olan (ə) nalə və ağlamağının əvəzində qəbul etdim və sənin üçün ən ali dərəcəni qərar verdim."[2]

Lakin bu mətləb yalnız o şəxsin halına şamil olar ki, Hüseyni (ə), İbrahim (ə) Hüseyni (ə) istədiyi qədər istəsin. Çünki, bu rəvayətin əvvəlində İbrahimdən (ə) soruşurlar ki: "Məxluqatın arasında ən çox sevdiyin kimdir?" Dedi: "Sənin həbibin." Vəhy oldu: "Onu çox istəyirsən ya özünü?" Dedi: "Onu özümdən çox istəyirəm." Vəhy oldu: "Onun övladını çox istəyirsən ya öz övladını?" Dedi: "Onun övladını." Buyurdu: "Onun övladının düşmənlər tərəfindən zülm ilə başının kəsilməsi sənin qəlbini daha çox yandırar ya öz əlinlə öz övladının başını Mənim əmrimə itaət

[1] Bihar 44/304; İmam Əskərinin (ə) təfsiri səh. 369
[2] Bihar 44/ 225-226; Uyuni Əxbari Rza 1/209

edərək kəsməyin?" Dedi: "Onun övladının başının kəsilməsi." Bu vaxt Kərbəla vaqiəsi onun üçün bəyan olundu və İbrahim (ə) ağladı və həmin əvvəl zikr edilən vəhy ona nazil oldu.

Beləliklə, ey Hüseyni (ə) öz əziz övladınızdan daha çox istəyən və Hüseynin (ə) başının kəsilməsi əziz övladınızın başının kəsilməsindən qəlbinizi daha çox dərdə gətirən kəslər, sizlərə müjdə olsun ki, hər ağlamağınıza övladınızı Allah yolunda qurban vermək savabı yazılacaqdır, inşallah.

3-cü: Bu əməlin nə azlıqda həddi nə də çoxluqda savabının sayı-hesabı var.

4-cü: Bu əməl həqiqi olmasa da, bənzətmə olsa belə, yenə də savabı vardır, yəni insan özünü ağlayana bənzətsə və başını aşağı salıb, səs çıxartsa və qəlbinin kövrəlmə əlamətini zahir etsə belə yenə də savab qazanmışdır. Lakin bu bənzətmə bəzilərinin güman etdiyi kimi riya üçün deyil, Allaha xatir olmalıdır.

5-ci: Bəziləri yuxarıda deyilən və bəziləri də qabaqda gələn bir neçə cəhətə görə, bu əməl imanın və saleh əməllərin tamam mərhələlərindən üstündür.

Doqquzuncu məqsəd: Əcr və savab baxımından ağlamağın xüsusiyyətləri

Bu xüsusiyyətlər neçə növdürlər:

Birinci: Qorxulardan və əzabdan nicat tapmaqla bağlı olan xüsusiyyətlər və bunun təfsilatı bir neçə məsələdən ibarətdir:

Biri; ruh bədəndən çıxan zaman şiddətli əziyyətlər olur, həm böyük qorxu, həm də şiddətli ağrılar. Əmir-əl-möminin (ə) buyurur: "Ölümün vəsfə gəlməyən və dünya əhlinin ağlına sığmayan çətinlikləri var."

İmam Hüseynə (ə) ağlamaq həmin şiddət və çətinliklərdən nicat verər. İmam Sadiq (ə) Məsmə ibn Məlikə buyurdu: "Sən İraq əhlindənsən, İmam Hüseynin (ə) ziyarətinə gedirsənmi?" Dedi: "Xeyr, nasibilərdən olan düşmənlərim var, qorxuram va-

liyə xabər versinlər, o da mənə cəza versin, çünki mən təqiyə məsələsini tərk etmişəm." Buyurdu: "O Həzrətin (ə) müsibətini yad edib ağlayırsanmı?" Dedi: "Bəli, Allaha and olsun onu yad edirəm və ağlayıram, hüzn və qəm-qüssənin əsəri məndə zahir olur, yeməkdən və su içməkdən qalıram." Həzrət (ə) buyurdu: "Bil ki, ölüm anında bizim atalarımızı görəcəksən, onlar ölüm mələyinə elə bir vəsiyyət edəcəklər ki, bu sənin gözlərinin işıqlanmasına səbəb olacaqdır."

İkinci: Günah əhlinə ölüm mələyi dəhşətli və çox qorxulu surətdə görünür, ancaq İmam Hüseynə (ə) ağlamaq bu dəhşətdən nicat verər. Necə ki, İmam Sadiq (ə) Məsməyə, əvvəl nəql etdiyimiz sözdən sonra buyurmuşdur: "Ölüm mələyi sənin üçün anandan mehriban olacaqdır." Məlumdur ki, mehriban ananı müşahidə etmək vəhşət doğurmaz."[1]

Üçüncü: İnsanın qəbrə qoyulması böyük müsibətdir, çünki insan orada vəhşət və qorxu ilə üz-üzə gəlir, buna görə şəriətdə meyiti qəbrə yaxınlaşdıranda üç dəfə yerə qoymaq müstəhəbbidir ki, qəbrin vəhşətinə hazırlaşsın. İmam Hüseynə (ə) ağlamaq bu vəhşətdən nicat verər. Çoxsaylı rəvayətlərdə gəlir ki: "Kim bir möminin qəlbini sevindirsə, Allah-taala həmin sevincdən bir xoş simalı surət yaradar və bu surət meyitdən qabaq qəbrə daxil olar, onu qarşılayar və buyurar: "Ey Allahın dostu, Allahın kəraməti və razılığı ilə sənə müjdə verirəm, arxayın ol mən qiyamət gününədək sənin munisin olacam."[2] Beləliklə, İmam Hüseynə (ə) ağlamaqla Peyğəmbərin (s), hidayət İmamlarının (ə) və Fatimeyi-Zəhranın (ə) qəlbinin sevincindən, – necə ki, özləri buyurmuşlar ki: "Bu əməl bizlərə ehsan, sileyi-rəhm və köməkdir" – yaranan surətin necə də gözəl və daimi munis olmağı təsəvvürə gələrmi?

Dördüncü: Qəbirdə və bərzəxdə qalmaq şiddətli əzab və böyük bəladır necə ki, Əmir-əl-möminin (ə) buyurur: "Onlar hər an fəryad edərlər bizi bu qəbrin sıxlığı təngə gətiribdir, başımı-

[1] Bihar 44/289; Kamiluz-ziyarat 32-ci fəsil səh.101.
[2] Bihar 44/290; Usuli Kafi 2/190

za tökülən qumlar üzümüzü dəyişdiribdir, səfamız və dəyərimiz aradan gedibdir və vəhşətimiz çox uzun sürdü."[1]

İmam Hüseynə (ə) ağlamaq bu məqamda insanın dadına yetişər çünki, rəvayətdə Hüseynin (ə) müsibətinə ağlayanın haqqında gəlir ki, o ölüm anında elə sevincək olar ki, bu sevinc onun qəlbində qiyamət gününədək qalar.[2]

Beşinci: Qəbirdən qalxmaq dəhşətli müsibət və böyük bəladır, İmam Səccad (ə) bu mənzərəni yadına salanda ağlayırdı və buyurardu: "Qəbirdən qalxacağım zaman öz halıma ağlayıram, çünki bədənim üryan və günahlarımın ağırlığı çiyinlərimi əymiş olacaqdır, gah sağ tərəfə, gah da sol tərəfimə baxaram. O zaman hər kəs öz halına başı qarışar, bəziləri gülər və şad olarlar, bəziləri isə dərdə-qəmə batarlar.

İmam Hüseynə (ə) ağlamaq bədənin örtülməsinə, izzətə və yükün yüngüllyünə səbəb olar. "Ağlayanın" barəsində nəql olunur ki: "Qəbirdən qalxanda onun surətindən sevinc zahir olar, mələklər onu qarşılamağa gələrlər və İlahi savabla müjdə verərlər."[3]

Altıncı: Qiyamət gününün zəlzələsi dəhşətli mənzərə və böyük qorxudur, onun bir neçə əhvalı, məqamı və mərhələsi vardır. Onun şiddətləri çoxdur və hər bir halətinin öz adı vardır, o cümlədən: Qiyamət, Ğaşiyə, Saət, Zəlzələ, Haqqə, Qariə, Yəvmul-fəsl, Yəvmud-din, Yəvmul-ərəzul əkbər, Yəvmul-fəzul əkbər (böyük qorxu günü), Yəvmul-hesab, Tammətul-kubra, Vaqiə, Yəvmul-firar, Yəvmul-buka, Yəvmut-tinad, Yəvmut-təğabun, Yəvmul-əzəfə, xülasə tamam bu məqamların əməllərə, sifətlərə, hallara, əxlaqa, şiddətli mücahidələrə, can və mal verməyə, gecələri oyaq qalmağa, çoxlu ibadətlərə, rahatlığı tərk etməyə və dünyada zahid olmağa ehtiyacı vardır. Amma Seyyidi şühədaya (ə) ağlamaq bütün bu dayanacaqları və məqamları yüngül edir.

Peyğəmbər (s) Xanım Zəhranın (ə) bu sualına: "Oğlum Hüseynin (ə) əzasını kim saxlayacaq?" Buyurdu: "Ümmətimin ta-

[1] Nəhcül-bəlağə 212-ci xütbə
[2] Bihar 44/290; Kamiluz-ziyarat 32-ci fəsil səh.101
[3] Bihar 45/207; Kamiluz-ziyarat 26/81

mam yaxşı insanları." Sonra buyurdu: "Qiyamət günü Hüseynə (ə) ağlayanların əllərindən tutub cənnətə daxil edərəm."[1] Əlbəttə əli Peyğəmbərin (s) əlində olan kəs Vaqiədən, Tammədən, qorxudan və hüzndən amanda olacaqdır.

Yeddinci: Əməl nameləri oxunan və sorğu-sual olunan zaman vəziyyət çox şiddətli olacaqdır. Əmir əl möminin (ə) bu vəziyyəti təsəvvür edən zaman ağlayardı, gecə vaxtı səhraya keçib, növhə oxuyardı və buyurardı: "Ah o vaxtdan ki, unutduğum bir günah əməli oxuyacam, amma Sən o əməli qeyd etmişsən. Sonra buyuracaqsan: "Götürün bunu." Vay o kəsin halına ki, onu götürüb, apacaqlar, nə yaxınları onun dadına yetişəcək, nə də tayfası ona nicat verəcək. Sonra ilan sancmış kimi qıvrılar, yerə yıxılar, qəşşş edər və taxta kimi quruyar."[2]

İmam Hüseynə (ə) ağlamaq bu məqamda insanın dadına yetişər, çünki İmam Hüseynə (ə) ağlayanlar Ərşin kölgəsində İmam Hüseynin (ə) xidmətində olacaqlar və sair insanlar isə sorğu-suala tutulacaqlar.[3]

Səkkizinci: Sirat körpüsündən keçmək dəhşətli qorxu ilə bərabər olur, əlbəttə bu olmalıdır və Quranın ayəsinə əsasən hətmidir (Məryəm /71). İnsanlar bu körpüdən müxtəlif növlərlə kecəcəklər, bəziləri ildırım surətilə, bəziləri zəhmətlə ancaq salamatçılıqla, bir iddə camaat ondan keçən zaman kəpənək kimi oda düşəcəklər, bir halda ki, Peyğəmbər (s) orada dayanıb, buyuracaq: "Ey Allahım amanda saxla." Ancaq o Həzrət (ə) İmam Hüseynə (ə) ağlayanların əlindən tutacaq və onları körpüdən keçirdəcək və onun dayanacaqlarından nicat verəcək."[4]

Doqquzuncu: Bir şəxsin tutulub cəhənnəmə aparılması ən dəhşətli və şiddətli haldır və "böyük qorxu" buna deyərlər, ancaq İmam Hüseynə (ə) ağlamaq bundan nicat verər.[5]

---

[1] Bihar 44/292-293; Əvaləm 17/534
[2] Bihar 41/11-12; Əmaliye Səduq 18/73
[3] Bihar 45/207; Kamiluz-ziyarat 26/81
[4] Bihar 8/45 və 44/234; Təfsiri Qummi 2/421
[5] Bihar 45/207; Kzmiluz-ziyarat 26/81

Onuncu: Cəhənnəmə daxil olmaq ən böyük bəla və ən şiddətli cəzadır, Seyyidi şühədaya (ə) ağlamaq insanı ondan xilas edər. Rəvayətdə gəldiyi kimi, o göz yaşlarının bir damlası cəhənnəmin hərarətini söndürər.[1] Bu da ola bilsin bir kinayədir ki, əgər ağlayan cəhənnəmə müstəhəq olsa da hətmən ondan çıxarılacaqdır.

İkinci növ: Bu günahların kəffarəsi ilə bağlı məsələdir. Çoxsaylı rəvayətlərdə gəlir ki, Hüseynin (ə) müsibətində axıdılan bir damla göz yaşı tamam günahların kəffarəsidir, hərçənd bu günahlar ulduzların sayı və dənizlərin köpükləri qədər olsa belə.[2]

Üçüncü növ: Bu növ, şəxsin gözəl halı ilə bağlı olan məsələdir; bu haldan daha yaxşı nə ola bilər ki, İmam Hüseynin (ə) xahişi ilə Peyğəmbərin (s), hidayət İmamlarının (ə) və Fatimeyi-Zəhranın (ə) duası həmin şəxsin ünvanına yetişsin. Bu halət o Həzrətin (ə) müsibətinə ağlamaqla hasil olar.

Dördüncü növ: Əcr hasil etmək baxımından; Rəvayətdə gəlir ki, həmin göz yaşlarından bir damlasının əcri şəxsin həmişəlik cənnətdə bir mənzili əldə etməkdir.

Beşinci növ: Dərəcələrin artması baxımından; Cənnətdə Xatəmul-ənbiyanın (s) və hidayət İmamlarının (ə) dərəcəsindən ali dərəcə yoxdur, rəvaəyətdə gəlir ki, İmam Hüseynin (ə) müsibətinə ağlayan şəxs behiştdə onlarla bərabər, eyni dərəcədə olacaqdır.[3]

Onuncu məqsəd: Hüseynə (ə) ağlayan gözün xüsusiyyəti barədə

Rəvayətlərə əsasən burada bir neçə xüsusiyyət vardır:

1-ci: Bu göz Allah yanında tamam gözlərdən daha sevimlidir.[4]

2-ci: Qiyamət günü bütün gözlər ağlayacaqdır, yalnız Hüseynə (ə) ağlayan gözlərdən başqa, bu göz behişt nemətlərini seyr etməklə sevinəcəkdir.

---

[1] Bihar 44/290; Kamiluz-ziyarat 32/103; Uyuni əxbari Rza 2/22

[2] Həmin.

[3] Bihar 44/ 272,278; Kamiluz-ziyarat 32/100; Əmaliye Səduq 17/68

[4] Bihar 45/207; Kamiluz-ziyarat 26/81

3-cü: Əlbəttə bu göz Kövsər hovuzuna baxmaqla sevinəcəkdir.

4-cü: Bu gözü mələklər silərlər, çünki onlar həmin göz yaşlarını yığarlar və saxlayarlar.[1]

On birinci məqsəd: Məzlum İmama (ə) axıdılan göz yaşının xüsusiyyətləri barədə

Burada beş xüsusiyyət var:

1-ci: Allah yanında tamam göz yaşlarından daha sevimlidir.

2-ci: Bu göz yaşının bir damlası cəhənnəmə düşsə onun hərarətini söndürər.

3-cü: Mələklər bu göz yaşlarını yığıb, şüşədə saxlayarlar.

4-cü: Bu göz yaşlarını behiştin xəzinədarlarına təslim edərlər və onlar da həmin göz yaşlarını həyat suyu ilə qatarlar və bu suyun şirinliyi min dəfə artar.

5-ci: Hər bir əməlin savabının həddi-hüdudu vardır, yalnız həmin göz yaşının əcrindən başqa ki, onun savabının həddi-hududu yoxdur.[2]

On ikinci məqsəd: Deyilən məqsədlərin xətmi

Deyilən məqsədlərə xətm vuraraq və naqis əqillərə cavab verərək deyirik: Bu keyfiyyətləri və qəribə xüsusiyyətləri eşidəndə təəccüb etmə və bu az əməl üçün bu qədər xüsusiyyətləri və savabları çox hesab etmə. Çünki, həqiqətdə bu savablar bir damla göz yaşına xatir deyil, əslində İmam Hüseynin (ə) etdiyi xidmətinin müqabilində Allah-taalanın o Həzrətə (ə) bəxş etdiyi kəramətdir. Ola bilsin keçmiş Padşahların əhvalatlarında eşitmisən ki, onlar cüzi bir xidmət müqabilində böyük bəxşişlər etmişlər. Məsələn, bir ərəb Muin ibn Zaidəni, məzmunu belə olan bir şeir ilə mədh et-

[1] Bihar 44/293, 290, 305
[2] Bihar 44/ 287,305

mişdir: "Ey Muinin səxavəti mənim hacətimi onun şərif qulağına çatdır ki, mənim başqa bir vasitəm yoxdur." Muin şairi öz yanına çağırtdırır və ona 100 000 dirhəm verir, sonrakı gün ona 200 000 dirhəm bəxş edir, üçüncü gün 400 000 dirhəm hədiyyə edir, dördüncü gün onu yenə çağırtdırır, ancaq deyirlər ki: "Verdiklərini geri almağından qorxduğuna görə qaçıb, gedibdir." Muin dedi: "Əgər qalsaydı xəzinənin hamısını ona bağışlayardım."[1]

Beləliklə, bu kiçik, fəqir və möhtac bəndə fəqət dil ilə, hələ qəlblə də yox bir mədh şeirinə xatir tamam xəzinəni verməyə hazırdırsa, necə ola bilər ki, tamam Mülkün Sahibi olan və səxavətinin sonu olmayan Allah-taala Onun razılığı yolunda təşnə, ailəsindən narahat halda və hər tərəfdən dil, qılınc, nizə, xəncər və daş yarası aldığı halda canından, malından, əlindən, ayağından, başından, tamam əzalarından, övladlarından, əhli-əyalından, rahatlığından və öz həyatından keçən bir şəxsə Öz lütfünü və kərəmini bəxş etməsin.

Müəllif deyir: "Tureyhinin "Müntəxab" kitabında nəql olunur ki, Seyid Əli Hüseyni deyir: "Bir dəstə möminlərlə birlikdə müqəddəs Məşhəd şəhərində idim. Aşura günü gələndə dostlardan biri "Məqtəl" oxumağa başladı. Gəlib bu yerə çatdı ki, İmam Baqir (ə) buyurur: "Kimin gözündən İmam Hüseynin (ə) müsibətində bir milçəyin qanadı qədər göz yaşı axarsa Allah-taala onun günahlarını bağışlayar, hərçənd bu günahlar dəryanın köpükləri qədər olsa belə." Məclisdə olan bir nəfər bu xəbəri inkar edərək, dedi: "Bu əql ilə düz gəlmir." Uzun mübahisə oldu və camaat dağılışdı. Həmin şəxs yatıb yuxuda gördü ki, qiyamət günü bərpa olubdur və o da təşnə halındadır. Hər tərəfə baxıb, su axtarırdı ki, sərin su ilə dolu olan böyük bir hovuz gördü. Hovuzun kənarında iki kişi və qaraya örtünmüş qəmli bir qadın dayanmışdılar. Soruşdu ki, bunlar kimlərdir? Dedilər: "Muhəmməd (s), Əli (ə) və Fatimədir (ə)." Şəxs, Xanım Fatiməyə (ə) yaxınlaşıb, su istədi. Xanım (ə) tünd baxışla ona nəzər yetirib, buyurdu: "Sən

[1] Ənvari Nemətiyə 3/280

göz yaşının fəzilətini inkar edirsən." Şəxs yuxudan oyandı və öz sözlərinə görə istiğfar etdi.[1]

Belə inkarda o Həzrətin (ə) məqamının kiçiltmək və onun əcrinin azaldılması vardır çünki, bu bəxşişlərin hamısı o Həzrətə (ə) bəxş edilmişdir.

Məsələn, İmam Hüseyni (ə) vətənindən avarə etdiklərinə görə hər dəfə sənin qəlbin kövrələndə və gözündən yaş axanda sənə yetişən əcr əslində həmin göz yaşına xatir deyil ki, sən də ona böyük bir nəzərlə baxırsan. Həqiqətdə o əcr Həzrətin (ə) vətənindən didərgin düşməsinin keyfiyyətidir və o Həzrətin (ə) özünə məxsusdur. Çünki, ona bütün ölkələri və məkanları qadağan etdilər, hətta kəsilmiş başına belə bir yer qərar vermədilər. Məgər bu əcrlər həmin bu keyfiyyət üçün çoxdurmu?

Həmçinin, o Həzrətin (ə) təşnəliyi üçün təsirlənsən və göz yaşı axıtsan, bu yalnız göz yaşlarının və onun təşnəliyinin əcri olmayacaq, əslində o Həzrətin (ə) qəlbinin yanmasının, dilinin yara olmasının, dodaqlarının və ağzının qurumasının, gözlərinin qaralmasının, düşmənlərinin tənəsindən qəlbinin sızlamasının, onların bu sözlərinə ki: "Cəhənnəmin həmimindən içməmiş, burada su içməyəcəksən" – səbir etməsinin əcridir. Beləliklə, əgər göz yaşı cəhənnəmə düşüb, onun atəşini söndürərsə bu bir damla göz yaşının əcri deyil, o Həzrətin (ə) qəlbinin yanmasının əcridir. Əgər qəlbin Hüseynin (ə) yaralarına görə kövrələrsə və gözlərin yaşararsa, onun əcri İmamın (ə) şərif bədəninə vurulan yara üstə yaralara səbir etməyə xatirdir. Çünki, yeddi qarış uzunluğu olan bədənə 4000 ox, yetmişdən artıq qılınc və bir o qədərdə nizə yarası dəyibsə təbii ki, bunların bəziləri üst-üstə dəyəcəkdi. Bəs, bu müsibətə göz yaşının əvəzinə qan ağlamaq lazımdır.

Hər nə vaxt o Həzrətin (ə) qətlinə görə qəlbin kövrəlsə və gözündən yaş axsa onun əcri nə göz yaşına, nə də qətlə xatir deyil, əslində onun mübarək başının qılınc zərbələri ilə kəsilməsinə xatirdir, "Can məzlum ağam, nə qədər ağırdır sənin müsibətin səma və yer əhli üçün."

[1] Müntəxab Tureyhi 2/83

YEDDİNCİ ÜNVAN

İMAM HÜSEYNİN (Ə) ZİYARƏTİNİN XÜSUSİYYƏTLƏRİ VƏ ONUN ON İKİ FƏSLİ

Bu xüsusiyyətlər Hüseyni (ə) vasitələrin ən əzəmətlisidir və on iki fəsildən ibarətdir:

BİRİNCİ FƏSİL

İMAM HÜSEYNİN (Ə) ZİYARƏTİNİN XÜSUSİYYƏTLƏRİ BARƏDƏ

Birinci: Digər əməllərə nisbət cəm etmə xasiyyətinə malikdir, yəni həkim və alim Allah hikmətinə və məsləhət bildiyinə görə bəndələri məxsusi vacib və müstəhəb əməllərə mükəlləf etmişdir və bu əməllərin hər birinin Allaha yaxınlaşmaq üçün məxsusi təsiri vardır, müxtəlif yeməklərin və meyvələrin bədənə müxtəlif faydaları olduğu kimi. Buna görə, bəzi fəzilət sahibləri deyiblər ki, müstəhəbbi əməlləri azaltmaq lazım deyil, çünki o zaman onlarda olan digər xüsusiyyətləri əldən vermiş olacaqlar.

Lakin bu ziyarət əməli tamam vacib, müstəhəbb, ləfzi, feli, bədəni, qəlbi ibadətlərin, hərçənd onları qüvvədən salmasa da, bütün xüsusiyyətlərini cəm edir. Mətləbin bəyanı bundan ibarətdir ki, əməllərin ən üstünü dinin sütunu olan ***namazdır*** və iki cəhətlə bu ziyarət ilə hasil olur:

1-ci: Ziyarət o Həzrətin (ə) qəbrinin kənarında namazı özünə şamil edir və bu namazının savabının sonu yoxdur.[1]

2-ci: O Həzrətin (ə) qəbrinin kənarında daim 70 000 mələk namazla məşğuldurlar və onların hər birinin namazının savabı 1000 000 nəfər Bəni-Adəmin namazına bərabərdir və bunların hamısının savabı İmam Hüseyn (ə) zəvvarına verilir.

---

[1] Bihar 98/83; Kamiluz-ziyarat 83/252

Zəkat baxımından isə hər bir ziyarət üçün 1000 qəbul olunmuş zəkat savabı verilir.[1]

Həcc baxımından, İmam Hüseyni (ə) bir dəfə ziyarət etmək bir ümrə ilə həccə bərabərdir, ya iki, ya 10, ya 20, ya 22, ya 80, ya 100, ya 100 000 həccə bərabərdir, yaxud hər addımının qoyuluşu bir həccə və qaldırması bir ümrəyə bərabərdir.

Ərəfə günü İmam Hüseynin (ə) ziyarətinin fəziləti barədə Bəşir Dəhandan nəql olunan rəvayətdə gəlir ki: "Zəvvar Fərat suyunda qüsl alıb, O Həzrətin (ə) haqqına mərifəti olduğu halda, şərif qəbrinə tərəf gedərsə hər bir addımına yüz qəbul olunmuş həcc və ümrə yazılır."

Bəzi rəvayətlərdə gəlir ki, Peyğəmbərlə (s) birlikdə bir həcc, ya iki, ya 10, ya 30, ya 50, ya 100, bəzi rəvayətlərə görə Peyğəmbərin (s) öz həccinin savabı verilir. Əvvəl Aişədən nəql olunan rəvayətdə gəldiyi kimi, Allahın Peyğəmbərinin (s) 90 həccinin və ümrəsinin savabı verilir.[2]

Bu ixtilaflar zəvvarların iman qüvvələrinin mərtəbələrinə və hidayət İmamlarının (ə) haqqına olan mərifətlərinə müvafiqdir, məxsusən Seyyidi Şühədanın (ə) haqqına və o həzrətin (ə) fəzilətinə və xüsusiyyətlərinə olan yəqinləri miqdarındadır. Həmin xüsusiyyətlərdən biri də cəddi Peyğəmbərin (s) bu kəlamıdır: "Mən Hüseyndənəm" və onun şaxələrindən biri də Hüseynin (ə) ziyarətinin Peyğəmbərin (s) həccinə bərabər olmasıdır. Mümkündür səbəbi də budur ki, zəvvar Hüseynə (ə) olan məhəbbəti və şövqünə, həmçinin Peyğəmbərə (s) olan məhəbbətə xatir o Həzrətin (ə) ziyarətinə gedər və məhəbbətdə Peyğəmbərin (s) qəlbi ilə münasib olan qəlblə həqiqi Beytullahı ziyarət edər.

Beləliklə, İmamın (ə) şərif qəbrinin yanında hazır olanda, ya uzaqdan diqqətini o Həzrətə (ə) yönəldəndə, sanki sınıq qəlb ilə diqqətini Peyğəmbərin (s) qəlbi ilə Hüseynə (ə) yönəltmişdir. Eşitmiş olarsan balaca Hüseyn (ə) Peyğəmbər (s) səcdə halında ikən onun belinə minir və Peyğəmbər (s) Hüseynə (ə) olan məhəb-

[1] Bihar 98 /18, 56
[2] Bihar 98/ 28, 87, 35

bətindən və ehtiramından onu belindən düşürtmür və özü düşənədək səbir edir.[1]

Beləliklə, ziyarət vaxtı o Həzrəti (ə) Saleh ibn Vəhəbin nizə zərbəsindən sonra yerə yıxıldığını təsəvvür etsən[2] və salam verməklə o Həzrətin (ə) qəlbini şad etsən, bu əməl Peyğəmbərin (s) Hüseyni (ə) ziyarət etməsinə bərabərdir. Peyğəmbər (s) də bizlərə məlum olmayan sirr səbəbindən Beytullahdan 90 dəfə üstün olduğuna görə bu əməl Peyğəmbərin (s) 90 həccinin savabına malik olacaqdır.

Sədəqə vermək baxımından isə rəvayətə əsasən o Həzrətin (ə) ziyarəti 1000 qəbul olunmuş sədəqənin savabına malikdir.[3]

Oruc cəhətindən isə İmam Hüseynin (ə) ziyarəti 1000 günün orucunun savabına bərabərdir.[4]

Allah yolunda yardım etmək cəhətindən isə zəvvarın məqamı 1000 nəfəri tam hazırlanmış atlara mindirib, Allah yoluna göndərən şəxsin məqamındadır.

Cihad baxımından belədir ki, bu ziyarətdə Bədr müharibəsində şəhid olan min şəhidin savabı vardır, hətta özü də qiyamət günü şəhid ünvanında həşr olunacaqdır.

Qul azad etmək baxımından isə bu ziyarətdə 1000 qulu azad etmək savabı vardır.[5]

Rəvayətə əsasən əgər zəvvar ziyarətə piyada gedərsə hər addımına İsmayıl (ə) övladlarından bir qul azad etmək savabı vardır.[6]

Zikr və təsbih demək baxımından; Allah-taala zəvvarın tərindən 70 000 mələk xəlq edər, onlar Allahı təsbih və təqdis edərlər və burada müqərrəb mələklərin Allahı zikr etməklərinin savabı vardır.

Sileyi rəhm və möminlərə ehsan etmək baxımından; Bu ziyarətdə həqiqi valideyn olan Allahın Peyğəmbərinə (s) sileyi rəhm və o Həzrətə (s), Əmir-əl-möminə (ə), Xanım Zəhraya (ə), İmam Həsənə (ə) və İmam Hüseynə (ə) ehsan olunur.[7]

---

[1] Bihar 43/283

[2] Bihar 45/55; Məqtəli Xarezmi 2/35

[3] Bihar 98/18; Kamiluz-ziyarat 56/142.

[4] Həmin.

[5] Bihar 98/37,43

[6] Bihar 98/36; Kamiluz-ziyarat 49/134

[7] Bihar 45/207; Kamiluz-ziyarat 26/81

Yetimlərə və miskinlərə yemək vermək baxımından; Bu ziyarət İmam Hüseynin (ə) Əhli-beytindən təşnə olanlara su və yemək vermək mislindədir, habelə bu möminlərin ziyarətidir və onlara qarşı ehtiramdır. Buna əsasən, İmam Hüseyni (ə) ziyarət etmək möminlərin Seyidini (ə) ziyarət etmək və ona qarşı ehtiram və təzim göstərmək mislindədir.

Qərzül-həsənə (gözəl borc) vermək baxımından: Çətinlikdə olan mömimə borc vermək, Allaha borc vermək mislindədir. Bəs, çətinlikdə olan, vətənindən ayrı düşən, xalq tərəfindən qovulan, hətta mübarək cəsədi səhraya atılan və heç kəs bu mübarək cəsədin yanına belə getməyən möminlərin İmamına (ə) borc vermək necə olar. Beləliklə, sən o Həzrətin (ə) ziyarətinə getmək qəsdi edən zaman, əlbəttə Allaha böyük borc vermiş olursan və mənim ağlıma belə sığmır Allaha qərzül-həsənə (gözəl borc) edənlərə vədə verən Kərim Mövla neçə qat artıqlaması ilə savabını qaytaracaqdır.

Xəstəyə baş çəkmək baxımından isə, bu işi tərk edən şəxsi Allah-taala məhşər günü məzəmmət edəcəkdir ki: "Mən xəstə olan zaman niyə Məni ziyarət etmədin?"[1] Bir qədər fikirləşsən, anlayarsan ki, İmam Hüseynin (ə) ziyarəti qızdırması ya baş ağrısı olan xəstəyə baş çəkmək hökmündə deyil, əslində bu susuz yaralı, qəlbi qəmlə dolu, bədən əzaları kəsilmiş və doğranmış şəhidi ziyarət etməkdir. Nəql edirlər ki, Həzrəti Zəhranı (ə) belə məzmunda növhə dediyini yuxuda gördülər: "Ey iki gözüm ağlayın, göz yaşı axıdın və göz yaşlarınız qurumasın Kərbəla torpağında sinəsi doğranmış bir meyit üçün."[2] Buna görə o Həzrətin (ə) ziyarətinə getmək qəsdi edəndə ona baş çəkmək qəsdi et ki, xəstəyə qayğı göstərmək və baş çəkmək savabına nail olasan.

Möminin cənazəsinin dəfnində iştirak etmək baxımından; xüsusən qərib möminin cənazəsinin dəfnində iştirak etməyin fəzilətinin sonu yoxdur. O Həzrətin (ə) ziyarəti onun cənazəsinin dəfni, pak bədəninin qüsl verilməsi, kəfənlənməsi və öz qəlbində dəfn edilməsi hökmündədir.

[1] Bihar 78/219; Əmaliye Tusi 2/242; Vəsailuş-şiə 2/635
[2] Bihar 45/227;

Möminin qəlbini sevindirmək baxımından isə; bu ən üstün əməllərdən sayılır və dəhşətli qorxulardan nicat verər.[1] Buna əsasən ziyarətin fəziləti barədə deyilir, əgər zəvvar bilsəydi ki, Peyğəmbərin (s), Əmirəl-möminininin (ə), Fatimeyi-Zəhranın (ə), hidayət imamlarının (ə) və cəmi şəhidlərin qəlblərini nə qədər sevindirmiş və nə qədər onun haqqında dua edcəklər, habelə dünya və axirətdə nə qədər ona savablar veriləcəkdir, öz evini həmişəlik orada qərar vermək, yaxud heç vaxt evində qalmamağı (yəni, daim o Həzrətin (ə) yanında olmağı arzulayacaqdır.[2]

O Həzrətin (ə) zəvvarlarının fəzilətləri barədə

Zəvvarın hallarına müvafiq olan fəzilətlər barədə deyirik, bunlar 16 fəzilətdir:

1-ci: Ziyarətə getmək niyyəti edən halətdə İmam Sadiqdən (ə) nəql olunur ki, Allah-taala İmam Hüseynin (ə) qəbrinə mələklər müvəkkil etmişdir, beləliklə hər kəs o məzlum ağanı ziyarət etmək qəsdi edən zaman Allah-taala onun günahlarını həmin mələklərə təhvil verər. O, ziyarətə doğru bir addım atan kimi mələklər onun günahlarını hamısını silərlər, ikinci addımda onun yaxşı əməllərinin sayını artırarlar, üçüncü, dördüncü və sair addımlarında da beləcə davam edər və o vaxt cənnət ona vacib olar. Ziyarət niyyətindən sonra qüsl edərsə, Xatəmul-ənbiya (s) ona nida edər: "Ey Allahın qonağı müjdə olsun sənə ki, cənnətdə mənə yoldaş olacaqsan. Əli (ə) də ona nida edər: "Sənin hacətlərinin yerinə yetirilməsinə mən zamin dururam." Onlar zəvvar qayıdanadək onun sağında və solunda olarlar.[3]

2-ci: Ziyarət üçün lazım olan əşyaların (yol tədarükü) hazırlamaq səma əhlinin sevincinə səbəb olar.[4]

3-cü: Ziyarət üçün ləvazimatları tədarük görərkən xərclədiyi hər bir dirhəmin əvəzində ona Ühüd dağı dəyərində savab

[1] Bihar 71/290; Usuli-kafi 2/190
[2] Bihar 98/ 14-15; Kamiluz-ziyarat 98/297
[3] Bihar 98/64
[4] Bihar 98/163

verərlər, sonra ikiqat artığını da ona bəxş edərlər, bəlalar ondan uzaqlaşar. İbn Sənandan nəql olunan rəvayətə əsasən, hər bir dirhəmin əvəzində ona 1000 həsənat yazılar, sonra 1000 həsənat və 1000 həsənat və beləcə 10 dəfə artıranadək həsənat yazılar. Ancaq yenə də Allahın razılığı, Peyğəmbərin (s), Əlinin (ə) və hidayət İmamlarının (ə) onun barəsində duaları onun üçün daha yaxşıdır.

4-cü: Evindən çıxan zaman 600 mələk altı tərəfdən onu müşayiət edərlər.

5-ci: Yola düşəndə, hər qədəmində onu dua edərlər və hər addımında onun üçün 1000 həsənat yazılar. Əgər gəmiyə otursa və gəmi hərəkətə gələndə onlara nida yetişər: "Xoş halınıza ki, cənnət sizlər üçündür." Əgər bir miniyə süvar olsa miniyinin hər addımına görə ona min həsənat yazılar.

6-cı: Günəş onun üzərinə saçan zaman alov odunu yandıran kimi, günəş onun günahlarını yandırıb yox edər.

7-ci: "Məzari kəbir" kitabında nəql olunur ki, istinin şiddətindən, yaxud hərəkətdən tərləyərsə Allah-taala hər tərinin müqabilində 70000 mələk xəlq edər və onlar İmam Hüseynin (ə) zəvvarı üçün qiyamət gününədək günahlarının bağışlanmasını diləyərlər.

8-ci: Ziyarət üçün Fəratda qüsl alarsa tamam günahları ondan tökülər və Peyğəmbər (s) ona nida edər: "Müjdə olsun sənə ki, mənimlə cənnətdə yoldaş olacaqsan." Və Əmir-əl-möminin (ə) də buyurar: "Sənin hacətlərinin rəva olunmasına və bəlalardan azad olmağınıza mən zaminəm."

9-cu: Qüsldən sonra yola düşən zaman Allah-taala hər addımına 100 qəbul olunmuş həcc savabı, 100 qəbul olunmuş ümrə, Peyğəmbərin (s) qarşısında onun ən mənfur düşmənləri ilə edilən 100 cihad savabı yazacaqdır.

10-cu: Kərbəlaya yaxınlaşan zaman neçə sinif mələklər onu qarşılamağa, o cümlədən İmam Hüseynə (ə) Aşura günü kömək etmək istəyən 4000 mələk gələrlər, həmin mələklərə daim Kərbəlada qalmaq əmri olunmuşdur. O cümlədən 70 000 mələk və qeyriləri zəvvarları qarşılamağa çıxarlar.[1]

[1] Bihar 98/ 15,36,25,50, 68, 142, 61-62.

Mələklərin zəvvarlar üçün duaları

11-ci: İmam Hüseyn (ə) öz zəvvarına nəzər yetirər, onun üçün dua edər, cəddindən və atasından onun günahlarının bağışlanması üçün dua etmələrini diləyər. Sonra mələklər və tamam peyğəmbərlər (ə) zəvvarın haqqında dua edərlər və bütün ibadətlərin savabı onun üçün yazılar. Mələklər onunla əl ilə görüşərlər və ərşin nurundan onun alnına möhür vurarlar. O möhürdə belə yazılar: "Bu şəxs Xatəmil-ənbiyanın (s) övladı, Seyyidi şühəda Hüseynin (ə) qəbrinin zəvvarıdır.[1]

12-ci: Zəvvar öz vətəninə qayıdan zaman onu bir neçə sinif mələklər, o cümlədən Cəbrayıl (ə), Mikayıl (ə), İsrafil (ə), həmin yuxarıda deyilən 4000 və 70 000 mələk müşayiət edərlər. Məxsusən iki mələk onun yanına gəlib deyərlər: "Ey Allahın dostu artıq bağışlandın və Allahın, Peyğəmbərin (s) və onun Əhli-beytinin (ə) hizbindən (dəstəsindən) oldun. Allaha and olsun sən gözlərinlə atəş görməyəcəksən və atəş sənə yaxın gəlməyəcək. Munadi nida edər: "Xoş halına ki, cənnət sənin üçündür.[2]

13-cü: Ziyarətdən bir ya iki il sonra vəfat edərsə o mələklər onun cənazəsi üzərində hazır olarlar və günahlarının bağışlanmasını diləyərlər. Həmçinin ölüm anında və qəbrin ilk gecəsi İmam Hüseyn (ə) özü onun ziyarətinə gələr.[3]

Beləliklə, ey o kəslər ki, qəbirdə tənha, qərib qalacaqlar və vəhşətə düçar olacaqlar, ey o kəslər ki, ziyarətinizə heç kəs gəlməyəcək. Hətta gəlsələr belə, qəbrinizdən aralı dayanacaqlar. Əgər siz Hüseyni (ə) ziyarət etsəniz, əlbəttə o Həzrət (ə) də sizin ziyarətinizə gələcəkdir və sizə salam verəcəkdir, bəs bundan sonra sizin üçün vəhşət və xof qalacaqmı? İmam Hüseyni (ə) hər nə qədər çox ziyarət etsəniz və ona şövqünüz çox olsa, bir o qədər o Həzrət (ə) sizin ziyarətinizə çox gələcək və sizinlə ünsiyyətdə olacaqdır.

---

[1] Bihar 45/179
[2] Bihar 98/24
[3] Bihar 98/15,16

Mələklərin zəvvarın dəfn mərasimində iştirak etmələri

14-cü: İmam Sadiqdən (ə) nəql olunur ki: "Zəvvar yol üstündə dünyasını dəyişərsə mələklər onun dəfn mərasimində hazır olarlar və cənnətdən onun üçün kəfən və hənut gətirərlər, cənazəsinə namaz qılarlar, onun altına behişt reyhanisi döşəyərlər, onun qəbri hər səmtə üç mil məsafəsində genişlənər. Cənnətdən onun qəbrinə qapı açılar və qiyamət gününədək o qapıdan cənnətin ətri daxil olar.[1]

15-ci: Hər nə vaxt yol əsnasında zəvvara, həbs olunmaq və yaxud zərbə vurulmaq kimi əziyyət yetişərsə, həbs olunduğu hər günün və çəkdiyi hər qəm-qüssəsinin əvəzində qiyamət günü ona bir sevinc yetişəcəkdir. Ravi soruşdu: "Əgər onu həbsdən sonra ziyarətə getdiyinə görə vursalar, onda necə?" İmam (ə) buyurdu: "Vurulan hər zərbənin müqabilində ona bir huri bəxş edərlər və hər dərdinə görə 1000 000 həsənat yazarlar, 1000 000 günahı bağışlanar, məqamı 1000 000 dərəcə ucalar və qiyamət günü insanların hesabatı qurtaranadək Peyğəmbərlə (s) bərabər həmsöhbət olar, Allahın ərşini daşıyanlar onunla əl ilə görüşərlər və ona deyərlər: "Nə hacətin varsa istə." Həmçinin onu vuran kəsi hesaba çəkərlər və sorğu-sual etmədən qolundan tutub bir mələyin yanına apararlar və cəhənnəm şərbətindən ona içirdərlər, odlu dağlarda yerləşdirərələr və deyərlər: "Öz əllərinlə özün üçün hazırladığından dad, sən Allahın və Onun Peyğəmbərinin (s) qonağını vurmusan və ona əziyyət vermisən." Sonra vurulan zəvvarı cəhənnəmin qapısına gətirərlər və deyərlər: "Bax səni vuran kəsə, gör necə İlahi əzaba düçar olubdur. Sinən şəfa tapdımı və öz qisasını aldınmı?" O deyər: "Həmd olsun Allaha."[2]

16-cı: İmam Sadiqdən (ə) nəql olunur ki: "Əgər zəvvar ziyarət yolunda öldürülərsə axıdılan ilk damla qanında tamam günahları bağışlanar, mələklər Peyğəmbərin (s) vücudi kimi onun əsli vücu-

[1] Bihar 98/ 78
[2] Bihar 98/79

dunu yuyarlar və qəlbini kafirlərin vücudundan nə qarışığı var idsə yuyub, təmizləyərlər. Nəticədə qəlbi şadlanar və imanla dolar, pak halda Allahla görüşər, öz Əhli-beyti və 1000 nəfər din qardaşları barədə şəfaəti qəbul olunar. Mələklər, Cəbrayıl (ə) və Əzrayıl (ə) onun cənazəsinə namaz qılarlar, kəfənini və hənutunu behiştdən gətirərlər, qəbrini genişləndirərlər, qəbrində çıraqlar yandırarlar və qəbrinə cənnətdən bir qapı açarlar, mələklər cənnətdən onun üçün hədiyyələr gətirərlər və 18 gündən sonra müqəddəs dəstənin yanına apararlar və İsrafilin (ə) suru çalınanadək Allahın övliyaları ilə birlikdə olar. Surun ikinci çalınmasından sonra qəbirdən qalxar və onunla ilk əl ilə görüşən şəxs Peyğəmbərin (s) özü olar, Əmir-əl-möminin (ə) və digər vəsilər ona müjdə verərlər və deyərlər: "Bizimlə ol." Onu Kövsər hovuzunun kənarına gətirərlər və onun suyundan içirdərlər və istədiyi kəsə o sudan verər."[1]

O Həzrətin (ə) ziyarəti günahların bağışlanmasına səbəb olar

Üçüncü cəhət: İmam Hüseynin (ə) ziyarəti xüsusi şəkildə zəvvarın günahlarını təmizləyər. Bu məzmunda təxminən 40-a yaxın səhih hədis nəql olunmuşdur. Belə ki, onun keçmiş və gələcək günahları bağışlanar.[2]

Başqa bir hədisdə deyilir ki, zəvvar sanki anadan yeni doğulmuş körpə kimi günahsız olar, yaxud çirkli köynək yuyulub təmiz olduğu kimi olar. Heyrətamiz budur ki, rəvayətə əsasən bu mətləb həmin birinci addımda hasil olur və digər addımlarla müqəddəsləşir, saflaşır və nəhayət Allahla münacat etmək mərtəbəsinədək ucalır ki, Allah-taala ona buyurur: "Ey mənim bəndəm Məndən istə, Mən də bəxş edim."

Bir rəvayətdə də gəlir ki, ziyarət namazından sonra bir mələk onun yanına gəlib deyir: "Xatəmul-ənbiya (s) sənə salam göndərir və buyurur: "Keçmiş günahların bağışlandı, bəs əməllərini təzədən başla."

---

[1] Həmin

[2] Bihar 98/21-28

Zəvvarın başqaları haqqında şəfaəti

Dördüncü cəhət: Bu ziyarət başqalarının xilas olmasına səbəb olar. Belə ki, Seyf Təmmar İmam Sadiqdən (ə) rəvayət edir ki, zəvvarın şəhadəti 100 həfər cəhənnəmə müstəhəq olan kəslərin haqqında qəbul olunur. Başqa bir rəvayətdə gəlir ki: "Zəvvara deyərlər: "İstədiyin kəsin əlindən tut və cənnətə daxil et."[1]

Beşinci cəhət: Hər bir əməl sona yetir, hərçənd savabı qalsa belə, yalnız İmam Hüseynin (ə) ziyarətindən başqa, belə ki qiyamət gününədək bu əməlin özü sona yetmir. Səffan İmam Sadiqdən (ə) nəql edir ki: "Bir şəxs İmam Hüseynin (ə) ziyarəti üçün yola düşərsə 70 000 mələk onun ətrafına toplanıb, onu müşayiət edərlər. O Həzrəti (ə) ziyarət edəndən sonra munadi nida edər: "Sən bağışlandın, bəs əməllərini təzədən başla." Evinə qayıdanda mələklər mənzilinə qədər onu müşayiət edərlər. Sonra onunla vidalaşarlar və ölən gününədək həmişə onun ziyarətinə gələrlər. Öləndən sonra isə həmin mələklər hər gün İmam Hüseynin (ə) ziyarətinə gedərlər və bunun savabını həmin şəxs üçün yazarlar.[2]

İmam Hüseynin (ə) ziyarəti 30 qəbul olunmuş həccə bərabərdir

Altıncı cəhət: Zəvvar, qeyrisi üçün mümkün olmayan bir məqama ucalır. Belə ki, Hüseynin (ə) zəvvarı Peyğəmbərlə (s) bərabər həcc etmək savabına nail olur. Musa ibn Qasim Həzrəmi İmam Sadiqdən (ə) nəql edir ki: "İmam Sadiq (ə) Mənsurun xilafətinin ilk vaxtlarında Nəcəfə gələndə mənə buyurdu: "Ey Musa, get yol başında dayan, Qadisiyə tərəfdən bir nəfər gələcəkdir, ona de ki: "Burada Peyğəmbər (s) övladlarından biri səni çağırır." Və onu mənim yanıma gətir." Mən getdim və isti havada yol başında dayandım.Yorulanadək gözlədim, az qalırdım o Həzrətin (ə) əmrinə müxalif olum və qayıdım, elə bu vaxt uzaqdan bir nəfərin

[1] Bihar 98/20-27
[2] Bihar 98/68

gəldiyini gördüm. Dəvəyə süvar olmuş bir kişi idi, mənim yanıma çatanda İmamın (ə) sözlərini ona çatdırdım. O itaət edib, mənimlə gəldi. Gəlib çatanda dəvəsini yatırtdı və Həzrətin (ə) yanına gəldi, mən də xeymədə idim və onların səslərini eşidirdim. İmam (ə) buyurdu: "Haradan gəlirsən?" Dedi: "Yəmənin uzaq şəhərindən." Buyurdu: "Filan şəhərdən?" Dedi: "Bəli." Buyurdu: "Buraya nə üçün gəlmisən?" Dedi: "Hüseyni (ə) ziyarət etmək üçün." Buyurdu: "Məgər o Həzrəti (ə) ziyarət etməkdən savayı bir hacətin yoxdur?" Dedi: "Yoxdur, yalnız gəldim onu ziyarət edim, onun yanında namaz qılım, ona salam verim və öz diyarıma qayıdım." Buyurdu: "Bu ziyarətdə nə görürsən?" Dedi: "Bu ziyarətdə canın, malın, əhlin, övladın, maaşın bərəkətini və hacətlərin yerinə yetirilməsini görürəm." Buyurdu: "O Həzrətin (ə) ziyarətinin fəziləti barədə sənə deyimmi?" Dedi: "Buyur, ey Allah Rəsulunun (s) övladı." Buyurdu: "Həqiqətən, Hüseynin (ə) ziyarəti Peyğəmbərlə (s) birlikdə yerinə yetirilmiş, məqbul həccə bərabərdir." O kişi təəccüb etdi. Buyurdu: "Bəli, Allaha and olsun Peyğəmbərlə (s) birlikdə yerinə yetirilmiş iki məqbul həccə bərabərdir." Yenə təəccüb etdi və Həzrət (ə) Xatəmul-ənbiya (s) ilə birlikdə yerinə yetirilmiş 30 qəbul olunmuş həccə qədər artırdı."

Yeddinci cəhət: Zəvvar elə bir məqama çata bilər ki, o məqama çatmaq özü-özlüyündə mümkün deyil. Belə ki, o şəxsin həcci Peyğəmbərin (s) öz həcci ola bilər və bu məna İmam Hüseynin (ə) ziyarəti barədə gəlibdir. Əvvəldə Aişədən nəql olunan hədisdə bu məna zikr olundu.[1]

Allah-taala zəvvarı ümidsiz qaytarmır

Səkkizinci cəhət: Allah-taala zəvvarı naümid qaytarmayacağına and içibdir. İmam Muhəmməd Baqirdən (ə) nəql olunur ki: "İmam Hüseyn (ə) Kərbəlada təşnə və qüssəli halda şəhid olanda Allah-taala and içdi ki, hər bir təşnə, qəmli, dərdli və xəstə o Həzrətin (ə) qəbrinin kənarına gedə, dua edə və o Həzrətə (ə) təvəssül edərsə,

[1] Bihar 98/35,39

əlbəttə o şəxsin qəm-qüssəsini aradan aparacaqdır, hacətini yerinə yetirəcəkdir, günahlarını bağışlayar və ruzisini artıracaqdır.

Doqquzuncu cəhət: Rəvayətdə digər bir xüsusiyyət də zikr olunubdur; əgər zəvvar gecə O Həzrətin (ə) qəbrinin kənarında oyaq galarsa və gündüzünü zəhmətdə olarsa, Allah-taala ona nəzər yetirər və bu nəzərlə ən ali behişt ona vacib olar.

Onuncu cəhət: "Bu ziyarətdə məxsusi təsirlər vardır, o cümlədən ömrün və ruzinin artması.

Ərəfə gününün ziyarəti barəsində gəlir ki, bu ziyarət qəlbin haqq əqidəsində aramlıq tapmasına səbəb olar və bu təsir tamam təsirlərdən üstündür, çünki hər şey bunun üzərində dayanır, o cümlədən tamam pislikləri və pis ölümləri uzaqlaşdırır.[1]

Zikr olunan 15 hədisdə nəql olunduğu kimi, bu ziyarət Peyğəmbərin zəmanətini qazandırar. Hər kəs Hüseyni (ə), onun atasını (ə), anasını (ə) və qardaşını ziyarət etsə Peyğəmbər (s) qiyamət günü o zəvvarı ziyarət edəcəyinə və qiyamətin şiddətində ona nicat verəcəyinə zamin olur.

O Həzrətin (ə) ziyarətinin qəribə fəzilətləri barədə

On birinci cəhət: O Həzrətin (ə) ziyarətinin qəribə fəzilətlərindən biri də budur ki, hal-hazırda İmam Hüseyni (ə) ziyarət etmək sair İmamları (ə) öz həyatlarında ziyarət etməkdən üstündür. Məsələn, İmam Sadiq (ə) bu həyatda olsaydı və sən o Həzrətin (ə) ziyarətinə gedib onunla söhbət etsəydin və o da sənlə söhbət etsəydi bu sənin hal-hazırda İmam Hüseynin (ə) ziyarətinə getməyinin fəzilətinə çatmazdı.

İbn Əbu Yafur rəvayət edir ki, İmam Sadiqə (ə) ərz etdim: "Sizi ziyarət etmək şövqü məni elə zəhmətə və məşəqqətə saldı ki, nəhayət xidmətinizə yetişdim." İmam (ə) buyurdu: "Allahdan şikayət etmə, niyə haqqı mənim haqqımdan daha əzəmətli

[1] Bihar 98/12, 35,39, 46, 47,48, 86.

olan şəxsin ziyarətinə getmədin?" Ravi deyir: "bu söz mənə "Allahdan şikayət etmə" sözündən daha ağır gəldi. Dedim: "Mənim üzərimdə haqqı sizin haqqınızdan daha əzəmətli olan şəxs kimdir?" Buyurdu: "Hüseyn ibn Əli (ə), onun ziyarətinə getsəydin, dua etsəydin və öz halından şikayət etsəydin daha yaxşı olardı."[1]

Həmçinin İmam Baqir (ə) İmam Hüseynin (ə) zəvvarını ziyarət etməyə gedərdi. Həmran rəvayət edir ki: "İmam Hüseynin (ə) qəbrini ziyarət etdim, evə qayıtdıqda Həzrət Baqir (ə) mənim yanıma təşrif gətirdi və buyurdu: "Ey Həmran, kim Ali-Muhəmməd (ə) şəhidlərinin qəbirlərini Allaha yaxınlaşmaq niyyətilə ziyarət edərsə, anasında doğulduğu kimi günahlardan çölə çıxar."

O cümlədən qəribə fəlilətlərdən budur ki, İlahi rəhmət nəzərləri zəvvarlara nisbət xüsusiyyətlərə malikdir. Rəvayətdə, İmam (ə) hər günün İlahi rəhmət nəzərlərini zikr etdikdən sonra buyurur: "Allah-taala həmin nəzərlə İmam Hüseynin (ə) zəvvarını bağışlayar, məxsusən zəvvarın Əhli-beytini və zəvvara izn verər ki, istədiyi kəsə şəfaət etsin, hərçənd o şəxs cəhənnəmə müstəhəq olsa belə."

Həmən fəzilətlərin incəliklərindən biri də budur ki, zəvvar cənnətə daxil olmaqda imtiyazlara malikdir belə ki, başqalarından 40-il qabaq cənnətə daxil olacaqdır. Hər kəs o Həzrətin (ə) zəvvarından təbərrük götürər, ona nəzər salar və ümid edər ki, zəvvar İmam Hüseynin (ə) qəbrinə nəzər yetirməyinin bərəkətindən, ona nəzər yetirməklə xeyir, bərəkət tapar.

Habelə o Həzrətin (ə) fəzilətlərinin qəribəliklərindən budur ki, hələ də onun ziyarətinin fəzilətlərinin hamısı bəyan olunmayıb. Səhih rəvayətdə gəlir ki: "Əgər insanlar İmam Hüseynin (ə) ziyarətinin fəzilətlərinin hamısını bilsəydilər, dərhal şövqlərindən ölərdilər."[2]

Başqa bir rəvayətdə gəlir ki: "Əgər bu ziyarətin fəzilətini bilsəydilər, durmadan uzaq ölkələrdən uşaq kimi imələyərək gələrdilər."[3]

---

[1] Bihar 98/46

[2] Bihar 98/ 18, 20, 26, 27, 74

[3] Bihar 97/390-399; Vəsailuş-şiə 10/316

İKİNCİ FƏSİL

O HƏZRƏTİN (Ə) ZİYARƏTİNİN XÜSUSİ FƏZİLƏTLƏRİ BARƏDƏ

Bu fəsildə öz xüsusiyyətinə görə bir fəziləti zikr etmək kifayət edərdi və bunun bəyanının müqəddiməyə ehtiyacı vardır. Bil ki, yaxşı əməllərin savablarının və onların xüsusiyyətləri barədə deyilib ki, dərmanların xüsusiyyəti kimi bunların hər birinin təsirinin qarşısını alan maneələr vardır. Məsələn, balın sirkəsi öd kisəsinin dərmanıdır, lakin bəzən bədəndə bir xəstəlik, yaxud qabaqcadan ya sonradan yeyilmiş yemək səbəbindən bu dərmanla öd kisəsini müalicə etmək mümkün olmur. Hərçənd bal sirkəsinə yenə də öd kisəsinin dərmanı deyirlər. Yaxşı əməllərin xasiyyəti də belədir, çünki hər bir xasiyyətin müqabilində bir maneə vardır və bu maneə həmin xasiyyəti tamamilə aradan apara bilir, yaxud onun təsirini azaldır. Bu səbəbdən həşr günü insanların halı müxtəlif olur. Beləliklə, bəzilərinin bir miqdar imanları və əməlləri var ki, ölümün əvvəl vaxtı onları əzabdan xilas edər, bəzilərini də ölümdən sonra asudə edər, bəzilərinə isə bir miqdar bərzəxdə əzab çəkdikdən sonra nicat verər, bəziləri məhşərin əvvəlində, digərləri onun əsnasında və bəziləri də həşrdən sonra əzabdan qurtulurlar. Elələri də var ki, cəhənnəmə daxil olduqdan sonra nicat taparlar. Bəziləri də imanlarının aradan getdiyinə görə cəhənnəmdə əbədi qalırlar.

Bu müqəddimə məlum olduqdan sonra bil ki, İmam Hüseynin (ə) ziyarəti üçün tamam fəzilətlərdən üstün, məxsusi bir fəzilət vardır. Belə ki, əgər zəvvar üçün ziyarətin təsirinin qarşısını alan bir maneə olarsa, onun tamam təsirlərinin qarşısını almaq mümkün deyil və əslində ən azından nicat tapa biləcək miqdarı qədər təsiri əbədi qalacaqdır. Çünki, İmam Hüseynin (ə) ziyarətinin təsirinin yolları çoxsaylıdır və məhəllərinin sayı-hesabı yoxdur.

Buna əsasən, birində bir maneə peyda olarsa, o zaman digər bir təsir qapısı açılar.

Mətləbin izahı bundan ibarətdir ki, hər bir yaxşı əməlin təsiri xüsusi məqamda, yəni ya bərzəxdə, ya da axirətdə zahir olur. Beləliklə, həmin müəyyən olunmuş məqamda bir maneə təsirin zahir olmasına mane olarsa, artıq təsir birdəfəlik aradan gedər və bir daha başqa bir yerdə zahir olmaz. Ancaq İmam Hüseynin (ə) ziyarətinin əsəri və təsiri birdəfəlik aradan getmir və başqa bir yerdə zahir olar. Bu mətləb rəvayətlərin ümumi məzmunundan məlum olur. Hətta bir rəvayətdə aydın şəkildə buna işarə olunubdur. Bunu Cabir ibn Abdullah Ənsari "Ərbəin ziyarətinə" gələndə bəyan etmişdir.

Hüseyn ibn Əlinin (ə) zəvvarları haradadırlar

Deyilən mətləbin təfsilatı bundan ibarətdir ki, əgər zəvvar üçün ziyarətin səmərələri və faydaları hasil olarsa dünyadan, sanki anadan təzə doğulmuş körpə kimi günahsız köçər, yaxud ən ali mərtəbələrə ucalar. Xoş o zəvvarın halına ki, ondan ali məqam yoxdur.

Əgər onun ali məqama ucalmasına mane olan günahlar olarsa və dünyadan həmin günahlarla köçərsə, ümid var ki, onun işləri ölümün əvvəl vaxtında, ya bərzəxin əvvəlində İmamın (ə) ziyarətinin bərəkətinə islah olunar. Əgər günahlarının böyüklüyünə görə bağışlanması təxirə düşərsə, ümid var ki, o Həzrət (ə) bərzəx günlərində onun istedadına və qabiliyyətinə müvafiq olaraq onun ziyarətinə gəlsin. Əgər maneələrin şiddətinə görə, bundan da məhrum olarsa böyük məhşər bərpa olanda Allahın Rəsulu (s) və Cəbrayıl (ə) zəvvarlara baş çəkməyə gələrlər və ümid var ki, onu alnında olan möhürün əlaməti ilə tanısınlar və ona nicat versinlər.[1]

Əgər bu qabiliyyət də aradan getsə və günahların zülmətindən o əlamət də silinib gedərsə, yenə də başqa bir vasitə ilə onun nicat tapmaq ümidi vardır. Qiyamət günü nida gələr:

[1] Bihar 98/16; 45/ 182-183

"Ali-Muhəmməd (ə) şiələri haradadırlar?" Bu vaxt sayını Allahdan başqa kimsə bilməyən bir camaat qalxacaqdır, yenə nida yetişər: "Hüseyn ibn Əlinin (ə) zəvvarları haradadırlar?" Bu zaman bir dəstə ayağa qalxar və onlara xitab olunar: "İstədiyiniz kəsin əlindən tutub cənnətə daxil edin." Beləliklə, hər kəs istədiyi şəxsin əlindən tutar və cənnətə daxil edər, hətta bir nəfəf yaxınlaşıb zəvvara deyər: "Mən günlərin birində sənə ehtiram göstərmək məqsədi ilə sənin yanında dayandım." Beləcə onun da əlindən tutar və heç kəs ona mane olmaz.[1]

Əgər bu qabiliyyət onda olmasa və yaxud bir kəsin onun əlindən tutmasına ləyaqəti olmasa yenə də başqa bir nida ilə onun xilas olmasına ümid vardır. İmam Sadiqdən (ə) nəql olunur ki: "Qiyamət günü nida olunar: "Hüseyn ibn Əlinin (ə) zəvvarları haradadırlar?" Bu zaman çoxsaylı camaat ayağa qalxar və Allahdan başqa onların sayını kimsə bilmir. Onlara xitab olunar: "Hüseynin (ə) qəbrini nəyə xatir ziyarət etmisiniz?" Ərz edərlər: "Allahın Rəsuluna (s), Əliyə (ə), Fatiməyə (ə) Həsənə (ə) olan məhəbbətimizdən və bu qədər zəhmətlərə mübtəla olduğu üçün qəlbimizin ona yandığına görə." Xitab olunar: "İndi Muhəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) burada hazırdırlar, siz də onlara qoşulun və Əlinin (ə) əlində olan bayrağın altına daxil olun." Onlar da gedib bayrağın ətrafında toplanarlar.[2]

Müəllif deyir: "Ey günahkarlar, əgər Hüseyn (ə) zəvvarısınızsa, ancaq Peyğəmbər (s) və Cəbrayılın (ə) gəlib sizin qolunuzdan tutmağa ləyaqətiniz çatmırsa, ya sizin kiminsə əlindən tutub cənnətə daxil etməyinizə qabiliyyətiniz yoxdursa, onda bu nidanın ardınca gedin və həmin bayrağın altında toplanın, hərçənd yeriniz axırıncı cərgədə olsa belə. Əgər bu qabiliyyət də sizdə olmasa və günahların ağırlığından yerinizdən qalxa bilməsəniz, yenə də Hüseynin (ə) ziyarətinin təsirindən naümid olmayın və məhşərdə baş verəcək başqa bir halətdə xilas olmağınızı gözləyin ki, buna çox böyük ümid vardır.

[1] Bihar 98/27
[2] Bihar 98/21

Həzrəti Zəhranın (ə) məhşərə daxil olması barədə

Qiyamət günü Həzrəti Zəhra (ə) xüsusi bir şəraitdə məhşərə daxil olacaqdır; həyat suyundan əmələ gəlmiş və minlərlə lal-cəvahiratla zinətlənmiş behiştin kəramət libaslarında, onların üzərində yaşıl xətlə yazılar yazılmışdır və o Xanımın (ə) başının üstündə zahiri batinindən və batini zahirindən peyda olan ilahi nurdan gümbəz vardır və başında 70 rükndən ibarət nur vardır ki, hər rüknü dürr, yaqutla zinətlənmişdir və parlayan ulduz kimi nur saçır. Cənnət dəvələrindən bir dəvəyə süvar olmuşdur, dəvənin ayaqları yaşıl zümrüddən, quyruğu ətir saçan müşkdən, gözləri qırmızı yaqutdan, üzəngisi mirvaridəndir, onun uzunluğu bir fərsəxdi və bu üzəngi Cəbrayılın (ə) əlindədir və Cəbrayıl (ə) fəryad edər: "Gözlərinizi örtün, indi Xatəmul-ənbiyanın (s) qızı keçəcəkdir." Həzrət Fatimə (ə) dəvənin belinə sərilmiş qızıl palanın üzərində əyləşmişdir. Cənnət tərəfdən o Xanımı (ə) qarşılamağa 12000 huri gələr, bu hurilər o vaxtadək heç kəsi qarşılamayıblar və bundan sonra da qarşılamayacaqlar. Onların hamısı qanadları yaqutdan, üzəngiləri mirvaridən, palanları dürrüdən olan miniklərə süvar olmuşdular. Hər hurinin əlində nur çırağı və başlarında cəvahirdən taclar vardır. Onu qarşılamağa İmranın qızı Məryəm 70 000 huriyə ilə birlikdə, Həzrəti Xədicə (ə) əllərində təkbir əlamləri tutan 70 000 mələklə birlikdə, Həvva və Asiyə 70 000 huriyə ilə birlikdə o Xanımı (ə) qarşılamağa gələrlər. Sonra onun üçün nurdan minbər hazırlayarlar, bu minbərin 7 pilləsi vardır, pillələrin arasında isə mələklər səf-səf düzülərlər. O Xanım (ə) əlində Hüseynin (ə) qanlı köynəyini tutaraq ərz edər: "Ey Allahım, Həsən (ə) və Hüseyni (ə) görmək istəyirəm." Bu zaman Hüseynin (ə) başsız və damarlarından qan axan bədəninin təsviri yarandı, Xanım Zəhra (ə) bu halətı görəndə qiyyə çəkər və özünü dəvədən yerə atar, Peyğəmbər (s) və mələklərin hamısı nərə çəkərlər.[1]

[1] Bihar 43/219-226

İmam Huseynin (ə) məhşərə daxil olması barədə

Nəql olunur ki, İmam Huseyn (ə) öz başını əllərində tutmuş halətdə məhşərə daxil olar və Xanım Fatimə (ə) bu mənzərəni görəndə qiyyə vurar və tamam məhşər əhli ağlayarlar. Sonra Huseynin (ə) qanlı köynəyini yuxarı qaldırar və ərz edər: "Allahım bu mənim öğlumun köynəyidir." Yəni, gör necə qılınc, nizə və ox zərbələrindən deşik-deşik olmuşdur. Yaxud: "Ey Allahım, bu köynəyi belə onun bədənində saxlamamışlar və onu üryan halda torpaq üstünə yıxmışlar." Beləliklə Adil Allah o Həzrətin (ə) qatillərindən və onların övladlarından, övladlarının övladlarından, atalarının əməllərinə razı olduqları üçün müxtəlif növ əzab verməklə intiqam alar və onları bir neçə dəfə öldürər. Sonra cəhənnəmdən qara alov qalxar və toyuq dən dənliyən kimi dənliyər və cəhənnəmə tərəf aparar.[1]

Bu məqamlardan sonra o məsumə Xanımın (ə) bizim hacətimizin məhəlli olan şəfaət xüsusiyyəti vardır, belə ki, nida gələr: "Ey Fatimə (ə) nə hacətin varsa, istə?" Xanım (ə) ərz edər: "Öz şiələrimi istəyirəm." Xitab gələr ki: "Onların hamısını bağışladım." Ərz edər: "Övladımın şiələrini istəyirəm." Xitab gələr: "Onları da bağışladım." Ərz edər: "Öz şiələrimin şiələrini istəyirəm." Xitab yetişər: "Yola düş sənə pənah gətirən hər kəs sənin lə olacaqdır." Xanım (ə) behiştə tərəf yola düşər və şiələrin hamısı onunla birgə gedərlər."[2]

Beləliklə, ey o məsumə Xanımın (ə) övladını ziyarət edənlər və ona ağlamaqda kömək edənlər, əgər əvvəldən Peyğəmbər (s) sənin əlindən tutmasa və birinci nida vaxtı ayağa qalxmasan, bu əzəmətli şəfaət məqamında sən şiələr cərgəsinə şamil olacaqsan. Əgər belə olmasa şiələrin şiələri cərgəsinə daxil olacaqsan və əgər bu məqamda da olmasan, xanım Zəhraya (ə) pənah gətirəcəksən. O Xanımın (ə) övladının ziyarətindən və o Həzrətə (ə) ağlamaqdan

[1] Bihar 43/221-226
[2] Bihar 43/227

gözəl pənah nə ola bilər? Güman etmirəm ki, sən bu məqamdan məhrum olasan və o Xanımın (ə) dəstəsi ilə birgə yola düşməyəsən. Əgər günahlarının çoxluğundan bu məhrumiyyətdən də qorxun olsa və nicat tapmaqdan məyus olsan və ehtimal versən ki, səni mütləq cəhənnəmə atacaqlar, yenə də məyus olma ey Hüseynin (ə) zəvvarı! Bil ki, o Həzrət (ə) hətmən gəlib səni atəşdən xilas edəcəkdir. Necə ki, rəvayətdə buyurur: "Hər kəs məni ziyarət etsə, əlbəttə onu ölümdən sonra ziyarət edəcəm və əgər onu atəşdə tapsam onu oracan çıxardacam. Bu, çox böyük günahı olan zəvvarın xilas olmasının axırıncı dərəcəsidir.

ÜÇÜNCÜ FƏSİL:

ZƏVVARIN XÜSUSİ SİFƏTLƏRİ

Zəvvar üçün hasil olan xüsusi sifətlərin bəyanında deyirik ki, onların sayı çoxdur, o cümlədən:

1-ci: Allah-taala Ərşi daşıyan və müqərrəb mələklərin müqabilində onlarla iftixar edir və buyurur: "Baxın Hüseynin (ə) zəvvarlarına, necə onun qəbrinə tərəf şövqlə gedirlər.

2-ci: Allah-taala onlara rəhmət nəzəri ilə baxar.

3-cü: Hüseynə (ə) məhəbbət dəlilidir.

4-cü: Ərşdə Allahla söhbət edənlərdəndir.

5-ci: İlliyyində (ən ali məqamda) yazılar.

6-cı: Cənnətdə Peyğəmbərin (s) və hidayət İmamlarının (ə) qonşuluğunda olacaq və onlarla bir süfrədən yemək yeyəcək.

7-ci: Əgər bədbəxtdirsə dönüb xoşbəxt olacaqdır.

8-ci: Allah dərgahına yaxınlaşmışlardan hesab ediləcəkdir.

9-cu: Həzrəti Fatimənin (ə) yavərlərindəndir, çünki o Xanım (ə) hər gün İmam Hüseyni (ə) ziyarət edir.

10-cu: Zəvvarın bədən əzaları; üzü, gözü, qəlbi İmam Sadiqin (ə) dua məhəllidir, çünki o Həzrət (ə) duasında buyurur: "Allahım Hüseynin (ə) qəbrinə sürtülən üzlərə rəhm et və Hüseyn (ə) üçün göz yaşı axıdan gözlərə rəhm et, bizlərə yanan qəlblərə rəhm et və bizlərə xatir ucalan nərələrə rəhm et.[1]

11-ci: Zəvvar İmam Sadiqin (ə) əmanətidir, necə ki buyurur: "Allahım mən o bədənləri sənə əmanət tapşırdım ki, onları Kövsər hovuzunun kənarında mənə qaytarasan."

12-ci: Hüseynin (ə) zəvvarı Allahın və Peyğəmbərin (s) zəvvarıdır.

13-cü: Cənnətdə dərəcəsi olan hər bir kəs, zəvvarın haqqında xüsusi kəramətləri müşahidə edəndə arzu edər ki, ey kaş Hüseynin (ə) zəvvarı olaydım.

[1] Bihar 98/8,72-75, 164

DÖRDÜNCÜ FƏSİL:

ZƏVVARA VERİLƏN XÜSUSİ ƏCRLƏR

İmam Hüseynin (ə) ziyarəti üçün bəxş edilən xüsusi əcr və sifət vardır ki, bunlar ayrıca zikr olunmalıdır.

Qəribə, xüsusi əcr barədə Şeyx Səduq, Seyid ibn Tavus, Kəfəmi və "Məzari Kəbir" kitabının müəllifi mötəbər mənbələrdən nəql edirlər ki, yaxşı əməllər yazan mələklər zəvvar üçün ziyarətə əzm etdiyi vaxtdan qiyamət gününədək həsənat yazmaqla məşğuldurlar.[1]

Beləliklə, bu ziyarət davam edən saleh əməllər hökmündədir, ancaq "Baqiyatus-salihat" ("əbədi qalan saleh əməllər") kimi davam edən əməllər hökmündə yox, ondan ən ali "Baqiyatus-salihat" əməlləri hökmündədir.

Bunların hamısı zəvvar üçün hasil olan xüsusi sifətlərə əlavə olanlardır. Əqli heyran qoyan qəribəliklərdən budur ki, bu ziyarətdə 16 fəzilət vardır və bunların hər birinin fəziləti 100 fəzilətdən üstündür. Onlardan biri budur ki, ziyarətnamənin hər bir kəlməsinin müqabilində Allahın rəhmətindən ona bir pay nəsib olur. Bundan da qəribə budur ki, bunların hamısı ziyarətin əcr və savabının bir hissəsidirlər, həmin şərəfli ziyarətnamə barədə isə deyirik: "İmam Sadiq (ə) bir şəxsdən soruşdu: "Sənin mənzilinlə İmam Hüseynin (ə) qəbri arasında olan məsafə nə qədərdir?" Dedi: "Bir gün yarım, sənə fəda olum." Buyurdu: "Hüseynin (ə) ziyarətinə gedirsənmi?" Dedi: "Bəli." Buyurdu: "Sənə müjdə verimmi? Onun bəzi savabları ilə səni sevindirimmi?" Dedi: "Bəli, sənə fəda olum." Buyurdu: "Bir şəxs Hüseynin (ə) ziyarəti üçün səfər tədarükünü hazırlayan zaman səma əhli sevinərlər, evindən piyada ya süvari halda çıxarsa Allah-taala onun üzərinə, ona sala-

[1] Həmin

vat göndərən 4000 mələk müvəkkil edər və onlar Kərbəlaya çatanadək onu müşayiət edərlər.

Beləliklə, bu kəramət məqamına gəlib çatanda bir qədər qapıda dayan və hər kəlməsində sənə Allahın rəhmətindən bir pay olan bu kəlmələri de." Ərz etdi: "Bu kəlmələr nədir?" Buyurdu: "Əs-səlamu əleykə ya varisə Adəmə səffətilləhi, əs-səlamu əleykə ya varisə nəbiyyilləhi, əs-səlamu əleykə ya varisə İbrahimə xəlililləhi, əs-səlamu əleykə ya varisə Musa kəlimilləhi, əs-səlamu əleykə ya varisə İsa ruhilləhi, əs-səlamu əleykə ya varisə Muhəmmədin həbibilləhi sallalahi əleyhi və alihi, əs-səlamu əleykə ya varisə vəsiyyi rəsulilləhi, əs-səlamu əleykə ya varisəl-Həsəni ər-rəziyyi, əs-səlamu əleykə ya varisə Fatimətə binti rəsulilləhi, əs-səlamu əleykə əyyuhəş-şəhidus-siddiqu, əs-səlamu əleykə əyyuhəl-vəsiyyul-barrut-təqiyyu, əs-əssəlamu əleykə və ələl ərvahilləti həllət bifinaik və ənaxət birəhlik, əs-əssəlamu alə mələikətilləhil muhdiqinə bikə, əşhədu ənnəkə qəd əqəmtəs-sələtə və ətəytəzzəkatə və əmərtə bil məruf və nəhəytə anil-munkər və əbədtəllahə müxlisən hətta ətakəl-yəqin vəs-səlamu əleykə və rəhmətullahi və bərəkatuhu." Sonra içəri daxil ol, sənin qoyduğun hər qədəminə Allah yolunda qanına qəltan olan bir şəhidin savabı verilir. Qəbrə çatanda əlini qoy qəbrin üzərinə və de: "Əs-səlamu əleykə ya huccətullahi fi səmaihi və ərzihi." Sonra namaz qıl və bil ki, İmam Hüseynin (ə) qəbrinin yanında qıldığın hər rikətin müqabilində sənə 1000 həccin, 1000 ümrə, 1000 qul azad etməyin və mürsəl Peyğəmbərlə (s) birlikdə Allah yolunda 1000 cihad etməyin savabı bəxş edirlər. Qayıtmaq istəyəndə munadi sənə nida edər, əgər onun nidasını eşitsəydin, heç vaxt oradan ayrılmazdın. Nida gələr: "Ey Allahın bəndəsi xoş sənin halına ki, qənimət ələ gətirdin və salamat oldun, günahların bağışlandın, bəs əməllərini təzədən başla." Əgər həmin gecə, ya o gün, ya həmin il ölərsə Allah-taala Özü onu ruhunu qəbz edər, əgər salamat qalarsa mələklər onun yanına nazil olarlar və həmişə onunla olarlar və onun üçün istiğfar edərlər və evinə qayıdanadək salavat göndərərlər və ərz edərlər: "Allah, Sənin bu bəndən Peyğəmbərinin (s) qızının balasının zi-

yarətinə getdi və qayıtdı, bəs indi bizim öhdəmizdə olan vəzifə nədir?" Xitab yetişər: "Qalın onun evində və qiyamət gününədək Mənə təsbih və həmd deyin, savabını da onun üçün yazın."

Amma zəvvar üçün hasil olan məxsusi sifəti müstəqil şəkildə zikr etməyimiz yaxşı olardı, o da budur ki, Hüseyni (ə) ziyarət edən kəs Allahı ərşdə ziyarət etmişdir.[1]

Bu ifadə Allaha son həddə yaxınlaşmaq və kamal dərəcələrinə tərəqqi etmək barədə kinayədir (həqiqəti bildirən məcazi ifadədir).

Bundan daha ali məqam budur ki, ziyarətlə Allah-taala dərk olunur, belə ki, bir rəvayətə əsasən: " Allah-taala hər cümə axşamı o Həzrəti (ə) ziyarət edir."[2]

Beləliklə, ziyarətə gedən şəxs Allahın ziyarətinə getmişdir, məlumdur ki, bu ifadə o Həzrətə (ə) xüsusi rəhmətin bəşx edilməsindən xəbər verir və bunu dərk edən insan həmin rəhmətdən məhrum olmayacaqdır və hətmən ondan bir pay alacaqdır. Zəvvarın Allahı ziyarət etməsi, Allaha ən kamil həddə yaxınlaşmaqdan xəbər verən kinayədir. Bu iki məsələ cəm olan zaman rəhmətin ən ali mərtəbəsinin xüsusiyyəti hasil olur. Bir rəvayətdə gəlir ki: "Kim qiyamət günü Allaha baxmaq istəyirsə İmam Hüseynin (ə) ziyarətinə çox getsin."[3]

Beləliklə, bunlar üç kəlam oldu: yəni, Allahın ziyarəti, Allahla ziyarət və Allaha tərəf baxmaq, bu da məxluq üçün təsəvvür olunan Allaha yaxınlaşmağın ən ali dərəcəsini bildirən kinayədir. Buna görə bu sifət üçün müstəqil fəsil ayırdım.

---

[1] Bihar 98/163, 76
[2] Bihar 98/60
[3] Bihar 98/77

BEŞİNCİ FƏSİL:

O HƏZRƏTİN (Ə) ZİYARƏTİ ÜÇÜN XÜSUSİ HÖKMLƏR

Bu hökmlərin sayı çoxdur, o cümlədən hər bir vacib ya müstəhəb əməl qorxu ya təhlükə olan zaman saqit olur, ancaq bir neçə rəvayətə əsasən Hüseynin (ə) ziyarətində saqit olmur. "Biharul-ənvar" və qeyri kitablarda mötəbər sənədlərlə Müaviyə ibn Vəhəbdən rəvayət olunur ki: "İmam Sadiq (ə) mənə buyurdu: "Ey Müaviyə, qorxu səbəbindən İmam Hüseynin (ə) ziyarətini tərk etmə, çünki onu tərk edən insan həsrət çəkər və arzu edər ki, kaş İmamın (ə) ziyarətində olaydım." Başqa bir rəvayətdə Muhəmməd ibn Muslimdən nəql edilir ki: "Həzrət Baqir (ə) buyurdu: "Bu ziyarətin qorxusu hər nə qədər çox olarsa, bir o qədər savabı da çox olar. Hər kəs qorxu olduğu halda ziyarətə gedərsə qiyamət günü amanda qalar və günahları bağışlanar, Peyğəmbər (s) onun ziyarətinə gələr, onun üçün dua edər və ziyarətdən qayıdan da Allahın neməti və fəzli ilə gələr və ona pislik yetişməz."

Başqa bir rəvayətdə İbn Bəkirdən nəql olunur ki, dedi: "İmam Sadiqə (ə) ərz etdim: "Mən İmam Hüseynin (ə) qəbrini ziyarət etməyə çox meylim var, ancaq ziyarətə çıxan zaman qəlbimdə qorxu yaranır və ziyarətdən qayıdanadək soltandan və onun adamlarından qorxuram." Buyurdu: "Ey Əbu Bəkir məgər istəmirsən Allah səni bizim yolumuzda qorxduğunu görsün? Məgər bilmirsən ki, Allah-taala bizim yolumuzda qorxu keçirən şəxsə Öz Ərşində yer verər? Və həmin şəxs Ərşin altında Hüseyn (ə) ilə həmsöhbət olar, qiyamət gününün qorxusundan amanda qalar, mələklər ona qüvvət verərlər və müjdə ilə qəlbinə təskinlik bəxş edərlər."[1]

[1] Bihar 98/11

ALTINCI FƏSİL:

ZİYARƏTİN ŞƏRİ ŞƏRTLƏRİ VƏ ƏDƏBLƏRİ BARƏDƏ

Şərtləri : Çoxsaylı rəvayətlərə görə ən əsas şərti xalis niyyətdir, yəni ziyarətə Allaha yaxınlaşmaq niyyətilə getməlidir, daha iftixar etmək, riya və şöhrətə xatir olmamalıdır. Yaxud Peyğəmbəri (s) sileyi-rəhm etməkdən, ya Seyyidi-şühədanın (ə) müsibətinə qəlbinin yanması səbəbindən olmalıdır və bunların hamısı Allaha yaxınlaşmaq qəsdinə aiddir və o Həzrətin (ə) haqqını tanımağın səviyyəsinə müvafiq olaraq təsirləri də müxtəlif olur. Buna əsasən, İmam Hüseynin (ə) haqqına mərifət tapmaq zəruridir.[1]

Ədəblər: Tamam mötəbər kitablarda çoxsaylı sənədlərlə imam Sadiqdən (ə) rəvayət olunur ki: "İmam Hüseynin (ə) ziyarətinə gedəndə qəm-qüssəli, toz-torpağa bulaşmış, ac və təşnə halda ol, çünki o Həzrəti (ə) qəm-qüssəli, toz-torpağa bulaşmış, təşnə və ac halda şəhid etmişlər." Həmçinin buyurdu: "Eşitmişəm bəziləri o Həzrətin (ə) ziyarətinə gedib, orada süfrə açırlar, halva və ləzzətli yeməklər yeyirlər, halbuki öz yaxınlarının və qohumlarının qəbirlərini ziyarət edərkən belə etmirlər."

Başqa rəvayətdə gəlir ki, İmam (ə) bir şəxsə buyurdu: "Özünlə süfrə götürürsənmi?" Dedi: "Bəli." Buyurdu: "Ancaq ata və ananın qəbrinin ziyartəinə getsən belə etməzsən." Dedi: "Bəs nə yeməliyik?" Buyurdu: "Çörəklə süd ya ayran."

"Kamiluz-ziyarat" kitabında mötəbər sənədlə Müfəzzəldən nəql olunur ki, İmam Sadiq (ə) buyurur: "Bəzən ziyarətə gedirsiniz, bu da getməməyinizdən daha yaxşıdır, bəzən də getməsəniz getməyinizdən daha yaxşıdır." Dedi: "Bu sözlərlə mənim belimi sındırdın." Buyurdu: "Əgər sizlərdən biri atasının qəbrinin ziya-

[1] Bihar 98/ 18- 21

rətinə gedərsə əlbəttə qəm-qüssəli olar, amma o Həzrətin (ə) qəbrinə süfrə ilə gedirsiniz."[1]

Yəni, yemək-içmək və kef ləvazimatları ilə gedirsiniz, bu da ziyarət sayılmaz, gərək qüssəli və toza bulaşmış halda gedəsiniz. Ən mühüm ədəblərdən biri də Fərat suyunda qüsl almaqdır. Bundan qeyri ədəblər də var, necə ki, Cabir ibn Abdullahın ziyarətinin keyfiyyətində deyiləcək, inşallah.

[1] Bihar 98/141-142

YEDDİNCİ FƏSİL:

ZİYARƏTİ TƏRK ETMƏYİN NƏTİCƏLƏRİ

O Həzrətin (ə) qəbrinin ziyarətini tərk etməyin bir çox nəticələri vardır, o cümlədən:

1-ci: Hələbi İmam Sadiqdən (ə) nəql edir ki: "Hər kəs qüdrəti olduğu halda İmam Hüseynin (ə) ziyarətini tərk edərsə Peyğəmbərin (s) və hidayət İmamlarının (ə) üzünə ağ olmuşdur."

2-ci: Əbdür-Rəhman ibn Kəsir İmam Sadiqdən (ə) rəvayət edir ki, buyurdu: "Əgər bir kəs hər il həccə gedə, ancaq İmam Hüseynin (ə) ziyarətini tərk edərsə Allahın Rəsulunun (s) haqlarından bir haqqını tərk etmişdir.

Başqa bir rəvayətdə gəlir ki: "Əgər min dəfə həccə gedə, ancaq Hüseynin (ə) qəbrini ziyarət etməsə, Allahın haqlarından bir haqqını tərk etmişdir.

3-cü: Muhəmməd ibn Müslim Həzrət Baqirdən (ə) nəql edir ki: "Hər kəs İmam Hüseynin (ə) qəbrini ziyarət etməsə imanı və dini naqisdir." Belə məzmunda digər bir rəvayət də nəql olunmuşdur.

4-cü: Budur ki, bu ziyarəti tərk edən kəs Hüseynə (ə) cəfa etmişdir, Əmir-əl-möminin (ə) buyurur: "Atam, Hüseynə (ə) fəda olsun, onu Kufənin yanında öldürəcəklər, sanki görürəm səhranın vəhşi heyvanları boyunlarını onun cəsədinə tərəf uzadıblar və sübhədək ona növhə deyirlər. Elə ki bu hadisə baş verdi, məbada ona cəfa edəsiniz,[1] yəni ziyarətini tərk edəsiniz. Bu məzmunda digər rəvayətlər də mövcuddur.

5-ci: Əli ibn Məymundan nəql olunur ki, İmam Sadiq (ə) buyurmuşdur: "Mənə xəbərlər çatır ki, bəzi şiələr üçün bir il, iki il və daha çox keçir ancaq Hüseynin (ə) ziyarətinə getmirlər." Ərz etdim: "Sənə fəda olum, bəli elədir, mən böyük bir dəstə camaat

[1] Bihar 98/ 2-6

tanıyıram ki, belədirlər." Buyurdu: "Allaha and olsun ki, onlar öz bəhrələrini azaldıblar və Allahın savabından məhrum olublar və behiştdə Peyğəmbərin (s) qonşuluğundan uzaq düşüblər. Əgər onlardan biri bir nəfəri ziyarətə göndərsə necə, kifayət edirmi?" Buyurdu: "Bəli, ancaq özü getsə daha yaxşıdır və əcri də daha böyükdür."

6-cı: Ömrü qısaldar, belə ki, çoxsaylı rəvayətlərdən məlum olur ki, bu ziyarətin tərk edilməsi hətmən ömrü bir il qısaldır.

7-ci: Ziyarəti tərk edən əgər cənnətə daxil olsa onun dərəcəsi tamam möminlərin dərəcəsindən aşağı olacaqdır. Digər bir rəvayətdə deyilir ki, həmin şəxs cənnət əhlinin qonağı olacaqdır və əvvəlki rəvayətdə buyurduğu kimi: "Peyğəmbərin (s) qonşuluğundan uzaq olacaqdır."

8-ci: Rəvayətlərdə açıqlandığı kimi şiələrdən hesab olunmayacaqdır.

9-cu: Əgər laqeydlik və hörmətsizlik üzündən tərk edərsə cəhənnəm əhlindən olacaqdır. Əslində rəvayətin zahiri mütləqdir və buna görə bəziləri, hər kəsin qüdrəti çatdığı təqdirdə ömründə bir dəfə bu ziyarətin vacibliyinə rəy söyləmişlər.[1]

[1] Bihar 98/ 4-10, 48

SƏKKİZİNCİ FƏSİL:

MƏXSUSİ VAXTLARDA ZİYARƏT ETMƏK

Bil ki, İmam Hüseynin (ə) ziyarəti xeyir əməldir və hər kəs istəsə onu çox edər və ya az edər. Bu da iki hissədən ibarətdir:

Birinci: mütləq ziyarətdir, yəni bütün vaxtlarda mümkündür və zikr olunan xüsusiyyətlər və fəzilətlər ona şamil olur.

İkinci: məxsusi, yəni müəyyən vaxtda edilən ziyarətdir və onun fəziləti mütləq vaxtda edilən ziyarətin fəzilətindən çoxdur. Bu da həmin vaxtın xüsusiyyəti ilə bağlıdır. Həmin məxsusi vaxtlar təxminən 30-a yaxındır:

1-ci: Hər cümə günü, bu İmamın (ə) pak qəbrindən bir gün ya bir az çox məsafəsi olanlar üçündür. Beləliklə əgər belə nizamda o Həzrətin (ə) ziyarətini tərk etsələr İmama (ə) cəfa etmişlər. Xüsusiyyəti də budur ki, zəvvarın günahları bağışlanar və qəlbində dünyadan bir həsrət qalmaz, cənnətdə də məskəni İmam Hüseynin (ə) qonşuluğunda olar. Bu hədisi Davud ibn Yəzid İmam Sadiqdən (ə) nəql etmişdir.

2-ci: Ayda bir dəfə, necə ki, İmam Sadiq (ə) buyurmuşdur: "Hər kəs ayda bir dəfə İmam Hüseynin (ə) ziyarətinə gedərsə ona 100 000 şəhidin savabı yazılar." Və buyurmuşdur: "Bu İmam Həzrətin (ə) qəbrinin yaxınlığında yaşayanlar üçündür və əgər tərk etsələr o Həzrətə (ə) cəfa etmiş olarlar."

3-cü: Hər ildə iki dəfə, necə ki, İmam Sadiqdən (ə) nəql olunur ki: "Bu maddi cəhətdən imkanlı olan şəxslər haqqındadır."

4-cü: İldə üç dəfə ziyarət etmək və bu zəvvarı fəqirlikdən qoruyar.[1]

5-ci: İldə bir dəfə, bu da ziyarət etməyə qüdrəti olan fəqirin haqqıdır. Beləliklə, əgər tərk edərsə cəfa etmişdir.

6-cı: Üç ildə bir dəfə; bu uzaqda yaşayanların haqqıdır, beləliklə əgər tərk etsələr Peyğəmbərin (s) üzünə ağ olmuşlar.

7-ci: Bəzi rəvayətlərdə gəlir ki, hər bayramda ziyarət etməlidir o cümlədən novruz, məbəs, mövlud, Qədir-xum və qeyrilərində.

---

[1] Bihar 98/12-17, 37, 96

8-ci: Məxsusi aylarda və bu ayların hər birini ayrılıqda zikr etməliyik, çünki hər biri barədə çoxlu fəzilətlər deyiblər. Lakin burada biz xülasə şəkilində bunlardan bəzilərini zikr edəcəyik:

Rəcəb ayında 4 məxsus ziyarət mövcuddur; ayın 1-ci gecəsi və günü, ayın orta gecəsi və günü. Bu ziyarətlə tamam günahlar tökülür və zəvvar anadan təzə doğulan körpə kimi günahsız olur. Rəcəbin əvvəlində bir imtiyaz vardır o da budur ki, Allah-taala zəvvarı bağışlamağı Özünə vacib bilmişdir.

Şəban ayında 3 məxsus ziyarət vardır; ayın 3-cü gününün, nimeye şəbanın gecəsi və gününün ziyarətidir. Nimeye şəban ziyarətinin böyük fəziləti bundan ibarətdir ki, zəvvar 124 000 peyğəmbərlə (ə), o cümlədən Ulul-əzm Peyğəmbərlərlə (ə) əl ilə görüşməyə müşərrəf olur. Beləliklə, 3 il ardıcıl olaraq nimeye şəbanda o Həzrəti (ə) ziyarət edərsə bu onun günahlarının aradan getməsinə xüsusi təsir edəcəkdir.

Xüsusiyyətlərdən biri də budur ki, munadi şəbanın əvvəlindən onun günahlarının bağışlanması barədə nida edər.[1]

Ramazan ayında 10 məxsus ziyarət vardır; ***birinci*** Ramazan ayının mütləq ziyarətidir, İbn Fəzl İmam Cəfər Sadiqdən (ə) nəql edir ki: "Kim İmam Hüseynin (ə) qəbrinin Ramazan ayında ziyarətinə getsə və yolda dünyasını dəyişsə qiyamət günü hesaba çəkilməyəcək və ona: "Əmniyyətlə cənnətə daxil ol" – deyiləcək.

İkinci, üçüncü və dördüncü Ramazan ayının 1-ci gecəsi, orta gecəsi və axırıncı gecəsidir, necə ki, İmam Sadiqdən (ə) mötəbər sənədlə rəvayət olunmuşdur. ***Digər altısı*** isə Qədr gecələri və günləridir. Çoxsaylı rəvayətlərdə gəlir ki: "Qədr gecəsi daxil olan zaman munadi Ərşin bətnindən nida edər: " Allah-taala Hüseynin (ə) ziyarətinə gələn şəxsi bağışladı."

Şəvval ayında Fitr bayaramının gecəsi və günüdür, xüsusiyyəti də keçmiş və gələcək günahların bağışlanmasıdır.

Zilhiccə ayında 8 yaxud 10 məxsus ziyarət mövcuddur: Ərəfənin gecəsi və günü, Qurban bayramı günü, təşriq günləri, yəni ayın 11-i, 12-i və 13-ü, "Həl əta" surəsinin nazil olan günü, Mü-

[1] Bihar 98 /12, 14, 85, 94, 93, 98

bahilə günü və Qədir Xum günü və ziyarətin xüsusiyyətinə əsasən bayramların hamısında.

Ərəfənin fəzilətinin xüsusiyyəti bundan ibarətdir ki, Allah-taala Ərəfə günü İmam Hüseyni (ə) ziyarət edən şəxsi siddiq ünvanına yazar, Kərrubi adlandırar və İmam Zamanla (ə.f.) birlikdə 1000 000 həcc ziyarətini yerinə yetirməyin, Allahın Rəsulu (s) ilə birgə 1000 000 ümrə ziyarətini yerinə yetirməyin, 1000 000 qul azad etməyin və Allah yolunda 1000 000 at üzərinə əsgər süvar etməyin və qüsl aldıqdan sonra ziyarətə tərəf atdığı hər bir addımın müqabilində bir həccin və bəzi rəvayətlərə əsasən 100 həccin savabını yazar.

Qurban bayramı gününün ziyarətinin xüsusiyyəti barədə deyiblər ki: "Bir il ərzində tamam şərlərdən amanda olar, keçmiş və gələcək günahları bağışlanar.[1]

Məhərrəm ayında aşura gecəsi və günü o Həzrətin (ə) dəfni olan 13-cü gündür. Aşura gününün fəzilətinin xüsusiyyəti budur ki, zəvvar şəhidlər zümrəsinə daxil olar. Əgər Aşura gecəsi ziyarət edə və sübhədək qəbrinin kənarında qala Qiyamət günü o Həzrətin (ə) qanına bulaşmış halda həşr olunacaqdır və əgər o vaxt camaata su versə, sanki İmam Hüseynin (ə) əsgərlərinə Aşura gecəsi su vermişdir.

Səfər ayında 20-ci gündür ki, xüsusi Ərbəindir və fəzilətinin xüsusiyyəti budur ki, imanın əlamətlərindəndir.

Sual: Bu xüsusiyyətlərin hansı daha fəzilətlidir? Belə ki, hər kəs fəzilətləri bir-bir mülahizə etsə və daha fəzilətli olanını seçmək istəsə hansına üstünlük verəcəyini bilməyəcəkdir. Bəzi rəvayətlərdən belə zahir olur ki, nimeye Rəcəb və nimeye Şəban daha fəzilətlidir. Lakin cəmi fəzilətləri nəzərdən keçirəndə Ərəfə və Aşura günlərinin ziyarəti fəzilət baxımından daha üstün görünür. Aşura gününün xüsusiyyətləri barədə rəvayətdə nəql olunur ki, zəvvar Qiyamət günü şəhidlər zümrəsində o Həzrətin (ə) qanına qəltan olmuş şəkildə həşr olunacaqdır və bu fəzilət digər fəzilətlərdən üstündür. Hətta Peyğəmbərlə (s) bərabər yerinə yetirilən 1000 000 həccdən də üstündür və Allahı Ərşdə ziyarət etmək mislindədir.[2]

---

[1] Bihar 98/ 85-100

[2] Bihar 98/97-105

DOQQUZUNCU FƏSİL:

O HƏZRƏTİN (Ə) ZİYARƏTİNƏ NİSBƏT İLAHİ LÜTFLƏR

Bu lütflər bir neçə qisimdir:

1-ci: Ölkəsindən bir nəfəri naib olaraq Kərbəlaya göndərə ya Kərbəlanın özündə bir nəfəri naib qərar verə ki, onun əvəzindən ziyarət etsin. Bununla öz əcrinə yetişər, hərçənd özü getsə daha yaxşıdır.

2-ci: Bir nəfəri naib ünvanı ilə deyil, eləcə yol xərcini verməklə, ziyarətə göndərmək. Rəvayətlərə əsasən, bu əməlin ziyarət savabı vardır.

3-cü: Uzaqdan ziyarət etməkdir, bu əcr və savabda yaxından ziyarət etməyi əvəz edir və imkanı olmayan şəxsin üzərindən cəfa etmək ünvanını aradan götürər və imkanlı şəxsdən cəfanın şiddətini aradan götürər. Uzaqdan ziyarət etməyin bir neçə keyfiyyəti vardır:

Birinci: Ziyarət qəsdi ilə damın üstünə çıxar, üzünü sağa və sola çevirər və başını səmaya tərəf tutar, sonra üzünü Hüseynin (ə) qəbrinə tərəf tutar və deyər: "Əs-səlamu əleykə, ya Əba Əbdillah, əs-səlamu əleykə yəbnə Rəsulillah, əs-səlamu əleykə və rəhmətullahi və bərəkatuhu."

İkinci: Ziyarət qəsdi ilə mənzilinin ən uca yerinə gedər, iki rikət namaz qılar və o Həzrətə (ə) salam verər.[1]

Üçüncü: Ziyarət qüslü alar, ən təmiz paltarını geyinər, uca bir yerə ya səhraya çıxar, üzü qibləyə dayanar və sonra üzünü o Həzrətin (ə) qəbrinə tərəf çevirib, deyər: "Əs-səllamu əleykə ya mövlayə və bnə mövlayə, və seyyidi və bnə seyyidi, əs-səlamu əleykə ya mövlayə ya qətil ibnəl qətil vəş-şəhidə ibnəş-şəhidi, əs-səlamu əleykə və rəhmətullahi və bərəkatuhu, ənə zairukə yəbnə Rəsulillahi biqəlbi və lisani və cəvarihi və ənə ləm əzurkə bi

[1] Bihar 98/51,79, 365-367

nəfsi vəl müşahidəti fə əleykəs-səlam, əs-səlamu əleykə ya varisə Adəmə səffətilləhi və varisə Nuhi nəbiyyilləhi və varisə İbrahimə xəlililləhi və varisə Musa kəlimilləhi, və varisə İsa ruhilləhi və kəlimətihi və varisə Muhəmmədi həbibilləhi səlləllahu əleyhi və alihi və nəbiyyihi və rəsulihi və varisə Əmiril-muminin vəsiyyi Rəsulilləhi və xəlifətihi və varisə Həsən ibn Əliyyi vəsiyyi Əmiril-muminin. ləənə Allahu qatilikə və cəddədə əleyhil-əzaba fi həzihis-saəti və kulli saətin, ənə ya seyyidi mutəqərribun ilələllahi əzzə və cəllə və ilə cəddikə Rəsulilləhi və ilə əbikə Əmiril-muminin və ilə əxikə əl-Həsəni və ileykə ya mövlayə əleykum səlamullahi və rəhmətuhu bi zəyarəti ləkə biqəlbi və lisani və cəmii cəvarihi, fəkun ya seyyidi şəfii liqəbuli zəlikə minni və ənə bil-bəraəti min ədaikə və lənəti ləhum və əleyhim, ətəqərrəbu ilələllahi və ileykum əcməin fə əleykə sələvatullahi və rizvanuhu və rəhmətuhu."

Sonra üzünü bir qədər sola çevir və qəlbinin diqqətini İmam Zeynulabidinin (ə) qəbrinə yönəlt və ona salam ver, sonra din və dünya işlərindən nə hacətin varsa dua et, sonra 4 rikət (iki, iki) namaz qıl, daha üstünü 8 rikətdir və ən azı 2 rikət, sonra üzü qibləyə dayanıb o Həzrətin (ə) qəbrinə tərəf üz tutaraq de: "Ənə muvəddiukə ya mövlayə vəbnə mövlayə və seyyidi vəbnə seyyidi ya Əli ibnəl-Hüseyn və muvəddiukə ya sadati ya məşərəş-şühəda fə əleykum səlamullahi və rəhmətuhu və rizvanuhu."[1]

Dördüncü: İmam Hüseyn (ə) zəvvarlarını qayıtdıqlarından sonra onları qarşılamaqla ziyarət etməkdir, bununla o Həzrətin (ə) ziyarətinin savabı hasil olur, necə ki, rəvayətlərdə nəql olunmuşdur.[2]

[1] Bihar 98/367-368; Kamiluz-ziyarat 96/288
[2] Bihar 99/302

ONUNCU FƏSİL:

İMAM HÜSEYNİN (Ə) ZİYARƏTİNƏ NİSBƏT OLUNAN XİTABLAR

Həmən xitabların xüsusiyyəti budur ki, onlar digər İmamların (ə) və Peyğəmbərlərin (ə) ziyarətlərində gəlməyibdir və bunlar bir neçə qisimdirlər:

1-ci: O Həzrətin (ə) qətli zamanı ona üz verən müsibətlərin sifətlərinin xüsusiyyətidir ki, onların məxsus fəzilətinə dəlalət edir.

2-ci: O Həzrətin (ə) Allahla bağlılığını bəyan edən məxsusi xitablar, məsələn: Sarallahi, Qətilullahi və Zəbihullahi.

3-cü: O Həzrətə (ə) salam verən zaman tamam Peyğəmbərlərə (ə) adları və sifətləri ilə salam vermək lazımdır, bunun sirri də ola bilsin budur ki, İmam Hüseyn (ə) onların hamısının məzhəridir, necə ki, peyğəmbərlərin (ə) ünvanında gələcəkdir, inşallah.

4-cü: O Həzrət (ə) "təlbiyat"la məxsus edilibdir belə ki, İmam Hüseynin (ə) bəzi ziyarətlərində gəlir ki, salamdan sonra deyirlər: "Ləbbeykə ya daiyəllah" (yəni, cavab verirəm sənə ey Allahın dininə dəvət edən) və bunu 7 dəfə deməlidirlər.[1]

O Həzrətə (ə) ləbbeyk deməyin səbəbi budur ki, İmam (ə) öz alicənab Cəddindən (s) sonra dinə "ikinci dəvət edəndir". Cəddi Peyğəmbər (ə) xalqı Allahın dininə dəvət edən "Birinci dəvətçi idi" və Allahın köməyi, mələklərin yardımı, Əmirəl-möminin (ə) qılıncı, bəzi səhabələrin səyləri və xalqın qəlblərində qorxu icad olunmaqla bu dini zahir etmişdir.

İmam Hüseyn (ə) də ikinci dəvətçi idi o xalqı imana, haqq İmamına (ə) və Raşid İmamlara (ə) dəvət etmişdir. İmam Hüseyn (ə) bu dini şəhadətə yetişməklə, məzlumiyyətilə və ona üz verən məxsusi müsibətlərlə zahir etmişdir. Buna görə bu dəvət edənə sözlə və fel

[1] Bihar 98 /151, 169

ilə "ləbbeyk" demək lazımdır və həmin bu səbəbdən onu ziyarət edən zaman təlbiyə yəni, "ləbbeyk" demək müstəhəb olmuşdur.

Ancaq 7 dəfə "ləbbeyk" deməyin müstəhəb olmasının bir neçə səbəbi vardır:

1-ci: Burada, dəvətə cavab verən zəvvarın halәti nəzərə alınır, belə ki, cavab bədən, əl, dil, qulaq, göz, qəlb, meyl və məhəbbətlə olmalıdır. Beləliklə, hər birinin müqabilində bir ləbbeyk deyilməlidir, bu ziyarətnamənin mətnindən zahir olur. Belə ki, 7 dəfə "ləbbeykə daiyəllah" dedikdən sonra, deyər: "Əgər sən məni çağıranda mənim bədənim sənə cavab verməsə və dilim də dadına yetişməsə, bəs həqiqətən mənim qəlbim, gözüm, qulağım, meylim və məhəbbətim sənə cavab vermişdilər. Yəni, mənim qəlbim sənə olan məhəbbətim ilə cavab vermişdir, qulağım sənin müsibətinə qulaq asmaqla sənə cavab vermişdir, gözüm sənə ağlamaqla, məhəbbətim sənin səhabələrinin əməlini sevməyimlə, meylim sənə tərəf olmağı ilə və bədənim indi sənə doğru hərəkət etməyi ilə və dilim sənə salam verməyi ilə sənə cavab vermişdilər.

2-ci: 7 dəfə ləbbeyk demək İmam Hüseynin (ə) 7 halətdə kömək istəməsinə cavabdır.

Birinci: Məkkədə, hərəkət etmək qərarına gələndə o Həzrət (ə) xütbə söylədi və bu məzmunda kömək istədi: "Hər kəs öz canını Allah və bizə kömək etmək yolunda və Allahla görüşmək şövqü ilə fəda etmək istəyirsə mənimlə hərəkət etsin. Mən sübh vaxtı yola düşürəm."

İkinci: Məkkənin kənarında Abdullah ibn Abbas, Abdullah ibn Cəfər, Abdullah ibn Zubeyr və Abdullah ibn Ömər İmamın (ə) xidmətinə gəlib, onu İraq səfərindən çəkindirmək istədilər. Həzrət (ə) hərəsinə bir cür cavab verdi və axırda buyurdu: "Mənə bu işi yerinə yetirmək əmr olunubdur və onu yerinə yetirəcəyəm." İmam (ə) onları ona kömək etməyə dəvət etdi. Abdullah ibn Cəfər özünün iki oğlunu onunla göndərərək dedi: "Mən özümdə sizə qoşulacağam."[1]

---

[1] Bihar 98/364-367

İmam Hüseyn (ə) Abdullah ibn Ömərə buyurdu: "Allahdan qorx və mənə kömək etməkdən üz döndərmə." Ancaq o üzrxahlıq edib, İmamla (ə) vidalaşdı və dedi: "Aç sinənin Peyğəmbər (s) həmişə öpdüyü o yeri." İmam (ə) sinəsini açdı, Abdullah mübarək qəlbinin üstündən öpüb, ağladı və vidalaşdı."[1]

Üçüncü: İmam (ə) xalqa höccəti tamam etmək üçün Məkkədən Kərbəlayadək yolda kimi görürdüsə bəzən öz dililə, bəzən adam göndərməklə ona kömək etmək istəyirdi. Xalq da İmamın (ə) səhabələrinin sayını az görüb, müxtəlif bəhanələrlə; bəziləri ticarətlərinin, bəziləri əkinlərinin olması ilə, kimi ailələrinin ehtiyaclı olduqlar ilə üzrxahlıq edirdilər. Bəziləri də İmama (ə) qoşulacaqlarını vədə verib, uzaqlaşırdılar. Elələri də var idi ki, İmamın (ə) onlardan kömək istəməklərini başa düşüb, karvanlarının yolunu başqa istiqamətdən salırdılar və O Həzrətin (ə) mənzil qurduğu yerdə mənzil qurmurdular. Necə ki, Fəzarə və Bəcilə tayfalarından olan bir dəstə camaatdan nəql olunur: "Həccdən sonra İmam Hüseynə (ə) qoşulduq və o Həzrətlə (ə) yol gedirdik, ancaq onunla bir dayanacaqda mənzil qurmaq istəmirdik. Hüseyn (ə) bir su quyusu üzərində dayananda, biz də başqa bir quyu üzərinə gedirdik. Əgər onunla bir dayanacaqda mənzil qurmağa naçar qalanda Həzrət (ə) bir tərəfdə mənzil qururdusa, biz də digər tərəfdə dayanacaq qururduq ki, məbada bizi öz köməyinə çağırar."[2]

O Həzrətin (ə) ən böyük müsibəti

Əgər bu halət barədə bir qədər düşünsən görərsən ki, bu İmam Hüseynin (ə) ən böyük müsibəti idi. Bundan da ağır bu idi ki, yol boyu ötüb keçən camaat o Həzrəti (ə) uzaqdan müşahidə edir və kənara çəkilib gedirdilər ki, məbada onları köməyə çağırar. Bundan da ağır Ubeydullah ibn əl-Hür əl-Cufinin o Həzrətə (ə) dediyi kəlam idi. İmam Hüseyn (ə) bəni Məqatil qəsrinə çatanda bir Xeymə gördü, buyurdu "Bu xeymə kimindir?" Dedilər: "Ubey-

[1] Bihar 98/44; Əmaliye Səduq 30-cu məclis s.131.
[2] Bihar 44/371; Luhuf s. 31

dullahın." Buyurdu: "Onu çağırın." İmamın (ə) elçisi gedib Ubeydullaha dedi: "Hüseyn ibn Əli (ə) səni çağırır." O dedi: "İnna lillah. Allaha and olsun Kufədən ona görə çıxdım ki, Hüseyn ibn Əli (ə) ilə orada görüşməyim. İstəmirdim nə o məni görsün nə də mən onu." Bu xəbəri İmama (ə) çatdıranda o Həzrət (ə) durub özü gəldi, salam verib, oturdu və ondan kömək etməyini istədi. Ubeydullah yenə həmin sözləri təkrar edib üzrxahlıq etdi. Həzrət (ə) buyurdu: "Ey kişi, sən çox günah etmisən, əgər bu saat tövbə etməsən Allah səni məzəmmət edəcəkdir.

Mənə kömək et ki, Cəddim Peyğəmbər (s) Allah yanında sənə şəfaət etsin." Ubeydullah dedi: "Ey Allah Rəsulunun (s) oğlu Allaha and olsun əgər sənə kömək etsəm sənin qarşında ölən ilk adam olacam. Ancaq bundan vaz keç, al mənim bu atımı, qaçışda onun misli yoxdur." İmam (ə) etiraz edib buyurdu: "Mənim ona ehtiyacım yoxdur, indi ki, mənə kömək etmək istəmirsən onda elə bir yerə get ki, bizim sədamızı eşitməyəsən və bizim düşmənlərlə birgə olma, çünki, bizim imdad sədamızı eşidən və bizə kömək etməyən şəxsi Allah-taala üzü üstə cəhənnəmə atacaq." İmam (ə) qalxıb öz mənzilinə getdi. Ubeydullah o Həzrətin (ə) şəhadətindən sonra peşman oldu və peşmançılığını izhar edən şeirlər dedi.[1]

İmamın (ə) sözləri heç kəsə təsir etməmişdir, yalnız Zuheyr ibn Qeyndən başqa. Zuheyr ibn Qeyn Fəzarə və Bəcilə tayfaları ilə birgə idi. Bu tayfalar əvvəl deyildiyi kimi o Həzrətlə (ə) həmsəfər idilər, ancaq onunla bir düşərgədə mənzil qurmaqdan çəkinirdilər və mənzillərini başqa yerdə qururdular. O camaat nəql edir ki: "Bir gün oturub, yemək yeyirdik ki, birdən Hüseynin (ə) qasidi daxil olub, dedi: "Ey Zuheyr, Hüseyn ibn Əli (ə) səni çağırır." Bizim hər birimizin loxması əlindən yerə düşdü. Hamımız heyrət içindəydik, sanki başımız üzərində bir quş oturmuşdur. Zuheyrin Deyləm adında zövcəsi dedi: "Sübhənallah, Peyğəmbərin (s) balası sənin dalınca adam göndərir, səndə gedib onun sözlərini eşitmək istəmirsən?" Zuheyr qalxıb getdi və bir qədər sonra qa-

[1] Bihar 44/379; Tarixi Təbəri 5/206

yıtdı, onun üzü nur saçırdı. Zuheyr əmr etdi ki, onun xeyməsini söküb Həzrətin (ə) yanına köçürsünlər və əyalına dedi: "Sənə tələq verdim, istəmirəm mənə görə sənə xətər yetişsin, öz tayfana dön. Mən öz canımı Hüseynin (ə) yolunda fəda edənədək onun yanında olacam." Zövcəsinin mallarını özünə qaytardı və əmisi oğlanlarına onu öz tayfalarına təhvil verməyi tapşırdı. Zövcəsi ağladı və vidalaşaraq dedi: "Səndən xahiş edirəm qiyamət günü Peyğəmbərin (s) yanında məni unutmayasan." Sonra Züheyr o camaata dedi: "Kim mənimlə yoldaş olmaq istəmirsə, ona deyirəm ki, bu mənim axırıncı vidamdır və sonda sizə bir hədis söyləmək istəyirəm. O vaxt biz dəniz yolu ilə cihada getmişdik, qələbə çaldıq və çoxlu qənimət əldə etdik. Bu vaxt Salman bizə dedi: "Bu qələbəyə və qənimətə şad oldunuzmu?" Dedik: "Bəli." Buyurdu: "Hər nə vaxt cənnət cavanlarının Ağası (ə) ilə görüşdünüz onun qarşısında cihad edin və həmin cihada daha çox sevinin. İndi isə sizi Allaha tapşırıram." Bunu deyib, İmamın (ə) yanına getdi və o Həzrətin (ə) haqq bayrağı altında uca şəhadət məqamına qovuşdu, "Ya ləytəni kuntu məəhu və əfuzə fouzən əzima", yəni "Ey kaş onunla birgə olaydım və böyük feyzdən faydalanardım.[1]

İmam Hüseynin (ə) Bəsrə əhlinə məktubu

Dördüncü: O Həzrət (ə) Bəsrə əhlindən məktub yazaraq kömək istədi və məktubu Əbu Ruzeyn ilə göndərdi. Məktubun məzmunu Bismillahdan sonra belə idi: "Bu məktub Hüseyn ibn Əlidən (ə) Bəsrənin böyüklərinə və əşrəflərinə ünvanlanır. Həqiqətən mən sizləri Allaha və Onun Rəsuluna (s) tərəf dəvət edirəm, çünki yaşadığımız bu günlərdə Peyğəmbərin (s) sünnəti aradan getmişdir. Beləliklə, mənim dəvətimi qəbul etsəniz və əmrimə itaət etsəniz öz kamalınıza doğru hidayət olunacaqsınız, vəssəlam."

Məktub onlara yetişəndə Yezid ibn Məsud bəni Təmim, bəni Hənzələ və bəni Səd camaatını bir yerə toplayıb, xütbə söylədi və onlara mouzə etdi, sonra dedi: "Peyğəmbərin (s) balası Hü-

[1] Bihar 44/ 371.

seyn ibn Əli (ə) şərəf, əql, fəzilət və əsl-nəcabət sahibidir, elm və kamalda tayı-bərabəri yoxdur. Allahın hüccəti o Həzrətin (ə) vasitəsilə sizlərə tamam olur. Sizlər Cəməl müharibəsində Əmir-əlmöminin (ə) qarşı hərb etməklə günahkar oldunuz, bəs Allahın Rəsulunun (s) övladına kömək etməyinizlə o günahlarınızı yuyun." Onlar İmamın (ə) dəvətini qəbul edib və ona kömək etmək qərarına gəldilər, ancaq şəhərdən çıxarkən o Həzrətin (ə) şəhadət xəbəri onlara yetişdi.[1]

İmam Hüseynin (ə) Kufə böyüklərinə məktubu

Beşinci: İmam Hüseyn (ə) kömək məqsədi ilə aşağıdaki məzmunda Kufə böyüklərinə məktub yazmışdır: "Allahın adı ilə, bu Hüseyn ibn Əli (ə) tərəfindən Süleyman Sərdə, Museyyəb ibn Nəcbəyə, Rifaə ibn Şəddada, Abdullah ibn Vala və möminlərə ünvanlanmışdır. Həqiqətən bilirsiniz ki, Allahın Rəsulu (s) buyurmuşdur: "Hər kəs Allahın halalını haram edən, Allahın əhdini sındıran, Peyğəmbərin (s) sünnətini dəyişdirən, xalq arasında haqqsızlıq və düşmənçiliklə rəftar edən zalım sultanı görərsə və sözü ya feli ilə onu inkar etməsə, əlbəttə Allah-taala onu əməldə həmin zalım ilə şərik edəcəkdir. Siz bilirsiniz ki, bu camaat, yəni, bəni üməyyə şeytanın itaətinə sığınıblar və Allahın itaətindən boyun qaçırıblar, onlar fəsadı aşkar, Allahın hökmlərini isə kənara qoyublar, müsəlmanların mallarını özlərinə məxsus edib, Allahın halal və haram hökmlərini dəyişdiriblər. Həqiqətən mənim Allahın Peyğəmbərinə (s) yaxınlıq cəhətindən xilafətə hamıdan daha çox haqqım var.

Sizin məktublarınız və qasidləriniz nəzərimə çatdırdılar ki, sizlər məni tək qoymamaq və mənə kömək etmək barədə mənimlə beyət etmisiniz. Beləliklə, öz beyətinizə vəfa etsəniz, əlbəttə öz kamalınıza çatacaqsınız. Amma əgər öz beyətinizi sındırsanız və bunu da sizdən gözləmək olar, necə ki, atamla, qardaşımla və əmim oğlu Müslimlə rəftar etdiniz və aldanan sizlərə aldanan

[1] Bihar 44/337; Luhuf 16/19

şəxsdir, əgər belə etsəniz öz məktublarınızı zay etmisiniz və doğru yoldan kənara çəkilmisiniz, özünüzə zərər yetirmisiniz və Allah sizdən ehtiyacsızdır, vəssəlam."

İmam (ə) məktubu büküb Qeys ibn Musəhhər Sidaviyə həvalə etdi. Qeys Kufəyə yaxınlaşanda yolda gözətçi dayanan Həsin ibn Nəmir öz dəstəsi ilə onun qabağını kəsdi, onun üstünü yoxlamaq istəyəndə Qeys İmamın (ə) məktubunu çıxardıb, parə-parə etdi. Həsin, İmamın (ə) qasidini ibn Ziyad məlunun yanına göndərdi. İbn Ziyad məlun ondan soruşdu: "Sən kimsən?" Dedi: "Əmir əlmöminin (ə) və oğlu Hüseynin (ə) şiələrindənəm." Dedi: "Məktubu niyə cırdın?" Dedi: "Cırdım ki, onun məzmunundan agah olmayasan." Dedi: "Bu məktub kimin tərəfindən və kimə ünvanlanmışdır?" Dedi: "Hüseyn ibn Əli (ə) tərəfindən Kufənin bir iddə camaatına ki, onların adlarını bilmirəm." İbn Ziyad qəzəblənib, dedi: "Allaha and olsun onların adlarını mənə deməyincə, yaxud minbərə qalxıb Hüseynə (ə), onun atasına və qardaşına lənət deməyincə səndən əl çəkən deyiləm. Əgər bunu etməsən səni tikə-tikə edəcəm." Qeys dedi: "Onların adlarını deməyəcəm, ancaq minbəri qəbul edirəm." Qeys minbərə çıxdı, Allaha həmd deyəndən və Peyğəmbərə (s), Əmir-əl-möminə (ə) və övladlarına salam və salavat göndərəndən sonra İbn Ziyada, onun atasına və tamam bəni üməyyəyə lənət göndərdi və dedi: "Ey camaat, mən Hüseynin (ə) sizə göndərdiyi elçiyəm, o Həzrət (ə) filan mənzildədir onun köməyinə tələsin." İbn Ziyad məlun hökm etdi ki, onu əli-qolu bağlı halda qəsrin başından yerə atsınlar. Onu atdılar, sümükləri sındı və Əbdül-Məlik ibn Vəlid onun başını kəsdi, bəziləri Əbdül-Məliki məzəmmət etdilər, o isə dedi: "Rahatlanmasını istədim."[1]

[1] Bihar 44/381; Məqtəli Xarezmi 1/234

HÜCCƏTİ TAMAM ETMƏK MƏQSƏDİ İLƏ O HƏZRƏTİN (Ə) DÜŞMƏNLƏRDƏN KÖMƏK İSTƏMƏSİ

Altıncı: İmam Hüseyn (ə) hüccəti tamam etmək üçün öz düşmənlərindən kömək istəmişdir:

1-ci: Hürrdən və onun ləşkərindən, İmama (ə) geri qayıtmağa mane olan zaman yardım istəmişdir.

2-ci: Məhərrəm ayının 6-cı günü İbn Səddən.

Amma birincisi, Hürr öz səhabələri ilə İmamın (ə) xidmətinə gəldilər və İmam (ə) onlara su verdi. Sonra o Həzrətlə (ə) yola düşdülər, zöhr namazının vaxtı çatanda Həzrət (ə) əmr etdi ki, Həccac ibn Məsruq azan desin. İmam (ə) əbası ilə cıxıb Allaha həmd və şükr söylədi, sonra buyurdu: "Ey insanlar mən sizin yanınıza sizin dəvət məktublarınızı və qasidlərinizi gördükdən sonra gəlmişəm. Bu məktublarda siz deyirdiniz ki: "Gəl bizim yanımıza, bizim imamımız yoxdur, ola bilsin Allah-taala bizi hidayətə və haqqa sənin əlinlə cəm etsin." Beləliklə, əgər fikrinizdən dönməyibsizsə gəlin öz beyətinizi və əhdinizi təzələyin ki, mən əmin olum. Əgər öz rəyinizdən dönmüsünüzsə və mənim gəlişimdən narazısınızsa, onda imkan verin gəldiyim yerə qayıdım."

Hamı sükut etdi və heç kəs danışmadı, İmam (ə) müəzzinə buyurdu: "İqaməni de." Sonra Hürrə buyurdu: "Əgər istəyirsən öz səhabələrinlə namaz qıl." Hürr dedi: "Mən sizinlə namaz qılacam." İmam (ə) namazı qılıb, xeyməsinə döndü. Hürr də öz səhabələri ilə öz mənzilinə qayıtdı. Hürr öz xeyməsində 500 nəfər səhabələri ilə birgə və qalanları öz atlarının kölgəsində daldalanaraq qaldılar. Əsr vaxtı gələndə İmam (ə) əmr etdi ki, yola düşməyə hazırlıq görsünlər və müəzzinə əsr azanını verməsini buyurdu. Namazı qılandan sonra İmam (ə) üzün tutub o camaata, Allaha həmdə və şükr deyərək, buyurdu: "Ey camaat əgər Allahdan qorxsanız və haqqı haqq sahibinə qaytarsanız Allahın razılığına daha yaxın olacaqsınız. Bizim, Muhəmmədin (s) Əhli-beytinin (ə) vilayət əmrinə

(yəni, rəhbərlik məqamına) ona iddia edən və o məqamın əhli olmayan bu şəxslərdən ləyaqətimiz daha çoxdur. Onlar sizin aranızda zülm və haqsızlıqla rəftar edirlər. Əgər bizim vilayətimizdən imtina etsəniz öz cahilliyinizə iqrar etmiş olacaqsınız. Əgər sizin hazırki, rəyiniz məktublarınızda söylədiyiniz rəydən fərqlidirsə, onda qoyun mən qayıdım öz diyarıma." Hürr dedi: "Allaha and olsun mən o məktublar barədə heç nə bilmirəm." İmam (ə) səhabələrindən birinə buyurdu ki, o iki xurcunu gətirsin. Səhabə Kufə əhlinin məktubları ilə dolu olan hər iki xurcunu gətirdi və Həzrətin (ə) qarşısına tökdü. Hürr dedi: "Biz bu məktubları yazanlardan deyilik və bizə əmr ediblər ki, səni Kufədə İbn Ziyadın yanına aparmayınca səndən ayrılmayaq." Həzrət (ə) buyurdu: "Ölüm sənə bu xəyaldan daha yaxındır."[1]

O Həzrətin (ə) Ömər Səddən kömək istəməsinin təfsilatı belədir: İmam (ə) Ömər Sədin yanına adam göndərdi ki, "Sənlə söhbət etmək istəyirəm, iki ləşkər arasında mənimlə görüşə gəl." Ömər Səd məlun 20 nəfərlə, İmam (ə) da 20 nəfərlə görüşə çıxdılar. Biribirilərinə yaxınlaşanda İmam (ə) səhabələrinə əmr etdi ki, kənarda gözləsinlər və özü Həzrət Abbas (ə) və oğlu Əliəkbər ilə birgə qaldı. Ömər Səd də səhabələrini kənarda, qoyub oğlu Hefs və nökəri ilə birlikdə İmamın (ə) hüzuruna gəldi. İmam Hüseyn (ə) buyurdu: "Vay olsun sənə ey İbn Səd məgər Allahdan qorxmursan ki, sənin qayıdacağın yer Ona tərəfdir və mənimlə müharibəyə qalxmısan? Halbuki, bilirsən kimin oğluyam. Burax bu camaatı və keç mənim tərəfimə, Allah yanında bu sənin üçün daha yaxşıdır." O məlun dedi: "Qorxuram Kufədəki evimi xaraba qoyarlar." İmam (ə) buyurdu: "Mən sənin üçün onu yenidən tikərəm." Dedi: "Qorxuram əkinəcəyimi əlimdən alarlar." İmam (ə) buyurdu: "Mən Hicazda öz malımdan onun əvəzini verərəm." Dedi: "Öz əyalım üçün qorxuram." Həzrət (ə) bir qədər sükut etdikdən sonra buyurdu: "Sənə nə olacağını bilirsənmi? Allah-taala tezliklə səni elə öz yatağında başını kəsəcəkdir və qiyamət günü bağışlamayacaqdır. Allaha and olsun, ümidvaram İraqın buğdasından az miqdardan artıq yeyə

[1] Bihar 44/376-378; İrşadi Mufid 2/79-81

bilməyəcəksən." İbn Səd istehza edərək dedi: "Buğda yemərəm, arpa yeyərəm."(Allahın lənəti olsun ona).[1]

O Həzrətin (ə) mühasirə vaxtı kömək istəməsi

Yeddinci: İmamın (ə) ətrafını 30 000 qoşun mühasirəyə alanda və su ilə onun arasında sipər çəkən zaman Həbib ibn Məzahir o Həzrətin (ə) yanına gəlib, dedi: "Bu yaxınlarda Bəni-Əsəd qəbiləsinin mənzili vardır, izn verin gedim onları sizin köməyinizə çağırım. Ola bilər bunun düşmənlərdən müdafiə olunmaq üçün faydası olsun." Həzrət (ə) izn verdi. Həbib gecənin yarısı onların yanına gedib dedi: "Mən sizin üçün dünya və axirətin xeyrini gətirmişəm, gəlin Peyğəmbərin (s) balasına və bir camaat möminlərə ki, onların hər biri 1000 kişidən üstündür və İmamın (ə) yolunda canlarını fəda etməyə hazırdırlar, kömək edin. İndi Ömər Səd məlun onları mühasirəyə alıbdır, siz də mənim qəbiləm və tayfamsınız, dünya və axirətin ən ali məqamına və xeyrinə çatmağınız üçün nəsihətimi qəbul edin."

Abdullah ibn Bəşir adlı bir nəfər qalxıb, dedi: "Mən sənin dəvətini qəbul edirəm." Və rəcəz də (yəni, şeirlə tərif) söylədi, sonra sayı doxsan nəfər olan bir dəstə qalxıb o Həzrətə (ə) kömək etmək qəsdi ilə mənzillərindən çıxdılar. O tayfadan bir nəfər Ömər Sədin yanına gedib, bu xəbəri ona çatdırdı. O məlun Əzrəq adında bir sərkərdəni 400 nəfər süvari ilə onlara tərəf göndərdi. Bunlar Fəratın kənarından qarşılaşdılar və şiddətli döyüş oldu. Həbib uca səslə Əzrəqi səslədi ki: "Sənin bizimlə nə işin var, qayıt yerinə, qoy bədbəxtçiliyi başqası üzərinə götürsün." O bədbəxt qəbul etmədi, Bəni-Əsəd döyüşçüləri onlara müqavimət göstərə bilmədiklərini görəndə meydandan qaçıb, öz qəbilələrinə qayıtdılar və həmin geçə Ömər Sədin qorxusundan öz mənzillərindən köçdülər. Həbib İmamın (ə) xidmətinə qayıdıb, hadisəni ona danışdı. İmam (ə) buyurdu: "La hövlə və la qüvvətə illa billah."[2]

[1] Bihar 44/388-389; Məqtəli Xarezmi 1/245
[2] Bihar 44/ 386-387; Məqtəli Xarezmi 1/234

Bu İmam Hüseynin (ə) axırıncı dəfə kömək istəməsi idi, artıq kənardan bir yardım gəlməsindən məyus olmuşdur və bildi ki, düşmənlər üzərində qələbə çalmaq məqsədi ilə edilən cihad təklifi onun öhdəsindən saqit olmuşdur. İndi qalırdı məxsusi cihad ki, ondan məqsəd məhz şəhadət idi. İmam (ə) öz səhabələrini topladı, xütbə söylədi və buyurdu: "Artıq vəziyyətin nə yerdə olduğunu görürsünüz, dünya bizdən üz döndərmiş, məruf sona yetmişdir. Artıq kömək gözləmək ümidim yoxdur, xalqdan məyus olmuşam və sizinlə olan beyətimi ortadan götürdüm, sizin heç biriniz mənimlə bərabər cihad etməyə mükəlləf deyilsiniz. Əgər sizlərdən kimsə mənimlə ölmək istəyirsə gəlib bu mənaya mənimlə beyətini təzələsin, əks təqdirdə bu gecə başını götürüb istədiyi yerə getsin, bilin ki, bu qövmün məndən başqa heç kəslə işi yoxdur." Səhabələr hamısı eyni sözü söylədilər ki, gəlin (inşallah) şəhid ünvanında bu mənaya beyət edək.[1]

Yeddi dəfə "Ləbbeykə ya Hüseyn (ə)" demək o Həzrətin (ə) çağırışına cavab verməkdir

Üçüncü cəhət: 7 təlbiyyat o Həzrətin (ə) məxsusi işlər üçün kömək istəməsinə cavab verməkdir ki, o vaxt İmama (ə) cavab verən olmamışdır.

1-ci: Öz Əhli-beyti və səhabələri üçün su istəmişdir.[2]

2-ci: Qadınları və uşaqları üçün su istəmişdir və buyurmuşdur: "Bunların günahı yoxdur və sizinlə müharibə etmirlər."[3]

3-cü: Südəmər körpəsi üçün su istəmişdir və buyurdu: "Bu körpəyə bir qurtum su verən bir kəs tapılmayacaqmı?"

4-cü: Cəmi düşmən ləşkərinə müraciət etdi ki: "Ey Əbu Süfyan şiələri mənə həmlə edin və mənim hərəmimdən əl çəkin."

5-ci: Yenə ləşkərə müraciət etdi ki: "Heç olmasa məni öldürənədək xeymələri qarət etməkdən çəkinin."

[1] Bihar 44/381, 392; Luhuf s.34-35
[2] Bihar 44/288
[3] Bihar 45/51

6-cı: Atdan yerə yıxılanda eşitdi ki, Şümr məlun qışqırır: "Xeymələri yandırmaq üçün atəş gətirin." İmam (ə) buyurdu: "Ey Zül-covşənin oğlu, mənim hərəmimi yandırmağa atəş istəyirsən?"[1]

7-ci: Axırıncı nəfəsində bir damla su istədi və bunu istəyərkən mübarək başını kəsdilər.[2]

Beləliklə, 7 dəfə kömək istədikdə heç kəs o Həzrətə (ə) yardım etmədiyinə görə, yaxşı olardı ki, onun dostları bunların ədədi qədər o Həzrətin (ə) dəvətinə cavab olaraq 7 dəfə "ləbbeykə ya Hüseyn (ə)" zikrini qəlblərindən keçirərək və dillərində iqrar edərək ona kömək etmək savabına müvəffəq olsunlar.

O Həzrətin (ə) öz halәti cəhətindən yeddi dəfə köməyə çağırışı

Dördüncü cəhət: Bu da qəribə bir cəhətdir, yeddi dəfə "ləbbeykə ya Hüseyn (ə)" demək İmamın (ə) öz halətinə görə kömək istəməsinə cavab verməkdir. Xalqın ondan üz döndərməsi və ona etinasız yanaşması, həmçinin onun qərib, tənha olması, bunların hər biri İmamın (ə) halına xas təsir buraxmışdır və nəticədə məxsusi inqilaba gətirib çıxarmışdır. Beləliklə, qulağını aç ki, hələ kömək sədası dostların qulaqlarına yetişir, buna görə onlar dəvətə qulaq asıb, cavab verməlidirlər.

Birinci çağırışı: İki ləşkərin qarşı-qarşıya dayanması

İki qoşun qarşı-qarşıya dayanan zaman Allah-taala kömək və qələbəni nazil etdi və bu kömək və qələbə gəlib İmam Hüseynin (ə) başı üzərində dayananda Allah-taala ona seçim ixtiyarı verdi və İmam (ə) Allaha qovuşmağı seçdi, ancaq hüccəti tamam etmək

[1] Bihar 45/54; Luhuf s.54
[2] Bihar 45/56

üçün köməyə çağırdı ("Həl mən yənsuruni"yəni, mənə kömək edən bir kəs tapılacaqmı).[1]

Beləliklə, İmamın (ə) köməyə çağırışı o Həzrətin (ə) səhabələrinə xüsusi təsir göstərdi və onların cihad əzmini daha da artıraraq, halətlərini o dərəcədə dəyişdirdi ki, özlərini biixtiyar qılınc və oxların üzərinə atırdılar və bu işdə biri-birini qabaqlamağa çalışırdılar. Buna görə siz, ey dostlar "Ləbbeyk" deməkdə onlara təqlid edin və deyin: "Ey mövla, əgər bizim bədənlərimiz, şəhidlər kimi sənin köməyə çağırışın zamanı sənə cavab verməsələr də və dillərimiz "Ləbbeyk" deməsə də, qəlblərimiz onların əməllərini sevməklə və gözlərimiz sənin müsibətinə ağlamaqla sənə cavab vermişlər.

İkinci çağırış: Döyüş zamanı olmuşdur

İkinci dəfə köməyə çağırış döyüşün qızğın və İmamın (ə) halətinin şiddətli vaxtında olmuşdur, belə ki, qadınlar çox narahat olanda İmam (ə) uca səslə fəryad etdi: "Düşmənlərin şərrini bizdən uzaqlaşdıran bir şəxs varmı?"[2] Bu nida İmamla (ə) bərabər olan qadınlara o dərəcədə təsir etdi və şövqə gətirdi ki, öz övladlarından və zövcələrindən keçdilər, hətta bəziləri özlərini ölümə atdılar, necə ki, şəhidlər ünvanında gələcək (inşallah).

Beləliklə, əgər bu çağırış yaşlı qadınları hərəkətə gətirib və onlar öz əziz övladlarını qurban verməyə "ləbbeyk" dedilərsə, onda dostlar bu çağırışı təsəvvür edərkən, hərəkətə gəlib o nidaya "Ləbbeykə ya Hüseyn (ə)" deməklə cavab verməlidirlər.

Üçüncü çağırış: Səhabələri ölən zaman olmuşdur

Bu köməyə çağırış övladlarının və səhabələrinin öldürüldüyü və İmamın (ə) tənha qaldığı vaxt olmuşdur.

İmam (ə) Allahla görüşmək əzmi ilə xeymədən çıxıb, ata süvari halda düşmənin müqabilində dayandı. Bir sağa baxdı, heç

[1] Bihar 45/12
[2] Bihar 45/46

kəsi görmədi, bir sola baxdı, heç kəsi görmədi. Əhli-beytini və səhabələrini isti qumların üstündə şəhid olduqlarını və əyalının, uşaqlarının başsız qaldıqlarını görəndə fəryad etdi: "Bir nəfər yoxdurmu məhz Allah rizasına xatir bizim fəryadımıza yetişə?"

Allah yolunda bizə kömək edəcək bir nəfər tapılmadımı?" Beləliklə, bu çağırış qadınlara təsir etdi, onların səbir və dözümünü o dərəcədə aradan apardı və hamısı bir dəfəyə elə nalə və fəryad etdilər ki, səsləri meydanın ortasında o Həzrətin (ə) qulağına yetişdi. İmam (ə) xeyməyə qayıtdı və buyurdu: "Sakit olun, düşmənin mənə tənə vurmasına şərait yaratmayın, hələ qabaqda çox ağlayacaqsınız."[1]

Beləliklə, yaxşı olardı ki, dostlar da bu çağırışı təsəvvür etdikləri zaman fəryad, nalə və ağlamaqları ilə cavab versinlər və desinlər: "Ləbbeyk daiyəllah" yaxud "Ləbbeykə ya Hüseyn (ə)"

Dördüncü çağırış: Torpağ üstünə yıxılarkən olmuşdur

O Həzrət (ə) atdan yerə yıxılanda köməyə çağırdı və bu çağırış İmam Zeynul-abidinə (ə) təsir etdi. O Həzrət (ə) xəstə olmasına, hərəkət edə bilməməsinə və cihadın ondan saqit olmasına baxmayaraq bu çağırışdan hərəkətə gəldi. Əsanı əlinə götürüb, qılıncı yerlə sürünərək xeymədən çöla çıxdı. Ümmü Gülsüm arxasınca gedib, fəryad etdi: "Ey qardaş oğlu, qayıt." Buyurdu: "Ey əmmə qoy Allah Rəsulunun (s) oğlunun qabağında cəng edim" İmam Hüseyn (ə) buyurdu: "Ey Ümmü Gülsüm, onu xeymədən çıxmağa qoyma ki, yer üzü Ali-Muhəmməd nəslindən boş qalmasın." Xanım Ümmü Gülsüm İmamı (ə) geri qaytardı.[2]

Beləliklə, siz də ey dostlar bu çağırışlara "Ləbbeyk" deməkdə tələsin ki, müsibətlər ardıcıl surətdə üz vermişlər.

---

[1] Bihar 44/321

[2] Bihar 45/45; Məqtəli Xarezmi 2/31

Beşinci çağırış: Yaralı bədənlə isti qumlar üstündə

Beşinci dəfə köməyə çağırışını o Həzrət (ə) yaralı bədənlə isti qumlar üstünə etmişdir. Bu səda hərəmdə olan uşaqlara elə təsir etmişdir ki, xeymələrdən iki uşaq çölə çıxdı.

Biri qulağında sırğa olan qız uşağı idi, o qorxu içində çıxıb sağa, sola baxdı, lakin bir qədər xeymələrdən uzaqlaşdıqda bir məlun anasının ona baxdığı halda zərbə vurub, şəhid etdi. Anası bu mənzərədən sanki dili-ağzı qurumuş halda danışa bilməmişdir.[1]

Biri də 11 yaşlı Abdullah ibn Həsən (ə) idi, uşaq əmisini bu halətdə görüb ona tərəf qaçmağa başladı. İmam (ə) fəryad etdi: "Ey bacı, onu qoyma gəlsin." Onu saxlamaq istəyəndə, dedi: "Allaha and olsun əmimdən ayrılmayacam." Uşaq İmamın (ə) yanına gəlib, əli ilə onu müdafiə etdi, ancaq məlunlar onun əlini kəsib, şəhid etdilər.[2]

Altıncı çağırış: Düşmənin onu öldürməyə hazırlaşması

Düşmən o Həzrəti (ə) qətlə yetirməyə hazırlaşan zaman bu çağırış bacısı Zeynəbə (ə) təsir etdi və onu xeymədən bayıra çıxardı. O Xanım (ə) ayaqyalın halda qətlgaha tərəf getdi və İbn Səddən kömək istəyərək, buyurdu: "Ey Sədin oğlu, heç rəvadırmı sən baxa-baxa Hüseyni (ə) öldürələr?" Bu sözlər İbn Sədi ağlatdı, gözündən yaş gəldiyi halda üzünü yana çevirdi.[3]

Yeddinci çağırış: Şəhadət halında

Şəhadət halətində edilən bu çağırış hamısından əzəmətli idi, çünki tamam mövcudata təsir etmiş və hər şeyi hərəkətə gətirmişdir, tamam aləmi lərzəyə salmışdır. Hər bir sabiti və sakiti öz yerindən təhrik etmişdir, hətta əzəmətli Ərşi, onun altını və üs-

[1] Həmin.
[2] Bihar 45/53; Luhuf s.53
[3] Bihar 45/55; Məqtəli Xarezmi 2/35

tünü, cənnəti, cəhənnəmi, gözə görünən və görünməyən qələmə, yazıya və təsəvvürə gələn və gəlməyən hər şeyi hərəkətə gətirdi.

Beləliklə, əgər bütün bunları ümumi şəkildə təsəvvürə gətirə bildinsə, onda digər məxluqata iqtida edərək 7-ci "ləbbeyki" belə de: "Əgər o zaman bədənim sənə cavab vermədisə, indi sənə qəlbimlə, gözümlə, qulağımla, əlimlə, ayağımla, tamam əzalarımla, nalə̈m, fəryadım, ağlamağımla, tamam vücudum və halətimlə cavab verirəm."[1]

Bu 7 cavab və ləbbəeyk səndən sadir olduqda hər ləbbeykin əvəzində ləbbeyk eşidəcəksən və hər cavabın müqabilində cavab alacaqsan.

Hər fərdin ölən, ... zaman yeddi dəfə köməyə çağırışı

Sənin üçün də 7 halət olacaq ki, hər nə qədər köməyə çağırsan fəryadına yetişən olmayacaq, yalnız İmam Hüseyndən (ə) başqa. Belə ki, əgər o Həzrətə (ə) cavab versən sənə cavab verəcəkdir və səni həlakətdən qurtaracaqdır. Beləliklə sənin:

1-ci çağırışın: Can verən halda, nəfəsin hulqumuna çatanda yaxınlarını, dostlarını, övladlarını, əhli-əyalını, həkimləri köməyə çağıracaqsan ancaq heç biri dadına yetişməyəcəklər. Beləliklə, əgər Allahın dəvətçisinin dəvətini qəbul etsən, ümid var ki, o Həzrət (ə) sənin yanında hazır olar, sənə əmniyyət verər və sənin cavabında "ləbbeyk" deyər.[2]

2-ci çağırışın: Qiyamət günü qəbirdən çılpaq, zəlil, çiyinlərini günah yükü əymiş halda qalxacaqsan, həsrətlə o yan bu yana baxa-baxa pənah yeri axtaracaqsan, amma elə bir yer tapmayacaqsan. Beləliklə, əgər bu qərib Ağanın çağırışına cavab versən, ümid var ki, baxanda o Həzrəti (ə) öz qarşında görəsən, yaxud görəcəksən ki, onun özü səni axtarır, ya görəcəksən ki, Cəddi Peyğəmbər (s)

[1] Bihar 98/169
[2] Bihar 98/77

Cəbrayıl ilə bərabər sənin əlindən tutmaq üçün səni axtarırlar və artıq sağa, sola baxmağa ehtiyac duymayacaqsan.[1]

3-cü çağırışın: 50 000 ilə bərabər olan bir gündə təşnəliyin şiddətindən, belə ki, həmin vaxt günəş bütün günü xalqın başının üzərinə saçmaqdadır, heç kəs də fəryadına yetişməyəndə, əgər Kövsər hovuzunun saqisinin (su paylayanının) dəvətinə, onun təşnəliyini təsəvvürünə gətirdiyin zaman "ləbbeyk" desən, bil ki, hətmən sənə cavab verəcəkdir və sənə elə bir su verəcəkdir ki, heç vaxt təşnə olmayacaqsan.

4-cü çağırışın: Sənin rəqiblərin, dövrəni əhatə edib səndən öz haqlarını tələb edən və sən onlardan qaçdığın, hətta atandan, anandan və qardaşından qaçdığın, hamıdan məyus olduğun və öz işində məəttəl qaldığın zaman, əgər Allahın bu dəvətçisinə cavab versən, bil ki, mütləq sənin fəryadına yetişəcəkdir, sənin işini islah edəcək və tələbkarlarını razı yola salacaqdır.

5-ci çağırışın: Allahın əmri gələndə ki, "Ey günahkarlar ayrılın və təqvalılardan kənara durun", əgər dəvəti qəbul etsən, ola bilsin Hüseyn (ə) məhəbbətinin nuru günahkarların üzlərinin zülmətindən sənə nicat verər.

6-cı çağırışın: Qəhr mənbəyindən mələklərə əmr olunanda ki, onu atəşə tullayın, yaxud atəşə əmr edilən də ki, "Onu ağuşuna al" artıq dil kömək istəmək üçün açılmayacaqdır. Beləliklə əgər o Həzrətin (ə) dəvətini qəbul etsən ümid yeri var ki, İmam (ə) öz qəlbinin diqqəti ilə sənin dadına yetişər.

7-ci çağırışın: Allah eləməmiş əgər cəhənnəmə daxil olsan, gah cəhənnəmin gözətçisindən, gah da mələklərdən, gah da oraya atılan mütəkəbbirlərdən kömək istəyəcəksən, lakin heç biri sənin dadına yetişməyəcəklər. Əksinə bu əməlin əzabın artmasına səbəb olar. Belə ki, gözətçidən əzabı bir gün yüngülləşdirmək, mələklərdən ölüb canını əzabdan qurtarmaq üçün və təkəbbür əhlindən sənin üçün bir iş görməyə xatir, heç olmasa əzabı 1 saat ərzində götürmək üçün olsa belə kömək istəyəcəksən. Ancaq

[1] Bihar 98/183

İmam Hüseyn (ə) öz zəvvarlarının ziyarətinə gəlməyi vədə vermişdir və əgər bəzi hikmətlərə xatir o zamanadək təxirə salarsa, bil ki hətmən orada səni ziyarət edəcəkdir və onun mübarək gəlişi ilə cəhənnəmin atəşi sönəcəkdir. Həmçininin sənin üzərindən tamam əzablar götürüləcəkdir və o Həzrət (ə) səni özü ilə bərabər cənnətə aparacaqdır.[1]

O Həzrətin (ə) hər bir əzasının ziyarəti

Beşinci sifət: Ziyarət vaxtı İmam Hüseynə (ə) məxsus edilən xitablar bunlardan ibarətdir ki, o Həzrətin (ə) hər bir əzasına ayrılıqda salam verərlər. Gah mübarək başına, gah nurani surətinə, gah pak dodaqlarına, gah dişlərinə, gah şərif saqqalına, gah qanına, gah sinəsinə, gah belinə, gah qəlbinə, gah da ciyərinə. Xüsusiyyətlərdən biri də budur ki, hər bir bədən cüzvünə müxtəlif tərzdə salam verilər. Məsələn mübarək başını salamlayanda gah deyərlər: "Salam olsun nizədə ucalan başa." Gah deyərlər: "Salam olsun nizəyə taxılan başa." Gah deyərlər: "Salam olsun boyundan kəsilən başa." Gah deyərlər: "Salam olsun məclisə çıxardılan başa." Gah da deyərlər: "Salam olsun asılan başa."

Mübarək boğazına salam verərkən deyərlər: "Salam olsun o kəsilmiş boğaza." Gah deyərlər: "Salam olsun qılıncla vurulan boğaza."

Cəsədinə salam verərkən deyərlər: "Salam olsun o isti qumlar üstünə düşən cəsədə." Gah deyərlər: "Salam olsun qanına qəltan edilən cəsədə." Gah deyərlər: "Salam olsun qumlar üstündə üryan qalan cəsədə." Gah deyərlər: "Salam olsun yaralarının sonu olmayan cəsədə." Gah deyərlər: "Salam olsun o tikə-tikə edilən cəsədə." Gah da deyərlər: "Salam olsun atların nalları ilə tapdanan cəsədə."

Xüsusiyyətlərdən biri də budur ki, xüsusiyyətlərin hər biri özünə məxsus tərzdə olmuşdur. Məsələn deyərlər: "Salam ol-

[1] Bihar 98/ 78,18, 183,16

sun o asılmış başa." Gah deyərlər: "Salam olsun ağacdan asılmış başa." Gah deyərlər: "Salam olsun Şamın darvazasından asılan başa." Gah da deyərlər: "Salam olsun Yezidin sarayının divarından asılan başa."

Bəzən deyərlər ki: "Salam olsun o yerə qoyulmuş başa." Gah da "Yezidin qarşısına qoyulmuş başa." Gah da "İbn Ziyadın müqabilində qoyulmuş başa." Gah da: "Xulinin tənuruna qoyulan başa." Gah da "Salam olsun məsihi rahibxanasına qoyulmuş başa." Gah da deyərlər: "Salam olsun atın torbasına qoyulmuş başa."[1]

Salamların sirri budur ki, bu müsibətlərin hər biri o Həzrətin (ə) heç bir Peyğəmbərə (ə) və övliyaya nəsib olmayan, Allahın əmrinə xüsusi təslim olması idi. Buna görə, Allah-taala bunun müqabilində İmam Hüseyn (ə) üçün məxsusi rəhmət qərar vermişdir. Salamdan da məqsəd budur ki, Allah-taala İmam Hüseyn (ə) üçün təyin olunan hər şeyi o Həzrətə (ə) təslim etmişdir. Yəni, O Həzrətə (ə) təvəssül edən, ona sığınan, onu şəfaətçi qərar verən və onunla rabitədə olan hər bir kəs üçün salamı Özünün əmniyyət hərəmi qərar vermişdir. Həmin bu məna tamam Peyğəmbərlərə (ə) və vəsilərə (ə) salam verməyin mənalarından biridir. Bu tərzdə salam verməyin böyük ümidi vardır. Çünki, hər dəfə o şərəfli əzalara belə tərzdə salam verəndə və onların hər birinə ağlayanda, ümid var ki, hər bir bədən əzamız üçün yandırdığımız və başdan ayağa özümüzü qərq etdiyimiz o atəşi həmin bu salamla söndürmüş olarıq.

[1] Bihar 98/ ziyarət fəsli

ON BİRİNCİ FƏSİL:

O HƏZRƏTİN (Ə) ŞƏHADƏTİNDƏN QABAQ ZƏVVARININ XÜSUSİYYƏTİ

İmam Hüseynin (ə) şəhadətindən qabaq, şəhadətindən sonra, və dəfnindən qabaq zəvvarının xüsusiyyətləri vardır və bunlar iki mətləbdən ibarətdir:

Birinci mətləb: Şəhadətdən əvvəl olan zəvvarların xüsusiyyətləri və bunlar da bir neçə qisimdirlər:

1-ci: Mələklərdirlər, belə ki, İmam Sadiqdən (ə) nəql olunur ki: "Cəddim Hüseyn (ə) Kərbəlada dəfn olunandan 1000 il əvvəl mələklər Kərbəlanı ziyarət etmişlər.[1]

2-ci: Peyğəmbərlər (ə), necə ki, səhih rəvayətdə gəlir: "Elə bir Peyğəmbər (ə) olmayıb ki, İmamət bürcünün parlaq ulduzu Kərbəlada dəfn olunmamışdan qabaq Kərbəlanı ziyarət etməsin.[2]

3-cü: Nuhun (ə) gəmisi və Süleymanın (ə) xalçası orada dövran etmişlər, İsmayılın (ə) qoyunları və İsa Məsih (ə) ilə danışan ahular, bunların hamısı əvvəl zikr edilən xüsusi tərzdə Kərbəlanı ziyarət etmişlər.

4-cü: O Həzrətin (ə) şəhid olan səhabələri idilər, belə ki, şəhadətə hazır olan zaman hər biri xüsusi tərzdə İmamı (ə) ziyarət etmişlər. Bəziləri süvari, bəziləri piyada halda gəlib o Həzrətin (ə) mübarək hüzurunda deyirdilər: "Əs-səlamu əleykə ya Əba Əbdillah, əs-salamu əleykə yəbnə Rəsulillah." Həzrət (ə) buyururdu: "Əleykə salam. Get, biz də arxanca gəlirik."[3]

Həmən ziyarətin sirri də bundan ibarətdir ki, onlar şəhadət feyzindən əlavə öz həyatlarında o Həzrətin (ə) ziyarətinin feyzini dərk etmək istəyirdilər. Bəzi şəhidlər üçün bu ziyarətdə xüsu-

---

[1] Bihar 98/109
[2] Bihar 44/301
[3] Bihar 45/15

siyyətlər mövcud idi, məsələn Ğəffar tayfasından Abdullah və Əbdür-Rəhman adlı iki qardaş kimi, onlar İmamın (ə) xidmətinə gəlib kənarda dayandılar və salam verdilər. Həzrət (ə) buyurdu: "Yaxın gəlin." Onlar yaxına gəldilər və dedilər: "Salam olsun sənə, gəlmişik sənin qarşında şəhid olaq." Bunu dedilər və şiddətlə ağladılar. Həzrət (ə) buyurdu: "Əleykuma səlam və rəhmətullahi bərəkatuhu. Ey mənim qardaşım oğlanları, niyə ağlayırsınız? Ümidvaram ki, bir saatdan sonra sizin gözləriniz işıqlancaqdır." Ərz etdilər: "Sənə fəda olaq, Allaha and olsun öz halımıza ağlamırıq, sənin halına ağlayırıq ki, düşmən səni əhatə etmişdir və bizimdə əlimizdən bir şey gəlmir." Həzrət (ə) buyurdu: "Mənə ürəyiniz yandığına və kömək etdiyinizə görə Allah sizə xeyir mükafat versin."[1]

Həmçinin cənab Əliəkbər kimi, o cənab atdan yerə yıxılanda atasına baxıb, onu ziyarət etdi: "Atacan, məndən sənə salam olsun (əleykə minni əs-səlam)." Bu ziyarətdə vaxt, keyfiyyət və cavab cəhətindən xüsusiyyətlər var idi.

Vaxt cəhətindən budur ki, bu ziyarəti həmin hala qədər təxirə saldılar, belə ki, digər şəhidlər döyüşə gedəndə rəsmi adətə müvafiq olaraq gəlib xeymələrin yanında dayanmış İmam Hüseynə (ə) salam verib, o Həzrəti (ə) ziyarət edirdilər. Ancaq Əliəkbər meydan əzmi edəndə İmam (ə) özü onu yola saldı və oğlu ona salam verməmiş, öz yerində dayanmamışdır.

Amma keyfiyyət cəhətindən, "əleykə səlam" ləfzi ilə salam vermişdir, səbəbi də budur ki, bu salam görüş üçün deyil, vida salamı idi.

Amma o ki, qaldı cavabın xüsusiyyətinə, İmam (ə) bu salamın cavabını iki səbəbə görə vermədi. Birinci səbəb budur ki, salam görüşmək üçün deyildir və cavaba ehtiyac yox idi. İkinci də budur ki, İmam (ə) bu salamı eşidəndə elə bir halətə düşdü ki, artıq cavab vermək taqətində olmadı. Elə bu miqdar buyura bildi: "Oğlum, səni öldürdülər." Bunun təfsilatı gələcək, inşallah.

[1] Bihar 45/29

Şəhadətdən sonra o Həzrətin (ə) zəvvarları

İkinci mətləb: O Həzrətin (ə) şəhadətindən sonra və dəfnindən qabaq olan zəvvarlar barədə deyirik: Şəhadətindən sonra o Həzrəti (ə) birinci ziyarət edən Allah-taalanın Özü olmuşdur bu mənada ki, Allah-taala İmam Hüseynə (ə) həmin an çoxsaylı xüsusi lütflər bəxş etdi. Sonra Allahın Rəsulu (s) o Həzrətin (ə) yanına gəlib, oğlu Əliəkbərin xəbər verdiyi həmin cam ilə onu sirab etdi. Allahın Rəsulu (s) onun ziyarətinə gəldiyinə görə hətmən Əli (ə), Fatimə (ə) və Həsən (ə) də onunla birlikdə gəlmişdirlər, sonra köməkçi mələklər İmamı (ə) ziyarət etdilər, sonra Zül-cənah, quşlar və səhranın vəhşi heyvanları Həzrəti (ə) ziyarət etdilər.[1]

İnsanlardan o Həzrətin (ə) birinci ziyarətinə gələn İmam Səccad (ə), Xanım Zeynəb (ə) və əsir düşən digər Əhli-beytin üzvləri, 11 uşaq ilə birlikdə olmuşdular. Onların hamısı ziyarət ədəbi ilə ziyarət etmişdilər.

Yəni, toza bulaşmış, təşnə, ac, qəmli, ağlayan, nalə edən, ayaqyalın, bəziləri boynunda qandal, qollarında kəndir olan halətdə ziyarətə gəlmişdilər. Lakin ziyarətin bəzi ədəblərini yerinə yetirə bilməmişlər, məsələn Fəratın suyundan qüsl və dəstəmaz almamışdılar. Lakin qəlbləri ilə o Şəhidin pak qanı ilə təyəmmüm edərək, üzvlərini və əllərini onunla məsh etmişdilər. Beləliklə, ziyarətin ədəbində gəldiyi kimi Peyğəmbərə (s), Əliyə (ə), Fatiməyə (ə) və o Həzrətin (ə) özünə salam verməklə başladılar. Ziyarətin əsli xanım Zeynəbdən (ə) idi, Əhli-beytin qalanı isə onunla bərabər oxuyurdular və İmam Səccaddan (ə) bu vaxt heç bir kəlmə nəql olunmayıb. Ola bilər səbəbi də budur ki, İmam (ə) həmin vaxt xəstə, boynunda qandal olmasından və onu dəvədən enməyə qoymamaqlarından əlavə, o Həzrətə (ə) elə bir halət üz vermişdir ki, az qala ruhu bədənindən çıxacaqdır. Bunu əmməsi Zeynab (ə) hiss etmişdir və ona təsəlli vermişdir, necə ki, qabaq-

[1] Bihar 45/ 56, 191,205, 220

da təfsilatı gələcəkdir, inşallah.[1] Beləliklə, həmin səbəbdən İmam Səccad (ə) ziyarəti adi şəkildə yerinə yetirə bilməmişdir və bu əməl əhli-beytə məxsus oldu. Lakin düşmənlər ziyarəti tamamlamağa qoymadılar, dəvələri hazırlayıb, onları zor ilə pak cəsədlərdən ayırdılar və dəvələrə süvar edib Kufəyə tərəf apardılar.

[1] Bihar 45/58,179

ON İKİNCİ FƏSİL:

DƏFNDƏN SONRA ZİYARƏTƏ GƏLƏN ZƏVVARLAR

Dəfndən sonra ziyarətə gələn zəvvarlar beş qisimdirlər:

Bəziləri qiyamətə qədər gecə və gündüz daim ziyarətlə məşğuldurlar, bunlar əvvəl deyildiyi kimi, mələklərdir.

Bəziləri müəyyən vaxtda o Həzrətin (ə) ziyarətinə gəlirlər, məsələn Peyğəmbərlər (ə) və vəsilər (ə) hər cümə axşamı İmamı (ə) ziyarət edirlər, hətta Allah-taala hər cümə axşamı o Həzrətə (ə) xüsusi rəhmət nazil edir.

Tamam Peyğəmbərlər (ə) nimeye-şəban (şəbanın 15-ci günü) və qədr gecəsi o Həzrətin (ə) ziyarətinə gəlirlər. Həmçinin Cəbrayıl (ə) və Mikayıl (ə) xüsusi vaxtlarda İmamı (ə) ziyarət edirlər.

Həmən bu zaman İmam Hüseynin (ə) ziyarətinə gələn ilk şəxs Seyyidus-sacidin İmam Zeynulabidin (ə) olmuşdur. İmam Səccad (ə) üç gündən sonra Bəni-Əsəd camaatı ilə birlikdə o Həzrətin (ə) dəfni üçün Kərbəlada hazır oldu, bunun təfsilatı gələcək inşallah.

O Həzrət (ə) İmam Hüseyni (ə) və tamam şəhidləri dəfn etdi, qəbirləri düzəltdi və alicənab atasını məxsusi salamla ziyarət etdi. O Həzrətdən (ə) sonra Kərbəlanın ətrafında olan tamam tayfalar və qəbilələr İmam Hüseynin (ə) ziyarətinə gəldilər, hətta rəvayətdə gəlir ki, bir il ərzində ya daha çox yüz min qadın İmamın (ə) ziyarətinə gəlmişdilər.[1]

Bir neçə gündən sonra Üqbə ibn Ömər o Həzrəti (ə) ziyarət etmiş və mərsiyyəsində şeirlər yazmışdır, bəzilərinin dediyinə görə o İmam (ə) üçün mərsiyə deyən ilk şair olmuşdur.[2]

---

[1] Bihar 98/60, 75, 93, 100, 109,

[2] Bihar 45/242

Uzaq şəhərdən İmamın (ə) ziyarətinə gələn birinci şəxs Cabir ibn Abdullah olmuşdur və onun ziyarətinin məxsusi keyfiyyəti vardır, bunun təfsilatı gələcək inşallah.[1]

Mütəvəkkil Abbasinin o Həzrətin (ə) haqqına qarşı cinayətləri

Bundan sonra Bəni-üməyyənin zamanında şiələr hər tərəfdən o Həzrətin (ə) qəbrinin ziyarətinə gəlirdilər. Onlara qadağa qoyurdular, öldürürdülər, dar ağacından asırdılar, əl və ayaqlarını kəsirdilər, ancaq bunların faydası olmurdu. Sonra növbə Mütəvəkkil Abbasiyə çatdı, o məlun nasibi idi və Xanım Zəhra (ə) ilə çox ədavəti var idi, buna görə İmam Hüseynin (ə) ziyarətinə şiddətli qadağa qoymuşdur. Lakin qadağanın bir səmərə vermədiyini görəndə əmr etdi ki, mübarək qəbri dağıtsınlar, ondan əsər-əlamət qoymasınlar və üstündən su buraxsınlar.

O Həzrətin (ə) xüsusiyyətlərindən biri də budur ki, həmin məlun Mütəvəkkil axırda İmamın (ə) müqəddəs qəbrinin təmir edilməsinə əmr etdi və oraya bir munadi təyin etdi və belə nida edirdi: "Hər kəs istədiyi vaxt gəlib İmamı (ə) ziyarət edə bilər." Bu əhvalatın təfsilatı rəvayətdə belə gəlir: Bəni-Abbas xəlifələrindən olan Mütəvəkkil əhli-beytə (ə) qarşı çox kini və düşmənçiliyi var idi. Beləliklə, o əmr edir ki, İmamın (ə) qəbrini viran etsinlər, "Əl-Qəmə" çayının suyunu (kanal vasitəsilə) onun üzərindən buraxsınlar ki, qəbirdən əsər-əlamət qalmasın və ziyarətə gələnləri şiddətli surətdə qorxuzdu, yolların başında müəyyən adamlar qoydu ki, ziyarət qəsdi ilə gələn hər kəsi tapsalar öldürsünlər. Onun məqsədi Allahın nurunu söndürmək idi. Bu xəbər Məcnun Zeyd adlı xeyir əhlindən olan bir nəfərin qulağına çatdı, bu şəxs ağıllı, çox zirək və bilikli idi, dəlil gətirməkdə hamıya qalib gəlirdi və heç vaxt cavabdan aciz qalmırdı, buna görə hamı ona Məcnun Zeyd deyirdi. Zeyd İmamın (ə) qəbrinin xarab edilməsi əmrini

[1] Bihar 98/329

eşidəndə çox pərişan oldu, müsibəti təzələndi. O zaman Misirdə yaşayırdı, heyrət içində Misirdən çıxıb Kufəyə gəldi.

Bu zaman Bəhlul danəndə Kufədə idi. Bir gün Məcnun onu görür və salam verir. Bəhlul ondan soruşur: "İndiyədək məni görmədiyin halda məni necə tanıdın?" Dedi: "Ruhlar aləminin rabitəsi vardır." Bəhlul deyir: "Ey Zeyd, niyə vətənindən çıxıb bu diyara gəlmisən?" Dedi: "Eşitdim bu məlun İmam Hüseynin (ə) qəbrini viran etmək və zəvvarlarını qətlə yetirmək əmri verib. Bu xəbər həyatımı hüznə qərq etdi, qəm-qüssənin şiddətindən biixtiyar durub buraya gəldim." Bəhlul dedi: "Mən də həmin halətdəyəm, gəl gedək Kərbəlaya görək nə iş görürlər?" Beləliklə, birlikdə yola düşürlər. İmamın (ə) qəbrinə çatanda görürlər ki, hər şey öz yerindədir, hərçənd qəbrin təməlini xarab etsələr də və hər nə qədər çayın suyunu onun üzərinə axıtmaq istəsələr də su Allahın iradəsi ilə qəbrə yaxınlaşa bilmir. Şərif qəbrə bir damla su belə yetişmir belə ki, su qəbrə yaxınlaşan zaman qəbrin yeri Allahın izni ilə yuxarı qalxır. Bunu görən Zeyd təəccüb edib dedi: "Ey Bəhlul bax, Allahın nurunu söndürmək istəyirlər, amma Allah Öz nurunu tamam edəcəkdir, hərçənd müşriklər bunu istəməsələr belə."[1]

Mütəvəkkilin İmamın (ə) qəbrini xarab etməsinə israrlı olması

Bəli, Mütəvəkkil 20 il ərzində İmam Hüseynin (ə) qəbrini dağıtmağa çalışdı, amma mümkün olmadı. Mütəvəkkilin əmrini icra edən şəxs illər ərzində bu haləti müşahidə edəndə, dedi: "Allaha və onun Peyğəmbərinə (s) iman gətirdim. Allaha and olsun qaçıb, səhralarda dolanıram, 20 ildir ki, İlahi ayətləri və Peyğəmbər (s) Əhli-beytinin (ə) kəramətlərini öz gözümlə müşahidə edirəm, ancaq qəflət yuxusundan ayılmıram. Sonra öküzləri açıb, buraxdı və Məcnun Zeydin yanına gəlib, dedi: "Ey şeyx haradan gəlmisən?" Dedi: "Misirdən." Dedi: "Nə üçün gəlmisən, məgər öldürülməkdən

[1] Bihar 45/403-409

qorxmursan?" Zeyd ağladı və dedi: "Eşitdim bu qəbri xarab edirlər, qəm-qüssənin şiddətindən biixtiyar durdum, gəldim." O şəxs Zeydin ayaqlarına düşüb, öpdü və dedi: "Atam və anam sənə fəda olsun, sən bura gəldin deyə qəlbimə iman nuru saçdı. 20 ildir ki, mən bu torpağı şumlamaqla məşğulam, ancaq hər nə qədər bu qəbrə su buraxmaq istədimsə mümkün olmadı." Zeyd ağladı və aşağıdaki məzmunda şeir dedi: "Bəni üməyyə Həzrət Hüseyni (ə) zülm ilə şəhid etdilərsə, bəni Abbas da o Həzrətin (ə) qəbrini viran edirlər. Əlləri o həzrətə (ə) çatmadığı üçün çox təəssüflənirlər, indi də mübarək cəsədinə zərər yetirmək istəyirlər." O şəxs ağladı və dedi: "Ey Zeyd, məni də qəflət yuxusundan oyatdın. İndi gedirəm Mütəvəkkilin yanına və hal-qəziyyəni ona danışacam, istəyir məni öldürsün, istəyir buraxsın." Zeyd dedi: "Mən də sənlə gəlirəm və sənə kömək edəcəm."

Onlar yola düşdülər, Mütəvəkkilin yanına çatanda həmin şəxs qabağa gedib bu müddət ərzində pak qəbirdə müşahidə etdiyi kəramətləri ona danışdı. Mütəvəkkil qəzəbləndi və onun qətlinə fərman verdi, əmr etdi onun ayağına kəndir bağladılar, bazarda sürüdülər, sonra da dar ağacından asdılar ki, başqalarına ibrət olsun və heç kəs Əhli-beytin (ə) kəramətlərini dilə gətirməyə cürət etməsin. Vəziyyəti belə görən Zeyd çox qəmlənib, ağladı və onun cəsədini dar ağacından endirib, zibilxanaya atmaqlarına qədər səbir etdi. Sonra gedib onun cənazəsini götürüb, Dəclə çayına apardı, ona qüsl verib, kəfənə bükdü, namaz qılıb, dəfn etdi və 3 gün qəbrinin kənarında Quran tilavət etdi. Günlərin biri oturmuşdu, birdən qışqırıq, növhə sədaları, qadınların ağlamağı, kişilərin nərəsi ətrafı bürüdü, gördü ki, camaat bir cənazəni götürüb gəlirdi. Cənazənin qabağında çoxlu alimlər, hər tərəfdən xalq kütləsi gələrək böyük izdihamla yolu bağlamışdılar. Zeyd deyir: "Elə güman etdim, Mütəvəkkil ölüb. Bir nəfərdən soruşdum: "Bu kimin cənazəsidir?" Dedi: "Mütəvəkkilin çox istədiyi Reyhanə adlı qara dərili bir kənizinin cənazəsidir." Onun üçün təzə qəbir qazdılar, ona güllər, reyhan, müşk və ənbər tökdülər, üzərində böyük gümbəz tikdilər. Zeyd bu mənzərəni müşahidə

etdikdə üzünə lütmə vurub, libasını cırdı, başına torpaq tökdü və fəryad etdi: "Va veyla, Hüseyni (ə) çölün düzündə tənha və susuz halda şəhid edirlər, əhli-əyalını və uşaqlarını əsir aparırlar, heç kəs onun halına ağlamır. Onu qüsülsüz, kəfənsiz, üç gündən sonra dəfn edirlər, sonra qəbrini xarab edirlər. Bu Peyğəmbərin (s), Əlinin (ə) və Fatimənin (ə) balasına qoyulan ehtiram. Bu isə qara dərili bir kənizə verilən məqam və dərəcə."

Beləliklə Zeyd o qədər ağladı ki, axırda qəşşş edib, yerə yıxıldı. Camaat onun ətrafına toplaşıb, halına yandılar. Zeyd özünə gələndə aşağıdakı məzmunda şeirlər dedi: "Hüseyn ibn Əlinin (ə) qəbrini xarab edirlər, vələdüzzinaların qəbirlərini təmir edirlər? Ümid edirəm ki, inqilab baş verər və haqq öz sahibinə qayıdar. Allah lənət eləsin fəsad əhlinə və dünyaya arxayın olub, onu axirətdən üstün tutanlara." Bu şeiri bir vərəqə yazıb, Mütəvəkkilin səhabələrinə verdi. Mütəvəkkil bu şeiri oxuyub, qəzəbləndi və əmr etdi ki, onu saraya gətirsinlər. Zeydi onun məclisinə gətirəndə Mütəvəkkilə moizə edib, məzəmmətli sözlər dedi. Mütəvəkkil daha çox qeyzə gələrək, onun qətlinə fərman verdi və axırıncı söz olaraq ondan soruşdu: "Əbu Turabın haqqında nə deyə bilərsən?" Zeyd dedi: "Allaha and olsun sən özün onun fəzilətini, şərəfini, nəsil-nəcabətini yaxşı tanıyırsan. Onun fəzilətlərini kafirdən başqa heç kəs inkar edə bilməz, münafiqdən başqa kimsə ona düşmən olmaz." Sonra Əlinin (ə) fəzilətlərindən şeir deməyə başladı. Mütəvəkkil əmr etdi ki, onu həbs etsinlər. Gecə vaxtı Mütəvəkkil yuxuya getdi, yuxuda bir səsin ona Zeydi azad etməsi və əks halda öləcəyi barədə xəbər verdiyini eşitdi. Mütəvəkkil yuxudan oyananda Zeydi azad etdi, ona xələt verdi və dedi: "Hər nə hacətin varsa istə." Dedi: "Hacətim budur ki, Hüseyn ibn Əlinin (ə) qəbrini təmir edəsən və zəvvarlarına olan qadağanı ləğv edəsən." Mütəvəkkil onu azad edəndən sonra Zeyd ölkəni dolanırdı və nida edirdi: "İmam Hüseynin (ə) qəbrini ziyarət etmək istəyən hər bir kəs əmin-amanlıqla ziyarət edə bilər."[1]

[1] Bihar 45/403-408; Müntəxabi Tureyhi 2/ 67-69

SƏKKİZİNCİ ÜNVAN

İMAM HÜSEYNİN (Ə) ALLAHIN KƏLAMINA NİSBƏT XÜSUSİYYƏTLƏRİ VƏ BUNLARIN BEŞ MƏQSƏDİ

Birinci məqsəd: İmamın (ə) vücudu Allah kəlamının vücudu kimidir

O Həzrətin (ə) özü Allahın danışan kəlamıdır, vücudu Allah kəlamının vücudu kimidir və İlahi kəlamı açıqlayandır. Bu ikisi heç vaxt biri-birindən ayrılmazlar və hər ikisi ümmət arasında Peyğəmbərin (s) əmanətidirlər. Lakin Hüseynin (ə) əmanət kimi xüsusiyyəti bundan ibarətdir ki, Peyğəmbər (s) onu özü ilə minbərə apardı və buyurdu: "Ey camaat, bu Hüseyn ibn Əlidir (ə), onu tanıyın və hər kəsdən üstün tutun."[1] Sonra buyurdu: "Allahım onu Sənə və ümmətimin yaxşılarına tapşırıram."[2]

Beləliklə, o Həzrət (ə) tamam ümmətin arasında, hətta o zaman mövcud olmayan kəslərin, əslində bizim də yanımızda Allahın Rəsulunun (s) qoyduğu əmanətdir. Buna görə, ey Peyğəmbərin (s) ümməti bu əmanəti qorumaqda çox diqqətli olun.

İkinci məqsəd: O Həzrətin (ə) bütün sifətlərdə Quranla şərik olması

O Həzrət (ə) tamam sifətlərdə, xüsusiyyətlərdə və fəzilətlərdə Quranla şərik və müvafiqdir. Beləliklə, əvvəl bu sifətlərin hər biri barədə dinlə, sonra da onların İmam Hüseynlə (ə) müvafiq olmalarını dərk et:

---

[1] Bihar 43/262; Əmaliyi Səduq 87/478
[2] Bihar 45/118; Əmaliyi Tusi 1/117

Quran insanların hidayət vasitəsi, Xatəmul-ənbiyanın (s) möcüzəsi, haqqı batildən ayıran meyardır. İmam Hüseyn (ə) də imana doğru hidayət vasitəsi, Rəhman Allahın ayətlərindən bir ayə və haqqı batildən ayıran bir məhək daşıdır.[1]

Quran Qədr gecəsində nazil olmuşdur, İmam Hüseynin (ə) mövlud gecəsində də Allahın əmri ilə mələklər nazil oldular, Ruhul-əmin Allah tərəfindən Allah tərəfindən göz aydınlığı və təbriklər gətirdi.[2]

Quran, onu oxuyan və əməl edən şəxs üçün şəfaətçidir, Hüseyn (ə) də onun ziyarətinə gələn ya müsibətinə ağlayan şəxs üçün şəfaətçidir.[3]

Quran fəsahət və bəlağət cəhətindən möcüzədir, Hüseyn (ə) də başı, bədəni, qanı, torpağı cəhətindən möcüzədir, necə ki, bunların hər birindən zahir olan kəramətlər öz məqamında zikr olunmuşdur.

Quran həmişə təzədir, heç vaxt köhnəlmir və hər nə qədər təkrar olunursa yorğunluq gətirmir, Hüseynin (ə) müsibətinin zikri də həmişə təzədir və hər nə qədər təkrar olunursa yorğunluq gətirmir.

Quranı oxumaq, ona qulaq asmaq və baxmaq ibadətdir, İmam Hüseynə (ə) də mərsiyə demək, qulaq asmaq, onun əza məclisində oturmaq və qəmgin olmaq, ağlamaq, ağlatmaq və özünü ağlayana bənzətmək, bunların hamısı ibadətdir.

Həmçinin o Həzrəti (ə) yaxından, uzaqdan ziyarət etmək, zəvvarını ziyarət etmək, səhabələri arasında şəhid olmağı arzulamaq, hamısı ibadətdir.[4]

Qurana nisbət bir neçə hökmlər vardır, o cümlədən ehtiramı vacibdir, tərk edilməməlidir, təharətsiz ona toxunmaq olmaz və alqı-satqı meydanına gətirilməməlidir. Hüseynə (ə) nisbət də müvafiq olan hökmlər vardır, lakin bu hökmlərə əməl etmədilər, əksinə hörmətini sındırdılar və onu qanına qəltan edib, torpağa

[1] Bihar 36 /205
[2] Bihar 43/243
[3] Bihar 44/281
[4] Bihar 44/286, 289

buladılar, öz dinlərini onun qətlinə satdılar, əvəzində bir miqdar dirhəm götürdülər və heç kəsə nəsib olmayan Rey hökuməti xəyalı ilə bu böyük cinayətə əl qoydular.[1]

Quran Allahın samit (susan) kəlamıdır və Hüseyn (ə) Allahın natiq kəlamıdır

Quran Allahın samit, yəni səssiz kəlamıdır, Hüseyn (ə) isə Allahın natiq, danışan kəlamıdır. Quran kərimdir, şərifdir və məciddir, Hüseyn (ə) də kərimdir, şərifdir, məciddir və şəhiddir. Quran Peyğəmbərlərin (ə) hekayələrini və onların başına gələn müsibətləri bəyan edir, Hüseyn (ə) həmin əhvalatların və müsibətlərin eyni ilə özüdür. Quran zahiri hesabla 6666 ayədir, Hüseynin (ə) bədəninin yaraları həmin ayələr mislindədir, bir rəvayətə əsasən Hüseynin (ə) bədənində 4000 yara olmuşdur və əgər yara üstünə dəyən yaranı və atların nallarının yaralarını hesablasan həmin Quran ayələrinin sayına çatar.

Quran 114 yerdə "Bismillah" buyurur, Hüseynin (ə) də 114 yerdə qılınc yarası vardır. Quran özünə cüzləri, surələri, sətirləri, kəlmələri, hərifləri, nöqtələri və hərəkələri şamil edir, Hüseynin (ə) də bədənində qılınc sətirləri, nizə yerlərindən kəlmələr, ox yerlərindən nöqtələr vardır.

Quran 4 qisimdən təşkil olunubdur: Uzunluğu (yəni, "Bəqərə" və "Ali-İmran" kimi uzun surələr), yüzlük (yəni, hər biri təxminən 100 ayədən ibarət olan surələr), məsani (yəni, bunlardan daha qısa olan surələr) və müfəssəl (yəni, deyilənə görə "Muhəmməd" surəsindən sonra gələn surələrdir). İmam Hüseyn (ə) də 4 qismət olmuşdur: başı nizələr üstündə şama səfər etdi, cəsədi Kərbəlada qaldı, qanı quşların qanadlarında və ətri mələkləri yanında və bədəninin xırda parçacıqları səhraya səpələndi.

Quran 30 cüzdür, onları iki yerə bölərək 60 parə deyirlər və bu tətbiqin bəyanında nə deyəcəyimi bilmirəm. Yəni, o Həzrətin (ə)

[1] Bihar 44/ 384; Məqtəli Xarezmi 1/239

bədəni o qədər parça-parça olmuşdur ki, hesaba gəlmirdi: Sənin halına ağlıyan gərək, ey məzlum Ağam.

Allah-taala Quranı neçə cür çağırmışdır və adları təxminən 32-yə yetişər və bunların hamısı İmam Hüseynə (ə) məxsus edilir. Məsələn, Quran mübarəkdir, necə ki ayədə buyurur: "Və haza zikrun mübarəkun." (Bu mübarək zikrdir) Ənbiya /50. Allah-taala Musa (ə) ilə danışdığı məhəlli mübarək ağac adlandırmışdır (Qəsəs /30), Zeytunə ağacını nur ayəsində mübarək adlandırmışdır (Hur /35), İsanı (ə) mübarək çağırmışdır (Məryəm /31), yağış suyunu mübarək bilmişdir (Qaf /9), Qədr gücəsini mübarək adlandırmışdır (Duxan/3) və bilavasitə vəhydə Hüseyni (ə) mübarək çağırmışdır, əvvəl zikr olunan qəribə hədisi Qüdsidə buyurmuşdur: "Mübarəkdir bu mövlud, Mənim salavatım, bərəkətim və rəhmətim ona olsun.[1]"

Quran möminlər üçün şəfa və rəhmətdir, Hüseyn (ə) də batini xəstəliklər üçün, türbəti də zahiri xəstəliklər üçün şəfadır.[2]

Quran nurdur, Hüseyn (ə) də nurdur, quran ruhdur və Hüseyn (ə) Peyğəmbərin (s) reyhanəsidir və məxluqatın rahatlığıdır. Quran həkimdir və qəlbləri hidayətlə müalicə edir və Hüseyn (ə) həkimdir bir cəmi hidayətlə və bir cəmi şəfaətlə müalicə edir.[3]

Quran bəşir və nəzirdir (yəni, müjdə verən və qorxudandır) və "Kitabi mubindir"(yəni, aydın kitabdır), Hüseyn (ə) də müjdə verəndir və qorxudandır və haqqı batildən ayıran aşkar İmamdır (ə).

Quran möminlərin zikridir, Hüseyn (ə) də tamam ömrü boyu Peyğəmbərin (s) və möminlərin zikri olmuş və hal-hazırda da zikridir.

Quranda Ayətul-kursi və Nur ayəsi vardır, Hüseyn (ə) də ilahi elm mədənidir və onda nə gecənin qaranlıq zülmətində, nə torpaqda, nə də qanda sönməyən nurani ayələr vardır.

---

[1] Bihar 44/238
[2] Bihar 98/123
[3] Bihar 43/ 259, 264

Şəfaət və düşmənçilik üçün Quranın 14 mənzili

Quran özünə şəfa, ümid və rəhmət ayələrini şamil edir, Hüseyndə (ə) də şəfa üçün ayələr və sifətlər, ümid üçün vasitələr və rəhmət üçün səbəblər vardır.

Quranın vücudunun əvvəlindən cənnətdə bərqərar olanadək 14 mənzili vardır. Belə ki, Quran nitqə malik olan əzəmətli bir şəxsdir və nazil olduğu məqamda şəfaət və düşmənçilik üçün mənzilləri vardır:

1-ci mənzili: Lövhi məhfuzdadır.

2-ci mənzili: Lövhi məhfuza baxan İsrafilin qəlbidir.

3-cü: İsrafil ilə görüşən Mikayılın qəlbidir.

4-cü: Mikayıldan qəbul edən Cəbrayılın qəlbidir.

5-ci: Qədr gecəsində Beytul-məmurdur.[1]

6-cı: Ramazan ayının əvvəl gecəsi bir dəfəlik, tam şəkildə Peyğəmbərin (s) qəlbinə, xalqa təbliğ etmək üçün deyil, fəqət özü üçün nazil olmasıdır.[2]

7-ci: Besətin əvvəlində xalqa tilavət etmək üçün O Həzrətin (s) qəlbinə nazil olmasıdır.

8-ci: Hər Qədr gecəsi Zəmanənin İmamına (ə) nazil olmasıdır.

9-cu: Qulaqlarda olan mənzilidir.

10-cu: Dillərdə olan mənzilidir.

11-ci: Kağızlarda olan mənzilidir.

12-ci: Qəlblərdə olan mənzilidir.

13-cü: Çox gözəl surətdə məhşərə daxil olan zaman mənzilidir.[3]

14-cü: Cənnətdə olan mənzilidir ki, orada onun dərəcələri vardır və behişt əhlinə deyərlər: "Oxu və ucal."[4] Bu mənzillər barədə çoxsaylı rəvayətlərdə nəql olunubdur və bunların müfəssəl bəyanı başqa bir məqama ehtiyacı vardır. "Rouzatul-cənnat" kitabında bu mövzunun bəzi məqamlarını bəyan etmişəm. İmam Hüseynin (ə) də fəzilət və müsibətləri baxımından 14 mənzili vardır, Allahın lütfü ilə bunların hər ikisini bəyan edəcəyik.

---

[1] Bihar 25/94; Usuli kafi 2/596

[2] Bihar 89/38

[3] Bihar 7/319; Usuli kafi 2/596

[4] Bihar 89/197: Usuli kafi 2/106

İmam Hüseynin (ə) fəzilətlərinin 14 mənzili

İmamın (ə) fəzilətlərinin 14 mənzili bunlardır:

1-ci: Mənzili yaradılışında olmuşdur, məxluqatın yaranmasından əvvəl, Cəddi Peyğəmbərin (s) nurundan yaradılan bir nur idi.[1]

2-ci: Bir neçə halətdə Ərşdə olan mənzili idi: Gah Ərşdə təvaf halətində idi, gah Ərşin sağ tərəfində, gah Ərşin üzərində, gah Ərşi daşıyan halətdə, gah onun qarşısında, gah Ərşin kölgəsində, gah da Ərşin zinəti halətində.[2]

3-cü: Bir neçə keyfiyyətdə cənnətdə olan mənzili: Gah cənnətdə bir ağac idi, gah ağacın meyvəsi idi, gah da Həzrəti Zəhranın (ə) sırğası olmuşdur, gah da cənnətin zinəti, cənnətin sırğası və cənnətin sütunlarının zinəti olmuşdur.[3]

4-cü: Pak sülblərdə bir nur idi.

5-ci: Pak rəhmlərdə bir nur idi, məxsusən növbə Həzrəti Zəhranın (ə) hamiləliyinə yetişəndə o Xanım (ə) buyurmuşdur: "Hüseynə (ə) hamilə olan zaman qaranlıq gecələrdə çırağa ehtiyac duymurdum."[4]

6-cı: O Həzrətin (ə) qabilələri (mamaları) olan hurilərin əlləri idi.[5]

7-ci: Allah Rəsulunun (s) mübarək bədənində o Həzrətin (ə) məclis yeri olmuşdur, belə ki, gah boynunda otururdu, gah çiynində, gah qucağında otururdu, gah da sinəsində və hər biri üçün öz məhəllində zikr olunmuş bir keyfiyyəti vardır. Həmçinin Peyğəmbərin (s) mübarək əzalarının Hüseynin (ə) bədənində mənzilləri var idi. O cümlədən, mübarək dilinin mənzili Hüseynin (ə) ağzı olmuş və ona süd vermişdir, baş barmağının mənzili Hüseynin (ə) hülqumu olmuş və oraya yemək qoyurdu. Mübarək dodaqlarının mənzili əksər vaxtlarda gah Hüseynin (ə) alnı, gah da boğazı olmuşdur, bəzi vaxtlar isə göbəyinin üstündən öpürdü.[6]

---

[1] Bihar 53/142
[2] Bihar 3/433; Kəşfil-ğimmə1/526
[3] Bihar 43/275 İrşadi Mufid 2/131
[4] Bihar 43/273
[5] Muntəxabi Turehyi 1/86
[6] Bihar 43/243, 254, 295

8-ci: Həzərti Zəhranın (ə) sinəsi idi.

9-cu: Əmirəl-möminin (ə) əlləri idi belə ki, o Həzrət (ə) Hüseyni əlləri ilə qaldırardı, saxlayardı və Peyğəmbər (s) onun əzalarından öpərdi və ağlayardı. Balaca Hüseyn (ə) soruşardı: "Babacan niyə ağlayırsan?" Buyurardı: "Qılıncların yerini öpürəm."[1]

10-cu: Dəfələrlə Cəbrayılın (ə) boynu və çiyni olmuşdur, hətta bəzən Cəbrayıl (ə) Peyğəmbərdən (s) xahiş edirdi ki, Hüseyni (ə) bir az çiynində gəzdirmək üçün ona versin.[2]

11-ci: Peyğəmbərin (s) minbəri idi belə ki, Peyğəmbər (s) heç kəsi minbərə çıxarmamışdır, yalnız Əmir-əl-möminini (ə) Qədir-Xumda xilafətə təyin edən zaman özü ilə bərabər minbərə çıxarmış və buyurmuşdur : "Mən kimin mövlasıyam Əli (ə) də onun mövlasıdır." Ancaq Hüseyni (ə) özü ilə minbərə apardı və yanında, ya qucağında oturtdu və buyurdu: "Ey insanlar, bu Hüseyn ibn Əlidir (ə) onu tanıyın və hər kəsdən üstün tutun, necə ki, onun Allahı onu üstün tutmuşdur." Sonra xalqa onun qətli barədə xəbər verdi və qatillərinə, onu xar edənlərə lənət etdi.[3] Sonra da Hüseyni (ə) tamam ümmətə, o cümlədən sizlərə də tapşırdı, bu vaxt camaat ağladı. Həzrət (s) buyurdu: "Ona ağlayırsınız amma kömək etmirsiniz?"[4]

Müəllif deyir: "Sizlər də bu hədisi eşidirsiniz, ancaq ağlamırsınız və sakit oturmusunuz?"

12-ci: Peyğəmbər (s) can verən zaman o Həzrətin (s) sinəsi idi.

13-cü: Peyğəmbərin (s) qəlbidir, necə ki, o Həzrət (s) həmişə buyururdu: "Hüseynin (ə) mənim qəlbimdə heç kəsin olmadığı bir məqamı vardır." Bu sözləri ölüm anında da zikr etdi və buyurdu: "Yezidin mənimlə nə işi var?! Allah onu mübarək etməsin". Peyğəmbər (s) şərif ruhu bədənindən çıxanadək Hüseyni (ə) yad etmişdir.[5]

---

[1] Bihar 44/261
[2] Bihar 43/316
[3] Bihar 44/247
[4] Bihar 45/118
[5] Bihar 44/266

14-cü: Möminlərin qəlblərində o Həzrət (ə) üçün məxsusi məhəbbət vardır, necə ki, Peyğəmbər (s) buyurmuşdur: "Bu məhəbbət möminlərin batinində gizlənibdir."[1] Beləliklə, mömin öz qəlbini mülahizə edən zaman deyəcəkdir: "Sədəqə Rəsulullah." (Yəni, "Allahın rəsulu doğru buyurdu").

O Həzrətin (ə) müsibətlərinin 14 mənzili

İmam Hüseynin (ə) müsibətlərinin 14 mənzili bunlardır:

1-ci: Əsil mənzili, Mədineyi-münəvvərə idi, onu doğma vətənini tərk etməyə məcbur etdilər. Bu İmam Hüseyn (ə) üçün çox çətin idi, buna görə Allaha şikayət edərək, buyurdu: "Ey Allahım biz Sənin Peyğəmbərinin (ə) övladlarıyıq, bizi vətənimizdən çıxardılar.[2] Sonra vidalaşmaq üçün Peyğəmbərin (s) qəbrinin kənarına gəlib, şikayət etdi:" Ey Allahın Rəsulu, (s) mənəm Hüseyn (ə) qızın Fatimənin (ə) oğlu, ümmət məni yalnız buraxdı və mənə ehtiram etmədi."[3]

2-ci: Məkkeyi-müəzzəmə idi, hər şey üçün; insanlar, heyvanlar, quşlar, vəhşi heyvanlar, ağaclar və bitkilər üçün əmin-əmanlıq yeri olan bu hərəm İmam Hüseyn (ə) üçün qorxu və təhlükə məkanına dönmüşdür. Çünki, o Həzrəti (ə) orada qətlə yetirmək istəyirdilər və bu səbəbdən oranı tərk etmək məcburiyyətində qaldı.

3-cü: Məkkə ilə Kufə arasında; hər bir məntəqəyə çatanda onu Kufəyə getməkdən qorxudub, çəkindirirdilər, ancaq ona kömək etməkdən imtina edirdilər.

4-cü: Kərbəla idi; İmam Hüseyn (ə) orada daim qalmaq niyyəti ilə mənzil qurdu və buyurdu: "Yüklərinizi boşaldın, artıq buradan heç yerə köçməyəcəyik."[4]

5-ci: Döyüş meydanının mərkəzi idi, hər dəfə döyüşdən yorulduğu zaman həmin mərkəzdə dayanıb, buyurardı: "La hövla və la qüvvətə illa billahil əliyyil əzim."

---

[1] Bihar 43/272; Mustədrəkul-vəsail 2/217
[2] Bihar 44/383
[3] Bihar 44/327; Məqtəli Xarezmi 1/186
[4] Bihar 44/363, 383.

6-cı: İlahi elmdə onun üçün təyin edilən qətlgahı idi, onun zahirində 3 ya 4 gün qaldı və sonra onun bətnində bərqərar oldu. Hal-hazırda o Həzrətin (ə) əzəmətli qəbridir.

7-ci: Mübarək başının mənzili idi; Məhərrəm ayının 11-də Xulinin evində təndirin içində, külün üstünə qoyulmuşdur, necə deyirlər: "Tənura nur nazil olmuşdur."

8-ci: Yenə də mübarək başının mənzili idi, İbn Ziyadın məclisində teştin üzərində və o məlunun qabağında. O lənətə gəlmiş şad olub, təbəssüm edirdi, bəlkə bu təbəssümün ağrısı o Həzrətin (ə) başına, burnuna və gözünə vurulan xeyzəran çubuğundan daha şiddətli idi.[1]

9-cu: Kufədə ağacın başında olan mənzili idi.

10-cu: Mübarək başının Kufə ilə Şam arasında; gah nizənin ucunda, gah da sandığın içində olan mənzilləri idi. Beləliklə, hər şəhərdə və ölkədə o nurani başdan bir əlamət vardır.

11-ci: Rahibin ibadətgahında olan mənzili idi. Bu mənzildə ona ehtiramlar göstərdilər, müşk və kafurla ətirləndirdilər, salamladılar və cavab eşitdilər, bunun təfsilatı öz məhəllində zikr olunmuşdur.[2]

12-ci: Məlun Yezidin məclisində qızıl teşdə qoyulmuş mənzili olmuşdur. Bu məclisdə tamam müsibətlər o Həzrətin (ə) üzərində cəm oldu, belə ki, 20 müsibətdən çox idi, bəziləri o məclisdə baş vermişdir, bəziləri də təzədən təkrar olmuşdular.

13-cü: Yezidin evinin qapısından asılmış mübarək başının mənzili idi, Yezidin zövcəsi Hind bu təhqirə tab gətirə bilmədi və başı açıq çölə çıxıb fəryad etdi: "Ey Yezid bu Fatimənin (ə) balasının başıdır ki, mənim evimin qapısından asmısan?" Yezid qalxıb, onun başını örtdü və geri qaytararaq, dedi: "Ey Hind Allah Rəsulunun balasına və Qureyşin böyüyünə növhə de." Sonra başı endirməyi əmr etdi.

14-cü: Şamın darvazasından asılmış halda olan mənzili idi, bu təhqir o qədər böyük idi ki, Həzrət Səccadın (ə) imamət səbri

[1] Bihar 45/ 50, 107, 125, 116.
[2] Bihar 45/185

buna tab gətirmədi və fəryad etdi: "Ey Yezid həya etmirsən ki, Fatimə (ə) balasının başını Şamın darvazasından asıblar, bir halda ki, o Peyğəmbərin (s) əmanəti idi."[1]

Beləliklə, bu məqamda səbir etmədi, ancaq başı qızıl teşdə qoyub o məlunun qabağına gətirəndə və məlun xeyzəran çubuğu ilə o Həzrətin (ə) dodağına və dişinə işarə edəndə səbir etdi və bir söz demədi.

Bu mənzillərdən sonra, İmam Hüseynin (ə) Qurani-kərimin mənzilləri kimi məxsusi mənzilləri vardır, o cümlədən dəfn olunduğu yerdə, məhşərdə məxsusi surətdə və nəhayət cənnətdə məxsusi mənzili və dərəcələri vardır ki, Cəddi Peyğəmbər (s) buyurmuşdur: "Hüseyn (ə) onlara yalnız şəhadətlə çata bilər." O dərəcələrin ən alisi Xatəmul -ənbiyanın (s) mənzilinə və dərəcəsinə ucala bilməsidir.[2]

Üçüncü məqsəd: O Həzrətin (ə) mərsiyəsində nazil olan ayələr

Bunlar bir neçə ayələrdir:

1-ci ayə: Onun həmli və mövludunu bəyan edən ayələr: ***"Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki, anası onu çətinliklə daşıyıb və əziyyətlə yerə qoyub. Onun daşınması və süddən ayrılması 30 aydır."*** (Əhqaf /15). "Kamiluz-ziyarat" və Biharul-ənvar" kitablarında mötəbər sənədlərlə nəql olunur ki: "Xanım Fatimə (ə) Hüseynə (ə) hamilə olanda Cəbrayıl nazil olub, dedi: "Ya Muhəmməd (s) Allahın sənə salam göndərir və Fatimədən (ə) dünyaya gələn mövlud ilə sənə müjdə verir və buyurur ki, sənin ümmətin onu öldürəcəkdir." Peyğəmbər (s) ərz edir: "Ümmətin öldürdüyü mövluda mənim hacətim yoxdur." Cəbrayıl (ə) səmaya qalxıb, yenidən endi, həmin sözü dedi və həmin cavabı eşitdi. Yenə qalxıb, endi və dedi: " Allah-taala sənə

[1] Bihar 45/136, 142, 157
[2] Bihar 44/ 313, 221

müjdə verir ki, imamət, vilayət və vəsayət (vəsilik) onun övladlarında olacaqdır." Peyğəmbər (s) buyurdu: "Razıyam". Sonra Peyğəmbər (s) Cəbrayılın (ə) sözünün əvvəlini Fatiməyə (ə) xəbər verdi və həmin Peyğəmbərin (s) verdiyi cavabı verdi, ancaq xəbərin axırını eşidəndə razı oldu. Lakin həml və azad olmağı kərahətlə olmuşdur, yəni balasının öldürülməsinə görə hüznlü idi. Həml və süd vermə müddəti 30 ay olmuşdur və dualarından biri də bu idi: "Əslih li fi zürriyyəti" və əgər belə dua etsəydi: "Əslih li zürriyyəti" onun tamam övladları imam olardılar.

İmam Hüseyn (ə) heç bir qadından süd içməmişdir, belə ki, onu gətirirdilər Peyğəmbərin (s) xidmətinə və Peyğəmbər (s) baş barmağını qoyurdu Hüseynin (ə) ağzına, o da onun mübarək barmağını əmirdi və Hüseyn (ə) 2 gün, ya 3 gün yeməyə ehtiyac duymurdu. Beləliklə, Hüseynin (ə) əti və qanı Peyğəmbərin (ə) əti və qanından əmələ gəlmişdir. Heç bir 6 aylıq dünyaya gələn körpə sağ qalmamışdır, yalnız Yəhya ibn Zəkəriyya (ə) və Hüseyn ibn Əlidən (ə) başqa.[1]

Bil ki, əvvəl işarə etdiyimiz "kərahətlə həml etdi" kəlməsinin mənası hüzn və qəm-qüssə idi və o Həzrətin (ə) həmli, dünyaya gəlməsi, baxılması, süd içməsi, tərbiyə olunması, oynaması, habelə Cəddindən, atasından, anasından və qardaşından onun qəlbinə sevinc bəxş edilməsi həmin bu halətdə olmuşdur və onların hamısı vəfatları vaxtı Hüseynə (ə) hüznlü idilər. Bacısı Zeynəb (ə) qətlgahdan ayrılan zaman sözlə vəsfə gəlməyən pərişanlığa və hüznə qərq olmuşdur, elə nüdbə, növhə və fəğan deyirdi ki, dost və düşmənin hamısı ağlamağa vadar olmuşdular.[2]

[1] Bihar 44/232-233; Kamiluz-ziyarat 16/55-57
[2] Bihar 45/ 57-59; Luhuf 57-58

O Həzrətin (ə) Mədinədən çıxması

2-ci ayə: O Həzrətin (ə) Mədinədən çıxmasının bəyanındadır: *"Məcburi müharibəyə məruz qalanlara döyüş və cihad izni verildi, Allah onlara kömək etməyə əlbəttə tam qadirdir. O kəslər ki, evlərindən haqsız yerə, yalnız "bizim Rəbbimiz tək olan Allahdır" dediklərinə görə çıxarılmışlar."* (Həcc/ 40).

Bəzi rəvayətlərdə İmam Sadiqdən (ə) nəql olunur ki, bu ayə Əlinin (ə), Cəfər-təyyarın və Həmzənin şənində nazil olmuş və Hüseynin (ə) haqqında icra olmuşdur.[1]

Yəni, Əli (ə), Cəfər və Həmzə öz diyarlarından günahsız olaraq və haqsız yerə, yalnız İlahi tovhidə iqrar etdiklərinə görə çıxarıldılar və öldürüldülər və bu halət Hüseyndə (ə) xüsusi tərzdə cari oldu. Çünki, o Həzrəti (ə) fəqət öz diyarından deyil, tamam diyarlardan çıxardılar və onun üçün heç bir məkanda əmniyyət yox idi. Hətta özü buyurmuşdur: "Heyvanların yuvalarına girsəm belə, məni çıxardıb, öldürəcəklər."[2]

Beləliklə o Həzrəti (ə) xüsusi qəddarlıqla öldürdülər, onun özünə, övladlarına və əyalına xüsusi qəddarlıqla zülm etdilər.

Yavərlərinin az olmasının bəyanında

3-cü ayə: yavərlərinin az olmasının bəyanında nazil olmuşdur: *"Məgər (cihad hökmündən qabaq Məkkədə) "(müşriklərlə döyüşdən) əl saxlayın, namaz qılın və zəkat verin" deyilən (lakin döyüşə tələsən), amma (Mədinədə) döyüş yazılan və qərara alınan zaman, bir dəstəsi insanlardan Allah qorxusu qədər və ya ondan da artıq qorxan və "ey Rəbbimiz, nə üçün bizə döyüş qərara aldın (yazdın)? Nə üçün bizə azacıq möhlət vermədin?" deyən kəsləri görmədinmi?!"* (Nisa /77)

Həsən ibn Ziyad Əttar nəql edir ki, İmam Sadiqdən (ə) bu şərif ayə barədə soruşdum, Həzrət (ə) buyurdu: "Ayənini əvvəli İmam Həsən (ə) və ardı İmam Hüseyn (ə) barədədir. Allah-taala

[1] Bihar 44/ 219

[2] Bihar 45/99, Müntəxabi-Tureyhi 2/124

cihad etmək üçün o Cənaba (ə) yazmış və tamam yer əhli üçün o Həzrətlə (ə) birlikdə olmaqdan ötrü yazmışdır."[1]

Əli ibn Bəsat deyir: Bəziləri İmam Bağırdan (ə) rəvayət edirlər ki: "Əgər yer üzünün hamısı o Həzrətin (ə) ləşkərində döyüşsəydilər belə, əlbəttə hamısı öldürüləcəkdirlər."[2]

"Təfsiri Əyyaşidə" Abdullah ibn Cəfər, İmam Sadiqdən (ə) nəql edir ki, bu ayənin təfsirində buyurdu: "Əllərinizi saxlayın" yəni, İmam Həsənlə (ə) birgə olun. Və: "Onlara cihad yazıldı," yəni, İmam Hüseynlə (ə) birlikdə olun. Və bu ayənin: "azacıq bir möhlət" yəni, Qaimin (ə.f) zuhuruna qədər.[3]

O HƏZRƏTİN (Ə) ŞƏHADƏTİNİN ÜMUMİ ŞƏKİLDƏ BƏYANI

4-cü ayə: o Həzrətin (ə) şəhadətinin ümumi bəyanında, onun məkanı və halətləri barədədir: "Kaf, hə, yə, ayn, sad" bu ayənin təfsiri məclislər ünvanında Həzrəti Zəkəriyyanın (ə) hekayətində təfsilatlı surətdə verilmişdir.

Hüseyn (ə) "nəfsi mütməinnə"dir

5-ci ayə: ***"Ey (təqvanın kamalı sayəsində) arxayın olmuş nəfs (elə bir məqama yetişmiş nəfs ki, həvayi-həvəslər və şeytanlar onu azdırmağa qadir deyil). Dön Rəbbinə, sən Ondan, O da səndən razı olaraq! Mənim bəndələrimin zümrəsinə daxil ol! Və mənim Cənnətimə daxil ol!*** (Fəcr/ 27). İmam Sadiqdən (ə) nəql olunur ki, bu ayədən məqsəd Hüseyndir (ə) razı olan və razı olunmuş, mütməinnə sahibi olan nəfs odur.[4]

---

[1] Bihar 44/217, 218
[2] Həmin
[3] Həmin
[4] Həmin ; Təfsiri-Qummi 2/422

Müəllif deyir: Mətləbin bəyanı bundan ibarətdir ki, Allahı tanıyan, Onun əzəmətini və şənini dərk edən hər bir kəs Onu sevəcəkdir, elə ki Onu sevdi, Onun tərəfindən gələn hər bir şeyə razı olacaqdır və bu şəxsin vücudunda əsla kərahət və tərəddüd hasil olmaz, əksinə ən şiddətli müsibətlər nazil olan zaman arxayınlığı və razılığı daha çox olar. Bu mətləbin həqiqəti İmam Hüseynin (ə) vücudunda kamil surətdə zahir oldu.

AYƏDƏ GƏLƏN "ZÜLM" KƏLMƏSİ HÜSEYNİN (Ə) ŞƏHADƏTİDİR

6-cı ayə: ***"Biz məzlumcasına öldürülmüş şəxsin vəlisinə (qəyyumuna) hökmranlıq (qisas almaq, qan bahası almaq, yaxud bağışlamaq ixtiyarı) vermişik. Beləliklə, o, öldürmək zamanı həddi aşmamalıdır."*** (İsra /33)

İmam Baqirdən (ə) nəql olunur ki, ayədə məzlum öldürülən İmam Hüseyndir (ə) və onun vəlisi Həzrət Qaimdir (ə.f).[1]

Müəllif deyir: "Ayənin zahiri tamam insanlar üçün ümumi hökmə malikdir, yəni hər kəsi zülm ilə öldürsələr onun vəlisinin qatil üzərində qisas haqqı vardır və qatildən başqa kimsəni öldürməkdə israf etməməlidir. Beləliklə, bu məna İmam Hüseynin (ə) vəlisi barədədir ki, o Həzrətin (ə) qatilindən qisas alacaqdır. Ancaq baxaq, görək o Həzrətin (ə) qatili Yezid idi? Ya İbn Ziyad? Ya Ömər Səd? Ya Sənan? Ya Həzrətə (ə) nizə vuran Saleh ibn Vəhəb? Ya onun mübarək qəlbinə üç şöbəli ox vuran məlun? Sonra dedi: "Bismillah və billah, ya onlardan qeyriləri?"

Həqiqət budur ki, o Həzrətin (ə) müstəqil surətdə 100 000 qatili var idi. Peyğəmbərlərin (ə) rəvayətlərində zikr olunduğu kimi bir müstəqil qatil Yeziddir[2], digəri İbn Ziyaddır, necə ki, Yezid demişdir: "Onu Mərcanənin oğlu öldürdü."

---

[1] Bihar 44/218: Təfsiri Əyyaşi 2/290

[2] Bihar 44/ 242-244

Digəri Ömər Səddir, necə ki, Əlinin (ə) səhabələri onu uşaqlığında görəndə deyirdilər bu Hüseynin (ə) qatilidir.[1] Digər qatili Şümrdür.

Digəri Sənan, Xuli və üç şöbəli oxu vuran, həmçinin təşnəlik, qeyrət və ağlamaq.

Həqiqəti o Həzrətin (ə) özü buyurmuşdur: "Qutiltu məkrubən" yəni, "Məni qəm-qüssə və kədər öldürdü", buna görə o Həzrətə (ə) Kərbəla sahibi deyirlər, beləliklə həmin söz o Həzrətin (ə) qətlinin səbəbinə işarədir.

Yenə deyirik: Məzlumcasına öldürülməyin bir neçə mənası vardır və bunların hamısı həqiqi surətdə o Həzrətə (ə) tətbiq olunur.

Bir məna budur ki, məzlum olduğu halda öldürülsün, yəni onu haqqını tapdamış, mülkünü, malını, övladını və səhabələrini aradan apararaq, hətta tamam batini və zahiri əzalarını ox, qılınc, nizə və təşnəlik vasitəsilə sıradan çıxartmaqla qətlə yetirsinlər. Bütün bu sifətlərin həqiqəti o Həzrətdə (ə) mövcud idi, belə ki, qılıncların, oxların və nizələrin zərbələrindən tamam bədən əzaları, hətta mübarək boğazı yaralara məruz qalmışdır, malı, əhli-əyalı və uşaqları zülmə düçar olmuşdular. O Həzrəti (ə) öz diyarından çıxarmışdılar, tənha kimsəsiz halda qumlar üstə atmışdılar və belə halətdə qətlə yetirmişdilər. Bütün bu halətlərin tam təcəssümü İmam Hüseyn (ə) idi. Buna görə əslində sifət olan "məzlum" kəlməsi ada çevrilərək Hüseynə (ə) ünvanlanmışdır və duada belə gəlir: "Unşidukə dəm əl-məzlumi." Yəni, "Səni and verirəm məzlumun qanına."[2] Habelə hədisdə gəlir ki, İmam Sadiq (ə) buyurdu: "Məzlumun ziyarətini tərk etmə." Ərz etdi: "Kimdir məzlum?" Buyurdu: "Məgər bilmirsən ki, məzlum Kərbəla şəhidi Hüseyndir (ə)."

Məzlum olmağın ***ikinci mənası*** öldürülməyin əslindədir, yəni, öldürüləni şərən haqsız yerə və qisas, həd, ya fəsad törətmək kimi qətlinə səbəb olmayan surətdə qətlinə fərman verilməsi və icra olunmasıdır. Bu mənanın ən kamil həqiqəti İmam Hüseyn (ə) olmuşdur, necə ki, özü buyurur: "Vay olsun sizlərə məndən nə

[1] Bihar 44/263; İrşadi Mufid 2/135
[2] Bihar 83/235; Kafi 3/325

istəyirsiniz? Məgər sizlərdən kimisə öldürmüşəm ki, məndən qisas almaq istəyirsiniz? Ya sizin malınızı götürmüşəm? Ya bir şəriət hökmünü dəyişmişəm?[1]

Məzlum olmağın ***üçüncü mənası*** qətlin keyfiyyətindədir, belə ki Allah-taala ehsanı hər bir gözəl mənada işlətmişdir, hətta qurbanlıq kəsəndə də müstəhəbbidir ki, bıçağı itiləsinlər və onu qurbanlıq heyvana göstərməsinlər, öz cinsindən olan heyvanların qabağında kəsməsinlər, əl-ayağını bağlamasınlar və onu müslə etməsinlər, (yəni, ruhu bədənindən çıxmamış əzalarını kəsməsinlər), heyvanın başını kəsməmiş ona su versinlər. O Həzrətin (ə) başını kəsəndə bu ehsanların heç birinə riayət etmədilər, hətta bunun keyfiyyətində zülm etdilər.

Dördüncü məna öldürüldükdən sonra məzlumiyyətdir; yəni qətlə yetirdikdən sonra libasın çıxarılması, əzaların kəsilməsi, atlarla tapdanılması, cəsədin kəfənsiz və dəfnsiz qumların üstünə atılması ilə zülm etməkdir. Bunların hamısını o Həzrətə (ə) qarşı etdilər, hətta bədənində o köhnə parə libası da qoymadılar.[2]

Məzlumiyyətin ***beşinci mənası*** zikr olunan tamam mənaların birlikdə baş verməsidir ki, onların hamısı yalnız o Həzrətdə (ə) cəm olmuşdur.

Qatillərdən intiqamın alınmasının bəyanında

7-ci ayə: Qiyamət günü o Həzrətin (ə) qatillərindən intiqam alınmasından bəhs edir: ***"Diri ikən torpağa gömülmüş hər bir adam barədə soruşulacağı zaman. "Hansı günaha görə öldürüldülər?"*** İmam Sadiqdən (ə) rəvayət olunur ki: "Bu ayə İmam Hüseynin (ə) şənində nazil olmuşdur."[3]

Müəllif deyir: "Bu şərif ayənin məzmunu, günəşin bükülüb sönəcəyi, ulduzların töküləcəyi və dağların hərəkətə gəlib, par-

[1] Bihar 45/7; İrşadi Mufid 2/101
[2] Bihar 45/59; Luhuf s.58-59
[3] Bihar 44/220; Kamiluz-ziyarat 18/63

çа-parça olub dağılacağı kimi qiyamətin əzəmətli hadisələri zümrəsində baş verdiyinə görə bu sualdan məqsəd böyük mətləb olmalıdır və tamam məhşər əhlinin halının dəyişməsinə və qorxusuna səbəb olacaqdır.

Cahiliyyət dövründə qız uşaqlarını, heç bir günahı olmadan diri halda torpağa basdırırdılar və bu keyfiyyətlə öldürürdülər. Hərçənd bu dəhşətli cinayət olsa da, bir şəxsi dövrəyə alıb, əvvəl nəql etdiyimiz keyfiyyətdə qətlə yetirmək uşaqlarını, səhabələrini rəhm etmədən öldürmək, əlbəttə daha dəhşətli cinayətdir. Ola bilər, bu səbəbdən İmam Sadiq (ə) buyurur: "Bu ayə Hüseynin (ə) şənində nazil olmuşdur." Məsələni təhqiq edərkən aydın olur ki, "məvudə"nin, yəni torpağa gömülmüşün həqiqəti Aşura günü şəhadətə yetişən Hüseyndir (ə), uşaqları və əhli-əyalı ilə birlikdə. Çünki, "məvudə"nin zəhməti torpağın altında həbs olunmaq və təşnəliklə, məkanın sıxlığı və insanlardan qorxu ilə birlikdə nəfəsin kəsilməsidir. Hüseyn (ə) və onunla birgə olanların hamısı səhərdən axşamadək, istirahət etmədən həmin vəziyyətdə idilər. Beləliklə, onlardan sual olunacaq ki, hansı günaha görə öldürülmüşdülər? Və nəyə görə belə keyfiyyətlə öldürülmüşdülər?

BÖYÜK QURBANLIQDAN MURAD HÜSEYNDİR (Ə)

8-ci ayə: ***"Və biz ona böyük bir qurbanlıq fəda etdik."*** (Saffat /107) Rəvayətdə gəlir ki, böyük qurbanlıqdan murad Hüseyndir (ə).[1] Mənası da budur ki: "Biz İbrahimin (ə) sülbündə nəzərdə tutulan böyük qurbanlığa görə ona qurbanlıq qoçu fəda etdik; Yaxud İsmayılın (ə) Allah yolunda fəda olması, ondan daha böyük qurbanlığın fəda olunması ilə əvəz edildi və Allah yolunda olan daha əzəmətli və böyük qurbanlıq Hüseyn (ə) idi.

[1] Bihar 44/225; Uyunil-əxbar 1/209

Dördüncü məqsəd: "Həmd" surəsinin xüsusiyyətlərinin bəyanında və "Bismillahın" Hüseynlə (ə) bağlılığı

"Həmd" surəsi Ummul-kitabdır (yəni, Kitabın anasıdır) və Hüseyn (ə) pak İmamların (ə) atasıdır.

Həmd surəsi itaətin xəzinəsidir və Hüseyn (ə) şəfaət səbəbidir.

Həmd surəsi kifayət edicidir və Hüseyn (ə) bağışlanmaq səbəbi kimi kifayət edicidir.

Həmd surəsi şəfa verəndir və Hüseynin (ə) türbəti şəfa verəndir.[1] Onun qanı da şəfadır, necə ki, yəhudi qızının əhvalatında bəyan olunubdur.[2] Onun müsibətinə axıdılan göz yaşları da şəfadır, çünki, batini və zahiri atəşləri söndürür. Rəvayətdə gəlir ki, o göz yaşının bir damlası cəhənnəmə düşərsə onun atəşini söndürər.[3]

Həmd surəsi Qurana bərabərdir və Hüseyn (ə) də Peyğəmbərin (s) ümmətə qoyduğu əmanət kimi Quranın şərikidir və Qurana bərabərdir.

Həmd surəsi "Səbul məsani"dir, çünki yeddi ayədir və iki dəfə nazil olmuşdur. Hüseynin (ə) xüsusiyyətlərindən budur ki, o Həzrət (ə) səmadan iki dəfə nazil olmuşdur və iki dəfə səmaya yüksəlmişdir.

Beləliklə, ruhu digər İmamlar (ə) və Peyğəmbərlər kimi viladəti zamanı nazil olmuş və vəfatı zamanı yüksəlmişdir. O Həzrətin (ə) cəsədini səmaya apardılar və yenidən endirdilər, rəvayətdə gəlir ki, o Həzrəti (ə) şəhid edəndə, mübarək başını nizəyə taxıb, Kufəyə apardılar. Mələklər nazil olub, onun şərif cəsədini həmin halətdə beşinci asimana apardılar və orada Həzrət Əlinin (ə) surəti ilə birlikdə saxladılar. Səma əhli onun qana bulaşmış cəsədinə baxdılar və qatilinə lənət göndərdilər. Sonra onu Kərbəlada öz məhəllinə qaytardılar.[4]

---

[1] Bihar 44 /221,242
[2] Bihar 45/192
[3] Bihar 45/290
[4] Bihar 45/ 229

Burada bizim əqlimizin, dərinliyinə yetişə bilmədiyi gizli hikmətlər vardır və Allah onları daha yaxşı bilir.

Həmd surəsini oxuyan, onun zahirinə və batininə iman gətirən kəsə Allah-taala onun hər hərfinə tamam dünyadan üstün olan bir həsənə yazar.[1] Hüseyni (ə) də zikr edən və ona ağlayan kəsin bir damla göz yaşına Allah-taala dünyadan və onun içindəkilərdən üstün olan bir həsənə yazar. Habelə onu ziyarət edən kəsin hər bir hərfinə Allah-taala dünyadan üstün olan bir həsənə bəxş edər.

"Bismillah" hər surənin ünvanı və əvvəlidir, Hüseyn (ə) də şəhidlərin ünvanı və seyididir.

"Bismillah" Quranın 114 yerində yerləşir və Hüseynin (ə) 114 bağışlanmaq səbəbi vardır.

"Bismillah"şəriət qaydasına əsasən heyvanın başı kəsilən zaman zikr olunar və Hüseynin (ə) qətli hər bir qətldən şiddətli və dəhşətli olduğuna görə heyvanın başı kəsilən zaman Hüseyni (ə) yad edərlər, necə ki, Peyğəmbərdən (s) nəql edilən hədisdə gəlibdir.

Beşinci məqsəd: Quranın o Həzrətlə (ə) müştərək olan sifətləri

Quranı isimləri, sifətləri və xüsusiyyətləri olan ayələri vardır, məsələn Ayətəl-kürsi, Nur ayəsi, Təthir ayəsi, Şəfa ayəsi, Səcdə ayəsi. Hüseyndə (ə) də tamam səmaları və yerləri özünə şamil edən uca kürsü vardır, yəni onun elmidir və burada iki ayə bəyan olunur:

Biri, Şam yolunda mübarək başından camaat üçün təcəlli etdi.[2] Həmçinin bu təcəllini Zeyd ibn Ərqəm o mübarək başı onun otağının müqabilindən apardıqları zaman müşahidə etmişdir. Belə ki, otağının pəncərəsindən bir şüa içəri daxil olanda təəccüb etdi, diqqət yetirəndə gördü ki, o nur İmam Hüseynin (ə) nurani başından saçır və o mübarək baş Kəhf surəsini tilavət edir.

[1] Bihar 89/ 227; Məcməul-bəyan 1/18; Uyuni əxbar 1/302
[2] Bihar 45/125; Məqtəli Xarezmi 2/88-87

Biri də mübarək bədənindən görünmüşdür, belə ki, Bəni-Əsəd qəbiləsindən bir əkinçi kişi gecə vaxtı qətlgaha gələn zaman, deyir: "Cəsədlərin arasında bir cəsədin günəş kimi işıq saçdığını və bir şirin gəlib həmin cəsədin yanında oturduğunu gördüm."

İmam Hüseynin (ə) məhəbbətində batini xəstəliklər və türbətində zahiri xəstəliklər üçün şəfa ayələri vardır. Həmçinin o Həzrətin (ə) bədənində 4 ayə vardır və səcdə ayəsi kimi onları təsəvvür etmək üçün yaxşı olardı ki, insan yerə çöküb, özünü torpağa bulasın.

1-ci; Şərif ürəyinə sancılıb və kürəyindən bayıra çıxan üç şöbəli ox idi.

2-ci; Saleh ibn Vəhəbin nizə zərbəsinin təsiri idi ki, o Həzrəti (ə) atdan yerə salmışdır.

3-cü; O Həzrətin (ə) başına vurulan və əmmaməsini qanla dolduran Malik ibn Yəsərin qılınc zərbəsi idi.[1]

4-cü; Mübarək boğazına dəyən və başını bədənindən ayıran qılıncın əsəridir, ancaq bu əsər boynunun arxasından vurulmuşdur. O Həzrətin (ə) dostları bu ayələri təsəvvürlərinə gətirdikləri, ya eşidən zaman vücudlarının sütunları lərzəyə gəlir, qamətləri əyilir, yerə yıxılıb və başlarına torpaq tökürlər.

Altıncı məqsəd: Quranın tamam surələri o Həzrətin (ə) haqqındadır

Burada Quran surələrinin Həzrət Seyyidi-şühədaya (ə) bağlılığını bəyan edən məqamlarını işarə, münasibət və ya batini məna yolu ilə sizlərə təqdim edirik:

Fatihə surəsi dördüncü məqsəddə bəyan edildi.

Bəqərə surəsində o Həzrətin (ə) ilk mərsiyəsi deyilir, ***"Dedilər: "Orada fəsad törədəcək və qanlar tökəcək bir kəsi (canışin) qoyursan?"*** (Bəqərə/30) Hədisdə gəldiyi kimi mələklər o Həzrətin (ə) Kərbəlada başına gələn müsibəti görəndə dərk etdikləri mətləbə əsaslanaraq bu sualı verdilər.

[1] Bihar 45/53, 55, 121, 125

Ali-İmran surəsi; Əliəkbər döyüş meydanına gedəndə Həzrət (ə) bu ayəni tilavət etdi: *"Həqiqətən Allah Adəmi, Nuhu, İbrahimin (ə) ailəsini və İmranın ailəsini tamam aləmlərdə olanlardan üstün etdi."* (Ali-İmran/30)

Nisa surəsinin 2-ci ayəsi o Həzrətə (ə) deyilən mərsiyə ayələri zümrəsinə daxildir: *"Heç bir çarəsi olmayan və (hicrət etməyə) heç bir yol tapmayan zəif salınmış kişi, qadın və uşaqlar müstəsnadırlar."* (Nisa/98) yəni, o Həzrətin (ə) ailəsi, uşaqları, qohumları və səhabələri.[1]

Maidə surəsi; O Həzrət (ə) və səhabələri üçün özləri istəmədən, yemək süfrəsinə müvafiq olan Kövsər suyu timsalında maidə-süfrə nazil olmuşdur. Belə süfrəni Hz.İsanın (ə) həvariləri öz dilləri ilə istəmişlər: *"Bizlərə maidə nazil et"*, ancaq Hüseynin (ə) karvanı təşnəliyi, aclığı, yaraları və zəhməti özləri üçün qəbul etmişlər.[2]

Əraf surəsi, bəzi təfsirlərə əsasən o Həzrətin (ə) özü Ərafdır, başqa bir təfsirə görə Ərafda olan kişilərdən biridir. İmam Hüseynin (ə) öz zəvvarlarının simasına nisbət məxsusi mərifəti vardır, çünki qiyamət günü onların xüsusi əlamətləri olacaqdır necə ki, ziyarətin xüsusiyyətləri fəslində zikr olunmuşdur.[3]

Ənfal surəsi o Cənabın (ə) və məsum İmamların (ə) haqqıdır və onları bu haqdan məhrum etdilər, hətta o Həzrətin (ə) xalqla olan müştərək haqqından məhrum etdilər, hətta o Cənabın (ə) tamam canlılarla olan haqqından, yəni sudan məhrum etdilər. Bir halda ki, hər ruh sahibi olan məxluqun, hətta kafirin belə suda haqqı vardır.

Bəraət surəsi; Bu surədə cihada aid olan nə mətləb varsa, hamısı o Həztərin (ə) səhabələrinin cihadına müvafiqdir, məsələn bu ayə: *"Həqiqətən Allah möminlərin canlarını və mallarını onlardan Cənnətin onların olması bahasına alır."* (Tövbə/111) Hər kəs bu bazarda ticarət etmişdir, lakin o Həzrətin (ə) məxsusi ticarəti olmuşdur. Qiymətini təhvil almaq, təhvil vermək, əmtəəni nəql

[1] Bihar 45/43,95.
[2] Bihar 44/297; Məaniəl-əxbar s.288
[3] Bihar 45/182

etmək, çəkmək, qoruyub saxlamaq və xərcləmək, bunların hamısının o Həzrət (ə) üçün xüsusiyyətləri olmuşdur.

Yunis surəsi; İmam Hüseyn (ə) yaralı bədəni ilə torpaq üstünə yıxılanda onun surət, vəsf və halət cəhətindən Yunis (ə) ilə oxşarlığı var idi, lakin "Yəqtin" ağacının əvəzinə qılınclar, nizələr və oxlar idi.[1]

Hud surəsi; İmam Hüseyn (ə) meydanın ortasında dayanıb, xütbə deyəndə bu surədən məxsusi ayələr oxuyurdu, o cümlədən: "Dedi: ***"Mən Allahı şahid tuturam və siz də şahid olun ki, mən sizin Ona şərik qoşduqlarınızdan uzağam."*** (Hud / 54)

Yusif surəsi; Bəzi əhli-sünnə rəvayətlərində gəlir ki, bu surə Peyğəmbərə (s) Hüseynin (ə) müsibətində təsliyyət olaraq nazil olmuşdur.

Rəd surəsi; Hədisdə nəql olunur ki: "Şimşək və ildırımı olan elə bir bulud yoxdur ki, Hüseynin (ə) qatilinə lənət göndərməsin."[2]

İbrahim (ə) surəsi; Bu surə İbrahimin (ə) öz zürriyyəsini əkin üçün yararlı olmayan bir biyabanda məskun etməsindən bəhs edir, bu da İmam Hüseynin (ə) öz zürriyyəsini Kərbəla çölündə məskun etməsi ilə müvafiqdir. Həmçinin İbrahimin (ə) onlarla danışıb, vidalaşması Hüseynin (ə) öz Əhli-beyti ilə "daşı ağladan" söhbəti və vidalaşması ilə müvafiqdir.[3]

Kərbəlada Hüseynin (ə) məxsusi meracı olmuşdur

İsra surəsi; Hüseynin (ə) Kərbəlada məxsusi meracı olmuşdur və bunun nişanəsi Kərbəlanın mələklər üçün merac məqamı olmasıdır. Həmçinin, rəvayətə əsasən Peyğəmbər (ə) merac gecəsi bu torpaqdan keçmişdir.[4]

Kəhf surəsi; O Həzrətin (ə) mübarək başı nizə ucunda bu surədən ayələr tilavət edirdi, belə ki, Zeyd ibn Ərqəm Kufədə bu ayəni eşitmişdir: ***"Yoxsa o böyük mağara yoldaşlarını və o yazılı***

[1] Bihar 45/55-192; Luhuf s. 59
[2] Bihar 45/ 219
[3] Buhar 45/47
[4] Bihar 44/ 239

lövhə sahiblərinin (əhvalatlarının) Bizim ayə və nişanələrimizdən heyrətləndirici olmasını güman etmisən?" (Kəhf /9).

Məryəm surəsi; Zəkəriyya (ə) barədə hədisdə "Kaf, ha, yə, ayn, sad" ayəsinin mənası belə təfsir olunur: kaf-Kərbəla, ha- həlakət, yə-Yezidin zülmü, ayn-ətəş (təşnəlik), sad-səbr. Başqa bir hədisdə Quranın bu ayəsinin "Uzaq məkanda" – mənası Hz.İsanın (ə) Kərbəlada təvəllüdü əhvalatıdır ki, Hz.Məryəm Dəməşqdən teyyul-ərz ilə oraya gəlib, hamiləlikdən azad olmuş və həmin gecə geri dönmüşdür.[1]

Ta ha surəsi ; Bu surədə o Həzrətlə (ə) münasibət vardır, belə ki, Musa (ə) Tur dağında od gördü və öz əhlinə dedi ki: "Səbir edin gedim isinmək üçün atəş gətirim." Hüseyn (ə) də Kərbəlada nur gördü və öz əhlinə buyurdu: "Mənimlə gəlin, Allah-taala sizi əsir görmək istəyir."[2]

Ta ha surəsindən sonra gələn surələrdə də belə məxsusi münasibətlər mövcuddur, belə ki, İmam Hüseyn (ə) Mədinədən çıxarkən "Qəsəs" surəsinin bəzi ayələrini və Məkkəyə daxil olan zaman "Mömin" surəsinin bəzi ayələrini tilavət etmişdir.[3]

Quranın müqəttəə hərifləri və Hüseynin (ə) tikə-tikə olan bədəni

Məqsədimiz Quranın ayələrinin o Həzrətlə (ə) uyğunluğunu bəyan etmək olduğuna görə, burada təfsilatlı bəhsədən vaz keçib, bəzi ümumi münasibətlərə işarə edəcəyik.

Müqəttəə hərifləri ilə başlayan surələrin, o cümlədən; Ta ha, Ha mim, Ya sin, sad, əlif lam mim və sair zahiri surətlərində təsirlər vardır. Habelə onlarda ədədlərlə bağlı olan mətləblərə, Allahın adlarına və elmi Peyğəmbərə (s) və İmamlara (ə) məxsus olan rəmzlərə işarələr vardır. İmam Hüseynin (ə) də bədənində

[1] Bihar 98/116; Şeyx Tusi "Təhzib"
[2] Bihar 44/364; Luhuf s.28
[3] Bihar 45/7

qılıncların zərbələrindən müqəttəə hərflər və hər birinin özünə məxsus bir, ya iki, üç, dörd hərifli heyətləri var idi. Bu hərflərdə təslim və riza aləmindən rəmzlər mövcuddur, onları da Quranın müqəttəə hərflərinin rəmzlərini bilən şəxs bilirdi və buna görə bədəninin həmin yerlərini öpürdü və ağlayırdı.[1]

Əvvəlində təsbih gələn surələr; Onların İmam Hüseynin (ə) sifətləri ilə olan münasibəti "İlahi ehtiramlar" ünvanında bəyan olundu.

Müddəsir surəsi (Libasına bürünmüş) Bu surəni batini o Həzrətdən (ə) bəhs edir, necə ki, zahiri mənası da bundan xaric deyil. Müddəsir olan Peyğəmbər (s) ondandır və o Həzrət (ə) də Müddəsirdəndir.

Müzəmmil surəsi (Libasına bürünmüş) Hüseyndir (ə) öz qanına (bürünmüş) bulanmış, Hüseyndir (ə) azğınlıq gecəsinin zülmətində qalxıb, zülməti yaran və haqqı işıqlandıran Allahın hüccəti. Hüseynin (ə) səhabələri Ühud müharibəsində Peyğəmbərin (s) səhabələri kimi öz qanlarına bulanmışlar və Allahın Rəsulu (s) onların haqqında buyurmuşdur: "Onları qanlı paltarlarında dəfn edin və mən onlara şahidəm."[2] Ancaq Hüseynin (ə) səhabələrinin üstündə paltar qoymamışdılar və həmin bədənlərinin qanları ilə dəfn olunmuşdular.

Andlarla başlayan surələr; batində Hüseyn (ə) və onun halətləri, şəhadəti, ruhu, cəsədi, qəlbi, səhabələri və onların halətləri ilə müvafiqdir, məsələn: ***"And olsun uzun, möhkəm səf bağlayanlara. And olsun saxlayanlara. And olsun zikri tilavət edənlərə."*** (Saffat /1-3) – surəsi Hüseyn (ə) və onun əsgərlərinə tətbiq olunur, çünki, onlar cihadda və namaz vaxtı Hüseynin (ə) himayəsində səf bağladılar. Habelə cəsədləri torpaq üzərinə düşdüyü zaman cərgəyə düzülmüşdür və onların başları da nizələr üzərində səf bağlamışlar, hətta dəfn yerlərində də səf bağlamışdılar, çünki hamısını bir qəbirdə yanaşı dəfn etmişlər.[3]

---

[1] Bihar 44/261
[2] Bihar 45/32; Məqtəli Xarəzmi 2/25
[3] Bihar 45/108; İrşadi Mufid 2/118

"And olsun dan yerinə. Və and olsun on gecəyə.Və and olsun cütə və təkə. Və and olsun sübhə tərəf keçib, getməkdə olan gecəyə." (Fəcr /1-4). İmam Hüseyn (ə) hidayət nuruna açılan Fəcrdir, müsibət gecələri "on gecədir", özü qardaşı ilə birlikdə "şəfdir" və özü tənha qalanda "vitrdir". Ancaq "vitri məvturdur"və surənin axırında gələn "nəfsi mutməinnə" o Həzrətin (ə) rÜhudur, necə ki, Əhli-beytin (ə) rəvayətlərində təfsir olunubdur.[1]

"And olsun dağa. Yazılmış kitaba. Açıq səhifədə yazılmış kitaba. Və (and olsun) o abad evə. Və ucaldılmış tavana. Və su ilə dolu və alovlanan dənizə!" (Tur /1-6) "Tur" o Həzrətin (ə) şəhadət məhəllidir həm zahiri həm də mənəvi cəhətdən, "yazılmış kitab" İmamın (ə) şərif bədənidir, "abad ev" onun mübarək başıdır və "alovlanan dəniz" Kərbəla və bəla meydanıdır.

"And olsun çıxmaqda və batmaqda olan ulduza." (Nəcm/1) Bu surə o Həzrətin (ə) torpaq üzərinə yıxılması ilə müvafiqdir.

"And olsun günəşin doğmasına və aydın gündüzə" (Zuha /1) O Həzrətin (ə) zahir olan üzünün ya imanının nurudur.

"And olsun bürcləri olan göyə" (Buruc/1) O Həzrətin (ə) həqiqəti barədədir, çünki o Cənab (ə) imamətin səmasıdır və onun doqquz, hətta on üç bürcü vardır.

"And olsun göyə və gecə gələnə." (Tariq /1) Hüseyn (ə) həmin yaran ulduzdur ki, onun nuru yerin tamam zülmətlərini yarır və aradan aparır.

"And olsun günəşə və onun şüasının vüsətinə." (Şəms /1) Günəş o Həzrətin (ə) surətidir və qana, torpağa bulaşmasına baxmayaraq yenə də nur saçırdı və mübarək cəsədi günəş kimi gecələr ətrafı işıqlandırırdı.[2]

"And olsun bir-birinin ardınca göndərilən mələk dəstələrinə." (Mürsəlat /1) Bunlar o Həzrətin (ə) işlərini yerinə yetirmək üçün nazil olan mələklərdir.

"And olsun kafirlərin canlarını şiddətlə (bədənlərindən) çəkib çıxaran mələklərə." (Naziat/1)

---

[1] Təfsiri Qummi 2/ 419-420

[2] Bihar 45/57,194

"And olsun tövşiyə-tövşiyə çapan (cihad) atlarına." (Adiyat/1) Onların şəhadət meydanında cövlan edən atlarıdır.

Qiyamət surəsi tamamilə Əhli-beytin Aşura günü bərpa etdiyi qiyamətə müvafiqdir, belə ki, bu əzəmətli hadisə və hər müsibətdən daha ağır olan bir müsibət idi. Həmçinin, bu zalımların ürəklərini lərzəyə və yaxşıların qəlblərini riqqətə gətirən həmin "Qariə" – dəhşətli hadisə idi.

Habelə həmin yerlərin lərzəyə gəlməsindən bəhs edən "Ğaşiyə" idi.

"Göylər yarılacağı zaman" (İnşiqaq/1) və *"Göy yarıldığı zaman"* (İnfitar /1) O Həzrətin (ə) başının yarıldığı zamana dəlalət edir.

"Günəş sarınacağı zaman." (Təkvir /1) Bu surə Aşura günü ilə müvafiqdir, belə ki, o zaman həm zahirdə günəş və həm də İmamət (ə) bürcünün günəşi tutulmuşdur. Bu mətləblərin hər biri üçün təfsilatlı bəhsi "Rovzətul-cənnat" adlı kitabda zikr etmişəm.

Qədr surəsində Hz.Hüseyn (ə) üçün qədr gecələrinin fəzilətləri sübut olunmuşdur, necə ki, zamanların xüsusiyyətləri fəslində gələcəkdir (inşallah).

İxlas surəsi; İmam Hüseyn (ə) Allahın tovhidini zahir etdi və qəlbinin əlaqəsini Allahdan qeyri nə varsa, hər şeydən kəsməklə tovhidi qəlbə məxsus etdi.

Kafirun surəsində o Həzrət (ə) müşrikləri və münafiqləri inkar və onlardan bizar olduğunu bəyan etdi.

Fələq və Nas surələri; Sünni və şiə kitablarında bu surələrin Hüseynin (ə) şənində nazil olduğu zikr edilir.[1]

[1] Bihar 43/282; Munaqib 3/155

DOQQUZUNCU ÜNVAN:

O HƏZRƏTİN (Ə) BEYTULLAHİL-HƏRƏMƏ NİSBƏT XÜSUSİYYƏTLƏRİ VƏ BUNUN DÖRD MƏQSƏDİ

Birinci məqsəd: Həqiqi Beytullah o Həzrətin (ə) qəlbidir

İmam Hüseynin (ə) özü həqiqi Beytullahdır; bil ki, Allah-taala hər hansı bir məkanda, ya evdə olmaqdan daha ali və daha əzəmətlidir, çünki cismani deyil. Bəzi məkanları Özünün evi adlandırması isə həmin məkanlara məxsusi şərafət verməsi səbəbindəndir və onların xüsusi ibadət yerləri olmasındandır. Yaxud bəndələr həmin məkanların səmtinə xüsusi diqqət yetirməyə məmur olunmuşlar, ya xüsusi feyzin nazil olan məhəllidirlər. Yaxud o məkana yetişmək çətin olduğuna görə orada qürbət qəsdi etmək ixlasa daha yaxındır. Bu sifətlərin hamısı Məkkeyi-müəzzəmədə cəm olmuşdur, bunlardan bəziləri isə məscidlərdə mövcuddur və bunlar zahiri Beytullahdırlar. Amma həqiqi Beytullah barədə hədisi-qüdsidə buyurur: "Mən səmalara və yerə sığmaram, lakin möminin qəlbinə sığaram."[1] Allah-taala Davuda (ə) vəhy etdi: "Mənim üçün ev tik ki, orada sakin olum." Ərz etdi: "Ey Allahım sən bir yerdə məskən salmaqdan daha alisən." Vəhy gəldi ki: "Öz qəlbini Mənin üçün boşalt."[2]

Beləliklə Allahın məhəbbətindən başqa məhəbbəti olmayan bir qəlb həqiqi Beytullahdır. Belə qəlb hər bir bağlılıqdan azad olan kamil möminin qəlbidir. Belə qəlbdə Allahdan başqa bir fikir

[1] Məhəccətul-beyzə 5/26
[2] Əvalil-Ləali 1/295

və zikr yoxdur və bəzən elə bir həddə yetişir ki, Allahdan qeyrisini nə görür, nə də eşidir. Necə ki, hədisi-qüdsidə buyurur: "Mən onun görən gözü və eşidən qulağı olaram."[1]

Bu mətləbdən məlum olur ki, həqiqi Beytullah İmam Hüseynin (ə) qəlbidir. Həqiqətən bu qəlb Allah üçün hər şeydən azad idi, belə ki, bu qəlbdə Allahdan qeyrisinə bir əlaqə qalmamışdır, hətta Allahla əlaqəyə zidd olmayan əlaqələrə belə. Allaha xatir hər şeydən əlaqəni kəsmək Allaha olan əlaqənin şiddətinə dəlalət edir. Bütün şəriətlər həmin təməl üzərində qurulmuşdur. Dindarlığın meyarı da Allah rizasına xatir, Allahdan qeyrisindən əlaqəni kəsməyin miqdarı ilə ölçülür. İmanın dərəcələri də bu əlaqənin şiddəti və zəifliyinə görə müxtəlif olur. Bu mətləb aydın olandan sonra bil ki, İmamət səhifəsində yazılmış bu İlahi əmr: "Özünü Allah yolunda sat." – İmam Hüseynə (ə) aşkar olan kimi dərhal onu yerinə yetirməyə başladı. Beləliklə, Mədinədən çıxmasından başlayaraq Kərbəlada məskən salmasından qəsdi Allahın əmrini həyata keçirmək idi. Hətta bu yolda qarşısına çıxan tamam müsibətləri Allaha yaxınlaşmaq üçün vasitə kimi qəsd etmişdir. Buna görə, bunların hamısı qürbət qəsdi ilə olmuşdur, hətta əzalarının tikə-tikə olmasını da işin əvvəlindən niyyət etmişdir, necə ki, Məkkə xütbəsindən zahir olur.[2] Həmçinin səhabələrinin, övladlarının və Əhli-beytinin şəhadətini Mədinədən çıxanda niyyət etmişdir, belə ki, Kərbəla əhvalatını qabaqcadan Ümmü Sələməyə nəql etmişdir.[3]

Beləliklə, o Həzrət (ə) tamamilə öz qəlbini vətən əlaqəsindən azad etdi, hətta tamam məskənlərdən, məkanlardan, bütün mallardan, libaslardan, səltənətdən, rəyasətdən, rahatlıqdan, əhli-əyaldan, uşaqlardan, qardaşlardan, bacılardan, qohum-əqrəbadan və səhabələrdən, hamıdan keçdi. Qəlbini tamam dünya nemətlərindən azad etdi, hətta can üstə olana verilən bir damla sudan keçdi, başından, bədənindən, əzalarından sümüyündən, ətindən, qanından, surətindən, hətta sənubər şəkilli o mübarək ürəyindən

[1] Kafi 2/352
[2] Bihar 44/364; Luhuf s.26
[3] Bihar 44/331

üç şöbəli zəhərli ox dəyəndə keçmişdir. O mübarək ürəkdən qan axanda qanı əlinə alıb başına, üzünə və saqqalına çəkirdi,[1] necə ki, o Həzrətin (ə) ziyarətindən gəlir: "Allahım, Hüseyn (ə) öz qəlbini Sənin razılığın yolunda verdi."[2]

Beləliklə, o Həzrət (ə) öz zahiri qəlbini qanı ilə birlikdə və tamam əlaqələrini verdikdən sonra mənəvi qəlbini Allah üçün xalis və Allahdan qeyri nə varsa, hamısından azad etdi. Bununla da onun qəlbi həqiqi, həyata keçmiş Beytullah oldu, bu qəlbdə Allahdan qeyri heç nə yox idi. Buna görə, insanlar imkanları olan təqdirdə o Beytullahı həcc etməlidirlər. Beləliklə, rəvayətdə gələn bu ifadənin: "Hüseyni (ə) ziyarət edən kəs Allahı Ərşdə ziyarət etmiş kimidir" – sirri zahir olur.[3]

İkinci məqsəd: Həqiqi Beytullah və zahiri Beytullaha təzim etmək

Həqiqi Beytullah xüsusi tərzdə zahiri Beytullaha təzim etdiyinə görə, Allah-taala onun üçün Kəbənin xüsusiyyətlərini qərar verdi. Təfsilatı bundan ibarətdir ki, o Həzrət (ə) Şəbanın 3-ü, cümə günü Məkkəyə varid oldu və həcc mövsümünə qədər orada qaldı. Sonra həcc ya ümreyi təmättö üçün ehram bağladı, lakin bu vaxt xəbər gəldi ki, Yezid məlun bəni üməyyə şeytanlarından 30 nəfəri o Həzrəti (ə) hiylə ilə şəhid etmək üçün Məkkəyə göndərib, həmçinin o Həzrəti (ə) aşkar şəkildə həbs etmək məqsədi ilə Ömər Sədin başçılığı ilə ləşkər göndərib.[4] Buna görə, İmam (ə) ehramını ümreyi müfrədəyə dəyişib tərviyə ya ərəfə günü Məkkədən çıxmaq qərarına gəldi. Bu xəbəri eşidən Muhəmməd Hənəfəiyə gecə ikən özünü o Həzrətin (ə) xidmətinə çatdırdı və ərz etdi: "Kufə əhlinin qəddarlığı və vəfasızlığı sizlərə gizli deyil. Onların atana və qardaşına qarşı etdiyi rəftarlarını görmüsən, sənlə də bu cür məkr və xəyanətlə davranmaqlarından qorxuram. Burada qalsan özünə qar-

[1] Bihar 45/53; Luhuf s. 45
[2] Bihar 98/331
[3] Bihar 98/331
[4] Bihar 45/99

şı ehtiram və izzət görərsən. Həzrət (ə) buyurdu: "Qorxuram alçaq Yezid məni burada hiylə ilə qətlə yetirə və bu səbəbdən Kəbə evinin ehtiramı aradan gedə." Dedi: "Onda Yəmənə tərəf ya səhranın bəzi məntəqələrinə get ki, orada əmniyyətdə olasan." Həzrət (ə) buyurdu: "Bu barədə düşünərəm." Səhər açılanda İmam (ə) hərəkət əmri verdi. Muhəmməd Hənəfiyyə İmamın (ə) xidmətinə gəlib, dəvənin üzəngisindən tutub, dedi: "Siz bu məsələ barədə düşünməyinizə vədə vermişdiniz, bəs niyə belə təcili yola düşürsünüz?" Çünki, sən gedəndən sonra Allahın Rəsulu (s) mənim yanıma gəlib buyurdu: "Get, Allah-taala səni şəhid görmək istəyir." Muhəmməd ərz etdi: "İndi ki, şəhid olmağa gedirsən, bəs bu qadınları və uşaqları niyə özünlə aparırsan?" Buyurdu: " Allah-taala onları əsir görmək istəyir." Sonra buyurdu: "Ey qardaşım, əgər heyvanların yuvalarına girsəm belə, yenə məni çıxardıb, öldürəcəklər."[1]

Sonra Abdullah ibn Zubeyr, Abdullah ibn Abbas və Abdullah ibn Ömər o Həzrətin (ə) xidmətinə gəlib, onun İraqa getməyinə etiraz etdilər. İmam (ə) İbn Zubeyrə buyurdu: "İstəmirəm Allah evinin hörməti mənə görə aradan getsin."

İbn Ömərə dünyanın vəfasızlığından, Yəhyanın və Bəni-İsrail peyğəmbərlərinin (ə) qətlə yetirilmələrini ona xatırlatdı.

İbn Abbasa da buyurdu ki: "Peyğəmbər (s) mənə əmr etmişdir və mən də əmrə itaət etməliyəm." Beləliklə, onların hamısı təslim oldular və vidalaşaraq, ağladılar. İbn Ömər xahiş etdi ki, ona Peyğəmbərin (s) dəfələrlə öpdüyü yeri öpməyə icazə versin. Həzrət (ə) mübarək qarnını açdı, Abdullah öpdü və ağladı. İmam (ə) İraqa tərəf yola düşdü.[2]

Müəllif deyir: "Baxın, görün bu alicənab İmam (ə) Kəbənin ehtiramını necə saxlayır. Özünə zərər dəyməsinə razıdır, ancaq Allah evinin hörmətinə xələl yetməsinə razı deyil. İmamın (ə) Allah evinə qoyduğu bu ehtirama xatir Allah-taala Kəbənin bütün xüsusiyyətlərini və kəramətlərini onun üçün qərar verdi. Bizim də bu fəzilətləri və kəramətləri saymağımız və tətbiqinə işarə etməyimiz münasib olardı. Bunlar ilk baxışdan 50 fəzilətdirlər:

---

[1] Bihar 45/99

[2] Bihar 44/185, 364, 313

KƏBƏNİN TAMAM FƏZİLƏTLƏRİ VƏ KƏRAMƏTLƏRİ HÜSEYNƏ (Ə) MƏXSUSDUR

1-ci: Kəbə insanlar üçün təyin edilən birinci evdir və Hüseyn (ə) Peyğəmbərdəndir (s), Peyğəmbər (s) də Allahın yaratdığı birinci məxluqdur, habelə Hüseynin (ə) nuru Cəddinin, atasının, anasının və qardaşının nurları ilə birlikdə yerin və göylərin yaranmasından əvvəl yaranmışdır.[1] Buna əsasən Hüseyn (ə) Allah-taala tərəfindən insanlar, mələklər və cəmi məxluqat üçün təyin edilmiş birinci evdir.

2-ci: Kəbə ən üstün məkan olan Məkkə torpağında yerləşir və Hüseyn (ə) də mufaxirə hədisinə əsasən Məkkədən daha şərəfli olan Kərbəladadır.[2]

3-cü: Kəbə Allahın xəlilinin (ə) (dostunun) binasıdır, Hüseynin (ə) də əti, qanı Xəlildən daha şərəfli olan Allahın həbibinin (s) ətindən və qanındandır.

4-cü: Kəbə öz zəvvarları və ətrafındakıları üçün mübarəkdir, Hüseyn (ə) isə İlahi bərəkətlərin sahibidir və İlahi feyzlər onun vasitəsilə məxluqatın üzərinə yağmaqdadır, belə ki, onun bir dəstə ləşkəri şəhadətlə cənnətə getdilər, bir dəstə camaat onun müsibətinə ağlamaqla cənnətə müstəhəq olurlar, bəziləri əza məclisləri qurmaqla, bəziləri başqalarını ağlatmaqla, bit tayfa özünü ağlayanlara bənzəməklə, bəziləri su içən zaman onu yad etməklə, bəziləri onun ziyarətinə getməklə, ya zəvvarlarına kömək etməklə, ya torpağında dəfn olunmaqla cənnətə müstəhəq olurlar və bu qəbildən olan bərəkətlərlə ki, o Həzrətin (ə) səbəbilə xalqa nazil olur.

5-ci: Kəbə insanların hidayət olunma vasitəsidir, Hüseyn (ə) də həmçinin hidayət vasitəsidir. Hətta o öz canını Allahın dininə fəda etdi və onun şəhadətinin səbəbi ilə şiə dininin həqiqəti zahir oldu. "Ərbəin" ziyarətindən gəldiyi kimi, İmam Sadiq (ə) o

[1] Bihar 53/142
[2] Bihar 98/106

Həzrətin (ə) haqqında buyurur: "Öz qəlbinin qanını Allah yolunda verdi ki, bəndələri azğınlıqdan və heyrətdən xilas etsin.[1]

6-cı: Allah-taala Kəbənin hərəmini dörd tərəfdən möhtərəm qərar verdi və orada ov etməyi, ağac və bitki kəsməyi, itmiş əşyanı götürməyi (sahibini tapmaq niyyəti istisna olmaqla) haram etmişdir. Allah-taala Hüseynin (ə) qəbrini də türbətinə ehtiram qoymaqla dörd tərəfdən möhtərəm qərar verdi və bu türbəti şəfa məqsədi yeməyə icazə verdi. Rəvayətlərdə hərəminin hüdudları müxtəlif nəql olunmuşdur; 1 fərsəx, 4 fərsəx ya 5 fərsəx. Bəziləri fəzilətinin mərtəbələrinin fərqliliyinə görə rəvayətləri cəm etmişlər, alimlər yemək yeməyin caiz olan yerlərin hüdudları baxımından müxtəlif rəylər söyləmişdilər. Bəziləri o Cənabın (ə) hərəminin türbətini mütləq surətdə caiz bilmişlər, bəziləri isə qəbrin öz türbətini və ürfdə "qəbrin torpağı" deyilən qəbrə yaxın olan ərazinin türbətini caiz hesab edirlər. Bir iddə rəvayətlərdən 1 mil, ya 4 mil, ya 70 zirə (dirsək) məsafəsində hüdudlanıblar.[2]

O Həzrətin (ə) türbətini yeməyin, öz məhəllində zikr edilən, ədəb və şərtləri vardır. Bu ədəblərin sayının çoxluğundan bəziləri elə güman edirlər ki, onun vasitəsilə şəfa tapmaq son dərəcə çətin məsələdir.

7-ci: Kəbə əmin-amanlıq məkanıdır, oraya pənah gətirən hər bir kəs əmniyyətdə olmalı və qətli caiz deyildir. Hüseyn (ə) də əmniyyət məhəllidir və ona pənah gətirən hər bir kəsin qanı məhfuzdur. Amma bəni üməyyə həm Allahın evinin hörmətini, həm də o Həzrətin (ə) hörmətini sındırdılar və o Cənaba (ə) pənah gətirənlərin qanlarını tökdülər. Hətta iki balaca üşağını, birini əlləri üstündə gətirib, onun üçün su istəyəndə hülqumundan üç şöbəli oxla vurub, digərini isə öz sinəsinin üstündə əllərini kəsib və oxla vurub qətlə yetirdilər.[3] Sonra da o Həzrəti (ə) əhatə edən İmamət bürcünün göyərçinlərini ondan ayırdılar, yəni qızı Səkinəni sinəsinin üstündən çəkib, zəncirlə bağladılar və dəvələrə süvar etdilər.

---

[1] Bihar 98/331; Təhzib 6/113

[2] Bihar 98/106

[3] Bihar 45/46; 53; İrşadi Mufid 2/114

8-ci: Kəbə, ən şərəfli ibadət olan namazın və Allahın həbibinin (s) mübarək üzünü tutduğu qibləsidir. Hüseyn (ə) də Allahın həbibinin (s) qəlbinin qanı, meyvəsi və reyhanəsidir, əslində Peyğəmbərin (s) öz nəfsi idi, necə ki, buyurmuşdur: "Hüseyn (ə) məndəndir, mən də Hüseyndən (ə)." Həmçinin Peyğəmbərin (s) qəlbinin qibləsi idi, çünki o Həzrətin (s) mübarək qəlbinin diqqəti həmişə ona tərəf yönəlmişdir və onu yad etmişdir, hətta xütbə ya namaz əsnasında onu mübarək çiyninə almışdır."[1]

Kəbə islam rüknlərindən biri və Hüseyn (ə) iman rüknlərindən biridir

9-cu: Kəbənin təvafı imkan olan surətdə islamın rüknlərindən biridir və onu tərk edən şəxsin islam rüknlərindən biri naqis olar. Hüseynin (ə) də ziyarəti iman rüknlərindən biridir və rəvayətdə gəlir ki, o Həzrətin (ə) ziyarətini tərk edən şəxsin imanı naqisdir və Allah Rəsulu (s) ilə sileyi-rəhmi kəsmişdir, ağ valideyn hökmündədir və şiə deyil. Əgər cənnətə getmiş olsa da qonaq olacaqdır, Allahın haqlarından bir haqqı tərk etmişdir, hərçənd 1000 dəfə həccə getmiş olsa belə və xeyirdən məhrumdur.[2]

Rəvayətdə nəql olunur ki, hər kəs 1, ya 2 il keçə və o Həzrətin (ə) ziyarətinə getməsə öz bəhrəsini əldən vermişdir, Allahdan və Peyğəmbərdən (s) uzaq düşmüşdür.[3]

10-cu: Kəbə qəlblərin maqnitidir və tamam qəlblər ona tərəf meyillidirlər və uzaqdan-yaxından ona müştaqdırlar. Hüseyn (ə) də tamam şiələrin maqnitidir, hamısının qəlbləri o Həzrətə (ə) müştaqdır və məhəbbəti sair İmamların (ə) məhəbbətlərindən imtiyazlıdır.

Miqdad ibn Əsvəd Kundidən rəvayət olunur ki: "Peyğəmbər (s) Hüseynin (ə) sorağında bayıra çıxmışdır, mən də o Həzrətin (s) xidmətində idim. Bir qədər getdikdən sonra yerin üstündə bir əfi ilan

[1] Bihar 43/270, 296
[2] Bihar 98/4-5
[3] Bihar 98/12

gördüm, bu ilan Allahın Rəsulunun (s) gəlişini hiss etdikdə, qalxdı və qaməti xurma ağacından hündür və bədəni dəvədən böyük oldu, ağzından da atəş püskürdü. Məni vahimə bürüdü, çox qorxdum. İlanın nəzəri Peyğəmbərə (s) düşəndə nazilib, zəiflədi və kəndir kimi oldu. Allahın Rəsulu (s) üzünü mənə tutub buyurdu: "Bilirsən bu əfi nə deyir?" Dedim: "Allah və Onun Rəsulu (s) daha yaxşı bilir." Buyurdu: "O deyir: "Allaha həmd olsun ki, məni Allahın Rəsulunun (s) övladlarına gözətçi olanadək diri saxladı." Sonra ilan qumların üstü ilə getdi, birdən orada əvvəllər və sonradan bir daha görmədiyim bir ağac gördüm, bu ağac Həsənlə (ə) Hüseynin (ə) üzərinə kölgə salmışdır. Allahın Rəsulu (s) onların arasında oturdu və Həsənin (ə) başını mübarək sağ dizinin üstünə və Hüseynin (ə) başını sol dizinin üstünə qoydu. Sonra mübarək dilini Hüseynin (ə) ağzına daxil etdi, Hüseyn (ə) oyandı və dedi: "Baba can." Və yenidən yuxuya getdi, həmçinin Həsən (ə) də oyandı: "Baba can." – deyib, yuxuya getdi. Mən dedim: "Sanki Hüseyn (ə) daha böyükdür." Peyğəmbər (s) buyurdu: "Həqiqətən qəlblərdə Hüseynə (ə) nisbət gizli məhəbbət vardır." Uşaqlar yuxudan oyananda Həzrət (s) onları çiyninə alıb, yola düşdü..." Hədisin ardı çox təfsilatlıdır.[1]

Kəbə İbrahimin (ə) məqamıdır və Hüseynin (ə) məqamı Peyğəmbərin (s) çiynidir

11-ci: Kəbədə İbrahimin (ə) ayağının izi daşın üzərində həkk olunmuşdur və buna "məqami İbrahim (ə)" deyirlər, Hüseyn (ə) də Allahın həbibinin (s) məqamıdır çünki, o Həzrətin (s) mübarək ağzı Hüseynin (ə) bir neçə bədən üzvündə əsər qoymuşdur. Bunlar Hüseynin (ə) mübarək alnı və boğazıdır ki, Peyğəmbərin (s) öpüşünün əsərindən həmişə parlayırdılar. Beləliklə, əgər Xəlilin (ə) bədəninin nişanəsi Beytullahın yanındadırsa, Hüseynin (ə) məqamı Peyğəmbərin (s) çiyni, kürəyi və sinəsidir. Hər kəs rəvayətlərdə və kitablarda təhqiqat aparsa görər ki, Peyğəmbər (s) bəzi vaxtlar o Həzrəti (ə) çiyninə alıb yol gedərdi, bəzən də uzandığı halda sinə-

[1] Bihar 43 /271-272

sində oturdardı və səcdəyə gedəndə Hüseyn (ə) o Həzrətin (s) mübarək çiyninə süvar olardı, bu zaman səcdəni o qədər uzadardı ki, Hüseyn (ə) öz meyli ilə belindən aşağı ensin. Buradan o Həzrətin (s) Hüseynə (ə) olan məhəbbətinin və bağlılığının dərəcəsi məlum olur, belə ki, hələ indiyədək heç kəsin, heç kəslə bu qədər məhəbbətlə və nəzakətlə davranmağı görünməyib və görünməyəcəkdir.[1]

Allah-taala Kəbənin məqamı və Hüseyn (ə) üçün kəramətlər qərar vermişdir

12-ci: Allah-taala Kəbə üçün zahiri kəramətlər qərar vermişdir, məsələn göyərçinlər onun üzərindən uçmurlar və hərəmin divarına qonmurlar.

Müəllif deyir: "Mən Beytullahın həcc ziyarətinə müşərrəf olanda bir neçə gün bu mətləbə diqqət yetirdim, təvaf yerində oturub göyərçinləri müşahidə edirdim, görürdüm ki, hətta uçuşlarının çiddətli anlarında belə Beytullahın divarının bərabərinə çatanda istiqamətlərini dəyişib, başqa səmtə uçurdular və hərəmin üzərindən keçmirdilər, ancaq bu hökm başqa quşlara aid deyil, yalnız göyərçinlərə məxsusdur".

Hüseyn (ə) üçün də kəramətlər zahir olmuşdur, belə ki, suyun axarını qəbrinə tərəf yönəldirdilər, ancaq qəbrin torpağı yuxarı qalxırdı və su onu əhatə edə bilmirdi. Abbasi xəlifəsi Mütəvəkkil 20-il ərzində o şərif qəbrin üzərində əkin əkməyi əmr etmişdir, ancaq mal-qara o pak qəbrə tərəf getmirdilər. Hətta qəbrinin açılmasına fərman verdi, lakin o nurani qəbri açanda gördülər ki, cəsədi sanki indi dəfn ediblər və həmin halətdə yenidən üstünü örtdülər. Suyu qəbrin üzərinə buraxdılar, ancaq su qabağa getmədi, öküzləri qəbrə tərəf qovdular, lakin heyvanlar qabağa getmədilər. Bəzən görürdülər ki, bir dəstə camaat onlara oxlar atırlar, bunlar da o camaata tərəf ox atanda, ox qayıdıb öz sahibinə dəyirdi.[2]

---

[1] Bihar 44/187-188; Munaqib İbn Şəhr Aşub 3/230

[2] Bihar 45/395-404; Munaqib ibn Şəhr Aşub 3/221; Müntəxabi Tureyhi 2/67

O Həzrətin (ə) şərif cəsədinin kənarında ağ quş

Bəli, o Həzrətin (ə) şərafəti səbəbindən quşlar onun mübarək cəsədinin ətrafına toplanmışdılar.

Rəvayətdə gəlir ki, İmam Hüseyni (ə) şəhid edib, cəsədini isti qumlar üstünə atdıqdan sonra o Həzrətin (ə) bədəninin kənarına bir ağ quş endi və öz qanadını, lələyini o Cənabın (ə) qanına batırdı və yenidən səmaya pərvaz etdi. Sonra gördü ki, bir neçə quş ağacın kölgəsində asudə dincəlirlər. Onlara dedi: "Ey quşlar, məgər rəvadırmı siz burada rahat dincələsiniz, bir halda ki, Hüseyn (ə) Kərbəla torpağında isti qumların üstünə düşübdür, damarlarından qan axır, başını kəsiblər, əhli-əyalını əsir ediblər və şəhərləri dolandırırlar?" O quşlar uçub Kərbəlaya gəldilər. Gördülər başsız bədən qüsülsüz, kəfənsiz qumlar üstünə düşüb və külək toz-torpağı onun şərif cəsədinin üstünə töküb və vəhşi heyvanlardan və cinlərdən başqa heç kəs onun ziyarətinə gəlib, əzadarlıq etmir. Eyni halda onun mübarək cəsədinin nuru tamam səhranı işiqlandırıb. Beləliklə quşlar növhə deyib, ağlamağa başladılar və özlərini o Həzrətin (ə) qanına bələdilər. Sonra hərəsi bir tərəfə uçdu, quşlardan biri Mədinəyə pərvaz etdi və qanadlarından qan damdığı halda gəlib Allahın Rəsulunun (s) qəbrinin üzərində təvaf etdi. O belə fəryad edirdi: "Agah olun, Hüseyni (ə) Kərbəlada öldürdülər və başını kəsdilər." Quşlar onun ətrafına toplandılar və bir yəhudi qız quşun qanadından daman qanın bərəkətinə şəfa tapdı.[1]

13-cü: Kəbəni məxluqatın təvaf yeri qərar vermişdir və təvafın, onun şovtlarına və addımlarına nisbət savabı çoxdur, ancaq İmam Hüseynin (ə) ziyarətinin savabı bundan bir neçə dəfə artıqdır, necə ki, ziyarət ünvanında zikr olunmuşdur.

[1] Bihar 49/191

Kəbə və Hüseyn (ə) mələklərin təvaf məhəllidirlər

14-cü: Kəbəni mələklərin təvaf yeri qərar vermişdir, rəvayətdə gəlir ki, Cəbrayıl (ə) Allahın əmri ilə Kəbənin binasını tikmişdir, bundan əvvəl isə cənnətdən xeymə nazil olmuşdur və bu xeymə Adəmin yaradılmasından qabaq Beytul-məmurun və Ərşin müqabilində olan məqbərənin qarşısında mələklərin qurduğu dayaqlar üzərinə nazil olmuşdur. Bu xeyməni 70 000 mələk qoruyurdu, Cəbrayıl (ə) Beytullahı tikəndən sonra həmin mələklər, Adəm (ə) və Həvva (ə) da bu Beyti 7 şovt təvaf etdilər.[1]

Hüseyn (ə) də mənəvi nur olduğuna görə mələklərin təvaf yeri və şəfaətçisi idi, necə ki, Səlsail və Dərdail mələyin əhvalatında gəlir. Belə ki, Peyğəmbər (s) Hüseyni (ə) əlinə götürür və onların haqqında dua edir. Həmçinin Fetres adlı mələk balaca Hüseynin (ə) beşiyinə pənah gətirir, Cəbrayıl (ə) və Mikayıl (ə) onun beşiyinin xadimləri olmuşlar. Fetresin mükafatı bundan ibarətdir ki, o Həzrətin (ə) zəvvarlarının salamını və salavatlarını Həzrətin (ə) özünə çatdırır.[2]

O Cənabın (ə) qəbri mələklərin təvaf və ziyarət yeridir, onlar bu əməldə bir neçə sinifdirlər:

Biri: Həmişə o Həzrətin (ə) qəbrinin kənarında pərişan və toza bulaşmış halda ağlamaqla məşğul olan 4000 mələkdir. Bu mələklər o Həzrətin (ə) zəvvarlarını qarşılayırlar, onlara baş çəkirlər, cənazələrinin dəfnində iştirak edirlər. Bunlar həmin Aşura günü İmamın (ə) ziyarətinə gələn mələklərdir, lakin o Həzrətin (ə) xidmətinə yetişəndə artıq İmam (ə) şəhid olmuşdur. Buna görə, onlar orada qalmağa, ağlamağa və ricət vaxtı İmamın (ə) yavərlərindən olmağa məmur olundular, onların başçılarının adı Mənsurdur.[3]

---

[1] Bihar 11/208
[2] Bihar 43/248
[3] Bihar 45/220

Digəri: O Həzrətin (ə) qəbrinə müvəkkil olan 70 000 mələkdirlər, onlar İmam Hüseynini (ə) şəhadətindən Hz. Qaimin (ə.f) zühurunadək ona salavat göndərirlər.

Digəri: 4000 min mələkdən ibarət bir dəstədir ki, sübh azanı nazil olurlar və gün batanadək ağlayırlar, sonra səmaya qalxırlar və digər 4000 mələk nazil olur və sübh azanınadək ağlayırlar.

Digəri: Əməlləri hifz edən gecə və gündüz mələkləridirlər, onlar yer üzünə nazil olanda İmam Hüseynin (ə) qəbrinə tərəf gedərlər və oradakı mələklərlə əl ilə görüşərlər və öz qanadlarını zəvvarlara sürtərlər və Peyğəmbərin (s), Əlinin (ə), Fatimənin (ə), Həsənin (ə) və sair İmamların (ə) əmri ilə onların haqqında dua edərlər.[1]

Digəri: 50 000 mələkdirlər, İmam Sadiqdən (ə) nəql olunur ki: "Bu mələklər İmam Hüseynin (ə) şəhadəti vaxtı Kərbəladan ötüb, keçiblər və səmaya qalxanda Allah-taala tərəfindən onlara xitab olundu: "Mənim Həbibimin (s) övladını öldürəndə siz onun yanından ötüb, keçmisiniz və ona kömək etməmisiniz. Buna görə enin və qiyamət gününədək onun qəbri üzərində pərişan və toza bulaşmış halda sakin olun.

Digəri: Ümmü Əymən Peyğəmbərdən (s) rəvayət edir ki, buyurdu: "Hüseynin (ə) qəbrini hər asimandan gecə və gündüz 100 000 mələk əhatə edirlər, ona salavat göndərirlər, Allaha təsbih edirlər və zəvvarları üçün istiqfar edirlər. Habelə, Allaha və Onun Rəsuluna (s) yaxınlaşmaq niyyəti ilə o Həzrəti (ə) ziyarət edənlərin, onların atalarının, qəbilələrinin və şəhərlərinin adlarını qeyd edirlər və onların alınlarına Ərşin nurundan möhür vururlar ki, bu şəxs Şəhidlərin Seyyidinin (ə) və ən yaxşı Peyğəmbərin (s) övladının qəbrinin zəvvarıdır. Qiyamət günü bərpa olanda həmin möhürdən gözləri qamaşdıran nur saçar və zəvvarlar o nurla tanınarlar. Rəvayətdə gəlir ki: "Cəbrayıl (ə) Peyğəmbərə ərz etdi: "Ya Muhəmməd (s) sanki, görürəm sən mənimlə Mikayılın (ə) arasında dayanıbsan, Əli (ə) də bizim qarşımızdadır və bizimlə bərabər sa-

[1] Bihar 45/22, 220-224

yı-hesabı olmayan mələklər dayanıblar və biz hamımız məxluqatın arasından alınlarında həmin möhür olan şəxsləri götürüb, çıxardırıq ki, qiyamət gününün şiddətlərindən nicat tapsınlar."[1]

Digəri: "Kamiluz-ziyarat" kitabında İmam Sadiqdən (ə) nəql olunur ki, hər namaz vaxtı 70 000 mələk nazil olurlar, sonra da səmaya qalxırlar və qiyamətədək bir daha onlara növbə çatmır.

15-ci: Kəbə səmadan nazil olmuşdur, İmam Sadiqdən (ə) nəql olunur ki, Allah-taala Kəbəni səmadan nazil etmişdir, onun 4 qapısı və hər qapıda qızıldan bir çıraq var idi.[2]

Hüseyn (ə) Kəbədən şərəflidir

Müəllif deyir: Əgər Kəbənin şərəfi səmadan nazil olmasına görədirsə onda Hüseyn (ə) ondan daha şərəflidir, çünki Hüseyn (ə) səmaların yaranmasından əvvəl xəlq olunmuşdur, hətta Lövh və kürsü o Həzrətin (ə) nurundan yaranmışlar.[3]

Hüseynin (ə) şəhadətindən sonra onun qanlı cəsədini səmalara apardılar və 5-ci səmada İbn Mülcəm məlunun zərbəsinin əsəri başında olan Əlinin (ə) surətilə birlikdə saxladılar. Səmaların mələkləri orada cəm olub onlara baxırdılar.

Bir rəvayətdə gəlir ki, Hüseyn (ə) Ərşin sağ tərəfində dayanıb özünün şəhadət və dəfn məhəllinə, zəvvarlarına və müsibətinə ağlayanlara baxır.

16-ci: Kəbə islam və cahiliyyət dövrlərində əzəmətli və möhtərəm olmuşdur, əslində Adəmin (ə) zamanından həmişəlik olaraq məxluqat, hətta küfr və şirk əhli də daim ona ehtiram göstərmiş və ziyarətinə gəlmişlər. Hüseyn (ə) də həmişə, hətta düşmənlərinin yanında əzəmətli və möhtərəm olmuşdur. Rəvayətdə gəldiyi kimi Həsənin (ə) Hüseynin (ə) məhəbbəti tamam qəlblərdə, hətta münafiqlərin və kafirlərin qəlblərində də vardır.[4]

[1] Bihar 45/182, 226
[2] Bihar 98/40
[3] Bihar 36 /73
[4] Bihar 43/281

Bu məna o Həzrətin (ə) uşaq vaxtı Əbubəkrlə etdiyi söhbətdən, sonralar Müaviyə və Əmr Asla söhbətlərindən və onların ona qarşı ehtiramından, həmçinin Müaviyənin o Həzrətə (ə) qarşı ehtiram göstərmək barədə Yezidə vəsiyyətindən, Ütbənin Yezidə beyət etmək barədə o Həzrətlə (ə) danışığından zahir olur.[1] Habelə o Həzrət (ə) Məkkə səfərində piyadə yol gedərkən Səd ibn Vəqqas tamam hacılarla bərabər o Həzrətə (ə) xatir piyadə yol getmişdilər və bu ehtirama riayət Aşura gününədək davam etmişdir. Belə ki, Ömər Səd məlun həmin günü o Həzrətin (ə) ehtiramını sındırmışdır, İmam Hüseyn (ə) atından yerə yıxılanda o məlun ata süvar oldu və əmr etdi ki, on nəfər atlara süvar olub o Cənabın (ə) şərif bədənini tapdasınlar.[2]

17-ci: Səma və yer durduqca Kəbə də duracaqdır, bu dinin təməllərindəndir. Hüseynin (ə) qəbri də belədir, necə ki, Ümmü Əymənin rəvayətindən məlum olur.

Kəbədə və Kərbəlada müsafirin namazı tamdır

18-ci: Müsafir üçün Kəbəni əhatə edən Məscidul-haramda namazını tam şəkildə qılması caizdir, bu hökm Hüseynin (ə) hərəminə də şamildir.[3] Hərəmin hüdudları barədə rəy ixtilafı vardır, İbni İdrisin rəyinə əsasən hərəmin hüdudu şəhadət yerinin və məscidin əhatə etdiyi məkandır.

Bu rəyi Şeyx Mufid də "İrşad" kitabında təsdiq etmişdir. Şəhid (fiqh alimidir) demişdir ki, hərəmin hüdudu Mütəvəkkilin vaxtında həmin suyun dayandığı və qabağa getmədiyi yerdir.[4]

Beləliklə, hərəmə daxil olan zaman dayan və duanı zikr et (dua ziyarət kitablarında nəql edilibdir), sonra bir qədər qabağa get və dayan 7 dəfə təkbir de, sonra qəbrin müqabilində dayan və

[1] Bihar 44/206-209; 312-326
[2] Bihar 45/59; Luhuf s.59
[3] Bihar 98/84; Kamiluz-ziyarat 82/130
[4] Zikra 255-256

yenə 7 dəfə təkbir de, sonra yenə bir qədər qabağa get və 7 dəfə təkbir de və əllərini yuxarı qaldırıb qoy qəbrin üzərinə. Buradan aydın olur ki, hərəmin geniş vüsəti vardır.

19-cu: Kəbə, mütəvatir hədislərdə gəldiyi kimi Adəmdən (ə) başlayaraq Xatəmul-ənbiyayadək (s) tamam peyğəmbərlərin (ə) təvaf məhəllidir. Bu məna Hüseyn (ə) barədə də sabitdir, həm onun şərif cəsədinə nisbət, həm mübarək başına, həm də pak qəbrinə nisbət. Rəvayətdə gəlir ki: "Hər kəs nimeye-şəbanda o Həzrəti (ə) ziyarət etsə, sanki 124 000 Peyğəmbərlə (ə) əl ilə görüşmüşdür.[1]

Peyğəmbərlərin (ə) hamısı Kərbəla torpağını ziyarət ediblər

Kəbul Əhbardan rəvayət olunur ki: "Peyğəmbərlərin (ə) hamısı Kərbəla torpağını ziyarət etmişlər və demişlər: "Sənin bətnində İmamət bürcünün ayı dəfn olunacaqdır." Bu mətləbin təfsilatı öz məhəllində nəql edilibdir.[2]

20-ci: Allah-taala Kəbəyə "Həcərul-əsvədlə" zinət vermişdir, bu daş behiştdən nazil olan yaqutdur və süddən daha ağ idi, kafirlərin və fasiqlərin əl sürtməklərindən qaralmışdır. Hüseyn (ə) də behiştin və Ərşin zinətidir. Peyğəmbərdən (s) belə nəql olunur: "Cənnət Allah-taaladan xahiş etdi ki, ona zinət versin. Vəhy gəldi: "Sənin sütunlarına Həsən (ə) və Hüseynlə (ə) zinət verdim." Cənnət sevincindən, təzə gəlin kimi öz-özünə nazlandı."[3]

Başqa bir rəvayətdə gəlir ki, Qiyamət günü bərpa olanda Allahın Ərşini tamam zinətlərlə bəzəyərlər. Sonra hər birinin hündürlüyü 100 mil olan iki minbər gətirib Ərşin sağında və solunda qoyarlar. Həsənlə (ə) Hüseyn (ə) bu minbərlərə qalxarlar. Allah-taala onlarla Öz Ərşinə zinət verər, qadınların qulaqlarına sırğalar zinət verən kimi.[4]

[1] Bihar 98/93
[2] Bihar 86/89
[3] Bihar 44/275
[4] Bihar 43/261

Həcərul-əsvədin fəzilətlərindən biri də budur ki, məxluqatın əhd-peymanı ona həvalə edilmişdir, çünki Allah-taala məxluqatdan əhd-peyman alanda Həcərul-əsvəd həmin əhdə iqrar edən birinci mələk idi və Muhəmməd (s) və Ali-Muhəmmədə (ə) hamıdan çox məhəbbət bəsləyirdi. Buna görə, Allah-taala onu bir cövhər edib Adəmə (ə) göndərdi. Bu daş Adəmin (ə) munisi idi, Adəm (ə) Məkkəyə gələndə o daşı öz boynunda gətirmişdir. Məlumdur ki, Həcərul-əsvədə şərafət verən həmin əhd-peyman Allaha, Onun Peyğəmbərinə (s), Əliyə (ə), Fatiməyə (ə), Həsən (ə) və Hüseynə (ə) iqrar idi, buna əsasən şərafət Hüseynə (ə) xatirdir.

21-ci: Kəbəni təvaf edəndən sonra Allah evinə ehtiram əlaməti olaraq məqami İbrahimdə (ə) namaz qılmaq lazımdır. Hüseyn (ə) də dünyaya gələndə Allahın Həbibi (s) iki rikət şükr namazı qıldı və bu da məğrib namazının nafiləsi təyin olundu. Həmçinin, İmam Həsən (ə) də dünyaya gələndə belə etmişdir və bu sünnət qiyamət gününədək icra olundu.[1] Beləliklə, məğrib nafiləsini qılan şəxs onların vücudlarına şükrünü və ehtiramını bildirir.

Başqa bir rəvaəyətdə İmam Baqirdən (ə) nəql edilir ki, Merac gecəsində gündəlik namazlar cəmi 10 rikət qərar verilmişdir, belə ki, hər namaz 2 rikət idi. Həsən (ə) və Hüseyn (ə) dünyaya gələndə Peyğəmbər (s) şükr əlaməti olaraq 7 rikət artırdı və Allah-taala bunu təsdiq etdi, beləliklə namazlar 17 rikət oldu.[2]

22-ci: Kəbə, Qabil Habili öldürənə qədər günəş və ay kimi nur saçırdı, bu əhvalatdan sonra Kəbə indiki halətini aldı, necə ki, İmam Sadiqdən (ə) nəql edilir.[3]

Başqa bir rəvayətdə gəlir ki, Kəbənin yerində qırmızı yaqut var idi və onun nuru hərəmin hüdudlarınadək işıq saçırdı.[4]

---

[1] Bihar 96/224; İləluş-şəraye s.429-432
[2] Bihar 44/285; Kafi 3/487
[3] Bihar 11/217; Kafi 4/189
[4] Bihar 96/64

Hüseynin (ə) nuru Kəbənin nurundan çoxdur

Müəllif deyir: "Hərçənd Kəbə əvvəllər nurani olsa da, halhazırda nuru aradan getmişdir. Amma Hüseyn (ə) nurani idi, onun üzü və alnı nur saçırdı və şəhadət vaxtınadək həmin halda qalmışdır. Hilal ibn Nafe nəql edir ki, Ömər ibn Sədin ləşkərində idim, birdən bir nəfər qışqırdı: "Müjdə olsun sənə ey əmir, Şümr Hüseyni (ə) öldürdü." Biz cərgələrin arası ilə qabağa getdik və gördüm ki, o Həzrət (ə) can üstədir. Allaha and olsun heç vaxt qanına bulaşmış halda can verən və eyni zamanda belə nurani olan sima görməmişdim. Hüseynin (ə) üzünün nuru məni onu öldürməkdən məşğul etdi və eyni halda o Həzrət (ə) su istəyirdi.[1]

Əgər Kəbənin nuru yaqutun nurunun əsərindən hərəmin hüdudlarında işıq saçırdısa, həqiqətdə tamam Kərbala səhrası Mübarək şəcərəyə nazil olan İlahi təcəllinin nurundan işıq saçırdı. Çünki, Kərbəla həmin Musanın (ə) gördüyü İlahi nurun təcəlli etdiyi Əymən vadisidir. Bu nur səmanın üfüqlərinə və aləmin bürclərinə qədər işıq saçırdı. Həmçinin, o Həzrətin (ə) bədəni onun şəhadətindən sonra da günəş kimi işıq saçırdı.[2]

23-cü: Məkkə "Ümmül-quradır" (yəni, şəhərlərin, kəndlərin anası), Hüseyn (ə) də "Əbul-əimmətin-nücəba"dır (yəni, nəcib İmamların (ə) atası) Allah-taala bu fəziləti şəhadətin əvəzində o Həzrətə (ə) kəramət buyurmuşdur.[3]

24-cü: Kəbə evlərin Seyididir, Hüseyn (ə) də cənnət cavanlarının və tamam behişt əhlinin Seyididir. Bu xəbər şiə və sünni xəbərlərində mütəvatirdir, hətta bu hədisi Ömər Peyğəmbərdən (s) nəql etmişdir.[4]

25-ci: Məkkə hərçənd əkinsiz yer olsa da İbrahimin (ə) duasının bərəkətinə ətrafdan oraya hər şey gətirirlər. Hüseyn (ə) üçün də behişt nemətləri nazil olur, necə ki, çoxsaylı rəvayətlərdə gəlir.

---

[1] Bihar 45/57
[2] Bihar 45/194
[3] Bihar 44/221
[4] Bihar 43/291

O cümlədən, "Biharul-ənvar" kitabında cənab Salmandan nəql olunur ki: "Həzrət Peyğəmbərin (s) xidmətinə müşərrəf oldum, salam verdim və həzrəti Fatimənin (ə) xidmətinə yetişəndə, Xanım (ə) buyurdu: "Ey Salman, Həsənlə (ə) Hüseyn (ə) acından ağlayırlar, onları Babalarının (s) yanına apar." Salman deyir: "Mən Həsənlə (ə) Hüseynin (ə) əlindən tutub, Peyğəmbərin (s) yanına apardım. O Həzrət (ə) buyurdu: "Nə olub sizə ey mənim Həsəneynim (ə)?" Ərz etdilər: "Acıq, təam yemək istəyirik." Peyğəmbər (s) üç dəfə bu duanı təkrar etdi: "Allahım onlara yemək ver." Bir də gördüm ki, Peyğəmbərin (s) əlinə qardan daha ağ rəngdə, küzə boyda bir heyva gəldi. Peyğəmbər (s) heyvanı baş barmağı ilə iki yerə böldü, yarısını Həsənə (ə) və yarısını da Hüseynə (ə) verdi. Mən də o heyvadan yeməyə meyl etdim, Həzrət (s) buyurdu: "Ey Salman, elə bil sən də bu heyvadan dadmaq istəyirsən?" Dedim: "Bəli." Buyurdu: "Bu cənnət yeməyidir və heç kəs Qiyamətin hesabından qurtarmayınca bundan yeyə bilməz."[1]

O cümlədən, başqa bir rəvayətdə gəlir ki, İmam Hüseynin (ə) ürəyi xurma istədi və bu zaman billur qabda behişt xurması hazır oldu, onun üzərində yaşıl sündüsdən parça var idi. Bu hədis çox müfəssəldir və Bihar kitabında nəql olunmuşdur.[2]

Alma, heyva, nar və... hədisi

Həmçinin "Biharul-ənvar" kitabında Həsən Bəsridən və Ümmü Sələmədən nəql olunur ki, Həsəneyn (ə) Allahın Rəsulunun (s) yanına varid oldular və Cəbrayıl (ə) da o Həzrətin (s) xidmətində idi. Cəbrayıl (ə) əli ilə hərəkət etdi sanki, kimdənsə nəsə götürdü və əlində alma, nar və heyva gətirib Həsəneynə (ə) verdi. Həsəneyn (ə) sevincək halda Babalarının (s) yanına gəldilər. Peyğəmbər (s) bu meyvələri götürüb, iylədi və buyurdu: "Gedin ata və ananızın yanına." Həsəneyn (ə) qaçdılar və heç biri o meyvələrdən yeməmişdilər. Sonra Peyğəmbər (s) onların yanına gəldi

[1] Bihar 43/308
[2] Bihar 43/310

və hamısı birlikdə o meyvələrdən yedilər. Hər nə qədər yeyirdilərsə meyvələr öz halətinə qayıdırdı və Hz. Fatimə (ə) vəfat edənədək beləcə davam edirdi. Xanım (ə) vəfat edəndən sonra Hüseyn (ə) buyurdu: "Nar itdi." Əmir-əl-möminin (ə) şəhid olanda heyva itdi, ancaq alma öz halətində qalmışdır. İmam Hüseyn (ə) buyururdu: "Kərbəlada suyu bizim üzümüzə bağlayanda, təşnəlik mənə qalib gələndə bu almanı iyləyirdim və təşnəliyim bir qədər yatırdı. Axırda, təşnəlik nəhayət dərəcədə mənə qalib gələndə dişlərimi ona batırdım və ölümüm gözümün önünə gəldi." İmam Səccad (ə) buyurur: "Bu sözləri atamdan, onun şəhadətindən bir saat qabaq eşitmişdim." Şəhadətdən sonra almanın ətri şəhadət məhəllindən gəlirdi. Lakin almanın özünü tapmadılar. Bu ətir indiyədək orada qalmaqdadır, zəvvarlardan hər kəs bu ətri iyləmək istəsə səhər vaxtı ziyarətə getsin, əgər xalislərdən olarsa, onun ətrini duyacaqdır."[1]

26-cı: Kəbənin ehtiramlarından biri də budur ki, Hz. İsmayıl (ə) ona zinət vermək və parça geyindirmək vəzifəsinə müvəkkil olunmuşdur. Ərəb tayfaları Kəbə üçün hədiyyələr və töhfələr gətirirdilər, İsmayılın (ə) anası və zövcəsi böyük parça hazırlayıb Kəbənin üzərinə sərirdilər.[2] Sonra Hz. Süleyman (ə) və sair padşahlar Kəbə üçün parça göndərmişdilər. Allah-taala Hüseyn (ə) üçün də libas göndərmişdir və Peyğəmbər (s) bu libası Hüseynə (ə) geyindirdi. Ümmü Sələmə nəql edir: "Bir dəfə gördüm Peyğəmbər (s) Hüseynə (ə) bir köynək geyindirir ki, dünya libaslarından deyil. Soruşdum: "Ey Allahın Rəsulu (s) bu nədir?" Buyurdu: "Bu, Allah-taalanın Hüseynə (ə) göndərdiyi hədiyyədir və ipi Cəbrayılın (ə) qanadının nazik lələklərindəndir."[3]

Bir dəfə o Həzrətin (ə) özü bayram münasibətilə anasından libas istədi və Rizvan (mələk) Həsən (ə) və Hüseyn (ə) üçün libas hədiyyə gətirdi.[4]

[1] Bihar 43/289
[2] Bihar 12/95; Kafi 4/204
[3] Bihar 43/271
[4] Bihar 43/289

Bir dəfə də bayrama xatir Cəddindən (s) təzə paltar istədi, Allah-taala paltar hədiyyə göndərdi və Cəbrayıl (ə) o Həzrətin (s) xahişi ilə bu paltarı qırmızı rəngə boyadı və ağladı.[1]

Bir dəfə də bacısı Zeynəbdən (ə) köhnə paltarı istədi, ancaq bayram və zinət üçün deyil, başqa məqsəd üçün istədi. Belə ki, onu şəhid edəndən sonra təzə libaslarını çıxaracaqlar və altda olan bu köhnə paltara tamah salıb aparmasınlar. Bacısı Zeynəb (ə) köhnə libası gətirdi və Həzrət (ə) onu bir neçə yerdən cırdı. İmamın (ə) qanı o libası qırmızı rəngə boyadı, necə ki, Cəbrayıl (ə) bayramda onun paltarını qırmızı rəngə boyamışdır. Kərbəla torpağı o libası toz-torpağa batırdı və nizələr, qılınclar və oxlar onu parə-parə etmişlər. Buna baxmayaraq, İshaq ibn Haviyyə bu köhnə paltarı çıxardı və şərif bədəni qumlar üstündə üryan qaldı.[2]

Müəllif deyir: "Bu köynək Hz.İbrahimin (ə) köynəyi idi və onu Xanım Fatimə (ə) öz şəhadətindən üç gün qabaq qızı Zeynəbi-kubraya (ə) verdi və buyurdu: "Qardaşın Hüseyn (ə) bu köynəyi səndən istəyəndə bil ki, o yalnız bir saat sənin qonağın olacaqdır, sonra onu zinazadələr ən dəhşətli tərzdə qətlə yetirəcəklər."[3]

Kəbədə Əshabi fil və Kərbəlada Yezid dastanı

27-ci: "Əshabi fil" Kəbəni dağıtmaq qərarına gələndə Əbabil quşları cəhənnəmin xırda daşlarını onların başlarına tökdülər və daşlar onların arxalarından çölə çıxırdı. Həmçinin "Əshabi kəlb və xinzir", yəni bəni üməyyə Hüseyni (ə) qətlə yetirməklə Peyğəmbər (s) ailəsini dağıtmaq istəyəndə Allah-taala, hərçənd bəzi hikmətlərə xatir onlara qısa zamanda möhlət versə də, sonra onların üzərinə bir camaat göndərdi ki, bir-bir onları tutub müxtəlif növ əzablara məruz qoydular. Əllərini-ayaqlarını kəsib atəşdə yandırdılar, öldürdülər cəsədlərini yandırdılar və atəşi yağ tökməklə cuşa gətirdilər, məsələn

[1] Bihar 44/245
[2] Bihar 45/57
[3] Musnədi Fatimətuz-Zəhra (ə) s.324

İbn Ziyad məlunu.[1] Bəziləri özlərinə od vurub yandırırdılar Əxnəs ibn Zeyd kimi, Hacib ibn Ziyad nəql edir ki: "O məlunun üzü gah öz-özünə atəşdən şölələnirdi, o da atəşi söndürürdü."

Yezid məlun gecə məst halda yatdı, səhər gördülər ki, ölüb və üzünün rəngi də qaradır.[2] O Həzrətdən (ə) qarət olunan tamam əşyalar hamısı od tutub yandılar, o cümlədən qarət olunan ətriyyatlar, zəfəran və sair, necə ki, öz məhəllində zikr olunubdur.[3]

Kəbəyə baxmaq bağışlanmağa səbəb olar və Hüseynə (ə) baxmaq ən əzəmətli ibadətlərdəndir

28-ci : Kəbəyə baxmaq hidayət İmamlarının (ə) haqqına arif olanlar üçün bağışlanmaq vasitəsidir. Dünya və axirət qəm-qüssəsini aradan aparar.[4] İmam Hüseynə (ə) nəzər yetirmək də ən əzəmətli ibadətlərdən sayılır və Peyğəmbər (s) həmişə ona baxardı. Bəzən o Həzrət (ə) ac olanda buyururdu: "Gedim Həsənlə (ə) Hüseynə (ə) baxım ki, aclığım aradan getsin."[5]

Həzrət Əmir-əl-möminin (ə) də Hüseynə (ə) baxırdı, lakin ona təklikdə nəzər yetirirdi və bu da onun hüznünə və ağlamağına səbəb olurdu.[6]

Habelə, o Həzrətin (ə) qəbrinə baxmaq ibadətdir və bu baxışın təsiri zəvvarın qəlbini riqqətə və hüznə gətirir, məxsusən ayağının altında dəfn olunan oğlu Əlinin qəbrinə nəzər yetirəndə əlbəttə qəm-qüssəyə qərq olur.

29-cu: Həcc ziyarəti barədə rəvayətdə gəlir ki, bu yolda xərclənən hər dirhəm 1000 dirhəm hesab olunur. İbn Sənan İmam Sadiqdən (ə) soruşur ki: "Həcc yolunda xərclənən hər dirhəm 1000 dirhəmə bərabərdir, bəs babanız Hüseynin (ə) ziyarəti yolunda xərclənən bir dirhəmin dəyəri nə qədərdir?" Buyurdu:

---

[1] Bihar 45/374-386: Tarixi Təbəri 6/321
[2] Bihar 45/309,321
[3] Bihar 45/322
[4] Bihar 96/92
[5] Bihar 43/309; Məqtəli Xarezmi 1/129
[6] Bihar 44/280; Kamiluz-ziyarat 36/108

"Hər dirhəm 1000 və 1000 (yəni, 1000 000) dirhəmə bərabərdir və həmin ədəd qədər zəvvarın Allahın yanında dərəcəsi artır və Allahın rizası onun üçün daha yaxşıdır."[1]

30-cu: Allah-taala Kəbəni yaratdı və "Dəhvul-ərzdən" (yer kürəsinin yaranmasından) əvvəl onu Öz hərəmi qərar verdi. Ancaq İmam Səccaddan (ə) nəql olunur ki: "Allah-taala Kəbəni yaratmamış Kərbəlanı 24 000 il əmniyyətli və mübarək hərəm qərar verdi. Qiyamət gününün zəlzələsi baş verəndə bu nurani torpaq götürülər və cənnətin ən ali məqamına qoyular və orada yalnız Peyğəmbərlər (ə) sakin olarlar. Bu torpaq behişt bağlarının arasında nur saçar, necə ki, işıqlı ulduz sair ulduzlar arasında parlayır, onun işığı gözləri qamaşdırar və o torpaq nida edər: "Seyyidi şühədanı və cənnət cavanlarının ağasını ağuşuna alan o müqəddəs və pak torpaq mənəm."[2]

Kəbə və Kərbəla hər ikisi danışdılar

31-ci: Məkkə dilə gəlib danışdı və Allahın kəramətləri ilə iftixar edərək dedi: "Kim mənə tay ola bilər bir halda ki, Allahın evi mənim üzərimdə bina olubdu və insanlar hər tərəfdən mənə tərəf gəlirlər." Lakin Kərbəlanın ondan üstün cəhəti vardır, rəvayətdə gəlir ki: "Məkkə iftixar edəndə vəhy nazil oldu ki: "Sakit ol və özündən çox demə, Kərbəlanın fəzilətinin yanında bu evin heç bir fəziləti yoxdur ki, sənə də fəzilət gətirsin. Sanki bir iynəni dənizə su götürmək üçün batırsalar nə qədər su götürə bilər? Sənin də fəzilətin Kərbəlanın fəziləti müqabilində belədir. Əgər Kərbəla torpağı olmasaydı sənə də fəzilət verməzdim. Əgər orada dəfn olunan şəxs olmasaydı səni və Kəbə evini yaratmazdım, buna görə öz həddini bil və Kərbəlanın müqabilində təkəbbür etmə, təvazö və xuşu göstər."[3]

Kərbəla da nitqə gəlib, iftixarla danışdı və Allah-taala onu rədd etmədi. Kərbəla bir mufaxirəni cənnətdə də söyləyəcəkdir. Amma

[1] Bihar 98/50,73
[2] Bihar 98/108
[3] Binar 98/106-107; Kamiluz-ziyarat 88/267

bu aləmdəki mufaxirəsi belə olmuşdur; Ona xitab yetişəndə ki, öz fəzilətlərindən danış, o dedi: "Mənəm Allahın mübarək və pak torpağı, mənim torpağımda və suyumda şəfa vardır, ancaq mən fəxr etmirəm, əksinə məni belə yaratdığına görə, Allah müqabilində öz zəlilliyimi, təvazökarlığımı bildirirəm. Mən başqa torpaqlar müqabilində fəxr etmirəm, əslində bu kəlamımla Allaha öz şükrümü edirəm." Bələliklə, Allah-taala onun təvazökarlığının və şükrünün müqabilində Hüseyn (ə) və onun səhabələri ilə hörmətli etdi. İmam Sadiq (ə) buyurdu: "Hər kəs Allaha xatir təvazorkar olsa Allah-taala onu ucaldar, hər kəs özünü böyük tutmaq istəsə Allah-taala onu alçaldar."[1]

Amma cənnnətdə olan mufaxirəsi belədir ki, onu cənnətin ən yaxşı bağlarında və ən ali dərəcəsində yerləşdirəndən sonra nida edər: "Seyyidi şühədanı (ə) və cənnət cavanlarının Ağasını öz ağuşuna alan o mübarək və pak torpaq mənəm."

32-ci: Kəbə evi Beytul-ətiqdir, yəni tufandan salamat qalmışdır, ya qədim vaxtlardan bəri onu təvaf ediblər. Hüseyn (ə) də Beytul-ətiqdir, onun ərazisi tufandan və su fəlakətindən salamat qurtarmışdır, ehtiramı səmaların və yerin yaranmasından əvvəl gözlənilir, atəşdən azaddır və özü azadlıq səbəbidir.

33-cü: Kəbədə bəndələrin günahlarının silinməsinə səbəb olan "Hətim" (Kəbənin ətrafında olan divarın bir hissəsi) var, Hüseynin (ə) vasitəsilə isə tamam keçmiş və gələcək günahlar bağışlanar və insan təzə dünyaya gələn körpə kimi pak olar.[2]

34-cü: Kəbədə insanların əzabdan pənah gətirdikləri "Müstəcar" (kömək istənilən yer) var, Hüseyn (ə) də elə dünyaya gəldiyi gündən qiyamət gününədək mələklər və tamam məxluqat üçün Müstəcardır.

35-ci: Qurbanlıq İsmayılın (ə) hücrəsi Kəbəyə bitişikdir və İsmayılın (ə), onun qızlarının və rükn ilə məqam arasında, hamısı acından ölən 70 peyğəmbərin (ə) qəbri də oradadır, necə ki, rəvayətlərdə

[1] Bihar 98/108
[2] Bihar 98/20, 21

gəlir.[1] Əli ibn Hüseynin (ə) qəbri də Hüseynin (ə) qəbrinə bitişikdir və onun ayağının altında hamısı təşnə şəhid olan 72 siddiqin qəbri var. Müqəddəs torpaq onları əhatə edir və orada 200 nəbi və 200 vəsi dəfn olunublar, necə ki, səhih rəvayətlərdə nəql olunur.[2]

Kəbənin və Kərbəlanın ətrafında bir neçə əzəmətli, möhtərəm məqam vardır

36-cı: Kəbənin ətrafında bir neçə möhtərəm və əzəmətli məqam vardır, o cümlədən Mina, Məhşər, Ərəfat, Səfa və Mərvə. Hüseynin (ə) qəbrinin ətrafında da bir neçə əzəmətli məqam vardır, o cümlədən Hüseynin (ə) qətlgahı, şəhidlərin və Əliəkbərin şəhadət məhəlli. Minanın şərafəti orada İbrahimin (ə) İsmayılı (ə) qurban kəsmək istədiyi yer olduğuna görədir, lakin Hüseynin (ə), Əliəkbərin, Abdullahın, Abbasın və Qasimin şəhadət məhəlli ondan daha şərəflidir. Minanın şərafəti oranın İsmayılın (ə) qurbangah məhəlli olduğuna görədirsə, Kərbəla İlahi qurbanların başlarının kəsilən məhəllidir, Peyğəmbər (s) onların haqqında buyurmuşdur: "Mənim ümmətimin şəhidlərinin Seyyidləri Minadan şərəfli olacaqlar. Məşərul-həramın şərafəti hz.İbrahimin (ə) orada oğlu İsmayılı (ə) qurban kəsmək məmuriyyətini yuxuda görməsidir, ancaq hz.Hüseynin (ə) oyaqlıqda öz oğlunun qurban kəsilməsini gördüyü məkan daha şərəflidir.

37-ci: Allah-taala İbrahimi (ə) Beytullahın müəzzini və ona tərəf dəvətçi qərar verdi və o Həzrət (ə) öz məqamında dayanıb, nida etdi: "Ey insanlar Həccə gəlin!" Allahın Həbibi (s) İlahi əmr ilə Hüseynə (ə) tərəf dəvət edərək buyurdu: ***"De, sizdən bunun (risalətin) müqabilində qohumlarım barədə məhəbbətdən başqa bir muzd istəmirəm."*** (Şura /23)

Beləliklə, Peyğəmbər (s) minbərə qalxıb, dəfələrlə buyurmuşdu: "Ey insanlar, mən sizin aranızda iki ağır və qiymətli əmanət qoyuram biri Allahın kitabı və digəri Əhli-beytim (ə)." Həmçinin,

[1] Kafi 4/214, 10-cu hədis
[2] Bihar 98/116

bir neçə dəfə Hüseynə (ə) məhəbbət bəsləməyə və kömək etməyə dəvət etmişdir. Hüzeyfə ibn Yəmən rəvayət edir: "Gördüm ki, Peyğəmbər (s) Hüseynin (ə) əlini tutub, buyurdu: "Ey insanlar, bu Hüseyn ibn Əldir (ə) onu tanıyın, Allaha and olsun o cənnətdədir, onun dostları da cənnətdədirlər və dostlarının dostları da cənnətdədirlər."[1]

O Həzrətin (ə) özü də dəfələrlə Mədinədə, Məkkədə, bu ikisinin arasında və Kərbəlada xalqı ona kömək etməyə dəvət etmişdir. Onun dəvətini yalnız İlahi feyzi dərk edənlər qəbul etdilər və köməyinə yetişdilər, məsələn onun ləşkərində şəhadətə çatmaq arzusunu edən şiələr, zəvvarlar və müsibətinə ağlayanlar kimi.

38-ci: Kəbənin əzəmət və ehtiramlarından biri də ona tərəf qoyun və dəvə kimi qurbanları göndərməkdir. Hüseynin (ə) təzimi ondan daha əzəmətlidir, çünki, Allah-taala ahuya əmr etdi ki, Hüseynin (ə) gözündən yaş axmamış öz balasını ona çatdırsın. Rəvayətdə gəlir ki: "Günlərin birində bir bədəvi ərəb Peyğəmbər (s) üçün ahu balasını hədiyyə gətirib, ərz etdi: "Bu ahu balasını övladım və sənin balaların Həsən (ə) və Hüseyn (ə) üçün hədiyyə gətirmişəm." Həzrət (s) qəbul etdi və onun haqqında xeyir-dua buyurdu. İmam Həsən (ə) orada hazır olduğuna görə Peyğəmbər (s) ahu balasını ona verdi. Bir saatdan sonra Hüseyn (ə) gəldi və gördü ki, Həsən (ə) ahu balası ilə oynanır, odu ki, Peyğəmbərə (s) ərz etdi: "Baba, Həsənə (ə) ahu balasını hədiyyə verdin, mənə vermədin." Hüseyn (ə) bu sözləri bir neçə dəfə təkrar etdi. Peyğəmbər (s) onun könlünü aldı, təsəlli verdi, nəticədə Hüseyn (ə) az qalırdı ağlasın. Birdən məscidin qapısından səs-küy gəldi, gördülər bir ahu öz balası ilə birlikdə məscidə daxil oldular və arxadan onları Peyğəmbərə (s) tərəf qovan bir canavar gəldi. Peyğəmbərin (s) xidmətinə yetişəndə ahu dilə gəlib dedi: "Ey Allahın Rəsulu (s), iki balam var idi, birini ovçu övladı və sənin xidmətinə gətirdi. Biri də mənim üçün qalmışdı və onunla könlüm şad idi indi də ona süd verirdim ki, birdən bir şəxsin səsini eşitdim: "Ey ahu, tez öz balanı Peyğəmbərin (ə)

[1] Bihar 43/262; Əmaliye Səduq 87/478

xidmətinə çatdır ki, Hüseyn (ə) o Həzrətin (s) yanında dayanıb və az qalır ağlasın. Tamam mələklər başlarını ibadət məqamlarından qaldırıblar və əgər Hüseyn (ə) ağlasa müqərrəb mələkər ağlayacaqlar." Bir səda da eşitdim ki, deyirdi: "Ey ahu Hüseynin (ə) üzünə göz yaşı axmamış, tez öz balanı Hüseynə (ə) çatdır, yoxsa bu canavarı sənə müsəllət edərəm, səni balanla birlikdə yeyər." Bəs indi bu balamı sənin xidmətinə gətirdim və Allaha həmd edirəm ki, Hüseynin (ə) gözündən yaş axmamış balamı ona çatdırdım." Bu vaxt səhabələrin təkbir və təhlil sədaları ucaldı və Peyğəmbər (s) ahu üçün xeyir-bərəkət duası etdi. Hüseyn (ə) ahu balasını götürüb, anasının yanına getdi və hamı şad oldu."[1]

39-cu: Allah-taala həcc mərasimi üçün ən yaxşı haram aylarını məxsus etmiş və bundan əlavə ilin digər günlərini ümrə ziyarəti üçün təyin etmişdir. Həmin vaxtları İmam Hüseynin (ə) ziyarəti üçün də müəyyən etmişdir, hətta Ərəfat əhlinə nəzər yetirməkdən əvvəl Kərbəlada o Həzrətin (ə) zəvvarlarına baxar. Həmçinin o Cənabı (ə) ziyarət etmək üçün məxsus etdiyi şərafətli vaxtlardan əlavə, ilin digər günlərini ziyarət üçün qərar vermişdir.[2]

Kəbədə və Kərbəlada hər namaz min namazdan üstündür

40-cı: Rəvayətə əsasən Məscidul-haramda qılınan hər namaz 100 000 namaza bərabərdir, Mədinə məscidində qılınan namaz isə 1000 namazdan üstündür. Şüeyb Əqrqufi İmam Sadiqdən (ə) rəvayət edir ki, buyurdu: "Ey Şüeyb, bil ki, Hüseynin (ə) hərəmində qılınan hər namaz qəbuldur və əgər o Cənabın (ə) yanında namaz qılsan hər rikətinə 1000 həcc, 1000 ümrə, 1000 qul azad etmək və Peyğəmbərlə (s) birlikdə Ərəfatda 1000 dəfə vuquf etmək savabı verilər.[3]

---

[1] Bihar 43/312
[2] Bihar 98/85
[3] Bihar 98/82

41-ci: Kəbəni ziyarət edən kəsə Allah-taala ehram bağlamağı, dünya malını və əlaqəsini tərk etməyi, qadınlardan, ətriyyatdan, zinətdən, sürmədən, kölgədən və libasdan uzaq durmağı vacib etmişdir. Hüseynin (ə) zəvvarı üçün də müstəhəbbidir ki, toz-torpağa bulaşmış, ac, təşnə halda olsun, ətriyyatdan və ləzzətlərdən çəkinsin.[1]

42-ci: Məkkə Allahın Rəsulunun (s) və Əlinin (ə) təvəllüd yeridir və Hüseynin (ə) qəbri ilin əksər vaxtlarında Allahın Rəsulunun (s) və Əmirəl-möminininin (ə) ziyarət məhəllidir.

43-cü: Məkkə islamın zuhurunun və müsəlmaların müşriklərdən ayrılmasının başlanğıcıdır. Hüseyn (ə) də imanın zuhurunun və şiələrin müxaliflərdən ayrılmasının başlanğıcıdır, buna görə o Həzrətə (ə) "Qübbətul-islam" deyirlər.[2]

44-cü: Rəvayətlərdə hesablanıb ki, Məkkə üçün 120 məxsusi rəhmət var.[3] Hüseynin (ə) vasitələri üçün 120 000-dən çox rəhmət hesablanıbdır.

45-ci: Məkkə, Peyğəmbərin (s) bir neçə dəfə Meraca qalxdığı yerdir, Hüseynin (ə) dəfn olunduğu yer də Peyğəmbərin (s) Merac məhəllidir ki, Merac gecəsi oraya çatmış və oradan səmalara Merac etmişdir.[4] Habelə, bu torpaq Aşura günü Hüseynin (ə) və mələklərin merac məhəllidir.

Hz.Xəlil (ə) Məkkədə və İmam Hüseyn (ə) Kərbəlada əhl-əyalını tərk etməyə əmr olunmuşdular

46-cı: Məkkə elə bir yerdir ki, İbrahim-xəlil (ə) öz övladını və əyalını orada tənha qoyub, getməyə məmur olunmuşdur. Hüseyn (ə) də öz əhl-əyalını heyran, təşnə, ac və kimsəsiz halda Kərbəlada qoyub, getməyə məmur olunmuşdur. Ancaq Xəlil (ə) dua etdi ki, Allah-taala xalqın qəlblərini onlara meyilli etsin və Öz

[1] Bihar 98/140, 148
[2] Bihar 98/60, 109
[3] Bihar 96 /202
[4] Bihar 44/239: İrşad Mufid s.97

nemətlərindən onları bəhrələndirsin. Hüseyn (ə) də əhl-əyalını Kərəbəla çölündə tərk edəndə, buyurdu: "Əsir getməyə hazır olun və başınıza gələn hər müsibətə səbir edin."[1]

47-ci: Allah-taala məxluqatın əşrəfi olan Peyğəmbərə (s) əmr buyurdu ki, Kəbənin sütünlarını öpsün və əlini onların üzərinə sürtsün və bu əməl Kəbənin tamam fəzilətlərindən üstündür. Bununn bənzəri məzlumların mövlası olan Ağamız Hüseyn (ə) üçün də sabitdir. Çünki, Peyğəmbər (s) onu qucağına alıb, tamam əzalarından öpürdü, məxsusən boğazından, ürəyinin üstündən, alnından və dodaqlarından. Peyğəmbərin (s) Kəbə rüknlərinə, xüsusən İraq və Şam rüknlərinə əl sürtməsinin sirləri və hikmətləri olduğu kimi, Hüseynin (ə) də əzalarini öpməsinin və əl sürtməsinin də sirləri və hikmətləri vardır. Həmçinin, məxsusi yerlərin çox öpməyinin də sirləri, möcüzələri və xəbərləri vardır; mübarək boğazını öpməyin sirri məlumdur, ancaq alnının sirri ola bilsin ona daşın dəyməsinin, yarılmasının və qanın mübarək üzünə axmasının səbəbindəndir. Yaxud alnına dəyən oxun səbəbindən, ya da alının səcdə yeri olduğuna görədir ki, alın möminin nurunun zahir olan məhəllidir, necə ki, rəvayətdə gəlir. İmam Hüseynin (ə) bu məqamda xüsusiyyətləri vardır, çünki onun səcdəsi məxsusi səcdədir. Bu mətləbin bəyanı bundan ibarətdir ki, ayələr və rəvayətlərin dəlalət etdiyinə görə, səcdə halətinin özü surət və məna baxımından Allaha yaxınlaşmaq halətlərindən sayılır. Rəvayətdə gəlir ki, bəndənin Allaha ən yaxın olan haləti səcdədir.[2] Hüseynin (ə), Allaha yaxınlaşmaq dərəcələrində tərəqqi edən zaman xüsusi səcdələri olmuşdur, həmin dərəcə vətənindən çıxandan başlayaraq, mübarək alnını torpağın üzərinə səcdə niyyəti ilə qoyub və bir daha nizə başında qaldıranadək davam etmişdir, bu məna "başı boynundan kəsilən" ifadəsindən məlum olur.[3] Həmin buna görə, Allahın Rəsulu (s) dəfələrlə onun mübarək alnından öpürdü.

---

[1] Bihar 45/3; İrşadi-Mufid s.97
[2] Bihar 82/162; Uyuni-əxbar 2/7
[3] Bihar 45/59; Luhuf s.58

Ancaq nurani qəlbinin üzərindən öpməsinin sirri budur ki, ona üç şöbəli zəhərli ox batmışdır və əslindən həmin ox o Həzrətin (ə) ölümünə səbəb olmuşdur.[1]

Amma dodaqlarının və dişlərinin öpməsinin sirlərindən biri Zeyd ibn Ərqəmin bu sözləri deyəndə zahir oldu: "Ey ibn Ziyad çubuğunu bu mübarək dodaqlardan çək, çünki Allahın Rəsulunun (s) bu mübarək dodaqları təkrar-təkrar öpdüyünü öz gözlərimlə görmüşəm."[2]

Kəbə və Kərbəla heç vaxt təvafsız deyillər

48-ci: Kəbə həmişə, gecə və gündüz təvaf olunur, Hüseyn (ə) də şəhadətə yetişən gündən indiyədək zəvvarsız deyil. İnsanlar, mələklər, vəhşi heyvanlar, cinlər, dünya əhlinin və aləmlərin məxluqatı daim o Həzrəti (ə) ziyarət edirlər, necə ki, rəvayətdə nəql olunur.[3]

49- cu: Allah-taala mübarək evi, yəni Kəbə ilə aləm əhlini imtahan etmişdir, Əmir-əl-möminin (ə) xütbəsində buyurur: " Allah-taala bəndələri imtahana çəkmək üçün Kəbəni daşlı-kəsəkli, ətrafı quru dağlar, qumlar və suyu çox az olan, habelə kəndləri biri-birindən uzaq və əkinəcəyə yaramayan bir yerdə qərar verdi."[4]

Amma həqiqi Beyti, yəni Hüseyn (ə) Kərbəlada qılınclarını sıyırmış, nizələrini hazır tutmuş, oxlarını ona tərəf nişanlamış düşmənlərin arasında ac, susuz, yorğun halda tənha qalanda və ətrafında balalarının, qardaşlarının, qardaşı balalarının və səhabələrinin qana bulaşmış, parə-parə olmuş cəsədlərinin olduğu və Əhli-beytinin ahu-nalə etdiyi halda kömək istəyəndə,[5] tamam aləmlərə və insanlara imtahan vasitəsi olmuşdur.

50-ci: Allah-taala qüdrəti olduğu halda həcci tərk edəni, günahının böyüklüyünə görə kafir bilmişdir (Ali-İmran /97). Həm-

[1] Bihar 45/53; Məqtəli Xarezmi 2/34
[2] Bihar 45/118
[3] Bihar 98/60; Məsirul-əhzan s.72
[4] Nəhcul-bəlağə (Feyzul-islam) s. 794; 234-cü Qasiə xütbəsi
[5] Bihar 45/46; Luhuf s. 44

çinin, qüdrəti olduğu halda Hüseynin (ə) qəbrinin ziyarətini tərk edəni qeyri-mömin, ya imanı naqis, ya qeyri-şiə və Allahın Rəsulunun (s) üzünə ağ olan bilmişdir. Bir halda ki, o Həzrətin (ə) ziyarəti müsətəhəbb əməllər sırasında, amma həcc vacibatlar sırasındadır.[1]

Üçüncü məqsəd: O Həzrətin (ə) ziyarətinin savabı ilə Beytullahın həccinin savabının ölçülməsi

Bil ki, İmam Hüseynin (ə) həcc felinə xüsusi müdaxiləsi vardır, belə ki, o Həzrətin (ə) özü Beytullahdır və Allah üçün bir neçə məxsusi həcc yerinə yetirmişdir, nə ondan əvvəlkilərə və nə də ondan sonrakılara belə bir həcc nəsib olmamışdır. O Həzrətin (ə) hər bir həcci üçün məxsusi tərkib və xüsusi əməllər olmuşdur, bunlar da bir neçə sinifə bölünürlər:

1-ci: Peyğəmbərlər (ə) və mələklər; 2-ci: Şəhidlər; 3-cü: O Həzrətin (ə) Əhli-beyti; 4-cü: Onun şiələri. Beləliklə burada bir neçə məqsəd var:

1-ci: Bil ki, o Həzrət (ə) öz həccində səkkiz növ həcc yerinə yetirmişdir:

Birinci növ: 25 dəfə piyada həccə getmişdir, bəzilərini İmam Həsənlə (ə) birlikdə, bəzilərini isə ondan sonra. Bəzi həcclərdə həccin əmiri Səd ibn Əbi Vəqqas (Ömər Sədin atası) olmuşdur. Bir dəfə həcc karvanı yol əsnasında piyada həccə gedən İmam Hüseynlə (ə) rastlaşır və həcilərin hamısı karvanın əmiri ilə birlikdə miniklərindən düşüb İmamla (ə) yanaşı piyada gedirlər. Bir az getdikdən sonra Səd o Həzrətin (ə) xidmətinə gəlib ərz etdi: "Zəvvarların piyada getməsi onlar üçün əziyyətdir, eyni halda sizin hüzurunuzda süvari getmək də çətindir, dəvəyə süvar olun ki, camaat da süvar olsunlar." İmam (ə) razı olmadı və buyurdu: "Biz özümüzə piyada həccə getməyi lazım bilmişik və süvar olmayacağıq, lakin karvanın arasından kənara çəkilərik ki, onlar üçün

[1] Bihar 98/1,2; Kamiluz-ziyarat 78/193

çətin olmasın." İmam (ə) yoluna kənardan davam etdi və camaat dəvələrə süvar oldular.[1]

İkinci növ həcci qəlbi, batini və çox ruhani olmuşdur, yəni həccin zahiri əməllərinin dəlalət etdiyi həqiqi, batini ruhiyyəsi vardır. Belə ki, ehram bağlamağın bir qəlbi mənası, həmçinin öz libasını çıxardıb ehramı geyinməyin, ləbbeyk deməyin, təvafın, səyin, Ərəfatda dayanmağın, qurban kəsməyin, həlq, şeytana daş atmağın və Minada qalmağın ruhu, batini və həqiqəti vardır ki, bu zahiri surətlər (yəni, həccin zahiri əməlləri) həmin bu həqiqətlərin həyata keçməsi üçün təyin ediliblər. Bunların hamısı həccin sirləri barədə olan hədislərdə müfəssəl şəkildə nəql olunubdur.[2]

İmam Hüseyn (ə) öz ibadətində tamam zahiri əməllərin batinlərini, ruhiyyəsini və zahiri surətlərin həqiqətlərini cəm etmişdir və bununla İlahi tərəfdən ona xitab edilən vəzifəni (təklifi) yerinə yetirmişdir. Arif və bəsirət sahibi olan şəxs üçün gizli deyil ki, həccin və onun əməllərinin ruhani məqsədi qəlbi Allah üçün təcrid etmək, dünya və onun əhli ilə vidalaşmaq, İlahi qəza və qədərə təslim olmaq, dünya əlaqələrini, hətta bədənin libasını tərk etmək, hər (dünyəvi) bağlantını və düyünü ehramla açmaq, bir dərgahdan sonra digər bir dərgahda dayanmaq, izn istəmək, Mövlanın xidmətində səy etmək, xidmətlərə doğru qaçmaq, düşmənlərdən müdafiə olunmaq, Mövlanın astanasına pənah gətirmək. Bu həqiqətlərin hamısı o Həzrət (ə) tərəfindən həyata keçirildi və bununla İmam Hüseyn (ə) işarə ilə deyil, aydın şəkildə həqiqi həccin həqiqətini reallığa çevirdi.

Üçüncü növ həcc o Həzrətin (ə) dəfələrlə ehram bağladığı və ehramdan çıxdığı həcc idi. Belə ki, əvvəl ümreyi-təmättö üçün ehram bağladı, sonra bildi ki, əgər bunun əməllərini başa çatdırmaq istəsə onu hiylə ilə Allahın hərəmində öldürəcəklər. Buna görə, ehramdan çıxıb, ümreyi-müfrədəyə keçdi və onun əməllərini yerinə yetirdi, sonra ehramdan çıxdı və həcci təmättö üçün ehram bağladı. Beləliklə, ehramı bağlamaq və ondan çıxmaq o

[1] Bihar 43/276; İrşadi Mufid 2/132
[2] Bihar 12/108-110; İləluş-şəraye s. 400-460

Həzrətin (ə) xüsusiyyətidir. Mətləbin bəyanı bundan ibarətdir ki, hz. İbrahim (ə) nida edəndə ki: "Ey Allahın bəndələri, həcc ziyarətinə tərəf tələsin və bu vaxt onun sülbündə olan zürriyyəsi o cümlədən, İmam Hüseyn (ə) bu nidaya cavab verdilər. Sonra onun ehramından çıxdı və Allah-taalanın səmaları və yeri yaratmamışdan qabaq: "Ey Hüseyn (ə) özünü Allah yolunda sat" – həcc nidasına ehram bağladı.[1]

Sonra "Şəcərə məscidi" miqatında ehramdan çıxdı və miqatı mübarək şəcərə olan və Musanın (ə) qulağına: "Mənəm Allah, Məndən başqa Allah yoxdur." – nidası ilə yetişən həccə ehram bağladı.[2] Sonra hökmü tikili paltarı çıxardıb, iki ağ rəngli libası geyinməkdən ibarət olan həcc ehramından çıxdı və ehramı tamam libasları çıxarıb, biri qandan, digəri isə səhra tozundan ibarət olan həcc ehramını bağladı. Sonra bu ehramdan çıxıb, feli üzünü, saqqalını, başını və tamam əzalarını qana boyamaqdan ibarət olan həccə ehram bağladı.[3]

Sonra kölgə altında hərəkət etməsi qadağan olan həccin ehramından çıxdı və hərəkət, dayanacaq və yatmaq halında kölgəni tərk etmək həccinə ehram bağladı. Sonra ehramı başı açmaq olan həccdən çıxdı və ehramı başı kəsilməkdən ibarət olan həccə ehram bağladı. Sonra ehramı hərəmin quşlarını buğda və arpa ilə yemləməkdən ibarət olan həccdən çıxıb, ehramı qəlbinin tikələrini hərəmin quşlarına yemləmək olan həccə ehram bağladı. Sonra, kafuru tərk etmək lazım olan həccin ehramından çıxıb, sidr və kafuru tərk olunan həccin ehramını bağladı.

Sonra həcci təmättönün ehramından çıxıb, həm ümrəsi, təmättösü və ifradı, həm də həcci təmättösü, qiranı və ifradı olan həccin ehramını bağladı. Sonra abidlərin əksəriyyəti Adəmdən (ə) 30 000 min əvvəl yerinə yetirdikləri həccin ehramından çıxdı və o Həzrətdən (ə) başqa heç kəsin yerə yetirmədiyi həccin ehramını bağladı. Kiçik həccin ehramından çıxdı böyük həccin ehramını

[1] Bihar 36/192; Kafi 1/280
[2] Ta ha surəsi /14
[3] Bihar 45/55; Luhuf s.54

Hüseynin (ə) təlbiyə deməyi Kəlimullahın təlbiyə deməyi kimidir

Mətləbin ümumi bəyanı belədir ki, İmam Hüseyn (ə) Mədinə miqatından ehram bağladı və Musa Kəlimullah (ə) fironun əlindən qaçan zaman dediyi təlbiyəni, yəni bu ayəni: ***"Musa qorxu və vəhşət içində şəhərdən çıxdı və dedi: "Ey Rəbbim, mənə zalım qövmüdən nicat ver."*** (Qəsəs/21) – tilavət etdi. Həmçinin Mədinədən çıxanda bu ayəni: ***"O , Mədyən (Bağdad) şəhərinə tərəf üz tutan zaman dedi: "Ümüdvaram Rəbbim məni düzgün yola (Mədyən şəhərinin yoluna) yönəltsin."*** (Qəsəs/22)[1] Bu həccin əməllərini yerinə yetirəndən sonra, onun ehramından çıxdı və hz.İbrahimin (ə) həccinə ehram bağladı ki, belə deyirdi: ***"Mən mütləq öz Rəbbimə tərəf yollanıram. O tezliklə mənə yol göstərəcəkdir."*** (Saffat /99) Bunun təlbiyəsini dedi və əməllərini yerinə yetirəndən sonra, xeymələrdə ehram bağlayıb, özünə və Əhli-beytinə məxsus olan həccin təlbiyəsini dedi. Bu həccin əməllərindən ayrılandan sonra, meydanın ortasında olan həccinə ehram bağladı. Bu ibadətdən də ayrılandan sonra qətlgahda ehramı bağladı və ruhunun mübarək cismindən ayrılandan sonra başlayan məxsusi həccinin təlbiyəsini dedi. Bu həclərin hər birinin özünə məxsus müəzzini var idi. Həmin müəzzin öz azanı ilə o Həzrəti (ə) fəqət ona məxsus olan səhifələrdə yazılmış əməlləri yerinə yetirməyə dəvət edirdi.

Mətləbin bəyanı bundan ibarətdir ki, birinci həccində Allahın Rəsulunun (s) azanını eşitdi, o Həzrətin (s) qəbrinin kənarında ehram bağladı və təlbiyə deyib, Mədinədən çıxdı. Bu həccin əməllərindən ayrılandan sonra Məkkədə ikinci azanı eşitdi və təlbiyə deyib, ehram bağladı. Sonra bunun əməllərindən ayrılıb ehramından çıxdı və Tasua gününün axşamı gəlib, çıxdı. Bu vaxt xeymələrin qabağında 3-cü həccin azanını eşitdi və onun daha ağır olan ehramını bağladı. Aşura gününün zöhr vaxtı onun əməllərindən ayrıldı və həcci əkbər üçün 4-cü azanı eşitdi: "Şəhid

[1] Bihar 44/332; İrşadi Mufid 2/33

olanadək döyüş." Bu azanı Peyğəmbərin (s) dilindən oğlu Əli-əkbər verdi.[1] Beləliklə, təlbiyə deyib bu həccin ehramını bağladı. Sonra, mübarək başı kəsilmiş bədəni torpaq üstünə düşəndə bu həccin ehramından çıxdı və 5-ci həccin azanını eşitdi. Bu dəfə müəzzin bilavasitə Allah-taalanın Özü idi. Beləliklə, təlbiyə dedi və ona məxsus olan həcci yerinə yetirdi.

Bu ümmətin fironu üçün beyət almaq!

Həmən həcclərin müfəssəl bəyanı bundan ibarətdir ki, İmam Hüseyndən (ə) bu ümmətin fironu Yezid ibn Müaviyə (əleyhi haviyə) üçün beyət almaq istəyəndə, İmam (ə) bundan imtina edib, Mədinədən çıxdı və Məkkəyə tərəf hərəkət etdi. Bununla da beyəti tərk etməyə, yavərlərinin az olması və heç kəsin ona kömək etməyəcəyini bilərək müxalifəti zahir etməyə təlbiyə dedi. Müxalif olmağa, son nəfəsə qədər döyüşməyə və təqiyyəni tərk etməyə ehram bağladı və Məkkəyə gəldi. Burada xalqı haqqa və bənu üməyyə ilə cihada dəvət etdi. Bu həccin əməllərindən ayrılandan sonra Məkkə miqatında Ərəfə günü Xəlilin (ə) həccinə ehram bağladı və qurbanlığı da Müslim ibn Əqil idi və həmin gün ona gələn xəbər isə Müslimin şəhadət xəbəri idi, çünki Hüseynin (ə), Əhli-beytinin və səhabələrinin müsibətindən də xəbər verirdi. Bu həccin müəzzini Peyğəmbərin (s) özü idi ki, yuxuda İmama (ə) buyurmuşdur: "Ey Hüseyn (ə) qalx və qiyam et, çünki Allah-taala səni şəhid görmək istəyir və qadınlarını da özünlə apar ki, Allah-taala onları əsir görmək istəyir." Beləliklə təlbiyəyəni,"Ləbbeyk" deyərək, ərz etdi: "Çıxıram və özümü, övladlarımı, qardaşlarımı, əmim uşaqlarını və xas səhabələrimi Sənin yolunda qurban vermək və əhli-əyalımı, bacılarımı, qızlarımı Sənin yolunda əsir düşmələri üçün özümlə aparıram. Ləbbeyk, əmrinə itaət edirəm."

Beləliklə, Bəni-Adəm (ə), vəhşi heyvanlar, quşlar, bitkilər, ağaclar, kafirlər və müşriklər üçün əmniyyət yeri olan Məkkə o

[1] Bihar 45/44; Luhuf s.49

Həzrət (ə) üçün əmniyyət yeri olmadı və əmniyyətdən ehram bağladı. Bu minvalla oyaqlıqda o Həzrətin (ə) yanına gələn hər bir kəs onu bu səfərdən qorxudurdu, çəkindirirdi və deyirdi: "Hara gedirsən? qarşında qılınclardan başqa bir şey yoxdur." Hətta hər dayanacaqda qeybdən gələn səs (hatif) onun öldürülməsindən xəbər verirdi. Necə ki, Xüzeymə mənzilində bacısı Zeynəb (ə) eşitdi ki, gecə yarısı hatif belə məzmunda şeiri nida edirdi: "Bu camaatı əcəlləri çəkib, aparır." Həmin xəbəri qardaşına deyəndə, İmam (ə) buyurdu: "Bacı, hər nə müqəddər olubsa, olacaqdır."[1]

Yuxuda da onun üçün qorxu hasil olmuşdur

Qorxu o Həzrətin (ə) yuxusuna da daxil olmuşdur, hətta bir gün yuxudan oyanıb ağladı. Oğlu Əli ərz etdi: "Atacan niyə ağlayırsan?" buyurdu : "Yuxuda gördüm bir şəxs deyir: "Bu camaatı əcəl özü ilə çəkib aparır." Əliəkbər buyurdu: "Atacan məgər biz haqq ilə birgə deyilik?" Buyurdu: "And olsun o Kəsə ki, hamımız Onun yanına qayıdacağıq biz haqq yolundayıq." Ərz etdi: "Bu halda ölümdən əsla qorxumuz yoxdur."[2] Beləliklə, insanların ona kömək etməyəcəyindən ehram bağladı, hərçənd bəzi vaxtlar hüccəti tamam etmək üçün onlardan kömək istəyirdi. Artıq dünya həyatından vidalaşmaq ehramını bağlamışdı, necə ki, Əmr ibn Luzən onu bəni üməyyəyə müxalif olmaqdan çəkindirəndə, İmam (ə) buyurdu: "Mənə gizli deyil ki, qanlı ürəyimi çölə çıxarmayınca məni rahat buraxmayacaqlar."[3] Beləliklə, tamam məkanlardan və ölkələrdən ehram bağlayıb bu həccin əməllərinə başladı. Kərbəla səfasına tərəf səy etdi, vuquf üçün öz köç-külfətini orada saxladı. Sonra sudan və yeməkdən ehram bağlayıb, növbəti həccin əməllərini yerinə yetirmək niyyəti ilə öz səhabələrindən əhd-peyman alıb, onlarla birlikdə cihad meydanına yollandı. Bu həccin əməllərini yerinə yetirəndən sonra, 3-cü həccin azanı veril-

---

[1] Buhar 44/272; Məqtəli Xarezmi 1/225
[2] Bihar 44/279
[3] Bihar 44/375

di və xeymələr miqatından onun ehramını bağladı. Bu həccin müəzzini Peyğəmbər (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və əlində yaşıl rəngli şüşə qab tutan bir mələk idi.

Tasuanın axşamı idi, İmam Hüseyn (ə) başını dizinin üstünə qoyub, bir qədər yuxuya getdi və yuxuda Peyğəmbərin (s) azanını eşitdi: "Ey mənim balam, sənsən Ali-Muhəmmədin (ə) şəhidi, tamam səma əhli sənin gəlişinə müştaqdılar, tələs ki, sabah axşam iftarı bizim yanımızda edəsən. İndi səmadan bir mələk nazil olubdur ki, sənin qanını bu yaşıl şüşəyə yığsın." O Həzrət (ə) şad oldu, ləbbeyk dedi və bu həccə ehram bağladı.[1]

Lakin bacısı Zeynəb (ə) bu yuxudan və Aşura gecəsi qardaşını ölümə təslim olması xəbərindən agah olanda ayaqyalın qardaşına tərəf qaçdı, üzünə vuraraq fəryad etdi: "Ey qardaşım, kaş mən öləydim, bu kəlamlar ölümünə yəqini olan kəsin kəlamıdır." İmam (ə) buyurdu: "Bəli əziz bacım, belədir. Mən artıq təslim olmuşam, başqa çarəm yoxdur, ölümdən nicat tapmaq yollarının hamısı bağlıdır." Ərz etdi: "Səni biçarə görmək qəlbimi daha çox yandırır." Bunu deyib, ah çəkdi və huşdan gedib yerə yıxıldı. İmam (ə) onun başını dizinə alıb, üzünə su çilədi, Zeynəb (ə) özünə gələndə ona moizə edib, təsəlli verdi.[2]

Allahım, Sən şəriki olmayan Allahsan

Beləliklə, bu həccin əməlləri ilə məşğul oldu, bunların arasında İlahi məhəbbət evinin təvafı, namaz, Quran tilavəti var idi. Təvafını vida təvafı qərar verdi və qurbanlarını irəli göndərdi, ancaq qurbanları qoyun və dəvə deyildi. Xilqətində, əxlaqında və nitqində İsmayıldan (ə) üstün, Həzrətin (ə) gözünün nuru, belinin qüvvəsi olan kəslərin hamısını qurban göndərdi. Sonra səy əməlini yerinə yetirdi və 70 dəfədən artıq xeyməgah ilə qətlgah arasında səy etdi, onların bəzilərində hacılar kimi yüngül qaçış da edirdi. Bu həccin əməllərini yerinə yetirəndən sonra 4-cü həccin azanı ve-

[1] Bihar 45/3

[2] Bihar 45/3; İrşadi Mufid 2/96

rildi, onun müəzzini Peyğəmbərə (s) bənzəyən cənab Əliəkbər idi. O Cənab cəddi Peyğəmbərin (s) dilindən atasına Allahın əmri ilə həcc göstərişini gətirdi və buyurdu: "Ey Hüseyn (ə) cihad et və şəhid ol." Cənab Əliəkbər meydanda yıxılıb və fəryad etdi: "Ata, cəddim Rəsulullah (s) sənə buyurur: "Əl-əcəl, əl-əcəl." (Yəni; tələs, tələs)."[1]

Aşura gününün zöhr vaxtı çatanda meydanın mərkəzi olan miqatdan "Ləbbeyk" – deyib, buyurdu: "Allahım, övladlarımı, qardaşlarımı və əmim uşaqlarımı qabaqcadan göndərdim və mənim üçün onlardan heç biri qalmadı." Bu vaxt əhli-əyalı, qızları və bacıları ilə vidalaşdı, sonra buyurdu: "Ləbbeyk Allahım, qadınları və qızları heyran və təşnə halda geridə qoydum." Bunu deyib, köhnə, parə-parə libası geyərək ehram bağladı, ata süvar oldu və elə bir heyrətamiz məqamda vuquf etdi ki, Allah yolunda heç kəs belə məqamda, nə Ərəfatda, nə Məşərdə, nə də mübarizə meydanından vuquf etməmişdir. Bu məqamda təlbiyə dedi: "Allahım, Sən şəriki olmayan Allahsan. İndi mən tənha halda Sənin dərgahına gəlirəm." Və bu niyyətlə ehram bağladı: "Qəlbimi Sənin yolunda tamam əlaqələrdən kəsdim, buna görə nə öz qəribçiliyimdən qüssəliyəm, nə tənha olmağımdan qorxuram, nə övladlarımın öldürülməsi məni zəiflədib, nə əhli-əyalımın əsirliyi halımı dəyişdirib, nə səhabələrimin qətlə yetirilmələri, nə düşmənlərimin çoxluğu, nə bəlaların şiddəti məni vəhşətə gətirir." İmam Hüseyn (ə) nəfsinin tam arxayın (nəfsi mütməinnə) halətində idi, üzü 14 gecəlik ay kimi işıq saçırdı, o dərəcədə ki, düşmənlərin bəziləri İmamın (ə) bu halətindən heyrətə gəlmişdilər.[2]

Sonra, "Ləbbeyk" deyib, mübarək başının bədənində qalmasından, ayaq üstə dayanmasından, ciyərinin susuz yanmasından, saçına xına yaxmasından, bədən əzalarının bədəninə bitişik olmasından, ətinin sümüyünə birləşməsindən, sümüklərinin nizamlı tərkibindən və ürəyinin öz yerində qalmasından ehram bağladı. Bununla Beytullahı təvaf etdi, səy etdi və öz mərkəzində elə bir

[1] Bihar 45/44; Luhuf s.49
[2] Bihar 45/54; Luhuf s.53

vuquf etdi ki, Allah bəndərindən heç kəs belə vuquf etməmişdir. Beləliklə, o Həzrət (ə) Ərəfə və Məşərin həqiqətini bəyan etmişdir, sonra üç dəfə düşmənə həmlə etməklə şeytana daş atma əməlini yerinə yetirmişdir, bunun təfsilatı şəhadət bəhsində verilib. Sonra Minaya gəldi, ancaq başını qırxmaq və qurban kəsmək üçün deyil, öz mübarək başının qurban kəsilməsi üçün gəldi və üc gün Minada qalmaq əməlini yerinə yetirdi.

Beləliklə, bu həccin ibadətlərini əmələ gətirəndən və onun ehramından çıxandan sonra, İlahi Kibriya dərgahdan 5-ci növ ən əzəmətli həccin nidası səsləndi ki, Adəm (ə) övladlarından heç kəsə belə bir həcc nəsib olmamışdır. Bu həccin azanı bilavasitə Allah-taala tərəfindən belə xitabla verilmişdir: ***"Ey arxayın olmuş nəfs. Dön Rəbbinə, sən Ondan o da səndən razı olaraq!"*** (Fəcr /27,28) Rəvayətlərə əsasən bu xitab İmam Hüseynə (ə) olunmuşdur.[1]

İmam Hüseyn (ə) "Nəfsi mütməinnədir" və bu həccin ehramı Aşura gününün əsr vaxtı, ruhu şərif bədənindən ayrılan zaman bağlanmışdır və miqatı da qətlgah idi. Bu həccin əməlləri ilahi dəvətə təlbiyyə (ləbbeyk) idi. Lakin bu "ləbbeyk", digər təlbiyyələr kimi deyil, məxsusi təlbiyyə idi, çünki burada "razı olan" və "razı olunmuş" mənaları var idi. Və bu qədər şiddətli müsibətlərə baxmayaraq o Həzrətin (ə) nəfsi bədənindən səbir yolu ilə deyil, razılıq yolu ilə, hətta son dərəcə razı olduğu halda ayrılmışdır. Belə ki, şərif ayədə "razı" sözü "razı olunmuş" sözündən qabaq gəlmişdir.

Bir qədər düşündükdə aydın olur ki, bu sonuncu və ən əzəmətli həccin təlbiyyəsini deyəndən sonra, İmam (ə) silahını yerə atdı, libasını tərk etdi, hətta keçmiş həccində geyindiyi köhnə, parə-parə olmuş ehram libasını da çıxardı və digər iki, səhra küləklərindən və şərif qanından ibarət olan ehram libasını geyindi. Sonra tamam zinətləri, hətta üzüyünü tərk etdi. Sonra mübarək başını açdı və belə üryan halda ehramda qaldı. Sonra bədənindən

[1] Bihar 44/218,219; Təfsiri Qummi 2/422

ayrıldı və günün şüasından kölgələnmədi. Sonra üç gecə Minada qaldı və əhli-əyalını, övladını və tamam insanları tərk etdi. Sonra mübarək ruhu ilə elə bir evi təvaf etdi ki, ondan qabaq heç kəs o evi təvaf etməmişdir, yəni Beytul-məmuru. Sonra mübarək başı ilə Kərbəla Səfasından Kufəyə doğru səy etdi, sonra Kufədən Şama, Şamdan Mədinəyə və oradan səmaya səy etdi. Sonra Kərbəla Səfasına qayıtdı və sonra da bir neçə yerdə Quran oxumaqla Allahı zikr etdi.[1]

Beləliklə, nurani başı üçün kölgədən və başının yerə enməsindən ehram bağladı, çünki mübarək başı gah nizə ucunda idi, gah ağacdan, gah Dəməşqin darvazasından, gah da Yezidin evinin qapısından asılmışdır. Bəli bu həccində rəngdən ehramı yox idi və həqiqətdə ehramı bədəninin bir neçə rəngindən ibarət idi; Saqqalının bir rəngi, üzünün bir başqa rəngi, başının digər rəngi var idi. Bu ehramı çıxarmadı və buyurdu: "Allahın görüşünə həmin bu halətdə gedəcəm." Görüşdən muradı Məhşər idi, çünki o Həzrət (ə) qiyamət günü bədəni qana qəltan olmuş və boynunun damarlarından qan axan halətdə həşr olacaqdır.[2]

Həmçinin bu ehramda vəhşi heyvanları, quşları ovlamaqdan çəkinmədi və onların hamısını övladı öz yanında saxladı. Belə ki, bütün gecəni sübhədək bu heyvanlar boyunlarını o Həzrətin (ə) şərif bədəninə tərəf uzatmışdılar və onun üçün növhə deyib, ağlayırdılar. Quşları da ovlamışdı, belə ki, quşlar o Həzrətin (ə) nurani cəsədinə qonurdular, öz qanadlarını mübarək qanına batırır və ətrafa yayırdılar.[3]

Beləliklə, İmam Hüseynə (ə) təyin edilən həcc, (məxsusən axırıncı həcc ki, onun mislində Allah-taala heç bir şeylə ibadət olunmamışdır) o Həzrət (ə) tərəfinfən həyata keçirildiyinə görə, təəcüblü deyil ki, Allah-taala o Həzrətin (ə) ziyarətinin əcrini həcc və ümrə ziyarətinə bərabər etmişdir. Çünki, İmam Hüseynin (ə) əmələ gətirdiyi həmin xüsusi həccin səbəbindən o Həzrətin (ə)

[1] Bihar 45/304
[2] Bihar 43/226
[3] Bihar 45/191, 205

ziyarətinin xüsusiyyətləri meydana gəlir və savabı 100 000, hətta 1000 000 həccin savabına, hətta hər qədəminə bu miqdar həccin savabı yazılır. Və təəccüblü deyil ki, Hüseynin (ə) zəvvarına Peyğəmbərlə (s) ya İmam Zamanla (ə.f.) birlikdə həcc etməyin, yaxud Peyğəmbərin (s) 90 həccinin savabı əta olunur, çünki bunların hamısı, heç kəsin deyil, fəqət İmam Hüseynin (ə) əcridir.

İkinci məqsəd: O Həzrətə (ə) məxsus mələklərdən, Peyğəmbərlərdən (ə) və sair kişi və qadınlardan ibarət olan hacılar

Kişilərdən: o Həzrəti (ə) birinci ziyarət edən şəxs Xatəmulənbiya olmuşdur və xüsusi əməlləri yerinə yetirməklə məxsusi həcci həyata keçirmişdir. Bunun təfsilatı gələcək, inşallah.

Şəhid səhabələr həqiqi hacılardır

Sonra, həqiqətdə o Həzrət üçün (ə) şəhid olmuş səhabələri həcc ziyarəti yerinə yetirdilər və hər adətdən, qadınlardan, ov etməkdən, maldan və dünyadan ehram bağladılar. O Həzrətin (ə) Minasında üç gecə beytutə qaldılar, libaslarını çıxardılar və kəfənsiz dəfn olundular, habelə ser və vuquf halında kölgəni tərk etdilər.

Onların həccinin keyfiyyəti də əməllərinin müxtəlifliyinə görə fərqli idi. Sonra o həqiqi Beytullahın ətrafında təvaf etdilər, ziyarətəində səy və xidmətində vuquf etdilər və o cənabla namaz qıldılar. Bu həcc mərasimində onların niyyəti digər hacıların və şəhidlərin niyyətlərindən daha xalis və qürbət qəsdləri daha ali olmuşdur. Hətta onlar İmam Hüseynin (ə) qəribliyini və köməksizliyini, əhli-əyalının və uşaqlarının ağır vəziyyətlərini müşahidə edəndə elə bir halətə gəldilər ki, biixtiyar özlərini nizələrin və oxların üzərinə atırdılar.

Səhabələrin əməlləri və mərasimləri də müxtəlif idi, belə ki, bəziləri ehram bağladılar, ancaq həcclərini tamamlaya bilmədilər,

məsələn Aşura gününün əvvəlində şəhid olan səhabələr kimi. Bəziləri Hürr ibn Yezid Riyahi kimi müqəddəs astanadan öpməklə kifayətləndilər, bəziləri isə ehramı bağlayandan sonra o həqqiqi Beytullahı təvaf etməklə qane oldular, məsələn Səid ibn Abdullah Hənəfi kimi. Bu səhabə o Həzrətin (ə) ətrafında dayandı və şəhid olanadək öz bədənini oxların qarşısında sipər qərar vermişdir. Bəzi səhabələr təvafı, səyi və vuqufu yerinə yetirdilər, bəziləri də Beytin təvaf namazını Beytlə birlikdə və Beytin yanında qıldılar. Onların bəziləri üçün bu həqiqi Beytin rüknlərinə əl sürtməkdə və onu təvaf etməkdə xüsusiyyətlər olmuşdur, məsələn türk qulamı kimi, Beytin rüknlərinə əl sürtdü və onu öpməyə müvəffəq oldu. Ancaq Minada, əyyami-təşriqdə üç gün beytutə etmək onların hamısına nəsib oldu.[1]

Vəhəbin anası və zövcəsi qadınlar arasında həqiqi Beytullahın ətrafında

Qadınlar arasında həqiqi Beytullahı həcc edənlərdən biri məsihilikdən təzə islamı qəbul etmiş Vəhəbin anası idi. Bu qadın əzəmətli Beytullahın həcci üçün ehram bağladı, məşəri şüurda vuquf etdi və dərk etdi ki, Hüseynə (ə) kömək etmək və Beytullaha qurban aparmaq vacibdir. Buna görə, öz qurbanlığını təqdim etdi, yəni oğlu Vəhəbin yanına gəlib dedi: "Oğlum, qalx və Allahın Rəsulunun (s) övladına yavər ol." Vəhəb dedi: "Anacan, belə də edəcəm və bu işdə zəiflik göstərməyəcəm." Bunu deyib cihad meydanına getdi. Rəcəz dedi, düşmənin 17 nəfər süvarisini və 12 nəfər piyadasını cəhənnəmə vasil etdi. Sonra anasının və zövcəsinin yanına qayıdıb ərz etdi: "Anacan məndən razı qaldınmı?" Anası dedi: "Səndən yalnız Allah Rəsulunun (s) övladının qarşısında şəhid olduğun zaman razı qalacam, bəs qayıt döyüş meydanına." Vəhəb şəhadət şərbətini içəndən sonra, anası şeyta-

[1] Bihar 45/12, 21, 29, 10, 30, 62

na daş atma əməlini elə tərzdə yerinə yetirdi ki, indiyədək heç kəs bu cür yerinə yetirməmişdir.[1]

Digər qadın Vəhəbin zövcəsi idi. O əvvələ həqiqi Beyti tanımırdı və bunun həcci üçün ehram bağlamamışdır, hətta öz həyat yoldaşına da qadağan edərək, demişdir: "Məni öz ölümünə düçar etmə." Vəhəbin anası isə demişdir: "Bu qadının sözünə qulaq asma." Lakin sonra o qadın İmam Hüseyndə (ə) bir halət müşahidə etdi və bunun təsirindən ehram bağladı. Sonra da ərinə nida etdi: "Pakların gözləri önündə cihad et." Özü də Beytullahı təvaf edib döyüş meydanına yüyürərək getdi və nəhayət məlun Şümrün qulamı onu şəhid etdi. Bu qadın da Minada üç gecə beytütə etdi. Ancaq, düşmənlərin onun başını kəsib özləri ilə apardıqları məlum deyil.

Digər qadının əri həmin gün şəhid olmuşdur və bu qadın öz oğlunu meydana göndərdi. İmam (ə) buyurdu: "Bu oğlanın atası şəhid olmuşdur, onu geri qaytarın, ola bilər anası buna razı olmasın." Oğlan ərz etdi: "Ağa, anam özü mənə əmr etdi ki, get və Allah Rəsulunun (s) övladının qarşısında cihad et." Beləliklə, anası onu qurbanlıq ünvanı ilə təqdim etdi. Oğlu şəhid olandan sonra düşmənlər onun başını kəsib, anasına tərəf atdılar. Ana oğlunun başını götürüb öpdü və yenidən onlara tərəf atdı.[2]

Həqiqi Beytullahın həccini heç kəsin əmələ gətirə bilmədiyi tərzdə həyata keçirən qadın Xanım Zeynəb (ə) idi və onun ehram bağlamasının və həccinin keyfiyyətinin şərhi, ayrı bir məqam tələb edir.

[1] Bihar 45/16,17
[2] Bihar 45 /16, 27-28

ONUNCU ÜNVAN

O HƏZRƏTİN (Ə) MƏLƏKLƏRƏ NİSBƏT XÜSUSİYYƏTLƏRİ

ONUNCU ÜNVAN: İMAM HÜSEYNİN (Ə) MƏLƏKLƏRLƏ BAĞLI XÜSUSİYYƏTLƏRİ BARƏDƏ VƏ BURADA BİR NEÇƏ MƏQSƏD VARDIR:

Birinci məqsəd: O Həzrətin (ə) mələklərə nisbət xüsusiyyətləri

Birinci məqsəd: Allah-taala mələklərdən o Həzrət üçün (ə) üç sifəti əta etmişdir:

1-ci: Dünya həyatında o Həzrətə (ə) xidmət etməyi. Hədislərə əsasən, İsrafil (ə) Cəbrayılın (ə) qarşısında iftixar edirdi ki: "Mən Ərşin hamili və surun sahibiyəm və mələklərin arasında Allaha hamıdan daha yaxınam." Cəbrayıl (ə) onun cavabında dedi: "Mən vəhyin əminiyəm, seyhə və zəlzələ sahibiyəm." Sonra onlar mübahisələrinin həlli üçün Allah-taalaya müraciət etdilər. Bu zaman vəhy gəldi: "Sakit olun, and olsun izzəti-cəlalıma sizdən daha yaxşı məxluq yaratmışam." Ərz etdilər: "Necə? Halbuki, bizi Öz əzəmətinin nurundan yaratmısan." Bunu deyib, Ərşin ətrafına baxdılar və gördülər ki, orada yazılıb: "La ilahə illəllah, Muhəmməd (s), Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə)" xəcalət çəkdilər, bu vaxt Cəbrayıl (ə) ərz etdi: "Allahım, Səni and verirəm onların haqqına məni onlara xidmətçi qərar ver." Onun duası müstəcab oldu və Cəbrayıl (ə) onlara xadim təyin edildi.[1]

---

[1] Müntəxabi Tureyhi 2/40; Nasixut-təvarix 4/58

Habelə, Cəbrayılın (ə) Hüseynə (ə) xidmətində xüsusiyyətləri olmuşdur; o cümlədən, onun beşiyini yelləyirdi, layla oxuyub bu şeirləri deyirdi:

Cənnətdə bir çay axır xalis süddən
Əli, Fatimə, Həsən, Hüseyn eşqindən

Onları sevən kəs bilsin ki, hətmən
Daxil olar cənnətə qəm görmədən

Həmçinin onlar üçün cənnət meyvələri, libasları və zinətləri gətirirdi[1], Hüseynin (ə) libasını rəngləyirdi, onun təziyəsini, bəzən də onun türbətini Cəddinə (s) gətirirdi.[2] Peyğəmbərin (s) vəfatından sonra Cəbrayıl (ə) yalnız İmam Hüseynin (ə) işinə xatir nazil olurdu. İmam Səccaddan (ə) nəql olunur ki, İmam Hüseyn (ə) şəhid olanda ləşkərin arasında bir nəfərin fəryad etdiyini gördülər. Ona dedilər: "Sənə nə olub, belə fəryad edirsən?" Dedi: "Necə fəryad etməyim, bir halda ki, Allahın Rəsulu (s) dayanıb yer üzünə, gah da sizə baxır. Qorxuram, yer əhlinə nifrin (qarğış) etsin, mən də onların arasında həlak olam." İmam Səccaddan (ə) onun barəsində soruşanda, buyurdu: "Həmən şəxs Cəbrayıl (ə) idi və əgər ona izn verilmiş olsaydı elə bir qışqırıq qopardardı ki, düşmən ləşkərinin hamısının ruhları bədənlərindən çıxardı, lakin onlara möhlət verilmişdir.[3]

Amma Cəbrayıldan (ə) başqa çoxsaylı mələklər o Həzrətə (ə) xadim təyin olunublar, o cümlədən onun türbətini Cəddi Peyğəmbərə (s) gətirən, viladətində təbrik və şəhadətində təziyyə və təsliyyət gətirən mələklər.[4]

2-ci dəstə: O Həzrətin (ə) yavərləri olan mələklər idi və onlar bir neçə yerdə nazil olmuşdular:

---

[1] Bihar 43/310
[2] Bihar 44/245,229
[3] Bihar 45/173; Kamiluz-ziyarat s. 337
[4] Bihar 44/229, 236

Birinci Mədinənin kənarında: İmam (ə) Mədinədən çıxanda dəstə-dəstə mələklər nazil olub O Həzrətlə (ə) görüşdülər. Onlar behişt miniklərinə süvar olmuşdular və əllərində nur nizələri var idi. Mələklər İmama (ə) salam verib, ərz etdilər: "Ey Cəddindən (s) atasından və qardaşından sonra Allahın məxluqat üzərində hüccəti. Allah-taala çox yerdə bizi sənin Cəddinin (s) köməyinə göndərmişdir, indi də sənin köməyinə gəlmişik." İmam (ə) buyurdu: "Bizim sizinlə görüş yerimiz mənim şəhid və dəfn olacağım məkandır. Mən ora çatanda yanıma gələrsiniz." Ərz etdilər: "Ey Allahın hüccəti, istədiyin şeyi bizə əmr edə bilərsən. Əgər düşməndən qorxursansa biz sənlə bərabər gedək." Buyurdu: "Mən öz şəhadət məhəllimə çatadanadək heç kəs mənimlə gedə bilməz."[1]

İkinci Məkkədə: Vaqidi və Zürarə nəql edirlər ki, İmam Hüseyn (ə) İraqa tərəf səfər etməmişdən üç gün qabaq onunla görüşdük və ona dedik ki, Kufə əhlinin qəlbi sizinlədir, ancaq qılınçları sizə qarşıdır. O Həzrət (ə) səmaya işarə etdi, səmanın qapıları açıldı. Səmadan sayı-hesabı olmayan mələklər nazil oldular. İmam (ə) buyurdu: "Əgər şəhadət əcrini və İlahı təqdiri nəzərə almasaydım bu qoşunla onlarla döyüşərdim, lakin mən yəqin bilirəm ki, mənim və səhabələrimin döyüş meydanı oradadır və oğlum Əlidən başqa heç birimiz sağ qalmayacağıq."[2]

Üçüncü Kərbəlada: İmamın (ə) işi çətinə düşəndə mələklər onun xidmətinə yetişdilər. Beləliklə, qələbə zəfəri onun üzərinə nazil olmuşdur və o Həzrətin (ə) qələbə ilə Allahla görüş arasında seçimi var idi. İmam (ə) Allahla görüşü seçdi.[3]

Xidmətlə məşğul olan mələklər

Üçüncü sinif: O Həzrətin (ə) qəbrinin kənarında İmama (ə) xidmətlə məşğul olan mələklərdir və onların müxtəlif əməlləri vardır. Bu mələklər bir neçə dəstədirlər:

---

[1] Bihar 44/330; Luhuf 28/29
[2] Bihar 44/364
[3] Bihar 45/12

1-ci dəstə: Bunlar qəbrinin kənarında pərişan, toz torpağa bulaşmış və işləri O Həzrətə (ə) ağlamaq olan mələklərdir. Onlar 4000 mələkdirlər.

2-ci dəstə mələklərin işləri zəvvarları qarşılamaq, müşayiət etmək, xəstələrini ziyarət və ölənlərini dəfn etməkdir.

3-cü dəstə mələklər hər sübh qəbrə nida edərlər: "Ey xeyir istəyənlər Allahın kəramətlərinə tərəf gəlin ki, peşman olmayasınız.[1]

4-cü: Zəvvarlar evlərinə qayıdandan sonra onlara xitab edərlər: "Ey Allahın bəndəsi xoş sənin halına ki, qənimət apardın, sağlamlıq tapdın, Allah səni bağışladı, bəs əməllərini təzədən başla.

5-ci: O Həzrəti (ə) ziyarət edən və ona ağlayan mələklərdir onlar hər gün nazil olurlar və səmaya qalxırlar, sayları da 4000 mələkdir.[2]

6-cı: 100 000 mələkdir ki, hər gecə və gündüz o Həzrətə (ə) salavat göndərirlər.

7-ci: Peşələri zəvvarlar üçün istiğfar etmək olan mələklərdir.

8-ci: Gecə və gündüz mələkləridir, onlar nazil olub o Həzrətin (ə) qəbrinin kənarındakı mələklərlə əl ilə görüşürlər.

9-cu: Zəvvarlara salavat göndərən mələklərdir.

10-cu: Uzaqdan zəvvarların salamlarını o Həzrətə (ə) göndərən mələklərdir. O cümlədən, İmam Hüseynin (ə) beşiyinə pənah gətirən vaxtdan bu vəzifəyə məmur olunmuş Fetres adlı mələkdir.

11-ci: Allahın nurundan olan möhürü zəvvarların alnına vuran mələkləridir, möhürün üzərində yazılıb: "Bu şəxs şəhidlərin Seyidinin (ə) zəvvarıdır." Qiyamət günü onlar bu möhürlə tanınacaqlar. Allahın Rəsulu (s) və Cəbrayıl (ə) onların qolundan tutub, qiyamətin şiddətlərindən nicat verəcəklər.[3]

12-ci: Bu mələklər İmam Hüseynə (ə) ağlayanların göz yaşlarını toplayıb, həyat suyu ilə qarışdırırlar, bu da həmin suyun şirinliyini artırır.

13-cü: "Hər səmada sakin olan 70 000 mələkdir, o Həzrətin (ə) ruhu onların yanından keçən vaxtdan bəri dayanıblar və qiyamət

---

[1] Bihar 98/40, 55, 66
[2] Bihar 98/ 67, 56
[3] Bihar 45/182, 219

gününədək ahu-nalələrindən titrəyirlər, necə ki, Abuzərin nəql etdiyi rəvayətdə gəlir.

14-cü: Ricət zamanı o Həzrətin (ə) yavərləridirlər, onlar həmin o Cənaba (ə) kömək etmək üçün Allahdan izn alan mələkləridir. İzin alandan sonra Kərbəlaya endilər, lakin o Həzrət (ə) artıq şəhid olmuşdur. Allaha ərz etdilər: "Pərvərdigara, Hüseynə (ə) kömək etmək üçün bizə izn verdin, ancaq biz yetişmədik." Vəhy gəldi: "O ricət edənədək onun qübbəsinin altında qalın ki, o zaman ona kömək edəsiniz və bu köməyi fotə verdiyinizə görə ağlayın." Beləliklə, həmin mələklər o Həzrətin (ə) gümbəzinin altındadırlar və ağlayırlar. İmam Hüseyn (ə) ricət edən zaman ona yavər olacaqlar. Buna görə, şiələrdən hər kəs o Həzrətə (ə) kömək etmək fürsətini fotə verdiyinə ağlasa həmin mələklər kimi olacaqdır.

15-ci: Peyğəmbərin (s) salamını zəvvara çatdıran mələklərdir, necə ki, rəvayətdə gəlir.

16-cı: İmam Sadiqdən rəvayət olunur ki, İmam Hüseynin (ə) qəbrinə Allaha ibadət etmək üçün 70 000 mələk müvəkkil olunubdur. Onların bir namazı Bəni-Adəmin 1000 namazına bərabərdir və bu namazların savabı Hüseynin (ə) zəvvarı üçün yazılır.

17-ci: Allahın əmri ilə zəvvarı ziyarətdən sonra evinə qədər müşayiət edən mələklərdir. Onlara əmr olunub ki, onun evinin qapısının yanında qalıb Allaha ibadət etsinlər və o öləndən sonra qiyamət gününədək onun ziyarətinə naib olsunlar.

18-ci: Zəvvarın vəfatından sonra onun qəbrinin yanında qalıb, qiyamət gününədək onun üçün istiğfar edən mələklərdir.

19-cu: Qiyamət gününədək hər gün o Həzrətin (ə) hərəminin dövrəsini 1000 mələk əhatə edir.[1]

20-ci: İmam Hüseyn (ə) şəhid olandan sonra Allahın dərgahına nalə edən mələklərdir və bunlar mələklərin hamısı idilər. İmam Baqir (ə) buyurur: "İmam Hüseyn (ə) yerə yıxılanda və düşmənlər mübarək başını bədənindən ayıranda, mələklərin hamısı bir dəfəyə Allahın dərgahına nalə etdilər ki: "Ey bizim Mövla-

[1] Bihar 98/ 48, 55, 68, 72

mız, Sənin həbibinin oğlu və Sənin sevdiyin İmam Hüseynlə (ə) bu tərzdə rəftar edirlər." Vəhy gəldi: "Sakit olun, and olsun izzəti-cəlalıma əlbəttə onlardan intiqam alacam." Sonra mələklərə İmamların (ə) Ərşdə kölgələrini göstərdi və onların arasında bir nəfər qiyam halında namaz qılırdı. Allah-taala buyurdu: "Bu Qaim vasitəsilə onlardan intiqam alacam."

21-ci: O Həzrətin (ə) şəhadətindən sonra mübarək türbətini səmaya aparan mələklərdir. Rəvayətdə gəlir ki, Firdovs mələklərindən bir mələk dəryalara nazil olub, öz qanadlarını tamam dəryalar üzərində açdı və fəryad etdi: "Ey dəryalar, hüzn libası geyinin ki, Peyğəmbərin (s) balasının başını kəsdilər." Sonra qanadları ilə İmam Hüseynin (ə) türbətindən götürüb, səmaya qalxdı. O Həzrətin (ə) türbətini iyləyən elə bir mələk qalmadı ki, bu qoxu ona təsir etməsin.

22-ci: O Həzrətin (ə) cənazəsinin qüslü, hənutu və kəfəni üçün nazil olan mələklərdir, necə ki, öz məhəllində zikr olunubdur.[1]

İkinci məqsəd: O Həzrətin (ə) mələklərin sifətləri ilə vəsf olunması

Bu mətləbin bəyanında deyirik ki, burada söhbət bir mələyin sifətindən getmir, çünki bu halda o Həzrət (ə) üçün fəzilət sayılmazdı. Əslində murad sayları tamam məxluqatın sayından çox olan mələklərin hamısıdır. Həmçinin, yaradılış günündən tamam mələklərin saya-hesaba gəlməyən ibadət növlərinin müxtəlifliyini əgər təsəvvürə gətirə bilsən, o zaman İmam Hüseynin (ə) fəzilət və sifətlərini dərk edə bilərsən. Hətta İmam Hüseyn (ə) tamam bu sifətləri və ibadətləri bir gündə cəm etmişdir. Beləliklə, o Həzrət (ə) tamam mələklərin məcmuəsidir.

Buna əsasən, əvvəlcə Hz. Əmirəl-möminin (ə) "Nəhcul-bəlağə"də verilən mələklərin siniflərinin vəsfi ilə tanış olaq. Həzrət Əli (ə) buyurur: "Onlardan bəziləri həmişə səcdə, bəziləri isə həmişə

[1] Bihar 45/221;182

ruku halındadırlar. Bəziləri səf (sıra) bağlayıblar və öz hallarından ayrılmırlar, Allaha təsbih deyirlər və yorulmurlar, onların gözləri yuxuya getmir, ağılları səhv etmir və bədənləri zəifləmir. Onlar heç vaxt qəflətə və unutqanlığa düçar olmurlar. Bəziləri Peyğəmbərlərə (ə) vəhy gətirən İlahi vəhyin əminləridirlər, Allahın əmrləri ilə nazil olub, qalxırlar. Bəziləri bəndələri hifz edirlər, digəriləri isə behiştin xəzinədarlarıdır. Bəziləri elə böyükdürlər ki, ayaqları 7-ci yerdə dayanıb və başları 7-ci səmadan keçibdir, sütunları şərqlə qərbdən kənara çıxıb və çiyinləri ilə Ərşi saxlayırlar.[1]

Müəllif deyir: "Məzlum İmam Hüseynin (ə) halətini düşünəndə dərk edirsən ki, tamam mələklərin ibadətləri kimi ibadət etmişdir. Belə ki, Allah üçün elə bir səcdə etdi ki, bir daha başını səcdədən qaldırmadı, elə bir ruku etdi ki, bir daha qəddi düzəlmədi. Aşura gecəsi sübhədək ibadət etdi və yuxu ona tərəf yol tapa bilmədi, Aşura günü öz nəfsini çətinliklərə atdı, o cümlədən əməllərdə, fellərdə, get-gəldə, hərbdə-zərbədə, həmlədə və nərə çəkməkdə, səhabələrinin köməyinə yetişməkdə və (hüccəti tamam etmək üçün) düşməndən kömək istəməkdə, bütün bu işlərdə bədəninə əsla yorğunluq və zəiflik gəlməmişdir, sanki şərif bədəni adi bədənlərin cinsindən deyildi. O Həzrəti (ə) səhabələri ilə birlikdə Allahın itaət məqamında necə səf bağladıqlarını müşahidə edəndə, aydın olur ki, onlar mələklər kimi Allahın itaətində səf bağlamış və bu məqamdan asla tərpənməmişlər.

Əmir əl-möminin (ə) həmçinin mələklərin vəsfində buyurur: "Onlar Allahın mərifətinin şirinliyini dadıblar. Allahın məhəbbət camından içib, sirab olublar, Allah xofunun kökü onların qəlblərinin dərinliklərində sabit və möhkəmdir. Qamətləri Allaha ibadət və itaət məqsədi ilə əyilmişdir, tamam nalə və yalvarışlarını Allaha tərəf yönəldiblər. Məqamlarının böyüklüyü onları xuşu halında bəndəlik etməkdən azad etmədi. Ücb (özündən razılıq) və əməllərini çox görmək nöqsanı onlara yol tapmadı.

[1] Nəhcül-bəlağə 1-ci xütbə, 18-bölüm

Allahın əzəməti müqabilində özlərini kiçik və aciz görmələri yaxşı əməllərini onlara böyük göstərməyə imkan vermədi. Buna görə, ibadətdə çəkdikləri zəhmətlər onlara yorğunluq gətirmir, Allaha xidmət etməkdə şövqləri əsla azalmır, Allahla münacat etməyin uzunluğundan dilləri heç vaxt qurumur, nalə və ahu-zarlarının çoxluğundan səsləri heç vaxt tutulmur, itaət məqamından çiyinlərini heç vaxt qaçırmazlar, Allahın əmrinə boyun əyməkdə əsla səhlənkar olmazlar və qəflət heç vaxt onların həndəvərinə yol tapa bilməz.[1]

Müəllif deyir: "Əgər həqiqət gözü ilə baxsan görərsən ki, mərifətin şirinliyi həmin Hüseynin (ə) daddığıdır və məhəbbət camı həmin Hüseynin (ə) içdiyi məhəbbətdir. Mərifətin elə bir şirinliyini daddı ki, qarşısına çıxan müsibətlər və çətinliklər onun ruhiyyəsini sındırmadı, halbuki, dünyanın tamam qəlbi, ruhi, nəfsi, cəsədi, zahiri, batini müsibətləri Kərbəlada cəm olmuşdur, bütün bunlara baxmayaraq İmam (ə) buyurdu: "Mənim üçün ölüm şirindir."

Elə bir məhəbbət camı içmişdir ki, susuzluğun şiddəti onun qəlbinə təsir qoymamışdır, halbuki, dili və dodaqları qurumuşdur, ciyəri yanırdı, gözlərinə qaranlıq çökmüşdür, ancaq qəlbi məhəbbət camından sirab olmuşdur.

Əgər bəsirət gözü ilə baxsan dərk edərsən ki, o Həzrətin (ə) sözü onun vücudunun ən gözəl və ən ali təsdiqi idi. Çünki, o Həzrət (ə) ürəyindən sancılan və kürəyindən bayıra çıxan üç şöbəli zəhərli oxun şiddətinə tab gətirməklə öz belini Allahın itaətində əymişdir. Qanı sel kimi axanda belinin Allah yolunda əyilməsinə, bədən əzalarının ayrılmasını da əlavə etdi.

Əgər diqqət yetirsən görərsən ki, İmam Hüseyn (ə) Əmirəlmöminin (ə) mələklər barədə buyurduğu həqiqətlərin ən əzəmətli təsdiqidir. Necə ki, buyurur: "Allaha olan şövqləri onların ah-nalələrinin davamiyyətini kəsmir, çünki öz ah-nalələrində bir şey istəmirlər ki, ona qovuşduqda ya ondan naümid olduqda ah-

[1] Nəhcül-bəlağə 90-cı xütbə, 32-ci bölüm

nalələri kəsilsin. Həqiqətdə onların məqsədi diri olduqları halda daim ah-nalə etməyin özüdür və İmam Hüseyn (ə) bu sifətdə mələklərdən üstün idi. Belə ki, öz ah-naləsinin nə dünya həyatında, nə də ölümündən sonra kəsilməsini istəmirdi. Çünki, şəhadətindən sonra mübarək cəsədi, başı və nurlu qəbri ilə növlərlə müsibətlərə səbir etdi və bunların hamısına həyatı vaxtı niyyət etmiş və gözünün önünə gətirmişdir. Hətta bədəninin atların nalları altında tapdalanmasını, barmağının və əlinin kəsilməsini, dodağına və dişlərinə çubuğun vurulmasını, başının şəhərlərdə və bazarlarda dolandırılmasını, bunların hamısını öz ibadətlərinin bir hissəsi qərar vermişdir. Bunlar bu məqamda olan kəlamın yalnız bir zərrəsidir, qalanı isə yaddaşın xəzinəsində qalsın.

Üçüncü məqsəd: O Həzrətin (ə) mələklərə bəxşişləri

Üçüncü məqsəd: O Həzrətin (ə) mələklərə olan bəxşişlərinə dair bir neçə mətləb vardır:

1-ci: Onların günahkarlarına şəfaət etməsi, necə ki, Fetres və Dərdayıl adlı mələklərin əhvalatında gəlibdir.

2-ci: Rəvayətdə nəql olunduğu kimi, o Həzrətin (ə) şərif qəbri mələklərin meracıdır.

3-cü: İmam Hüseyn (ə) mələklərin feyz mənbəyidir belə ki, o Həzrətə (ə) xidmət etməklə elə bir məqamlara ucaldılar ki, o məqamlara təsbih və təqdis deməklə yetişə bilmirdilər. Həmin buna görə, mələklər deyəndə ki: ***"Halbuki biz Səni həmd ilə təsbih və təqdis edirik."*** Allahdan xitab gəldi ki: ***"Həqiqətən Mən sizin bilmədiyiniz bir şeyi bilirəm."*** (Bəqərə /30) Beləliklə, səbəbi İmam Hüseynin (ə) vücudunda olan feyzin həqiqəti onlara gizli idi və sonradan bunu dərk etdilər. Həmçinin dərk etdilər ki, Hüseyni vasitələrlə, o cümlədən o Həzrətə (ə) ağlamaqla, onun ziyarəti ilə, zəvvarlarına və qəbrinə xidmət etməklə onların dərəcələrinin yüksəlmə vasitələri təyin edilmişdir.

ON BİRİNCİ ÜNVAN

İMAM HÜSEYNİN (Ə) ƏZƏMƏTLİ PEYĞƏMBƏRLƏRƏ (Ə) NİSBƏT XÜSUSİYYƏTLƏRİ

Bu mətləbin bəyanında bir neçə məqsəd vardır:

Birinci məqsəd: O Həzrətə (ə) əzəmətli Peyğəmbərlərin (ə) sifətlərindən bəxş olunanlar barədə deyirik: Allah-taala Peyğəmbərlərə (ə) on iki sifəti məxsus etmişdir və bunların hamısı ən kamil surətdə İmam Hüseyndə (ə) təcəlli tapmışdır. Peyğəmbərlərin (ə) sifətlərindən biri budur ki, Allah-taala Peyğəmbərləri (ə) zəif, fəqir, dünya malından və zinətindən uzaq qərar verməklə xalqı imtahan etmişdir.

Onların tamam halətləri və imtahanları Aşura günü İmam Hüseyndə (ə) mövcud idi, belə ki, o Həzrət (ə) həmin gün ixlasın və hər şeyin fəqət Allah üçün olmasının həqiqətini aləmə zahir etdi. Buna görə, onun səhabələrini və tabeçilərini Allahın övliyaları, seçilmişləri və dostları ünvanı ilə çağırırlar.[1]

Peyğəmbərlərin (ə) sifətlərindən biri də budur ki, Allah-taala onların hamısını fəqirliyə, ya aclığa, ya təşnəliyə, ya vurulmağa, ürpən qalmağa, ya qətlə, ya əziyyətə və ya qorxuya düçar etmişdir.

Bəziləri aclıqdan ölmüşlər, bəziləri təşnəlikdən, lakin onların heç birində bu bəlaların hamısı cəm olmamışdır, hərçənd bəzi Peyğəmbərlərdə (ə) bu bəlaların əksəriyyəti cəm olmuşdur. Hüseynin (ə) xüsusiyyəti budur ki, bütün bu bəlaların hamısı o Həzrətdə (ə) elə bir tərzdə cəm olmuşdur ki, heç bir cəhətdən onda salamat sifət yox idi.

Peyğəmbərlərdə (ə) mövcud olan digər sifət bu idi ki, onların bədənlərindən daim ətir qoxusu gəlirdi.[2]

İmam Hüseyndən (ə) də daim almanın ətri gəlirdi və indiyədək o Həzrətin (ə) şərif qəbrindən alma ətri gəlir. Rəvayətdə nəql olunur ki, müxlis şiələr bu ətri duyurlar, xüsusən səhər vaxtı.[3]

[1] Bəhar 98/21; Əmaliyə Səduq 44/101
[2] Bəhar 62/176; Kafi 6/358
[3] Bəhar 43/274

İkinci məqsəd: O Həzrətin (ə) tamam Peyğəmbərlərə (ə) nisbət xüsusiyyətləri

Ümumən Peyğəmbərlərdən (ə) o Həzrətə (ə) bəxş olunanlar barədə bir neçə mətləbi qeyd edirik:

1-ci: Tamam Peyğəmbərlər (ə) o Həzrətin (ə) qəbrini ziyarət ediblər, zahirdə Kərbəlanı ziyarət etməyən Merac gecəsində ziyarət ediblər, necə ki, Peyğəmbər (s) buyurmuşdur: "Merac gecəsi məni Kərbəla adlanan yerə apardılar və Hüseynin (ə) döyüş meydanını göstərdilər."[1]

2-ci: İmam Hüseynin (ə) şərif qəbrini ziyarət etməyə Peyğəmbərlər (ə) üçün məxsusi vaxt təyin olunubdur, o cümlədən Qədr gecəsi və nimeye Şəban gecəsi.

Üçüncü məqsəd: İmam Hüseynin (ə) Peyğəmbərlərin (ə) fəzilətlərinə nisbət xüsusiyyətləri

Bu mətləbin bəyanında bir neçə fəsil vardır:

Bil ki, o Həzrətin (ə) ziyarətində bəzi peyğəmbərlərdən (ə) varislik məqamı varid olmuşdur, necə ki, məşhur "Ziyarəti varis"də nəql edilir. Bəzi ziyarətlərdə peyğəmbərlərə (ə) onların adları və sifətləri ilə salamlar verilibdir. Bu ünvanın bəyanında əvvəlcə varisliyin və onun keyfiyyətinin həqiqətlərini bəyan etməyi zəruri bilirik, sonra da deməliyik ki, mümkündür ziyarətdə deyilən ad ya sifət həmin adı çəkilən peyğəmbərə (ə), ya da həmin peyğəmbərlə o sifətdə münasibəti olduğuna görə istiarə (işarə) ilə İmam Hüseynə (ə) məxsus edilsin. Məsələn, ziyarətdə gəlir: "Əssəlamu aləl-Əyyubis-sabir" (yəni, salam olsun səbirli Əyyuba). Beləliklə, mümkündür deyək ki, burada murad həmin Əyyub peyğəmbərdir (ə) və mümkündür deyək murad istiarə ilə İmam Hüseyndir (ə). Həmçinin məzlum Yəhyaya (ə) və qeyrisinə salam verəndə də belədir.

---

[1] Bihar 44/239

özünü öyməyə başladı. Sonra o Həzrətin (ə) mübarək başına işarə edərək, dedi: "Bu həmişə mənim üzərimdə iftixar edirdi və deyirdi ki, atam Yezidin atasından, anam Yezidin anasından, Cəddim Yezidin cəddindən və özüm də onun özündən yaxşıyam.

Amma, o ki deyirdi, atam Yezidin atasından yaxşıdır, atası atamla mübahisə etdi və Allah atam üçün hökm çıxardı. O ki, deyirdi anası anamdan yaxşıdır öz canıma and olsun düz demişdir. Əlbəttə, Allah Rəsulunun (s) qızı Fatimə (ə) mənim anamdan yaxşıdır. O ki, qaldı Cəddi mənim cəddimdən yaxşıdır, bu da hər müsəlmana məlumdur. Amma o ki, qaldı onun məndən yaxşı olmasına, məgər oxumayıb ki, Allah mülkü istədiyi kəsə verər və istədiyi kəsdən alar.[1]

Hüseyn ibn Əlini (ə) yaxşı tanıyın

Ey qeyrət sahibi, bu bədbəxt məlunun sözləri barədə yaxşı düşün ki, onun qəsdi necə də o Həzrəti (ə) təhqir etmək idi. Buna görə, onun müqabilində o Həzrətə (ə) ehtiram və təzim edin. Ey qeyrət, mürüvvət və himmət sahibləri, deyin ki: "Ey məlun, təhqiramiz tərzdə işarə etdiyin həmin o baş yerin və səmaların zinətidir və Ərşin iftixarıdır.[2]

O Allah-taalanın və Peyğəmbərin (s) əzizidir, o həmin şəxsdir ki, Peyğəmbər (s) onu özü ilə minbərə çıxarmış və demişdir: "Bu Hüseyn ibn Əlidir (ə) onu yaxşı tanıyın."[3] O həmin Zəhrayi–Bətulun (ə) əzizidir." Hərçənd ki, bunlar qəlbə sərinlik gətirmir, çünki bu sözləri o məlunun qarşısında deməmişik.

Bəli, bir nəfər yəhudi alimi danışdı, Rum padşahının elçisi bir söz danışdı və Hz. Zeynəb (ə) nitq söylədi və bunları təfsilatı öz məhəllində verilibdir.[4]

Yenə də Yezidlə İblis məlunun halətlərini biri-birinə tətbiq edəndə diqqət yetir ki, iblis zahiri və səthi nəzəri ilə gilin (tor-

[1] Bihar 45/44, 46, 90, 128, 131
[2] Bihar 43/261; Əmaliyi Səduq 24/98
[3] Bihar 43/262; Əmaliyi Səduq 87/478
[4] Bihar 45/141,133, 157

pağın) təvazökarlığını, yumşaqlığını və zillətini, atəşin isə coşqunluğunu, hərarətini, yandırmasını və yüksəlməyini gördü. Belə xəyal etdi ki, atəş torpaqdan yaxşıdır, ancaq torpaqda olan şərafətdən qafil qalmışdır. Bilmirdi ki, torpaq tamam bitlikəri, otları, gülləri və meyvələri yetişdirən münbit məkandır və filizlərin, cəvahirlərin və həyatın mənşəyi olan suyun anbarı və sair nemətlərin mədənidir.

Yezid də özünü səltənət taxtında, tabeçilərini də zinətli libaslarda və fəxrli silahlarla ətrafında itaətlə dayanmış halda və Hüseynin (ə) kəsilmiş başını hərəkətsiz və hissiyyatsız halətdə teştin üstündə görəndə elə xəyal etdi ki, özü bir fəzilət sahibidir. Buna görə, belə dəlil gətirdi ki, Allah ona mülk vermiş və əziz etmişdir, Hüseyni (ə) də zəlil etmişdir. Amma o bədbəxt, məlun bilmirdi ki, Allah-taala Hüseyni (ə) əziz etmiş və mülkü Hüseynə (ə) vermişdir. Məgər görmürsən ki, tamam Bəni-Adəm Yezidə lənət oxuyur? Ancaq Hüseyn (ə) tamam dünya əhlinin, hətta kafirlərin qəlblərinin Maliki (Şahı) olmuşdur.[1]

Əgər bu ayənin: "İstədiyi kəsə izzət bəxş edər və istədiyi kəsi zəlil edər" – nümunəsini görmək istəsən Hüseynin (ə) qəbrinə bax, onun ehtiramını, zinətini və daim daha ali tərzdə həyata keçirilən təmirini və günbəgün artan zəvvarını müşahidə et.

Sonra bax Yezidin Şamda qəbrinə, dəfn olunan günündən bəri o qəbrin yanından keçən hər kəs ona bir daş atır, hətta əvvəldən özü ilə daş götürür. Tamam şiə, sünni, yəhudi və məsihi belə edir. Təcrübə olunub ki, əgər ona tərəf daş atmasa hacət yerinə yetmir. Halhazırda onun qəbrinə atılan daşlardan böyük bir təpə yaranıbdır.

Öz şərif xütbəsi ilə o məluna xəyalının batil olması barədə dərs verən şəxs Xanım Zeynəb (ə) olmuşdur və bu xütbənin təfsilatı ayrıca fəsil tələb edir.

Adəm (ə) cənnətn birdəfəlik ayrılmaq bəlasına düçar oldu və müqəddəs ünsiyyət və bağlar məhəllindən bəla, möhnət, əziyyətin mədəni olan yer üzünə nazil oldu və ölkələrin dəyişməsi barədə şeir söylədi.[2]

---

[1] Bihar 43/281

[2] Bihar 11/233; Uyunil əxbar 1/242

Adəmin (ə) ağlaması ilə Hüseynin (ə) ağlamasının müqayisəsi

Hüseyn (ə) də dostların, övladların və qardaşlarının cəmiyyəti behiştindən iki saat ərzində ayrılmaq bəlasına düçar oldu. Rəvayətdə gəlir ki, o Həzrətin (ə) səhabələrindən və yaxınlarından heç kəs qalmayanda, xeymədən bir uşaq çıxdı, onun qulağında dürrüdən bir quşvarə var idi. O qorxaraq ətrafına baxırdı, bu vaxt Hani ibn Subet adlı məlun onun üstünə gəlib, qılıncla qətlə yetirdi.

Artıq bu da qalmayanda İmam (ə) bacısına buyurdu: "Südəmər körpəni gətir." Bacısı körpəni gətirib İmama (ə) verdi və olanlar oldu.

Bu da qalmayanda qadınları çağırıb, onlarla vidalaşdı və ölkəni dəyişmiş vəziyyətdə və özünün də tənha qaldığını gördü. Bu zaman Adəmin (ə) həmin şeirinin məzmununda bir şeir söylədi, Adəm (ə) dua etdiyi kimi dua etdi. Bir rəvayətdə gəlir ki, Adəm (ə) 200 il ağlamışdır və Hüseyn (ə) bir gündə neçə məqamda ağlamışdır. Lakin İmam Hüseynin (ə) ağlamağı Adəmin (ə) ağlamağı ilə müqayisə olunmazdı, çünki Adəmin (ə) ağlamağı özünün ayrılığına görə idi, ancaq Hüseynin (ə) ağlamağı qəlbinin başqalarına yandığına və rəhimli olduğuna görə idi.

Adəmin (ə) ağlamağı hərçənd uzun müddətli və şiddətli olsa da, belə ki, onun göz yaşlarından çaylar əmələ gəlirdi.[1] Amma Hüseynin (ə) ağlamağı qəlbinin çeşməsindən axan qan idi.

Adəmin (ə) ağlamağı təsəlli ilə sakitləşdirildi, amma Hüseynin (ə) ağlamağının təsəllisi yoxdur.

Adəmin (ə) ağlamağı öldürülmüş oğluna görə idi, Hüseynin (ə) ağlaması isə öldürülmüş qardaşlarına, övladlarına, əmisi uşaqlarına, səhabələrinə və əsir düşmüş əyalına və uşaqlarına xatir idi.

Adəm (ə) özünə və zövcəsinə yemək və qüvvə hasil etmək üçün böyük çətinliklərə düçar oldu, çünki o zaman yer üzündə məişət vasitələri zəhmətlə hasil olurdu. Beləliklə, vasitələr barədə

[1] Bihar 11/204 ; Xisal 1/272

elm əldə etmək kamil müəllim olmadan çətin məsələ idi. Əgər İlahi kömək olmasaydı Bəni-Adəm üçün yer üzündə yaşamaq mümkün olmazdı.

Hüseyn (ə) də uşaqlarının və əyalının təşnəliyini aradan aparmaq üçün su hasil etməyə düçar oldu, halbuki su orada mövcud idi. O Həzrət (ə) çox zəhmətlər çəkdi, növlərlə bədəni və nəfsani əziyyətlərə tab gətirdi, bəzi vaxtlar özü xalqa moizə edirdi, bəzən də bir nəfəri göndərirdi ki, gedib onlara moizə eləsin. Gah da bir nəfəri göndərir ki, gedib onlardan xahiş etsin, gah da gecə gizli şəkildə bir dəstə göndərdi, gah su üçün quyu qazırdı, gah da qadınlar üçün su istəyərək özü düşmənlərə xitab edərdi: "Bunlar ki, sizinlə müharibə etmirlər."[1] Gah körpəsi üçün su istəyirdi, gah da körpəni onlara göstərirdi ki, təşnəlikdən taqətsiz olduğunu görsünlər. Can üstə olduğu zaman (hüccəti tamam etmək məqsədi ilə) özü üçün də su istəmişdir.[2]

Adəm (ə) bir qədər zəhmətdən sonra özü üçün yemək hasil etmişdir, ancaq Hüseyn (ə) bütün zəhmətlərdən sonra yenə də təşnə dodaqlar ilə can verdi, aləmin canı ona fəda olsun.

Adəm (ə) Habilin qətlinə və Hüseyn (ə) Əliəkbərin qətlinə düçar oldu.

Adəm (ə) Qabilin Habili öldürməsinə, onu dəfn etməsinə və yerin onun qanını içməsinə düçar oldu, sonra Adəm (ə) yerə lənət etdi və yer bir daha heç kəsin qanını içmədi.[3] Ancaq Hüseyn (ə) oğlu Əliəkbərin parə-parə olmuş bədənini, kəfənsiz və dəfnsiz görmüşdür.

Adəm (ə) Habilə 40 gecə və gündüz ağladı, vəhy gəldi ki, Allah-taala onun əvəzində sənə Allahın hibəsi Şis peyğəmbəri (ə) bəxş etdi.

Hüseyn (ə) öz oğluna yarım saat ağladı və bu Adəmin (ə) 40 gün ağlamağının müqabilində idi. Sonra körpə oğlu Əliəsğərin qətlinə və digər oğlu Zeynulabidinin (ə) ayrılığına düçar oldu.

---

[1] Bihar 44/392, 388, 387; Tarixi Təbəri 5/208
[2] Bihar 45/56; Məqtəli Xarezmi 2/31
[3] Bihar 11/230; Təfsiri Qummi 1/166

İdris peyğəmbər (ə) və Hüseyn (ə)

İdris (ə) fəsli: Allah-taala İdrisi (ə) uca məkana 4-cü səma ilə 5-ci səma arasına ucaltdı.[1] Ancaq Hüseyni (ə) ali məkana ucaltdı, ruhunu, qanını, misalını və türbətini uca məkana ucaltdı, bunun təfsilatı yerində zikr edilmişdir.

İdrisin (ə) şəfaəti bir mələyin haqqında qəbul olundu, Hüseynin (ə) şəfaəti iki mələyin, yəni Fetres və Dərdayıl adlı mələklərin haqqında məqbul oldu.

İdris (ə) sultan əlindən qaçmağa, yavərlərindən ayrılmağa və üç gün ac qalmaq bəlasına düçar oldu. Hüseyn (ə) də Allahın evinin ehtiramına xatir orada qətlə yetirilmək təhlükəsindən qaçmağa, sayı qat-qat artıq olan düşmənlə döyüşməyə və üç gün susuz qalmağa düçar oldu. Belə ki, bacısı Zeynəb (ə) növhə məqamında demişdir: "Zeynəb (ə) qurban olsun təşnə qodaqlarla öldürülən qardaşına."

Nuhun (ə) fəsli: Nuh (ə) mürsəl peyğəmbərlərin şeyxidir və Hüseyn (ə) cənnət cavanlarının Ağasıdır. Nuhun (ə) Kufə məscidi kimi şərəfli evi vardır.[2] Hüseynin (ə) dəfn olunduğu məkan isə Kufə məscidindən bir neçə səbəbə görə daha şərəflidir.[3] Allah-taala Nuhun (ə) haqqında buyurur: ***"Aləmlər içərisində (Allahın) salamı olsun Nuha."*** (Saffat/79) Çünki, gəmi əhlinin nicatı onun vasitəsilə olmuşdur. Hüseyn (ə) də cəhənnəmdən nicat vasitəsidir.

Nuh (ə) suyun üzərində üzən gəminin sahibi idi, Hüseyn (ə) də nicat gəmisidir, ona pənah gətirən hər kəs cəhənnəm təbəqələrindən nicat tapacaqdır.

Nuh (ə) 950 il öz xalqını haqqa dəvət etdi, bu yolda onu o qədər döydülər ki, üç gün özündən getmişdir və qulağından qan axmışdır.[4] Hüseyn (ə) də yarım gün öz qövmünün arasında haqqa dəvət etdi, buna görə onu o qədər vurdular ki, üç gün başsız bədəni qumlar üstündə qaldı və tamam əzalarından qan axırdı.

---

[1] Bihar 11/277
[2] Bihar 11/335
[3] Bihar 98/115; Kamiluz-ziyarat 88/264
[4] Bihar 11/229; Məcməul-bəyan 4/670

Beləliklə, bu saatda o Həzrətin (ə) əziyyəti Nuhun (ə) 1000 illik əziyyətindən çox olmuşdur.

Həzrət İbrahim (ə) və Hüseyn (ə) və mələklərin köməyindən imtina etmək

İbrahim fəsli: Ziyarətdə belə oxuyan zaman: "Əs-səlamu alə İbrahim (ə) Xəlilullah", istəsən İbrahim peyğəmbəri (ə) nəzərdə tuta bilərsən, çünki o həzrət (ə) Allaha yaxınlaşmaq üçün özünü Nəmrudun atəşinə atdı və bu yolda mələklərin köməyindən imtina etdi və öz xilası üçün dua etmədi. Hətta dedi ki: "Allahın mənim halım barədə elmi, ona dua etməyimdən məni ehtiyacsız edir."[1]

Habelə, əgər istəsən Kərbəla Xəlilini (ə) də nəzərdə tuta bilərsən, çünki o Həzrət də (ə) Allaha yaxınlaşmaq yolunda özünü qılıncların, nizələrin, oxların üzərinə atdı və bu yolda mələklərin köməyindən imtina etdi və bununla da bir çoxları üçün atəşi sərin və əmin etdi.[2]

İstəsən oğlu İsmayılı (ə) qurban kəsmək üçün yerə yıxan Xəlili (ə) nəzərində tut, yaxud da öz oğlu Əlini bədəni parə-parə olmuş halda torpağın üstündə görməklə qurban edən Xəlili (ə) nəzərdə tut.

İstəsən o Xəlili (ə) nəzərdə tut ki, zövcəsi Sara ondan un istədi o isə xurcunu boş gətirdiyinə görə xəcalət çəkdi. Sonra xurcunu qumla doldurdu və Allah-taala həmin qumu una çevirdi.[3]

Yaxud qəsd elə o Xəlili (ə) ki, qızı Səkinə ondan su istədi, ancaq o əliboş gəlib, buyurdu: "Qızım, səni təşnə halda görmək mənim üçün çox çətindir."

İstəsən nəzərdə tut o Xəlili (ə) ki, öz əhlini əkinsiz və susuz bir yerdə bir məşk su ilə qoydu və Kəbənin qapısından tutub, dedi: "Allahım mən öz zürriyyəmi bu əkinsiz vadidə tərk edirəm." Sonra onlar üçün dua etdi ki, xalqın qəlblərini onlara qarşı mehriban etsin, onların ruzilərinə bərəkət versin.

[1] Bihar 11/ 63; Uyuni əxbar 2/55
[2] Bihar 45/80; Xərayic 2/848
[3] Bihar 12/5-6

Yaxud qəsd elə o Xəlili (ə) ki, öz əhlini susuz və yeməksiz bir vadidə təşnə, ac və heyran pərişan halda qoydu və vida vaxtı buyurdu: "Əsirliyə hazır olun."[1]

İstəsən nəzərdə tut o Xəlili (ə) ki, qonaq qəbul etməyi çox sevərdi. Yaxud o Xəlili (ə) ki, şəfaət etməyi və ona pənah gətirən şəxsi ümidlə qaytarmağı çox sevərdi.

İstəsən, millət sahibi olan Xəlili (ə), yaxud rəhmət mənbəyi olan Xəlili (ə) nəzərdə tut.

Xudahafiz indi də mən gedirəm

Yaqub (ə) fəsli: İmam Hüseynin (ə) ziyarətində deyilir: "Əssəlamu alə Yaqub (ə)". Əgər istəsən 12 oğlunun hamısı səhih-sağlam xidmətində dayanan Yaqub ibn İshaqı qəsd elə. Günlərin biri oğlanları Yaquba (ə) dedilər: "Ata bizlərdən birini canavar yedi." Bu sözlərin təsirinin nəticəsində Yaqubun (ə) beli büküldü və ağlamaqdan gözünün qarası getdi.

Yaxud Kərbəla Yaqubunu (ə) nəzərdə tut ki, oğlunun bu sədasını eşitdi: "Atacan xudahafiz indi də mən gedirəm."

İstəsən Yusifin (ə) qana bulaşmış, ancaq parə-parə olmayan köynəyini görən və sonra: "Əcəb mehriban canavar imiş" – deyən Yaqubu (ə) nəzərdə tut.[2] Yaxud oğlunun nəinki, parə-parə olmuş köynəyini, hətta tikə-tikə olmuş bədənini görən Kərbəla Yaqubunu (ə) niyyət elə.

Yaqubdan (ə) icazə istədilər ki, Yusifi əylənmək və oynamaq üçün səhraya aparsınlar, Yaqub icazə vermədi və dedi: "Ondan ayrılmağa tab gətirə bilmirəm." Ancaq İmam Hüseynin (ə) oğlu Əliəkbər döyüş meydanına gedəndə, qadınlar ah-nalə edərək onu buraxmırdılar, bu vaxt İmam (ə) buyurdu: "Buraxın getsin, o Cəddi Peyğəmbərin (s) görüşünə müştaqdır."

---

[1] Cəlaul-uyun s.201

[2] Bihar 12/225; Təfsir Qummi 2/342

Yaqubun (ə) yanına müjdə verən gəlib Yusifin (ə) köynəyini ona verdi və onu gözlərinə sürtməklə gözü şəfa tapdı. Ancaq Hüseyn (ə) oğlunun naləsini eşitdi, bununla da gözlərinin işığı getdi.

Yusif (ə) Misirin əzizinin və Hüseyn (ə) Yezidin sarayında

Yusif (ə) fəsli: Yusifi (ə) atasından ayıranda bəziləri dedilər: "Gəlin onu öldürək." Digəri dedi: "Öldürməyin, quyuya atın." Son qərarları onu quyuya atmaq oldu. Hüseynin (ə) övladlarını, qardaşlarını və səhabələrini öldürdülər, o Həzrətin (ə) özünə çoxsaylı qılınc, nizə və ox yaraları vurdular, halbuki, o yaraların biri onun qətlinə kifayət edərdi. Amma bununla kifayətlənmədilər və başçıları fəryad etdi: "Analarınız vayınıza otursun, onu öldürün." Beləliklə camaat o Həzrətin (ə) cəsədinin üstünə tökülüb, qələmlə vəsfə gəlməyən tərzdə başını kəsdilər.[1]

Yusif (ə) quyuya düşəndən sonra bir karvan onu quyudan çıxardıb, əsir etdilər, sonradan onu alıb Misir bazarına satmağa apardılar. Hüseyn (ə) torpağa yıxılandan sonra onun başını kəsdilər və o mübarək başı nizəyə taxıb, Kufənin və Şamın küçələrində dolandırdılar.

Yusifi (ə) məcburən Misirin əzizinin yanına apardılar və sonda Padşahın sarayında əmin və sakin oldu. Hüseynin (ə) kəsilmiş başını Yezidin sarayına apardılar və orada təhqirlərə və istehzalara məruz qaldı.

Dəvə sahibi olan Saleh (ə) və əhli-əyal sahibi olan Hüseyn (ə)

Saleh (ə) fəsli: Dəvənin sahibi Saleh (ə) dəvəni suvarmağa imtahan olunmuşdur. İmam Hüseyn (ə) də əhli-əyal sahibi idi və onlara su tapmaqla imtahan olunmuşdur. Saleh tamam bir günü

[1] Bihar 45/39

yalnız öz dəvəsini suvarmaq və başqasının o sudan içməməsini istəmişdir və onun qövmü üç günə razı oldular. Hüseyn (ə) uşaqları və əyalı üçün bir neçə məşk su istəmişdir, lakin buna razı olmadılar. Hüseyn (ə) hətta körpəsi üçün bir qurtum, yaxud bir damla suya razı idi, lakin bundan da imtina etdilər.[1]

Salehin dəvəsini kəsəndə dəvənin balası nalə edərək dağa qalxdı, indiyədək oradan keçənləri vəhşət hissi bürüyür.[2] Hüseyn (ə) də körpəsini əlinə götürüb onlardan su istədi, amma uşağı oxla vurdular, uşaq ağrıdan nalə etdi və ruhu bədənindən çıxdı. Bu vaxt İmam (ə) buyurdu: "Allahım mənim bu uşağım Sənin yanında Salehin dəvəsindən kiçik deyil. Buna görə, bu qövmdən intiqam al. Əgər intiqamı indi məsləhət bilmirsən, onda bundan daha yaxşı olan əvəzini yetir."[3]

Müəllif deyir: "Daha yaxşı əvəz budur ki, Allah-taala körpənin nalənin əvəzində məhşər günü, ya qiyamətin dayanacaqlarında, yaxud atəşin içində fəryad edənlərin dadına yetişmək nemətini o Həzrətə (ə) bəxş etdi, məxsusən indi o körpənin müsibətini eşitməklə fəryadları səmaya ucalan kəslərin.

Hud (ə) və Hüseyn (ə) xüsusi təvəkkül sahibidirlər

Hud (ə) fəsli: Hud (ə) xüsusi təvəkkül sahibidir, belə ki, öz qövmünə dedi: ***"Həqiqətən mən sizin Rəbbiniz və mənim Rəbbim olan Allaha təvəkkül etdim."*** (Hud/56) Hüseyn (ə) də bu kəlamı düşmənlərin müqabilində demişdir.[4]

Hud (ə) bu kəlamı öz qövmünə deyəndə onu yalnız çubuq və daşla vurdular, ancaq Hüseyni (ə) qılınc, ox, nizə, əmud, çubuq və daşlarla vurdular.

---

[1] Bihar 11/392
[2] Həmin
[3] Bihar 45/47
[4] Bihar 45/9

Hudun (ə) boğazından tutub, elə sıxdılar ki, az qaldı həlak olsun,[1] amma Hüseynin (ə) boğazını kəsdilər, zərbələr vurub bədənini parə-parə etdilər.

Şüeyb (ə) fəsli: Şüeyb (ə) həmin Musanın (ə) gördüyü, su kənarında qoyunlarını suvarmaq istəyən o iki qızın atası idi. Kişilər öz qoyunlarını suvarırdılar, bunlar isə kənarda dayanıb gözləyirdilər. Musa (ə) onlara dedi: "Niyə siz öz qoyunlarınızı suvarmırsınız?" Dedilər: "Bizim onlarla mübahisə etmək qüvvəmiz yoxdur, buna görə səbir edirik ki, çobanlar qoyunlarını suvarıb getsinlər. Atamız da qocadır və özü gələ bilmir." Musanın (ə) onlara ürəyi yandı və qoyunlarını suvardı.

Hüseynin (ə) qızları, bacıları və kiçik yaşlı uşaqları var idi, ancaq suyun yanında olanda gördü ki, tamam insanlar və heyvanlar, yəhudilər, məsihilər, hətta itlər və donuzlar Fəratın suyundan içirlər. Su yalnız o Həzrətin (ə) özünə və ətrafındakılara qadağan olunubdur, hətta başqaları sudan ayrılsalar belə. Halbuki, bu uşaqların atası böyük Seyiddir və aləmlərin şahıdır.

Əyyub (ə) və Hüseyn (ə) Allahın ən xas bəndələridir

Əyyub (ə) fəsli: Allah-taala onun haqqında buyurmuşdur: ***"Həqiqətən Biz onu səbirli gördük. Necə də gözəl bəndədir!"*** (Sad/44) Allah-taala Hüseyni (ə) də səbirli, hətta şükr edən, razı gördü və buna görə o Həzrəti (ə) "Nəfsi mütməinnə" – yəni "arxayınlıq va razılıq tapmış nəfs" kimi vəsf etmişdir və onun haqqında buyurmuşdur: "Mübarək olsun bu mövlud."[2] Habelə, Allah-taala onu ən xas bəndələr cərgəsinə daxil etmişdir, belə ki, Peyğəmbər (s) buyurmuşdur: "Hüseyn məndəndir." Hüseyn (ə) Allaha doğru həqiqi qayıdanlardandır, çünki hər itaətdən ayrılan kimi, digər daha ağır olan itaətə başlayırdı və şövqü daha artıq olurdu.

---

[1] Bihar 11/361

[2] Bihar 44/238; Kamiluz-ziyarat 21/67

Əyyub (ə) hər bəlaya səbir etdi, amma zövcəsi Rəhimənin saçının görünməsinə tab gətirə bilmədi. Hüseyn (ə) Kərbəla səhrasında tamam müsibətlərə səbir etdi, lakin bacısı Zeynəb (ə) xeymədən qətlgaha tərəf çıxanda tab gətirmədi və bütün səyini onu xeymələrə qaytarmaq olmuşdur.[1]

Həzrət Yəhyanın (ə) və İmam Hüseynin (ə) xüsusiyyətləri

Yəhya (ə) fəsli: Bil ki, Hz.Yəhyanın İmam Hüseynlə (ə) üç cəhətdən xüsusiyyətləri var idi:

1-ci: Rəvayətlərə əsasən, Hz. Yəhyanın İmam Hüseynlə (ə) bir neçə məsələdə paralelləri (eyni cəhətləri) var idi.[2]

2-ci: Peyğəmbərdən (s) nəql olunur: "Cəhənnəmin bir mənzili var ki, ona Yəhyanın (ə) və Hüseynin (ə) qatillərindən başqa heç kəs mütəhəqq deyil."[3]

3-cü: İmam Hüseyn (ə) Kərbəlaya səfər əsnasında hər dəfə bir dayanacaqda yüklərini endirəndə və yükləyəndə hz. Yəhyanı (ə) yad edirdi.

Bu xüsusyətlərə əsasən üç məsələnin tətbiqi məqamında, yəni, 1-ci: O Həzrətin (ə) Yəhya (ə) ilə olan paralelləri məsələsi, 2-ci: Hər dayanacaqda və köç edəndə o Həzrətin (ə) Hz. Yəhyanı (ə) zikr etməsini. 3-cü: Əvvəl işarə edilən keyfiyyətdə İmamın (ə) müsibətlərinin çoxluğunun bəyanında deyirik:

Allah-taala tərəfindən Yəhyanın (ə) və Hüseynin (ə) viladət müjdəsi

Birinci məsələ: Rəvayətlərdən anlaşılan paralellərin bəyanında deyirik: "Hz. Yəhyanın (ə) və İmam Hüseynin (ə) mübarək viladətlərinin müjdəsi Allah-taala tərəfindən verilmişdir. Beləliklə,

[1] Bihar 45/44: Məqtəli Xarezmi 2/31
[2] Bihar 16/ 168
[3] Bihar 44/301

birinci müjdədə buyurur: *"Ey Zəkəriyyə sənə adı Yəhya olan bir oğul ilə müjdə veririk."* (Məryəm/7).

İkinci müjdə budur ki, mələklər Peyğəmbərə (s) dedilər: "Allah-taala sənə Fatimədən (ə) dünyaya gələcək bir mövludla müjdə verir." Lakin Yəhya (ə) barədə müjdə Zəkəriyyənin (ə) sevincinə səbəb oldu. Ancaq Hüseyn (ə) barədə müjdə hüznə səbəb olmuşdur, çünki, anası ona qəm-qüssəli halda hamilə oldu və qəm-qüssəli halda həmlindən azad oldu, necə ki, hədisdə gəlir.[1]

Hz.Yəhya (ə) və Hz.Hüseyn (ə) hər ikisi 6 aylıq dünyaya gəliblər və hər ikisinə Allah-taala Özü bilavasitə ad qoymuşdur.[2] Hər ikisi ana südü içməmişlər, belə ki, Yəhya (ə) səmadan süd içmişdir, İmam Hüseyn (ə) isə əzəmətli Ərşdən, yəni Peyğəmbərin (s) dilindən süd içmişdir.[3] Hər ikisinin alnı parlayırdı və hər ikisi ömrü boyu sevinmədilər, əgər bəzi vaxtlar onlara şadlıq üz versə də tezliklə hüznə çevrilirdi. Hər ikisinin qatili vələdüzzina idi, rəvayətdə gəlir ki, cəhənnəmdə fəqət Yəhyanın (ə) və Hüseynin (ə) qatillərinin müstəhəq olduğu bir mənzil vardır. Hər ikisi üçün səma və yer qan ağlamışdır.[4] Hər ikisinin başı qətldən sonra danışmışdır. Yəhyanın (ə) başı padşaha dedi: "Allahdan qorx." İmam Hüseynin (ə) başı dəfələrlə Quran tilavət etmiş və "La hövla..." demişdir. Yəhya (ə) da səbir edərək qətlə yetirildi və Hüseyn (ə) də döyüş meydanında şəhid olmasına baxmayaraq səbir edərək qətlə yetirilmişdir, necə ki, İmam Zeynulabidin (ə) buyurmuşdur.

İmam Hüseynin (ə) hər mənzildə enəndə və hərəkət edəndə Yəhyanı (ə) yad etməsi

İkinci məsələ: Hədisdə gəlir ki, İmam Hüseyn (ə) hər mənzildə hz.Yəhyanı (ə) yad edir və buyururdu: "Onun başını zaniyə qadın

[1] Bihar 44/223
[2] Bihar 43/238
[3] Bihar 44/187, 243
[4] Bihar 45/211

üçün hədiyyə apardılar." Bəsirət gözü ilə baxsaq görərik ki, bu ən böyük müsibətdir, yəni Allahın seçdiyi ən ali insanın kəsilmiş mübarək başı ən mənfur adamların qarşısında qoyulur və onlar tərəfindən istehza və təhqir edilir. Necə ki, İbn Ziyad və Yezidin sarayında məzlum İmamın (ə) başı ilə rəftar etmişlər. Bu halət Allahın Rəsuluna (s) çox ağır gəlmiş və buna görə, o başa şadlanaraq, baxan kəslərə nifrin etmişdir.[1]

Hüseynin (ə) müsibətinin Yəhyanın (ə) müsibətindən daha böyük olması

Üçüncü məsələ: Bu mətləbi hz. Yəhyaya (ə) salam əsnasında bəyan edirik, İmam Hüseyn (ə) hər dayanacaqda enəndə və köç edəndə Yəhyanı (ə) zikr edərkən salam verirdi. Buna görə, biz də o Həzrətə (ə) təqlid edərək, deyirik: "Salam olsun, Allah-taalanın şəhadətlə əziz tutduğu Yəhyaya (ə)." İndi istəyirsən səbir yolu ilə qətlə yetirilən, yəni tutulub, sonra da başı kəsilən Yəhyanı (ə) nəzərdə tut. Yaxud nəzərdə tut o Yəhyanı ki, onu səbir yolu ilə qətlə yetirdilər, yəni o qədər yara vurdular ki, hərəkətdən düşdü, sonra da başını kəsdilər.

İstəsən qəsd elə o Yəhyanı ki, başını tutub teştin üzərində kəsdilər. Yaxud o Yəhyanı ki, böyründən nizə ilə vurub atdan yerə yıxdılar və sonra başını kəsdilər.

İstəsən o Yəhyanı (ə) qəsd edərsən ki, düşməninin kin-küdurəti bir dəfə boğazına bıçaq çəkməklə soyudu, yaxud o Yəhyanı (ə) qəsd edərsən ki, ona vurulan 4000 ox, 100-dən artıq qılınc və neçə nizə zərbələri və başını kəsməklə kin-küdurətləri soyumadı, cəsədinin üzərindən atlar çapdırdılar və müslə etdilər. Hələ bununla da düşmənin ədavəti soyumadı, mübarək başını nizəyə taxıb şəhərləri dolandırdılar, divarlardan asdılar. Hətta bununla da ədavətləri soyumadı, neçə məclisdə xeyzəran çubuğu ilə mübarək dodaqlarına və dişlərinə vurdular.

[1] Bihar 14/357; Təfsiri Qummi 1/88

İstəsən o Yəhyanı (ə) nəzərdə tut ki, başını bir dəfəyə bu evdən başqa bir evə aparıblar və İmam Hüseyn (ə) bu işə təəssüf edib, ağlayırdı. Yaxud o Yəhyanı (ə) qəsd elə ki, başını şəhərlərdə dolandırıb və bədbəxtə göndəriblər (yəni, bir dəfə deyil dəfələrlə bir şəhərdən digər şəhərə, bir yerdən digər yerə).

İstəsən nəzərdə tut o Yəhyanı (ə) ki, başını zalımın yanına apardıqda halı deyişdi. Yaxud o Yəhyanı (ə) qəsd elə ki, başını zalımın qabağına qoyanda təbəəssüm etdi və bu təbəssüm o Həzrətə (ə) vurulan yaralarını hamısından ağır idi. Bu təbəssümü eşidən zaman ağlayan gözü kor olmasın.

İstəsən nəzərdə tut o Yəhyanı ki, heç bir bəşəriyyəti, əhli-əyalı olmayan halda onu qətlə yetirmək üçün məsciddən çıxardılar. Yaxud qəsd elə o Yəhyanı (ə) ki, onu xeymələrdən çəkib, çıxardılar bir halda ki, qadınları heyrət içində və təpə halda düşmənlərin arasında kimsəsiz qalmışdılar. İmam Hüseyn (ə) onları sakit edib xeymədən çölə çıxdı, bu zaman balaca qızı o Həzrətin (ə) yanına gəlib ayaqlarına yıxıldı, ağlürdü və fəryad edirdi, aman kimsəsizlik və zillət əlindən. İmam (ə) qəşəbə, qızını qucağına aldı və bu məzmunda şeir buyurdu: "Mən sağ ikən gör yaşınla qəlbimi yandırma sən, elə ki öldürdülər ağla nə qədər istəyirsən."

İstəsən qəsd elə o Yəhyanı (ə) ki, başını təştdə kəsəndə bir damla qanı yerə düşdü və qaynamağa başladı və Bəni-İsraildən neçə adamı həlak etməmiş sakit olmadı. Yaxud istəyirsən o Yəhyanı (ə) nəzərdə tut ki, torpağın üstündə başını kəsdilər və qanını torpağa tökdülər, o Həzrət (ə) yalnız bir neçə damla o qandan əli ilə götürüb üzünə çəkdi və səmaya atdı və bu qan bir daha yerə qayıtmadı, elə halda tamam yer uzü alt-üst olardı.

İstəsən nəzərdə tut o Yəhyanı (ə) ki, bıçağı bir dəfə çəkməklə başını kəsdilər, yaxud o Yəhyanı (ə) ki, başını 12-i qılınc zərbəsi ilə bədənindən ayırdılar.

İstəsən o Yəhyanı nəzərdə tut ki, başını kəsdilər, ancaq bədəni salamat qalmışdır, yaxud o Yəhyanı (ə) nəzərdə tut ki, başını kəsdilər və bədənini dəlik-dəlik etdilər.

Bəhar 45/54; Məqtəlu Xarəzmi 2/37

Salam olsun O Yəhyaya (ə) ki, başını boynundan kəsdilər və bədənini atların nalları ilə tapdaladılar. Salam olsun o Yəhyaya (ə) ki, mübarək başını daşın üstünə qoydular, nizəyə taxdılar, ağacdan və darvazadan asdılar, təndirə qoydular və dəfn olunduğu yer bəlli deyil, hərçənd başın aqibəti bədənlə birgə olsa belə.

Musa (ə) kəlimullah idi, Hüseyn (ə) də kəlimullah idi

Musa (ə) fəsli: İmam Hüseyn (ə) Mədinədən çıxanda Qurandan Musanın (ə) Fironun əlindən qaçması barədə ayələri tilavət edirdi və Məkkəyə daxil olanda da Musaya (ə) aid olan ayələri tilavət etmişdir (Qəsəs /21,22). Bu tilavətlər o Həzrətin (ə) halətinin Musanın (ə) halətinə olan tətbiqinə işarədir.

Mətləbin bəyanında deyirik: Musa (ə) kəlimullah idi və Ənəs ibn Malikdən nəql olunan rəvayətə əsasən Hüseyn (ə) də kəlimullah idi. Kəlimullah idi, çünki şəhadət vaxtı ona xitab olundu: "Ey arxayın olmuş nəfs..." Musa (ə) "Ağ əlin" sahibi idi, yəni, bəzən möcüzəni zahir etmək məqamında əli parlayardı, ancaq Hüseynin (ə) bundan qat-qat artıq məqamı var idi, çünki o Həzrətin (ə) alnı və boğazı parlayırdı. Zeyd ibn Ərqəm rəvayət edir: "O mübarək başı onun otağının qabağından keçirəndə gördü ki, baş parıldayır." Bəni-Əsəd qəbiləsindən bir əkinçi Əlqəmənin kənarında əkinçilik edəndə, gördü ki, İmamın (ə) cəsədi parıldayır.

Musa (ə) əsanı daşa vurmaqla daşdan su qaynadı, Hüseynin (ə) müsibəti daşdan qan qaynatdı, necə ki, Beytul-müqəddəsin xırda daşlarından zahir olmuşdur. Rəvayətdə gəlir ki, Məhərrəmin 11-ci gecəsi sübh azanınadək hansı daşı və çöpü götürsəydin altından qan çıxardı.[1] Həmçinin, Hüseynə (ə) xatir tamam məxluqatın çeşmələrindən həyat suyu qaynayırdı və bu sifət o Həzrətin (ə) adı üçün də sabitdir, nəinki, onun müsibətini dinləyəndə, əslində hz. Adəmə (ə) isimlərin təlimi veriləndə bu həyat suyu qaynamışdır.

[1] Bihar 45/193,205

Necə ki, şərif ayənin təfsirində gəlir: *"Adəm öz Rəbbi tərəfindən bəzi kəlmələr aldı."* (Bəqərə /37)[1]

Musa (ə) üçün səmadan yemək nazil oldu və Hüseyn (ə) üçün bir neçə dəfə behiştdən meyvələr nazil olmuşdur, gah xurma, gah bişmiş yemək, gah da nar, heyva və alma gəlmişdir. Həmin nar hz. Zəhra (ə) vəfat edəndə yoxa çıxdı, heyva Əmir-əl-möminin (ə) şəhadətə yetəndə itdi və alma Aşura gününədək İmam Hüseynin (ə) yanında idi. İmam (ə) onu iyləyirdi və susuzluğu yatırdı. İmam Səccad (ə) buyurur: "Təşnəlik o Həzrətə (ə) qalib gələndə dişlərini o almaya batırdı və şəhid olanda həmin alma yoxa çıxdı. Amma almanın ətri qalmışdır və xalis şiələr səhər vaxtı o ətri duyurlar.[2]

Musanın (ə) vasitəsilə Sina dağı şərafət tapdı, elə bir həddə ki, Allah-taala ona and içdi. Hüseyn (ə) də Kərbəla torpağına nisbət belədir, hətta rəvayətdə gəlir ki, Sina dağı həmin Kərbəladır.[3]

Musa (ə) əsa sahibidir və Hüseyn (ə) qılınc sahibidir

Musa (ə) möcüzə olan əsa sahibi idi və Hüseyn (ə) ona irsən yetişən və Hüseyniyyə şücaəti kimi tanınmış, nubuvvət şücaətinin məzhəri olan qılıncın sahibi idi. Musa (ə) dua etdi və Allah-taala qardaşı Harunu ona vəzir qərar verdi. Hüseynin (ə) də belinin qüdrəti və qolunun gücü olan, qardaşı Abbas kimi vəziri var idi. Buna görə, hz. Abbasın (ə) şəhadəti vaxtı nalə etdi ki: "İndi belim sındı."

Musa (ə) üçün dərya yarıldı və Bəni-İsrail onun arasında keçdilər, Hüseyn (ə) üçün tamam dəryalar təlatümə gəldilər, balıqlar özlərini sudan çölə atdılar və o Həzrətə (ə) növhə dedilər. Firdovsi-bərrindən bir mələk nazil oldu və qanadlarını açıb, nida etdi: "Ey dərya əhli, hüzn libasını geyinin ki, Allah Rəsulunun (s) oğlunun başını kəsdilər.[4] Digər rəvayətdə buyurur: "Az qalır dəryalar

[1] Bihar 44/245
[2] Bihar 45/91, 92
[3] Bihar 98/108
[4] Bihar 45/221: Kamiluz-ziyarat 21/67-68

yarılsın və əgər dəryalara müvəkkil olan mələk onlara mane olmasaydı bəziləri bəzilərinin üzərinə tökülərdi və bu zaman hz. Fatimə (ə) oğluna ağlayıb, növhə deyirdi.

Bəzi rəvayətlərə əsasən bu hal dəfələrlə təkrar olunur, buna görə buyururlar: "Məgər Xanım Zəhranın (ə) yardımçılarından olmaq istəmirsən?"

Musa (ə) öz qəbrini öz əlləri ilə qazmışdır, belə ki bir qəbir qazan kişinin yanından keçəndə ondan soruşdu: "Bu qəbir kimindir?" Cavab verdi: "Allahın saleh bəndəsinin qəbridir." Musa (ə) dedi: "İstəyirsən sənə kömək edim." Beləliklə qəbri qazmaqda və ləhdi düzəltməkdə ona kömək etdi. O kişi dedi: "Uzan orada, görüm eni yaxşıdı ya yox." Musa (ə) qəbirdə uzandı və onun məqamını özünə göstərdilər. Musa (ə) ruhunun çıxarılmasını istədi və həmin qəbirdə ruhunu çıxardılar.[1]

İmam Hüseynin (ə) də cəsədi üç gün dəfn olunmamış qaldı, onun və səhabələrinin qəbrini Allah Rəsulunun (ə) özü qazmışdır. Rəvayətdə gəlir ki: Ümmü Sələmə Aşura günü yuxuda Peyğəmbəri (s) toza bulaşmış halda gördü və o Həzrət (s) belə buyurdu: "Camaat oğlum Hüseynin (ə) üstünə hücum çəkdilər və onu şəhid etdilər. Mən onun cəsədini gördüm və indiyədək onun və səhabələrinin qəbrini qazırdım."[2]

Musanı (ə) Fironun ailəsi sudan götürəndə, Musanın (ə) bacısı gəlib uzaqdan onunla nə etdiklərinə tamaşa edirdi. Gördü ki, Misir xanımları onu oğulluğa götürdülər. Onu əldən-ələ, qucaqdan-qucağa ötürürlər və tamam süd verən qadınlar ona dayəlik etmək üçün ətrafına cəm olublar. Ancaq o Həzrət (ə) onların döşünü qəbul etmirdi, bu vaxt bacısı gəlib o xanımlara dedi: "Mən ona dayəlik edə biləcək bir ailə tanıyıram." Hədisin axırınadək...[3]

Hüseyn (ə) atın belindən torpağa yıxılanda Süfyanın ailəsi onu əhatəyə aldılar və bacısı Zeynəb (ə) xeymədən bayıra çıxıb onlara

[1] Bihar 13/365; İkmalud-din 1/153
[2] Bihar 45/230; Əmaliye- Səduq 29/120; Əmaliye Mufid s.319
[3] Bihar 13/39; İkmalud-din 1/148

tamaşa edirdi ki, qardaşı ilə nə edəcəklər, gördü ki, onu qılınclar və nizələrlə öz qanı ilə sirab etmək istəyirlər. Bəs fəryad etdi: "Ey Sədin oğlu, Hüseyni (ə) öldürürlər sən də durub baxırsan?"[1]

Musa (ə) öz əhlini götürüb gedəndə, qış ayında gecə vaxtı Sina dağına çatdı, burada atəş yandıra bilməyəndə ətrafa baxdı və uzaqdan atəş gördü. Öz əhlinə dedi: "Burada gözləyin, gedim sizə atəş gətirim." Beləliklə istəsən bu kəlimullahı qəsd edərsən. Yaxud Peyğəmbərin (s) oğlu Hüseyn (ə) kəlimullahı qəsd edərsən ki, əhlinə buyurmuşdur: "Mən müqəddəs vadidə və mübarək torpaqda bir atəş tapmışam, gəlin mənimlə ki, Allah sizi əsir görmək istəyir."[2]

Musa (ə) acından çox ot yediyinə görə qarnının dərisindən otların yaşıl rəngi zahir olmuşdur.[3] Hüseynin (ə) bədən əzalarının hamısından; başından, bədənindən, saçlarından və dərisindən qanın qırmızılığı zahir olmuşdur və təşnəlikdən mübarək dodaqları göyərmişdir.

İsmayıl (ə) zəbihullah idi Hüseyn (ə) də zəbihullah idi

İsmayıl (ə) fəsli: İsmayıl (ə) özünü könüllü və gözəl surətdə atası tərəfindən Allah yolunda qurban kəsilməsinə təslim etdi və Allah-taala onu həlim adı ilə vəsf etdi. Hüseyn (ə) də özünü Allah yolunda düşmənlər tərəfindən öldürülməyə təslim edərək həlim olmuşdur. Hələ indiyədək heç kəsə belə ölüm üz verməyib və verməyəcəkdir. Əgər o Həzrətin (ə) müsibətinin bütün cəhətlərini mülahizə etsən bu kəlamın həqiqətini dərk edərsən.

Vədə sadiq olan İsmayılın (ə) fəsli: Bu kəlam Quranda gəlmişdir (Məryəm /54) və bu şəxs İsmayıl ibn İbrahimdən (ə) qeyrisidir. Allah-taala onu öz qövmü üçün peyğəmbər (ə) göndərmişdir və

[1] Bihar 45/55; Məqtəli Xarezmi 2/35
[2] Bihar 44/326; Luhuf s.28
[3] Bihar 13/28; Təfsiri Qummi 2/138

öz xalqı onu tutub, üzünün dərisini soydular. Allah-taala o xalqdan onun intiqamını almaq üçün peyğəmbərin (ə) yanına Sətatil adlı əzab mələyini göndərdi. İsmayıl (ə) dedi: "Mən Hüseynə (ə) təqlid edəcəm." Ancaq onun təqlidi yalnız üzünün dərisinin soyulması ilə kifayətlənmişdir. Canım fəda olsun bədəninin tamam dərisi qılınclarla, nizələrlə və oxlarla soyulan və əzaları biri-birindən ayrılan o məzlum qəribə. Necə ki, o Həzrət (ə) öz barəsində buyurmuşdur: "Sanki öz gözlərimlə görürəm necə səhra canavarları əzalarımı tikə-tikə edirlər."[1]

Davud (ə) növhəxan idi və Hüseyn (ə) də növhəxan idi

Davud (ə) əvvab idi, yəni çox növhə deyirdi, gah minbərdən növhə deyirdi və camaat toplanıb onunla bərabər nalə edirdilər, elə bir həddə ki, bəziləri onun naləsindən və yanıqlı səsinin təsirindən həlak olurdular.[2]

Hüseyn (ə) də imdad sədasını ucaltdı ki: "Ey qövm, mənim bir günahım yoxdur."[3] Beləliklə, bəziləri öz canlarını onun yolunda fəda etdilər. Quşlar, vəhşilər və dostlar qiyamət gününədək ona növhə deyirlər və deyəcəklər.

Süleyman (ə) əzəmətli mülk sahibidir və Hüseyn (ə) əzəmətli mülk sahibidir

Allah-taala Süleymana (ə) əzəmətli mülk bəxş etmişdir, tamam cinləri, insanları və quşları ona tabe etdirmişdir və külək də onun fərmanına itaət edirdi. Kərbəla Süleymanına (ə) da səma, yer, vəhşi heyvanlar, quşlar, küləklər, dəryalar, cinlər və mələklər

[1] Bihar 44/367; Luhuf s.26
[2] Bihar 14/17
[3] Bihar 45/ 83; Ehticac Təbərsi 2/291

tabe olunmuşdurlar və bunların hamısı o Həzrətin (ə) şəhadəti zamanı nalə və fəryad etmişlər.

Allah-taala Süleymanı (ə) bir cəsədin onun kürsüsünün üzərinə atılmasına düçar etmişdir ki, bəziləri dedilər: "Bu onun ölmüş oğlunun cəsədidir." Hüseynin (ə) də oğlunun parə-parə olmuş cəsədi torpağın üzərinə düşmüşdür. Süleyman (ə) üzüyünün oğurlanmasına düçar oldu, Hüseyn (ə) də üzüyünün barmağı ilə bərabər aparılmasına düçar oldu.

İsa (ə) Məryəmin övladıdır və Hüseyn (ə) Zəhranın (ə) övladıdır

İsa (ə) Məryəmin oğludur və Hüseyn (ə) Fatimeyi-Zəhranın (ə) oğludur. Mələklər Məryəmə onun paklığı və seçilməsi barədə nida etdilər. Həmin nida Xanım Fatiməyə (ə) də olunmuşdur. O nida ilə İsa (ə) ruhullah və kəlimullah idi, Hüseyn (ə) də ruhullah və rəhmətullah idi. İsa (ə) o zamanın qadınlarının Xanımının oğlu idi və Hüseyn (ə) aləmlər xanımlarının Xanımının (ə) oğlu idi.

O İsa (ə) daşı başaltı (balınc) edirdi, ancaq bu İsanın (ə) başı yox idi ki, balınca qoysun. O İsa (ə) sapı qamışdan olan libas geyinərdi, ancaq bu İsa (ə) üryan qalmışdır. O İsa (ə) quru və bərk yemək yeyərdi, bu İsa (ə) isə 3 gün yemək yeməmişdir. O İsanın (ə) malı yox idi, bu İsanın(ə) malını və libasını qarət etmişdilər. O İsanın (ə) övladı yox idi ki, hüznünə səbəb olsun, bu İsanın (ə) elə bir oğlu var idi ki, onun müsibətindən bədəni süstləşmiş və gözünün nuru getmişdir, ancaq Allaha xatir buna səbir etdi. O İsa (ə) şərq ilə qərbə kölgə salan idi, amma bu İsa (ə) 3 gün günəşin altında qalmışdır. O İsanın (ə) miniyi öz ayaqları və xidmətçisi öz əlləri idi,[1] amma bu İsanı (ə) ayaq üstə dayanmağa qoymadılar və barmağını üzüyünə görə kəsdilər, çiynini və əllərini bədənindən ayırdılar.

[1] Bihar 14/238

Üçüncü məqsəd: Hüseynə (ə) xatir Peyğəmbərlərə (ə) edilən bəxşişlər

Bil ki, İmam Hüseyn (ə) vasitəsilə Peyğəmbərlərə (ə) iki şey bəxş edilmişdir:

Biri budur ki: O Həzrət (ə) müsibətdə onların öndəri olmuşdur, belə ki, Peyğəmbərlərə (ə) yetişən hər bir müsibətdə səbir etməkdə İmam Hüseyni (ə) özlərinə nümunə bilirdilər. Bu məzmunda rəvayət Əmir-əl-möminindən (ə) nəql olunmuşdur.[1]

İkinci: Rəvayətdə gəldiyi kimi, onlar İmam Hüseynin (ə) adını çəkən zaman işlərində fərəc hasil olurdu. O cümlədən:

1-ci: Beş kimsənin adı Adəmə (ə) təlim edilən zaman onun tövbəsi qəbul olundu.[2]

2-ci: Nuhun (ə) gəmisi Cudi dağında bərqərar oldu.

3-cü: Zəkəriyyəyə (ə) Yəhya (ə) ilə müjdə verdilər.[3]

4-cü: Yunis (ə) balığın qarnından nicat tapdı.

5-ci: Əyyubun (ə) zərərlər silsiləsinə son qoyuldu.

6-cı: İsmayılın (ə) əvəzinə qurbanlıq qoç gəldi.

7-ci: Yusif (ə) quyudan nicat tapdı və zindandan xilas oldu.

8-ci: Yaqub (ə) Yusifin (ə) vüsalına qovuşdu.[4]

Tamam Peyğəmbərlər (ə) imtahanlarının şiddətli vaxtı beş kimsənin adlarına təvəssül edib və – "Bi həqqil-Hüseyn (ə)" – deyəndə dualarının müstəcab olurdu.

Müəllif deyir: Bizlər də günah əhliyik və günahlarımız səbəbindən bəlalarımız çox böyükdür, buna görə Allaha dua edirik: "Bi həqqi Muhəmməd (s) və Əli (ə) və Fatimə (ə) və Həsən (ə) və Hüseyn (ə)." Bizlər də o Həzrətin (ə) adını zikr edəndə qəlbimiz sınır, gözlərimizdən yaş axır və ümidvarıq ki, o şərəfli adın bərəkətinə Allah-taala bəlanı bizim üzərimizdən bərtərəf edər, inşallah.

---

[1] Bihar 44/262

[2] Bihar 11/74; Məaniəl-əxbar s.110

[3] Bihar 44/ 223, 243, 225: Uyuni Əxbar 1/209

[4] Bihar 12/ 231, 260; Təfisiri Qummi 1/345

ON İKİNCİ ÜNVAN

İMAM HÜSEYNİN (Ə) ƏN ÜSTÜN PEYĞƏMBƏRƏ (S) NİSBƏT XÜSUSİYYƏTLƏRİ

ON İKİNCİ ÜNVAN: O HƏZRƏTİN (Ə) MƏXLUQATIN ƏŞRƏFİ OLAN ALLAHIN RƏSULUNA (S) NİSBƏT XÜSUSİYYƏTLƏRİ

Xatəmul-ənbiyanın (s) fəzilətlərinin İmam Hüseyn (ə) üçün sabit olması

Burada məqsədimiz Allahın Rəsulunun (s) fəzilətlərinin və bəlalara düçar olmasının İmam Hüseyn (ə) ilə bağlı olduğunu sübut etməkdir. Mətləbin bəyanında deyirik: "Muhəmməd (s) məxluqatın ən şərəflisidir, İmam Hüseyndən (ə) də üstündür, eyni halda Hüseyn (ə) ondandır və o Hüseyndəndir.

Muhəmməd (s) Seyyidul-ənbiyadır və Hüseyn (ə) Seyyiduşühədadır, Muhəmməd (s) Xatəmul-ənbiyadır və Hüseyn (ə) Xatəmuş-şühədadır.

Muhəmməd (s), onun vasitəsilə məxluqata çatan ümumi feyzə görə aləmlərə rəhmətdir və Hüseyn (ə) də həmin səbəbə xatir aləmlərə rəhmətdir. Muhəmməd (s) şahid və müjdə verəndir, Hüseyn (ə) də öz zəvvarlarına və ağlayanları üçün qiyamət günü şahiddir və onların işlərinin islah olunması üçün şəhadət verəcəkdir və hal-hazırda da Ərşin sağ tərəfində onlara müjdə verir və deyir: "Ey ağlayan, əgər sənin üçün nə savab hazırlandığını bilsəydin, sevincin ah-nalədən çox olardı."[1]

Muhəmməd (s) Kövsər suyuna məxsusdur və Hüseyn (ə) Kövsərin sevincidir, Məsmə ibn Əbdul-Məlik nəql edir ki: "Kövsər,

[1] Bihar 44/292; Kamiluz-ziyarat 32/103

Hüseynin (ə) müsibətinə ağlayanlar onun suyundan içəndə sevincək olur."[1] Muhəmməd (s) şəfaət məqamlarından biri olan vəsilə sahibidir və Hüseyn (ə) Muhəmmədin (s) şəfaətinin ən böyük səbəblərindən biridir. Rəvayətdə gəlir ki: "Allahın Rəsuluna (s) Hüseynin (ə) şəhadəti barədə xəbər verəndə, Cəbrayılın (ə) kəlmələrindən biri də bu idi ki: "Əgər iki övladının şəhadətini ümmətinin günahkarlarının şəfaəti üçün ehtiyat saxlamaq istəyirsənsə buna razı ol. Əgər istəmirsən onda dua et ki, Allah-taala onları zəhər və qılınclardan amanda saxlasın."[2]

Muhəmmədin (s) bədən əzalarında kəramət və möcüzə zahir olmuşdur və Hüseyn (ə) Peyğəmbərin (s) kəramətinin məzhəri idi. Belə ki, o Həzrətin (ə) boğazı və alnı Peyğəmbərin (s) öpüşünün təsirindən parlayırdı. Həmçinin Peyğəmbər (s) Hüseynin (ə) göbəyinin üstündən çox öpərdi və bunun səbəbi üç şöbəli zəhərli ox ora batmayınca məlum olmamışdır və əslində həmin ox İmamın (ə) qətlinə səbəb oldu. Bu da Peyğəmbərin (s) möcüzələrindən biri idi.

Muhəmməd (s) xüsusi keyfiyyətdə meraca getmişdir və Hüseynin (ə) də xüsusi keyfiyyətdə meracı olmuşdur. Biri şəhadəti günü bədəninin meracı və digəri ruhani meracı idi.

Muhəmməd (s) İlahi hökmlərin təbliğində çox zəhmətlər çəkdi, Məkkədə məxluqatı haqqa dəvət yolunda tənha dayandı. Bədr, Ühud, Huneyn, Əhzab və sair müharibələrdə düşmənlərin əziyyətlərinə səbir etdi. Hüseyn (ə) də şəriətin bərpa və nəşr olunmasında zəhmətlər çəkdi, düşmənlərin müqabilində tənha dayandı, Peyğəmbərin (s) bütün müharibələrində olan məşəqqətlərinin hamısı Aşura günü onun qarşısında cəm olmuşdur. Bunların hər birinin təfsilatı özünə məxsus məqam tələb edir. Nə qədər desək Muhəmməd (s) belədir, o qədər də deyəcəyik Hüseyn (ə) belədir, çünki o Həzrətin (s) özü buyurmuşdur: "Hüseyn (ə) məndəndir və mən Hüseyndənəm."[3]

---

[1] Bihar 44/290; Kamiluz-ziyarat 32/102
[2] Bihar 44/242; Müntəxab Tureyhi 1/58
[3] Bihar 43/270

Beləliklə, biz də desək Muhəmməd (s) Hüseyndəndir (ə) və Hüseyn (ə) Muhəmməddəndir (s) kifayət edər. Bu məqam tamam fəzilətlərin və imtahanların tətbiq olunmasında kifayət edər, çünki əslində Hüseynin (ə) tamam imtahanları və bəlaları Peyğəmbərə (s) üz vermişdir və əksinə. Həqiqətən tofiq Allahdandır.

Həmd olsun aləmlərin Rəbbi olan Allaha.

MÜNDƏRİCAT

Ön söz 3
İmam Hüseynin (ə) qəlb yandıran müsibətinin zikrində 3
Xof və ümidin səbəbləri 5
Öz imanıma ümidvar oldum 6
Kərbəla torpağına varid olan zaman 8
Hüseyn (ə) Peyğəmbərin (s) qucağında 10
Hüseyni (ə) yad etmək qəlbi riqqətə gətirir 11
O həzrət (ə) öz zəvvarlarına Kövsər suyundan içirdəcək 12
İmam Hüseynin (ə) əzadarlıq məclislərinin on dörd sifəti vardır 14
Bu kitabın tərtibi və on iki ünvanı 15

BİRİNCİ ÜNVAN: **18**

İKİNCİ ÜNVAN: **25**
İmam Hüseynin (ə) tərifəlayiq xüsusiyyətləri və gözəl əxlaqı barədə **25**
Şücaət, ibadət və hüquqa riayət sifətləri 25
Həya İmam Hüseynin (ə) aşkar sifətlərindəndir 26
Qəm-qüssə əhlinə Hüseynin (ə) qəlbinin yanması 27
Quran və hədislərdə İmam Hüseynin (ə) mədhi 28
Həzrət İmam Hüseyn (ə) möminlərin hüznünün səbəbidir 30

ÜÇÜNCÜ ÜNVAN: **33**
O həzrətin (ə) aşura günü ibadətinin xüsusiyyətləri barədə **33**
Aşura günü O həzrətin (ə) sifətləri, əxlaqı və ibadətlərinin xüsusiyyəti barədə 33
Vacib bədəni ibadətlər kitabı: 35
Aşura gecəsi O Həzrətin (ə) zahiri və batini təharəti 35
Aşura günü o Həzrətin (ə) namazının dörd qismi 35
Beş dəlilə əsasən dəfn olunması 37
Aşuranın gecəsi və gündüzü verilən bədən və malın zəkatı 37

İslamda cihad ilə İmam Hüseynin (ə) cihadının on üç imtiyazı 38
Müstəhəbbi ibadətlər kitabı 41
O Həzrətin (ə) Aşura günü su paylaması 41
Aşuranın gecəsi və günü O Həzrətin (ə) yemək paylaması 41
Aşuranın gecə və gündüzü O Həzrətin (ə) nəvaziş göstərməsi 42
Aşuranın gecəsi və günü düşməndən qorunmaq 42
Aşuranın gecə və gündüzü O Həzrətin (ə) təsəlli verməsi 43
Aşuranın gecə və gündüzü O Həzrətin (ə) xəstələrə baş çəkməsi 43
Aşura gecəsi və günü Quran tilavati və dualar 44
Qəlbi ibadətlər və gözəl sifətlər fəsli 45
O Həzrətin (ə) gözəl əxlaqı, mürüvvəti, qeyrəti, qənaəti və səbri 47
Həzrət Rəsulun (s) Hüseynə (ə) ağlaması 49
İmam Hüseyn (ə) ziddiyətli sifətlər məcmuəsidir 52
İki ziddiyətli təklif arasında cəm etmək 53

DÖRDÜNCÜ ÜNVAN 57
O Həzrətə (ə) bəxş edilən ilahi lütflər və onların on bir qismi barədə 57
Dördüncü ünvan: İmam Hüseynə (ə) bəxş edilən ilahi lütflərin xüsusiyyətləri və onların bir neçə qismi barədə 57
İkinci bölüm: Allah-taalanın İmam Hüseynə (ə) bəxş etdiyi nemətlərin xüsusiyyəti barədə 59
Üçüncü bölüm: İlahi söhbətlərdə İmam Hüseynə (ə) xas olan lütflər barədə 62
Dördüncü bölüm: Peyğəmbərin (s) qəlbinin Hüseynə (ə) bəxş edilməsi 63
Peyğəmbərin(s) ruhunun, qəlbinin, əqlinin Hüseynə (ə) bağışlanması 65
O Həzrətin (ə) bu ehtiramlara məxsus edilməsinin səbəbi 66
Beşinci bölüm: Ərşin İmam Hüseynə (ə) bəxş edilməsi 67
İmam Hüseynə (ə) ərşin fövqü bəxş edilmişdir 68
İmam Hüseyn (ə) ərşin tacı bəxş edilmişdir 68
Altıncı bölüm: "O Həzrətə (ə) cənnətin bəxş edilməsi" 68

Yeddinci bölüm: Bütün məxluqatdan o Həzrətə (ə) fəzilətin əta olunması 69
Hüseynə (ə) bəxş edilən yer fəsli 72
Hüseynə (ə) bəxş edilən hava və fəza fəsli 72
Hüseynə (ə) bəxş edilən su fəsli 73
Hüseyni (ə) sudan məhrum etdilər 74
Ağaclar fəsli 75
Musanın (ə) ağacı və İsanın (ə) xurma ağacı 75
Dənizlər fəsli 76
Dağlar fəsli 76
İnsanlar və cinlər fəsli 76
Vəhşi heyvanlar, quşlar, atlar və dəvələr fəsli 77
Dünya halətlərindən İmam Hüseynə (ə) məxsus edilməsi fəsli 78
Səkkizinci bölüm: Ana bətnində olan zamandan bəri qiyamətdən sonrayadək İmam Hüseynə (ə) məxsus edilən ehtiramlar 79
Kərbəla torpağının xüsusiyyətləri 82
Doqquzuncu bölüm: O Həzrətə (ə) qarşı edilən hörmətsizliklə eyni vaxtda göstərilən xüsusi ehtiramlar 85
Onuncu bölüm: O Həzrətin (ə) yeməyi ilə bağlı xüsusi ehtiramlar 87
On birinci bölüm: O Həzrətin (ə) libası ilə bağlı xüsusi ehtiramlar 88

BEŞİNCİ ÜNVAN 89
İmam Hüseynə (ə) bəxş edilən xüsusi Rəbbani lütfün bəyanında 89
Birinci müqqədimə: Bəndəçilik yaradılışın hədəfidir 90
İkinci müqəddimə: İnsan günahlara qərq olmuşdur 92
İmam Hüseynə (ə) məxsus olan xitabların yerinə yetirilməsi 94
Allah-taala tərəfindən insana olan xitablar 95
İmam Hüseynin (ə) ziyarəti, kəramətli bəndələrin mərtəbələri və 96
O Həzrətin (ə) qoşununun tərkibində şəhadət arzusu etmək 99
Hüseyni (ə) vasitələrdən biri o Həzrətə (ə) ağlamaqdır 102
Hüseyn (ə) əzadarlarının əcri və muzdu... 103

ALTINCI ÜNVAN 105
İmam Hüseynin (ə) xuşu halətinin və münacatının xüsusiyyətləri barədə 105
Birinci növ: Düşüncə səbəbindən ağlamaq 106
İkinci növ: Düşünmədən və biixtiyar ağlamaq 115
İkinci məqsəd: Ağlamağa bais olan xarici səbəblər 117
Məhərrəm ayının gəlişi hüznün və ağlamağın səbəbidir 120
Üçüncü məqsəd: O Həzrətə (ə) qəlbin yanmasının, qüssələnməyin və ağlamağın keyfiyyəti barədə 122
Dördüncü məqsəd: İmam Hüseynin (ə) müsibətini zikr etmək üçün qurulan məclislər barədə 124
Lövhün, Qələmin və Ərşın hüznlü olması 124
Üçüncü növ məclis: O Həzrətin (ə) əzadarlığı üçün qurulan məclislər 133
Viladətindən bir il sonra o Həzrətə (ə) qurulan əzadarlıq məclisləri 134
İmam Hüseynin (ə) viladətindən iki il sonra Peyğəmbərin (s) ona ağlaması 135
Peyğəmbər (s) son anlarında Hüseyni (ə) bağrına basdı 138
Əmir əl-möminin (ə) Fərat çayının kənarında Hüseynə (ə) ağladı 140
İmam Həsənin (ə) qardaşı Hüseynin (ə) əzasında mərsiyə deməsi 143
Mədinənin kənarında Ümmü Sələmənin mərsiyə deməsi 145
İmam Hüseynin (ə) Məscidul-haramda mərsiyə deməsi 147
Kərbəlaya daxil olmamışdan qabaq əzadarlıq məclisi 152
Aşura gecəsi əza məclisi və o Həzrətin (ə) xütbəsi 154
Axırıncı məclis Aşuranın sübhü olmuşdur 155
Dördüncü növ: Allahın Rəsulunun (s) o Həzrətə (ə) mərsiyə oxuması 155
Həzrət Zeynulabidinin (ə) Yezidin məclisində mərsiyə oxuması 159
Beşinci növ: Məhşər əhlinin o Həzrətin (ə) matəmində qurduğu məclislərdir 163
Beşinci məqsəd: İmam Hüseynin (ə) müsibətində mərsiyələri özünə şamil edən kitablar və səhifələr 163

Altıncı məqsəd: O Həzrətin (ə) əza məclislərinin xüsusiyyətləri 164
Yeddinci məqsəd: Ağlamağın xüsusiyyətləri barədə 166
Səkkizinci məqsəd: Ağlamağın fəzilətləri barədə 167
Doqquzuncu məqsəd: Əcr və savab baxımından ağlamağın xüsusiyyətləri 168
Onuncu məqsəd: Hüseynə (ə) ağlayan gözün xüsusiyyəti barədə 172
On birinci məqsəd: Məzlum İmama (ə) axıdılan göz yaşının xüsusiyyətləri barədə 173
On ikinci məqsəd: Deyilən məqsədlərin xətmi 173

YEDDİNCİ ÜNVAN 176
İmam Hüseynin (ə) ziyarətinin xüsusiyyətləri və onun on iki fəsli 176
Birinci fəsil: İmam Hüseynin (ə) ziyarətinin xüsusiyyətləri barədə 176
Ey iki göz, ağlayın 179
O Həzrətin (ə) zəvvarlarının fəzilətləri barədə 180
Mələklərin zəvvarlar üçün duaları 182
Mələklərin zəvvarın dəfn mərasimində iştirak etmələri 183
O Həzrətin (ə) ziyarəti günahların bağışlanmasına səbəb olar 184
Zəvvarın başqaları haqqında şəfaəti 185
İmam Hüseynin (ə) ziyarəti 30 qəbul olunmuş həccə bərabərdir 185
Allah-taala zəvvarı ümidsiz qaytarmır 186
O Həzrətin (ə) ziyarətinin qəribə fəzilətləri barədə 187
İkinci fəsil: O Həzrətin (ə) ziyarətinin xüsusi fəzilətləri barədə 189
Hüseyn ibn Əlinin (ə) zəvvarları haradadırlar 190
Həzrəti Zəhranın (ə) məhşərə daxil olması barədə 192
İmam Huseynin (ə) məhşərə daxil olması barədə 193
Üçüncü fəsil: Zəvvarın xüsusi sifətləri 195
Dördüncü fəsil: Zəvvara verilən xüsusi əcrlər 196
Beşinci fəsil: O Həzrətin (ə) ziyarəti üçün xüsusi hökmlər 199
Altıncı fəsil: Ziyarətin şəri şərtləri və ədəbləri barədə 200

Yeddinci fəsil: Ziyarəti tərk etməyin nəticələri 202
Səkkizinci fəsil: Məxsusi vaxtlarda ziyarət etmək 204
Doqquzuncu fəsil: O Həzrətin (ə) ziyarətinə nisbət İlahi lütflər..... 207
Onuncu fəsil: İmam Hüseynin (ə) ziyarətinə nisbət olunan xitablar..... 209
O Həzrətin (ə) ən böyük müsibəti 211
İmam Hüseynin (ə) Bəsrə əhlinə məktubu 213
İmam Hüseynin (ə) Kufə böyüklərinə məktubu..... 214
Hüccəti tamam etmək məqsədi ilə o Həzrətin (ə) düşmənlərdən kömək istəməsi 216
O Həzrətin (ə) mühasirə vaxtı kömək istəməsi..... 218
Yeddi dəfə "Ləbbeykə ya Hüseyn (ə)" demək o Həzrətin (ə) çağırışına cavab verməkdir 219
O Həzrətin (ə) öz halәti cəhətindən yeddi dəfə köməyə çağırışı 220
Birinci çağırışı: İki ləşkərin qarşı-qarşıya dayanması..... 220
İkinci çağırış: Döyüş zamanı olmuşdur 221
Üçüncü çağırış: Səhabələri ölən zaman olmuşdur 221
Dördüncü çağırış: Torpağ üstünə yıxılarkən olmuşdur..... 222
Beşinci çağırış: Yaralı bədənlə isti qumlar üstündə..... 223
Altıncı çağırış: Düşmənin onu öldürməyə hazırlaşması 223
Yeddinci çağırış: Şəhadət halında 223
Hər fərdin ölən, ... zaman yeddi dəfə köməyə çağırışı 224
O Həzrətin (ə) hər bir əzasının ziyarəti..... 226
On birinci fəsil: O Həzrətin (ə) şəhadətindən qabaq zəvvarının xüsusiyyəti 228
Şəhadətdən sonra o Həzrətin (ə) zəvvarları 230
On ikinci fəsil: Dəfndən sonra ziyarətə gələn zəvvarlar..... 232
Mütəvəkkil Abbasinin o Həzrətin (ə) haqqına qarşı cinayətləri..... 233
Mütəvəkkilin İmamın (ə) qəbrini xarab etməsinə israrlı olması 234

SƏKKİZİNCİ ÜNVAN..... 237
İmam Hüseynin (ə) Allahın kəlamına nisbət xüsusiyyətləri və bunların beş məqsədi..... 237
Birinci məqsəd: İmamın (ə) vücudu Allah kəlamının vücudu kimidir..... 237

İkinci məqsəd: O Həzrətin (ə) bütün sifətlərdə Quranla şərik olması 237
Quran Allahın samit (susan) kəlamıdır və Hüseyn (ə) Allahın natiq kəlamıdır 239
Şəfaət və düşmənçilik üçün Quranın 14 mənzili 241
İmam Hüseynin (ə) fəzilətlərinin 14 mənzili 242
O Həzrətin (ə) müsibətlərinin 14 mənzili 244
Üçüncü məqsəd: O Həzrətin (ə) mərsiyəsində nazil olan ayələr 246
O Həzrətin (ə) Mədinədən çıxması 248
Yavərlərinin az olmasının bəyanında 248
O Həzrətin (ə) şəhadətinin ümumi şəkildə bəyanı 249
Hüseyn (ə) "nəfsi mütməinnə"dir 249
Ayədə gələn "zülm" kəlməsi Hüseynin (ə) şəhadətidir 250
Qatillərdən intiqamın alınmasının bəyanında 252
Böyük qurbanlıqdan murad Hüseyndir (ə) 253
Dördüncü məqsəd: "Həmd" surəsinin xüsusiyyətlərinin bəyanında və "Bismillahın" Hüseynlə (ə) bağlılığı 254
Beşinci məqsəd: Quranın o Həzrətlə (ə) müştərək olan sifətləri 255
Altıncı məqsəd: Quranın tamam surələri o Həzrətin (ə) haqqındadır 256
Kərbəlada Hüseynin (ə) məxsusi meracı olmuşdur 258
Quranın müqəttəə hərifləri və Hüseynin (ə) tikə-tikə olan bədəni 259

DOQQUZUNCU ÜNVAN: 263
O Həzrətin (ə) Beytullahil-hərəmə nisbət xüsusiyyətləri və bunun dörd məqsədi 263
Birinci məqsəd: Həqiqi Beytullah o Həzrətin (ə) qəlbidir 263
İkinci məqsəd: Həqiqi Beytullah və zahiri Beytullaha təzim etmək 265
Kəbənin tamam fəzilətləri və kəramətləri Hüseynə (ə) məxsusdur 267
Kəbə islam rüknlərindən biri və Hüseyn (ə) iman rüknlərindən biridir 269

Kəbə İbrahimin (ə) məqamıdır və Hüseynin (ə) məqamı Peyğəmbərin (s) çiynidir 270
Allah-taala Kəbənin məqamı və Hüseyn (ə) üçün kəramətlər qərar vermişdir 271
O Həzrətin (ə) şərif cəsədinin kənarında ağ quş 272
Kəbə və Hüseyn (ə) mələklərin təvaf məhəllidirlər 273
Hüseyn (ə) Kəbədən şərəflidir 275
Kəbədə və Kərbəlada müsafirin namazı tamdır 276
Peyğəmbərlərin (ə) hamısı Kərbəla torpağını ziyarət ediblər 277
Hüseynin (ə) nuru Kəbənin nurundan çoxdur 279
Alma, heyva, nar və... hədisi 280
Kəbədə Əshabi fil və Kərbəlada Yezid dastanı 282
Kəbəyə baxmaq bağışlanmağa səbəb olar və Hüseynə (ə) baxmaq ən əzəmətli ibadətlərdəndir 283
Kəbə və Kərbəla hər ikisi danışdılar 284
Kəbənin və Kərbəlanın ətrafında bir neçə əzəmətli, möhtərəm məqam vardır 286
Kəbədə və Kərbəlada hər namaz min namazdan üstündür 288
Hz.Xəlil (ə) Məkkədə və İmam Hüseyn (ə) Kərbəlada əhl-əyalını tərk etməyə əmr olunmuşdular 289
Kəbə və Kərbəla heç vaxt təvafsız deyillər 291
Üçüncü məqsəd: O Həzrətin (ə) ziyarətinin savabı ilə Beytullahın həccinin savabının ölçülməsi 292
Hüseynin (ə) təlbiyə deməyi Kəlimullahın təlbiyə deməyi kimidir 296
Bu ümmətin fironu üçün beyət almaq! 297
Yuxuda da onun üçün qorxu hasil olmuşdur 298
Allahım, Sən şəriki olmayan Allahsan 299
İkinci məqsəd: O Həzrətə (ə) məxsus mələklərdən, Peyğəmbərlərdən (ə) və sair kişi və qadınlardan ibarət olan hacılar 303
Şəhid səhabələr həqiqi hacılardır 303
Vəhəbin anası və zövcəsi qadınlar arasında həqiqi Beytullahın ətrafında 304

ONUNCU ÜNVAN **306**
O Həzrətin (ə) mələklərə nisbət xüsusiyyətləri **306**
Onuncu ünvan: İmam Hüseynin (ə) mələklərlə bağlı xüsusiyyətləri barədə və burada bir neçə məqsəd vardır: 306
Birinci məqsəd: O Həzrətin (ə) mələklərə nisbət xüsusiyyətləri 306
Xidmətlə məşğul olan mələklər 308
İkinci məqsəd: O Həzrətin (ə) mələklərin sifətləri ilə vəsf olunması 311
Üçüncü məqsəd: O Həzrətin (ə) mələklərə bəxşişləri 314

ON BİRİNCİ ÜNVAN **315**
İmam Hüseynin (ə) əzəmətli Peyğəmbərlərə (ə) nisbət xüsusiyyətləri **315**
İkinci məqsəd: O Həzrətin (ə) tamam Peyğəmbərlərə (ə) nisbət xüsusiyyətləri 316
Üçüncü məqsəd: İmam Hüseynin (ə) Peyğəmbərlərin (ə) fəzilətlərinə nisbət xüsusiyyətləri 316
Hüseyn ibn Əlini (ə) yaxşı tanıyın 318
Adəmin (ə) ağlaması ilə Hüseynin (ə) ağlamasının müqayisəsi 320
İdris peyğəmbər (ə) və Hüseyn (ə) 322
Həzrət İbrahim (ə) və Hüseyn (ə) və mələklərin köməyindən imtina etmək 323
Xudahafiz indi də mən gedirəm 324
Yusif (ə) Misirin əzizinin və Hüseyn (ə) Yezidin sarayında 325
Dəvə sahibi olan Saleh (ə) və əhli-əyal sahibi olan Hüseyn (ə) 325
Hud (ə) və Hüseyn (ə) xüsusi təvəkkül sahibidirlər 326
Əyyub (ə) və Hüseyn (ə) Allahın ən xas bəndələridir 327
Həzrət Yəhyanın (ə) və İmam Hüseynin (ə) xüsusiyyətləri 328
Allah-taala tərəfindən Yəhyanın (ə) və Hüseynin (ə) viladət müjdəsi 328
İmam Hüseynin (ə) hər mənzildə enəndə və hərəkət edəndə Yəhyanı (ə) yad etməsi 329
Hüseynin (ə) müsibətinin Yəhyanın (ə) müsibətindən daha böyük olması 330

Musa (ə) kəlimullah idi, Hüseyn (ə) də kəlimullah idi 332
Musa (ə) əsa sahibidir və Hüseyn (ə) qılınc sahibidir 333
İsmayıl (ə) zəbihullah idi Hüseyn (ə) də zəbihullah idi 335
Davud (ə) növhəxan idi və Hüseyn (ə) də növhəxan idi 336
Süleyman (ə) əzəmətli mülk sahibidir və Hüseyn (ə) əzəmətli mülk sahibidir 336
İsa (ə) Məryəmin övladıdır və Hüseyn (ə) Zəhranın (ə) övladıdır 337
Üçüncü məqsəd: Hüseynə (ə) xatir Peyğəmbərlərə (ə) edilən bəxşişlər 338

ON İKİNCİ ÜNVAN 339
İmam Hüseynin (ə) ən üstün peyğəmbərə (s) nisbət xüsusiyyətləri 339
On ikinci ünvan: O Həzrətin (ə) məxluqatın əşrəfi olan Allahın Rəsuluna (s) nisbət xüsusiyyətləri 339
Xatəmul-ənbiyanın (s) fəzilətlərinin İmam Hüseyn (ə) üçün sabit olması 339

Ayətullah Cəfər Şüştəri

Xəsaisul-Hüseyniyyə

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMLİ
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 04.08.2014
Çapa imzalanmışdır: 21.10.2014
Nəşrin ölçüsü: 60x90
Fiziki çap vərəqi: 22
Sifariş: 150/14. Sayı: 500 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com